NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ-1967

# ELMİ ƏSƏRLƏR

İSSN 2224-0829

## İCTİMAİ ELMLƏR SERİYASI

# SCIENTIFIC WORKS

## SERIES OF SOCİAL SCIENCES

# НАУЧНЫЕ ТРУДЫ

## СЕРИЯ СОЦИАЛЬНЫХ НАУК

№ 6 (71)



NAXÇIVAN, NDU, "QEYRƏT"-2015

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**

# TARİX ELMLƏRİ

**ЗЯЩМЯТ ШАЩВЕРДИЙЕВ**
**İSMAYIL ZEYNALOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:572.9**

## ГАЙЫДЫШДАН ГУРТУЛУША ДОЬРУ ЙОЛ: АЗЯРБАЙЖАН ДЮВЛЯТ ГУРУЖУЛУЬУНДА ЩЕЙДЯР ЯЛИЙЕВИН САВИТЛИК ВЯ СЦЛЩ СТРАТЕЭИЙАСЫ

*"Əgər Respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söz gedilə bilməz".*

**HEYDƏR ƏLİYEV**
*Azərbaycan xalqının ümummilli lideri*

*«Азярбайжан Республикасынын гаршысында чох бюйцк вя аьыр вязифяляр дурур, мцстягиллийи, суверенлийи тямин етмяк цчцн республиканын ярази бцтювлцйц тямин олунмалыдыр. Ермянистанла апарылан мцщарибя гуртармалыдыр. Сцлщ йаранмалыды».*

**HEYDƏR ƏLİYEV**
*Azərbaycan xalqının ümummilli lideri*

**Açar sözlər:** *Heydər Əliyev, ümummilli lider, sülh və sabitlik strategiyası, müstəqilliyi və suverenliyi uğrunda mübarizə, daxili siyasət, kənd təsərrüfatı islahatları, dünya neft müqaviləsi.*

**Key words:** *Heydar Aliyev, national leader, the strategy of неаже анд стабилитй, биэщт фор индепенденже анд совереэнтй, интернал politиcc, agricultural reformc, the woped contract.*

**Ключевые слова:** *Гейдар Алиев, общенациональный лидер, стратегия мира и стабильности, борьба за независимость и суверунитет, внутренняя политика, сельско-хозяйственные реформы, нефтяной контракт мира.*

Allah-taala insanı yaradır, amma ona bu dünyada necə yaşamağı və özünə necə yol seçməyi onların öz ixtiyarına buraxır. Beşikdən məzaradək olan bu yaşayışı ömür yoluna çevrilir. Bu yolun başlanğıcı olduğu kimi sonu da olur. Bu yol isə ölümə qovuşmaq yoludur. Ölümə çatan yol isə milyonların yoludur.

Ölümsüzlüyə qovuşan yol tək-tək insanların taleyində, qismətindədir ki, bu insanlar da ömürlərini xalqı üçün şam kimi əridənlərdir. Onlar həyatda olmasalar da Tanrı da, zaman da,

insanlar da belələrini qiymətləndirirlər. Görkəmli siyasi və dövlət xadimi, Yeni Azərbaycan Partiyasının qurucusu olan Heydər Əlirza oğlu Əliyev də məhz belələrindəndir.

Heydər Əliyev özünün sülh və sabitlik strategiyasına 1990-cı ilin iyul ayının 22-də Moskvadan gələrək Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda Azadlıq meydanında xalqla birlikdə keçirdiyi görüş zamanından başlamış oldu. Keçirilən mitinqdə çıxış edən Heydər Əliyev qeyd etdi ki, "Azərbaycan xalqı respublikanın ərazi bütövlüyü, suverenliyi və dövlət müstəqilliyi, Azad Azərbaycan uğrunda mübarizə aparacaqdır".

Onun keçirdiyi bu görüş və etdiyi çıxış Azərbaycan xalqı üçün nə qədər gərəkli olduğunu bir daha nümayiş etdirdi. Artıq bu dövrdə Azərbaycanın digər bölgələri kimi, ağır günlər keçirən və Ermənistanla 300 km sərhəddi olan Naxçıvan Muxtar Respublikasının bu dövrü olduqca gərgin və ziddiyətli bir dövr idi. Qarabağ problemi ətrafında yayılan dalğanın zərbə qüvvəsinə məruz qalması, dincliyi əlindən alınan və səriştəsiz idarəçilik şəraitində yaşayan, Azərbaycandan ayrı düşən və kor bağırsaq hesab edilən Naxçıvan, "taleyin ümidinə buraxılmış tənha bir ada"-nı xatırladırdı 1991-ci il sentyabr ayının 3-də Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi ilə vəziyyət kökündən dəyişmiş oldu. O, dərhal sosial-iqtisadi və siyasi dəyişikliklər həyata keçirməklə sülh və sabitlik strategiyasının həyata keçirilməsində uğurlar qazanmağa nail oldu və bundan sonra da bu məsələyə daha çox diqqət verilməyə başlanıldı. Heydər Əliyev tezliklə dövlət quruculuğuna nail olmaq üçün Naxçıvanda dövlət rəmzlərinin bərpası istiqamətində işlər həyata keçirdi. O, ölkədə sabitliyin yaradılmasında dərhal Yeni Azərbaycan Partiyasının təsis etməyi lazim bildi. Onun rəhbərliyi ilə yaradılan Yeni Azərbaycan Partiyası ölkədə sabitliyin yaradılmasında xüsusi rol oynadı. Bu partiyanın yaradılması Azərbaycanda hər bir vətəndaşın Heydər Əliyev Fenomeninin qəbul edilməsi ilə nəticələndi.

Heydər Əliyev zəkasından güc alan bu partiya dövrünün ən mütərəqqi siyasi qüvvəsi kimi nümunəvi inkişaf xətti götürərək, Azərbaycanın dövlət quruculuğunda mühüm rol oynadı. Qısa zamanda YAP xalq kütləsini özündə birləşdirdi. Partiyanın avanqard qüvvəyə çevrilməsi Heydər Əliyevə müstəqil dövlətçilik siyasətini həyata keçirməyə imkan verdi. Məhz bu mənada Naxçıvandan başlanan bu iş öz nəticəsini verdi. Belə ki, Heydər Əliyevin təkidi ilə sovet silahlı qüvvələrinin hərbi sursatlarının dərhal təhvil verilməsinə və sovet ordusunun Naxçıvandan çıxarılmasına nail olundu. Blokada şəraitində olan Naxçıvanın tezliklə iqtisadi-siyasi vəziyyətini yaxşılaşdırmaq üçün qonşu İran və Türkiyə ilə əlaqələr yaradılıb genişləndirildi, ordu quruculuğuna başlanıldı, daxili sabitlik bərpa olundu. Bu zaman Azərbaycanın mərkəzi olan Bakıda və digər bölgələrdə isə vəziyyət olduqca gərginləşmiş, ermənilər tərəfindən işğalçılıq siyasəti daha da geniş miqyas almışdı. Bununla yanaşı, ölkə daxilində hakimiyyət uğrunda gedən mübarizə, Azərbaycanın parçalanmasına və xalqın qanı bahasına əldə edilmiş müstəqilliyə son qoyulmasına təhlükə yaranmışdı.

Göründüyü kimi, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi (1969-1982-ci illər) 1-ci dövrlə 2-ci dövr (1993-cü il iyun ayının 15-i) arasındakı illər, sözün əsl mənasında tariximizin hərc-mərclik dövrü, ağır tənəzzül ili kimi tarixə daxil olmuşdur. Bu məsələ hər şeydən əvvəl uğursuz Qarabağ müharibəsinin aparılması, hakimiyyəti ələ keçirmək xatirinə torpaqlarımızın düşmənə təslim edilməsi, xaricdəki düşmənlərimizə sədaqət göstərmək, hətta belə xalqını dardan xilas etmək üçün Vətənə qayıtmış böyük dövlət xadimi Heydər Əliyevin hakimiyyətə yaxın buraxılmaması, eləcə də onu Naxçıvanda da hakimiyyyətdən götürmək cəhdi kimi rüsvayçılıq təşəbbüslərin həyata keçirilməsi prosesləri özünü daha qabarıq şəkildə göstərirdi. Burada belə bir sual ortaya çıxır ki, əgər o zaman Heydər Əliyev Azərbaycanda hakimiyyətə gətirilsəydi, xalqımızın başına bu müsibətlər gələrdimi?

Bu suala Heydər Əliyevin Naxçıvandakı hakimiyyəti dövründə həyata keçirməyə başladığı milli dövlətçilik ənənələrimizin dirçəldilməsi, muxtar respublikanın adından "sovet", "sosialist" sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ildə qəbul edilmiş üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi yenidən qəbul olunması, 1990-cı ilin 19-20 Yanvar Faciəsinə siyasi qiymət verilməsi, Naxçıvan əhalisinin SSRİ-nin saxlanılması barədə referendumda iştirakdan imtina etməsinin bilavasitə təşəbbüskarı olması, muxtar respublika ərazisində Kommunist Partiyası yerli orqanlarının fəaliyyətinin dayandırılması, 31 Dekabr

gününün Dünya azərbaycanlılarının həmrəylik günü kimi elan olunması, nəhayət, Azərbaycandan ayrı düşmüş Naxçıvanda, həm də amansız hərbi iqtisadi blokada şəraitində özünün sülh və sabitlik strategiyasını həyata keçirməklə vətən torpağını düşməndən qoruyub saxlanması kimi həyata keçirdiyi tədbirlər daha aydın şəkildə cavab verir.

Amma Azərbaycanın mərkəzi Bakıda və digər bölgələrdə yalnız hakimiyyətsizlik, özbaşınalıq, hərc-mərclik sürdüyü bir vaxtda, xalq Azərbaycan xalqının yeganə qurtuluş çırağı olan, xalqını ağır vəziyyətdən qurtarmaq üçün Moskvadan öz vətəninə qayıdan ulu öndər Heydər Əliyevə üzünü tutdu. Beləliklə, dünyanın bu böyük siyasət adamı xalqın təkidi və tələbi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə gətirildi. 1993-cü ilin iyun günlərində, daha doğrusu, iyun ayının 15-də hakimiyyətə qayıdışı ilə Azərbaycan qurtuluşunda həlledici dönüş baş verdi.

Bu müdrik siyasətçi qisa zaman kəsiyində ölkədə baş verən vətəndaş müharibəsi təhlükəsini aradan qaldırmağa, xarici və daxili düşmənlərin Azərbaycanı parçalayıb yox etmək, dövlət müstəqilliyimizi aradan qaldırmaq planlarını puça çıxartmağa başladı. Dövlətimizin müqəddəratının idarəçilik sükanı dahi dövlət adamının əlinə keçdi. Bununla da qurtuluş savaşından qələbəyə doğru dönüş başlandı.

Xalqımızın ümumilli lideri Heydər Əliyev 1993-cü ilin iyun günlərində xalqımızın tələbi ilə Azərbaycana ikinci dəfə hakimiyyətə gəlişindən sonra dərhal 1991-ci il oktyabr ayının 18-də "Müstəqillik Haqqında Konstitusiya Aktı" -nın qəbul olunmasından, 1993-cü ilin iyun günlərinədək davam edən dövrü dərin və hərtərəfli elmi təhlil süzgəcindən keçirib, dərin təhlillər apararaq, istər daxili, istərsə də xarici siyasətdə, sülh və sabitlik strategiyasının həyata keçirilməsinə daha çox önəm verilməsini lazım bilmişdir. Azərbaycan vətəndaş müharibəsi ərəfəsində, qanımız bahasına əldə etdiyimiz müstəqilliyimiz isə təhlükə altında idi. Xalqın təkidi ilə Heydər Əliyevin Bakıya dəvəti və qayıdışı yaranmış bu ağır vəziyyətdən çıxmaq üçün yol açdı. Ən əvvəl onun müdrik siyasəti ilə qardaş qırğınının qarşısı alındı. Əllərdə oyuncağa çevrilmiş odlu silahlar yığıldı. İnsanların bir-birinə yad münasibətlərinə son qoyuldu. Soyğunçuluq, talançılıq halları dayandırıldı. Cinayətkarlar məsuliyyətə cəlb olundu. Xarici və daxili düşmənlərin Azərbaycanı parçalayıb müstəqil dövlətimizi yox etmək planları yox oldu. Hüquqi dövlətin əsası qoyuldu. Bütün bunlara nail olmaq ucun isə böyük zəka və tükənməz enerji sərf etmək lazım gəlirdi. Heydər Əliyevin ölkəmizdə rəhbərliyə gəlməsi ilə xalqımızın tarixində yeni dövr-sülh və sabitlik dövrü başlandı. Bu zaman ölkə daxilində və beynəlxalq aləmdə gedən proseslər, o cümlədən həm beynəlxalq havadarların gücünə arxalanaraq torpaqlarımıza yiyələnmək istəyən məkrli qonşu Ermənistan dövlətinin siyasəti həm də bu zaman baş verən ümumdünya hadisələri sülh strategiyasinin vacibliyini ortaya qoyurdu, əks təqdirdə isə xalqın qanı bahasına əldə olunmuş Azərbaycanın müstəqilliyi məhv ola bilərdi.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra çevik və düşünülmüş tədbirlərin həyata keçirilməsi ilə Azərbaycanın qurtuluşu başlandı. Azərbaycanın dövlət başçısının düşüncə qüdrətinə, zəngin idarəçilik təcrübəsinə və dünyadakı siyasi nüfuzuna bələd olan xaricdəki düşmənlərimiz və onların ölkəmiz daxilindəki əlaltıları dərhal dövlət çevrilişi yolunu tutdular. Onların əsas məqsədləri Azərbaycanı güclü şəxsiyyətdən məhrum etmək və bu ölkəni biryolluq parçalayıb yox etmək, dağıtmaqdan ibarət idi.

Lakin xalqımızın ümummilli lideri Heydər Əliyev öz andına sadiq qalaraq, xalqın azadlığı naminə heç bir həyati təhlükədən qorxmayaraq, birbaşa dövlətçiliyimizə, müstəqilliyimizə, ərazi bütövlüyümüzə, xalqımızın azadlığına qarşı çevrilmiş 1993-cü il iyun ayında Gəncə qiyamında Surət Hüseynovun, "Talış-Muğan respublikasını" yaratmaq istiqamətində səy göstərən Əlikram Hümmətovun, 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında Rövşən Cavadov qardaşlarının həyata keçirmək istədiyi dövlət çevrilişləri və Azərbaycanı parçalamaq cəhdlərini, eləcə də sonrakı terror hadisələrinin qarşısını çox məharətlə almış oldu.

O, Azərbaycanı bir siyasi varlıq kimi, Qafqazın xəritəsindən silinmək təhlükəsindən xilas etdi. Ümummilli lider daxili sabitliyin yaradılması üçün bir sıra islahatlar, o cümlədən torpaq islahatının keçirilməsinə də xüsusi önəm verdi. 1994-cü ildə başlanıb 2000-ci ildə qurtaran torpaq islahatı nəticələrini Naxçıvan Muxtar Respublikasında daha aydın görmək olar. Belə ki, həmin illərdə muxtar respublika kəndlərində 239 min nəfərdən çox insana torpaq payı verildi. 42 min 44 hektar

torpaq bu insanlar arasında paylandı. Ümumən götürüldükdə 205 kənddə 132 kolxoz və sovxoz ləğv edildi. Heydər Əliyev daxili sabitliyi bərpa etməklə yanaşı, xarici təhlükələri aradan qaldırmaq üçün sülh strategiyasını da diqqət mərkəzində saxlayırdı. Bu məsələni dəqiqliklə təhlil edən Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsində düzgün mövqe seçərək müdrik bir strateq kimi real vəziyyətlə hesablaşmalı oldu. O, məkrli düşmənlərimizin və onların beynəlxalq havadarlarının gücünü, planlarını nəzərə alaraq öz şəxsi beynəlxalq nüfuzundan istifadə etməklə 1994-cü ilin may ayının 12-də atəşkəs rejiminə nail oldu. Bu atəşkəs rejiminin əldə edilməsi böyük əhəmiyyətə malik idi. Çünki atəşkəs dövründə ən əvvəl Heydər Əliyev dinc tənəffüs əldə etməyə, daxili sabitliyə nail olmağa imkan əldə etdi, həm də Azərbaycan xalqının haqq səsini dünyaya çatdırmağa imkan qazandırdı. Eyni zamanda, sülh və əmin-amanlıq çərçivəsini genişləndirmək məqsədilə Azərbaycanı türk dünyasından təcrid olunmuş vəziyyətdən çıxartdı. Bu məqsəd üçün qardaş Türkiyə ilə yanaşı bizimlə birlikdə azadlığa çıxmış qardaş Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanla ənənəvi dostluq münasibətlərimiz bərpa olundu.

Beləliklə, 1993-cü ildən başlayaraq, son dərəcədə qısa bir dövr ərzində Azərbaycanın beynəlxalq münasibətlər sisteminə qoşulmasına başlanıldı. Azərbaycan Respublikası dünyanın 130-dan çox ölkəsi tərəfindən tanınmış, Birləşmiş Millətlər Təşkilatında, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulmuş, eyni zamanda dünyanın onlarca qeyri-hökumət təşkilatlarında qəti olaraq öz yerini möhkəmlətmiş, sülh və təhlükəsizlik uğrunda proseslərinə qoşularaq sülh və sabitliyin yaradılmasında həlledici işlərə nail oldu.

Dövlətimizin siyasəti ilə bağlı, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən prespektivlərə əsaslanan xətlə inkişaf etməyə başladı. Ulu öndər Heydər Əliyevin xarici siyasət məsələlərinə xüsusi əhəmiyyət verməsi, beynəlxalq miqyasda, hətta bədxahlarımız tərəfindən də etiraf edilən uğurlu və cəsarətli addımlar oldu. Prezident Heydər Əliyevin milli məqsədlər naminə ən nüfuzlu tribunlardan bacarıqla və məharətlə istifadə etməsi, Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından çox əhəmiyyətli idi. Bu illərdə milli ordu quruculuğunda da ciddi dəyişikliklər başlandı. Təcavüzkar silahlı qüvvələrinin Azərbaycan ərazisindəki azğınlıqlarının qarşısı alındı, qəddar düşmənə əks zərbələr endirildi, eləcə də ABŞ və Qərbi Avropa ölkələri ilə müxtəlif istiqamətli müqavilələr bağlandı. 1994-cü ilin sentyabr ayının 20-də xarici dövlətlərin iri neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlanan neft müqaviləsinin bağlanması, Bakı-Ceyhan neft ixracı kəmərinin və Bakı-Ərzurum qaz kəmərinin inşası, şimaldan və cənubdan məngənəyə salıb sıxan, onun xarici ölkələrlə ənənəvi əlaqələrini kəsən qüvvələrə qarşı Şərq-Qərb dəhlizini açmış oldu. Heydər Əliyev bütün bu həyata keçirdiyi tədbirlərlə həm də Azərbaycanın enerji təhlükəsizliyini də təmin etmiş oldu. Həmçinin bu dövrdə Böyük İpək Yolunun dirçəldilməsi təkcə Azərbaycan üçün deyil, eləcə də bütün türk dünyasının dirçəlişində, onun iqtisadi, mənəvi oyanışda misilsiz rol oynaması artıq göz qabağındadır. Ona görə də dünya siyasətçiləri bunu yüksək qiymətləndirirdilər.

Bütün bunlar onu göstərir ki, Heydər Əliyevin hakimiyyətə gəlişi ilə keçirdiyi sülh və sabitlik strategiyası, dövlətimizin möhkəmlənməsi və əbədi yaşaması üçün ən vacib və gərəkli məsələlərdən biri olmuşdur. Cəsarətlə demək olar ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin gərgin əməyi nəticəsində 1998-ci ilin sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə Bakıda "Gülüstan" sarayında keçirilmiş beynəlxalq konfrans Azərbaycan siyasət tarixinin ən böyük hadisələrindən biri olmuşdur.

Qeyd etmək lazımdır ki, Heydər Əliyevin şəxsiyyəti hələ axıradək öyrənilməmişdir. Bu nadir dühanın siyasət aləmini bitib-tükənməyən, sahələri görünməyən ümmana bənzətmək olar. Misilsiz zəkaya malik dövlət xadimi kimi ən nadir, ən mürəkkəb, hətta çıxılmaz hesab olunan vəziyyətlərdən vətən üçün, doğma xalqından ötrü heç kəsin gözləmədiyi ən yaxşı çıxış yolu tapmaq bacarığı Allahın ona bəxş etdiyi vergi idi. Bütün bunlar hamısı bir keyfiyyət altında birləşir. Heydər Əliyev əsl azərbaycanlıdır. O, bizim üçün sönməyən, işığı və nuru azalmayan əbədi bir günəşdir.

Ulu öndər Heydər Əliyev 2003-cü il dekabrın 12-də haqq dünyasını dəyişsə də onun həyata keçirdiyi sülh və sabitlik strategiyasının nəticəsidir ki, bu gün Azərbaycanda xalqımız sabitlik şəraitində yaşayır və dövlətimizin iqtisadi, həm də siyasi cəhətdən möhkəmlənməsi reallığa

çevrilmişdir. Məhz bu mənada, cəsarətlə demək olar ki, Azərbaycanın müstəqilliyi Heydər Əliyev siyasətinin təntənəsidir və Heydər Əliyevin siyasi kursu hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən qorunub və inamla inkişaf etdirilir.

## ƏDƏBİYYAT


1) Heydər Əliyev. Müstəqil Azərbaycan dövlətinin qurucusu, Bakı,Azərnəşr, 2003, səh.637
2) Murtuz Ələsgərov. Qurtuluş, Bakı, 1998, səh.462
3) Yaqub Mahmudov. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı,2002, səh.322
4) Ramiz Mehdiyev. Dünyanı heyran qoyan insan. Bakı, 2004, Azərnəşr, səh.374
5) Şahlar Ələsgərov. Heydər Əliyev Fenomeni haqqında düşüncələr. Bakı, Azərnəşr, 2003, səh.637


## АБЖТРАСТ


**Защмат Сщащвердийев**
**Ысмаил Зейналов**


**Тще вай фром ретурн то салватион**
**Тще стабилитй анд пеаже стратеэй оф Щейдар Алийев**
**ин естаблисщмент оф Азербаиъани статещоод**


Тще артижле деалс wитщ тще фиэщт оф тще национал лидер интепендент Азербаиъан беэиннинэ фром 1990 wщен тще Азербаиъани пеопле wас ин щард сондитон ит ис эраундед ин тще артижле тщат ретурнинэ то щис соутрй форм Мосжов он Зине 22, 1990 ще сеаржщед фор тще вайс оф эинэ аут оф тще арисинэ эраве сондитон тоэетщер витщ щис пеопле.

Тще аутщорs оф тще артижле фожусес он тще идеа фщат тще оппосинэ форжес протестед аэаинст Щейдар Алийев'с арривал ин щис жоунтрй вщижщ вас ин неед оф тще леадер режоэнизед бй тще ворлд вщо вас абле то фрее щис пеопле фром тщис десперате ситуатион. Ин спите оф тще аттемтс оф тщесе фалсе политижианс Щейдар Алийев вщо вас ловед эреатлй бй щис пеапле арривед ин Накщжщиват wщиск wас ин бложкаде бй тще Армениан асупантс ин ордер то орэанизе щис пеоплес' фиэщт фор совереиэнтй анд индеренденсе.

Тще артижле алсо деалс витщ тщеележтион оф тще политижиан оф эениус то тще пост оф тще жщаирман оф тще супреме Ассемблй оф Накщжщиван Аутономоус Республиж бй тще урэент регуест оф тще пеопле анд щис фиэщт фор тще естаблисщмент оф ан интепендент стате реализатион оф щис интернал анд фореиэн полижй, тщанкс то мщижщ тще пеопле эот стабилитй анд индепенденжэ вщисщ провидед тще футуре совереиэнтй оф Азербаиъан.

Ин тще артижле тще сожиал-политижал ситуатион оф тще жоунтрй ис елужидатед ин детаил wщен ас тще ресулт оф тще ресулт жиж тивитй оф инскиллуе леадер оф тщат тиме он ъуне 1993 жонпонтатион реиэнед ин Йанъа wщижщ wас леадинэ тще пеопле диссидент анд живил wар. Ин сужщ ситуатион тще пеопле щад то тунн то Щейдар Алийев ас тще савиоур оф щис пеопле. Тщус тще универсаллй режоэнизед леадер Цас инвитед бром Накщжщиван то Баки ин ордер то стоп тще wар Тщус щис сежонд ретурн то поwер жонтрибутед то тще сужжессбул солутион оф витал стате анд живил проблемс.

Тще аутщорs жомес то жонжлусионт тщат тще ехистенже оф индепендент Азербаиъан ис тще триумпщ оф тще детерминатион оф Щейдар Алийев, ас тще эреат леадер оф тще wорлд левел.


## РЕЗЮМЕ


**Захмат Шахвердиев**
**Исмаил Зейналов**

**Путь от возвращения к спасению: стратегия стабильности и мира гейдара алиева в построении азербайджанского государства**

В статье рассматривается проблема борьбы общенационального лидера азербайджанского народа Гейдара Алирза оглы Алиева за свободный Азербайджан, начатая с 1990 года, когда наш народ оказался в тяжелом положении. В статье обосновывается мысль, что, возвратившись на родину из Москвы 22 июня 1990 года, он вместе со своим народом искал пути выхода из создавшегося трудного положения.

Авторы статьи концентрируют мысль на том, что оппозиционные силы выступали против приезда Гейдара Алиева на родину, которая сильна нуждалась в всемирно признанном лидере, который сумел бы вывести народ из тупикового положения. Несмотря на все эти недоброжелательные попытки лжеполитиков, любимец народа прибыл в родной Нахчыван, который находился в блокадном положении со стороны армянских аккупантов, чтобы организовать борьбу народа за суверенитет и самостоятельное существование.

В статье обстоятельно речь идет об избрании гениального политика на пост Председателя Верховного Меджлиса Нахчыванской Автономной Республики по настоянию и требованию народа и его борьбе за построение самостоятельного государства, осуществление дальновидной внутренней и внешней политики, благодаря которым государство и народ приобрели стабильность и вышли на путь самостоятельности, которые обеспечили будущий суверенитет Азербайджана.

В статье также подробно освещается общественно-политическое положение страны, когда в результате неумелых действий тогдашних руководителей в июне 1993 года в городе Гяндже воцарило противостояние, ведущее страну и народ на раскол и гражданскую войну, в таком положении народ вынужден был обратиться к Гейдару Алиеву, как спасителю своего народа. Так общепризнанный лидер был приглашен из Нахчывана в Баку с целью предотратить и приостановить раскол страны и надвигающуюся гражданскую войну. Тем самым второе возвращение его к власти способствовало успешному решению насущных государственных и гражданских проблем.

В статье находят свое отражение и заключение с Арменией договора мира 12 мая 1994 года, заложившего прочную основу для строительства converеннего и самостоятельного Азербайджана, развитие агропромышленного комплекса страны, проведения сельско-хозяйственных реформ, а также подписания нефтяного контракта мира, ставших фундаментом стратегии мира и стабильности.

Авторы приходят к логическому заключению, что существование независимого Азербайджана – торжество решительности Гейдара Алиева, как видного политика на мировом уровне. Его политика, направленная на стабильность и на мир страны и мира, способствовало на освобождение не только Азербайджана, но и всего Южного Кавказа.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

**SEVİNC ABBASOVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:930**

# AZƏRBAYCAN RESPUBLİKASINDA QADIN QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ YARANMASI VƏ FƏALİYYƏTİ TARİXİNDƏN (1991-1997-Cİ İLLƏR)

**Açar sözlər:** *siyasi transformasiyalar, vətəndaş cəmiyyəti, Üçüncü sektor, Azərbaycanda qadın qeyri-hökumət təşkilatları, qadınların ictimai-siyasi fəallığı*

**Key words:** *political transformations, civil society, the third sector, non-governmental women's organizations in Azerbaijan, socio-political activity of women*

**Ключевые слова:** *политические трансформации, гражданское общество, Третий сектор, неправительственные женские организации в Азербайджане, общественно-политическая активность женщин*

Ulu Öndər Heydər Əliyev cənabları tərəfindən başladılan və onun layiqli varisi, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən demokratik, hüquqi dövlət quruculuğu prosesi gedişində nəinki yeni tip Azərbaycan dövlətçiliyi təşəkkül tapmış, eyni zamanda, ictimai münasibətlər sferasında mahiyyət xarakterli dəyişikliklər baş vermişdir. Faktiki olaraq Azərbaycanda məzmun etibarı ilə yeni dövlət-cəmiyyət münasibətləri sistemi formalaşmışdır. Bu münasibətlərin müxtəlif aspektlərinin, eləcə də cəmiyyətimizin önəmli kəsimini təşkil edən qadınların ictimai-siyasi fəallığının öyrənilməsi, qadın qeyri-hökumət təşkilatlarının meydana gəlməsinin tarixi və siyasi şərtlərinin araşdırılması böyük elmi-praktik əhəmiyyət kəsb edir.

İlk növbədə qeyd edərdik ki, Azərbaycanda ictimai sektorun inkişaf tarixinin erkən mərhələsi milli azadlıq mübarizəsi dönəminə və dövlət müstəqilliyimizin ilk illərinə təsadüf edirdi. Bu dövr vətəndaş cəmiyyəti, Azərbaycanın demokratikləşmə və tərəqqiyə doğru keçidi istiqamətində mühüm tarixi dərslərin yaşandığı bir dövr idi. 1988-1993-cü illərdə, əlalxüsus da 1991-ci ildə respublikamız öz dövlət müstəqilliyini elan etdikdən sonra ölkəmizdə yaradılmış 198 ictimai birlik əsasən cəmiyyətdə dövlət müstəqilliyi ideyasının və milli istiqlal mübarizəsinin güclənməsi, qaçqın və məcburi köçkünlərin yerləşdirilməsi, onların gündəlik yaşayış problemlərinin həlli, ayrı-ayrı bölgələrimizdə humanitar və siyasi böhranın aradan qaldırılması, hüquq müdafiəsi və informasiya yayımı sahəsində boşluğun doldurulması kimi fəaliyyət istiqamətlərini əhatə edir və bu sahələr üzrə ixtisaslaşmağa çalışırdılar. 1990-cı illərin əvvəllərində QHT-lərin fəaliyyətinin hüquqi əsasını təmin etməli olan bəzi normativ aktlar, o cümlədən 10 noyabr 1992-ci ildə "İctimai Birliklər haqqında" qanun qəbul edildi.

İlk qadın qeyri-hökumət təşkilatları da müstəqillik uğrunda mübarizə gedişində meydana gəlmişdi. Yeri gəlmişkən, 1993-cü ilin ortalarına doğru ölkəmizdə rəsmən qeydiyyatdan keçmiş 8 qadın təşkilatı fəaliyyət göstərirdi [**1**, 10].

Azərbaycanın ən yeni tarixinin ilk qadın qeyri-hökumət təşkilatı 1989-cu ildə xalq hərəkatının vüsət aldığı bir şəraitdə meydana çıxmış Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti idi. İlk vaxtlar qeyri-formal qurum kimi fəaliyyət göstərən Cəmiyyət 1991-ci ilin sentyabr ayının 11-də Nazirlər Kabinetində birinci dəfə, 1993-cü ilin fevralın 3-də Ədliyyə Nazirliyi tərəfindən təkrar qeydiyyatdan keçdi [**2**, 19].

Sözügedən cəmiyyətin qurucusu və ilk sədri tanınmış ədəbiyyatşünas və tərcüməçi, Azərbaycanda xalq hərəkatının fəal iştirakçısı Dilarə Əliyeva olmuşdu. 1991-ci ilin aprelin 19-da onun faciəli surətdə həlak olmasından sonra bir müddət bu quruma Xanım Xəlilova rəhbərlik etmişdi. 1993-cü ildən etibarən isə Cəmiyyətin başında dəyişməz olaraq Novella Cəfəroğlu durur. 1990-cı illərin əvvəllərində bu təşkilatın fəaliyyət göstərdiyi ictimai-siyasi və sosial şərait haqqında Novella xanım sonralar belə xarakterizə etmişdir: "O illərdə fəaliyyətimizin əsas hissəsi Türkiyədən gələn humanitar yardımları Xocalıdan, Qarabağdan gələnlərə paylamaq, Ermənistandan, dədə-baba yurdlarından qovulan soydaşlarımızın qəbulu, onlara burada bütün məsələlərdə dəstək göstərilməsi istiqamətində idi. Bundan başqa, fəaliyyətimizin bir hissəsini 1990-cı ildə Bakıda törədilmiş müdhiş 20 Yanvar qırğınının qurbanları və onların ailələri ilə aparılan iş təşkil edirdi... O zaman bir çox beynəlxalq təşkilatlardan məktublar gəlirdi ki, guya Bakıda ermənilərə qarşı haqsızlıqlar edilib. Buna cavab olaraq Cəmiyyət 3000-dən artıq məktub hazırlayaraq, bütün dünyada fəaliyyət göstərən beynəlxalq təşkilatlara, eyni zamanda dünya dövlətlərinə göndərib" [**3**, 32, 51].

Cəmiyyət Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə yaxından iştirak etmişdi. 1991-ci ilin oktyabrın 18-də ilk dəfə Milli Məclis binasına Azərbaycanın üçrəngli bayrağını cəmiyyətin üzvü Məlahət Nəsibova sancmışdı. 1992-ci ildə Cəmiyyət ordudakı ruh yüksəkliyini artırmaq, vətənpərvərlik hissini yüksəltmək məqsədilə qadın batalyonu yaratmışdı. Cəmiyyətin Məlahət Nəsibova, Qaratel Hacımahmudova, Gülbar Heydərova. Sədaqət Rəcəbova kimi üzvləri vətən torpaqlarının bölünməzliyi uğrunda gedən döyüşlərdə şəhid olmuşdular [**3**, 52-53].

1990-cı illərin əvvəllərindən Azərbaycanın regionlarında təşkilatın şöbələri yaradılırdı; artıq əsrin sonuna doğru 38 rayonda cəmiyyətin şöbəsi fəaliyyət göstərirdi, üzvlərin sayı isə 20 minə çatmışdı [**2**, 19]. Regionlarda şöbələrdə rəhbərliyə qadınlar irəli çəkilirdi. Faktiki olaraq bu cəmiyyət Azərbaycanda qadın aktivliyinin yeni sosial şərtlər daxilində yeni forma və mündəricə kəsb etməsində önəmli töhfəsini vermişdi.

1992-ci ilin dekabrın 26-da 30 nəfər nümayəndənin və 125 nəfər qonağın iştirakı ilə Cəmiyyətin qurultayı keçirildi. Qurultayda o illərdə qadınlarımızın üzləşdiyi problemlərdən, eləcə də cəmiyyətin gördüyü işlərdən, onun qarşısında duran vəzifələrdən söz açılmışdı. Məclisdə o zamankı dövlət rəhbərləri, habelə Türkiyədən və Şimali Kiprdən gələn qonaqlar da çıxış etmişdilər [**4**].

1997-ci ildən Cəmiyyət öz fəaliyyətini beynəlxalq standartlara uyğunlaşdırmışdır. Cəmiyyətin nəzdində bir sıra mərkəzlər, komissiyalar və hüquq şöbəsi formalaşmışdır. Hüquq şöbəsi cəmiyyətə şikayət və ərizələrlə müraciət edən əhaliyə pulsuz hüquqi yardım göstərir. CEDAW üzrə milli şəbəkə Mərkəzin fəaliyyəti Qadın Konvensiyasının bütün müddəaları üzrə aparılan işlərə nəzarət və koordinasiya etməkdən ibarətdir. Mərkəz Azərbaycanın regionlarında bütün sahələrdə qadınların bərabərhüquqlu iştirakı üçün onların arasında maarifləndirmə işləri aparır. Pekin konfransının qərarları üzrə komissiyanın işi Pekin konfransında qəbul olunmuş 12 maddə üzrə işlərin aparılmasına nəzarət etməkdir. Demokratiya və təhsil mərkəzi regionlarda maarifləndirmə işi aparır. "Qadın və biznes" mərkəzi qadınlar arasında biznes fəaliyyəti barədə məlumat və məsləhətlərlə məşğuldur və s. 1996-cı ildə D. Əliyeva adına qadın hüquqları müdafiə cəmiyyəti İSAR təşkilatının maliyyə yardımı ilə "Demokratiya və insan haqları" adlı kitabxana yaratmışdır [**5**].

Bəhs etdiyimiz dövrdə aktiv fəaliyyəti ilə seçilən təşkilatlardan biri də Çimnaz Məmmədovanın başçılıq etdiyi "Tale" Qadın Xeyriyyə Cəmiyyəti idi. Bu cəmiyyət sözügedən illərdə şəhid ailələrinə mütəmadi yardımları ilə tanınırdı. Cəmiyyət Bakıda, Gəncədə, Qazaxda, Sədərəkdə, Qubadlıda, Tərtərdə görüşlər, xeyriyyə konsertləri keçirir, şəhid ailələrinə pul və ərzaq paylayırdı. O bu nəcib məqsədlər üçün lazımi vəsaiti əldə etməkdən ötrü "Leyla" adlı kiçik tikiş müəssisəsinə malik idi [**6**].

1993-cü ilin əvvəlində respublikamızda daha bir sanballı qadın təşkilatı – "İşgüzar Qadınlar Assosiasiyası" yarandı. Bu, qadın əməyini tətbiq edən müxtəlif mülkiyyət formalı müəssisə və təşkilatları, elmi-texniki və yaradıcı ziyalıların nümayəndələrini, biznesmen qadınları birləşdirən ilk ictimai qurum idi. Assosiasiya yarandığı gündən qarşısına bazar münasibətlərinin formalaşması prosesində sahibkar qadınların təşəbbüslərinin təşviq edilməsi, onların hüquqlarının müdafiəsi, beynəlxalq iqtisadi əlaqələrinin yoluna qoyulması və s. məqsədlər qoymuşdu. Assosiasiyaya tanınmış ictimai-siyasi xadim Svetlana Qasımova başçılıq edirdi [**7**]. O illərdə təşkilatın nəzdində təcrübəli mütəxəssislərin, alimlərin mühazirələr oxuduğu və praktiki məşğələlər apardığı işgüzar qadın məktəbi

fəaliyyət göstərirdi. Onun məzunları uğurlu işgüzar karyera qurmağa müvəffəq olmuşdular. Qısa müddət ərzində Assosiasiya bir sıra beynəlxalq qurumla, o cümlədən "Beynəlxalq Əmək Təşkilatı", "Beynəlxalq işəgötürənlər (sahibkarlar) təşkilatı" ilə əlaqə yaratmışdı [**8**].

Sovet dövründə əsas qadın təşkilatı olan Respublika Qadınlar Şurası 1991-ci ilin noyabr ayında "Azərbaycan Respublikası Qadınlar Cəmiyyəti" adı ilə qeydiyyatdan keçdi. Yarandığı gündən cəmiyyət qarşısındakı əsas məqsəd qadın hüquqlarının qorunması, onun problemlərinin həlli, maariflənmə işinin aparılması idi. Sonradan Nizamnamədə qaçqın, köçkün, şəhid, əlil və onların ailələrinə kömək etmək məsələsini zəruri bir vəzifə kimi qarşıya qoyuldu. Təbii ki, 1990-cı illərin qanlı-qadalı Qarabağ savaşının cəmiyyətimizə vurduğu yaraların acı fəsadlarının aradan qaldırılması, qadınlara maddi və mənəvi dəstəyin göstərilməsi bu təşkilatın o dövrdə əsas fəaliyyət məramına çevrilmişdi. Sözügedən dövrün ağır ictimai-siyasi və sosial-iqtisadi şərtləri daxilində cəmiyyət Xocalıda, Şuşada, Laçında və Qarabağın digər yaşayış məntəqələrində yaşanan faciələr haqqında dünyanın 104 ölkəsinə məlumat çatdırmışdı. 1992-1993-cü illərdə Moskvada, Kiyevdə, Ankarada, İranda, İraqda və başqa yerlərdə keçirilmiş mötəbər qadın məclislərinə qatılan cəmiyyət üzvləri bir tərəfdən Azərbaycan qadınlarının problemlərini dünya ictimaiyyətinə çatdırmış, digər tərəfdən isə müxtəlif qadın təşkilatları ilə beynəlxalq əlaqələr yaratmağa müvəffəq olmuş, bununla da informasiya blokadasının yarılması işində öz töhfəsini vermişdi. Həmçinin o illərdə Azərbaycan Qadınlar Cəmiyyəti geniş xeyriyyə tədbirləri keçirmiş, qadınların sosial-məişət məsələlərinin həlli qayğısına qalmışdı [**9**]. Yeri gəlmişkən, 1990-cı illərin ortaları və ikinci yarısında qadın QHT-lərin bir çox təşkilatçıları, ictimai-siyasi qadın xadimlər məhz bu cəmiyyətin sıralarından çıxmışdılar. Məsələn, sonralar "Qadın və İnkişaf" Mərkəzini yaradan indiki Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Elmira Süleymanova o illərdə cəmiyyətin sədri vəzifəsində çalışırdı.

Beləliklə, milli istiqlal mübarizəsinin və ölkəmizin ərazi bütövlüyü uğrunda müharibənin getdiyi bir şəraitdə meydana çıxan qadın təşkilatlarının fəaliyyəti məhz cərəyan edən siyasi proseslərlə müəyyənləşirdi. Təsadüfi deyildir ki, o zamanlar qadın QHT-ləri bir qayda olaraq xeyriyyəçi funksiyasını yerinə yetirir, az da olsa qadınların qayğılarını xəfiflətməyə səy göstərirdi.

1993-2003-cü illərdə Azərbaycan ictimai sektoru həqiqətən özünün hərtərəfli formalaşma dövrünü yaşadı. Belə ki, Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə insan hüquqları və azadlıqlarına, eləcə də vətəndaşların sərbəst birləşmək azadlığına geniş yer ayıran ölkə Konstitusiyasının qəbulundan sonra ictimai sektor özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. Ölkədə QHT fəaliyyətinin böyük populyarlıq dövrü məhz bu zamana təsadüf edir [**10**, 17]. Qeyd etmək lazımdır ki, əsas vəzifələrindən biri ölkə Prezidentinin ictimai sektorla əlaqələrinin təmin edilməsindən ibarət olan Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsi də ( o zaman Prezidentin İcra Aparatının ictimai-siyasi şöbəsi) məhz 1995-ci ildə yaradıldı. Az sonra şəhər və rayon icra hakimiyyətlərində siyasi partiya və ictimai təşkilatlarla işə cavabdeh olan struktur bölmələri fəaliyyətə başladı. Mərkəzi icra hakimiyyəti orqanlarının və digər mərkəzi təşkilatların əsasnamələrinə həmin qurumların öz işlərini QHT-lərlə əməkdaşlıq şəraitində həyata keçirmələrinə dair müddəalar əlavə edildi. 1997-2003-cü illərdə BMT İnkişaf Proqramı ilə Azərbaycan hökumətinin birgə həyata keçirdiyi "Azərbaycanda vətəndaş cəmiyyətinin gücləndirilməsi" proqramının reallaşdırılması ictimai sektorda mühüm irəliləyişə gətirib çıxardı. Bu proqramın icrası nəticəsində Bakıda və bir sıra regionlarda QHT-lərin resurs və təlim mərkəzləri yaradıldı. QHT fəalları üçün təlimlər keçirildi, onlara ictimai təşkilatın idarə edilməsi, donorlarla iş və bu sahə üçün lazımlı olan digər məsələlərə dair yeni bilik və bacarıqlar təlqin olundu. Milli QHT Forumu və digər QHT koalisiyaları formalaşdı. Qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atıldı. 1998-ci ildə "Qrant haqqında", 2000-ci ildə isə "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanunlar qəbul olundu [**11**, 6-7].

Təsadüfi deyil ki, bəhs edilən dövrdə qadın QHT-lərin sayında sürətli artım müşahidə olunmaqda idi: 1995-ci ildə onların sayı 18-ə, 2000-ci illərin əvvəllərində isə 40-a çatmışdı [**12**, 61; **2**, 3]. Bu təşkilat və cəmiyyətlər çoxşaxəli fəaliyyət göstərərək, üçüncü sektorun inkişafına öz töhfələrini verirdilər. Qadın qeyri-hökumət təşkilatları fəaliyyətlərini ümumən qadınların hərtərəfli inkişaf və tərəqqisi və onların hüquqlarının dolğun şəkildə təmin edilməsi sahəsində quraraq, qadınların sosial-iqtisadi durumunun yaxşılaşdırılması, onların arasında yoxsulluğun azaldılması, onların işlə təminatı, qadınların peşəyə yiyələnmələrində bərabər imkanların yaradılması, qadın təhsilinin inkişafı, qadınların

gender cəhətdən maarifləndirilməsi, qadınların sağlamlığı, qadına qarşı ailə zorakılığı və istismarına son qoyulması, qadın və ətraf mühit, qadın sahibkarlığının inkişaf etdirilməsi və s. istiqamətlər üzrə müxtəlif layihələr həyata keçirirdi. Bu təşkilatların fəaliyyəti Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu nailiyyətlərinin göstəricisi olmaqla bərabər, postsovet gender düzəninə də tədrici keçidindən xəbər verirdi. Digər tərəfdən zəif maddi baza, ofis binalarının olmaması, vəsait çatışmazlığı, informasiya qıtlığı həmin təşkilatların səciyyəvi cəhəti idi. 1990-cı illərin sonlarına doğru qadın QHT-lər humanitar yardım paylayan təşkilatlardan qadınların inkişafının fəal agentlərinə çevrilmələri baş verir. Layihələr hazırlamaq üzrə treninqlər keçirmə, müxtəlif beynəlxalq qurumların layihələrinə qatılma bu təşkilatların fəaliyyətinin səmərəliliyini artırır. Bəhs etdiyimiz dönəmdə həmçinin ümumi maraqlar çərçivəsində formalaşan peşəkar, müəyyən problemlərin həlli istiqamətində çalışan təşəbbüs qruplarının əhəmiyyətli dərəcədə fəallaşması müşahidə olunurdu [**12**, 62].

QHT-lərin vətəndaş cəmiyyətinin inkişafı baxımından böyük önəm daşıyan layihələri həyata keçirməsi təcrübəsi də bəhs etdiyimiz dövrdə formalaşır. 1999-2003-cü illərdə təkcə paytaxt QHT-ləri tərəfindən qadın problemləri üzrə 242 layihə yerinə yetirilmişdi. Bu zaman yerinə yetirilmiş layihələrin mövzularının aktuallığı aşağıdakı qaydada bölünmüşdü: qadınların sağlamlığı və reproduktiv hüquqları – 37%;, zorakılıqdan müdafiə – 19%; uşaqlarla iş – 15%; vətəndaş hüquqları – 14%; gender tədqiqatları – 9%; gender və KİV – 5%; gender və iqtisadiyyat – 2% [**13**, 108-109].

O dövrdə istər fəaliyyətinin çoxcəhətliliyinə, istər məzmun keyfiyyətinə, istərsə də miqyaslılığına görə “Sevil” Azərbaycan Qadınları Məclisi seçilirdi. 1995-ci ilin avqustun 7-də Şəhriyar adına klubda öz təsis konfransını keçirərək, tezliklə o dövrün önəmli ictimai amilinə çevrilmiş bu təşkilat yarandığı gündən Azərbaycanın siyasi, işgüzar, mədəni və ictimai həyatında qadınların yaxından və fəal iştirakını təmin etmək, cəmiyyətdə onların rolunu yüksəltmək, səhiyyə, ana və uşaqlara yardım sahəsində geniş sosial proqramların həyata keçirilməsinə kömək göstərmək kimi geniş diapazona malik vəzifələr güdürdü [1**4**]. Məclisin “Sevil” adını daşımasının dərin simvolik mənası var idi; bununla da o Azərbaycanda qadın emansipasiyası ideallarına və ənənələrinə sadiqliyini nümayiş etdirmiş olurdu. Cəmiyyətə Sevil Heydər qızı Əliyeva kimi ziyalı qadının rəhbərlik etməsi onun fəaliyyətinin sistemli xarakter kəsb edəcəyindən xəbər verirdi.

Qısa bir zamanda Məclis demək olar ki, ölkəmizin bütün regionlarında öz fəaliyyətini qura bildi – qurumun paytaxtda 15 və rayonlarda 50 şöbəsi təşkil olundu [**15**]. Faktiki olaraq sözügedən Məclis qeyri-hökumət səciyyəli olsa da, bir müddət dövlət və qadınlar arasında lazımi kommunikativ funksiyanı layiqincə yerinə yetirirdi. Ölkəmizdə 1998-ci ilin yanvarında Qadın problemləri üzrə Dövlət Komitəsi təsis edilənə kimi, hətta Komitə fəaliyyətə başladıqdan sonra “Sevil” Azərbaycan Qadınları Məclisi birbaşa müvafiq dövlət instansiyaları ilə ünsiyyətə girir, bu və ya digər qadın problemlərinin həllinə nail olur, dövlətin gender strategiyasının ayrı-ayrı istiqamətlərinin işlənib hazırlanmasında iştirak edirdi. Məclisin yerlərdə fəaliyyət göstərən şöbələri çox vaxt qadınların yeganə ümidgahına çevrilirdi. Rayon şöbələri qadınların ərizə və şikayətlərini diqqətlə dinləyir, ehtiyacı olanlara hər cür köməklik göstərir, qadınların problemlərini müvafiq hökumət qurumlarının diqqətinə çatdırırdı [**16**].

Məclisin fəaliyyətində maariflənmə istiqamətinə böyük önəm verilirdi. Təhsil ocaqlarında, Məclisin rayon bölmə təşkilatlarında tematik mövzulara həsr olunmuş görüşlər, məruzələr və yubileylər keçirilirdi. Qadınların və yeniyetmə qızların hüquqlarını qoruyan müasir proqramlar haqqında informasiya verilir, qadınların iqtisadi müstəqilliyi haqqında məruzələr oxunur və konfranslar təşkil olunurdu.

Eyni zamanda 1990-cı illərin ikinci yarısı Məclisin fəal və məzmunlu xarici əlaqələr qurduğu dönəmdir. Bu təşkilat 1996-cı ilin yayında Türkiyə Qadınlar Birliyi ilə əməkdaşlıq haqqında saziş imzalamışdı. Saziş hər iki ölkə qadınlarının bir sıra sahələrdə fəaliyyətlərinin koordinasiyasını nəzərdə tuturdu. Əməkdaşlıq üçün yetərincə geniş fəaliyyət sahəsi göstərilirdi; bura hər iki ölkənin qadınlarının sosial-siyasi və ictimai vəziyyətinin monitorinqindən tutmuş onların sosial müdafiəsi kimi geniş məsələlər spektri daxil idi [**17**].

“Sevil” Qadınlar Məclisinin dəvəti ilə 1997-ci ilin oktyabrında Aysel Göksoyun rəhbərliyi altında Türkiyə Qadınlar Birliyinin nümayəndə heyəti Azərbaycana səfər etmişdi. Türkiyəli qonaqlar Naxçıvanda olmuş və orada “Azərbaycan qadını XXI əsrin astanasında” mövzusunda beynəlxalq konfransa qatılmış, eləcə də Sabirabad, Saatlı, İmişli, Beyləqan rayonlarında qaçqın düşərgələrinə baş

çəkmiş, Lənkəran, Astara, Masallı, Yardımlı, Lerik rayonlarının qadın ictimaiyyəti ilə görüşlər keçirmişdilər. Nəhayət, oktyabr ayının 14-də onları Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənabları qəbul etmişdi [**18**].

Yeri gəlmişkən, "Sevil" Azərbaycan Qadınları Məclisinin Naxçıvanda təşkil olunmuş bölməsi də fəaliyyəti ilə seçilirdi. Naxçıvan Qadınlar Məclisinə Muxtar Respublikanın baş nazirinin müavini Sevil Zeynalova başçılıq edirdi. Məclis üzvləri tez-tez sərhəd bölgələrində əsgərlərə baş çəkir, şəhid ailələrinə, əlillərə, aztəminatlı ailələrə maddi və mənəvi kömək göstərirdilər. Məclis xətti ilə Naxçıvan qadınlarının Türkiyə və İran qadın cəmiyyətləri ilə əlaqələri genişlənmişdi. Onlar Türkiyənin İstanbul, Qars, Ərzurum, İranın Urmiya, Xoy, Təbriz, Tehran şəhərlərində keçirilmiş müxtəlif tədbirlərdə fəal iştirak etmişdilər [**19**].

"Sevil" Azərbaycan Qadınları Məclisinin xətti ilə 1997-ci ilin oktyabrında Naxçıvan şəhərində keçirilən "Azərbaycan qadını XXI əsrin astanasında" mövzusunda beynəlxalq konfrans muxtar respublikada həm qadın hərəkatının inkişafında yeni səhifə açdı, həm də bölgə qadınlarının beynəlxalq əlaqələrinin daha möhkəmlənməsinə əlverişli zəmin yaratdı. Konfrans ərəfəsində "Sevil" Qadınlar Məclisinin Naxçıvan şöbəsinin ofisi istifadəyə verilmiş, burada qadınların istirahəti, müxtəlif görüş və tədbirlər keçirməsi üçün hər cür şərait yaradılmışdı [**20**].

Beləliklə, vətəndaş cəmiyyətinin fəaliyyət göstərməsinin zəruri şərti kimi çıxış edən III sektor müstəqillik illərində mürəkkəb təkamül yolu keçmişdir. Ölkəmizdə ilk qadın qeyri-hökumət təşkilatları 1980-ci illərin sonlarında, Ermənistanın respublikamıza qarşı ərazi iddialarının irəli sürdüyü, daha sonra isə elan edilməmiş müharibəyə başladığı bir dövrdə meydana çıxmışdı. Həmin dövrdə yaranmış ictimai birliklər, artıq qeyd etdiyimiz kimi, öz səylərini əsasən cəmiyyətdə dövlət müstəqilliyi ideyasının və milli istiqlal mübarizəsinin güclənməsi, qaçqın və məcburi köçkünlərin yerləşdirilməsi, onların gündəlik yaşayış problemlərinin həlli, ayrı-ayrı bölgələrimizdə humanitar və siyasi böhranın aradan qaldırılması və s. fəaliyyət istiqamətləri üzərində cəmləşdirirdilər.

## ƏDƏBİYYAT


1. Hasilova X. Cəmiyyətdə qadının vəziyyəti o ölkənin səviyyəsi ilə ölçülür, "Azərbaycan qadını", 1993, №5-6, s.10-11
2. Nəcəfova S., Səfiyev S. Azərbaycanın qeyri-hökumət qadın təşkilatları. Bakı,Şirvannəşr, 2002, 90 s.
3. Cəfəroğlu N. O illərdə donorlar özləri bizi axtarıb tapırdılar. Azərbaycan QHT sektoru dövlət müstəqilliyinin 20 ilində (Məqalələr və müsahibələr toplusu). Bakı, "Avrasiya Press", 2011, s.32, 51-67
4. Qadınların qurultayı keçirildi . "Azərbaycan qadını", 1993, №3-4, s.15
5. Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti, "Genderşünaslıq" jurnalı, 2000, №1, s.28
6. "Tale" Qadın Cəmiyyətinin xeyriyyə qayğıları, "Azərbaycan qadını", 1993, №5-6, s.4-5
7. Uğur olsun işgüzar qadın ,"Azərbaycan qadını", 1993, №1, s.1
8. İşgüzar Qadın Assosiasiyası , "Azərbaycan qadını", 1994, №5-6, s.5
9. Süleymanova E. Azərbaycan Respublikası Qadınlar Cəmiyyəti, "Azərbaycan qadını", 1993, №3-4, s.14
10. Quliyev A. Azərbaycanda QHT sektorunun inkişaf mərhələləri.Azərbaycan QHT sektoru dövlət müstəqilliyinin 20 ilində (Məqalələr və müsahibələr toplusu). Bakı, "Avrasiya Press", 2011, s. 16-20
11. Həsənov Ə.M. Ön söz. Azərbaycan QHT sektoru dövlət müstəqilliyinin 20 ilində (Məqalələr və müsahibələr toplusu). Bakı, "Avrasiya Press", 2011, s. 5-8
12. Azərbaycan Respublikasında qadınların vəziyyəti haqqında Hesabat. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı. Bakı, Caspian Communications LTD, 1999, 80 s.
13. Зульфигарова Н. Х. Женское движение и гендерные аспекты становления гражданского общества в Азербайджане. Дис. ... канд. филос. наук. Баку, 2007, 167 с.
14. "Azərbaycan Qadınları Məclisi" təsis edilmişdir , "Azərbaycan qadını", 1995, №1-6, s.15
15. "Sevil" Azərbaycan Qadınları Məclisi, "Genderşünaslıq" jurnalı, 2000, №1, s.29
16. Yaz dumanı dərələrdə sürünər , "Azərbaycan qadını", 1999, №4, s.8-11
17. "Sevil"in beynəlxalq əlaqələri, "Azərbaycan qadını", 1997, №1, s.35
18. "Sevil"in qonaqları ,"Azərbaycan qadını", 1997, №5, s.2-5
19. Kişi hünərli xanımlar (Naxçıvan Muxtar Respublikasının baş nazirinin müavini Sevil Zeynalova ilə müsahibə), "Azərbaycan qadını", 1997, №3, s.36-38
20. "Şərq qapısı" qəz., Naxçıvan, 1997, 15 oktyabr

## ABSTRACT

**Abbasova S.Z.**

**From the history and development of women's NGOs in the Republic of Azerbaijan (1991-1997 years)**

The early stage of the development history of public sector in Azerbaijan coincided with the period of struggle for national liberation and early years of our state independence. This period was a period when important historical lessons were observed in the direction of Azerbaijan's transition to democratization and progress and civil society. 198 public unions established in the country in 1988 -1993, especially in 1991, after our republic declared its state independence, cover the areas of activity such as strengthening the idea of state independence and struggle for national independence in the society, placement of refugees and internally displaced persons, solution of their daily living problems, elimination of humanitarian and political crisis in several regions and filling the gap in the field of human rights and dissemination of information and they tried to specialize on these fields. At the beginning of 1990, some regulatory acts that should provide the legal basis of the activity of NGOs, as well as, Law "on Public Unions" were adopted on November 10, 1992.

So, III sector acting as a necessary condition for the operation of civil society passed a complicated evolutionary path during the independence years. The first women's non- governmental organizations in the country appeared in the end of 1980s when Armenia put forward territorial claims against our republic, and later began to undeclared war. Public unions established in that period, as mentioned above, concentrated their efforts on the areas of activity such as strengthening the idea of state independence and struggle for national independence in the society, placement of refugees and internally displaced persons, solution of their daily living problems, elimination of humanitarian and political crisis in several regions etc.



## РЕЗЮМЕ

**Аббасова С.З.**

**Из истории возникновения и развития женских неправительственных организаций в Азербайджанской Республике (1991-1997 годы)**

Ранняя стадия продвижения социального сектора в Азербайджане приходится на период борьбы за национальную свободу и первые годы нашей государственной независимости. Этот период являлся периодом перехода гражданского общества и демократизации Азербайджана. В 1988-1993-х гг., особенно в 1991-м году, после провозглашением республикой своей независимости, созданные в нашей стране 198 общественных объединений в основном охватывали такие направления деятельности, как усиление идеи государственной независимости и борьбы за национальную революцию, размещение беженцев и вынужденных переселенцев, решение их повседневных житейских проблем, ликвидацию в отдельных регионах гуманитарного и политического кризиса, заполнение пустоты путем защиты прав и информационных средств и пытались специализироваться по этим сферам. В начале 1990-х гг. были приняты некоторые нормативные акты, которые должны были обеспечить юридическую основу деятельности НО, в том числе, 10 ноября 1992-го года был принят закон «Об общественных организациях».

Так, третий сектор, выступающий важным условием действия гражданского общества, прошел сложный путь эволюции. Первые женские негосударственные организации в нашей стране появились в конце 1980-х годов, в период выдвижения Арменией по отношению к нашей республике территориальных притязаний, а позже началом Арменией необъявленной войны . Общественные объединения, образовавшиеся в этот период, как уже отмечалось, сосредоточили свои усилия на усилении идеи государственной независимости и борьбы за национальную революцию, размещении беженцев и вынужденных переселенцев, решении их повседневных житейских проблем, ликвидации в отдельных регионах гуманитарного и политического кризиса и т.д.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)
Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev



**İBRAHİM KAZIMBƏYLİ**
*Naxçıvan Dövlət Universiteti*
*e-mail: ibrahimkazimbeyli@gmail.com*

**UOT:316.6**

# NAXÇIVAN VƏ İRƏVAN BÖLGƏLƏRİNDƏ AZƏRBAYCANLI ƏHALİYƏ QARŞI TÖRƏDİLƏN SOYQIRIM CİNAYƏTLƏRİ TARİXİ SƏNƏDLƏRDƏ

**Açar sözlər**: *Bölgə, əhali, soyqırım, cinayət, Naxçıvan, İrəvan*
**Key words:** *Region, population, genocide, crime, Nakhichevan, Yerevan*
**Ключевые слова:** *Регион, население, геноцид, преступление, Нахчыван, Ереван*

Rusiyada 1917 ci ilin fevral inqilabı nəticəsində carizm devrildi, müvəqqəti burjua hökuməti təşkil edildi.İnsan hüquqlarının qorunması,bütün xalqların və millətlərin bərabərliyi üçün təminatlar elan olundu.

Azərbaycanın bu bölgələri,xüsusi ilə dörd ölkənin qovşagında yerləşən Naxçıvan mahalı həmişə çox böyük strateji və geosiyasi əhəmiyyət kəsb etmişlər.

Naxçıvan və İrəvanın strateji əhəmiyyətini nəzərə alan Qərb dövlətləri ,ilk növbədə isə,Böyük Britaniya və ABŞ həmin bölgələrdə nüfuza malik olmağa, Transqafqaza ,xüsusilə də Azərbaycana,həmçinin Türkiyə və İran da əhatə edilməklə bütun orta və yaxin Şərqə təsir göstərə bilməyin əlverişli imkanı kimi baxırdılar.(45,4)

Nağı Şeyxzamanlı yazırdı ki, çürümüş nəhəng ağaca bənzər imperiyanın yıxılması ilə Rusiyanın hər tərəfində anarxiya başlanmışdı. (42, 95). Keçmiş imperiyanın ərazisində baş verən bu anarxiyadan əsas əziyyət çəkən və külli miqdarda insan qurbanı verən məhz Azərbaycan olmuşdur.

Rusiya imperiyasının süqutu nəticəsində yaranmış mürəkkəb anarxiya şəraitindən istifadə edən erməni millətçilərinin Cənubi Qafqaz ərazisində müsəlman əhalisinin yaşadığı torpaqlarda özlərinə dövlət yaratmaq ideyasını reallaşdırmaq uğrunda açıq mübarizəyə başlamaları türk-müsəlman əhalisinin kütləvi soyqırımı ilə müşayiət olunmuşdur.

Qeyd etmək lazımdır ki, türk-müsəlman əhalisinə qarşı keçirilən soyqırım siyasətini əks etdirən əvəzsiz mənbə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən yaradılmış Ələkbər bəy Xasməmmədovun sədrlik etdiyi 7 nəfərdən ibarət Fövqəladə Təhqiqat Komissiyasının topladığı materiallar hesab edilir. Bu komissiya fəaliyyət göstərdiyi dövr ərzində - 15 iyul 1918-ci il - 1 noyabr 1919-cu il - 36 cild və 3500 səhifədən ibarət təhqiqat və istintaq materialı toplamışdır(35, 368-369; 38,62). Fövqəladə Təhqiqat Komissiyasının sənəd və materialları hazırda Azərbaycan Respublikası Dövlət Arxivində(1; 2; 3) və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin

Siyasi Sənədlər Arxivində(4; 5)qorunmaqdadır. Həmin sənəd və materialların bir qismi nəşr də edilmişdir(41).

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra soyqırım cinayətlərinin araşdırılması istiqamətində əhəmiyyətli tədqiqatlar da aparılmış və mühüm elmi nəticələr əldə edilmişdir(34; 35; 36; 37; 38; 39; 40; 296; 41; 43;44).

Fövqəladə Təhqiqat Komissiyasının sənədləri Azərbaycanın bir çox qəzalarında baş verən soyqırım aktlarını araşdırmaq üçün əsas mənbə rolunu oynasa da, bu təhqiqat ölkənin bütün qəzalarını əhatə edə bilməmişdir. Belə ki, ermənilər tərəfindən soyqırım aktlarının ən geniş həyata keçirildiyi Naxçıvan, Ordubad, Şərur-Dərələyəz, Sürməli qəzaları tamamilə, bütövlükdə isə İrəvan quberniyası bu təhqiqatdan kənarda qalmışdır. Komissiya yalnız Zəngəzur qəzasının dağıdılmış kəndləri üzrə 2 cild 80 vərəq sənədlər toplamışdır(38,62). Bu boşluğu doldurması baxımından Osmanlı arxiv sənədləri əvəzsiz mənbə rolunu oynayır.

Arxiv sənədləri göstərir ki, daşnak-bolşevik alyansı tərəfindən 1918-ci ilin martında Bakıda həyata keçirilən və 12 min günahsız insanın öldürülməsi ilə nəticələnən türk-müsəlman əhalisinin soyqırımı aprel ayından başlayaraq Azərbaycanın demək olar ki bütün qəzalarında – Şamaxı, Quba, Cavad, Lənkəran, Zəngəzur, Cəbrayıl, Cavanşir, Şuşa, Göyçay, Nuxa, Naxçıvan, Şərur-Dərələyəz və digər bölgələrində də davam etdirilmiş, yüz mindən çox insanın qurbana çevrilməsinə səbəb olmuşdur. Bu bir danılmaz faktdır ki, yalnız Osmanlı dövlətinin hərbi yardımı sayəsində Osmanlı və Azərbaycan silahlı qüvvələrindən təşkil edilən Qafqaz İslam Ordusunun apardığı uğurlu əməliyyatlar Bakıda və Azərbaycanın qəzalarında erməni silahlı birləşmələrinin müsəlman əhalisinə qarşı davam etməkdə olan soyqırım cinayətlərinin qarşısını aldı. Lakin Qafqaz İslam Ordusunun nəzarətində olmayan Zəngəzur, Naxçıvan və İrəvan kimi bölgələrdə müsəlman əhalisinə qarşı amansız cinayətlər davam etməkdə idi. Adı çəkilən bölgələrdən Osmanlı hökumətinə göndərilən imdad çağırışlarının əks olunduğu müraciətnamələrdə müsəlman əhalisinin məruz qaldığı soyqırım, zülm və işgəncələr haqqında ətraflı məlumat verilir(36; 7; 19; 21; 23; 27; 28; 29; 30; 31; 32).

Ermənilərin müsəlmanlara qarşı törətdikləri soyqırım cinayətləri və Osmanlı dövlətinin bu cinayətlərin qarşısını almaq istiqamətindəki fəaliyyəti ilə bağlı Osmanlı arxivlərində mühafizə edilən sənəd və materialları bir neçə qrupa bölmək olar: a) ermənilər tərəfindən soyqırım və talanlara məruz qalan bölgələrdən Osmanlı hökumətinə göndərilən imdad çağırışlı müraciətnamələr; b) soyqırımların baş verdiyi bölgələrdəki vəziyyət və müsəlman əhalinin məruz qaldığı zülmlər haqqında Osmanlı ordu komandanlıqlarının Hərbi Nazirliyə göndərdikləri raportlar; c) İrəvandakı Osmanlı siyasi təmsilçisinin ermənilərin törətdiyi vəhşiliklər və qarşıda müsəlman əhalisini gözləyən təhlükələrlə bağlı Osmanlı Xarici İşlər Nazirliyinə göndərdiyi məktublar; ç) Türk-müsəlman əhalisinə qarşı ermənilərin törətdiyi soyqırımların qarşısını almaqla bağlı Osmanlı hökumətinin həyata keçirdiyi tədbirləri ehtiva edən yazışmalar, sədrəzəmin əmr, sərəncam və göstərişləri.

Osmanlı arxiv sənədləri arasında müsəlman əhalisi nümayəndələrinin baş verən soyqırım cinayətləri ilə bağlı Osmanlı hərbi və mülki məmurlarına yazdıqları ərz-hallar və imdad çağırışlarını özündə ehtiva edən müraciətnamələr üstünlük təşkil edir. Bu müraciətnamələr əksəriyyət etibarilə Naxçıvan, Zəngəzur, Sürməli, İrəvan, Şərur, Sədərək, Dərələyəz mahallarından, qismən də İrəvan quberniyasının digər bölgələrindən göndərilmişdir. Bu sənədlər hazırda Başbakanlıq Osmanlı Arxivinin Xariciyyə Siyasi (HR.SYS), Başbakanlıq Evrak Odası (BEO) və digər fondlarında mühafizə edilir[6; 7; 19; 21; 23; 27; 28]. Bu müraciətnamələr Osmanlı hərbi və mülki hakimiyyət orqanları tərəfindən yuxarı instansiyalara və nəhayət baş nazirə çatdırılmışdır. Hər bir instansiyadan daha yuxarı instansiyalara ötürülən bu müraciətnamələrə müvafiq dərkənarlar qoyulub və baş verən cinayətlər haqqında əlavə üstyazılar da yazılmışdır[6; 8; 9; 10; 11; 14; 15; 22]. Arxiv sənəd və materiallarından görünür ki, bu müraciətnamələr Osmanlı Daxili İşlər Nazirliyi və Hərbi Nazirliyi vasitəsilə sədrəzəmə çatdırılmış və Osmanlı sədrəzəmi müsəlman əhalisinin təhlükəsizliyinin təmin edilməsi üçün xarici işlər və hərbi nazirliklərə müvafiq tapşırıqlar vermişdir[20].

4 iyun 1918-ci il tarixli Batum müqavilələrinə (Osmanlı-Ermənistan müqaviləsinin 6-cı maddəsi və müqaviləni tamamlayan III əlavə) görə Ermənistan hökuməti Osmanlı imperatorluğu qarşısında öhdəlik götürürdü ki, Ermənistan hökuməti İrəvanda və yeni yaradılan erməni dövlətinin

digər ərazilərində müsəlmanların sərbəst dini ibadət, mədəniyyət, siyasi və ana dilində təhsil almaq hüquqlarını təmin edəcək və Azərbaycan qəzalarında erməni silahlı birləşmələri tərəfindən müsəlmanlara qarşı həyata keçirilən kütləvi qırğınlar dayandırılacaq[33]. Lakin arxiv sənədləri göstərir ki, Ermənistan hökuməti yarandığı ilk gündən başlayaraq erməni quldur dəstələrinin müsəlman əhalisinə qarşı həyata keçirdiyi soyqırım cinayətləri dəstəkləmiş və bir dövlət kimi bu cinayətlərin birbaşa təşkilatçısına və iştirakçısına çevrilmişdir. İrəvan müsəlmanları adından Gümrüyə gələn Əbdülməcid Məhəmmədzadə, Məhəmməd Axundzadə və Hacı Xəlilzadədən ibarət heyətin buradan Osmanlı sədrəzəminə göndərdiyi 12 iyul 1918-ci il tarixli teleqramda ermənilərin müsəlmanlara qarşı həyata keçirdiyi soyqırım cinayətlərindən bəhs edilərək deyilirdi: "Rus ordusu Qafqaz cəbhə xəttini tərk edəndən sonra İrəvan nahiyəsində hakimiyyəti ələ alan ermənilər bu ərazidə yaşayan yarım milyondan artıq müsəlmanı cəza tədbirləri vasitəsilə hicrətə getməyə məcbur etmiş, hicrətə getməyənlər isə məhv edilməkdədirlər. Fevral ayının 18-dən başlayaraq indiyədək 300-dən artıq müsəlman kəndini, məscidləri, əmlakları məhv etmiş, yüz mindən artıq müsəlman məsum müsəlman uşaq və zavallı qadın ac, çılpaq şəkildə çöllərə buraxılmışdır. Topların, mitralyözların gülləri altında qaçan qadınların, uşaqların və xəstə ixtiyarların hüququna, şərəf və namusuna təcavüz etməkdən belə çəkinmirlər... Erməni hökuməti özünü müsəlmanların hüququnu müdafiə edən kimi göstərsə də, vəziyyətimiz düzəlmədi. Bu cür ürəkyandırıcı vəhşiliklər edən ermənilərdən bir nəfər belə Ermənistan hökuməti tərəfindən cəzalandırılmamışdır. İrəvan şəhərində hökumətin gözünün önündə müsəlman bazarları büsbütün yandırıldı və buna görə heç kim cəzalandırılmadı..."(19). Sənəddə daha sonra İrəvan quberniyasının ayrı-ayrı kənd və qəsəbələrində ermənilər tərəfindən törədilən soyqırım cinayətləri haqqında ayrıca bənd-bənd ümumiləşdirilmiş məlumatlar verilir və sonra bölgənin yarım milyon müsəlmanı adından Osmanlı hökumətindən yardım istənilir: "Bizləri erməni vəhşətindən qurtarılmasını yarım milyon müsəlman adına ərz edirik." (19). Bu müraciətlə bağlı Osmanlı sədrəzəmi M.Tələt paşa iyulun 13-də Xarici İşlər Nazirliyinə müvafiq tapşırıqlar vermiş və müsəlmanların can və mülklərinin qorunması erməni quldurlarından qorunması üçün lazımi tədbirlər həyata keçirilməsi məqsədilə müvafiq işlərin görülməsini tapşırmışdır(20).

Osmanlı arxiv sənədləri təsdiq edir ki, Dünya müharibəsindəki məğlubiyyətlə əlaqədar türk orduları Qafqazı tərk etdikdən sonra ermənilərin nəzarətində olan bölgələrdəki türk-müsəlman əhalisinə qarşı soyqırım cinayətləri daha geniş miqyas almışdır. 1918-ci ilin noyabrından başlayaraq müsəlman əhalisi nümayəndələrinin Osmanlı hökumətinə göndərdiyi müraciətnamələr, eyni zamanda, Qafqazdakı Osmanlı mülki və siyasi məmurlarının raportlarında bu məqam daha aydın şəkildə nəzərə çarpır. İrəvan müsəlmanlarının Osmanlı 9-cu Ordusu Komandanlığına ünvanladıqları 18 yanvar 1919-cu il tarixli müraciətnamədə ermənilərin müsəlmanlara qarşı törətdiyi soyqırım əməllərindən bəhs edilərək deyilirdi: "Dövlət-i Aliyye-i Osmaniyyənin əsgərləri vilayətimizdən təxliyə edildikdən sonra erməni milləti məmləkətimizdə olan müsəlmanların başına nə bəlalar gətirib və nə müsibətlərə bizi mübtəla etdiklərini bu müraciətnaməyə sığdırmaq mümkünsüzdür, lakin bunlardan bəzilərini bəyan edirik. Ermənilər külli qüvvə və top, tüfənglərlə üzərimizə hücum edib Gərnibasar kəndlərində məskun olan yerli əhali və mühacirləri qətl və qarət etdilər. İlk əvvəl zəngin müsəlmanların əmlaklarını əllərindən alıb onları qarət etdilər. Müsəlman əhali ermənilərin bu təcavüz və zillətini gördükcə əksəri min zəhmətlə ailəsini götürüb bir tərəfə hicrət etdilər. Nə qədər müsəlman uşağı çöllərdə soyuq və yağış-qarın altında məhv oldu. Ermənilər Şərur nahiyəsindəki bütün kəndləri dağıdıb, talan edib İrəvana daşıdılar. Daha sonra Naxçıvan nahiyəsinə getdiklərində müqavimətlə rastlaşdıqlarından geriyə dönüb 30 başqa kəndin müsəlman mühacirlərinin də məskunlaşdığı 8 dağ kəndini – Şihablı, Qəmərli, Qarağaç, Kerkab, Dehnar, Qarabağlar, Akasbəyli və Keşişdağ kəndlərini yerlə yeksan edib əhalisini qətl etdilər. Uşaqları süngüyə keçirdilər, ixtiyar qarıları qətl etdilər, gənc qadınları özləri ilə apardılar..."(24). Müraciətnamənin sonunda Osmanlı dövlətindən imdad istənilir: "Məgər indiyə qədər bizim fəryad və nalələrimiz Osmanlı dövlətinə çatmadımı? Əgər tezliklə yardım olunmazsa bölgəmizdəki müsəlmanların tamamilə məhv olunacağına heç bir şübhə yoxdur. Aman, imdad!"(24). Müraciətnamənin sonunda 33 nəfərin imzası vardır və əlavə olaraq İrəvan bölgəsi müsəlmanlarının fəryadlarını Osmanlı rəsmilərinə çatdırmaq üçün məmur edilmiş 6 nəfərin adları qeyd

edilmişdir(24). Əsasən İrəvan, Naxçıvan, Zəngəzur, İğdır, Şərur və digər ətraf ərazilərdən Osmanlı hökumətinə ünvanlanan bu cür çoxsaylı müraciətlərin hamısının məzmunu demək olar ki, yuxarıda verilmiş nümunələrdəki kimidir. Bu tip müraciətnamələr eyni zamanda Qars, Bəyazid və Ərzurumdakı Osmanlı mülki məmurlarına, valilərə də ünvanlanmışdır.

Osmanlı arxiv sənədlərində sırasında soyqırımların baş verdiyi bölgələrdəki vəziyyət və müsəlman əhalinin məruz qaldığı zülmlər haqqında Osmanlı ordu komandanlıqlarının, mülki məmurların və valilərin İstanbul hökumətinə göndərdikləri raportlar da mühüm əhəmiyyət daşıyır. Bir çox hallarda Şərqi Anadolu bölgələrindəki Osmanlı hərbi və mülki məmurları erməni zülmünə məruz qalan Azərbaycan bölgələrindən – Naxçıvan, Zəngəzur, İrəvan və digər nahiyələrdən aldıqları imdad çağırışlı müraciətnamələri birbaşa, bəzi hallarda isə müşayiətedici üstyazı ilə birlikdə hökumətə çatdırmışlar. Bu sənəd və materiallarda da Osmanlı ordularının Qafqazdan təxliyə edilməsi ilə baş qaldıran anarxiyadan istifadə edən ermənilərin müsəlmanlara qarşı geniş vüsət alan hücumlarından, bölgədəki müsəlman qaçqın və köçkünlərin, müsadirə olunan və aclıq çəkən əhalinin səfalətli vəziyyətindən geniş bəhs edilir və əsaslandırılır ki, əgər bölgədəki müsəlman əhalisinə Osmanlı hökumətinin yardımı təmin edilməzsə bu ərazilərdə bir dənə də olsun müsəlman qalmayacaqdır(6; 7; 11; 14; 15; 25; 28). Vali və hərbi komandanlıqlardan İstanbula göndərilən müraciətnamə mətnlərinə əlavə edilən üstyazılarda o da qeyd olunur ki, müsəlmanları erməni hücumlarından qorumaq üçün Naxçıvan və Şərur bölgəsində Araz hökuməti adlı hökumət təşkil olunmuşdur, lakin bu hökumətin lazımi ordu, silah və cəbbəxanası olmadığından müsəlman əhalini erməni hücumlarından qorumaya bilmir.

Ermənilərin müsəlmanlara qarşı törətdikləri soyqırım cinayətləri bağlı Osmanlı arxivlərində mühafizə edilən sənəd və materiallar içərisində üçüncü qrup sənədlər İrəvandakı Osmanlı siyasi təmsilçisinin ermənilərin törətdiyi vəhşiliklər və qarşıda müsəlman əhalisini gözləyən təhlükələrlə bağlı Osmanlı Xarici İşlər Nazirliyinə göndərdiyi məktublardır. Bu məktublarda Osmanlı dövlətinin Ermənistandakı siyasi təmsilçisi Məhəmməd Əli paşa Ermənistanda cərəyan edən hadisə və proseslər haqqında məlumat verməklə yanaşı, eyni zamanda erməni təcavüzünə məruz qalan müsəlman əhalisinin məruz qaldığı zülm və məşəqqətlərə də geniş yer verir və müsəlman əhalisinə qarşı ermənilərin törətdiyi soyqırım aktlarına və talanlara münasibətdə Ermənistan hökumətinin səssiz qalma mövqeyinə diqqət çəkərək Osmanlı hökumətini rəsmi İrəvana təsir göstərməyə çağırır. Məhəmməd Əli paşanın İrəvandan İstanbul hökumətinə göndərdiyi məktubların birində bildirilir ki, erməni vəhşiliyindən canlarını qorumaq üçün qaçan müsəlman əhali əsasən İğdır və Naxçıvan arasında Araz çayı boyunca yerləşmiş, ac-yalavac və səfalət içindədirlər, yardım edilməzsə onların hamısı məhv olacaqdır. Lazımi tədbirlər görülmədən müsəlman əhalini indiki vəziyyətində qoruyub saxlamaq mümkün olmayacaq(16).

Osmanlı dövlətinin Ermənistandakı siyasi təmsilçisi İstanbul hökumətinə göndərdiyi şifrəli teleqramlarda erməni siyasilərinin məqsəd və məramlarını da düzgün interpretasiya edərək eyni zamanda qeyd edirdi ki, "ermənilərin müsəlmanlara qarşı düşmənçilik hissiyyatlarının asanlıqla aradan qalxması mümkün deyildir. Nə qədər ki, ermənilər "böyük Ermənistan" xəyalı uğrunda mübarizə aparırlar, bu zaman müsəlman əhalisi üçün daima problemlər yaratmış olacaqlar. Buna qarşı indidən tədbirli tərpənib erməni hüdudu boyundakı kəndlərdə təşkilati iş aparmaq və müsəlman əhalini silahlandırmaq lazımdır ki, heç olmasa erməni hücumlarından müdafiə oluna bilsinlər" (16; 17).

Arxiv sənədləri göstərir ki, bəhs olunan dövrdə Osmanlı hökuməti İstanbuldakı erməni nümayəndəliyi ilə danışıqlar apararaq bölgədəki müsəlman əhalisinin təhlükəsizliyi təmin etməyə çalışmışdır. Rəsmi İrəvan isə, müsəlmanlara qarşı hücumlar təşkil edən erməni quldur dəstələrinin erməni hökuməti ilə heç bir əlaqəsinin olmadığını və hökumətin müsəlman əhalisinin təhlükəsizliyinin təmin edilməsi üçün əlində olan bütün vasitələrdən istifadə etdiyini bəyan etmişdir. Lakin qeyd etmək lazımdır ki, İrəvandakı Osmanlı səfirinin İstanbula göndərdiyi şifrəli teleqramlarda müsəlmanlara qarşı erməni hücumlarının birbaşa İrəvan hökuməti tərəfindən təşviq və təşkil edildiyi birmənalı olaraq vurğulanır(16; 17).

Ermənilərin müsəlmanlara qarşı törətdikləri soyqırım cinayətlərini əks etdirən sənəd və materialların dördüncü qrupu türk-müsəlman əhalisinə qarşı ermənilərin törətdiyi soyqırımların

qarşısını almaqla bağlı Osmanlı hökumətinin həyata keçirdiyi tədbirləri ehtiva edən yazışmalar, Osmanlı baş nazirinin əmr, sərəncam və göstərişlərindən ibarətdir. Bu qrup sənədlər bir qayda olaraq erməni təcavüzünə məruz qalan müsəlmanların müraciətləri ilə birgə Osmanlı məmurları tərəfindən yazılan müşayiətedici məktubları, Şərqi Anadolu ərazisindəki Osmanlı hərbi və mülki məmurlarından Osmanlı hərbi və daxili işlər nazirlikləri vasitəsilə sədarətə daxil olan yazışmaları əks etdirir. Bu yazışmalarda müsəlman əhalisini erməni təcavüzündən qorumaq üçün görülməli olan tədbirlərlə bağlı təkliflər verilir və problemin həll yolları müzakirə edilir. Məsələn, Üçüncü Ordu Komandanlığından Şərq Orduları Qrupunun komandan vəkili Əsəd paşa tərəfindən Baş Komandanlığa göndərilən 5 iyul 1918-ci il tarixli şifrəli teleqramda Doqquzuncu Ordu Komandanlığının Ermənistanda qalan müsəlmanların ümumi vəziyyəti, onların təhlükəsizliyinin təmin edilməsi və yurd mübadiləsi ilə bağlı teleqramı Hərbi Nazirliyiə çatdırılmışdır. Teleqramda Ermənistan Respublikası ərazisində qalan müsəlmanlara qarşı ermənilər tərəfindən irqi, milli və dini zəmində həyata keçirilən qırğın və talanlardan bəhs olunur və bildirilir ki, bütün bunlar ermənilərin monoetnik dövlət qurmaq arzuları ilə bağlıdır. Belə bir vəziyyətdə artıq ermənilərlə müsəlmanların birgə yaşaması mümkün deyildir(18).

Sənəddə daha sonra Ermənistanda qalan müsəlmanların Osmanlı ərazilərindəki ermənilərlə mübadilə edilməsi üçün Gümrüdə erməni nümayəndələri ilə aparılan danışıqlar haqqında məlumat verilir və qeyd edilir ki, "ermənilər zahirən müsəlmanlarla ermənilərin mübadilə edilməsi təklifinə razı oldular, amma bunu əhalinin arzusu ilə etməyi şərt qoydular. Əgər bu şərt qəbul edilərsə, o zaman Osmanlıdakı ermənilər İrəvan ərazisinə getmək istəməyəcək, amma oradakı müsəlmanlar məhv olmaqdan qurtulmaq üçün Osmanlıya köçəcəklər. Onsuz da müsəlmanlar köçməkdədirlər"(19). Teleqramın sonunda Ermənistandakı müsəlmanlarla Osmanlı ərazisindəki ermənilərin mübadilə edilməsi məsələsinin İstanbulda toplanacaq konfransda müzakirə edilməsi və yekun bir qərara gəlinməsi xahiş edilir.

Ermənilərin Qafqazda, eyni zamanda Cənubi Azərbaycanda müsəlman əhaliyə qarşı törətdiyi soyqırım cinayətləri haqqında Doqquzuncu Ordu komandanı Şövqi paşanın Başkomandanlıq Vəkalətinə göndərdiyi 25 noyabr 1918-ci il tarixli raportunda yazılır: "Ermənilər Osmanlı ordularının irəli hərəkata başladığı andan Batum müqaviləsinin imzalanmasına qədər qadın və uşaqlara belə rəhm etmədən yaxaladıqları istənilən müsəlmanı qətl edərək bugünkü mövqelərinə çəkildilər. Erməniləri təqib edən Osmanlı orduları müsəlman şəhidlərin cənazələrini və parça-parça edilmiş bədən üzvlərini dəfn edərək gəldilər. Batum müqaviləsindən sonra da ermənilər bu əməllərini davam etdirdilər və hazırda da bu cinayətlər davam edir. Gəncə, İrəvan, Ordubad və İran ərazisində bu qətliamlar davam etməkdədir. Osmanlı dövləti aclıq çəkən Ermənistana taxıl göndərir və digər köməklər edir, ermənilər isə bunun qarşılığında müsəlmanları qətl edir. Ermənistanın dünyaya ermənilərin qırğınlara məruz qaldığını təbliğ etməyə çalışdığı bu məqamda onların müsəlmanlara qarşı həyata keçirdikləri soyqırım cinayətlərini qarşılarına qoymaq və bunu dünyaya bəyan etmək lazımdır. Bununla paralel olaraq bu biçarə müsəlmanların həyat və namuslarını erməni təcavüzündən qorumaq üçün lazımi tədbirlər görülməlidir"(7).

Osmanlı arxiv sənədləri içərisində diqqəti çəkən sənədlərdən biri də erməni təcavüzünə məruz qalan müsəlman əhali ilə bağlı Osmanlı Daxili İşlər Nazirliyinin Sədrəzəmliyə müraciətidir. 19 iyul 1919-cu il tarixli bu müraciətində Osmanlı Daxili İşlər Nazirliyi erməni təcavüzünə məruz qalan müsəlman əhalinin həyat və namuslarını qorumaqla bağlı On beşinci Kolordu komandanlığından Hərbi Nazirliyə daxil olan teleqramı hökumətə təqdim edir və müsəlman əhalini xain ermənilərdən qorumaq üçün hökumətin adı çəkilən müraciətə müsbət cavab verib təcavüzə məruz qalan müsəlman əhalisinin Osmanlı ərazisinə qəbul edilməsini xahiş edilir(12). Bu müraciət ətrafında gedən yazışmalardan anlaşılır ki, erməni təcavüzündən canlarını qorumaq üçün Osmanlı ərazilərinə pənah gətirən müsəlman qaçqınlarının əsasən Van vilayətinə gəlmiş və Van valisinin yardımı ilə müvafiq yerlərə yerləşdirilmişlər(13).

Osmanlı arxiv sənədlərinin araşdırılması Osmanlı dövlətinin ermənilərin müsəlmanlara qarşı törətdikləri cinayətlərin qarşısının alınması istiqamətində bütün mümkün vasitələrdən istifadə etməsini sübut edir. Belə ki, Birinci dünya müharibəsindəki məğlubiyyətlə bağlı Osmanlı dövləti İrəvan, Naxçıvan, Zəngəzur və digər Azərbaycan bölgələrində davam edən erməni vəhşiliklərinin

qarşısını almaq üçün birbaşa hərbi müdaxilə etmək imkanında olmasa da, həmin bölgələrdən daxil olan məlumatlar əsasında İstanbuldakı müttəfiq dövlətlərin nümayəndələrinə dəfələrlə müraciət edib müsəlmanların erməni təcavüzündən qorunması və onların təhlükəsizliyinin təmin edilməsi xüsusunda xahiş etmiş və "bütün lazımi tədbirlərin görüldüyü və bundan sonra da görüləcək" cavabını almışdır. Lakin Osmanlı arxivində olan sənədlər müsəlmanlara qarşı erməni hücumlarının təşkilində müttəfiq dövlətlərin bölgədəki nümayəndələrinin də əli olduğunu və bir çox hallarda onlar erməniləri açıq-aydın müdafiə edərək və ya dəstəkləyərək müsəlmanlara qarşı təhrik etdikləri faktlarını ortaya qoyur. Məsələn, Osmanlı Hərbi Nazirliyindən Xarici İşlər Nazirliyinə təqdim olunan digər bir sənəddə bildirilir ki, "Qafqazda və Osmanlı sərhədləri hüdudlarında ermənilərin müsəlman kəndlərinə etdikləri hücumların Amerika generalı tərəfindən təşkil edildiyi anlaşılır. Bu kimi halların aradan qaldırılması üçün siyasi təşəbbüs göstərilməsi lazımdır"(26).

Ermənilərin müsəlmanlara qarşı həyata keçirdiyi təcavüzlərlə bağlı Osmanlı arxiv sənədlərinin araşdırılması belə bir qəti nəticəyə gəlməyə imkan verir ki, bəhs olunan dövrdə Azərbaycanın Naxçıvan, Zəngəzur, Şərur-Dərələyəz, İrəvan və ətraf bölgələrində Ermənistan hökuməti tərəfindən birbaşa dəstəklənən və rəhbərlik edilən düşünülmüş soyqırım aktları həyata keçirilmişdir. Sənədlərdən aydın olur ki, müsəlman əhalisinə qarşı həyata keçirilən bu soyqırım aktlarına Ermənistan hökuməti, erməni ziyalıları və kilsə xadimləri rəvac vermiş və bu cinayətlərin həyata keçirilməsinə birbaşa rəhbərlik etmişlər. Öldürülən insanlarının cəsədlərinin təhqir edilməsi, cəsədlər üzərində təhqiramiz hərəkətlərə yol verilməsi, qadınlara qarşı təcavüz aktlarının gerçəkləşdirilməsi kimi qeyri-insani davranışlar Ermənistan hökumətinin gözü qarşısında baş vermiş və hökumət bütün bunları səssizcə qarşılamışdır. Osmanlı arxiv sənədlərində saxlanılmış məlumatlar onu deməyə əsas verir ki, müsəlmanlara qarşı vəhşiliklər törədən quldur dəstələri birbaşa erməni hökuməti tərəfindən dəstəklənmiş, himayə edilmiş və yönləndirilmişdir.

Ermənilər tərəfindən türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımları əks etdirən Osmanlı mənbələrinin elmi dövriyyəyə gətirilməsi Naxçıvan, Ordubad, Şərur-Dərələyəz, Sürməli, Zəngəzur qəzalarında və eyni zamanda bütövlükdə İrəvan ərazisində törədilmiş soyqırım cinayətlərinin dolğun şəkildə öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Göstərilən sənədlər soyqırım aktının miqyasının obyektiv şəkildə müəyyənləşdirilməsi ilə yanaşı, Osmanlı dövlətinin bu hadisələrə reaksiyasını və həyata keçirdiyi tədbirlərin tədqiq edilməsi baxımından əvəzsiz mənbə rolunu oynayır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 700, siy. 1, iş 12
2. ARDA, f. 970, siy. 1, iş 161
3. ARDA, f. 1061, siy. 1, iş 1-114
4. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Siyasi Sənədlər Arxivi, (ARPİİSSA), f. 277, siy. 2, iş 13, 14, 15, 16, 25, 26, 27
5. ARPİİSSA, f. 11157, siy. 5, iş 15, 16, 17, 18, 19
6. Türkiyə Cümhuriyyəti Başbakanlık Osmanlı Arşivi (BOA), Sadâret Evrâk Kalemi (A.VRK), Dosya (D.) 822, Gömlek (G.) 52, v. 1-4
7. BOA, BEO, D. 4544, G.340775, v. 3
8. BOA, BEO, D. 4549, G.341149, v. 4
9. BOA, BEO, D. 4552, G.341351, v. 1
10. BOA, BEO, D. 4552, G.341351, v. 11
11. BOA, BEO, D. 4552, G.341351, v. 13
12. BOA, Dâhiliye Nezareti Kalem-i Mahsûs Müdîriyeti (DH.KMS), D. 53-2, G.21
13. BOA, DH.KMS, D. 54-2, G.11
14. BOA, Dâhiliye Nezâreti Şifre Kalemi (DH.ŞFR), BOA, DH.ŞFR, D. 606, G.8, v. 1-2
15. BOA, DH.ŞFR, D. 636, G.54, v. 1-2
16. BOA, Hariciye Nezâreti Siyâsî Kısım (HR. SYS), BOA, HR.SYS, D. 2293, G.8, v. 23
17. BOA, HR.SYS, D. 2293, G.8, v. 78, 66
18. BOA, HR.SYS, D. 2372, G.1, v. 30
19. BOA, HR.SYS, D. 2372, G.1, v. 32-34
20. BOA, HR.SYS, D. 2372, G.1, v. 35

21. BOA, HR.SYS, D. 2373, G.2, v. 1-3
22. BOA, HR.SYS, D. 2602, G.1, v. 5
23. BOA, HR.SYS, D. 2602, G.1, v. 42, 67, 151-152
24. BOA, HR.SYS, D. 2602, G.1, v. 42
25. BOA, HR.SYS, D. 2602, G.1, v. 67
26. BOA, HR.SYS, D. 2602, G.1, v. 241
27. BOA, HR.SYS, D. 2877, G.12, v. 3
28. BOA, HR.SYS, D. 2877, G.19, v. 2
29. BOA, HR.SYS, D. 2877, G.40, v. 1
30. BOA, HR.SYS, D. 2877, G.54, v. 3
31. BOA, HR.SYS, D. 2877, G.69, v. 1
32. BOA, HR.SYS, D. 2878, G.77, v. 13
33. BOA, (HSD. AFT), D. 6, G.61
34. Abışov, V. Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər) Bakı, Nurlan, 2007, 176 s
35. Bakı. Mart 1918-ci il. Azərbaycan qırğınları sənədlərdə. Tərtib edən: S. Rüstəmova-Tohidi. Bakı, Çaşıoğlu, 2013, 456 s
36. Əhmədov, T. Erməni xəyanəti və ya Andranik Ozanyanın qanlı əməlləri (1918-1920-ci illər).-Bakı, Şirvannəşr, 2001, 32 s
37. İsgəndərli A. Azərbaycan həqiqətləri: 1917-1920. Bakı, Elm və Təhsil", 2013, 210 s
38. İsgəndərov A. Azərbaycan həqiqətləri. 1917-1920. Bakı, Elm və təhsil, 2012, 228 s
39. İsgəndərov, A. Azərbaycanda türk-müsəlman soyqırımı problemlərinin tarixşünaslığı 1918-1920 Bakı, Adiloğlu, 2006, 396 s
40. Quba. Aprel-May 1918-ci il. Müsəlman qırğınları sənədlərdə. Tərtib edən: S. Rüstəmova-Tohidi. Bakı, Çaşıoğlu, 2013, 316 s
41. 1918-1920-ci illərdə azərbaycanlıların soyqırımı: Sənədlər və materiallar. Bakı, Qartal, 2001, 175 s
42. Nağı Şeyxzamanlının xatirələri. Bakı, Qartal, 1997, 302 s
43. Orucov, N. İrəvan, Naxçıvan və Zəngəzur soyqırımı: (1918-1920-ci illərdə erməni silahlı qüvvələrinin Azərbaycan türklərinə qarşı etdikləri vəhşiliklər haqqında) Bakı, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin mətbəəsi, 1994, 48 s
44. Paşayev, A. Açılmamış səhifələrin izi ilə. Bakı,Azərnəşr, 2001,536 s
45. Musayev,İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti(1917-1921 ci illər), Bakı Universiteti nəşriyyatı,1996,-328 s
46. Baykara,H.Azərbaycan istiqlal mübarizəsi tarixi, Bakı,Azərnəşr,1992,276 s

## ABSTRACT

Complicated political situation existing with the collapsing of Russian empire the general condition changed in favor of the Armenian nationalists.

Iravan and Nakhchivan regions of Azerbaijan have great strategic and geopolitical importance.

Especially it should be noted that, the important source of the Genocide committed against Turkish – Muslim population is concerned the materials gathered by Extraordinary Investigation Committee founded by Azerbaijan Peoples Power.

In Ottoman archive documents situation in the regions which the genocides committed and Muslim populations were undergone the violence reports sent to the Ottoman empire of Ottoman army commands, civil officials have great importance.

The genocide began from the April which ended with the killing of 12 thousand seenless people of Turkish-Muslim population committed by Dashnak –Bolshevik alliance on March 1998 in Baku. This genocide almost continued in all districts – Shamakhi, Quba, Javad, Lankaran, Zangazur, Jabrayil, Shusha, Goychay, Nukha, Nakhchivan, Sharur-Daralayaz and other regions caused more than one hundred thousand's became victims.

This is an undeniable fact that, just for the military aid of the Ottoman empire the luckily operations headed by Caucasus Islamic Army organized by Ottoman and Azerbaijan armed forces

prevented the genocide crimes in Baku and in the districts of Azerbaijan which the genocide crimes lasting against the Muslim population by Armenian armed forces.

But the cruel crimes were still continued against to the Muslim population when Zangazur, Nakhchivan, and Iravan districts weren't under the control of Caucasus Islamic Army .


**РЕЗЮМЕ**

Ослабление Российской империи в результате сложной политической ситуации на Южном Кавказе изменило условию в пользу армянских националистов.

Регионы Азербайджана Иреван и Нахчыван имело большое стратегическое и геополитическое значение.

Особенно следует отметить, что важным источником является материалы отражающие политику геноцида против тюрко-мусульманского населения собранные Чрезвычайной Следственной Комиссией созданной Правительством Азербайджанской Демократической Республики .

Также является важным источником в Османских архивных документах доклады отравленные Правительству Стамбула Османскими военными и гражданскими чиновниками о ситуации в регионах где происходили геноциды, и о насилиях мусульманского населения.

С апреля начился геноцид против турецко-мусульманского населения который осуществлялся большевистско-дашнакским ***альянсом*** в марте 1918 года в городе Баку и в результате было убито 12 тысяч мирных жителей.

***Более*** 100 тысяч человек стали жертвами геноцида который продолжался почти во всех уездах Азербайджана - в Шамахе, Губе, Иреване, Зангезуре, Карабахе, Нахчыване, Шарур-Даралаязе и в других регионах.

Неоспоримый факт что, благодаря военной помощи Османской империи, и успешно проводимой операции ***Кавказской Исламской Армии,*** продолжаемый геноцид Армянских вооруженных сил против мусульманского населения в Баку и в некоторых уездах Азербайджана было ***предотвращено.***

***Жестокие преступления против мусульманского населения продолжались*** в регионах Иреван, Зангезур и Нахчыван которые не ***находились под*** контролем ***Кавказской Исламской Армии.***



NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *AMEA-nın müxbir üzvü* Z.Şahverdiyev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**

**ABDULLA MUSTAFAYEV**
**RƏSUL BAĞIROV**

**UOT:316.6**

# HEYDƏR ƏLİYEV VƏ İRANIN NAXÇIVANA YARDIMI

**Açar sözlər:** *Kommunikasiya xətləri, İqtisadi böhran, Ali Məclis, Humanitar yardım, Siyasət və Beynəlxalq Tədqiqatlar İnstitutu, Dövlət Xarici Əlaqələr Komitəsi, Qərbi Azərbaycan, Şərqi Azərbaycan*

**Key words:** *Communikation lines, The ekonomic crisis, The Supreme Council, Humanitarian aid, İnstitute for Politikal and İnternational Studies, The Foreiqn Affairs Committee, West Azerbaijan, East Azerbaijan*

**Ключевые слова:** *Линии связи, экономический кризис, Верховный Совет, Гуманитарная помощь, Институт политических и международных исследований, Комитет по иностранным делам, Западного Азербайджана, Восточный Азербайджан*

XX əsrin sonlarında Naxçıvanda çox gərgin vəziyyət yaranmışdı. Naxçıvanı Azərbaycanın digər əraziləri ilə birləşdirən dəmir yolunun Ermənistanın Mehri rayonu ərazisindən keçən hissəsinin ermənilər tərəfindən bağlanılması, qaz, elektrik, digər kommunikasiya xətlərinin kəsilməsi bu vəziyyəti daha da ağırlaşdırmışdır.

Naxçıvanın üzləşdiyi ağır iqtisadi böhranın nəticələrini aradan qaldırmaq üçün böyük dövlət xadimi Heydər Əliyev mühüm addımlar atır və yorulmaq bilmədən çalışırdı. Belə bir ağır vaxtda Bakı ilə əlaqə yalnız hava yolu vastəsilə saxlanılırdı ki, hava yolu ilə də Naxçıvanın tələbatını ödəmək mümkün deyildi. Ona görə də Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev vəziyyətdən çıxmaq üçün Naxçıvana gələn avtobusların, yük maşınlarının Xudafərindən İran ərazisinə keçib oradan Culfaya gəlmələri təklifi ilə çıxış etsə də, bu təklifin həyata keçirilməsi Azərbaycanda bəzi qüvvələrin günahı, Naxçıvana ögey münasibəti ucbatından mümkün olmadı.

Beləliklə, Ermənistan ərazisi ilə Azərbaycanın əsas ərazisindən ayrılmış, Bakı ilə kommunikasiya xətlərindən məhrum olmuş Naxçıvan MR tam blokada vəziyyətinə düşmüşdür. Bütün bunlar MR-in iqtisadiyyatında son dərəcə ağır vəziyyət yaratmış, əhalinin maddi və məişət şəraitinin tamamilə pisləşməsinə gətirib çıxarmışdır. Sənaye və əsaslı tikinti tamamilə iflic olmuş, kənd təsərrüfatı bərbad vəziyyətə düşmüşdür.Lakin Heydər Əliyev təcrübəsinə, şəxsi nüfuzuna söykənərək MR-i bu böhran vəziyyətindən çıxarmaq üçün durmadan səy göstərməyə başladı. İlk növbədə İran və Türkiyə vasitəsilə vəziyyətdən çıxış yolu axtarmağa başladı.

1991-ci il aprelin 16-da Naxçıvan MR Babək rayonunun Nehrəm kəndində İran İslam Respublikası ilə sərhəddən sadələşdirilmiş üsulla keçmək üçün yeni məntəqənin açılışı oldu. 1991-ci il mayın 21-də Qərbi Azərbaycan ostanı valisinin müavini Yusif Moderzer başda olmaqla İran

İslam Respublikasının nümayəndə heyəti Naxçıvana gəldilər. Naxçıvan MR Nazirlər Kabinetində danışıqlar zamanı aliminium qablar zavodunun bazasında alminium pəncərə və qapılar hazırlayan müştərək müəssisənin , Naxçıvanda kərpic zavodunun inşa edilməsi barədə razılıq əldə olundu.

1991-ci il oktyabrın 1-də İran hökumət orqanları ilə aparılan danışıqlar nəticəsində Muxtar Respublikaya 200 tona qədər ərzaq və yanacaq gətirən 20-yə yaxın avtomobil karvanının İran ərazisindən buraxılmasına razılıq verildi. Oktyabrın 16-da Naxçıvan MR üçün yüklər vurulmuş ilk avtomobil karvanı Astaradan İran ərazisi vasitəsilə Culfaya daxil oldu.

1991-ci il dekabrın 4-də İran İslam Respublikası Şərqi Azərbaycan vilayətinin ostondarı ağayi Əkbər Pəhrizkarı Naxçıvanda Ali Məclisin sədri Heydər Əliyev qəbul etdi. Söhbət zamanı iki qonşu xalq arasında ictimai, mədəni və ticarət əlaqələrini genişləndirməyin əhəmiyyətindən və zəruriliyindən danışılmışdır.

1991-ci il dekabrın 11-də Ali Məclisin sədri Heydər Əliyev İran İslam Respublikasının ən iri şirkətlərindən olan “ Azerlab” ın başçısı doktor Zeynalabidin Mücahidini qəbul etdi. Doktor Z.Mücahidinin Naxçıvana gəlməkdə məqsədi Muxtar Respublika ilə mal mübadiləsi aparmaq , naxçıvanlıların dərman, tibb ləvazimatı və cihazlara olan ehtiyaclarını ödəməyə kömək etmək istəməsi idi. Ali Məclisin sədri Heydər Əliyev “Azərlab” ilə mal mübadiləsi prosesini sürətləndirmək üçün lazimi şərait yaradılacağını bildirdi.

1992-ci il yanvarın 23-də İran İslam Respublikasının Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliyinin əməkdaşları Naxçıvana gəldilər. Danışıqlarda Aslandüzdən keçən avtomobil yolunun tezliklə açılması, İran ərazisindən keçməklə Naxçıvanı Azərbaycanın qalan hissəsi ilən birləşdirən dəmir yolunun, habelə elektrik xəttinin və qaz kəmərinin çəkilməsinin vacibliyi qeyd edilmişdir. Söhbət zamanı Naxçıvanda İran İslam Respublikasının və Təbrizdə Naxçıvan Muxtar Respublikasının konsulluqlarının yaradılması haqqında da razılıq əldə olundu.

Ümumiyyətlə, iqtisadi çətinliklərdən əziyyət çəkən Naxçıvana İrandan davamlı olaraq yardımlar gəlməkdə idi. Belə ki, 1992-ci ilin yanvar ayında İran İslam Respublikasından Naxçıvana yardım qismində 1000 ton kartof daxil olmuşdur.

Naxçıvana edilən yardım kompaniyasında İran İslam Respublikasının məşhur “ Bonyade Möstezəfan və Canbazane Engelabe Eslami İran” sənaye-ticarət şirkəti fəal iştirak edirdi. 1992-ci il fevralın 1-də şirkətin xətti ilə Naxçıvana humanitar yardım kimi 15 ton kolbasa məmulatı və Muxtar Respublika milli özünümüdafiə dəstəsinin əsgərləri üçün 1200 ədəd isti qış gödəkçəsi gətirildi. Ali Məclisin sədri Heydər Əliyev şirkətin nümayəndələri Fəriborz Şabanianı və Məhəmmədhəsən Əşrəfiani qəbul etdi. Bundan əlavə, Şərur rayonunda ildə 60 mln. ədəd kərpic istehsal edən zavodun layihə-smeta sənədlərinin hazırlanması, Culfa rayonundakı Darıdağ qaz zavodunun məhsulunun bir hissəsinin şirkətə satılması barədə razılığa gəlindi. Həmin gün Ali Məclisin Sədri Heydər Əliyev Maku fərmandarı Məhərrəm Allahverdizadə, İmamcümə Heydər Musəvi, mədəniyyət idarəsinin rəisi Xosrov Purəsəd və fərmandarın müşaviri Rəhim Rəhimini qəbul etdmişdir. Fevralın 2-də Ali Məclisin Sədri Heydər Əliyev İran İslam Respublikası Ağır Sənaye Nazirliyinin Şərqi və Qərbi Azərbaycan üzrə əlaqələndiricisi Həsən Qəhharini, Şərqi Azərbaycanın ağır sənaye idarəsinin baş müdirinin müavini Hacı Zeynalabidin İmanqulunu və bu idarənin proqram və dizayn şöbəsinin müdiri Məhərrəm İbrahim Mahmudçianı qəbul etdi .

1992-ci il martın 17-də İran İslam Respublikasından Naxçıvana növbəti humanitar yardım daxil oldu. Bu yardımı Səlmas vilayətinin “Hilal Əhmər” Cəmiyyəti göndərmişdir. 1992-ci ilin mayın 1-də İran İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Əli Əşrəf Nəhavəndi Naxçıvana gələrək Ali Məclisin sədri ilə görüşdü. Görüşdə İran ilə Naxçıvan arasında hərtərəfli əlaqələrin daha da möhkəmləndirilməsi ilə bağlı məsələlər müzakirə olundu.

Ali Məclisin Sədri Heydər Əliyev İran İslam Respublikasından Naxçıvana gəlmiş Qərbi Azərbaycan ostandarının müavini Yusif Modaresslə Naxçıvan MR-in azad iqtisadi zonaya çevrilməsi barədə geniş söhbət apardı. Görüşdə Qərbi Azərbaycanın Poldəşt və Naxçıvan MR-in Şahtaxtı məntəqələri arasında körpü tikintisini sürətləndirmək, Naxçıvan şəhərində Qərbi Azərbaycan nümayəndəliyinə bina ayırmaq, Urmiyada Naxçıvanın nümayəndəliyini açmaq, sərhəd ticarət müəssisələri arasında əməkdaşlığı inkişaf etdirmək mövzusunda konkret tədbirlər müəyyənləşdirildi.

1992-ci il mayın 13-də Ali Məclisin Sədri Heydər Əliyev İran İslam Respublikası Xarici İşlər nazirinin müavini ağayi Vaizini qəbul edərək Naxçıvana göstərdiyi köməyə görə minnətdarlığını bildirdi. 1992-ci il mayın 29-da Ali Məclisin Sədri Heydər Əliyev Mərənd fərmandarı ağayi Rza İbrahimi qəbul edərək Naxçıvan əhalisi üçün gətirilən ərzaq yardımına görə təşəkkürünü bildirmişdi. İyulun 8-də Urmiya viayəti fərmandarının müavini ağayi Rəsul Rzainin başçılıq etdiyi nümayəndə heyəti Naxçıvana 25 ton un, 200 çadır, 2 mln. 500 min tümən dəyərində dava-dərman, 2 maşın uşaq yeməyi, quşçuluq fabriki üçün 5,4 ton yem gətirmişdi. İranla bağlanmış sazişə əsasən qonşu ölkədən alınan elektrik enerjisini bölüşdürmək üçün Araz çayı yaxınlığında tez bir zamanda istifadəyə verilməsi nəzərdə tutulan yeni yardımçı elektrik stansiyasının tikintisinə başlanıldı.

İyulun 27-də Urmiyadan Naxçıvana gətirilən humanitar yardımlardan əlavə avqustun 3-də də 40 ton un, 20 ton şəkər, 30 ton uşaq yeməyi və 36 ton benzin, şəhər məscidinin bərpası üçün 32 min ədəd kərpic gətirildi. Heydər Əliyevin apardığı danışıqlar nəticəsində Şərur rayonunun Şaxtaxtı kəndi ilə İranın Poldəşt şəhəri arasında yeni keçid-körpünün tikilməsi barədə razılığa gəlindi.

1992-ci il avqustun 22-də Heydər Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti prezident Əli Əkbər Haşimi Rəfsəncaninin dəvəti ilə onun şəxsi "Boinq-727" təyyarəsində İrana səfər etdi. Heydər Əliyevin İran İslam Respublikasının rəhbəri ayətulla Seyid Əli Xomeyni, prezident Əli Əkbər Haşimi Rəfsəncani ilə görüşündə iki respublika arasında iqtisadi və mədəni əməkdaşlıq haqqında protokol imzalandı. Protokolda o cümlədən, Naxçıvanın elektrik şəbəkəsinin İranın elektrik şəbəkəsinə qoşulması, qonşu ölkənin ərazisindən Muxtar Respublikanın paytaxtına müxtəlif kommunikasiyaların çəkilməsi nəzərdə tutulmuşdur.

Ali Məclisin Sədri Heydər Əliyevin "Bonyade Müstəzəfan və Canbazane Engelabe Eslami İran" Fondunun prezidenti Möhsen Rəfiqdust ilə görüşü xüsusi əhəmiyyət kəsb edirdi. Bu şirkətin Naxçıvan əhalisinin ən ağır zamanlarında Muxtar Respublikaya böyük yardımları olmuşdur . Heydər Əliyevin Fondun prezidenti Möhsen Rəfiqdustla görüşü çox səmərəli oldu və avqustun 23-də Naxçıvan üçün böyük əhəmiyyət kəsb edən protokolun imzalanması ilə nəticələndi. Həmin protokola əsasən "Bonyade Mostezəfan və Canbazane Engelabe Eslame İran" sənaye- ticarət şirkəti öz vəsaiti hesabına Naxçıvan şəhərində məscid və Babək rayonunun Çeşməbasar kəndi yaxınlığında illik gücü 65mln. ədəd olan kərpic zavodu tikməyi, Babək rayonu ərazisində fəaliyyət göstərən kərpic zavodunun texnoloji avadanlığını dəyişib illik gücü ildə 20 mln. ədəd kərpicə çatdırmağı, Alt trikotaj fabrikinə ildə 3min iplik və 3mln. metr rezin verməyi, Culfa karbon qazı bazasında gücü 12 min butulka olan "Nüşabə" zavodu tikməyi, Şərur rayonunda gücü saatda 2 min paket olan meyvə şirəsi buraxan xətt quraşdırmağı, Badamlı mineral suları zavodu bazasında illik gücü 25 mln. butulka olan yeni xətt quraşdırmağı, Naxçıvanda həna sexi tikməyi və bu sex üçün xammalın Naxçıvan MR tərəfindən təmin ediləcəyini öhdəsinə götürürdü. Protokola əsasən Naxçıvan MR-in düşdüyü çətin vəziyyət nəzərə alınmaqla Araz çayı qovşağı rayonunda tikilən xətt vasitəsi ilə 1992-ci ilin oktyabrından etibarən İran İslam Respublikasından Naxçıvana 200 mln. kvt. saat enerji verilməsi nəzərdə tutulurdu. Ali Məclisin Sədri Heydər Əliyevin İran İslam Respublikasının Neft və Qaz naziri Ağazadə ilə danışıqlarından sonra İran tərəfi Xoydan Culfayadək qaz kəmərinin çəkilməsi xərcini öz üzərinə götürdü. Qaz kəmərinin çəkilişi 3 il müddətinə başa çatmalı idi. Lakin Heydər Əliyevin Naxçıvanın çox ağır vəziyyətdə olması ilə əlaqədar apardığı danışıqlardan sonra qaz kəmərinin çəkilişini bir il müddətinə başa çatdıracaqlarına söz verdilər. Qaz kəməri istifadəyə verilənədək İran Naxçıvana ayda 100 ton maye qaz göndərməyi öhdəsinə götürdü. Naxçıvan əhalisinin ərzaq və yanacaq ehtiyatlarını ödəmək məqsədilə 9 ay ərzində Naxçıvana 90 min ton kömür, 50min ton mazut, 30 min ton dizel yanacağı, 15 min ton avtobenzin, 15 min ton un, 15 min ton kartof, 5 min ton şəkər tozu, 15 min ton soğan, 1,5 min ton makaron, 1,8 min ton bitki yağı göndərilməsi barədə razılıq əldə edildi və avqustun 24-də Tehranda protokol imzalandı. Naxçıvan və İran energetiklərinin birgə səyləri ilə qısa müddətdə qonşu ölkədən Culfa və Ordubad rayonlarına elektrik xətti çəkildi.

1992-ci ilin oktyabrında Naxçıvanla İran arasında imzalanmış protokola əsasən İrandan Naxçıvana 3 ay müddətində 35 vaqondan ibarət ərzaq məhsulları, xeyli yanacaq və digər məhsullar

gətirildi. 1992-ci ilin oktyabr-noyabr aylarında İrandan Naxçıvana 520 ton dizel yanacağı, 540 ton mazut, 220 ton daş kömür , 955 ton kartof, 350 ton un, 97 ton soğan daxil olmuşur.

1992-ci il dekabrın 3-də Naxçıvan MR ilə İranı bilrləşdirən yeni Şaxtaxtı-Poldəşt məntəqəsinin təntənəli açılş mərasimi oldu. Həmin gün İrandan Naxçıvana 40 meqavat gücündə elektrik enerjisi verilməsi münasibətilə Arazın sahilində təntənəli mitinq keçirildi. 1992-ci ilin dekabrında Füzuli rayonunun Horadiz qəsəbəsindən Naxçıvana ilk sərnişin və yük avtomaşınları yola düşdü. İran ərazisindən keçən şose yolu Azərbaycanı Naxçıvan ilə birləşdirdi.

İranın "Bonyade Mostezəfan və Canbazani Engelabe Eslami İran" fondunun prezidenti Möhsen Rəfiqdust, sonra isə, yəni 1993-cü il yanvarın 16-da Mərəndin fərmandarı Məhəmməd Rza Naxçıvana gələrək Heydər Əliyev ilə görüşmüşlər.

1993-cü ilin fevral ayında İranın Maku şəhərinin fərmandarı ağayi Nadir Səfərzadə və onu müşayiət edən şəxslər Naxçıvana gələrək Şərur rayonundan olan şəhid ailələrinə müxtəlif ərzaq məhsulları ilə yardım etmişlər.

1993-cü il martın 16-da Heydər Əliyev İranın Xarici İşlər naziri Əli Əkbər Vilayətinin dəvət ilə İrana rəsmi səfərə yola düşdü. Həmi gün Heydər Əliyevin Əli Əkbər Vilayəti, martın 17-də isə İran prezidenti Əli Əkbər Haşimi-Rəfsəncani ilə görüşü oldu. Heydər Əliyev İran Energetika naziri Qulamrza Zəngani, Kooperesiya naziri Qulamrza Safei, "Bonyade Mostezəfan və Canbazani Engelabe Eslame İran" fondunun prezidenti Mohsen Rəfiqdustla da görüşlər keçirdi. Görüşdə İrandan Naxçıvana ərzaq məhsulları, xüsusən un və buğda, yanacaq malları göndərilməsi, elektrik enerjisinin müntəzəm verilməsi və artırılaraq 40 meqavata çatdırılması, Bakı ilə Naxçıvan arasında gediş-gəlişi asanlaşdırmaq üçün Araz boyu qısa məsafədə İran ərazisindən keçən yolun inşasının 15-20 günə başa çatdırılması və istifadəyə verilməsi üçün lazimi tədbirlərin görülməsi, yaz tarla işlərinin aparılması məqsədilə Naxçıvana 1500 ton kartof toxumu, 500 ton arpa toxumu, kənd təsərrüfatı ləvazimatları göndərilməsi barədə razılıq əldə olundu.

1993-cü il aprelin 5-də Heydər Əliyev "Bonyade Mostezəfan və Canbazane Engelabe Eslami" fondu prezidentinin müavinləri Fəribroz Şabanian və Məhəmmədhəsən Əşrəfianı, onlarla birlikdə Naxçıvana gələn mühəndis-texmiki işlərin bir qrupunu qəbul etdi. Söhbət zamanı Heydər Əliyevlə Möhsen Rəfiqdust arasında bağlanan müqavilədən irəli gələn məsələlərə toxunuldu. Həmçinin qeyd edildi ki, yaxın günlərdə Naxçıvan şəhərində "Bonyade Mostezəfan və Canbazane Engelabe Eslami" fondunun mağazası açılacaq, fondun vəsait hesabına ildə 60 mln. ədəd istehsal gücü olan kərpic zavodunun tikintisinə başlanacaq, qədim Naxçıvanın memarlıq ansamblını dəqiq tamamlayan, müasir tələblərə cavab verən 250 mln. tümən dəyərində məscid binası tikiləcək.

1993-cü il iyunun 1-də Heydər Əliyev İİR – in "Bonyade Mostezəfan və Canbazani Engelabe Eslami İran" fondu prezidentinin müavini Mahmud Əhmədpurun başçılığı ilə Naxçıvana gəlmiş nümayəndə heyətini qəbul etdi. Həmin gün Heydər Əliyevlə fondun prezidenti Mohsen Rəfiqdust arasında bağlanmış müqaviləyə əsasən Naxçıvan şəhərində bu fondun müasir tələblərə cavab verən ticarət mərkəzinin açılışı oldu.

Beləliklə, son dərəcə ağır vəziyyətdə olmasına və blokada şəraitində yaşamasına baxmayaraq Heydər Əliyev özünün böyük nüfuzu hesabına qonşu Türkiyə və İranın, eyni zamanda dünyanın böyük dövlətlərinin, o cümlədən ABŞ-ın yardımını təşkil edə bildi və Naxçıvanı aclıqdan, soyuqdan, erməni təcavüzündən qorumağa nail oldu.

**ƏDƏBİYYAT**


1. Hacıyev İ.M. Naxçıvan MR Azərbaycan milli dövlətçilik tarixində: Tarix elm.dok...dis.,Bakı:1999,335 s.
2. Cəfərov H.,Mustafayev A. Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhifələri (XX yüzilliyin 80-90-cı illəri)."Elm və Təhsil", bakı, 2012, 172 s.
3. "Naxçıvan" İctimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal. № 5. Naxçıvan: "Əcəmi"- 2001, 138 s.
4. Naxçıvan. Məqalələr toplusu. Bakı: "Elm", 1999, 184 s.
5. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Arxivi, f.05;06;013.
6. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi., f.1; 3/701;5/703;6/700; 7/702; 40; 63; 260; 314; 613; 619/699; 724
7. Naxçıvan Muxtar Respublikası -80. Tarixi – statisik məcmuə. Bakı: "Səda" 2004, 112 s.

8. Naxçıvan tarixindən səhifələr. “Uluslararası qaynaqlarda. Naxçıvan” beynəlxalq simpoziumunun materialları. Bakı: 1996, 222 s.
9. Talıbov V. Deportasiya tarixi və Naxçıvan. // NDU –nun “Elmi əsərlər”i (xüsusi buraxılış) Naxçıvan: 2001, № 8 s. 8-15.

**ABSTRACT**

**Heydar Aliyev and Irans hekp to Nakhichivan**

Our National Leader Heydar Aliyev tried without getting tired to eliminate the results of the economical difficulties that Nakhchivan faced at the end of XX century. The great leader tried to profit by aid of neighboring countries of Iran and Turkey. At the result of the negotiations with Iran, Nakhchivan got a great amount of aids from Iran. On April 16, 1991 there was opened a new point of passage over the river Araz near the village of Nehrem Babek region, Nakhchivan AR. The other point of passage over that river was opened near the village of Shahtakhti in October 1992. At the result it became easy for the Nakhchivanians to pass to Iran and return, to do shopping in their difficult position. Also Nakhchivan got humanitarian aid from Iran. The Iran companies as “Azerlab”, “Bonyade Mostezefan”, “Canbazane Engelabe Eslami Iran” took active parts. By the help of these companies and some other provinces of Iran the Nakhchivanians could eliminate the difficulties. By the help of the Iran Islamic Republic some enterprises could continue their functioning and it helped to solve the unemployment problem in Nakhchivan.

So in spite of his being in very difficult condition, our National Leader Heydar Aliyev, thanks to his great authority, could organize the humanitarian aid from the neighboring countries and save the Nakhchivanians in their very difficult period.

**РЕЗЮМЕ**

**Гейдар Алиев и помощь Ирана в Нахчыван**

В научной статье говорится о тяжелом общественно-политическом и экономическом положении Нахчывыны конца XX века, создавшийся в результате агрессии Армении на территорию Азербайджана в Нагорныо Карабах.

Показано, что общенациональный лидер азербайджанского народа Гейдар Алиев, после возвращения из Москвы в Нахчыван, неустанно работал и благодаря личному авторитету и большой практике государственного деятеля смог вывести свой народ из тяжелого положения, благодаря помощи соседних стран, а также Ирана.

Для ликвидации последствий тяжелого экономического кризиса в Нахчыване общенациональный лидер азербайджанского народа Гейдар Алиев старался без устали и со всей силой. Он в первую очередь использовал материальную поддержку таких соседних стран как Ирана, так и Турции. Так, в результате проведенных переговоров великого лидера с руководством Ирана в Нахчыван неоднократно поступала материальная помощь в большом количестве из этой страны. Отрытие таможенных пунктов16 апреля 1991 года вблизи села Неграм Бабекского района, в октябре 1992 года – Шахтахты Кенгерлинского района способствовало улучшению материального состояния живущих в тяжелых условиях нахчыванцев тем, что население могло переходить границу и соответствующие учреждения перевезти оказанную гуманитарьную помощь эффективно и свободно. В оказании этой помощи играли большую роль такие учреждения Ирана, как «Азерлаб», «Боняде Мостезафоур», «Джанбазане Энгелабе» и «Ислами Иран». Благодаря помощи, оказанной этими компаниями и некоторыми остандарами, население Нахчывана выдержало трудные испытания экономического характера. Кроме того, со стороны Иранской Исламской Республики в Нахчыване был создан ряд предприятий, что содействовало частичной ликвидации безработицы среди местного населения.

Таким образом, благодаря личному авторитету общенациональный лидер азербайджанского народа Гейдар Алиев смог организовать материальной помощи соседних

страν Нахчывану и тем самым спас население автономной республики от голода и холода в трудные времена в истории Азербайджана.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)
Məqaləni çapa təqdim etdi: *AMEA-nın müxbir üzvü* Z.Şahverdiyev



**XƏZƏR HÜSEYNOV**
*xezerhuseynov@gmail.com*
**ƏŞRƏF ƏLƏKBƏROV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:479.24**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA KƏND TƏSƏRRÜFATININ VƏZİYYƏTİ (1950-1960-CI İLLƏRDƏ)

**Açar sözlər:** *Naxçıvan Vilayət komitəsi, xalq təsərrüfatı, maddi-texniki baza, torpaq örtüyü, iqlim şəraiti.*
**Key words:** *Nakhchivan regional committee, national economy, material-technical base, land cover, climate condition.*
**Ключевые слова**: *Нахчыванский Областной Комитет, народное хозяйство, материально-техническая база, почвенный покров, климатические условия.*

Tarixin bütün dövrlərində olduğu kimu, 1950-60-cı illərdə Naxçıvanda kənd təsərrüfatının inkişafı özünə məxsus xüsusiyyətləri ilə fərqlənir. Ölkənin iqtisadi inkişafında mühüm rol oynayan kənd təsərrüfatı iqtisadi inkişaf qanunlarına əsaslanır. Ölkənin iqtisadiyyatının getdikcə inkişaf etdirilməsi, bu inkişafda uyğunsuzluqlara yol verilməməsi, sənaye ilə birlikdə kənd təsərrüfatının ahəngdar inkişaf etməsi, kənd təsərrüfatı məhsulları istehsalının artırılması, ərzaq bolluğunun yaradılması və cəmiyyətin kənd təsərrüfatı məhsulları ilə təmin edilməsi ən zəruri məsələlərdəndir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: "Azərbaycan kənd təsərrüfatının zəngin potensial imkanlarından tamamilə istifadə etmək, onun səmərəliliyinin daha da yüksəldilməsini, hər hektardan, hər maşının, hər ton gübrənin daha çox fayda verməsini təmin etmək bizim təxirəsalınmaz vəzifəmizdir" [2, s.18].

Məlumdur ki, kənd təsərrüfatını idarə etməkdə başlıca vəzifə əkin sahələrini genişləndirməkdən ibarət olan ekstensiv yol deyil, torpağın hər hektarına sərf edilən əmək vahidinə görə maksimum miqdarda məhsul istehsal edilməsinə imkan verən çox kamil ixtisaslaşdırılmış intensiv təsərrüfat formalarını tətbiq etməkdən ibarət olmalıdır [4, s.4].

Azərbaycanın dilbər guşələrindən biri olan Naxçıvan Muxtar Respublikasının coğrafi mövqeyi, torpaq örtüyü, iqlim şəraiti, relyefi, su mənbələri burada kənd təsərrüfatının bütün sahələrini inkişaf etdirməyə, qiymətli və əhəmiyyətli kənd təsərrüfatı bitkiləri yetişdirməyə imkan verir.

Naxçıvan Muxtar Respublikasında 50-ci illərdə kənd təsərrüfatına ciddi fikir verilmiş və həmin illərdə kənd təsərrüfatı nəzərdə tutulan səviyyədə inkişaf etmişdir. Məsələn beşinci beşillikdə dövlət tərəfindən muxtar respublika kənd təsərrüfatına 4920.0 min manat kapital qoyulmuşdusa, altıncı beşillikdə bu məbləğ 35050.0 min manata çatdırılmışdı. Bu vəsait muxtar respublika kənd

təsərrüfatının inkişafında və yüksəlişində mühüm əhəmiyyət kəsb etmişdir.

Göründüyü kimi ölkəni yeyinti məhsulları, sənayeni kənd təsərrüfatı xammalı ilə müntəzəm təmin etmək üçün dövlət xalq təsərrüfatının bu mühüm sahəsinə ayrılan vəsaitin həcmini artıraraq, əkinçilik və heyvandarlıq istehsal proseslərini mexanikləşdirmək, kənd təsərrüfatının elektrikləşdirilməsini və kimyalaşdırılması tempini yüksəltmək, su təsərrüfatı və meliorasiyanı genişləndirmək, kəndin inkişafnı, iqtisadi və sosial problemlərini kompleks həll etmək və s. mühüm məsələləri həmişə diqqət mərkəzində saxlayır.

Azərbaycanın ayrılmaz bir hissəsi olan Naxçıvan Vilayət Komitəsi ÜİK(b)P MK-nın fevral plenumunun qərarları və göstərişlərinə həmişə əsaslanaraq Azərbaycan K(b)P MK-nın rəhbərliyi altında kolxozçular su təsərrüfatı işçiləri, MTS və kənd təsərrüfatı mütəxəssisləri arasında işi təşkil edib, onların bütün qüvvələrini kənd təsərrüfat bitkiləri məhsullarının artırılmasına, əkin sahələrinin genişləndirilməsinə, mal-qaranın artmasına, su ehtiyatının mexanizaçiya səviyyəsinin artırılmasına səfərbər etmişdir. Bütün bunların nəticəsində 1949-50-ci illərdə kənd təsərrüfatının bütün sahələrində məhsuldarlıq artmış, ümumi gəlir əhəmiyyətli dərəcədə çoxalmışdır [8, v.40].

SSRİ Nazirlər Soveti 1950-ci il 20 may tarixli qərarında Azərbaycan SSR o cümlədən Naxçıvan MSSR qarşısında yaxın 4-5 ildə buğdanın məhsuldarlığını 2 dəfə artırmaq, bununla da respublikanı özünü-öz çörəyi ilə təmin etmək və toxucu sənayesi üçün bol pamşıq vermək kimi vəzifələri qoymuşdur. 1950-ci ilin payızında kənd təsərrüfatı orqanları bu mühüm vəzifəni həyata keçirməyə başlayıb 29.035 hektar sahədə yəni keçən ilə nisbətən 4.035 hektar artıq payızlıq dənli bitkilər əkmişdilər. Payızda əkilən ümumi əkinin 93,2% buğda olmuşdur ki, bu da 1949-cu ildəkindən 6.505 hektar artıqdır [8, v.41].

1951-ci ildə kolxozlar ət təhvili planını 115,5% yerinə yetirdikləri halda kolxozçular 75,7% yerinə yetirmişlər ki, buna görə də respublikada əttəhvili planı ancaq 96,5%, yağ 101,5%, yumurta 104,5% , yun üzrə 107,7% yerinə yetirilmişdir [9, v.20].

Təkcə bu faktı göstərmək kifayətdir ki, 1953-1955-ci illərdə kənd təsərrüfatının inkişafı və yüksəldilməsi məsələsinə Sov.İKP MK-nın üç plenumu həsr edilmişdir. Dövlətin kənd təsərrüfatı sahəsində qarşıya qoyduğu ümumi xalq vəzifəsi ölkədə iqtisadiyyatı inkişaf etdirməkdən, əhalinin ərzaq məhsullarını artan tələbatını ödəməkdən, yüngül və yeyinti sənaye sahələrini xammalla təmin etməkdən ibarət idi. Sov.İKP MK-nın sentyabr (1953-cü il), fevral-mart (1954-cü il), yanvar (1955-ci il) plenumlarının qarşıya qoyduqları muhum vəzifələri yerinə yetirərək, Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi və respublika zəhmətkeşləri 1953-1955-ci illərdə kənd təsərrüfatının inkişaf etdirilməsində bir sıra işlər görmüş, müəyyən nəticələr əldə edilmişdi. Bu dövrdə muxtar respublikada kolxoz quruluşu daha da inkişaf edib möhkəmləndirilmiş, MTS-lərin işi xeyli yaxşılaşmış, elmin nailiyyətləri kənd təsərrüfatının bu və ya digər sahələrinə tətbiq edilmiş, qabaqcıl aqrotexniki, zootexniki üsullardan istifadə edilməyə başlanmışdı.

Muxtar respublikada kolxoz istehsalının bütün sahələrinin müvəffəqiyyətlə inkişaf etdirilməsi üçün ən mühüm şərait yaranmışdır. 1950-ci ildə muxtar respublikada kolxozların sayı 72 olduğu halda, bu rəqəm artaraq 1955-ci ildə 100-ə çatdırılmışdır [6, s.40].

Bəhs edilən dövrdə kənd təsərrüfatının inkişafı üçün mühüm əhəmiyyətə malik olan təsərrüfat və siyasi vəzifələr 1952-ci il oktyabrın 10-da qəbul edilmiş “1951-1955-ci illərdə SSRİ-nin inkişafına dair beşinci beşillik plan haqqında Dirktivlər” də öz əksini tapmışdır.

Ölkənin digər iqtisadi regionları kimi, Naxçıvan Muxtar Respublikasının zəhmətkeşləri də beşillik planı öz doğma işləri, öz həyatı manefələrinə tam muvafiq bir mübarizə proqramı kimi qarşılamış və onu yerinə yetirmək uğrunda mübarizəyə başlamışdılar.

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi kolxoz təsərrüfatını genişləndirmək, istehsalın idarə olunmasında kolxozçuların fəallığını artırmaq sahəsində xeyli iş görülmüşdü. Kolxozlarda daim istehsal briqadaları möhkəmləndirilmiş, briqadir kadrların seçilməsi və tərbiyə edilməsinə diqqət artırılmış, kolxoz quruluşunu daha da inkişaf etdirmək, əkinçilik və heyvandarlıq məhsullarını yüksəltmək və sair sahədə mühüm işlər görülmüşdür.

İkinci Dünya müharibəsi illərində muxtar respublikada pambıq bitkisi əvəzinə, məhsulundan hərbi məqsədlər üçün yağ istehsal edilən gənəgerçək bitkisi əkilirdi. Taxıl bitkilərinin sahələrinin və məhsuldarlığının artırılması hesabına onun istehsalı xeyli artırılmışdır [7, s.36].

Müharibədən sonra muxtar respublikada pambıq əkin sahəsi yenidən bərpa edilmişdi və artırılmışdı. Belə ki, muxtar respublikada pambıq əkin sahəsi 1950-ci ildə 7827 hektar olduğu halda, 1955-ci ildə 9705 hektara çatdırılmışdır [6, s.43]. Hətta kolxozlarda pambıqçılığın daha da inkişaf etdirilməsinə rəhbərliyi təmin etmək üçün Naxçıvan MSSR Ali Sovetinin rəyasət Heyəti "Naxçıvan MSSR rayon zəhmətkeş deputatları sovetlərinin icraiyyə komitələri yanında pambıqçılıq şöbələri yaratmaq haqqında" fərman vermişdir.

Pambıqçılıq şöbələri respublikanın 2 pambıq əkən Naxçıvan (indiki Babək) və Noreşen (indiki Şərur) rayonlarında yaradılmışdır.

Muxtar respublika kolxozları, MTS işçiləri və kənd təsərrüfatı mütəxəssisləri pambıqçılığın, taxılçılığın, bağçılığın, tütünçülüyün və heyvandarlığın inkişaf etdirilməsi sahəsində az iş görməmişlər. Beşinci beşillikdə muxtar respublikanın kolxozları dövlətə hər cür kənd təsərrüfatı məhsulları təhvili planlarını vaxtından əvvəl və artıqlaması ilə yerinə yetirmişdilər.

Muxtar respublikada əkin sahələrinin genişləndirilməsi, bol məhsul uğrunda mübarizədə aqrokimya elmindən geniş istifadə edilməsi, xırda kolxozların böyük kolxozlarla birləşdirilməsi, kolxozların və kolxozçuların ümumi gəlirlərinin müqayisə edilməz dərəcədə artırılmışdır. Bu isə muxtar respublikada kəndlərinin abadlaşdırılmasını və zəhmətkeşlərin maddi rifahının yüksəlməsinə imkan vermişdi.

Naxçıvan Muxtar Respublika kənd təsərrüfatının vəziyyəti təhlil edilən zamanı aydın oldu ki, muxtar respublikada kolxozlar iriləşən zamanı bir sıra ciddi nöqsanlara da yol verilmişdir. Bəzi hallarda idarə heyəti, sədrlər kənd təsərrüfatı arteli üzvləri tərəfindən seçilmir, onlar öz fəaliyyətləri haqqında kolxozçuların ümumi yığıncaqlarında hesabat vermirdilər.

Muxtar respublikanın kolxozlarında aparılan yoxlamalar nəticəsində aşkar edilmişdir ki, respublikanın 12.521 təsərrüfatdan 1124-də 98,16 hektar əkin sahəsi mənimsənilmişdir. Təkcə Naxçıvan (indiki Babək) rayonunun Nehrəm kəndində 64 təsərrüfat həyətyanı sahələrini 7 hektar artırmışdı [8, v.56].

Muxtar respublikada xırda kolxozlar iriləşən zamanı aşkar oldu ki, ayrı-ayrı şəxslər tərəfindən 118 hektar əkin sahəsi 134 min manat pul, 8 tondan artıq taxıl, 21 baş at, 189 iri buynuzlu, 2963 baş xırda buynuzlu heyvan və 2500-dən artıq quş mənimsənilmişdir [9, v.18]. Bütün bunlar kolxozlara qaytarılmışdır.

1951-1955-ci illərdə muxtar respublikada kənd təsərrüfatının maddi-texniki bazası xeyli möhkəmləndirildi, taxılçılıq, pambıqçılıq, tütünçülük, üzümçülük, meyvəçilik, heyvandarlıq, baramaçılıq kimi mühüm sahələr inkişaf etdirildi. Kənd təsərrüfatı məhsullarının istehsalı və dövlətə satışı planı vaxtından əvvəl yerinə yetirildi.

1951-ci ilin may ayından 1952-ci ilin sentyabr ayına kimi Naxçıvan MSSR-də MTS-lər dövlətdən 90 ədəd yeni güclü traktor, 60 traktor kotanı, 16 dənli bitki toxumsəpəni, 32 çiyid səpən maşın, 30 kombayn, 10 taxıldöyən, 28 qoşma və otbiçən, 34 pambıqyığan maşın alınmış, muxtar respublikaya 10 min 900 ton gübrə gətirilmişdi. Bu da əkinçilik mədəniyyətini yüksəltməyə, kənd təsərrüfatı bitkilərinin, xüsusilə texniki və dənli bitkilərin məhsuldarlığını xeyli artırmağa imkan yaratmışdı [9, v.10].

Muxtar respublikada heyvandarlığı inkişaf etdirmək planı 1951-ci ildə iribuynuzlu heyvanlar üzrə 88,2%, xırdabuynuzlu heyvanlar üzrə 96,7% yerinə yetirilmişdir. 1952-ci il avqustun 1-ə respublika üzrə göstəricilər belə olmuşdur: iribuynuzlu heyvanlar üzrə plan 98,4%, xırdabuynuzlu heyvanlar üzrə 130,3% olmuşdur [9, v.15].

"Suvarılan torpaqlardan daha mükəmməl istifadə etmək və kənd təsərrüfatı işlərinin mexanikləşdirilməsini yaxşılaşdırmaq məqsədilə yeni suvarma sisteminə keçmək haqqında" SSRİ Nazirlər Sovetinin 1950-ci il 17 avqust tarixli qərarını yerinə yetirən Naxçıvan Vilayət Partiya Komitəsi və Naxçıvan MSSR Nazirlər Soveti muxtar respublikada öz təsərrüfatının inkişafına diqqəti daha da artırmışlar. Bunun nəticəsində 1954-1955-ci illərdə 2 milyon 800 minə yaxın kub litr su tutumu olan 2-ci və 3-cü Batabat göllərinin, Naxçıvan (indiki Babək) rayonunun Nehrəm, Təzəkənd kəndlərində olan göllərin inşası başa çatdırılmışdı.

Muxtar respublikanın kolxozlarında olan torpaq sahələri (uzun müddətə istifadəyə verilən

torpaqlardan başqa) 1950-ci ildə 380034 hektar olduğu halda, bu rəqəm 1955-ci ildə 382311 hektara çatdırılmışdır [6, s.41].

Kolxozlarda kənd təsərrüfatı bitkilərinin bütün əkin sahələri 1950-ci ildə 50048 hektar olduğu halda, 1955-ci ildə bütün əkin sahələri 53900 hektar olmuşdur [6, s.44]. Əkinçilik məhsullarının dövlətə satışı və tədarükü 1950-ci ildə dənli bitkilər üzrə 3438 ton, pambıq 17918 ton, mal-qara və quş əti ( diri çəki hesabı ilə) 1708 ton, süd və süd məhsulları 1995 ton, yumurta 734 min ədəd, yun (yuyulmuş zaçot çəkisi hesabı ilə) 246 ton yerinə yetirildiyi halda, 1955-ci ildə dənli bitkilər üzrə 3750 ton, pambıq 16944 ton, mal-qara və quş əti 2856 ton, süd və süd məhsulları 3974 ton, yumurta 1041 min ədəd, yun 353 ton, əkinçilik məhsulları dövlətə satılmış və tədarük edilmişdi [6, s.74].

Ümumiyyətlə, Azərbaycan zəhmətkeşləri kimi, Naxçıvan Muxtar Respublikası-nın zəhmətkeşləri də 1951-1955-ci illərdə kənd təsərrüfatını inkişaf etdirərək dövlət planı və tapşırıqlarını yerinə yetirərək muxtar respublika iqtisadiyyatının inkişafında mühüm nailiyyətlər qazanmışlar.

1957-ci ildə muxtar respublikanın kolxozlarında heyvandarlıq sahəsində mühüm naliyyətlər əldə edilmişdir. Heyvandarlığın inkişaf planı 1957-cı ilin 11 ayı ərzində iribuynuzlu mal-qara üzrə 98%, qoyunlar üzrə 104% yerinə yetirilmişdir [10, v.26].

Görülən tədbirlər nəticəsində heyvanların tələfatı xeyli azalmış. Ana heyvanlardan alınan balaların sayı isə xeyli artmışdır. Belə ki, əgər 1955-ci ildə hər 100 baş inəkdən 65 buzov, hər 100 baş ana qoyundan 83 quzu alınmışdısa, 1957-ci ildə hər 100 baş inəkdən 72 buzov, hər 100 baş ana qoyundan 85 quzu alınmışdır [10, v.29].

1958-ci ildə Naxçıvan MR-də işçi qüvvəsi, xammal və materiallar lazımi qaydada bölüşdürülmüş, kənd təsərrüfatının inkişafına əsaslı sərmayə qoyuluşu artırılmış, muxtar respublikada xırda kolxozlar iri kolxozlarla birləşdirilmişdir. Nəticədə 1958-ci ildə muxtar respublikada 4722 ton dənli bitki, 11553 ton pambıq, 1057 ton tütün, 56,8 ton kortof, 968 ton tərəvəz, 2928 ton üzüm, 2398 ton ət (diri çəki hesabı ilə), 4630 ton süd və süd məhsulları, 863 min ədəd yumurta, 412 ton yun, 80 ton barama və s. kənd təsərrüfatı məhsulları dövlətə satılmış və tədarük edilmişdi [3, s.16].

1965-ci ildə muxtar respublikada üzümçülüyün vəziyyəti heç də yaxşı olmamışdır. Belə ki, 1965-ci ilin iyun tarixinə qədər respublikada 512 hektar yeni üzüm bağı əkilmişdir ki, bu da müəyyən edilmiş planın 35,3% təşkil edirdi. Bəhs edilən dövrdə kolxozlar üzrə 300 hektar plana qarşı 136, yaxud 45,3%, üzümlük və şərabçılıq komitəsinin sovxozları üzrə 1155 hektar plana qarşı 376 hektar yaxud 32,6% olan yerinə yetirilmişdir [11, v.51].

Səkkizinci beşillitin birinci ili olan 1966-cı ildə muxtar respublikada kənd təsərrüfatı sahəsində bəzi naliyyətlər əldə edilmişdir. Belə ki, 1966-cı ildə qabaqkı illərə nisbətən dövlətə 674 ton pambıq, 1050 ton taxıl, 3,5 ton barama, 4653 ton üzüm, 70 ton tütün, 65 ton bostan məhsulu, 421 ton süd, 12 ton yun və sairə kənd təsərrüfatı məhsulları satılmışdır [12, v.49].

1966-cı ildə muxtar respublikada olan kolxoz və sovxozlarla Azərbaycan kənd Təsərrüfatə Texnikası Birliyinin 5 rayon şöbəsi xidmət göstərmişdi [5, s.33]. Onlar müasir traktor və kənd təsərrüfati maşınları, eyni zamanda ehtiyyat hissələri ilə təmin edilmşdir. Bəhs edilən dövrdə muxtar respubilkanın kolxoz və sovxozlarında 448 traktor, 114 ədəd taxılyığan kombayn, 339 ədəd yük avtomobili fəaliyyət göstərmişdir [5, s.80]. Lakin görülən tədbirlərə baxmayaraq muxtar respublikada kənd təsərrüfatının maddi-texniki bazası lazımi səviyyədə olmamışdır.

Göstərilən müvəffəqiyyətlərlə yanaşı kənd təsərrüfatı sahəsində 1966-cı ildə bəzi nöqsanlara da yol verilmişdir. Bəhs edilən dövrdə muxtar respublikada pambıqçılıqla məşğul olan 23 təsərrüfatdan 9 təsərrüfat pambıq istehsalı planını yerinə yetirməmişdir. Belə ki, 1966-cı ildə pambığın maşınla yığılması muxtar respublikada 27%, iliç (Şərur) rayonunda 19%, Naxçıvan (Babək) rayonunda isə 37% yerinə yetirilmişdir [12, v.50].

Heydər Əliyevin 1969-cu il 14 iyulda Azərbaycana rəhbər seçilməsi ilə Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın həyatında dönüş baş verdi, ölkəmiz əsl tərəqqi yoluna qədəm qoydu.

Qısa müddət ərzində hazırlanmış və həyata keçirilmiş strateji kurs uzun müddətli geriliyə son qoymuş, respublika həyatının bütün sahələrində sabit və dinamik artım əldə edilmişdi.

1969-cu ildən sonra Heydər Əliyevin həyata keçirdiyi kompleks tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatında yüksək inkişafı baş verdi. Muxtar respublikanın kənd təsərrüfatı yenidən quruldu onun maddi-texniki bazası möhkəmləndirildi. Yeni texnika və texnologiyaların, səmərəli əkinçilik sistemlərinin tətbiqi, növbəli əkinçilik sisteminin genişləndirilməsi, kənd təsərrüfatına yararlı torpaqların, xüsusilə də yeni əkin yerlərinin istifadəyə verilməsi vəziyyəti yaxşılaşdırıldı. Əkin sahələrinin məhsuldarlığını artırmaq məqsədilə, bitkiləri xəstəliklərdən və ziyanvericilərdən qoruyan kimyəvi vasitələrin tətbiqi genişlənməyə başladı. Muxtar respublikanın kənd təsərrüfatı ixtisaslı mütəxəsislərlə təmin edildi.

Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasında qeyrirentabelli pambıqçılıq daha yüksək məhsuldarlığa malik üzümçülük və tütünçülüklə əvəz olundu. Burada kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi, mexanikiləş-dirilməsi, kimyalaşdırılması, torpaqların meliorasiyası sahəsində mühüm işlərin görülməsi məhz Heydər Əliyevin xidmətləri sayəsində baş verdi.

Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında taxılçılığın, üzümçülüyün, tərəvəzliyin, heyvandarlığın inkişafına diqqət və qayğısının nəticəsi idi ki, burada ümumi kənd təsərrüfatı istehsalı hər il ardıcıl şəkildə artırdı. Onun təşkilatçılıq və böyük qayğısı sayəsində Naxçıvan Muxtar Respubliksının kənd təsərrüfatı yeni inkişaf yoluna çıxmışdı.

## ƏDƏBİYYAT


1.Azərbaycan tarixi: Yeddi cilddə, VII c., Bakı: Elm, 2008, 608 s.
2.Əliyev H.Ə. Azərbaycan SSR kənd təsərrüfatının və bütün iqtisadiyyatının daha dinamik inkişafını təmin etməli. Bakı: Azərnəşr, 1979, 154 s.
3.Hüseynov A.Y. "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası müharibədən sonra sosializm quruculuğu dövründə (1946-1958-ci illər)". Tarix elm. nam. diss. Avtoref. Bakı: 1987, 23 s.
4.Qəhramanov R.C. "Naxçıvan MSSR-də kənd təsərrüfatının yerləşdirilməsi və ixtisaslaşdırılması". Bakı: Azərnəşr, 1967, 194 s.
5.1970-ci ildə Naxçıvan MSSR-nin xalq təsərrüfatı statistik məcmuə. Bakı: Birləşmiş nəşriyyat mətbəəsi, 1972, 137 s.
6.Naxçıvan MSSR Xalq Təsərrüfatının inkişafı. Statistik məcmuə. Bakı: Birləşmiş nəşriyyat mətbəəsi. 1964. 142 s.
7.Nadirov A.A. Naxçıvan MSSR (iqtisadi coğrafi oçerk). Bakı: Azərnəşr, 1959, 124 s.
8.Nax. MR DA. (keçmiş partiya arxivi). f. 1, s. 1, iş. 196, v. 40-59.
9.Nax. MR DA. (keçmiş partiya arxivi).f. 1, s. 1, iş. 237, v. 9-21.
10.Nax. MR DA. (keçmiş partiya arxivi). f. 1, s. 1, iş. 516, v. 9-46, 81-86.
11.Nax. MR DA. (keçmiş partiya arxivi). f. 1, s. 1, iş. 970, v. 51-59, 66-71.
12.Nax. MR DA. (keçmiş partiya arxivi). f. 1, s. 1, iş. 1013, v. 37, 48-56.


## ABSTRACT


**Khazar Huseynov**
**Ashraf Alakbarov**


**The situation of agriculture in the Nakhchivan Autonomous Republic (1950-1960s)**


Like this and other articles, the theme-position of agriculture in the Nakhchivan Autonomous Republic in 1950-1960s-also creates scientific interest. In the article the situation of agriculture in the Nakhchivan Autonomous Republic is investigated.

As at all times, in the 1950-60 years the development of agriculture in the Nakhchivan Autonomous Republic is differed by its own characteristics. At the above mentioned years agriculture which playing an own role in the economic development of the country based on the laws of economic development. Gradually developing of the country economy, avoiding

discrepancies in this development, quickly development of the agriculture together with industry, increasing agricultural production, creating an abundance of food, increasing of legumes and livestock products day by day, the provision of the population with safe agricultural products were the most important issue. In the investigated years, strengthening and mechanization of the material-technical base of agriculture, important works on in the field of land reclamation in the Nakhchivan Autonomous Republic specially thanks happened to Heydar Aliyev's care.

In the article situation of agriculture in 1950-1960s in the Nakhchivan Autonomous Republic and achievements in its development were included in using the scientific revolution due to archival materials, statistical yearbooks, printed or works of other authors, articles, periodicals.

## РЕЗЮМЕ

**Хазар Гусейнов**

**Ашраф Алекперов**

**Состояние сельского хозяйства в Нахчыванской Автономной Республике (1950-1960 годы).**

Как эти и другие статьи, так и тема состояние сельского хозяйства в Нахчыванской Автономной Республике тоже создает научный интерес. В статье исследуется состояние сельского хозяйства в Нахчыванской Автономной Республике.

Как во все времена, в 1950-60 годы развитие сельского хозяйства в Нахчыванской Автономной Республике отличается по своим характеристикам. В упомянутой выше лет сельском хозяйстве, которое играет свою роль в экономическом развитии страны на основе законов экономического развития. Постепенно развиваясь из экономики страны, избегая расхождений в этом развитии, быстре развитие сельского хозяйства вместе с промышленностью, увеличение сельскохозяйственного производства, создания изобилия продуктов питания, повышение бобовых и продуктов животноводства день ото дня, предоставление населению с безопасным сельскохозяйственной продукты были наиболее важный вопрос. В исследованных лет, укрепление и механизация материально-технической базы сельского хозяйства, важных работ по в области мелиорации земель в Нахчыванской Автономной Республике, специально благодаря случилось ухода Гейдара Алиева.

Встатье введены в научный оборот состояние сельского хозяйства в 1950-1960 годах в Нахчыванской Автономной Республике и достижения в его развитии используясь из архивных материалов, статистических сборников,этих и других напечатанных произведений авторов, статий, периодической прессы.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *AMEA-nın müxbir üzvü* Z.Şahverdiyev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**

**ŞAMXAL MƏMMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:930**

# NƏSİRƏDDİN TUSİNİN DÖVLƏTİN XARİCİ SİYASƏTİ, MÜHARİBƏ VƏ SÜLH MƏSƏLƏLƏRİ BARƏDƏ DÜŞÜNCƏLƏRİ

**Açar sözlər:** *Tusi, böyük mütəfəkkir, müharibə, xarici siyasət*
**Keywords:** *Tusi, great thinker, war, foreign policy*
**Ключевые слова**: *Туси, великий мыслитель, война, внешняя политика*

Beynəlxalq münasibətlər tarixindən məlum olduğu kimi, Nəsirəddin Tusi məşhur alim, riyaziyyatçı, astronom olmaqla yanaşı, həm də görkəmli dövlət xadimi, siyasətçi olmuş, həmin dövrdə İranda qurulan İsmaililər dövlətinin, habelə Yaxın və Orta Şərqdə hökmranlıq edən Hülakilar xanədanının diqqətini çəkmişdi.

Dövlətlərarası münasibətlərin və xarici siyasətin böyük ustadı olan Tusi 22 ilə yaxın yaşadığı İsmaililər sarayında, 20 ilə yaxın fəaliyyət göstərdiyi Hülakular dövlətində böyük nüfuz sahibi olmuş, həmin dövlətlərin xarici siyasət xəttinə, qonşu hökmdarlarla münasibətlərinə yaxından təsir göstərmişdi. O, bütün dövrlərin ən qorxunc terrorçu dövlət başçıları olan ismaili hökmdarları - Əlaəddin, Rüknəddin, monqol hökmdarları - Hülaku xan və Abaqa xanın böyük hörmət və etibarını qazanmışdı. Monqol imperatoru Münkə xaqan da, Abbasi xəlifəsi Möhtəsim də, digər yaxın-uzaq hakimlər də onu öz yanlarında görməyə, onun istedadından bəhrələnməyə çalışmışlar. Tusi İsmaililər dövlətində hökmdarların məsləhətçisi, Hülakilar imperiyasında isə müşavir, hətta bəzi məlumatlara görə vəzir vəzifələrində çalışaraq həmin dövlətlərin xarici siyasətində və tarixi talelərində mühüm rol oynamışdı. Mənbələrin məlumatlarına görə, Bizans imperiyasının paytaxtı Konstantinopolun monqol hücümlarından kənarda qalmasına və Bağdadın isə həmin hücumlara məruz qalmasında son sözü Tusi demişdi.

Xarici siyasət, müharibə və sülh məsələləri bir dövlət xadimi olaraq Tusinin nəinki gündəlik əməli fəaliyyətində, eləcə də çoxsaylı elmi əsərlərində öz əksini tapmışdı. Bu əsərlərin içərisində alimin 1232-1233-cü illərdə İsmaililər sarayında olarkən hökmdar Möhtəşəmin adına yazdığı «Əxlaqi-Nasiri» mühüm yer tutur.

Tusi həmin əsərdə bir çox digər məsələlərlə yanaşı, xarici siyasət məsələ-lərinə toxunur, onun müxtəlif cəhətlərinə aydınlıq gətirirdi. Məsələn, dünyanın böyük dövlətlərinin bu gün də istifadə etdikləri daxili münaqişələri qızışdırmaqla ayrı-ayrı xalqları əsarətdə saxlamaq təcrübəsi hələ qədim və orta əsrlər dövrlərində də məlum idi.Tusi bu barədə yazırdı: «İskəndər Daranın ölkəsini istila etdikdən sonra iranlıların mədəniyyətli, qüdrəti, nizam-intizamlı, çoxlu bacarıqlı sərkərdələri, külli miqdarda silah və ordusu olan bir xalq olduğunu gördükdə başa düşdü ki, o, buradan getsə, bir az keçməmiş bunların içərisindən intiqam almaq istəyənlər baş qaldıracaq, rum hakimiyyətinə son qoyulacaqdır. Onlardan sədaqət və ədalət gözləmək də sadəlövhlük olardı. O, dərin fikrə dalaraq, çarəsiz qaldı və nə barədə

düşündüyünü Aristatalisə anlatdı. Filosof buyurdu: «Aralarına nifaq sal, qoy başları bir-birinə qarışsın; onlardan arxayın ola bilərsən. İskəndər «tayfalar hakimiyyəti» (feodallıqlar) yaratdı, hər yerə bir feodal oturtdu. O vaxtdan ta Ərdəşir Babəkan dövrünə qədər İranda nə ittifaq kəlməsi eşidildi, nə intiqam səsi yüksəldi» (1,s.228).

Tusinin fikrincə, «İnsan müdrikdir. O, müharibə istəmir. Heç bir xalq müharibə istəmir. Onları bu qırğına hökmdarlar məcbur edirlər» (2,s.53).

Tusinin dövründə İslam Şərqi ağır hərbi-siyasi böhran keçiridi. Dini çə-kişmələr, hakimiyyət uğrunda mübarizələr, xarici basqınlar qanlı müharibələrə səbəb olurdu. Ölkələr zəifləyir, ərazilər xarabalığa çevrilir, əhali gücdən düşür, qeyri-müsəlman dövlətlərin hücumlarına qarşı islam dövlətləri birləşə bilmirdilər.

Böyük mütəfəkkir belə hesab edirdi ki, əgər dövlət başçıları xeyirxah və ədalətli olsalar, müttəfiqlik şərtlərini yerinə yetirsələr, ixtilaf, münaqişə və müharibələr də meydana çıxmaz, insanlar bir-birini məhv etməzlər.

Tusi göstərirdi ki, hökmdar düşmənləri dəf etməkdə,…sərhədlərini qoru-maqda, keşikçilərin halına qalmaqda…etinasızlıq göstərməməlidir, çünki şahın ölkəni mühavizə etmək haqqındakı tədbirləri böyük orduların qüvvəsindən daha güclü olar. Bunun üçün lazımdır ki, xəfiyyə işçiləri, kəşviyyatçılar düşmənlərin vəziyyətini, gizli fikirlərini aşkara çıxarsınlar. Çünki düşmənlərə müqavimət göstərmək üçün ən qüdrətli silah onların nə edəcəklərini əvvəlcədən bilməkdir.

Tusi işğalçılıq müharibələrini pisləyir və hesab edirdi ki, dövlətlərarası münaqişələri həll etmək üçün müharibələr heç də həmişə zəruri deyildir. Ona görə də dövlət başçısı «düşmənləri yola gətirib onlarla saziş bağlamağa son dərəcə səy göstərməli və ehtiyatlı olmalıdır, lakin elə etməlidir ki, müharibə və ölüb-öldürməyə ehtiyac qalmasın(1.s.234).

Böyük siyasətçi belə hesab edirdi ki, «bağlanan müqavilələr hökumətlərin sayıqlığını kütləşdirməməli, yeni müharibələr və qan axıdılmasına imkan yaratmamalıdır»(8,s.216).

Tusi düşünürdü ki, dövlətlərarası münasibətlərin yaxşılaşması üçün dövlət başçıları müntəzəm olaraq görüşməlidirlər. Beləliklə mütəfəkkir, müxtəlif məsələləri müzakirə və həll etmək məqsədilə beynəlxalq forumların çağrılması ideyasını irəli sürürdü.

Alimin düşüncəsinə görə, müharibə edən tərəflərdən hücuma keçənin məqsədi ədalət və cihaddan başqa bir şey olmamalıdır. Hücuma isə o halda keçmək doğru olardı ki, ustün gəlib qələbə çalmağa əminlik olsun. Qələbəyə ümid yoxsa, əlbəttə müharibəyə başlanmamalıdır. Şah, gərək hiylə işlətmək, tədbir görmək, düşmən arasına təfriqə salmaq yolu ilə çalışmalıdır ki, silaha əl atmağa ehtiyac qalmasın. Çünki, müdriklərin fikrincə qamçı kifayət edən yerdə çomaqdan, toppuz işlədilə bilən yerdə qılıncdan istifadə etməzlər. «Müharibə son tədbir olmalıdır».

Çoxsaylı müharibələrin şahidi olmuş və onların acı təcrübəsindən nəticə çıxaran Tusi belə hesab edirdi ki, Şah mümkün qədər şəxsən döyüşə girişməməli, ordu rəhbərliyini şücaətli, sədaqətli, çoxlu müharibələrdən çıxmış təcrübəli bir sərkərdəyə tapşırmalıdır. Müharibənin ən mühüm şərtləri sayıqlıq, casuslar göndərmək və dövrələmə keşikçilər qoymaqdır. Müharibə dövründə şücaət göstərib fərqlənənlərə yüksək mükafatlar, xələt və ənamlar, təşəkkür və tərifnamələr vermək lazımdır.

Tusi hərbi əməliyyatlar zamanı səbatlı, təmkinli olmağı lazım bilir, tələ-sikliyi, dəlisovluğu, özünüitirməyi yolverilməz hesab edirdi. Düşmənə məhəl qoymamaq, onu kiçik saymaq, səhlənkarlıq edib öz qüvvələrini tam səfərbərliyə almamaq ağılsızlıq əlamətidir. Çünki, «Azların Allahın köməyi ilə çoxlara qələbə çalması az olmamışdır».

Böyük insanpərvər alim müharibələr zamanı mülki əhali içərisində itkiləri mümkün qədər azaltmaq məqsədilə məsləhət bilirdi ki, adamları etibarlı, möhkəm, yaxşı qorunan yerlərə, qalalara toplamaq lazımdır.

Mütəfəkkirin fikrincə, qələbədən sonra qətl və qırğınlar dayandırılmalı, əsir tutmaq mümkün olduğu halda məğlublar öldürməməlidirlər. «Çünki əsirdən çox fayda götürmək olar, məsələn: biyar işlətmək, girov qoymaq, mal ilə dəyişmək, bağışlayıb boynuna minnət qoymaq və s., öldürməkdən isə heç bir xeyir olmaz»(1,s.235).

«Qələbədən sonra, əlbəttə, başdantutma edama başlamamalı, kin və nif-rətdən əl çəkməli, ədavətə son qoyulmalıdır, çünki qələbədən sonra məğlub edilmişlər qulam və rəiyyət yerində olarlar…Bir dəfə Aristatalisə xəbər çatır ki, İskəndər bir şəhəri məğlub etdikdən sonra yenə onun əhalisini qırmaqdan əl çəkməmişdir. Aristatalis dərhal ona bir nəsihətamiz məktub yazır və orada deyir: «Zəfərdən əvvəl düşməni öldürməyə üzürlü idinsə, qələbədən sonra öz rəiyyətini öldürməyə nə bəhanə

gətirə bilərsən»…Əhv edib bağışlayan şahlar ba-ğışlamayanlardan daha yaxşıdırlar, çünki gücü göstərdikdən sonra bağışlamağın başqa hüsnü var»(1,s.235).

Böyük humanist olan Tusinin fikrincə, fəth edilmiş ölkənin rəiyyətinə zülm edilməsi hökmdarın zəifliyi əlamətidir. Rəvayətə görə Cəlaləddin Xarəzmşahın Təbrizi tutarkən xalqa etdiyi zülm barədə eşidən Hülaku xan demişdi: «Biz, Allaha şükür olsun, həm dünyanı fəth edirik, həm də onu idarə edirik. Düşmənlərçin mən işğalçıyam, tabe olanların hökmdarı. Mən Cəlaləddin kimi zəif və gücsüz deyiləm»(2,s.51).

Tusi hesab edirdi ki, müharibə zamanı müdafiədə durmaq lazım gələrsə, gərəkdir ki, səngərlər qazılsın, pusqular düzəldilsin, düşmən üzərinə gecə bas-qınları təşkil edilsin. Müharibəyə məcbur olmuş şəhərlərə gəldikdə isə, onlar müqavimət göstərməyə qadir olmadıqda, lazımdır ki, qabaqcadan tədbirlər görsünlər, sülh bağlamaq üçün hiylələr işlətsinlər, mal-dövlət bəxş etsinlər.

Böyük mütəfəkkir ədalətli müharibələrə haqq qazandırsa da belə, dövlət başçılarını sülhə səsləyir, onlara Qurani-Kərimin məlum əmrini xatırladırdı: «Hamınız bir yerdə sülhə gəlin. Şeytanın yolu ilə getməyin, çünki o, sizin açıq düşməninizdir… Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddən kənara çıxmayın. Allah həddi aşanları sevməz» (2,s.48).

Beləliklə dahi alimin və siyasətçinin dövlətlərarası münasibətlər, sülh və müharibə məsələləri barəsində strateji mülahizələri və taktiki tövsiyyələri bu sahədə əldə edilmiş tarixi təcrübəni ümumiləşdirməyə, gələcəyi hədəfləməyə istiqamətlənmişdi. Tusinin bu barədəki tövsiyyə və düşüncələri cəlb olunduğumuz Qabağ münaqişəsinin ədalətli həlli yollarını arayan dövlətimiz üçün qiymətli və ibrətamizdir, beynəlxalq hüququn və beynəlxalq münasibətlərin təməl prinsipləri ilə üst-üstə düşür.

## ƏDƏBİYYAT


1.Tusi Xacə Nəsirəddin. Əxlaqi-Nasiri.Bakı,»Lider», 2005, 280 s.

2.Ağababa Rzayev. NəsirəddinTusi.Həyatı, elmi, dünyagörüşü. Bakı, İrşad,1996,266 s.

3.Məlikova M., Bayramov E. Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi, Bakı, 1984

4. Ziya Bünyadov. Dinlər, təriqətlər, məzhəblər. Bakı,1997

5. Yusif Rüstəmov. Siyasi-hüquqi təlimlər tarixi. Bakı, 2000

6.Rzayev M. Fəlsəfə tarixi. Naxçıvan, 2010

7.Şükür Məmmədov. Dövlət və hüquqi təlimlər. Naxçıvan, İdeal, 2013

8.Рзаев Агабаба. История политических и правовых учений в Азербайджане. (от истоков до XX века). Баку: Элм, 2000, 528 с.


## ABSTRACT


We should mention briefly thinker field in which Nasraddin-Tusi contributed. Much more important were al-Tusi's contributions to philosophy and ethics. In particular in philosophy he asked important ideas about war and peace. Nasraddin Tusi was also a prominent statesman and politician in addition being a great scientist and astronomer. He has worked in important governmental positions and had been dealing with issues of direct foreign policy, war and peace in the XIII century and at the Middle East countries full of wars and political shocks.

At his «Akhlagi-Nasiri» and other works the nominating theoretical considerations and practical recommendations still has not lost its importance in many ways. According to him, murder and massacres stopped after the victory, if it is possible to catch captive the losers have not to kill. Great thinkers called for peace all heads of state in justified to just wars. He condemned the aggressive wars and considered that, for to solve inter-state conflicts wars are not always necessary.


## РЕЗЮМЕ


Следует отметить, что гораздо важнее были вклады Туси к философии и этики. В частности, он высказывает важные идеи о философии войны и мира. Видный государственный деятель Насиреддин Туси был также политиком, а также великим ученым и астрономом. Он работал в важных государственных должностях и имел дело с вопросами прямой внешней политики, войны и мира в странах Ближнего Востока в XIII веке, полных войн и политических потрясений.

В его «Əхлаги-Насири» и других произведениях выдвижены теоретические и практические рекомендации, соображения которых до сих пор не утратили своего значения во

многих отношениях. По его словам, убийства прекратились после победы. Если это возможно, нужно поймать проигравших, не надо убить пленника. Великие мыслители призывали к миру всех глав государств. Великий мыслитель Насиреддин Туси осуждает агрессивные войны и считает , что для того, чтобы разрешить конфликты межгосударственные войны не всегда необходимы.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev



**KAMRAN BEHBUDOV**
**Докторант Института Философии и Права НАНА**
*Email - donbeka@yahoo.com*

**УДК:316.6**

# ИСТОРИКО-ПРАВОВОЙ АНАЛИЗ ПРИЧИН ВОЗНИКНОВЕНИЯ АРМЯНО – АЗЕРБАЙДЖАНСКОГО НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА

**Açar sözlər:** *Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Millətlər Liqasının qərarı, Sevr müqaviləsi, "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranması haqqında" Az SSR-nin 16 iyun 1981-ci il tarixli qərarı, uti possidetis juris beynəlxalq hüquq doktrinası, Vyana Konvensiyası 1978*

**Key words:** *Armenian-Azerbaijan Nagorno-Karabakh conflict, the decision of the League of Nations, treaty of Sevres, Decree "On education autonomous region of Nagorno-Karabakh," AzSSR law "On Nagorno-Karabakh," June 16, 1981, international legal doctrine of uti possidetis juris, The Vienna Convention 1978*

**Ключевые слова***: армяно-азербайджанский нагорно-карабахский конфликт, решение Лиги Наций, Севрский договор, декрет «Об образовании автономной области Нагорного Карабаха», Закон АЗ ССР «О НКАО»16 июня 1981 года, международно-правовая доктрина uti possidetis juris, Венская Конвенция 1978 г*

Анализ армяно-азербайджанского конфликта, генерируемого агрессивным национализмом и мотивированного территориальными притязаниями Армении к Азербайджану, следует рассматривать только с позиции глубоких стратегических исследований историко-правовых причин возникновения армяно-азербайджанского нагорно-карабахского конфликта. История показала, что армянские сепаратисты, используя влияние армянской диаспоры в США, Франции и других государствах, силой и угрозами изгнало азербайджанское население с их коренных земель, прибегая к дипломатии и хитрости для придания законности своим агрессивным преступным действиям.

Для оправдания территориальных притязаний Армении против Азербайджана представители официального Еревана часто выдвигают тезис о том, что Нагорный Карабах якобы никогда не был под юрисдикцией независимого Азербайджана.[1,s 6-7] Обращаясь для этого к материалам Лиги Наций можно смело утверждать, что сама Армения была юридически непризнанным субъектом.

Следует отметить что, во времена, когда независимый Азербайджан стал частью Советского Союза, Карабах не находился под его юрисдикцией, о чем свидетельствует решение Лиги Наций, которым отказано признать Азербайджан из-за его притязаний на

армянонаселенные территории Восточного Закавказья и, в част-ности, Нагорный Карабах, а также отсутствия эффективного государственного контроля над своей предполагаемой территорией и неспособности обосновать легитимность границ этой территории.[2, s. 3-36]

При этом следует рассмотретьтот факт, что охотно делясь на различных уровнях собственным толкованием результатов рассмотрения заявки Азербайджана в Лиги Наций, официальный Ереван в то же время старается не привлекать внимания к аналогичным итогам по Армении, «забывая» о существовании соответствующих официальных документов Лиги Наций.

Так, говоря об Азербайджане как о «территории, которая никогда ранее не составляла государство», армянская сторона умалчивает тот факт, что Лига Наций не считала государством саму Армению.[1, s 9-10]

Уже в первом абзаце Меморандума, согласованного на заседании Совета Лиги Наций, состоявшемся 11 апреля 1920 года в Париже, говорится, что «Верховный Совет Союзных Держав, желая обеспечения существования, порядка и безопасности армянской нации, принял решение создать независимую Армянскую Республику, чьи границы и статус будут установлены подготавливаемым мирным договором с Турецкой империей и другими международными конвенциями». Очевидно, что Совет исходил из того понимания, что «она (Армения – Авт.) не является государством ».

В Меморандуме указывалось, что в письме лорда Керзона от 12 марта 1920 года, адресованном председателю Лиги Наций, а также в письмах делегации Армении содержится просьба к Лиге Наций принять мандат на Армению в соответствии с положениями статьи 22 Устава Лиги Наций. Далее в Меморандуме подчеркивалось, что данная статья не предусматривает принятие и исполнение Лигой Нацией какого-либо мандата. Наоборот, она предполагает наблюдение со стороны Лиги Наций за выполнением мандата, вверенного государству для общин, которые ранее принадлежали Османской империи.

На этой основе Совет Лиги Наций пришел к заключению, что будущее армянской нации может быть лучше всего обеспечено, если член Лиги Наций или другое государство пожелает принять мандат на Армению под наблюдением и при полной моральной поддержке Лиги Наций.[3, s. 75-76]

В ответ на этот Меморандум Верховный Совет Союзных Держав обратился 26 апреля 1920 года к правительству США принять мандат на Армению, а президенту США предложил стать третейским судьей по границам Армении. Но 31 мая 1920 года Сенат США отказался принять данный мандат, в то время как президент США дал согласие на пост третейского судьи по границам Армении. Однако выполнить эту миссию ему так и не удалось. Тем временем, поверженная по итогам Первой мировой войны Османская империя была принуждена подписать 10 августа 1920 года Севрский договор, в котором, в частности, Турция и Армения соглашались направить на третейский суд президента США вопрос о границах между собой. В этом же договоре указывалось, что границы между Арменией, Азербайджаном и Грузией будут определены соответственно посредством прямых соглашений между указанными государствами.

Лига Наций рассматривала армянскую нацию как общину, ранее принадлежавшую Османской империи. После провозглашения своей независимости Армения не имела ясных и признанных границ и располагалась на территории, уступленной ей Азербайджанской Демократической Республикой в 1918 году. Но этого Армении было мало и она претендовала на часть территорий Турции, Грузии и Азербайджана. 28 мая 1919 года правительство Армении приняло Декларацию независимости Объединенной Армении, в которой объявило об «…объединении армянских территорий Закавказья и Османской империи …» и провозгласило себя «…правительством Объединенной Армянской Республики».[4, s. 2]

Однако Севрский договор был отвергнут нарастающим движением кямалистов, не был ратифицирован и, соответственно, не вступил в силу. В ответ на три обращения армянской делегации о наступлении турецких войск  необходимости принятия мер в этой

связи, в том числе по соблюдению положений Севрского договора, ни Совет Лиги Наций, ни Верховный Совет Союзных Держав, ни президент США, ни Генеральный секретарь Лиги Наций не предприняли каких-либо практических шагов. Закономерным было и то, что наряду с Азербайджаном, территориальные притязания Армении отвергла также и Грузия. Что касается обращения Армении о приеме в Лигу Наций, то Пятый Комитет в своем докладе от 10 декабря 1920 года рекомендовал Ассамблее сообщить правительству Армении о том, что «обстоятельства таковы, что не дают возможность Ассамблее прийти к определенному решению».[5, s. 1-7]

Далее в докладе говорится о том, что Армения «не имеет написанной конституции», а ее «нынешнее правительство не может рассматриваться как стабильное». Кроме того, интерес в документе вызывает также фраза о том, что «границы (Армении - Авт.) еще не зафиксированы ». Эти выводы не могут не обратить на себя внимание главным образом из-за утверждений армянской стороны о том, что одной из причин отказа принять Азербайджан в члены Лиги Наций было отсутствие у него «стабильного правительства».

Принятие Армении в члены Лиги Наций было отвергнуто 16 декабря 1920 года 21 голосами против 8 при 13 воздержавшихся. По мнению очевидца событий тех времен З.Авалова, «таково было неизбежное последствие политического азарта, которым диктовались территориальные требования Армении, несоответствия поставленных ею задач собственным силам и фатальной ослепленности в оценке событий и обстановки» .[6, s. 2-3]

Таким образом, армянский вопрос рассматривался Лигой Наций в контексте Османской империи, вместе с турецким вопросом. Лига Наций провозглашенную Армянскую Республику не считала государством, а исходила из того, что это образование не обладает ясными и признанными границами, не имеет статуса и конституции, а его правительство – нестабильное. В итоге, наспех созданная Армения не была принята в Лигу Наций.

Таким образом, законность оснований отделения Нагорного Карабаха от Азербайджана в процессе демонтажа СССР в 1991 году и создания «Нагорно-Карабахской Республики».

При этом особый акцент делается на положения Закона СССР «О порядке решения вопросов, связанных с выходом союзной республики из СССР» от 3 апреля 1990 года,согласно которым при осуществлении союзной республикой предусмотренной в этом Законе процедуры выхода из состава СССР автономные образования получали право насамостоятельное решение вопроса о пребывании в Союзе ССР или в выходящей союзной республике, а также на постановку вопроса о своем государственно-правовом статусе.

Рассматривая исторические аргументы Азербайджана по вопросу о вступлении в Лигу Наций следует отметить тот факт, чтопосле вступления в 1918 году британских войск в Баку генерал В.Томсон,представлявший Союзные Державы, признал Нагорный Карабах вместе с соседним Зангезурским уездом под администрацией Азербайджана. Он подтвердил назначение правительством Азербайджана Хосрова Султанова в качестве губернатора Карабахского генерал-губернаторства, в состав которого входили и эти два региона. В 1919 году армянская ассамблея Нагорного Карабаха официально признала власть Азербайджана.[3, s. 2-4]

Азербайджанская Республика в 1918-1920 годы имела дипломатические отношения с целым рядом государств. С некоторыми из них были подписаны договоры о принципах взаимоотношений; шестнадцать государств открыли свои миссии в Баку.

Таким образом, 12 января 1920 года Верховный Совет Союзных Держав на Парижской мирной конференции признал независимость Азербайджана де-факто.

Глава азербайджанской делегации на Конференции 1 ноября 1920 года направил Генеральному секретарю Лиги Наций письмо, в котором содержалась просьба представить Ассамблее Лиги заявку о вступлении Азербайджанской Республики в члены Организации.

Генеральный секретарь в своем Меморандуме от 24 ноября 1920 года отметил, что мандат азербайджанской делегации на Парижской мирной конференции был получен от

правительства, которое было у власти в Баку до апреля 1920 года. Таким образом, в Меморандуме отчетливо обращается внимание на тот факт, что в момент представления азербайджанской делегацией заявки (1 ноября 1920 года) и опубликования Меморандума (24 ноября 1920 года) правительство Азербайджанской Республики, выдавшее мандат делегации, с апреля 1920 годау власти де-факто уже не находилось. Далее в Меморандуме указывалось, что это правительство контролирует не всю территорию страны.[4, s 13-16]

В этом контексте, наиболее важной частью упомянутого Меморандума Генерального секретаря Лиги Наций является раздел «Юридические соображения», в котором напоминаются содержащиеся в статье 1 Устава Лиги Наций условия принятия в Организацию новых членов, включая требование к государствам быть полностью самоуправляемым.[5, s. 3-4]

Соответствующие документы Лиги Наций полностью опровергают утверждения армянской стороны о том, что Лига Наций не приняла Азербайджан в свои ряды ввиду якобы его территориальных притязаний на так называемые армянонаселенные территории и отказа признать контроль Азербайджана над Нагорным Карабахом. Очевидным же является то, что государство, значительная часть территории которого к моменту рассмотрения в Лиге Наций его заявки была оккупирована, а правительство, подавшее эту заявку, свергнуто, не могло рассматриваться как полностью самоуправляемое в смысле статьи 1 Устава Лиги Наций. Таким образом, именно эти условия не позволили Азербайджану быть принятым в Лигу Наций.[6, s. 27]

Помимо вышеупомянутых фактов о признании Союзными Державами власти Азербайджана над Нагорным Карабахом, тезис о том, что Карабах не находился под юрисдикцией независимого Азербайджана, когда он стал частью Советского Союза, опровергается также решением Кавказского бюро ЦК РКП (б), которое в ответ на территориальные притязания Армении несколько раз рассматривало проблему и на состоявшемся 5 июля 1921 года заседании вынесло решение оставить Нагорный Карабах в пределах Азербайджанской ССР. Одновременно Азербайджанской ССР было предложено предоставить Нагорному Карабаху широкую автономию.[7, s. 92]

Так, 13 октября 1921 года в Карсе, при участии РСФСР, заключается Договор о дружбе между Армянской ССР, Азербайджанской ССР и Грузинской ССР, с одной стороны, и Турцией – с другой. В статье 5 Договора правительства Турции, Армении и Азербайджана выразили согласие с тем, «что Нахичеванская область... образует автономную территорию под покровительством Азербайджана».[8, s. 423]

13 декабря 1922 года была образована Закавказская Социалистическая Федеративная Советская Республика (ЗСФСР). Конституция ЗСФСР подтверждала тот факт, что Нахичеванская Республика является неотделимой и составной частью Азербайджана, на правах автономной единицы. Согласно этой Конституции положение автономных республик и областей (Абхазия, Аджаристан и Южная Осетия) не изменялось.[9, s. 144]

Ни в Карсском Договоре, ни в Конституции ЗСФСР о нагорной части Карабаха не было никакого упоминания, поскольку она официально признавалась неотъемлемой частью Азербайджана, в том числе и со стороны Армянской ССР.

Так, 7 июля 1923 года, то есть на следующий день после принятия первой Конституции СССР, Центральный Исполнительный Комитет Азербайджанской ССР издал Декрет «Об образовании автономной области Нагорного Карабаха».

Статус Нагорного Карабаха как автономной области в составе Азербайджанской ССР был закреплен в Конституциях СССР 1936 и 1977 годов.[10, s. 13-14]

Правовое положение НКАО в соответствии с Конституцией СССР и Конституцией Азербайджанской ССР определялось Законом «О Нагорно-Карабахской автономной области», принятым Верховным Советом Азербайджанской ССР 16 июня 1981 года.[11, s. 3-4]

Согласно статье 78 Конституции СССР, территория союзной республики не могла быть изменена без ее согласия. Границы между союзными республиками могли изменяться

по взаимному соглашению соответствующих республик, которое подлежало утверждению Союзом ССР.[12, s. 13-15] Данное положение закреплялось также в Конституциях Азербайджанской и Армянской ССР.

В связи с принятием в конце 80-х годов прошлого столетия неправомерных решений, направленных на отделение НКАО от Азербайджанской ССР и присоединение области к Армянской ССР, Верховный Совет СССР и его Президиум несколько раз рассматривалиситуацию в связи с нагорно-карабахским кризисом. В принятых высшим органом государственной власти бывшего Союза ССР решениях однозначно признавалось невозможным изменение границ и установленного на конституционной основе национально-территориального деления Азербайджанской ССР и Армянской ССР.[13, s. 27-28]

Таким образом, весь процесс по отторжению Нагорного Карабаха от Азербайджанской ССР в пользу Армянской ССР, формально начатый 20 февраля 1988 года, сопровождался очевидным нарушением Конституции СССР и, тем самым, не порождал каких-либо юридических последствий.

Правоту этой оценки косвенно подтверждает предпринятая армянской стороной 2 сентября 1991 года очередная попытка узаконить отделение Нагорного Карабаха. Вотличие от всех предыдущих решений, провозглашение в этот день «Нагорно-Карабахской Республики» обосновывалось Законом СССР «О порядке решения вопросов, связанных с выходом союзной республики из СССР» от 3 апреля 1990 года.[14,s. 7-9]

Прежде всего необходимо отметить, что целью этого ЗаконаСССР, было регулирование взаимоотношений в рамках СССР путем установления определенной процедуры, которойдолжны были следовать союзные республики в случае выхода из состава СССР. Выходсоюзной республики из СССР должен был осуществляться по результатам свободноговолеизъявления народа этой республики, выраженного на референдуме, решение опроведении которого принималось Верховным Советом союзной республики.[18, s. 75-154]

В то же время, согласно этому же Закону, в союзной республике, имеющей в своем составе автономные республики, автономные области и автономные округа, референдум должен был проводиться отдельно по каждой автономии, за народами которых закреплялось право на самостоятельное решение вопроса о пребывании в Союзе ССР или выходящей союзной республике, а также на постановку вопроса о своем государственно-правовом статусе.

Важно подчеркнуть, что выход союзной республики из СССР мог считаться состоявшимся только после прохождения сложной многоступенчатой процедуры и, в конечном итоге, принятия соответствующего решения Съездом народных депутатов СССР.

Однако до того момента, когда Союз ССР прекратил свое существование как субъект международного права, упомянутый Закон не был применен и, соответственно, не имел никаких юридических последствий, так как ни одна союзная республика, в том числе Азербайджан и Армения, не воспользовалась предусмотренной в нем процедурой выхода.

До обретения в полном объеме государственной независимости Азербайджанской Республикой и ее признания международным сообществом территория, на которой до 26 ноября 1991 года существовала НКАО Азербайджанской ССР, продолжала оставаться составной частью Азербайджана.[1, s. 6-8]

После распада СССР международно-правовая доктрина utipossidetisjuris легла в основу международной, региональной и национальной легитимации границ новых независимых государств.

Согласно доктрине utipossidetisjuris, с момента обретения Азербайджанской Республикой независимости бывшие административные границы Азербайджанской ССР, в пределах которых находилась также НКАО, считаются международными и защищаются международным правом. Данное понимание закрепляется также в известных резолюциях Совета Безопасности ООН по нагорно-карабахскому конфликту.[15, 2-3]

Что касается выдвигаемого армянской стороной тезиса о том, что, провозгласив восстановление государственной независимости 1918-1920 годов и, тем самым, став

правопреемником существовавшеей в те годы АДР, Азербайджан якобы лишился оснований претендовать на границы советского периода, то внимание должно быть привлечено к статье 11 Венской Конвенции о правопреемстве государств в отношении договоров, согласно которой «правопреемство государств как таковое не затрагивает: а)границ, установленных договором…».[16, s. 188-189]

Иными словами, хотя данное положение касается непосредственно внешних границ бывшего СССР, установленных заключенными им международными договорами, оно фактически представляет собой концептуальный международно-правовой подход в отношении продолжения существования границ, несмотря на правопреемство, а именно то, что изменениесуверенитета не в силах поколебать эти границы, имеющие постоянный характер.[17, s.77]

Подводя итоги данного аналитического исследования, хотелось бы заключить:

1.несмотря на допускаемые официальным Ереваном очевидные искажения приосвещении вопроса рассмотрения заявки Азербайджана о членстве в Лиге Наций и умалчивание ответа Лиги на аналогичную заявку самой Армении, выводы этой организации тем не менее не могут служить основанием для пересмотра сложившихся впоследствии территориальных рамок государств. В противном случае, если согласиться с доводами армянской стороны, то под сомнение будет поставлена международная правосубектность самой Армении.

2. Согласно Конституции СССР Нагорный Карабах был автономной областью в составе Азербайджанской ССР. Правовое положение НКАО в соответствии с Конституцией СССР и Конституцией Азербайджанской ССР определялось Законом «О Нагорно-Карабахской автономной области», принятым Верховным Советом Азербайджанской ССР 16 июня 1981 года.

3. Провозглашение 2 сентября 1991 года «Нагорно-Карабахской Республики» противоречило Конституции СССР, согласно которой территория союзной республики не могла быть изменена без ее согласия, а границы между союзными республиками могли изменяться по взаимному соглашению соответствующих республик, которое подлежало утверждению Союзом ССР. При этом ссылка на Закон СССР «О порядке решения вопросов, связанных с выходом союзной республики из СССР» от 3 апреля 1990 года несостоятельна, так как предусмотренный в этом Законе обязательный механизм для оформления выхода из состава СССР не был задействован Азербайджаном ни до, ни после 2 сентября 1991 года.

4. Автономная область просуществовала до 26 ноября 1991 года, когда Верховным Советом Азербайджанской Республики был принят Закон об ее упразднении.

5. Согласно доктрине utipossidetisjuris, с момента обретения Азербайджанской Республикой независимости бывшие административные границы Азербайджанской ССР, в пределах которых находилась также НКАО, считаются международными и защищаются международным правом. При этом важно заметить, что изменение суверенитета в результате распада СССР и заявленное бывшими союзными республиками правопреемство не могли поколебать их границы, существовавшие к моменту обретения независимости и имеющие постоянный характер.

## ЛИТЕРАТУРА

1. Камран А.Бехбудов ”Международно-правовой анализ Армяно-Азербайджанского Нагорно-Карабахского конфликта-“Право выбора ” Баку .Mart 2013. Ср 5-17

2.Доклад Армении по Международному пакту об экономических, социальных и культурных правах и Международному пакту о гражданских и политических правах, Документы ООН E/1990/5/Add.36 и CCPR/C/92/Add.2

3.TadeuszSwietochowski, Russia and Azerbaijan: A Borderland in Transition (New York: Columbia University Press, 1995), pp. 75-76

4.League of Nations. Memorandum by the Secretary General on the Application for the Admission of the Republic of Azerbaidjan to the League of Nations. Assembly Document 20/48/108, p. 2

5.League of Nations. Assembly Document 20/48/108, p. 4. See also The Covenant of the League of Nations (1919), in Malcolm D.Evans (ed.), Blackstone's International Law Documents (Oxford: Oxford University Press, 6thP ed., 2003), pp. 1-7, at p. 1

6.League of Nations. Annex 30 B. Future Status of Armenia. Memorandum agreed to by the Council of the Leagues of Nations, meeting in Paris on 11 April 1920. League of Nations Document 20/41/9, p. 27; /Admission of new Members to the League of Nations. Armenia. Assembly Document 209, pp. 2-3; Assembly Document 251

7. «Из протокола заседания пленума КавбюроЦКРКП (б)»от 5 июля 1921 года. См. в «К истории образования Нагорно-Карабахской автономной области Азербайджанской ССР. 1918-1925: Документы и материалы» (Баку: Азернешр, 1989), с.92

8. Договор о дружбе между Армянской ССР, Азербайджанской ССР и Грузинской ССР, с одной стороны, и Турцией – с другой, заключенный при участии РСФСР в Карсе, 13 октября 1921 года. Документы внешней политики СССР, том IV(Москва: Госполитиздат, 1960), с. 423, статья 5

9.Первый Закавказский съезд Советов. Издание Закрайкома РКП (Тифлис: Типография Военного Комиссариата, 1923), с.144

10.Конституция СССР (Москва, 1936), с. 14, статья 24; Конституция СССР (Москва, 1977), с. 13-14, статья 87

11. Закон Азербайджанской ССР «О Нагорно-Карабахской автономной области», 16 июня 1981 года (Баку: Азернешр, 1987), с. 3, статья 3

12. Конституция СССР (Москва, 1977), с. 13

13.Постановление Президиума Верховного Совета СССР «О мерах, связанных с обращениями союзных республик по поводу событий в Нагорном Карабахе, в Азербайджанской и Армянской ССР», 23 марта 1988 года. Ведомости Верховного Совета СССР, 1988, № 13, с. 27-28

Постановление Президиума Верховного Совета СССР «О несоответствии Конституции СССР актов по Нагорному Карабаху, принятых Верховным Советом Армянской ССР 1 декабря 1989 года и 9 января 1990 года», 10 января 1990 года. Ведомости Верховного Совета СССР, 1990, № 3, с. 38.

14.Закон СССР «О порядке решения вопросов, связанных с выходом союзной республики из СССР», 3 апреля 1990 года

15. Резолюции СБ ООН 822 от 30 апреля 1993 года, 853 от 29 июля 1993 года, 874 от 14 октября 1993 года и 884 от 11 ноября 1993 года. Веб-сайт ООН: www.un.org/russian/documen/scresol/res1993/scres93.htm

16.Vienna Convention on Succession of States in Respect of Treaties, 22 August 1978. For text see Evans (ed.), pp. 185-199, at p.188

17.Malcolm N. Shaw, «The Heritage of States: The Principle of UtiPossidetisJuris Today», 77 The British Yearbook

18. International Law 1996 (Oxford: Claindon Press, 1977), pp. 75-154, at p. 90

## XÜLASƏ

**Kamran Behbudov**

**Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin səbəbləri, tarixi və hüquqi təhlili**

AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun doktorantı Kamran Behbudov məqaləsində rəsmi İrəvan nümayəndələrinin Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına haqq qazandırma iddiasının əsassız olduğunu bildirir. Müəllif hüquqi faktların dərin təhlilini apararaq sübut edir ki, "müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" 3 aprel 1990-cı il tarixli SSRİ qanununun müddəalarına istinadən, onların köməyi ilə hüquqi Ermənistan tərəfi qondarma Dağlıq Qarabağ Respublikasının 1991-ci il sentyabrın 2-də elan edilməsinə haqq qazandırmağa çalışır. Özü də heç bir əsas olmadan. 1991-ci il noyabrın 26-dək Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti mövcud olduğu ərazi tam həcmdə dövlət müstəqilliyini bərpa

etməzdən əvvəl Azərbaycanın tərkib hissəsi olaraq qalırdı və beynəlxalq birlik tərəfindən tanınırdı. Müəllif, həmçinin yeni müstəqil dövlətlərin sərhədlərinin beynəlxalq, regional və milli qanuniləşdirilməsinin əsası olan uti possidetis juris sub-beynəlxalq hüquq doktrinasını ətraflı araşdırır.


## ABSTRACT

**Kamran Behbudov**

**Historical and legal analysis of the causes of the Armenian-Azerbaijani Nagorno-Karabakh Conflict**

Article doctoral students of the Institute of Philosophy and Law of ANAS Kamran Behbudov said that in order to justify the territorial claims of Armenia against Azerbaijan, representatives of official Yerevan often leveled unsubstantiated thesis that Nagorno Karabakh has never been allegedly under the jurisdiction of independent Azerbaijan. The author carries out a deep analysis of the historical and legal facts prove that a reference to the law of the USSR of 3 April 1990 "On the procedure for addressing issues related to the secession of a union republic from the USSR", by which the Armenian side is trying to legally justify the proclamation of September 2 in 1991 the so-called Nagorno-Karabakh Republic, are not baseless. Until the full restoration of the state independence of the Republic of Azerbaijan and its recognition by the international community, the territory, which until November 26, 1991 there was the Nagorno-Karabakh Autonomous Oblast of the Azerbaijan Soviet Socialist Republic, continued to be an integral part of Azerbaijan. The author also examines in detail the sub-international legal doctrine of uti possidetis juris which formed the basis of international, regional and national legitimation of boundaries of the newly independent states.



NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev

**KAMRAN İSMAYILOV**
*AMEA-nın Tarix İnstitutu*

**UOT:930**

# AZƏRBAYCANIN QUBA QƏZASINDA İCTİMAİ-SİYASİ PROSESLƏR (1917-Cİ İLİN FEVRALI – 1918-Cİ İLİN MARTI)

**Açar sözlər:** *Quba qəzası, ictimai-siyasi vəziyyət, inzibati dəyişikliklər, hakimiyyət uğrunda mübarizə, milli hərəkat*

**Keywords:** *Cuba district, socio-political situation, administrative changes, the struggle for power, the national movement*

**Ключевые слова:** *Кубинский уезд, общественно-политическое положение, административные изменения, борьба за власть, национальное движение*

1917-ci ilin fevral inqilabı nəticəsində çar rejiminin devrilməsi, bütün ölkədə olduğu kimi Azərbaycanda da köklü ictimai-siyasi dəyişikliklərə səbəb oldu. Mart ayının 3-də Cənubi Qafqazda mülki hakimiyyət yeni yaradılmış Xüsusi Zaqafqaziya Komitəsinə - OZAKOM-a verildi. Adı çəkilən komitə, müharibə qaydalarına uyğun olaraq, Zaqafqaziya ölkəsində möhkəm qayda-qanun yaratmaq üçün müvəqqəti hökumətin adından fəaliyyət göstərirdi. Lakin OZAKOM real hakimiyyətə malik olmadığından Cənubi Qafqazın müxtəlif bölgələrində faktik olaraq hakimiyyət yaranmaqda olan sovetlərin və digər ictimai-inqilabi təşkilatların əlinə keçmişdi. 1917-ci ilin martında Tiflisdə, Bakıda və Cənubi Qafqazın digər şəhərlərində təşəkkül tapmış fəhlə deputatları sovetləri köhnə hakimiyyət strukturlarını əvəzləmək idiiasını ortaya qoydular. Sovetlərlə yanaşı müxtəlif siyasi və ictimai təbəqə və qrupların nümayəndələrindən ibarət İctimai Təşkilatların İcraiyyə Komitələri də yaradılmışdı.

Mütləqiyyətin devrilməsi Rusiyanın ucqarlarında ictimai-siyasi həyatın yeni mərhələsinin başlanğıcını qoydu. 1917-ci il mart ayının 27-də Bakı Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsi yaradılmış, "Müsavat" partiyasının üzvü, hüquqşünas M. H. Hacınski komitənin sədri, partiyanın lideri M.Rəsulzadə isə sədrin müavini seçilmişdi.

İndiki Quba, Qusar, Xaçmaz, Şabran, Siyazən rayonlarının ərazilərini əhatə edən Quba qəzası inqilab ərəfəsində inzibati cəhətdən Quba şəhərinə və 5 polis nahiyyəsinə - Dəvəçi, Qusar, Müşkür, Rustov və 5-ci Fəthibəy nahiyələrinə bölünürdü Hər bir nahiyə bir neçə icmadan ibarət idi. Qəzada 540 kənd var idi. Qışlaqlarla birlikdə onlar 55 icmada birləşmişdi. 1917-ci il Qafqaz təqviminin olan məlumatına görə, Quba qəzasının sahəsi 6308,61 kv.verst, əhalisi isə 171248 nəfər idi. Onlardan 170148 nəfəri yerli sakinlər, 1100 nəfəri isə müvəqqəti burada məskunlaşanlar idi. Ümumi sakinlərdən 164,8 min nəfəri müsəlman, 5206 nəfəri isə rus idi.

İnqilabi hadisələr Quba qəzasında da inzibati dəyişikliklərə gətirib çıxardı. Müvəqqəti hökumət tərəfindən yerlərdə hakimiyyət məsələsində aydınlıq gətirmək məqsədilə 1917-ci il martın 4-də ilk qərar qəbul edilmiş və təcili olaraq quberniya mərkəzlərinə göndərilmişdi. Zemstvo idarəçiliyi tətbiq edilməyən quberniyalarda isə inzibatı hakimiyyətin təşkili məsələsi yerli ictimai

təşkilatlarla birgə bu məsələ aydınlaşdırılana qədər açıq saxlanılmışdı. Bütün yerlərdə olduğu Quba qəzasında da köhnə hakimiyyət strukturları tədricən ləğv edilərək qəza, nahiyə və kənd icraiyyə komitələri yaradılırdı. Mövcud idarəetmənin ləğv edilməsi, yerli ictimai təşkilatların və icraiyyə komitəsinin təşkil edilməsi məqsədilə Bakı quberniya icraiyyə komitəsinin üzvü İbrahim Heydərov təcili Qubaya ezam edilmişdi. Martın 6-da qəza rəisi K.S.Leontiyev yerli qarnizonun əsgərləri tərəfindən döyülərək həbs edilmiş və Bakıya göndərilmiş, pristav Kərimbəyov isə vəzifədən qovulmuşdu(16, 1917, 17 марта). Xalqın tələbi ilə polis pristavları və türmə rəisi də nəzarət altına alınmışdılar (4, v.15). Həmin gün Qubada ictimai təşkilatların icraiyyə komitəsi təşkil olunmuş, komitənin tərkibinə yerli bəylər, məmurlar və ruhanilər daxil edilmiş, A.Çanturişvili komitənin sədri seçilmişdi (14, 1917, 11 марта). OZAKOM-un qərarı ilə rus ordusunun keçmiş zabiti, Qubanın iri torpaq sahiblərindən biri Əli bəy Zizikski qəzaya komissar təyin edilmişdi. O həm də qəza polis rəisi vəzifəsini icra edirdi. Mirzə Yusif Kərimov isə şəhər rəisi təyin edilmişdi(12, 1917, 10,11 марта).

Xaçmazda da icraiyyə komitəsi təşkil edilmiş, Vinoqradov familiyalı birisi oraya komissar təyin edilmişdi (14, 1917, 14 марта). İcraiyyə komitələrinə əsasən ziyalıların, burjuaziyanın, tacirlərin və ruhanilərin nümayəndələri seçilmişdilər. Komissarlar keçmiş qəza rəislərinə bütün səlahiyyət və hüquqlarına malik idilər. Lakin icraiyyə komitələri və komissarlar arasında səlahiyyətlərin bölüşdürülməsində ciddi ziddiyyətlər yaranmışdı. Bunu nəzərə alaraq Xüsusi Zaqafqaziya Komitəsinin 27 aprel 1917-ci il tarixli qərarı ilə ümumi seçki əsasında formalaşdırılacaq zemstvo və özünüidarə orqanları yaradılana qədər yerli hakimiyyət orqanı kimi icraiyyə komitələri qəbul edilmiş, komitələr isə komissarları seçməli idilər. OZAKOM qəza və kənd icraiyyə komitələrinin seçkilərinə nəzarət üçün Qubaya öz müvəkkili Şirinbəy Səfərəlibəyovu göndərmişdi. 1917-ci ilin oktyabrın əvvəllərinə qədə Quba qəzası üzrə 56 kənd cəmiyyətindən 49-da kənd icraiyyə komitələri yaradılmışdı (2, v.118).

Nahiyələrdə yaranmış komitələr qəza komissarının nəzarəti altında nahiyəni idarə edir, onların fəaliyyəti qəza komitələri vasitəsilə istiqamətləndirilirdi. Komissar bütün idarələrin və şəxslərin fəaliyyəti üzərində nəzarət etmək hüququna malik idi.

Ziyalı kadrların çatışmazlığı üzündən Azərbaycanın bütün qəzalarında o cümlədən Qubada, ictimai təşkilatlanma prosesi ləng gedirdi. Qubada fəaliyyət göstərən İcraiyyə komitəsi qəza komissarlığının da fəaliyyətini tənzimləyirdi. Sovetlər isə öz nümayəndələrini bu komitələrə üzv göndərməklə, onları rəsmi hakimiyyət orqanı kimi tanıyırdılar.

1917-ci il mayın 10-da Bakı Müsəlman Şurası tərəfindən Qubaya təbliğat və təşviqat işi aparmaq üçün göndərilən nümayəndələr 10 maddədən ibarət təlimat hazırladılar. Mərkəzdən təlimat göndəriləndə qədər komitənin məhz həmin təlimata uyğun fəaliyyət göstərməsi tövsiyə olunurdu (14, 1917, 24 июня). Mayın 11-də həmin nümayəndələr Cümə məscidində əhali qarşısında çıxış edərək onları Azərbaycanda yaranmış vəziyyət ilə tanış etdilər. İcraiyyə Komitəsində mühazirə, məktəb, fond, barışdırıcı komissiyalar yaradılmışdı. Komitə əhalini narahat edən bir çox məsələlərlə - ticarət, kənd təsərrüfatı, təhsil və kadr məsələləri ilə məşğul olurdu.

Müvəqqəti hökumət tərəfindən verilmiş təlimata əsasən yerlərdə icraiyyə komitələrinə orada olan ictimai təşkilatların və şəhər özünüidarəsinin üzvləri daxil olmalı idilər. Lakin azərbaycanlıların iştirak etdiyi ictimai təşkilat həmin dövrdə yalnız müsəlman milli təşkilatları şurası idi.

1917-ci ilin mayında Zizikski camaat arasında böyük hörməti olan, rus dilini və yerli azsaylı xalqların dillərini yaxşı bilən, yaxşı təşkilatçılıq qabiliyyətinə malik M.C.Bağırovu öz köməkçisi təyin etmişdi. M.C.Bağırov hələ 1917-ci ilin fevralından sonra Zizikskinin tərəfindən Quba şəhərinin yəhudi hissəsinin komissarı təyin edilmiş, 1917-ci il may-noyabr aylarında isə qəza komissarı Zizikskinin köməkçisi işləmişdi. Bu təyinatlar Zizikskinin gənc müəllimə olan xoş münasibətinin təzahürü idi. Bu zaman M.C.Bağırovun bolşevizmdən söhbət gedə bilməzdi. Lakin Ə. Zizikskinin bolşevizm və Bakı Soveti ilə mübarizə cinahına keçməsi ilə onların yolları ayrılmış oldu (16, s.80-81). Ziziksinin digər köməkçisi isə Qazı Əhməd bəy Məhəmmədbəyov idi (9, s.33). Ə.Zizikski bu vəzifəyə təyin edildikdən sonra onun təşəbbüsü ilə qəzada yeni dəstə təşkil edilmişdi. Dəstənin qurucusu qubalı Yusif Məmmədyarov idi. Dəstə yaradıldıqdan bir neçə gün sonra məşhur

sahibkar Ağabala Quliyev, Bakıdan bir neçə şəxslə Qubaya gəlmiş və Zizikskiyə pul yardımı göstərmişdi.

Fevral inqalabından sonra başqa qəzalarda olduğu kimi, Quba qəzasında da sovetlər yaradılmağa başlandı. Burada ilk sovet qarnizonun hissələrində həm əsgərlər, həm də zabitlər tərəfindən ayrı-ayrılıqda yaradılmış, aprelin ortalarında isə hər iki sovet birləşərək hərbçi deputatları Soveti adlandırılmışdı (10, s.19). İlk fəhlə deputatları Soveti Yəhudilər qəsəbəsində yaradılmış, iyunda o əsgər deputatları soveti ilə birləşərək vahid fəhlə və əsgər deputatları Soveti halında təşkil olunmuşdu. Quba sovetində əsasən menşeviklər və eserlər çoxluq təşkil edirdilər. Sovet Quba İctimai Təşkilatlarının İcraiyyə Komitəsini yeni hakimiyyət orqanı kimi tanıyaraq, fəaliyyətin onunla əlaqələndirmək məqsədi ilə öz nümayəndələrin onun tərkibinə daxil etmişdi.

1917-ci ilin ortalarından başlayaraq Bakı Sovetinin sollaşması Quba qəzasına da öz təsirini göstərdi. İyun ayında Qubada fəhlə və əsgər deputatları Sovetlərini birləşməsi baş verdi. Birləşmiş Sovetin İcraiyyə Komitəsinə bitərəf Q.Musabəyov seçildi.

Demokratiya azadlıq mühiti geniş xalq kütlələrinin ictimai fəaliyyətə cəlbl ounmasınaşərait yaratdı. Quba şəhərində, qəzanın müxtəlif yerlərində ictimai təşkilatların, siyasi partiyaların özəklərininyaradılması prosesi geniş vüsət aldı.

1917-ci il aprelində Qubada Əliabbas Əlibəyovun sədrliyi ilə Müsəlman Milli Şurası yaradıldı (14, 1917, 23 апреля). Əvvəlcə ictimai təşkilat kimi yaradılan Müsəlman Milli Şurası daha sonra siyasi funksiyaları həyata keçirməyə və qəzanın siyasi həyatında getdikcə daha böyük rol oynamağa başladı. Milli Şuranın müvəqqəti icraiyyə komitəsi yaradılmış Xanbababəy Məmmədbəyov komitəsinin sədri seçilmişdi. Komitəyə M.Əfəndiyev, B.Qayıbov, X.Səfərov, P.Vəliyev kimi qubalılar arasında tanınmış şəxslər üzv seçilmişdi.

Quba qəzasına daxil olan Qusarda aprelin 10-da təşkil edilən Müsəlman Milli Komitəsi ictimai təhlükəsizliyin qorunmasını və onu pozanlara qarşı qətiyyətlə mübarizə aparılmasını özünün əsas məqsədlərindən biri hesab edirdi.

Xaçmazda İcraiyyə komitəsi yuxarı orqanlardan sərəncam gələnədək artıq təşkil olunmuş və fəaliyyətə başlamışdı. 1917-ci il iyunun 13-də Xudat stansiyasında Dairə Müsəlman Komitəsinə keçirilən seçkilər nəticəsində Mərdan Qırxlarov sədr, Mirzə Əhməd Baxşıyev müavin, Əbdül Məcid İlyasov katib seçilmişdi.

Həmin dövrdə Quba şəhərində, Qudyalçayın sol sahilində yerləşən Yəhudi qəsəbəsində 2 qrup- bir tərəfdə İnqilab komitəsi, digər tərəfdə isə ravvin İsaak Muzrahi (sədr) və Rabbi Yaxkunun (müavin) başçılığı ilə yəhudi milli şurası da yaradılmışdı.

Yəhudi milli şurasına 30 üzv daxil idi. Fevral inqilabının qələbəsindən sonra Quba qəzasında siyasi partiyaların fəaliyyəti genişlənməyə başladı. 1917-ci ilin aprelində Quba şəhərində, Qızılburun stansiyasında və bəzi rus kəndlərində eserlər partiyasının özəkləri yaradıldı. Eyni zamanda Quba şəhərində menşevik partiyasının da özəyi təşkil edilmişdi (10, s.19). Bu partiyaların azərbaycanlılar arasında nüfuzu demək olar ki, yox idi, onlar əsasən rus kəndəlrində, qarnizonlarda və kiçik fəhlə kollektivlərində təbliğat aparırdılar.

1917-ci ilin yazında bir çox qəza mərkəzlərində, o cümlədən Quba qəzasında hümmətçilərin fəaliyyət də dirçəldi. Bakı Hümmət təşkilatının buraya gəlmiş nümayəndələri H.Sultanovun və M.Qədirlinin iştirakı ilə Quba qəzasında təşkilatın yerli şöbəsi yaradıldı. 1917-ci ilin aprelin əvvəlində 17 yerli bolşevik nümayəndənin iştirakı ilə RSDFP-nın Quba qəza komitəsinin yaradılması üçün təsis iclası keçirildi (5, v.54; 15, s.12). Bolşeviklər təbliğat işini ilk növbədə Quba və Qusarda yerləşən yerli qarnizon əsgərləri və eyni zamanda fəhlə kollektivlərinin olduğu nahiyələrdə təşkil edirdilər.Bolşeviklər partiya özəkləri yaradaraq Xaçmaz, eləcə də Dəvəçi dəmiryolçuları, Qızılburun balıq müəssisəsində və Bakı şollar su kəməri işçiləri arasında tətillərə təşkilatçılıq etmişdirlər (15, s.9). Bakı fəhlə və əsgər deputatları Soveti Quba qəzasının kəndliləri arasında siyasi işi aparmaq üçün öz nümayəndələrini buraya göndərmişdi. Bu məqsədlə Bakı Sovetinin İcraiyyə komitəsi nəzdində şəhərdənkənar (qeyri şəhər) iş komissiyası da yaradılmışdı.

Ümumiyyətlə, bütün hakimiyyət strukturlarında bir boşluq hiss olunurdu. Vəziyyətə tam sahib olan və bütün səviyyələrdə sərəncamlarına sözsüz əməl edilən bir hakimiyyət orqanı yox idi. Əgər iyul ayına qədər hələ bir qədər sakitlik və qayda-qanun hökm sürürdüsə, avqust ayından

etibarən ictimai asayiş tamamilə pozulmağa doğru gedirdi. Quldurluq, qarət, qətl, silahlı basqınlar geniş miqyas alırdı. Yerli hakimiyyət orqanları qəza və kənd icraiyyə komitələri, komissarlar əhalinin ciddi narazılığına gətirib çıxaran bu cür özbaşına hərəkətlərin, cinayət hadisələrinin qarşısını almaq iqtidarında deyildi. Çünki bu orqanlar özləri hələ tam formalaşmamışdılar. Aciz qalan yerli hakimiyyət qüvvələri kömək üçün Zaqafqaziya komissarlığına müraciət edirdilər. Lakin XZK özü də bu təhlükəli axının qarşısını almaqda zəif idi. Yerlərə tələb olunan hərbi qüvvələri göndərə bilmirdi.

İnqilabi dəyişiklərin təsiri altında qəzanın müsəlman əhalisinin siyasi-ictimai fəallığı artmaqda idi. Yerli milli ziyalılar Azərbaycanın siyasi partiyalarının yerli təşkilatlarını yaratmaq üçün açıq fəaliyyətə başladılar. Məhz milli ziyalı qrupunun iştirakı ilə Quba şəhərində Musavat, İttihad partiyalarının təşkilatları yaradılmışdı. 1917-ci ilin iyul ayında yerli ziyalı gəncləri təşəbbüsü ilə Qubada Türk Ədəmi-Mərkəziyyət Partiyası – Musavatın özəyi təsis olundu. İ.Tahirovun sədrlik etdiyi özəyin tərkibinə İ.Tağıyev, X.Qayıbov, H.Məmmədbəyov, H.Hüseynov daxil idilər. Quba şəhərində partiyanı özəyinin yaradılmasında Ə.Rüstəmov, Ə.Şəfibəyov xüsusi rol oynamışlar. Partiyanın Dəvəçidə, Qalagahda da şöbələri fəaliyyət göstərirdi (14, 1917, 23 июля).

1917-ci ilin payızında din xadimləri, bəylərin təşəbbüsü ilə Qubada İtihadi-islam partiyasının özəyi yaradıldı, sonralar bu da İtihad partiyasına çevrildi. Qəza komissarı Ə.Zizikski, Şıxlar kənd bəyləri İbrahimbəy, Həsənbəy, Mürsəl bəy, Həmdulla əfəndi, İbrahim əfəndi, Molla Hacıbaba axund, polkovnik Məmmədbəy Məmmədbəyov, polis işçisi Səlimbəy Ağakişiyev bu partiyanın fəalları idilər (10, s.48).

Digər tərəfdən Quba qəzasının erməni əhalisi arasında daşnak təbliğatı genişlənirdi. Daşnaklar qəzadakı bütün erməni ailələrinə silah paylamışdılar. Başqa bölgələrə Bakı, Şamaxı və Qarabağa nisbətən Qubada ermənilərin sayı az idi. Onların sayı 500 nəfərdən çox deyildi. 1917-ci il Qafqaz təviminə görə ermənilər bölgədə kompakt halda, Quba şəhərində və 2-3 kənddə yaşayırdılar. Qubada yaşayan varlı ermənilərin yaratdıqları "Həmrəylik" qrupuna sənayeçi Qriqori Poqosyan, tacir Karapet Vartanyan, balıq sənayeçisi Avakov, dəyirman sahibi Harutyun və başqaları daxil idi. Onlarca ermənini silahlandırmış Vartan Avakov milli təxribatlar törədir, gah ermənilərin, gah da müsəlmanların evlərinə basqınlar təşkil edirdi. Lakin bütün cəhdlərə baxmayaraq, qəzada ermənilər kifayət qədər sosial-siyasibazaya malik olmadıqlarından həmin hərəkətlər kütləvi hal şəklini almır və milli münaqişəyə çevrilmirdi.

Fevral hadisələrindən sonra yaranmış coşqunluq Quba gənclərindən də yan ötmədi. Quba gənclərinin ictimai fəallığının yüksədilməsinə o zaman bütün Azərbaycanda geniş vüsət alan tələbə–gənclər hərəkatı da öz müsbət təsirini göstərirdi. Əslində Quba şəhərində Müsəlman Milli Komitəsinin yaradılmasında gənclər xüsusi rol oynamışdılar. 1917-ci ilin mayında Bakı Müsəlman İctimai Təşkilatları Komitəsinin Quba şəhərinə göndərdiyi bir qrup tələbə (M.Əfəndiyev, M.Vəliyev, A.İbrahimbəyov və b.) qısa müddət ərzində burada yerli milli komitənin fəalityyətini bərpa etməyə müvəffəq olmuşdu. Yerli gəncləri birləşdirmək məqsədi ilə Milli Komitənin nəzdində xüsusi fond, "Türk-Yurdu" adlı ədəbii-bədii dərnək yaradılmışdı. Tələbələrdən Yusifbəy Atabəyov, Adışirin İbrahimbəyov, Məmmədhəsən Vəliyev, Məmmədəmin Əfəndiyev şəhərdəki Gümə məscidində, Yəhudi qəsəbəsində çıxış edərək, cari vəziyyət, Rusiyada siyasi proseslər, milli hərəkatın məqsəd və vəzifələri haqqında əhalini məlumatlandırmışdılar. Bir müddətdən sonra tələbələr Müşkür və Xudat sahələrində də icra komitələri, milli komitələr yaratmışdılar. Quba qəzasının əksər kəndlərində ziyalı qüvvələr olmadığından, Bakıdan gəlmiş tələbələr əhalinin siyasi təşkilatmasında əsas rol oynamalı olmuşdular (14, 1917, 19 мая, 24 июня).

Fevral inqilabı və onun yaratdığı yeni ictimai-siyasi şərait bütün böləgələrdə olduğu kimi Quba qəzasında da aqrar münasibərlərin kəskinləşməsinə, kəndli hərəkatının yeni mərhələyə qalxmasına səbəb oldu. Sabit hakimyyətini olmamasından istifadə edən kəndlilər torpaq uğrunda daha kəskin şəkildə mübarizə aparmağa başladılar. Başqa bölgələrlə müqayisədə Qubada aqrar hərəkat bir qədər zəif olsa da, burada da kəndlilər torpaq ələ keçirmək üçün ən müxtəlif üsul və vasitələrdən istifadə edirdilər. Artıq mart ayından əkin mövsümünün başlanması ilə əlaqədar xəzinə və sahibkar torpaqlarının, su mənbələrinin ələ keçirilməsi, vergilərin, icarə haqqının ödənilməsindən imtina, meşələrin kütləvi qırılması hallarının artması müşahidə olunurdu. 1917-ci

ilin yazında kəndlilər Rılskilərin «Vələmir» adlanan malikəsinə hücum edərək, məhsulu və mal-qaranı aparmışdılar (12, 1917, 25 апреля). Müşkür sahəsi Zeyid kənd icmasının Şıxqapıt kəndliləri Şıxlar bəylərinin torpaqlarını özbaşına zəbt etmişdilər (3,v.1). Kəndli hərəkatının genişlənməsinin əsas səbəblərindən biri də ərzaq probleminin kəskinləşməsi ilə əlaqədar idi. Bakı quberniya ərzaq komitəsinin məlumatına görə Quba qəzasının dağlıq ərazilərində taxılın çatışmaması əsil aclıq təhlükəsi yaratmışdı. Nüfuzlu yerli hakimiyyətin olmaması, ərzaq komitələrinin yarıtmaz fəaliyyəti nəticəsində vəziyyət getdikcə ağırlaşırdı.

Müvəqqəti Hökumətin mövqeyini ifadə edən OZAKOM sözdə kəndlilərin torpq və ərzaq tələblərinə tərəfdar olduğunu, xəzinə və sahibkar torpaqlarının kəndlilərə paylanması lüzumunu bildirsə də, torpaq məsələsinin Ümumrusiya Müəssisələr Məclisində həllinə qədər kəndlilərin radikal hərəkətlərdən çəkinməyə, məsələnin «qanuni yolla» həllini gözləməyi məsləhət görürdü. Bolşeviklər isə əksinə, kəndliləri mülkədar və xəzinə torpaqlarının dərhal müsadirə etməyə çağırırdılar. Lakin Azərbaycan kəndində, o cümlədən Quba kəndlərində bolşeviklərin açıq fəaliyyətindən danışmaq düzgün olmazdı (16, s.60). Başqa qəzalarla müqayisədə Quba qəzasında sosial ziddiyyətlər açıq-aşkar sinfi mübarizə şəklini almamışdı. Hətta 1917-ci ilin sonları – 1918-ci ilin əvvəllərində Azərbaycanda yeni mərhələyə qədəm qoymuş kəndli hərəkatı Quba qəzasında geniş yayılmamışdı. Düzdür, həmin dövrdə qəzanın bir sıra nahiyyələrində (Qaraqurd, Hacı Qurban oba, Dəvəçi və s.) kəndlilər mülkədar torpaqlarını və mülklərin tutmağa cəhd göstərmişlər, lakin bu cəhdlər kütləvi və sərt xarakter daşımamışdı (16, s.61).

1917-ci ilin yazında bolşeviklərin təşəbbüsü ilə əsasən rus kəndlərinin nümayəndələrinin iştirakı ilə Qubada Kəndli İttifaqı Komitəsi yaradıldı. Məhsul qıtlığından, bahalıqdan istifadə edən Komitə üzvüləri kəndliər arasında təbliğat aparır, onları kütləvi iğtişaşalara təhrik edirdilər. Komitənin tələbi ilə 1917-ci ilin apreliNDƏ qəza ərzaq komitəsi və onun nahiyə şöbələri yaradıldı. Ərzaq komitəsi əhalinin ərzaqla təminatını öz üzərinə götürmüşdü. 1917-ci ilin iyulun 11-də Quba Ərzaq Komitəsinin iclasında Q.Musəbəyov onun sədri, barışdırıcı məhkəmənin sədri L.Kolesinski isə onun müavini seçildilər. Qəzanın özündə taxıla və ərzağa böyük ehtiyac olmasına baxmayaraq, Azərbaycanın başqa qəzalarının əhalisinin ərzaqla təmin edilməsində qəza kəndləri mühüm rol oynayırdı. Bu məqsədlə Ərzaq Komitəsinin vasitəsi ilə qəzada toplanılan taxıl vaqonlarla Bakıya və başqa qəzalara göndərilmişdi (6, v.18; 7, v.400; 8, v.32).

Quba qəzasında sənaye müəssisələri olmadığında burada kütləvi fəhlə hərəkatı üçün zəmin yox idi. Buna baxmayaraq Qızılburun balıq vətəgəsində, dəmiryolu stansiyalarında, Şollar-Bakı su kəmərində işləyən azsaylı fəhlə kollektivləri arasında bolşevik təbliğatının genişlənməsi nəticəsində bir sıra tətil hərəkətləri baş vermişdi (10, s.32).

Quba bəyləri, mülkədarları, məmurlar və yerli ziyalılar OZAKOM-a və daha sonra onu əvəz etmiş Zaqafqaziya komissarlığına tabe olan yerli hakimiyyət orqanlarında yetərincə təmsil olunurdular. Onlar bütövlükdə qəzadakı vəziyyətə nəzarət edir, lazım olduqda hərbi qüvvələrdən istifadə etməklə həm kəndlilərin çıxışlarının, həm də silahlı qrupların qanunazidd fəaliyyətinin qarşısını alırdılar.

Eyni zamanda Ə.Zizikskinin dəstələri əyalətdə yaşayan müsəlman əhalisinin təhlükəsizliyinin təminatçısı kimi çıxış edirdi. Belə ki, bu dövrdə, 1917-ci ilin payızından-1918-ci ilin yanvarınadak əllərində silahla müharibədən qayıdan erməni, rus və yəhudi əsgərləri qəzada silahlı quldur dəstələr təşkil edir, mülkədarların mülk və təsərrüfatlarında qarətçiliklə məşğul olurdular. Yerli hakimiyyətin onları tərk silah etmək cəhdləri adətən silahlı toqquşma ilə müşahidə olunurdu.

Azərbaycan milli hərəkatının ən fəal iştirakçılarından biri olan, Quba qəza komissarı Ə.Zizikski qəzada hakimiyyətin möhkəmləndirilməsi, əsasən qeyri-yerli millətlərinin nümayəndələrindən ibarət olan Bakı Sovetinin burada möhkəmlənməməsi üçün bütün imkanlardan istifadə etməyə çalışırdı. Digər ictimai və dövlət xadimi, Qubanın ən nüfuzlu liderlərindən biri Həmdulla Əfəndi Əfəndizadə qəzanın Dəvəçi nahiyəsində əmin-amanlığı təmin edirdi (1, s. 468, 325).

Cərəyan edən proseslərin təsiri altında Quba qəzasında ictimai-siyasi vəziyyət günbəgün dəyişirdi. 1917-ci il aprelin sonlarında Ə.Əlibəyovun başçılığı ilə Qəza Milli Komitəsi yenidən

təşkil olundu (14, 1917, 24 июня). Mayın 13-də keçirilmiş iclasda komitənin yerlərdə öz nümayəndəliklərini açmaq, zabit M.Məmədbəyovu özünün səlahiyyətli nümayəndəsi kimi Bakı Müsəlman Milli Şurasının (Komitəsinə) nümayəndə göndərmək barədə qərarları qəbul edildi. Qısa müddət ərzində bir çox nahiyə və kəndlərdə müsəlman milli komitəsinin yerli şöbələri yaradıldı (10, s.37-38). Yerli milli komitələrin təşkili başa çatdıqdan sonra, iyunun 31-də Qəza Müsəlman Komitəsinə seçkilər keçirildi və 32 nəfərlik tərkib formalaşdırıldı (14, 1917, 8 августа). Komitəyə həm şəhər və nahiyə milli komitələrindən, həm də siyasi partiya və ictimai təşkilatlardan nümayəndələr seçilmişdi. Eyni zamanda Quba qəzası Müsəlman Milli Komitəsinin Ə.Zizikski, İ.Abdullayev, Harun Əfəndi, K.Məmmədbəyov, A.X.Mustafayev, M.Xələfov, A.Tağıyev, H.Əmiraslanov, M.M.Axundov, H.Məmmədyarovdan ibarət İcraiyyə komitəsi də təsis olundu. Komitə qəzada maarif işinin yayılmasında müəyyən işlər görürdü. Azərbaycanlılar arasında siyasi maarifləndirmə işi aparmaq, onları ictimai həyata geniş şəkildə cəlb etmək məqsədilə müxtəlif tədbirlər həyata keçirilir, kurslar və dərnəklər təşkil edilirdi. Belə dərnəklərdən «Əxlaqi-elmi tərbiyə», «Türk-yurdu» adlı ictimai-siyasi, ədəbi-bədii dərnəkləri, eləcə də «Nəşri-maarif» cəmiyyətinin Quba şöbəsini göstərmək olar.

Bolşeviklərin təbliğatı qəzada əsasən rus kəndləri və Quba və Qusar qarnizonunun əsgərləri arasında əks-səda tapırdı. Sentyabrın əvvəllərində əsasən rus kəndliləri və əsgərlərin köməyi ilə bolşeviklər Quba Fəhlə və Əsgər Sovetini yenidən təşkil etməyə nail oldular. Lakin yeni seçilmiş Rəyasət Heyətinin altı üzvündən yalnız üçü bolşevik idi (11, s.18). Buna qane olmayan bolşeviklər 1917-ci ilin 17 oktyabrında Quba fəhlə və əsgər deputatları Sovetinin iclasını çağıraraq menşevik və eser nümayəndələrinin istefa verməsinə nail oldular. Sovetin yeni seçilmiş müvəqqəti icraiyyə komitəsinə Q.Musabəyov (sədr), M.Yaqubov, M.Mehdiyev, Y.Məmmədov və başqaları daxil oldular (15, s.10).

1917-ci ilin oktyabrında Rusiyada baş vermiş bolşevik çevrilişi Quba qəzasındakı şəraitə öz təsirini göstərdi. Bakı Sovetinin 2 noyabr 1917-ci il tarixli qərarı ilə Bakıda və quberniyada bütün hakimiyyətin sovetlərə keçdiyi bildirildi. Bakı bolşevikləri yeni şəraitdə qəzalarda hakimiyyətin sovetlərə keçməsini təmin etmək üçün geniş fəaliyyətə başladılar. Qubadan şimalda, Dağıstanda sovet hakimiyyətinin qurulması da buradakı vəziyyətə öz təsirini göstərirdi. RSDF(b)P Bakı Komitəsinin tapşırığı ilə H.Sultanov, M.Aydınbəyov, M.İsrafilbəyov və başqa bolşeviklər Quba qəzasının müxtəlif yerlərində Sovet hakimiyyətinin qurulması üçün iş aparırdılar. Eyni zamanda Bakı Sovetinin rəhbərliyi qəzanı nəzarətə almaq üçün buraya silahlı dəstələr göndərmişdi. Lakin qəzanın milli qüvvələri əhalini səfərbər edərək onun təhlükəsizliyini təmin etməyi öz üzərinə götürdülər. Bu işdə Quba Qəzası Müsəlman Milli Komitəsi, onun nümayəndələri Ə.Zizikski, Şıxlar bəyi İbrahimbəy, onun qardaşları Həsənbəy, Mürsəlbəy, Qonaqkənd cəmiyyətin pristavı Mayıl Zahirov, Həmdulla Əfəndi və başqaları xüsusi rol oynayırdılar. İbrahimbəy 400 nəfərlik könüllülər dəstəsi təşkil edərək yerli əhalinin mühafizəsini təşkil etmişdi.

Quba və Qusar qarnizonları bolşevikpərəst möiqe tutdular. İctimai Təşkilatların Quba Şurası bu vaxt öz fəaliyyətini faktik olaraq dayandırmışdı. Qəzanın müsəlman əhalisi Quba Müsəlman Milli Şurasını (Komitəsini) müdafiə edirdi. Faktik olaraq Qubada iki hakimiyyət orqanı – Müsəlman Milli Şurası və Fəhlə və Əsgər Deputatları Soveti fəaliyyət göstərirdi.

Qafqaz ordusunun bölgəni tərk etməsi ilə əlaqədar Quba qəzasında dislokasiya olunmuş qarnizonun əsgərləri də qəzanın ərazisini tərk edirdilər. Bunun nəticəsində Quba əsgər deputatları Soveti ləğv olunmuş, hakimiyyət dinc yolla Müsəlman Milli Şurasının əlinə keçmişdi.

1918-ci ilin yanvar ayının sonlarında Quba qəzası ərazisində məlum Şamxor hadisələrinə bənzər hadisələr baş verdi. Quba qəzasında fəaliyyət göstərən milli qüvvələr Azərbaycanı gözləyən real təhlükəni əvvəlcədən hiss edərək silahlanmağa başlamışdılar. Bu həm də Zaqafqaziya komissarlığının milli hərbi hissələr yaratmaq haqqında 11 dekabr 1917-ci il tarixli qərarına tam uyğun idi. Yaradılacaq milli hissələrin əsas silah və təchizat mənbəyi Qafqaz cəbhəsində vuruşan keçmiş rus ordusunun hissələri olmalı idilər. Lakin bir tərəfdən bolşevik təbliğatının, digər tərəfin şovinist hisslərin təsiri altında rus əsgərləri silahı verməkdən imtina edərək Rusiyaya qayıdırdılar və bu zaman özləri ilə hətta ağır silahları belə aparırdılar. Düzdür, bu hissələr hələ Bakıdan keçərkən silah-sursatın əksəriyyətini bolşevik-daşnak qüvvələrinə versələr də onların əlində

müəyyən qədər silah hələ də qalırdı. Keçdikləri yol boyu başıpozuq əsgərlər özbaşınalıq edir, kəndləri talayır, silah gücünə əhalinin var-yoxunu əllərindən alardılar. Yerli hakimiyyət orqanlarının tələblərinə məhəl qoymadan hərbi eşalonların silah-sursatla çıxıb etməsi yaradılması nəzərdə tutulan milli qoşun hissələrini maddi-texniki bazadan məhrum edirdi. Ona görə də Zaqafqaziya Komissarlığın və Milli Şuraların rəhbərləri yerli hakimiyyət orqanlarından Qafqazdan gedən hərbi eşalonların tərksilah edilməsi üçün qəti tədbirlər görəmsini tələb etmişdilər. Çoxsaylı silahlı əsgərlərin hərəkət etdiyi eşalonların tərksilah edilməsi təhlükəli olduğu üçün bu məqsədlə xüsusi silahlı dəstələr təşkil edilmişdi. Ordu eşalonlarının hərəkət marşurutundan biri də Bakı-Petrovsk dəmiryolu idi və onun müəyyən hissəsi Quba qəzasından keçirdi. Zaqafqaziya komissarlığının qərarına uyğun olaraq Ə.Zizikski başda olmaqla qəzanın milli qüvvələri, Quba Müsəlman Milli Komitəsinin fəalları 1918-ci il yanvarın 27-də Xaçmaz stansiyasında Rusiyaya hərəkət edən hərbi qatarı saxlayaraq silah-sürsatı qəzanın qanuni hakimiyyət orqanlarına təhvil verməyi tələb etdilər. Silahları təhvil verməkdən imtina edən əsgərlərlə milli hərbi qüvvələr arasında silahlı insident bir neçə saat davam etdi. Rus əsgərləri tonlardan atəş açaraq ətraf kəndlərə böyük ziyan vurmuş, ölən və yaralananlar olmuşdu. Hadisələrdən xəbər tutan Bakı bolşevikləri oraya dərhal zirehli qatar göndərsə də yerli partizanlar Sarvan və Çarxı stansiayları arasında dəmiryolu xəttini sıradan çıxarmağa müvəffəq olmuş, nəticədə zirehli qatar Xaçmaza gedib çıxa bilməmişdi.

Silahlı insident ertəsi gün - yanvarın 28-də də davam etmiş, hər iki tərəfdən çoxlu tələfat baş vermişdi. Milli qüvvələr Bakı Sovetinin bolşevik rəhbərliyinin qərarı ilə Qusardan Bakıya qaytarılan alayı da Xaçmaz yaxınında tərksilah etməyi oldular.

Lakin bolşeviklər mühüm strateji bölgə hesab etdikləri Quba qəzasını nəzarətə götürmək planlarından əl çəkmirdilər. Bu məqsədlə də Bakıdan buraya xüsusi emissarlar göndərilir, kəndlilər arasında təbliğat işinin genişləndirməyə çalışırdılar. Lakin qəzanın müsəlman kəndliləri bolşevizmə yad siyasi qüvvə kimi baxdıqlarından bolşevizm yalnız rus kəndlərində və xutorlarında (Nikolayevka, Yelenovka, Petropavlovka, Alekseyevka, Mixaylovka, Borispol, Novomixaylovka, Şibyakin, Drujba və b.) müəyyən nəticələrə nail olmuşdular. Məsələn, 1918-ci ilin fevralın 26-27 yeni stillə martın 12-də) bu kəndlərin nümayəndələrinin iclasında Sovet hakimiyyətinin tanınması, Sovetin özünümüdafiə dəstələrinin yaradılması kimi qətnamələr qəbul edilmişdi (13, 1918, 22 марта). Həmin il martın 12-də Quba şəhərində qəza kəndlilərinin (əsasən rus kəndlərinin nümayədələrinin) birinci qurultayı keçirildi. Qurultay Bakı Sovetinə müraciət edərək qəzadayaradılmış sovetlərə kömək göstərilməsini, onları silahla təchiz edilməsini xahiş etdi.(13, 1918, 26 марта.) Bu addımlar, Bakı bolşeviklərinin nəyin bahasına olursa olsun, silah gücünə belə, qəzalarda öz hakimiyyətlərini qurmaq planlarını sübut edirdi. Lakin qəzada onların əsas sosial dayağı olan rus əhalisinin azlığı bolşevikləri daha incə üsullara əl atmağa, yerli azərbaycanlı əhali arasında təbliğat işini gücləndirməyə vadar edirdi. Hümmət təşkilatının rəhbərlərindən biri, RSDF(b)P-nin Bakı Komitəsinin və Qırmızı Qvardiya dəstələrinin təşkili üzrə komissiyanın üzvü Məşədi Əzizbəyov 1918-ci ilin martında Quba qəzasına gəldi. O Xaçmazda bolşevik təşkilatları nümayəndələrinin müşavirəsini keçirərək Quba qəzasının bolşevik hakimiyyətinin qurulmasında strateji əhəmiyyətindən danışırdı. Dağıstanda dağlılar hərəkatının Bakının təhlükəsizliyi üçün ciddi amil olduqunu vurqulayan M.Əzizbəyov Qubanın Bakı Sovetinin təhlükəsizliyini təmin edilməsi baxımından mühüm bölgə olmasını göstərirdi. Bir qədər sonra bölşeviklərin Quba şəhərinin Yəhudi hissəsində İ.İfraimovun evində keçirilmiş müşavirəsində Qırmızı qvardiya dəstələrinin yaradılmasının sürətləndirilməsi haqqında qərar qəbul edildi.(16, s.64)

Qubada fəaliyyət göstərən milli qüvvələr yaxınlaşan təhlükəni görür və qəzaə halisini labüd qırğından qorumaq üçün müəyyən tədbirlər həyata keçirirdilər. 1918-ci il martın sonralarında Milli Komitəni üzvlərinin və müxtəlif nahiyə və kəndlərdən gəlmiş nümayəndələrin Ə.Zizikovun yanında keçirilmiş iclasında könüllü dəstələrin yaradılmasını sürətləndirilməsi zəruri hesab edildi.

Bütün bunlar bolşeviklərin həm Bakı şəhərində, həm də Azərbaycanın qəzalarında hakimiyyətin silahlı yolla ələ keçirmək üçün ciddi hazırlıq gördüklərini təsdiq edirdi. Bir müddətdən sonra S.Şaumyanın başçılığı altında Bakıda, Şamaxıda Qubada və Azərbaycanın digər

bölgələrində azərbaycanlılara qarşı törədilmiş soyqırım onların təkcə hakimiyyəti qəsd etməklə məhdudlaşmayacaqlarını göstərdi.

Beləliklə, 1917-ci il fevral inqilabından 1918-ci ilin yazına qədərki dövrdə Quba qəzasında ciddi ictimai-siyasi dəyişikliklər baş vermiş, regionda və ölkədə cərəyan edən prosesilər qəzanın daxili həyatına öz təsirini göstərmişdi. Bakı şəhəri və Şamaxı qəzasından sonra Quba qəzasında da bolşeviklər öz hakimiyyətlərini qurmaq üçün əməli fəaliyyətə keçdilər. Lakin qəzanın etno-sosial tərkibinin fərqliliyi, burada rus və erməni əhalisinin azlığı, antiazərbaycan qüvvələrin kifayət qədər gücə və nüfuza malik olmamaları burada sovet hakimiyyətinin bərqərar olmasına imkan vermirdi. Qəzada real hakimiyyət Müsəlman Milli Şurasının simasında milli qüvvələrə məxsus idi. Ona görə də Bakıda hakimiyyəti ələ keçirmiş Bakı Sovetinin bolşevik-daşnak rəhbərliyi Quba qəzasında öz hakimiyyətlərini zorakılığa, qəza əhalisinin soyqırımının həyata keçirməklə təmin etmək yolunu tutdular.

## ƏDƏBİYYAT


1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, I cild, Bakı., 2004
2. AMEA Tarix İnstitutunun Elmi Arxivi, f.1, s.3, iş 4756
3. Azərbaycan Respublikası Dövlət Arxivi, f.169, s.4, iş 151
4. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f.267, s.1, iş 31
5. ARPİİSSA, f.456, s.16, iş 212
6. ARPİİSSA, f.2815, s.1, iş 34
7. ARPİİSSA, f.2815, s.1, iş 786
8. ARPİİSSA, f.2815, s.1, iş 804
9. Mir Gəfər Bağırovun məhkəməsi, B., 1993
10. Rüstəmbəyli R. Çarpışan qüvvələr, B., Maarif, 1991
11. Rüstəmbəyli M.Q.Xalqın səadəti uğrunda, B., 1971
12. «Баку» (газета)
13. «Известия Бакинского Совета» (газета)
14. «Каспий»(газета)
15. Рустамбейли М.Г. Борьба трудящихся Кубинского уезда за установления и упрочения Советской власти в уезде (1917-1922 гг.) Автореферат диссертации кандидата ист. наук, Б., 1970
16. Рустамова-Тогиди С. Куба. Апрель-май. Мусульманские погромы в документах, Б., 2010


## ABSTRACT


**Kamran Ismailov**


**Social and political processes in the Guba district of Azerbaijan (February 1917 - March 1918)**


In the article it was shown the socio-political processes in the Guba district of Azerbaijan in 1917 and early 1918. Traces the process of administrative changes, the formation of new power structures, national - political organizations.

It is noted that the overthrow of tsarism in February 1917 led to fundamental social and political changes in all regions of Azerbaijan, including the Guba district. In a short time in the counties were formed new governments, began to emerge various social, national organizations, local branches of political parties. On the specific facts traces the development of public activity among the local Azerbaijani population. In this connection, analyzes the activities of the Guba Council of the Muslim, Azerbaijani political parties to consolidate the Muslim population.

A more detailed analysis of the socio-political processes in the county after the October Revolution of 1917 until March 1918. Based on archival documents reveal plans bolshevik and

Dashnak forces with respect to this region. For the first time in the national historiography. details reveals the true meaning of the events at the station of Khachmaz in January 1918 ..

It is emphasized that the Guba district occupied an important place in the strategic plans of the Bolsheviks. Therefore, seized power in Baku, having carried out genocide of Azerbaijanis in Baku and Shamakhi districts, they turned their attention to the guba district. However, the ethnic composition of the region, the activity of the Muslim population, prevented the Bolsheviks to establish his rule relatively peacefully. Therefore bolshevitk and Dashnak Baku Soviet leadership to seize power in the county has applied already tested in other regions of the method - the genocide of the Muslim population.

**РЕЗЮМЕ**

**Камран Исмаилов**

**Общественно-политические процессы в Кубинском уезде Азербайджана (февраль 1917 г. – март 1918 г.)В**

В статье освещаются общественно-политические процессы в Кубинском уезде Азербайджана в 1917 г. и начале 1918 г.. Прослеживается процесс административных изменений, образования новых властных структур, национально-политических организаций.

Отмечается, что свержение царизма в феврале 1917 года привело к коренным общественно-политическим изменениям во всех регионах Азербайджана, включая и Кубинский уезд. За короткий срок в уезды были образованы новые органы власти, стали возникать различные общественные, национальные организации, местные отделения политических партий. На конкретных фактах прослеживается развитие общественной активности среди местного азербайджанского населения. В связи с этим анализируется деятельность Кубинского мусульманского совета, азербайджанских политических партий по консолидации мусульманского населения.

Более подробно анализируются общественно-политические процессы в уезде после октябрского переворота 1917 года вплоть до марта 1918 года. Основываясь на архивных документах раскрываются планы большевистко-дашнакских сил относительно этого региона**.** Впервые в отечественной историографии. подробно раскрывается истинный смысл событий, происшедших на станции Хачмаз в январе 1918 г..

Подчеркивается, что Кубинский уезд занимал важное место в стратегических планах большевиков. Поэтому захватив власть в Баку, осуществив геноцид азербайджанцев в Бакинском и Шамахинском уездах, они обратили свой взор на Кубинский уезд. Однако национальный состав региона, активность мусульманского населения, помешали большевикам установить здесь свою власть относительно мирным путем. Поэтому большевистко-дашнакское руководство Бакинского Совета для захвата власти в уезде применило уже испытанный в других регионах метод – геноцид мусульманского населения.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**

**QADİR ƏKBƏROV**
*AMEA Naxçıvan Bölməsi*
*qadir1976@inbox.ru*

**UOT:572.9**

# HEYDƏR ƏLİYEV VƏ MİLLİ MƏNƏVİ DƏYƏRLƏRİMİZ

**Açar sözlər:** *Azərbaycançılıq, milli mənəvi dəyərlər, diaspor*
**Key words:** *Azerbaijanizm, national-moral values, diaspora*
**Ключевые слова:** *Азербайджанизм, национально-духовные ценности, диаспора*

Məqalədə milli ideologiyanın formalaşmasından, Heydər Əliyevin milli-mənəvi dəyərlərə diqqət və qayğısından bəhs edilir. Həmçinin məqalədə azərbaycanlıarın təşkilatlanması, xaricdə yaşayan həmvətənlərimizin diaspor təşkilatlarının yaradılmasından bəhs edilir.

Azərbaycan — türk kökənli Azərbaycan xalqının tarixi vətəni, dünyanın qədim mədəniyyət mərkəzlərindən biridir. Azərbaycanlılar xalq, yaxud millət olaraq məhz Azərbaycanda formalaşmışlar. Bu torpaqda yaşayan, özünü azərbaycanlı hesab edən hər bir insan bu vətən üçün hansısa bir əmək sərf etməyə çalışmışdır. Bu baxımdan Azərbaycanda yaşamış tanınmış şəxsiyyətlər, o cümlədən milli ziyalılarımız öz həyatlarını xalqımızın tərəqqisinə, savadlanmasına, birliyinə mənəvi yüksəlişinə həsr etmişlər.

Milli ruhlu, vətənpərvər ziyalılarımızla bərabər XX yüzillikdə Azərbaycan torpağı öz həyatını və fəaliyyətini xalqının bütün sahələrdə inkişafına, tərəqqisinə həsr etmiş dahi şəxsiyyət yetirmişdir ki, bu da Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev olmuşdur. Heydər Əliyev qeyd edildiyi kimi bütün siyasi fəaliyyətini Azərbaycan xalqının milli maraqları üzərində qurmuşdur. İstər SSRİ dönəmində, istərəsə də müstəqillik illərində o, özünü əsl azərbaycanlı kimi göstərərək, ölkə daxilində və ölkəmizdən kənarda yaşayan azərbaycanlıların milli birliyinə nail olmağa çalışmışdır.

1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi seçildikdən sonra o, ilk vəzifə olaraq respublikanın ittifaq göstəricilərindən geridə qalan sahələrinin inkişafı yolunda əməli addımlar atmağa başladı. Qısa vaxt ərzində respublikamız digər müttəfiq respublikaları iqtisadi cəhətdən ötüb keçdi. Xüsusilə kənd təssərrüfatı sahəsində çox böyük nailiyyətlər əldə edildi. Heydər Əliyev həm də milli mənəvi dəyərlər sahəsində də öz layiqli fəaliyyəti ilə tariximizdə yeni bir dövrün başlanmasına start verdi. Bu sahəyə biz əyani olaraq Azərbaycan dilinin 1978-ci ildə rəsmi dövlət dili səviyyəsinə qaldırılmasını, 1982-ci ildə şair-drammaturq Hüseyn Cavidin nəşinin İrkutsk vilayətindən gətirilərək doğma vətənində dəfn olunmasına nail olmağını göstərə bilərik. Tam qətiyyətlə demək olar ki, bu iki məsələ sovetlər dönəmində heç bir müttəfiq respublika rəhbərinin edə biməyəcəyi cəsarətli bir iş idi. Heydər Əliyev bu və digər milli məsələlərlə bağlı öz siyasətini məhz azərbaycançılıq nöqteyi-nəzərindən qurur, azərbaycançılığın inkişaf konsepsiyasını yaradırdı.

Ümummilli lider Heydər Əliyev tərəfindən vahid ideologiya kimi dövlət səviyyəsində müəyyən edilən azərbaycançılq ideologiyası azərbaycanlıların tarixən yaşamış olduğu Zəncandan Dərbəndə qədər, Xəzər dənizindən Şərqi Anadoluya qədər geniş bir ərazidə formalaşmış, XIX əsrdə milli məfkurə kimi ortaya çıxmış, XX yüzilliyin əvvəllərində inkişaf etdirilmiş, əsrin sonlarında isə vahid ideologiyaya çevrilmişdir. Heydər Əliyevin bir azərbaycanlı kimi, bir dövlət xadimi kimi ən böyük milli mənəvi dəyərlərimizdən olan azərbaycançılıq məfkurəsini milli ideologiyaya çevirməsi onun bütün siyasi fəaliyyəti boyu izlənmişdir.

Sovetlər dönəmində bütün milli mənəvi dəyərlərimiz, o cümlədən dilimiz müstəmləkə xarakterli təzyiqlər altında olmasına və Azərbacan dilinin inkişafına məqsədli şəkildə qadağalar qoyulmasına baxmayaraq Heydər Əliyev dövlətçilk siyasətində dili milli dövlətçiliyimizin dövlət atributlarından biri saymış, bu məsələdə cox ciddi mövqe nümayiş etdirmişdir. Totalitar dövlət olan SSRİ cəmiyyəti daxilində aparılan dil siyasəti vahid sovet xalqı ideologiyası çərçivəsində yürüdülən ruslaşdırma siyasətinin bir qolu olmuşdur. Buna baxmayaraq Heydər Əliyev nəinki Azərbaycan dilində danışmağı üstün tutmuş, hətta Azərbaycan dilini dövlət səviyyəsinə qaldırmağı bacarmışdı. O, hələ Azərbaycan SSR rəhbərliyində mühüm dövlət vəzifələri icra etmədiyi dövrdə, təhlikəsizlik orqanlarında işlədiyi vaxtlarda öz dilində danışmağa üstünlük verərək, bəzi hökumət və dövlət rəhbərlərini ciddi şəkildə çaşdırmışdı [2, s. 180-181]. Beləliklə o bolşevik ideyasının üstünlük təşkil etdiyi totalitar sovet cəmiyyətində öz milli kimliyini qoruyub saxlaya bilmişdir. Bununla da dahi rəhbər sonradan müəllifinə çevriləcəyi azərbaycançılıq ideyasının qoruyub yaşadıcısı oldu. O, bu addımları ilə XX əsrin əvvəllərində azərbaycançılıq məfkurəsinin əsasını qoyan dahi elm, mədəniyyət xadimlərinin yolunu şərəflə davam etdirmişdir. Filologiya elmləri doktoru, professor N.Şəmsizadə Heydər Əliyevin dilimizin inkişaf etdirilməsi ilə bağlı apardığı siyasəti bu cür qiymətləndirirdi: “Heydər Əliyevin Azərbaycançılığa gətirdiyi ikinci mühüm dayaq XX əsrin əvvəllərindəki ana dili mücadilələri idi. XX əsrin əvvəllərində böyük realist ədib C.Məmmədquluzadə, türkçü, romantik şair A.Şaiq, realist-demokratik tənqidin başçısı F.B.Köçərli, böyük bəstəkar Ü.Hacıbəyli, görkəmli ictimai-siyasi xadim N.Nərimanov "Ana dili" uğrunda mübarizəyə birgə başladılar. Tezliklə "Ana dili" uğrunda mübarizə "Ana Vətən" uğrunda mübarizəyə çevrildi. Hakimiyyətdə olduğu bütün dövrlərdə Heydər Əliyev bu problemi milli müəyyənliyin baş məsələsi kimi diqqət mərkəzində saxlayıb. Hələ 1978-ci ildə, totalitar ideologiyanın təzyiqi altında Heydər Əliyev böyük cəsarət göstərərək "Azərbaycan dili"ni dövlət dili kimi Azərbaycan SSR-in yeni Konstitusiyasına daxil etdi [11].

Heydər Əliyevin Azərbaycan xalqının təhsil alması, maariflənməsi və savadlanması istiqamətində apardığı düşünülmüş siyasəti təqdirəlayiq idi. Bunun üçün dövlət səviyyəsində lazımi işlər görülürdü. Ulu öndər bu məsələdə cox ciddi işlər görməyə başladı. Bütün rayonlarda və kəndlərdə saysız-hesabsız məktəblər, uşaq bağçaları, klub və mədəniyyət evləri, kinoteatrlar, kitabxanalar və s. kimi mədəni-maarif müəssisələri və ictimai-iaşə obyektləri tikildi [4]. Onun Azərbaycan xalqının qarşısındakı ən mühüm xidməti isə savadlı kadrlar yetişdirilməsi və həmin kadrlardan səmərəli istifadə edilməsi olmuşdur. Gələcək müstəqil Azərbaycanın kadrlara olan tələbatını ödəmək üçün SSRİ-nin ən məhşur ali məktəblərinə təhsil almaq üçün ildə 1000-nəfərə yaxın gəncin göndərilməsi ulu öndərin uzaqgörən kadr siyasətinin ən parlaq göstəricisi olmuşdur. Təkcə azərbaycanlı gənclərin keçmiş SSRİ-nin ali məktəblərinə seçilib göndərilməsi siyasəti ilə onun azərbaycançılığa etdiyi xidməti heç nə ilə ölçmək olmaz. Bu gün həmin gənclər həm müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğunda, həm də bütün dünyaya səpələnərək bir çox sahələrdə böyük fəaliyyət göstərirlər [10, s. 18]. Bütün bunlardan belə bir nəticəyə gəlmək olur ki, hər hansı bir ideyanı gerçəkləşdirmək, onu bir amala çevirmək üçün xüsusi xidmətlər göstərmək lazım olur. Yalnız düşünülmüş, ağıllı, uzaqgörən siyasətin nəticəsində hədəfə çatmaq mümükündür. Heydər Əliyevin azərbaycançılıq ideologoiasını formalaşdıraraq ən yüksək zirvəyə çatdırmaq üçün hansı təsirli tədbirləri gördüyünün şahidi oluruq. Heydər Əliyev sanki gələcək müstəqil Azərbycanın təməl prinsiplərini gerçəkləşdirmişdi. Bu məsələni akademik Ramiz Mehdiyevin ideologiya ilə bağlı fikirləri ilə müqayisə edək. Akademik Ramiz Mehdiyev ideologiya məfhumunu aşağıdakı kimi səciyyələndirir: “İdeologiya olaraq azərbaycançılıq mühüm funksional elementlərlə zəngindir və bunların da mahiyyəti ölkəni mənəvi və fiziki baxımdan zəiflətmək cəhdlərindən

qorumaqdır. Bu ideologiya inzibati-ərazi quruluşuna görə unitar, siyasi quruluş və dövlət idarəçiliyinə görə hüquqi və demokratik dövlət kimi Azərbaycanın möhkəmlənməsinə və inkişafına yönəldilmişdir [8]. Göründüyü kim Heydər Əliyev özünün bütün fəaliyyətini Azərbaycan dövlətçiliyi, onun inkişafı yönündə istiqamətləndirmişdir. Heydər Əliyevin dahiliyi, onun böyük siyasətçi olması dünya öndərləri tərəfindən də yüksək qiymətləndirlmişdir. Qazaxıstan Prezidenti Nursultan Nazarbayev onun xalqımız qarşısındakı fəaliyyətini qiymətləndirərək demişdir: "Heydər Əliyev xalqı sıx birləşdirməyə və onu tərəqqi, inkişaf yoluna istiqamətləndirməyə müvəffəq olmuşdur. Buna müasir tarixdə əslində heç kəs nail olmamışdır" [3, s. 45].

Hər bir dövlətin milli maraqlarının dünyanın istənilən nöqtəsində layiqincə qorunması üçün həmin ölkənin güclü ideoloji bazası və bu fundament üzərində dayanan diasporu olmalıdır [1]. Bu sahədə də Heydər Əliyevin planlı siyasəti olmuşdur. 70-80-ci illərdə gənclərimizin Azərbaycandan kənarda təhsillərini davam etdirmək üçün göndərilməsi özlüyündə sonrakı illərdə xaricdə yaşayan azərbaycanlı icmasının demək olar ki, bünövrəsini qoymuş oldu. Təbii idi ki, Rusiyanın ayrı-ayrı şəhərlərində, ittifaqın digər respublikalarına oxumağa gedən gənclərin heç də hamısı vətənə geri dönmədilər. Onlar bu şəhərlərdə yaşayıb həmin ölkələrin ictimai-siyası həyatında fəaliyyət göstərirdilər. Zaman keçdikcə bu azərbaycanlılar öz aralarında təşkilatlanmağa başladılar. Lakin onları bir yerə yığacaq mexanizm olmadığından dünya azərbaycanlılarının təşkilatlanması bir növ alınmırdı. Çünki bunun üçün hüquqi baza olmalı idi. Bu şərəfli missiyanı yerinə yetirən isə Heydər Əliyev oldu. İlk addım 1991-ci ildə Dünya Azərbaycanlılarının Həmrəylik gününün dövlət səviyyəsində qeyd edilməsi oldu. Bu hadisədən sonra dünyada yaşayan azərbaycanlılar hər il 31 dekabrı milli birlik günü kimi qeyd etməyə başladı. Min kilometrlərlə bir-birindən uzaqlarda yaşayan azərbaycanlılar sanki həmin gün bir yerdə olur, dərd-sərlərini bölüşürlər. Təsadüfi deyil ki, 1991-ci ildən başlayaraq ilk dəfə məhz ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə əvvəl Naxçıvanda, sonra isə bütün Azərbaycan miqyasında hər il 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi xüsusi qeyd edilir. Bu baxımdan, "31 dekabr"ın xüsusi yükü və böyük qayəsi həm də ondan ibarətdir ki, bu əlamətdar gün Azərbaycanın dirçəlişi və inkişafı yolunda əvəzsiz xidmətlər göstərmiş ümummilli lider Heydər Əliyevin bilavasitə təşəbbüsü, yenilməz iradəsi sayəsində təsis edilmiş, ümumxalq, ümummilli bayrama çevrilmişdir [7].

Heydər Əliyev özünəməxsus uzaqgörənliklə qloballaşan, köklü transformasiya dövrünü yaşayan dünyanın tələblərini öncədən görür və bu səbəbdən xaricdə yaşayan soydaşlarımız arasında möhkəm həmrəyliyi həyati məsələ kimi ortaya qoyurdu. O, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin dünyada möhkəmləndirilməsi, dünya asərbaycanlılarının mənəvi, siyasi birliyinin və həmrəyliyin təmin olunması, Azərbaycan icmaları, cəmiyyət və birliklərin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin ətraflı müzakirə edilməsini nəzərə alaraq, 2001-ci ilin ilin may ayının 23-də xüsusi sərəncam imzalamışdı. Həmin ilin noyabrın 9-10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının birinci qurultayı xaricdəki soydaşlarımızın azərbaycançılıq ideyası ətrafinda sıx birləşməklə təşkilatlanması baxımından tarixi əhəmiyyət kəsb etmişdir [5]. Nəticədə Heydər Əliyev dünya azərbaycanlılarının milli birlik və həmrəylik nümayiş etdirməsi, xaricdə Azərbaycan diasporunun təşəkkül taparaq formalaşması problemini dövlət səviyyəsinə qaldırdı.

Azərbaycan müstəqillik qazandıqdan sonra dünya azərbaycanlılarının vahid bir ideya ətrafında birləşdirilməsi məsələsi ən aktual vəzifələrdən biri kimi qarşıda dururdu. Əlbəttə ki, bunun kifayət qədər ciddi səbəbləri mövcud idi. Birincisi, dünya azərbaycanlılarının təşkilatlanması müstəqil Azərbaycan dövlətinin sosial və siyasi əsaslarının möhkəmləndirilməsi baxımından vacib idi. İkincisi, bu müxtəlif yerlərdə məskunlaşmış həmvətənlərimizin Azərbaycan dövlətinin qurulmasında və inkişafında iştirakına imkan yaradan amil kimi qiymətləndirilirdi [9]. Bir zamanlar Heydər Əliyevlə birlikdə işləmiş, Azərbaycan Raspublikası Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov Ümummilli liderin şəxsi keyfiyyətlərindən, onun milli məsələlərdə göstərdiyi xüsusi fəaliyyətindən bəhs edərək öz fikirlərini bu cür ifadə etmişdir: "Heydər Əliyev peşəkar strateq olaraq ictimai fikri hər zaman dövrün keyfiyyətcə yeni və pozitiv dəyisikliklərinə hazırlamaq, yaranmış tarixi şəraitə uyğun optimal qəraralar qəbul etməklə yanaşı, fəaliyyətində hər zaman milli maraq və mənafeləri önə çəkir, uzaq hədəflərə hesablanmış siyasət həyata keçirirdi.... Heydər

Əliyev fenomeninin  Azərbaycana uzunmüddətli rəhbərliyinin ən bariz göstəricisi də məhz Azərbaycançılıq məfkurəsinin cəmiyyətdə möhkəm əsaslarla intişar tapması, xalqın tarixi yaddaşının özünə qaytarılması yolu ilə milli dövlətçilik hisslərinin güclənməsi, real siyasi amilə çevrilməsidir [6]. Göründüyü kimi Heydər Əliyev ölkəmizin gələcəyi naminə bütün sahələrin inkişafına xüsusi diqqət yetirirdi. Onun fəaliyyəti Azərbaycan müstəqillik qazandıqdan sonra daha da genişləndi, dövlətimizin müstəqilliyinin əbədiyaşar olmasını, onun möhkəm hüquqi baza əsasında formalaşmasını, Qafqaz regionunda ən güclü orduya malik olmasını şərtləndirdi. Heydər Əliyev əsl azərbaycanlı kimi öz üzərinə düşən vədəndaşlıq vəzifəsini layiqincə yerinə yetirmiş oldu. ABŞ demokratiya mərkəzinin prezidenti Allen Ueynşeyn Heydər Əliyevin Azərbaycan üçün nə dərəcədə önəmli şəxsiyyət olmasını öz fikirləri ilə bu cür ifadə etmişdi: "Azərbaycan prezidenti qeyri-adi, dahi şəxsiyyətdir. Onu ən görkəmli siyasi xadim və dövlət xadimi kimi Corc Vaşinqtonla müqayisə edirəm. Onların hər ikisinin tarixi missiyası arasında uyğunluq var" [3, s. 14].

Bu gün dövlət siyasətində hər bir azərbaycanlının, ən əvvəl, öz xalqının dəyərlərinə sahib çıxması, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini və milli dəyərlərini qoruması önə çəkilir. Ümummili lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyevin konsepsiyasına görə, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti məhz milli dövlətçilikdir. Çünki milli dövlətçilik və milli-mənəvi dəyərlər arasında sıx bir daxili əlaqə vardır. Milli müəyyənliyi olmayan və özünü bir millət kimi dərk etməyən xalqın milli dövlətə də ehtiyacı ola bilməz.

## ƏDƏBİYYAT


1. Ağayev İ. Heydər Əliyev və Azərbaycan diasporu. "Yeni Azərbaycan" qəz. Bakı, 2008, 12 dekabr
2. Axundova E. Heydər Əliyev. Şəxsiyyət və Zaman. I hissə. Bakı, Ozan, 2007, 352 s.
3. Ələmşahov B., Bəxşeiş oğlu N. Fikirlərin vəhdəti. Müdrik kəlamlar. Bakı, 1998, 96 s.
4. Əliyev Q. Azərbaycançılıq ideologiyasının banisi. "Azərbaycan" qəz, Bakı, 2008, 11 aprel
5. Əliyeva Y. Heydər Əliyev fenomeni hər bir soydaşımız üçün fəxr və iftixar simvoluna çevrilib. "Səs" qəz, Bakı, 2008, 27 dekabr
6. Heydərov F. Heydər Əliyev Azərbaycan xalqının əbədiyaşar Ümummilli lideridir. "Yeni Azərbaycan" qəz. Bakı, 2008, 11 dekabr
7. Xudiyev N. Ən böyük azərbaycanlı. "Azərbaycan" qəz. Bakı, 2008, 31 dekabr
8. Mehdiyev R. Azərbaycançılıq – milli ideologiyanın kamil nümunəsi. "Azərbaycan" qəz. Bakı, 2007, 9 noyabr
9. Kamalqızı R. Müstəqil Azərbaycan bütün dünya azərbaycanlılarının dayağıdır. "Səs" qəz. Bakı, 2008, 31 dekabr
10. Səfərli F. Heydər Əliyev irsi-əbədiyaşar təlim. Naxçıvan: Əcəmi, 2014, 200 s.
11. Şəmsizadə N. Heydər Əliyev və azərbaycançılıq. "Azərbaycan" qəz. Bakı, 2008, 4 may


## ABSTRACT

**Gadir Akbarov**

**HEYDAR ALIYEV AND OUR NATIONAL-MORAL VALUES**



In the article it is dealt with formation of a national ideology, Heydar Aliyev's care and attention to the national and moral values. At the same time, after being elected leader of Azerbaijan since 1969. He report noted the first task af the alliance to take practical steps towards the development of indicators in the remaining areas. In a short period of time air country economically surpass other allied countries. Meanwhile, Heydar Aliyev started as the start of a new era in our history and a worthy activity in the field of national and spiritual values.

Heydar Aliyev, as well as an activity, as a statesman, which is the national and spiritual values, to transfrom the national ideology of national ideolgy folloved theroughout  his entire political activity. The article is about development of our language as a state policy.

Soviet period, all national and spiritual values, as well as the language of the colonid character under pressure and despite the imposition of sanctions on Azerbaijan. Heydar Aliyev considered the language one of the attributes of demonstrated on this issue is very serious position. The deliberate policy of enlightenment and literacy was commendable of Heydar Aliyev about educationof the Azerbaijan people. His most important service the trining of compotent personnel and use of the cadres in Azerbaijan. The article is also deals with the organization and the role of Heydar Aliyev.

## РЕЗЮМЕ

**Гадир Акбаров**

**ГЕЙДАР АЛИЕВ И НАЦИОНАЛЬНО-ДУХОВНЫЕ ЦЕННОСТИ**

В данной статье говорится о формировании национальной идеологии, о заботе и внимания Гейдара Алиева национально-духовным ценностям.

После назначения руководителем Азербайджанской ССР в 1969 году, Гейдар Алиев уделял большое внимание отстающим отраслям экономики. За короткое время стало ясно, что Азербайджанская Республика опережает по уровню экономического развития других союзных республик.

Гейдар Алиев за это время добился внущительных успехов и в области национально-духовых ценностей, положив начало новой эпохе в этой области.

В деятельности Алиева, как азербайджанца, и как государственного деятеля преыращения идеии азербайджанизма в национальной идеологии прослеживается красной нитью.

В этой статье говорится также о государственной политике в области развития нашего родного языка.

Несмотря на то, что в период советской власти все области национальных ценностей, в том числе язык, находились под пристальным вниманием Москвы, Алиев демонстрировал принцириально национальную линию по отношению языка, которого считал важнейшим атрибутом государственности.

Принятые решения Алиевым в области просвешения и културы были хорошо обдуманными и порой рискованными для того времени шагами.

Его наиболее важнейшей заслугой перед азербайджанским народом является забота высококвалицированным кадром и рациональном использовании от них.

В статье широко освящается деятельность Алиева в сплочении азербайджанцев.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**

**YAŞAR RƏHİMOV**
*AMEA Naxçıvan Bölməsi*
*yaarrahimov@yahoo.com.tr*

**UOT:930**

# XIX ƏSRDƏ NAXÇIVANDA TORPAQ MÜLKİYYƏTİ FORMALARI
## (rus mənbələri əsasında)

**Açar sözlər:** *mənbə, torpaq mülkiyyəti formaları, Naxçıvan, tarix, bölgə*
**Key words**: *sources, the forms of land property, Nakhçhivan, history, region*
**Ключевые слова:** *источник, формы земельного владения, Нахчыван, история, регион*

Rus müəllifləri XIX əsrdə Naxçıvan bölgəsindəki torpaq mülkiyyəti formaları barədə müxtəlif fikirlər irəli sürmüşlər. Əksər rus mənbələri bölgədəki feodal münasibətlərinin İrəvan xanlığı və digər ərazilərdə mövcud olan feodal münasibətlərindən kəskin şəkildə fərqləndiyini göstərirlər. İranın başqa vilayətlərində olduğu kimi bu əyalətdə də feodal münasibətlərinin xarakterik cəhəti qubernator tərəfindən təyin edilmiş xanların və iri mülkədarların yerli tayfalar üzərində böyük nüfuza malik olmaları idi. Və hər cəhətdən onlara təsir göstərmək səlahiyyətlərinə malik idilər (3, s.50). XIX əsrdə bölgədə torpaq mülkiyyətinin iki əsas forması geniş yayılmışdı: mülk və tiyul torpaq sahələri. Bunlarla bərabər, Naxçıvan ərazisində xana məxsus olan “xalisə”, dini müəssislərə aid olan “vəqf” və kənd icmasının ixtiyarında olan “camaat torpaqları” adlı torpaq mülkiyyəti formaları olmuşdur. Feodal münasibətləri və torpaq mülkiyyəti formalarının araşdırıcısı İ.P. Petruşevski tiyul torpaqlarının İrəvan və Naxçıvan bölgələrində də geniş yayıldığını təsdiqləyir. Tiyul torpaqlarını satmaq, girov qoymaq və bağışlamaq olmazdı. Rus şərqşünası K.N. Smirnovun fikrincə, Naxçıvan ərazisində vəqf torpaq sahələri o qədər də çox olmamışdır. Rus müəllifi yazırdı ki, Qarabağlar kəndi Kalbalıxanovun, Kırna kəndi Mahmud ağa Kəngərlinin, Xok kəndi isə Xok xanı Naxçıvanskinin tiyulu idi. Ondan fərqli olaraq digər rus müəllifi İ.Şopen isə Naxçıvan bölgəsinin 17 kəndində tiyul torpaq sahibliyinin mövcud olduğunu və bu kəndlərdəki tiyuldarların (tiyul sahiblərinin) əksəriyyətinin bəylər və xanlar olduğunu göstərirdi. Rus müəllifi İ.Şopenin tiyul haqqında fikirlərinə aydınlıq gətirməyi məqsədəuyğun sayırıq. Fikrimizcə, bu barədə ancaq İrəvan xanlığına aid olan sənədlərdən xəbəri olan bu rus məmurunun tiyul barədə, onun mahiyyəti və təbiəti haqqında təsəvvürü və ya anlayışı çox zəif olmuşdur. İ.Şopen əsassız olaraq inandırmağa çalışırdı ki, “tiyullar mülkədarın onlara verilmiş kəndlər (bu kəndlər o zaman tutulmuş siyahılara salınmırdı) üzərində hüdudsuz hakimiyyətini təmin edir, bütün vergi və mükəlləfiyyətlər isə mülkədarın xeyrinə yönəldilirdi (4, s.928, 929). Lakin rus müəllifi unudurdu ki, bütün gəlir və vergilərin mülkədara çatması tiyul hüququndan yox, mülkədar və tiyuldarların hüquqlarının bir şəxsin əlində cəmlənməsindən irəli gəlmişdir. İ.Şopenin tiyulun mahiyyəti barədə yürütdüyü bu yanlış fikirləri feodal münasibətlərinin araşdırıcısı İ.Petruşevski də səhv edərək təəssüflə bildirirdi ki, “Şopenin tiyul mülkiyyət forması barədə səhv fikir və mühakimələri

inqilabaqədərki qafqazşünaslıqda özünə yer tapa bilmişdi. Şopenin ardıcılları onun bu səhv fikirlərinə istinad etmiş və onu təkrarlamışlar" (2, s.207-208). Göründüyü kimi rus mənbələrində verilən fikir və məlumatlar müxtəlif olsa da, bu mənbələr bəhs olunan dövrdə bölgədəki torpaq mülkiyyəti formalarının öyrənilməsində mühüm əhəmiyyət kəsb edirlər. Rus mənbələrində mövzu ilə bağlı olan bir sənəddə Mərənd mahalının bir neçə kəndinin tiyul olaraq Zaman xan və Məhəmməd xan Kəngərlilərə verilməsi haqqında Abbas Mirzənin xüsusi fərmanı olduğu göstərilmişdir (3, s.32).

Rus məmuru Vasili Qriqoryev "Naxçıvan əyalətinin statistik təsviri" adlı əsərinin 154-156-ci səhifələrində Camaldın kəndinin Ehsan xanın, Bənəniyar kəndinin Hüseyn xanın, Xanağa kəndinin isə Nəzərəli xanın tiyulları olduğunu göstərir (1, s.154, 156).

Naxçıvan arxivindəki məlumatlara istinad edən K.N.Smirnov Kəngərli bəylərinin 50.000 desyatin torpaq sahəsinə malik olduğunu bildirir. Rus müəllifinin fikrincə bölgədəki torpaq sahələrinin 46,5%-i və ya 460.000 desyatini mülkədarlara məxsus olmuşdur (3, s.11). Naxçıvan xanları və Kəngərlilərlə yanaşı, bəylərin və əsilzadələrin əksəriyyəti mülkədar hesab olunurdu. Bundan əlavə, Naxçıvan bölgəsində aşağıdakı bəy familiyaları olmuşdur: məs; Tahirovlar, Qullar-Ağasıbəyovlar, Uzunobada Murad Əlibəyovlar, Nehrəm kəndində Vəzirovlar, Şahtaxtinskilər, Nürgütdə Sultanovlar, şəhərdə Camalbəyovlar, Elçiyevlər, Möhsün-Sultanovlar və b.

Araşdırmalar və rus mənbələrinin təhlili göstərir ki, İran hakimiyyəti dövründə şəhərdəki və şəhər ətrafı torpaqlar da tiyul formasında verilə bilərdi. Bu barədə bir neçə fakt mövcuddur. Məsələn, Cəfərqulu bəylə Kərbəlayı Fazil bəyin şəhər torpaqlarının tiyuldarları olmasını təsdiqləyən sənədlər bunu sübut edir. Naxçıvan əlyazma sənədləri içərisindəki 17 №-li sənədə istinad edən tanınmış rus şərqşünası İ.P.Petruşevski yazırdı ki, İran şahzadəsi Abbas Mirzənin 8 sentyabr 1831-ci ildə nəşr edilmiş fərmanı ilə Naxçıvan şəhərinin ətrafındakı torpaqlar tiyul olaraq Novruz bəyə verilmişdir (2, s.266). Tiyul sahibi olan şəxs və ya tiyuldar ona verilən torpaqlardan toplanılan vergilərin yiyəsi idi və götürdüyü məhsulun müəyyən hissəsini xəzinəyə göndərməli idi. Rus mənbələri bu dövrdə xanların sahib olduğu kəndlərdən götürdükləri gəlirdən asılı olaraq öz rəiyyət və ya mülazimlərin kütləvi şəkildə başqa yerlərə köçmə hallarının olduğunu təsdiqləyirlər. XIX əsrin əvvəllərində verilmiş bir fərmana istinad edən şərqşünas İ.P.Petruşevski yazırdı ki, hələ Rusiya ilhaqından bir qədər öncə- 1819-cu ildə Hacı Ağalar bəy İrəvan sərdarının çəltik sahələrində işləyən 16 rəncbər ailəsini Şərurdan (İrəvan xanlığında) köçürərək onları Mehri yaxınlığındakı Gal kəndində yerləşdirmişdir (2, s.319). Ehtimal etmək olar ki, bu rəncbərlər ona İrəvan sərdarı Hüseyn xan tərəfindən hədiyyə edilmişdir. Digər rus müəllifi V. Qriqoryev Naxçıvan əyalətində Abbas Mirzə tərəfindən verilən tiyul torpaqları və tiyuldarlar barədə siyahı tərtib edildiyini də göstərir.

## ƏDƏBİYYAT


1. Григорев В.Г. Статистическое описание Нахичеванской провинции. СПб., 1833, 263 с.
2. Петрушевский И.П. Очерки по истории и феодальных отношений в Азербайджане и Армении XVI-начале XIX вв. ЛГУ, 1949, 384 с.
3. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку, «Озан», 1999, 156 с.
4. Шопен И. Исторический памятник состояния Армянской области в эпохи ее присоединения к Российской империи. СПб., 1852, 1231 с.


## ABSTRACT


**Yachar Rahimov**


**THE FORMS OF LAND PROPERTY OF NAKHCHIVAN IN THE 19th CENTURY**

**(on the basise russian sources)**


In the article the forms of land property of Nakhchivan region have been investigated on the basis of Russian sorces in the 19th century. We came to a such conclusion that in spite of some strange influcences and delfinite distortions, V.Qriqoryev s, I.Shopen s, K.Smirnov s, I.Petruchevsk c works, as welle other Russian-speaking source and publications are valiable and rare sources for 19th century Nakchchivan history.


## РЕЗЮМЕ


**Яшар Рагимов**


**ФОРМЫ ЗЕМЕЛЬНОГО ВЛАДЕНИЯ НАХЧЫВАНА XIX ВЕКА**

**(на основе русских источников)**

В статье на основе русских источников были исследованы формы земельного владения Нахчывана XIX века. Пришли к такому заключению, что несмотря на некоторые влияния и определенные недостатки, произведения В.Григорьева, И.Шопена, К.Смирнова, И.Петрушевского и др. русскоязычные источники и печати являются ценными и незаменимыми источниками для истории Нахчывана XIX века.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**

**SEVDA ABDULLAYEVA**
*Azərbaycan Dövlət Aqrar Universiteti*

**UOT:479.24**

## ƏMİR TEYMURUN VƏ TOXTAMIŞ XANIN AZƏRBAYCANA YÜRÜŞLƏRİ VƏ BU YÜRÜŞLƏRİN NƏTİCƏLƏRİ ("İRANIN KEMBRİC TARİXİ" ƏSASINDA)

**Açar sözlər**: *Əmir Teymurun Azərbaycana yürüşü, Azərbaycan torpaqlarını birləşdirmək, Azərbaycan ərazisi, Azərbaycanın işğalı, Təbriz şəhəri, Avropa tarixçiləri, yerli mənbələr, "İranın Kembric Tarixi" çoxcilidliyi*

**Key words:** *Amir Teymur's march, join of Azerbaijan area , area of Azerbaijan, occupation of Azerbaijan, Tebriz city, historices of Europe, local sources, manybooks "Cambridge History of Iran"*

**Ключевые слова:** *нападение Эмир Теймура на Азербайджан, объединение азербайджанских земель, территория Азербайджана, оккупация Азербайджана, город Тебриз, историки Европы, местные источники, «Кембриджская История Ирана» многотомник*

XIV əsrin 80-90-ci illərində Azərbaycan özünün növbəti tarixi mərhələsini yaşadı. Bu dövrlər Türk dünyasının iki nəhənginin – Toxtamış xanın və Əmir Teymurun Azərbaycana yürüşləri ilə müşayiət olunur. Onların hər ikisi bütün Şərq dünyasını öz hakimiyyətləri altında birləşdirməyə çalışırdılar. Ən böyük mübarizə bu iki şəxsiyyət arasında getdi. Bu mübarizədə Azərbaycana sahib olmaq mühüm yer tuturdu.

Mütəxəssislərin fikrincə, Çingiz xanın Nuh tufanını andıran yürüşlərindən təxminən, 150 il sonra yenə Şərq ölkələrində ortaya çıxan Əmir Teymur 35 illik fəaliyyəti ilə Dəşti-Qıpçaq, indiki İran, İraq, Suriya, Azərbaycan və Anadolu üzərinə həyata keçirdiyi yürüşləri ilə Çingiz xanın moğollarının dəhşət və qorxusunu buralarda yaşayan insanlara yenidən hiss etdirdi. Lakin buna rəğmən bu böyük cahangirin və oğullarının tarixi istər ölkəmizdə və istərsə də Qərbdə Şərq ölkələrinin tarixi ilə məşğul olanlar arasında Çingiz xan və oğullarının tarixinə göstərilən sayğını nədənsə görməm işdir. Bütün Türk dünyası tarixində oynadığı önəmli rol və böyük hərbi qüdrətinə rəğmən, bu gün belə əlimizdə Əmir Teymur haqqında doğru dürüst bir monoqrafiya yoxdur. Bu həm də Qərb dünyasına aiddir. Qardaş Türkiyənin önəmli tarixçisi Aka İsmayıl bu mənada Qərb tarixçilərindən Hans Robert Roemer-in (Persienaufdem Wegindie Neuzeit-Iranische Geschichhtevon 1350-1750, Beirut, 1989) və Beatrice Forbes Manz-ın (Therise and rule of Tamerlane. Cambridge, 1989) əsərlərinin adını çəkir. Bu əsərlərdə birbaşa Əmir Teymur dövləti üzərindəqurulmuşdur ki, bu çox yaxşı bir hal kimi qarşılanır (1, s.1-2.).

“İranın Kembric tarixi” çoxcildliyində də həmin Roemer-in üç məqaləsi vardır ki, bu məqalələrdən ikisi Əmir Teymur dövlətinə həsr olunmuşdur. Məqalədən biri “Timurin İran”, digəri isə “Thesuccessors of Timur” adlanır. Bizim tədqiqatımız daha çox “Timurin İran” məqaləsi üzərində qurulduğundan daha çox ona fikir verməli olacağıq. Rormer-in bu araşdırmasında Əmir Teymur və onun dövlətinin ortaya çıxması, yürüşləri haqqında ətraflı məlumatlar verilir. Lakin müəllif “avromərkəzçilik” xəttindən çıxış edərək Əmir Teymuru güclü şəxsiyyət kimi təqdim etsə də, onu dağıdıcı, amansız insan kimi vermişdir. Halbuki Əmir Teymur özünün şəxsi həyatında belə müsəlman qaydalarına ciddi əməl etmiş və islam qaydaları ilə fəth etdiyi əraziləri idarə etmişdir. Əmir Teymur Quran hafizi idi, din xadimlərinə, pirlərə, övliyalara, seyidlərə çox böyük hörmətlə yanaşırdı. Bu insan doğrudan da fateh idi. Məqsədi də bütün Türk dünyasını İslam bayrağı altında birləşdirmək idi. Amma zaman onun zamanı olmadı və baş verən siyasi proseslər onun arzularının gerçəkləşməsinə imkan vermədi. İki nəhəng şəxsiyyətin (Toxtamış xan və Əmir Teymur) toqquşması bütün Türk dünyasına baha oturdu. Onların dağılmasından sonra Qızıl Ordanın üzərində yüksələn Moskva dövləti sonradan əsl işğalçı bir dövlətə çevrilib, heç bir əxlaq qaydalarını gözləmədən Türk dünyası üçün ciddi bir düşmənə çevrildi.

Əmir Teymur Ərəb Xilafətinin dağılmasından sonra bütün İslam dünyasında hegemonluğu daim öz əllərində saxlayan növbəti türk hökmdarlarından biri idi. Öz dövrünün bütün qüdrətli sərkərdələrinə qalib gələn Əmir Teymur Moskva knyazlığını əsarət altında saxlayan Toxtamışın və Avropanı lərzəyə salmış İldırım Bəyazidin hərbi qüvvələrini darmadağın etmişdi. Tək-tək sərkərdələrə qismət olan bir zəfər də çaldı. Bu zəfər Dehlinin alınması idi. Bu olduqca çətin səfər idi. Orta Asiyadan Hindistana uzanıb gedən dağ silsilələrindən, buzlaqlardan öz qoşunlarını kəmənd və kəndirlərlə salamat keçirib apara bilmiş, heç kəsin ağlına gəlməyən bir hərbi fəndlə fil döyüşündə qalib gəlmişdi. Əmir Teymur olduqca keçməkeçli həyat tərzi keçirmişdir. Onun həyat tərzinə toxunan məşhur macar tarixçisi German Vamberi yazır ki, “Teymurun tərcümeyi-halı qəribə sərgüzəştlərlə doludur. Amma onun bu çöl səyahəti və həyat vadisinin acılarını ilk dəfə olaraq tamamilə daddığı bir zaman xüsusiyyət təşkil edir. Bir zaman cəngavər bir qəhrəmanın son dərəcə müsafirsevməz çöl içində, hər cür fəlakət və məhrumiyyətlər pəncəsində sərgərdən dolaşdığını göstərir. Əmir Teymur öz xatirətnamələrində bu çöl səyahətlərini yanında vəfalı zövcəsi Olcayxatunvə səhrada ona rast gələn Əmir Hüseyn ilə yeməkdən, içməkdən məhrum halda bir ay dönüb-dolaşdığını, bu əsnada türkmənlərə əsir düşdüyünü və nəhayət, sevgili zövcəsinin türkmənlər əlində, hər cür həşərat və qurdlar içində məhbus qaldığını son dərəcə müəssər bir dillə və saf qəlblə hekayə edir. Bu səyahət və sərgüzəştlər sonradan bütün Asiyanın yarısına hakim olan bir şəxs üçün ağır bir məktəb idi. Bu məktəb onun həyatında ən başlıca bir fəlakət və möhnət qalxanı (dəmirçi ocağı) idi ki, Teymur (dəmir deməkdir) burada özünü qaynadıb, irəlidə parlaq bir istiqbal üçün sönmək bilməz bir polada (çəliyə) döndərdi. Nəhayət, Teymur bəy öz rəfiqələri ilə əsarətdən xilas olub, gizlincəKeş qəsəbəsinə gəldi. Yanına rəfiq olaraq uşqalıqda oyun yoldaşı olan adamlardan bir çox silah dostu topladı. Bunlarla əvvəlcə Seyhun boylarında at səyirdib, sonra Sistan tərəflərinə saldırdı. Orada oynaq və dönüklü bir taleyi hərb ilə hərəkət edib, gah bəlucilərdən (bəluc xalqından) bəzi istehkam nöqtələrini zəbt edir və gah özü məğlub olub dönürdü. Nəhayət, belə davamsız və ağır bir zaman içində uzanıb gedən müharibələrin fövqündə mühüm bir məğlubiyyətə düçar oldu vənəticədə ciddi şəkildə yaralandı ki, bu yara onun bütün ömrü boyu axsaq qalmasına səbəb olmuş və bu üzdən o türklər içində “axsaq Teymur”, “farslar arasında “Teymurləng” (Avropada bundan təhriflə “Tamerlan”) adı ilə məşhurlaşmışdı” (16, s.5-6, 15-16.). Onun qüdrətini, ədalətini və siyasətini izləmək üçün “Əmir Teymurun vəsiyyətlərini” oxumaq kifayətdir (5, 3-112.).

Beləliklə də, 1370-ci ildə Orta Asiyada Teymurun qüdrətli imperiyası meydana gəldi və Teymur öz işğalçılıq planlarını həyata keçirməyə başladı (8, s.358.). Elə bu zamandan başlayaraq İran əraziləri Teymur və Toxtamışın duelində əhəmiyyətli yer tutmağa başladı (15, p.42.). İlk zamanlarda onunla üz-üzə Sultan Əhməd gəldi. Əmir Teymur kimi ciddi rəqib ilə mübarizə fasilələrlə XV əsrin əvvəllərinə qədər davam etdi. O zaman siyasi vəziyyət çox ağır idi. İlk mənbələrdə Əmir Teymurun yürüşü ərəfəsindəki vəziyyətlə bağlı qeyd olunur ki, İran ərazilərində həmin dövrdə ölkənin hər tərəfinə fərman verə biləcək bir şəxs yox idi (14, s.178), iki adam tapmaq mümkün deyildi ki, eyni fikirli olsun, heç kəsə inam qalmamışdı (9, s.325.).

Beləliklə də, XIV əsrin 70-80-ci illərində Azərbaycandakı siyasi sabitsizlik Əmir Teymurun və Toxtamışın hücumlarına şərait yaratdı. Qızıl Orda xanı Toxtamış 1385-ci ilin sonunda, qış vaxtı 90-100 minlik ordunu Təbrizə göndərərək Azərbaycanı tutmağa cəhd göstərdi (14, s.178; 17, s.4-5.).

Bu zamandan başlayaraq Azərbaycan əraziləri Toxtamış xan və Əmir Teymur ziddiyyətlərinin tapdağına çevrildi. Onların yürüşü istər Avropa, istərsə də SSRİ tarixşünaslığında işğalçı yürüş kimi təqdim edilmişdir. Əslində, onlar və onlara qədər bütün Türk hökmdarları bütün Şərq ərazilərini birləşdirib özlərindən əvvəlki imperiyaları təkrarlamaq istəyidirlər. Vaxtilə Xarəzmşahlar da Səlcuqlar imperiyasının coğrafiyasını dirçəltmək niyyətində idilər. Lakin Çingiz imperiyasına qarşı apardıqları laqeyd siyasət onların tarix səhnəsindən silinməsinə səbəb oldu. Bunların içərisində Əmir Teymur xüsusilə fərqlənirdi. Əmir Teymur Türk-müsəlman dünyasını vahid bir ərazidə birləşdirmək məqsədi güdürdü. Bu istək onda ilk günlərdən yaranmışdı. Əmir Teymurun həyatının ilk illərinə aid elə bir ciddi bilgilərimz yoxdur. O, şaban 736 (9 aprel 1336) çərşənbə axşamı Oniki Heyvanlı Türk Təqviminə görə Siçan ilində Keş (Şehr-i SebzYaşıl Şəhər) yaxınlığındakı Hoca İlqar kəndində doğulmuşdur, atasının adı Turagay, anasının adı TəkinaXatun idi. 1360-cı ilə qədər həyatına dair heç bir şey söylənməməktədir. Əmir Teymur haqqında məlumat verən o zamanın yazarları bildirirlər ki, onun haqqında gizlinlərin əsas səbəblərindən biri də Əmirin özü haqqında bəzi məlumatların yazılmasını qadağan etməsidir. Əmir Teymurun həyat və fəaliyyətlərinə dair zəfərnamələrdə onun ilk dövrlərindən söhbət açılmamasına bu cür münasibəti görkəmli şərqşünas Bartold şübhə ilə qarşılayır. Bu mənada o. ərəb tarixçisi İbn Ərəbşahın təsiri altına düşür. Onların fikrincə, Əmir Teymurla bağlı o zamanın baş verən proseslərində xatırlamalar yoxdur. Onun atasının Mavərrənnəhr və Moğolustandakı bir çox nüfuzlu bəylər ilə münasibəti olmasına baxmayaraq, Qazagan dövrü olayları arasında nə Teymurun atasının, nə də Teymurun adlarının anılmadığını ifadə edir. Biz hesab edirik ki,bu məsələni də Əmir Teymur şəxsiyyətini öyrənməklə həll etmək olar. Əmir Teymur məhəlli Türk qovğalarının zəfərnamələrə düşməsini istəməmişdir. Onun üçün bu ciddi məsələ deyildir. Adından göründüyü kimi, zəfərnamələr olduqca qiymətli yadigarlardır. Bu yadigarlar gələcək nəsillərə hesablanmışdi. O, bütün çıxışlarında təkrar edirdi ki, gələcək nəsillər bizim əsl qiymətimizi verəcəkdir. Bu qiymət zəfərnamələr vasitəsilə verilə bilərdi (1, s.6-7.). Əmir Teymurun soyu ölümündən sonra Uluğ bəy tərəfindən dədəsinin məzarı üzərində tikilən baş daşında qeyd edilmişdir. Bu məsələyə geniş toxunan qardaş Türkiyənin görkəmli tədqiqatçısıAka İsmayıl yazır ki, Çingiz xan ilə Əmir Teymurun soyu birləşməktədir. Amma onu da yazır ki, bəzi Moğol və Orta Asiya türk tarixi ilə məşğul olan şərq bilginləri Əmir Teymurun soyunu aşağılayaraq göstərirlər ki,onun Çingiz xan soyundan gəlməsini yəqin ki, Əmir Teymur özü və ya oğlanları məqsədli şəkildə söyləmişlər. İsmayıl Aka daha sonra bildirir ki, Bartold da bu fikirdədir və qeyd edir ki, Əmir Teymur özünü əsilzadə olaraq tanıtmaq üçün Çingiz xan soyundan gəldiyini ortaya atmış və saxta bir soy şəcərəsi düzəltdirmişdir. İsmayıl Aka tədqiqatlarını daha da dərinləşdirərək əlavə edir ki, Əmir Teymurun ilk xanımlarının mənşəyi əsilzadələrə söykənir. Bundan əlavə onun bacıları da əsilzadələrlə evli olmuşlar. Bu onu göstərir ki, Əmir Teymur əsilzadə nəslindən olmuşdur. Çünki əsilzadə nəslindən olmasaydı, əsilzadə ailəsindən qız ala bilməzdi. O zamanın qaydaları belə idi (1, s.6-7.). Teymurun atası Turağay, mütəvazi və dindar bir kimsə olaraq vaxtının çoxunu din adamları ilə söhbətdə keçirir, siyasi işlərlə maraqlanmır, bu cür işləri öz əqrabası olan Əmir Hacının öhdəsinə buraxmışdı. Bunula bərabər Turağay sadəcə Barlaslar arasında deyil, hətta bütün Cağatay ulusunda etibarlı bir bəy idi. Cağatay ulusunda bəylik Teymurdan öncə Barlaslar və Cəlayirlilərin əlindən çıxaraq o qədər də etibara sahib olmayan Qaraunasların əlinə keçmişdi. Dolayısı ilə Turağay və Barlaslar siyasi etibarlarını itirmişdilər. Qaraunaslardan olan Əmir Qazagan və Hüseynin zamanında Barlaslardan Teymur kimi fəal və işbilən bir kimsənin çıxması qəbiləyə əski etibarını qaytarmış və hakimiyyət ələ keçirilmişdir. Maraqlıdır ki, Teymurun 1360 ilə 1370-ci illər arasındakı siyasi fəaliyyətləri kimi, din adamları ilə olan münasibətlərinə dair də elə bir məlumata rast gəlinmir. Teymur bu on il içində zaman-zaman Cağataylar ilə Moğollar arasındakı mücadilələrə qatılır, müəyyən vaxtlarda gah bu, gah da o tərəfə keçir, öz ətrafında özünə etibar edən sadiq adamları toplayır və bunların əksəriyyətini özəlliklə öz boyu olan Barlas boyundan seçirdi (1, s.7-8.; 15, p.43-46.).

Bu qısa açıqlama ilə Əmir Teymurun elmə o qədər də məlum olmayan dövrlərinə bir aydınlıq gətirmək istədik. Bəlli olur ki, dövrün siyasi proseslərini ustalıqla qiymətləndirən Əmir Teymur siyasi proseslərdən qalib çıxdı və nəticədə 1370-ci ildə Orta Asiyada qüdrətli bir Türk imperiyası siyasi səhnəyə qədəm qoydu.

Azərbaycanın orta əsrlər üzrə görkəmli tədqiqatçılarından olan Ə.Ə.Əlizadə göstərir ki, cəlairli Sultan Əhmədin hökmranlıq dövrü XIV əsrin ən ağır və çətin dövrlərindən, ölkənin daxili və xarici həyatında çoxlu mühüm və nəhəng hadisələrlə dolu olan zamanlardan biri olmuşdur (2, c.371-372.). Azərbaycanın malik olduğu coğrafi və strateji mövqe, ölkənin təbii şəraiti, zənginlikləri və eyni zamanda mövcud daxili durum Qızıl Orda xanı Toxtamışı (1367-1395) bu ölkəni ələ keçirməyə şirnikləndirirdi. 90-100 minlik olan Toxtamışın qoşunu Təbrizə yürüş etdi. Təbrizlilər müqavimət göstərməyi qərarlaşdırdılar. Şəhərin küçə və məhəllələrini səngərlərə çevirdilər. 8 gün Təbrizin ətrafında dövrə vuran Toxtamışın qoşunları Təbrizə girməyə yol tapa bilmədilər, çünki müqavimət güclü idi. Buna görə də Toxtamış danışıqlar yolunu seçdi və müəyyən xərc almaq müqabilində geri dönmək fikrinə düşdü. Təbrizlilər onun hiyləsinə inanıb silahı yerə qoydular və Toxtamış şəhəri tutdu. Onlar müqavimət göstərmək üçün qüvvələrini səfərbər edə bilmədilər. Bunun müqabilində Toxtamışın qoşunları şəhərdə qarətə başladılar. Əhalini qırdılar, dəhşətli bir vəziyyət yarandı. Moğollar Azərbaycanın digər şəhərləri-Marağa, Mərənd və Naxçıvanı da dağıdıb özləri ilə 200.000 əsir götürüb Azərbaycanı tərk etdilər (17, s.4-5.; 6, s.10-11.; 7, p.88.). Sonda Təbriz şəhəri zənginlərin fəaliyyəti nəticəsində moğolların qarətçiliyindən qurtula bildi.

Toxtamışın Azərbaycan yürüşü nəticəsində Azərbaycan xaraba vəziyyətinə düşdü. Cəlairli əmirlər arasında baş verən ciddi qovğalar birliyin alınmasina mane oldu. Sultan Əhməd isə Bağdada çəkildi, bir sıra əmirləri isə Əlincə qalasına sığındı. Bəziləri Təbrizi tərk etməyib orada qaldılar. Ölkənin belə bir ağır vəziyyətində Əmir Teymurun qoşunları Azərbaycana daxil oldu.

"İranın Kembrictarixi"nin altıncı cildində göstərilir ki, Əmir Teymurun səfəri indiki İranda şəraiti kökündən dəyişdi. Baş verən dəyişikliklər siyasi məsələlər və ya dövlət quruculuğu ilə məhdudlaşmırdı, eyni zamanda İranın etnik tərkibinə, iqtisadi və sosial vəziyyətinə və onun mədəni inkişafına əhəmiyyətli təsir etdi. Elxani Əbu Səidin ölümündən sonrakı onillikdə İran dövləti ayrı-ayrı hissələrə parçalanmaq təhlükəsi ilə üzləşmişdi və milli hakimiyyət dağılma ərəfəsində idi. Qızıl Orda istisna olmaqla (Qızıl Ordanın uzaqda yerləşməsi nəzərdə tutulur) bu proses qonşu dövlətlərin iştahasının artmasına səbəb ola bilərdi. Düzdü, onlar o zaman hərbi cəhətdən zəif idilər. Amma yaranan vəziyyət onlardan hər birini yüksəldə bilərdi. Məsələn, Osmanlı imperiyası özünün ilk dövrlərində Anadolu bəyliklərindən biri idi və Qaraqoyunlu kimi başqa digər Türkmən qəbilələrindən daha az qorxulu idi. Onlar hələ siyasi status əldə etmək uğrunda mübarizə aparırdılar. O dövrdə Misirdən İrana doğru hər hansı bir irəliləmə haqqında heç bir bilgi yoxdur. Uzaq məsafə və coğrafi maneələr bunu mürəkkəbləşdirirdi. Buna görə də Məmluksultanları işğalçılıq planları barədə düşünmürdülər (15, p.42.).

Əmir Teymurun rəhbərliyi altında qoşun hissələri Sultaniyyəni ələ keçirib Təbrizə doğru irəlilədi və ora daxil oldu. Cəlairisultanı Əhməd Bağdaddan Əmir Teymura qarşı qoşun göndərdi və bu qoşun məğlub oldu. Lakin bir müddətdən sonra sultan Əhməd Təbrizə yenidən yürüş etdi və oranı tuta bildi. Amma möhkəmlənə bilmədi. Çünki eşitdi ki, əmir Teymur artıq Ucana çatıb. Buna görə də geri qayıtdı. O, Naxçıvandakı əmirlərinin yanına gəldi. Oradan da Vəstan-Van yolu ilə keçib Bağdada qayıtdı. Əmir Teymur isə Ucandan keçərək Həştrud yolu ilə Təbrizə daxil oldu və Şənbi Qazanda məskən saldı (17, s.51.;15, p.58.).Təbriz əhalisindən xərac toplandı, Azərbaycandan tanınmış sənətkarlar, o cümlədən mədəniyyət nümayəndələri Səmərqəndə göndərildilər. Əmir Teymur payızda buradan Naxçıvana üz tutdu. Bu zaman Şeyx Həsənin ətrafına toplaşan xalq kütlələri ciddi mübarizəyə qalxdı. Müqavimət o dərəcədə güclü idi ki, Teymurun qoşunları güclə onların öhdəsindən gəldi. Nəticədə Naxçıvanın Gərni və Sürməli adlı istehkamları dağıdıldı. Şeyx Həsən isə əsir götürüldü və Teymurun hüzuruna aparıldı. Əlincə qalası isə Əmir Teymurun qoşunları tərəfindən mühasirəyə alındı (10, s. 165.).

Əmir Teymur 1387-ci ildə bir daha Əlincə qalasına hücum etdi. Bu zaman qalanın mühafizəsinə başçılıq edən Əmir Altun Teymurun həmlələrinin dəf edə bildi. Bundan daha da qəzəblənən Əmir Teymur qalaya hücumu daha da genişlənirdi, özü isə Naxçıvana doğru çəkildi,

eyni zamanda qaraqoyunlu Qara Məhəmmədə qarşı qoşun hissələri göndərdi. Bir müddət sonra isə Teymur Səmərqəndə qayıtmalı oldu. Gedərkən Miranşahı zəbt olunmuş ərazilərin hakimi təyin etdi. Beləliklə də, Əlincə qalası istisna olunmaqla, bütün Azərbaycanı fəth edən Teymur oğlu Miranşahı Dərbənddən Bağdada, Həmədandan,Ruma qədər olan böyük bir əraziyə rəhbər təyin etdi. Özü isə Səmərqəndə gedib Hindistan səfərinə hazırlaşmağa başladı. Əmir Teymurun Hindistan səfəri dövründə Azərbaycanda, eləcə də Cənubi Qafqazın bir çox yerlərində müstəqillik uğrunda mübarizə başlandı. Yerli hakimlər teymurilərə itaət etməkdən boyun qaçırdılar. Bu zaman Əlincə qalasının müdafiəçilərinə köməyə gələn Şəki və Gürcü hakimləri teymurilərə qarşı onlara kömək etdilər və hətta bir çox hallarda qələbələr də əldə etdilər. Bu dövrlərdə Azərbaycana hakim olan Miranşah elə bir siyasət həyata keçirirdi ki, yerli hakimlər və xalq kütlələrinin ciddi narazılığına səbəb olurdu. Bütün bu məlumatlar, o cümlədən Azərbaycanda və Cənubi Qafqazda baş verən hadisələr Əmir Teymura çatdırıldı. Əmir Teymur hiss edirdi ki, Miranşah vəziyyəti nizamlamaqda acizdir. Ona görə də Hindistan səfərindən qayıtdıqdan sonra (1399-cu ilin sentyabr ayında) Azərbaycana yenidən yürüş etdi. Bu yürüş tarixə “Yeddiillik müharibə” kimi düşmüşdür. Azərbaycana gələn Teymur Qarabağdan keçərək gürcülərin yaşadıqları ərazilərə getdi və Kür çayının sahillərində çadırlarını qurdu. Burada məskən saldıqdan sonra Cənubi Qafqazın bir sıra vilayət hakimləri hüzuruna gəlib itaət edəcəklərini bəyan etdilər. Mənbələrin verdiyı məlumatlara görə, həmin hakimlərlə Teymur arasındakı münasibətlərin yaxşılaşdırılmasında Şirvanşah İbrahimin böyük əməyi var idi. Məhz onun vasitəçiliyi ilə Seydi Əli öldüyü üçün Şəki vilayətinə hakimlik edən oğlu Seyid Əhməd, həmçinin gürcü çarı Georgi Teymurun yanına gedib ona itaət etdiklərini bildirdilər. Teymurun bu dəfəki yürüşü zamanı uzun müddət mühasirədə qalan Əlincə qalası da süqut etdi. Qalanın süqutunda onun içərisində olan hakimlər arasında baş verən ziddiyyətlər əsas rol oynadı. Bir müddət sonra Səmərqəndə qayıdan Əmir Teymur 1405-ci ildə vəfat etdi (17, s.6-7; 15, p.74-82; 3, s.50-51.).

Sonda bir daha bildirək ki, bir çox tarixi əsərlərdə, o cümlədən “İranın KembricTarixi” çoxcildliyinin altıncı cildində və Sovet dövrü tarixşünaslığında Teymuru daha çox dağıdıcı kimi təqdim edirlər. Məsələn, Sovet dövrü Teymurla bağlı tədqiqat əsərlərində qeyd olunur ki, Teymur Qəbələdə olarkən şəhərə böyük ziyan dəydi və bundan sonra şəhər dirçələ bilmədi. Bu məsələni, ümumilikdə Teymurun yürüşlərini araşdıran dəyərli Azərbaycan alimi Vaqif Piriyev yazır ki, “dövrün ilk mənbələri bu fikri təsdiq etmirlər. Əksinə, bədii əsərlərdə, xüsusilə Bədr Şirvaninin Qəbələyə həsr etdiyi şerdə şəhərin XV əsrin I yarısında mövcud olduğu göstərilir. Odur ki, Qəbələnin Teymurun həmlələrindəndağılmadığını və sonralar da mövcud olduğunu qəbul etmək elmi hesab olunmalıdır” (10, s. 166; 12, s.48-53.).Daha sonra VaqifPiriyev davam edərək yazır ki, “Teymur Azərbaycanı fəth edərkən ciddi müqavimətə, xəyanətə rast gəlmədiyi, təhqir olunmadığı üçün kütləvi qırğınlar törətməmiş, şəhərləri dağıdıb yerlə yeksan etməmişdir. Əksinə, ölkədə bir sıra bərpa işləri aparmışdır. Dərbəndin qala divarları təmir edilərək Şirvanın Toxtamış tərəfindən işğalına qarşı səd çəkilmiş, Beyləqanda abadlıq işləri görülmüşdür . Teymurun dövründə əhali əvvəlki dövrünə nisbətən sakit həyat tərzi keçirmişdir (10, s. 166; 4, s.272-281; 13, s.52-57.).

Təbii ki, istisnalar da mövcuddur. Yəni, bəzi hallarda situasiya dəyişmişdir. Məsələn, Əlincə qalası uzun müddət Teymura tabe olmamışdır. Eini zamanda, Şəki hakimləri də öz müstəqilliklərini qoruyub saxlamaq üçün ciddi mübarizə apramışlar. Əmir Teymur qarşısına böyük bir məqsəd qoymuşdu. O, Türk-Müsəlman dünyasının bir coğrafiyada olmasını istəyirdi. Bu məsələnin bəzi detallarına “İranın KembricTarixi”nin altıncı cildində də rast gəlmək mümkündür. Orada göstərilir ki, 1384-cü ildə Əmir Teymurun Sultaniyyə üzərinə yürüşü onun Şərqi İrandakı istilalarının nəticələrini aşkarladı. Yəni, o, burada özünün Cağatay imperiyasını qurmaq istəyirdi. O, bütün İran ərazilərini vahid bir dövlətdə birləşdirmək məqsədini güdürdü. Əmir Teymurun Toxtamışla və Qıpçaq şahzadələri ilə vuruşmalarında da əsas məqsəd birləşdirmək məsələsi idi (15, p.57.).

Bəllidir ki, Azərbaycan ərazilərinin birləşdirilməsi həm də dünya iqtisadi sisteminə nəzarət mexanizmini ələ keçirmək demək idi. Çünki beynəlxalq əhəmiyyətli ticarət marşrutları Azərbaycan ərazilərindən keçirdi. Elə buna görə də belə bir sual ortaya çıxır: nəyə görə böyük ərazilərə sahib olan Qızıl Orda xanları Azərbaycanı fəth etməyə bu qədər əhəmiyyət verirdilər? Biz bu suala ilkin mənbələrdə cavab tapa bilmirik. Amma tarixi araşdırmalar göstərir ki, bunun sadə bir cavabı

vardır: Azərbaycan əraziləri Qərb və Şərq ticarət marşrutlarının həyata keçirdiyi başlıca mərkəz idi. O zamanlar Təbriz şəhəri karvan ticarətinin toplandığı ən böyük məntəqə idi. Qeyd etmək lazımdır ki, bu məntəqə XIV əsrin sonlarında feodal ara müharibələrinin və xarici hücumların meydanına çevrilmişdi. Təbrizin ələ keçirilməsi bütün Azərbaycanı zəbt etmək üçün əsas olduğundan şəhər uğrunda mübarizə ciddi xarakter alırdı. Mənbələrdən bəlli olur ki, təkcə 1387-1392-ci illərdə Təbrizə 17 dəfə hücum edilmiş və 14 hücumun nəticəsində şəhər əldən-ələ keçmişdi. 1392-ci ildə isə bu ərazilərə yürüş edən Əmir Teymur qoşunları tərəfindən tutulmuşdu (11, s.58-67.).

Göründüyü kimi, Azərbaycana sahib olmaq həm də dünyaya nəzarəti əldə saxlamaq idi. Buna görə də Azərbaycana olan hücumların ardı-arası kəsilmirdi. Bu o zaman idi ki, hələ okean ticarəti mövcud deyildi. Quru ticarəti isə Azərbaycansız mümkün deyildi. Azərbaycan bu baxımdan üzüyün qaşı idi. Bu qaşa sahib olmaq böyük sərvətlərə sahib olmaq demək idi.

Nəticə:

Məqalədə Əmir Teymur və Toxtamış xanın Azərbaycana yürüşlərindən söhbət açılır. Göstərilir ki, bu məsələ "İranın KembricTarixi" çoxcildliyinin altıncı cildində əksini tapmışdır. Həmin çoxcildlikdə Əmir Teymur və Toxtamış xanın Azərbaycana yürüşlərindən geniş danışılmış və Əmir Teymur dağıdıcı insan kimi təqdim edilmişdir. Biz bu məsələni araşdırarkən əlavə ədəbiyyatlara da müraciət edərək obyektivliyi gözləməyə çalışdıq. Araşdırmalardan bəlli oldu ki, heç də belə deyildir. Əslində, Əmir Teymurun Azərbaycana yürüşləri zamanı dağıntıların səviyyəsi o dərəcədə də olmamışdır. Şəhərlər toqquşmalar zamanı əziyyət çəksələr də, sonradan bərpa edilmişdir. Azərbaycanda uzun müddət sakitlik hökm sürmüşdür. Əmir Teymur isə bütün Türk-Müsəlman dünyasını bir coğrafiyada birləşdirməyə çalışırdı.

## ƏDƏBİYYAT


1. Aka İsmayıl. Timur ve devleti. Ankara, Türk Tarih Kurumu, 2014, 240 s
2. Али-заде А.А. Социально-экономическая и политическая историяАзербайджана XIII-XIV вв. Баку, Кавказ, 2012
3. Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). Məsul redaktor: Oqtay Əfəndiyev. Bakı, Elm, 2007
In the article it is shown that observance of the social norms by itself doesn‘t create any contradiction to freedom. So, it doesn‘t neglect their protection, struggle of the individuals for their independent freedom and values. Indeed, striving of any member of a society for freedom is a normal state, it is his human right. However, there the following condition is to be observed: freedom of someonec must not act against the respective desires of the others, that is freedom shouldn‘t be relied blindly on senses and wishes, it must bear the turned over in one‘s mind and deeply thought character. The social norms assist existence of namely this point in freedom. They prevent, above all, from interfering realization of some man‘s personal desire for freedom and dreams with other man‘s freedoms.

In the article an essence of social norms applied to society, the rise of need in regulating relationship between the possibilities created for human freedom and their restriction, are substantiated, the important directions of unity of freedom and social norms, increase in a particular weight of scientific knowledge and their function of both of them in the modern period, regulation

of property relations taking a central place in the mechanism of market economics, appearance of social norms in a sphere of political activities as important stimuli of a personality's activity, political culture and freedom are determined.


## РЕЗЮМЕ

**Гариб Аллахвердиев**

**ВНУТРЕННЯЯ БЛИЗОСТЬ СОДЕРЖАНИЯ И ФУНКЦИЙ СВОБОДЫ И СОЦИАЛЬНЫХ НОРМ**

В статье рассматривается вопрос взаимосвязи, близости**,** функций свободы и социальных норм. Эта близость объясняется тем, что социальные нормы регулируют взаимоотношения людей в различных областях жизни (политические, экономические, правовые, нравственные, культурные и т.д.). Поэтому смысловой объем этих понятий и функций очень близки друг к другу.

Автор отмечает, что соблюдение социальных норм само по себе не вступает в противоречие со свободой. Поэтому их охрана не отрицает борьбу индивидуума за свои свободы и ценности. И действительно, борьба каждого члена общества за свободу – нормальное явление, это его человеческое право. Однако, здесь необходимо соблюдать нижеследующие условия: свобода каждого человека не должна противостоять соответствующему желанию других, то есть свобода не должна основываться на необдуманных чувствах и желаниях, она должна носить всесторонне взвешенный и глубоко обдуманный характер. Социальные нормы помогают свободе быть именно в такой сущности.

В статье обосновывается сущность социальных норм, применяемых в каждом обществе; выявляется необходимость регулирования связей между возможностями, создаваемыми для свободы людей и ее ограничением; определяются важнейшие направления единства свободы и социальных норм, увеличение удельного веса научных знаний и функций в каждом из них; регулирование отношений между собственниками, занимающее одно из центральных мест в механизме рыночной экономики; выступление социальных норм как важнейших стимулов активности, политической культуры и свободы личности в сфере политической деятельности.



NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)



NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**



**ŞÜKÜR MƏMMƏDOV**

*Naxçıvan Dövlət Universiteti*


**UOT:1.001**

# İBN HƏLDUNUN DÖVLƏTÇİLİK TƏLİMİ

XIV əsrin II yarısı və XV əsrin əvvəllərində yalnız İslam aləmində deyil, eləcə də bütün dünyada siyasi-hüquqi fikrin ən görkəmli nümayəndələrindən biri, dövlət haqqında nəzəriyyəni inkişaf etdirən və zənginləşdirən mütəfəkkir, görkəmli ərəb alimi İbn Həldun olmuşdur (1332-1406).

Peşə etibarilə fəqih (hüquqşünas) və dövlət xadimi, diplomat və alim, tarixçi və filosof olan İbn Həldun Əbu Zeyd Əbdürrəhman ibn Məhəmməd ibn əl Hədrami tanınmış bir əyan nəslinin nümayəndəsi idi. Onun ata-babaları mənşə etibarilə Yəmən ərəblərindən olsalar da, İspaniyanın Kordova əmirliyində yaşayır və sarayda yüksək dövləti vəzifələr daşıyırdılar.Əmirliyin tənəzzülü dövründə həmin nəslin əksər nümayəndələri Tunisə köçərək burada siyasi fəaliyyətlə yanaşı, indiki anlamda elmi-pedoqoji fəaliyyətlə də məşğul olmuşdular. İbn Həldun da 1332-cil mayın 27-də Tunisdə doğulmuşdu. Təhsili barədə mənbəələrdə ətraflı məlumat olmasa da, əsərlərindən məlum olur ki,zəmanəsinin ən savadlı şəxsiyyətlərindən olub tarix, fəlsəfə, sosio-logiya, iqtisadiyyat və başqa elmlər sahəsində yüksək biliklərə malik olmuşdur.

Hələ gənc yaşlarından öz idarəçilik bacarığı və elmi istedadı ilə şöhrət qazanan İbn Həldun XIV əsrin II yarısında Tunis, Fəs, Qranada kimi dövlətlərin saraylarında yüksək vəzifələr tutmuş, müxtəlif zamanlarda Misirin Əl-Əzhər və əz-Zahiriyyə kimi məşhur universitetlərirndə dərs demiş,bir müddət Qahirədə qazılıq etmişdi. Yüksək diplomatik bacarığı sayəsində təmsil etdiyi dövlətlərin səlahiyyətli nümayən-dəsi olaraq Araqon kralı IV Pedro, məşhur fateh əmir Teymurla uğurlu diplomatik danışıqlar aparmış, sonuncunun Səmərqənddəki sarayında bir müddət yaşayaraq, onun çox böyük hüsn-rəğbətini qazanmışdı. İbn Həldun öz müasirləri olan Qranada hökmdarı sultan V Məhəmməd, Misir sultanı Zahid Berqoq və başqaları ilə  də ol-duqca yaxın münasibətdə olmuşdu.

İbn Həldunun elmi dünyagörüşü Aristotel və ellinizm dövrü mütəfəkkirlərinin, habelə «İxvan əs-səfa» cəmiyyəti alimləri, digər şərq peripatetik, sufi cərəyanları nümayəndələrinin təsiri altında formalaşmışdı. Böyük mütəfəkkir özündən əvvəlki islam dünyasının əl-Fərabi, ibn-Rüşd, ibn Sina, Fəxrəddin Razi kimi korifeylərindən bəhrələnərək, çağdaş elmin təsəvvüf, ilahiyyat, hüqüq, məntiq kimi sahələrinə aid onlarla əsərlər yazmışdır. Lakin onun başlıca əsəri yeddi cildlik «Böyük tarix» və ya «İbrətlər kitabı» adlanan traktatdır. Əsərin adı tam şəkildə «Hədsiz miqyasda geniş ərazilərdə hakimiyyət əldə etmiş ərəblər, farslar, bərbərilər və onların həmtayfalarının keçmiş günləri barədə divana xəbərlər və ibrətamiz nümunələr kitabı» adlanır.

Əsərin birinci bölümü ön söz və girişdən ibarət olub «Müqəddimə adlanır. İkinci bölüm əsərin II,III, IV və V cildlərini əhatə edib farsların yəhudilərin, misirlilərin, frankların, ərəblərin qədim və orta əsrlər tarixindən, o cümlədən Əməvilərin və Abbasilərin tarixindən bəhs edir. Üçüncü bölüm VI və VII cildləri əhatə edib Şimali Afrikadakı bərbərilərin və müsəlman xanədanlarının tarixinə həsr edilmişdi.(9). İbn Həldunun dövlətçilik və siyasətə dair baxışları başlıca olaraq həmin traktatın birinci cildi kimi nəzərdə tutulan və 1375-1378-ci illər arasında yazaraq tamamladığı «Müqəddimə» hissəsində öz əksini tapmışdı. Dövrünün əsas elm dillərindən olan yunancaya «Proleqomena» kimi tərcümə olunan bu əsər tezliklə digər dillərə çevrilərək hələ sağlığında 45 yaşlı alimə dünya şöhrəti qazandırmışdı. Yaxın-uzaq dövlətlərin görkəmli hökmdarları bu zəka sahibini öz saraylarında görmək istəyir, ona dəvətlər göndərir, mühüm vəzifələr təklif edirdilər.

«El-Mukeddime» və ya «Kitabi-i Əvvəl» 6 bölümdən, onlar da öz növbəsində fəsillərdən ibarət idi:

1.İqlimlərin və qidalanmanın insan təbiəti və mədəniyyətlərə təsiri,

2.Köçəri və oturaq mədəniyyətlərin müqayisə edilməsi və iki mədəniyyət ara-sındakı ziddiyyətlərin sosial nəticələri,

3.Dövlətlərin yaranması və çöküşü, səltənət, xilafət və krallıq etmənin şərtləri və qaydaları.

4.Kənd və qəsəbə həyatı ilə abadlaşdırma fəaliyyətləri və bunların islam dövlə-ti ilə əlaqəsi,

5.Dövrün əsas peşələri, dolanışıq vasitələri, sənət, ticarət, əkinçilik və inşaat kimi iqtisadi fəaliyyətlər,

6. Elmlərin təsnifatı, təhsil metodları (9)

Zəmanəsinin, habelə özündən əvvəlki və sonrakı dövrlərin bir çox mütəfəkkir-ləri kimi, İbn Həldun da dövləti ictimai müqavilənin məhsulu hesab edirdi. Lakin onlardan fərqli olaraq İbn Həldun belə hesab edirdi ki, dövlət yalnız sadəcə olaraq səbəbiyyat qanununu təsiri altındla olan təbii və zəruri insan təsisatı deyil, həm də elə bir siyasi və sosial qurumdur ki, insan sivilizasiyasının mövcudluğunu mümkün edir. Məhz bu insan sivilizasiyası da İbn Həldunun təhlil və araşdırmalarının pred-meti olmuşdur.

Mütəfəkkirin cəmiyyət və dövlət haqqındakı konsepsiyasına görə, insanlar öz-lərinə həyat nemətləri əldə etmək məqsədilə cəmiyyəti təşkil etmişlər. İnsanlar həmçi-nin xarici təhlükədən və özləri kimi insanların təcavüzündən qorunmaq üçün birləş-mişlər.Əmək bölgüsü bu birləşmənin ilkin zəruri amili idi. Doğrudur, cəmiyyətə təbii amillər: iqlim, coğrafi şərait və s. də təsir göstərir. Lakin başlıca olanı təsərrüfat for-masıdır. Nəsillərin yaşadığı şərait bir-birindən əsasən onunla fərqlənir ki, insanlar yaşayış vasitələrini necə əldə edirlər. Belə ki, bəşər cəmiyyətinin inkişafı və bütün so-sial hadisələr, insanların iradəsindən asılı olmayan istehsal üsulu ilə şərtlənən sərt qanunlara tabedir. Bununla əlaqədar olaraq İbn Həldun cəmiyyətin iki inkişaf mər-hələsini müəyyən edirdi: 1.Primitiv və ya «kənd» mərhələsində adamlar yalnız əkinçi-lik və heyvandarlıqla məşğul olurlar. 2. Mədəni və ya «şəhər» mərhələsində sənət, ti-ca rət, elm və incəsənət inkişaf edir.

Birinci mərhələdə insanlar yalnız yedikləri qədər istehsal edə bilirlər. Artıq heç nə qalmır. Cəmiyyətin inkişafının «kənd» mərhələsində icma daxilində hüquq və əm-lak bərabərliyi hökm sürür. Bu mərhələdə məcburiyyət ünsürü və ərzağın bölünməsi elementi yoxdur. Çünki bölünəsi artıq ərzaq da yoxdur. İcma daxilində qan qohum-larının tam bərabərliyi vardır. Burada icmanın lideri bərabərlər arasında birincidir. Sıravi icmaçılar onun arxasınca könüllü surətdə gedirlər.

Əmək bölgüsünün inkişafı və çoxlu sayda insanların səylərinin birləşdirilməsi nəticəsində «məhsul artıqlığı» meydana gəlir ki, bu da öz növbəsində sərvətə aparır və cəmiyyətin inkişafının ikinci mərhələsinə keçidi şərtləndirir. İkinci mərhələdə insanlar izafi məhsul istehsal etdiklərindən sərvət əmələ gəlir və sahibkarlıq meydana çıxır. Sahibkarlıq isə məcburiyyət elementinin və hakimiyyətin əmələ gəlməsini şərt-ləndirir.Cəmiyyətdə bir fərdin hakimiyyəti mümkün olmadığından, bir qrupun (bir sinifin) hakimiyyəti ortalığa çıxır. Hakimiyyət daşıyıcıları məcburiyyəti həyata keçir-mək üçün əvvəlcə öz qəbiləsinin adamlarına, daha sonra pulla tutulan xüsusi təyinat-lı qüvvələrə (keşikçi dəstələri, xidmətçilər,ordu və s.) istinad edirlər. Hakimiyyət baş-çıları həmin qüvvələri saxlamaq üçün vergiləri artırır, öz təbəələrini soyur, bununla da təsərrüfatın tənəzzülünə səbəb olurlar.

Məhz məcburiyyət elementi dövləti sadə tayfa başçılığından fərqləndirir, bu və ya başqa xalqın çatdığı sivilizasiyanın səviyyəsinin göstəricisi olur. Dövlət cəmiyyət üzvlərini tabe edir, tayfaları vahid məqsəd ətrafında birləşdirir, həm öz təbəələrinə münasibətdə, həm də xarici sahədə məcburi hakimiyyəti həyata keçirir. Bu hakimiy-yətin daxili mahiyyəti hökmdarın mütləq hakimiyyəti, təbəələrini güc vasitəsilə idarə etməsi, qanunları tətbiq etməsi, lkə daxilində asayişi təmin etməsi, vergiləri yığması, ordunu təşkil etməsi ilə xarakterizə olunur. Xarici sahədə ali dövlət hakimiyyəti heç bir digər hakimiyyətə və məcburiyyət orqanına tabe olmur, başqa sözlə dövlət suve-renliynə malik olur.

İbn Həldunun fikrincə, dövlət siyasəti yalnız hökmdarla məhdudlaşmır. Onun həyata keçirilməsində bu və ya digər dərəcədə bütün təbəələr iştirak edir. Buna görə də dövlətdə baş verən dəyişikliklər sadəcə olaraq dövlət başçısının vəziyyətindəki də-yişikliklərlə deyil, bütövlükdə cəmiyyətdəki dəyişmələrlə əlaqədardır. Dahi tarixçi əsrlər boyu yaranıb-məhv olan dövlətlərin, möhtəşəm imperiyaların tarixini nəzər-dən keçirib, təcrübəsini ümumiləşdirib, bu dövrü prosesin başlıca məqamlarına ay-dınlıq gətirir, fundamental suallara aydınlıq gətirməyə çalışır. O,»Müqəddimə»nin «Dövlət necə bəlaya düçar olur» adlanan fəslində yazırdı:

«Bil ki, hökmranlıq iki zəruri təməl üzərində dayanır: birincisi «döyüşçü» sözü ilə ifadə olunan əsabələrin qüdrətində, ikincisi maliyyədə. Onlar isə ordunun və hökmdarın ehtiyayaclarının ödənməsinin özülləridir. Və əgər dövlət bəlaya düçar olursa, bəla məhz bu özüllərin korlanmasından başlanır…Bil ki, dövlətin hazırlan-ması və təşkili əsabələr tərəfindən həyata keçirilir. Elə bir qüdrətli qruplaşma olma-lıdır ki, digər bu cür qruplaşmaları öz ətrafında

birləşdirsin və ardınca aparsın. Hökmranlığın meydana gəlməsindən sonra dağıdıcı sərvət və zorakılıq adamları bü-rüyür. Sonra zorakılıq qətillərə çevrilir»(6,s.725).

İbn Həldun dövlətçiliyin formalaşması prosesini izləyərək yazırdı: «Aparıcı tayfanın rəhbər qruplaşmasının (əsabələrin) hakimiyyəti tədricən bir fraksiyanın ha-kimiyyətinə çevrilir.Həmin fraksiyanın tərəfdarları müqəddəs ideallar naminə müba-rizə apardıqlarını iddia etsələr də, əslində hökmranlıq uğrunda, maddi nemətlər uğ-runda, cismani ehtiraslarını və mənəvi həzzlərini təmin etmək uğrunda vuruşurlar. Bunlar üçün tərəflərin qarşılıqlı rəqabəti nadir hallarda kiminsə könüllü olaraq gü-zəştə getməsi ilə nəticələnir»(6,s.725). Müharibələr, döyüşlər, üstünlük əldə etmək məqsədilə fasiləsiz mübarizələr gedir.

Özündən əvvəlki və sonrakı tarixçilərin əksəriyyətindən fərqli olaraq İbn Həl-dun dövlətin tənəzzülünü və məhvini birbaşa olaraq hakimiyyət təmsilçilərinin şılta-ğı, sülalədaxili çəkişmələr və başqa subyektiv amillərlə deyil, iqtisadi amillərlə, ma-liyyə sarsıntıları ilə bağlayırdı: «Dövlətin korlanmasının maliyyənin korlanması ilə bağlı olması məsələsinə gəldikdə isə bilmək lazımdır ki, dövlət öz başlanğıcında pri-mitiv və təbəələrə münasibətdə mərhəmətli olur, hər bir dirhəmi hesaba alır, vergiyı-ğanları yoxlamağa zərurət olmur. Heç həmin vaxtlarda dövlətin xərcləri az olduğun-dan böyük miqdarda pula ehtiyac da hiss etmir. Lakin sonralar istilalar başlanır, ələ keçirmələr böyüyərək sərvətə və dəbdəbələrə yol açır. Dövlətin və dövlət adamları-nın artıq xərcləri və məsarifləri dəfələrlə artı rvə dəbdəbə ehtirası paytaxt sakinlərini bürüyür. Bütün bunlar isə orduya və dövlət qulluqçularına verilən məvaciblərin həc-mini artırmağı zəruri edir. İsrafçılıq dəfələrlə artır… Hökumət paytaxtdakı təntənəni görüb belə hesab edir ki, adamlar firavan yaşayır. Bu mərhələdə dövlətin müxtəlif vergiləri səbəbəindən vergiyığanların da sərvəti və şəxsi nüfuzu artır. Onlar tərəfin- dən yığılan pulların mənimsənilməsi, qarşılıqlı xəbərçilik, rəqabət və nifrət çoxalır» (6,s.730).

Dövlətin maliyyədə və hərbidə təcəssüm edən dayaqlarının çürüməsi nəticəsin- də dövlət özü çürüyür, dağılır, daha kiçik hissələrə bölünür və xarici dövlətlər tərə-findən zəbt olunur. Adətən bir dövrənin süqutu və növbəti dövrənin başlanması kö-çərilər tərəfindən mədəni məmləkətin işğalı ilə həyata keçir. Hər şey eyni məzmunda yenidən başlayır. İbn Həlduna görə bu proses bir ictimai qanundur və şəxslərin ira-dəsinə tabe olmaz (9).

İbn Həldun ərəblərin, farsların və bərbərilərin tarixinə istinadən yazırdı ki, hər yeni yaranan imperiya da gec və ya tez qocalır, insan kimi böyüyür, yetkinləşir, nə-hayət qüruba doğru gedir. Bütün hallarda hər bir konkret dövlət də insan kimi ölü-mə məhkumdur. «Lakin ümumiyyətlə dövlət deyil, konkret mövcud olan bir sülalə-nin dövləti məhv olur»(1,s.90).

Böyük mütəfəkkir belə bir nəticəyə gəlirdi ki, dövlətin yarandığı ilk dövrlərdə sərvət onun qüdrətinin armasına kömək edirdisə, dövlətin möhkəmlənməsindən son-ra var-dövlət hərisliyi mənfi rol oynamağa başlayır. Dövlət məmurlarının ziynət, sər-vət içərisində yaşamaq cəhdi, həmçinin dövlət üçün zəruri olan ordunu saxlamaq xərcləri ölkədə bahalığı getdikcə artırır. Bu da nəticədə iqtisadiyyatın dağılmasına gətirib çıxarır.

«Dövlət özü müəyyən zaman çərçivəsində mövcud olur. Bu hakim sülalədən olan üç nəslin hakimiyyəti qədərdir. Bu müddət ərzində dövlət beş inkişaf mərhələ- sindən keçir: 1.Əvvəlki hakimiyyətin yeni məcburetmə hakimiyyəti ilə əvəz olunması; 2.Hökmdarın onu hakimiyyətə gətirən silahdaşlarına divan tutaraq ali hakimiyyəti öz əlində cəmləşdirməsi; 3.Dövlətin tərəqqisi, qaydaların möhkəmliyi, əmin-amanlıq və inam; 4.Müxalifətin susdurulması üçün zorakılıq və despotik idarəçilik metodları-na keçilməsi; 5.Dövlətin tənəzzülü və məhvi»(5,s.143-144).

İbn Həldun bu sonuncu mərhələni eyş-işrət və israf mərhələsi adlandırır. Ali-min fikrincə bu mərhələdə bir sıra sosial-iqtisadi səbəblər üzündən, «dövlət dağılma-ğa başlayar. Mərkəzdən uzaqda yerləşən valilər, sərkərdələr, şahzadələr, bu və ya başqa dövlətlər dövlətdən torpaq parçaları əldə etməyə başlayarlar. Paytaxtda da ordu və bürokratlar hökmdarın nüfuzunu ələ keçirməyə, hökmdarı sadəcə «oyuncağa» çevirməyə başlayarlar. Nəticədə xaricdən gələn və əsəbiyyəsi güclü gənc və sağlam bir topluluq dövləti zəbt edər və çürümüş quruluşu yox edib yenisini qurarlar»(9)

Mütəfəkkirin fikrincə, adətən dövlətin əsasını qoyan hakim sülalənin birinci nəsli üçün mənəviyyatların sadəliyi, nisbi bərabərlik xasdır. İkinci nəsil artıq ziynət içindədir, qeyri-bərabərlik,

qarşılıqlı düşmənçilik içərisində yaşayırlar, özlərini mü-dafiə etmək qabiliyyətində deyillər,muzdlu orduya və qoruyuculara ehtiyac hiss edirlər. Üçüncü nəsildə artıq çürümə qaçılmaz olur.

İbn Həldun dövlətin siyasətini, dinini və idarəedənlərlə idarəolunanlar arasın-dakı münasibətlərin nisbətini nəzərə alaraq onun üç əsas tipini fərqləndirirdi:

1.«Təbii monarxiya, 2. «Siyasi monarxiya», 3. «Xilafət».

Birinci formanın mahiyyəti bundan ibarətdir ki, hökmdar öz şəxsi mənfəətlərini əsas tutaraq təbəələri üzərində zorakılıq edir, idarəçiliyin əsasında subyektiv qiymətləndirmə və şıltaqlıq dayanır. Bu gücə əsaslanan, şəxsi maraqlara xidmət edən, yalnız idarəedənlərin mənafelərini həyata keçirən istidbad dövlətidir.

İkinci formada hakimiyyət səmərəli və ağılabatan siyasət yeridir, tabeçilikdə olanların dünyəvi mənafeyini müdafiə edir, təbəələrə ziyan vurulmasına imkan vermir. Bu ədalətli, səmərəli dövlət idarəçiliyidir. Lakin tabeçilikdə olanlar üçün «özgə» hesab olunur, çünki idarəçilikdə təmsil olunanlarla eyni dini dəyərləri paylaşmırlar.

«Yalnız üçüncü formada-Xilafətdə bu qüsur aradan qalxır. Xilafət hökuməti müsəlman hüququna əsaslanmaqla dini etiqadları və dünyəvi maraqları müdafiə edir» (4,s.262).

İbn Həldun müsəlman hüququnu ali ədalətin parlaq nümunəsi hesab etdiyin-dən başlıca məqamlarda xilafət idarəçiliyinə üstünlük verirdi. O, bir tarixçi olaraq dövlətin inkişaf mərhələlərini nəzəri müstəvidə araşdırmaqla kifayətlənmir, müsəlman dövləti olan Xilafətin tarixi təkamülünü tədqiq edir, onun monarxiyaya çevrilməsi prosesini nəzərdən keçirirdi. Mütəfəkkirin fikrincə bu çevrilmənin əsas səbəbi müsəlman icmasının mövcudluğunun sosial şəraitinin dəyişməsidir. Bir zamanlar müsəlmanları birləşdirən «əqidə qılıncla əvəz olunur». Nəticədə əvvəllər heç bir mo-narxiya əlamətləri olmayan müsəlman dövlətində xilafət idarəçiliyi ilə monarxiya idarəçiliyi tədricən uzlaşır, sonda tam monarxiyaya çevrilir.

İbn Həldunun fikrincə «müsəlman dövləti öz inkişafında dörd mərhələdən keç mişdir: Birinci mərhələdə dövlətə mömin («təmiz») xəlifələr başçılıq etmişdir. Bu tam xilafət adlanır. İkinci mərhələdə xilafətin xarici atributları saxlanılmaqla, tədricən «əqidə» «zorla» əvəz olunur. Bu mərhələdə xilafətin ideallarını həyata keçirməyin metodları dəyişir. Üçüncü mərhələdə Abbasilər xilafətinin yalnız adı saxlanılır. Xilafət ən adi monarxiyaya çevrilir. Sonuncu-dördüncü mərhələdə vahid müsəlman dövləti vaxtılə ərəblərin işğal etdiyi xalqların dövlətlərinə parçalanır. O, daha rəsmi olaraq xilafət də adlanmır, dövlət başçısı daha din xadimi deyildir»(5,s.143).

Beləliklə İbn Həldun bir çox mütəfəkkirlərdən fərqli olaraq, dövlətə əbədi, dəyişməz bir substansiya kimi baxmamışdır. Onun fikrincə dövlət hakimiyyəti törəmə hadisədir, tarixi kateqoriyadır, cəmiyyətin irəliyə doğru inkişafının müəyyən bir mərhələsində təbii tələbat kimi meydana çıxmışdır.

İbn Həldun göstərirdi ki, «Sivilizasiya insan cəmiyyətinin axırı deməkdir». Sivilizasiya ilə dövlət bir-biri ilə bilavasitə əlaqədardır. Dövlətin və sivilizasiyanın məhv olmasının ilk əlaməti sərvət və var-dövlət hərisliyidir.

İbn Həldunun dövlət haqqında təlimi öz dövrü üçün təkcə ərəb siyasi və hüquqi fikrinin deyil, bütün islam dünyası fikrinin zirvəsi idi. Ondan sonra belə bir zirvə olmadı.

Öz əsərləri ilə böyük alim ilk dəfə olaraq tarixi bir nağıl və hekayə olmaqdan çıxardı, onun qanunlarını aşkar edərək, bir elm sahəsi olduğunu sübut etdi. O, bu barədə yazırdı: «Tarix zahirdən baxıldığında keçmişdəki hadisələrin, dövlətlərin və-ziyyətinin və keçən dövrlərdəki xəbərlərin o tərəfinə keçməz. Tarixdə sözlər istinadlarla nəql olunur və tarixi hadisələrlə məsələlər zərb olunur. Məclislər camaatla dolu olduqda tarixi hadisələr nəql edilərək yığıncaqlar təzələnir,dinləyənlər xoşlanar və rəğbətlə istirahət edərlər. Tarix insanlar və qövmlərin hal və vəziyyətlərinin necə də-yişmiş olduğunu, dövlət sərhədlərinin necə genişlənmiş, qüvvət və qüdrətlərinin necə artmış olduğunu, ölüm və dağılma çağı gələnə qədər yer üzünü necə abad etdiklərini bizə bildirir. Bu tarixin zahiri mənasıdır. Tarixin içində gizlənən məna isə araşdırmaq, düşünmək, varlığın (kainatın) səbəb və xəstəliklərini diqqətlə anlamaq, hadisələrin baş verməsi və gedişatının səbəb və tərtibini araşdırıb bilməkdən ibarətdir. Bax buna görə tarix şərəflidir və hikmətin içinə qərq olmuşdur. Buna görə də tarix hik-mət və fəlsəfə elmlərindən biri hesab olunmağa layiqdir»(9).

Beləliklə dahi alim tarixin fəlsəfəsini yaratdı, sosiologiya elminin əsasını qoydu. Onun dövlət idarəçiliyi, hökumətin yeritdiyi siyasətin ölkənin iqtisadiyyatı ilə sıx qarşılıqlı əlaqəli olması, dövlət adamlarının sərvət ehtiraslarının ölkə üçün ciddi təhlükə olması kimi fikirləri üstündən bir neçə yüz illər keçməsinə baxmayaraq bu gün də öz əhəmiyyətini itirməmişdir.

İbn Həldun siyasəti və dövlətçiliyi şərh edənlərdən yox, yaradan mütəfəkkirlərdən olmuşdur.Bu mənada onu Şərqin Nizamülmülkü, Qərbin Makiavellisi ilə mü-qayisə etmək olar»(3,s.200)

Avropanın bir çox elm adamları tərəfindən İbn Həldun çox haqlı olaraq şərqin Monteskyesi adlandırılmışdı.. Onun dövlət haqqında təlimi özündən əvvəlkiləri xeyli zənginləşdirərək və özündən sonrakıları çox qabaqlayaraq yaşadığı tarixi dövrün hüdudlarını aşmışdı. Cəmiyyətin iqtisadi həyatının real bazis və qalan bütün ictimai-siyasi və hüquqi münasibətlərin onun üzərində yüksələn üstqurum olması fikrinə İbn Həldun XIX əsr Avropa mütəfəkkirlərindən, o cümlədən bir çoxlarının zirvə hesab etdikləri Karl Marks və Fridrix Engelsdən ən azı beş əsr əvvəl gəlmişdi. Dövləti çökməkdən qurtarmaq üçün İbn Həldunun «hökmdarın səlahiyyətlərini məhdudlaşdırıb, müəyyən qaydalara uyğun gəlməsini təmin etmək»(9) fikiri, konstitusiyalı monarxiya anlayışını xatırladır, bu sahədə orta əsrlər avropa ictimai-siyasi xeyli qabaqlayırdı.

Avropanın tanınmış elm adamlarından olan professor K. Filip Hittli İbn Həl-dunun elm qarşısındakı xidmətlərini belə xarakterizə etmişdi: «Heç bir Qərbli elm adamı İbn Həldundan əvvəl bu şəkildə hər şeyi əhatə edən geniş bir tarix fikrini üzə çıxarmamışdır.İndiyə qədər aparılan araşdırmalara görə bütün elm adamlarının həm fikir olduğu şey-İbn Həldun yalnız islam aləminin yetirdiyi ən böyük bir tarix fəlsəfəçisi deyil, gəlib-getmiş və bundan sonra gələcək adamlarının ən ucası olmuşdur(7).

Amerikan alimi Arnold Toynbi də İbn Həldunu yüksək qiymətləndirmiş, onu sivilizasiya tarixinin ən ilk nəzəriyyəçilərindən biri hesab etmişdir. Onun sözləri ilə deyilərsə, islam aliminin yaratdığı tarix fəlsəfəsi heç şübhəsiz ki, bütün xalqların və zamanların insan idrakı tərəfindən yaradılan ən böyük işidir. Sosiologiya elmi sahə-sində o, əhəmiyyət baxımından sonrakı dövrlərin müəllifləri olan Makiavelli, Viko, Monteskye ilə bir sırada dayanır(8).

## ЯДЯБИЙЙАТ

1.Й.Рцстямов. Сийаси-щцгуги тялимляр тарихи. Бакы, Аз. Университети няшриййаты, 2000, 318 с.

2.М. Яфяндийев. Сийаси вя щцгуги тялимляр тарихи. Бакы Университети Няшриййаты, 2002, 612 с.

3. Ш. Мяммядов. Дювлят вя щцгуги тялимляр тарихи. Нахчыван, Идеал, 213, 315 с.

4.В.Графский. История политических и правовых учений. Москва, Норма, 2009, 736 с.

5. История политических и правовых учений. Авт. кол. Москва, Норма, 2001

6.Антология мировой првовой мысли. Хрестоматия. Том 1. Москва. 1999

7.щтт://аз.wикипедиа.орг/wики/%Ч4%Б0бин Х%Ч9%991дун

8.щтт// www.dissercat.com/content/sotsialno-politicheskaya-filosofia-ibn-khalduna

9.https/az.wikipedia.org/wiki/Ibn Xaldun.

## ABSTRACT

**Ibni Khaldun's state training**

Ibni Khaldun is one of the most prominent thinker not onlyin Islamic East,but also in middle ages.Among his works,his book "Great history" its preface and introduction takes place very important part of the "Elmukeddime" in Greek "Prolegomena".In Ibn Khaldun's this work,the training of state was not only in the Islamic world,the whole world at its peak of scientific thought.The great scholar created the history of philosophy,laid the foundation for the science of sociology.The economic life of the read basis of society and all its political and legal relations on

the superstructure rising Karl Makx and Friedrich Engel's opinion Khaldun had at least five centuries ago.


## РЕЗЮМЕ

### Учение о государственности Ибни Хальдуна

Ибн Халдун является одним из крупных мыслителей не только мусульманского средне-вековья, но и всего мира. Среди его трудов особое место занимат книга «Большая история» и ее первая часть, названная «Эль-мукаддиме» (по гречески «Пролегомена») состоящая из авторского предисловия и введения.

Учение Ибн Халдуна о государстве , нашедшее свое отражение в его указанном труде, явилось вершиной научной мысли не только исламского, но и всего мира того времени. Выда-ющимся ученым была создана философия истории, обоснована соуиолощя как наука. К мысли о том, что экономическя жизнь общества является реальным базисом, а остальные все отношения, в том числе общественно-политические и правовые, есть надстрока, он обосновал, как мини-мум, пятьсот лет раньше, чем Карл Маркс и Фридрих Энгельс. Его мысли о сущности и формах государственного управления, о тесных связах осуществляемой правительством политики с экономикой страны, о представлении серьезной опасности для страны стасти государственных мужей к обогощению и друге до сих пор не потеряли своего значения, хотя с того времени прошло несколько столетий.



NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: Hüquq üzrə fəlsəfə doktoru, dosent Y.Hüseynov

**VÜQAR RƏHİMZADƏ**
*AMEA Naxçıvan Bölməsi*
*vuqarrehimzade@mail.ru*

**UOT:316.32**

# SOSİAL MEDİA VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR: REAL VƏZİYYƏT VƏ PERSPEKTİV İNKİŞAF

**Açar sözlər:** *Sosial media, PR, təhdid, "Twitter", "Facebook", KİV, informasiya, auditoriya, press-reliz*

**Keywords:** *Social media, PR, threat, Twitter, Facebook, mass media, information, audience, press release*

**Ключевые слова**: *Социальные медиа, PR, угроза, «Twitter», «Facebook», СМИ, информация, аудитория, пресс-релиз*

Sosial media təşkilata mənfəət kütləsi gətirir, beləliklə, məlumatların mühafizəsi və məxfilik tələbləri çərçivə vasitələrinin bir hissəsini təşkil edir, bu mənfəətlər təhlükəsiz və salamat şəkildə (PR əlaqələrinin genişləndirilməsi vasitəsi ilə reallaşdırılmaqla) həyata keçirilə bilər.

Sosial media idarəçiliyi təhlükəsizliklə bağlı müəyyən problemləri nəzərə almalıdır: inkişaf edən qaydaların və istifadə edilən sosial media kanallarının müddət və şərtlərinin sırasında dayanmaq; qəbul etmədən istifadə, saxlama, köçürmə, arxivləşdirmə və dağılmaya qədər öz həyatı boyu sosial media məlumatlarını idarə etmək; həssas təşkilati və ya şəxsi məlumatların məruz qalmadığına əmin olmaq və həssas vəziyyətlərdə müşahidə etmək, qiymətləndirmək və tədbir görmək üçün alətlərdən istifadə etmək**.** [1]

Sosial media bizə mövcud olan və yeni inkişaf edən platformalar vasitəsilə insanlara birbaşa çatmağa imkan verir. Sosial mediada gün ərzində 24 saat insanlara çatmaq imkanları ilə yanaşı, təhdidlər də yaradır. Sosial mediadan istifadə edərkən PR üzrə təcrübəli mütəxəssislər elektron cinayətin artan təhlükəsinə qarşı ayıq olmalıdırlar. [12] Yeni təhlükələr demək olar ki, hər gün yaranır və risklərin daha yaxşı anlaşılmasına ehtiyac olduğu zaman onlara cavab vermək qabiliyyətinə zəruri təsiri olacaq. Odur ki, əsas strategiya malik olduğun resurslar haqqında diqqətli olmaq, onlara nəzarət etməyi bacarmaqdır.

Sosial media ölçə bilər və ölçməlidir. (İctimai Əlaqələrdə Barselona Ölçü Prinsipləri Bəyannaməsinin altıncı bəndi. [2]

Konkret və ölçülə bilən məqsədləri aydın şəkildə müəyyən etməklə bütün sosial media fəaliyyəti bu məqsədlərin obyektivləri ilə qiymətləndirilə bilər və qiymətləndirilməlidir. Sosial mediadan istifadə edən bütün fərdlər tərəfindən sərf edilən vaxtın daim artan həcmi onun ünsiyyət və təşkilati məqsədlərə verdiyi töhfələri daha yaxşı anlamaq üçün təşkilatların üzərinə daha çox məsuliyyət qoyur. Məsələn, "Social Stream Aggregation" şirkətindən PR mütəxəssisi VanScotenə görə, ünsiyyət qurmaqda "Twitter" elektron poçtdan daha sürətlidir, elektron poçt isə telefonla əlaqədən 50% daha çox sürətlidir. İctimaiyyətlə əlaqələr üzrə agentliyin direktoru Susanna Simpsona bildirir ki, PR-də bütün dəyişikliklərə baxmayaraq, əsas iş (ünsiyyət) eyni olaraq qalır. Hətta 50-dən sonra belə, insanlara əsas hədəf auditoriyası ilə necə ünsiyyət qurmaq üçün məsləhət lazımdır. Yeni texnologiya və yeni alətlərin inkişafı ünsiyyətdə hansısa dəyişikliklərə səbəb ola bilər, amma əsas məsələ müştəri üçün doğru olanları seçməkdə onları təmin etməkdir. [9]

İstənilən sosial media ölçü yanaşması ilkin məqsədlərlə münasibətdə istifadə edilən ilkin ölçüləri tətbiq edərkən diqqətli olmalıdır. Sosial media ölçüsü izləyicilər, tamaşaçılar və s. kimi paramterləri asan şəkildə ölçmək üçün öhdəliklərin icra olunmamasına meyillidir.

Hər zaman ölçü səylərinin etibarlılığını ciddi şəkildə təhlükə altında qoyan "mənasız ölçü"yə qarşı ehtiyatlı olmaq lazımdır. Məsələn, 10 milyondan çox izləyicisi olan "New York Times" "Twitter" hesabının nümunəsini götürək (noyabr, 2013). Statuspeople.com-a görə bu izləyicilərin qiymətləndirilən 44 faizi saxtadır və əlavə 40 faiz "həqiqi" izləyici bazasını təqribən 16 faiz – və ya

1,6 milyon izləyici ilə buraxmaqla qeyri-aktivdir. Hətta bu "həqiqi" izləyici bazasının ən yaxşı halda eyni vaxtda cəmi 10 faizi onlayn ola bilir. Tvitin qiymətləndirilən "istifadə müddəti" indi qiymətləndirilən 18 dəqiqə olduğunu (başqa sözlə, Tvitlə əməkdaşlığın hər hansı növ ehtimalı 18 dəqiqə ərzində baş verəcək) fərz edilsə, onda "Twitter" izləyicilərinin hər hansı qrupunun istənilən nöqtədə vaxtında "həqiqi" çatması ümumi izləyici bazasının kiçik yarımqrupuna bərabərdir. Beləliklə, sosial media ölçüsü kimi xam "Twitter" izləyicilərinin istifadəsi əsaslı olaraq korlanır. Belə etirazlar "Facebook" izləyiciləri kimi kiçik ölçülərə də tətbiq edilir. Ona görə də hər hansı sosial media ölçü yanaşması həqiqi auditoriya əlaqəsinin reallığını və onun əvvəlcədən müəyyən olunan konkret və ölçülən məqsədlər üzərindəki təsirini əks etdirməyə cəhd etməlidir. [2]

Səlahiyyət təhlili kimi vasitələr ("Google" analitikləri kimi azad alətlər vasitəsilə) təşkilatlara sosial medianın bu məqsədlərə etdiyi birbaşa və dolayı iqtisadi yardımı müəyyən etməyə imkan verir. Bu növ yanaşmaların qəbulu (hətta ümumi qəbul olunan ölçü vahidləri olmadıqda da) prinsipcə sosial media fəaliyyəti ilə təqdim olunan dəyərə daha dəqiq və etibarlı anlayış təqdim edir.

Hazırda sosial media güc mərkəzlərinə öz siyasətlərini qurmaq üçün informasiyaların əldə edilməsi prosesində qismən ənənəvi medianı əvəz etməyə başlayıb. Məsələn, ABŞ Dövlət Departamentinin mətbuat katibi Viktoriya Nuland son vaxtlar sualları mətbuat üzvlərindən deyil, dünyanın hər yerindən "Twitter" vasitəsilə qəbul edir. Dövlət Departamenti bunun üçün "Twitter"də "AskState" (dövlət sorğusu) hesabı da yaradıb. Hətta Viktoriya Nulanda verilən suallar operativ şəkildə tərcümə olunub Dövlət Departamentinin "Twitter" səhifəsində 10 rəsmi dildə - ərəb, çin, ingilis, fars, fransız, hind, portuqal, rus, ispan və urdu dillərində - sosial media şəbəkəsinə göndərilir və bu, ABŞ diplomatiyasının genişləndirilməsi planının bir hissəsi kimi gerçəkləşdirilir. ABŞ Dövlət Departamenti yeni texnologiyalardan istifadəni bütün dünyada xarici siyasətinin əsas hissəsi kimi müəyyənləşdirib. Hətta Dövlət Departamentinin sosial media şəbəkələrində 193 müxtəlif hesabı var ki, bunların da 100-ü ayrı-ayrı ölkələrdəki səfirliklərə məxsusdur. [3]

Sosial mediadan PR-də istifadə üsullarını aşağıdakı kimi təsnif etmək olar: [4]

**1.** Sosial şəbəkələrə press-relizlərin daxil edilməsi

Press-relizın yazılması zamanı məlumatların sosial mübadilə yolu ilə göndərilməsi vasitələri tapılmalıdır. Məsələn, "Software marketinq" şirkəti bütün məlumatlarının sosiallaşmasına çalışır. Şirkət 2014-ci ilin hesabatlarını hazırlayarkən buraya "Twitter" şirkəti ilə birlikdə sosial komponentlər əlavə etmişdir.

**2.** Müştəri işinin araşdırmaları ətrafında sosial kampaniyaların yaradılması.

PR əlaqələrinin əksəriyyəti müştərilərin tematik tədqiqatları üçün yaradılıbdır, əsas məqsəd uğurları göstərmək və inam yaratmaqdır. Bəziləri yaxşı rəy almağa çalışırlar, lakin bir çox insanlar iri həcmli məqalələr oxumağa vaxt ayırmaq istəmirlər. Bir sıra hallarda sosial medialarda tədqiqatlar barədə əhatəli məlumat verilir. Halbuki bunun əvəzində əsas məqamlara diqqət yetirilməsi daha yaxşı olardı. Məsələn, "Microsoft" onların texnologiyalarının insanların həyatına necə təsir göstərməsindən bəhs edən hekayəni video-əlaqə vasitəsilə nümayiş etdirmişdir.

Məlumat mübadiləsində infoqrafika ən populyar vasitə olmuşdur. İnsanları mətndən çox görüntülər cəlb edir. Müştərilərlə bir neçə əlamətdar müsahibəni qeyd edə bilərik, onların informasiyaya uyğunlaşdırılması "Pinterest", "Facebook" və ya "Instagram"da çoxlu fikir mübadiləsi aparılmasına səbəb oldu. [4]

**3.** Linkedində çap olunmaq üçün rəhbərlərə müraciət edilməsi.

Rəhbərlərin peşəkar həmkarları və müştərilərlə qarşılıqlı əlaqələri maraqlı tərəflər arasında inamın formalaşmasına səbəb olur. Buna baxmayaraq rəhbərlərin cüzi hissəsi sosial şəbəkədə fəallıq göstərir. Fəallığı artırmaq üçün başlanğıcda linkedindən istifadə məqsədəuyğundur, çünki peşəkar ünsiyyət üçün bura aparıcı sosial şəbəkələrdəndir. Şirkət lazımi auditoriyanın formalaşması naminə nəşr platformalarını təqdim etməlidir. Məsələn, "AudienceBloom"un icracı direktoru Ceyson Demers uğurlu nəticələrə nail olmaq üçün Linkedindən istifadə edir. İndi onun Linkedindən məlumat əldə edən 300 davamçısı var.

4. Mütəxəssislərin rəyinə görə, real zaman rejimində auditoriyaya təsir etmək üçün hər hansı sənaye sahəsi ilə bağlı ekspert nomenklaturaları təqdim olunmalıdır. Məsələn, məlumatlar bazası sındırılıbsa və oradan kredit kartlarının nömrəsi və s. oğurlanıbsa, mühafizə şirkətləri dərhal

reaksiya verirlər. Onlar başqalarına vəziyyəti anlatmaqda kömək etməklə yanaşı, özlərini ekspert kimi təqdim edirlər.

Diqqəti sosial yanaşmaya cəmləşdirərək, məlumatlar maraqlı tərəflərə çatdırıla bilər. Eyni zamanda KİV və bloqqerlərlə də əlaqə yaradıla bilər.

Qeyd edək ki, PR üzrə mütəxəssislər sosial media təşəbbüsünü irəli sürən ilk insanlardır və buna görə də onlar sosial şəbəkədə liderdirlər [5; 6]. Son onilliklərdə isə İnternet PR mütəxəssislərinə böyük təsir göstərmişdir, eyni zamanda da sosial media PR-in simasını dəyişir. Sosial medianın gələcək press-pelizə necə təsir etməsi, sosial platformaların təkamülündə cari çatışmazlıqların yaratdığı maneələrin necə həll edilməsi, sosial medianın digər PR-peşəkarlar ilə birləşərək yaratmalı olduqları münasibətlər və əldə edəcəkləri qənaətlərlə bağlı məsələlərə aydınlıq gətirək.

Press-reliz ilk dəfə Amerika Dəmiryolçular Assosiasiyası tərəfindən 1897-ci ildə tətbiq edilmişdir. [7, 67-68] Lakin onun bəzən 1906-cı ildə Ayvi-Li tərəfindən yaradıldığı da göstərilir. Ötən əsrin 90-cı illərində bir sıra şirkətlər ("Business Wires Smart News Release" və "PR Newswires MultiVukimi" onlayn servislər) press-relizləri daha da təkmilləşdirdilər. Bunların nəticəsində press-relizlərin göndərilməsində faks və elektron poçtların xidməti zəflədir. "Blast media"nın vitse-prezidenti Lindsey Groepper gələcəkdə press-relizin daha da təkmilləşməsini müzakirə edərək belə qənaətə gəlir ki, hazırda informasiynın yayılmasında müşahidə olunan yeni metodlardan fəal olanı sosial mediadır. Jurnalistlərə məlumatlar poçt vasitəsilə deyil, "Twitter"lə, hətta videogörüntü ilə göndərilir və əksəriyyət belə fikirləşir ki, press-relizin forması hər bir kanal üçün məqbuldur.

"Cisco Systems" şirkətinin PR üzrə direktoru Devid McCulloch belə hesab edir ki, son bir neçə ildə press-relizin formatında hiss olunacaq irəliləyişlər görünür. Onlar KİV-in kütləvi tələbatından çox cəmiyyətin tələbatını təcəssüm etdirməyə üstünlük verirlər. "Cisco" tərəfindən irəli sürülən bu təşəbbüs jurnalistlər və bloqqerlərin fəaliyyətinə istiqamət verir, onların maraqları ilə uyğun gəlir. "Vistaprint" şirkətinin ictimaiyyətlə əlaqələr müdiri Cef Espozitonun fikrincə isə press-reliz gələcəkədə inkişaf edərək daha çox tamaşaçı rəğbəti qazanacaq. Onun fikrincə, sosial medianın inkişafı nəticəsində yaxın 5 il müddətində press-relizin 3 tipi müşahidə ediləcək. Birincisi, qısa məlumatın istinad mənbəyi ilə efirə veriləcəyi videoformatda; ikincisi, məlumatlar daha qısa və daha məqsədyönlü xarakter daşıyacaq. Üçüncüsü, gələcək press-relizlər KİV-dəki geniş məlumatların istifadə qaydasından asılı olacaq. [5]

Eyniadlı şirkətin baş direktoru Lu Hofman öz fikirlərini belə əsaslandırır ki, press-relizlərdə hətta cəmiyyət üçün az əhəmiyyət kəsb edən təkrar məlumatlar sindikatlaşdırmanın əsas səbəbidir. Əgər axtarış sistemləri məlumatları yenidən işləmə səlahiyyətinə malik olsaydılar, o zaman şirkətlər məlumatların seçilməsi üçün daha yaxşı üsullara yiyələnə bilərdilər: "Hətta maraqlı tərəflərə sindikatlaşmanın təsiri az olsa belə mən fikirləşmirəm ki, yaxın 5 ildə press-reliz əhəmiyyətini itirəcək, onlar böyük mənfəət gətirən təkrar xəbərlərdən hələ uzun müddət istifadə edəcəklər. " **[6]**

Sosial media platformasının böyük dəyəri və əhəmiyyətli rolu istehlakçıları və jurnalistləri birləşdirmək üçün məqsədyönlü auditoriyanın ondan yüksək səviyyədə istifadə etməsinə əsaslanır. PR mütəxəssislərinin fikrincə, "Twitter", "Facebook" və "Linkedin" kimi sosial medialar hələ uzun müddət əhəmiyyətini saxlayacaq, lakin gələcəkdə az əhəmiyyətli şəbəkələr daha böyük nüfuz qazanacaqlar.

"Remarx" KİV rəhbəri Kara Stevarta görə, PR mütəxəssisləri üçün ən vacib platformalar gələcəkdə ünvanlı müştərilər üçün olacaq. Çünki sosial media universal həll deyil, PR peşəkarları müştərilərin texnologiyalarını, xidmətləri və biznes-modellərini həqiqətən dərk etməlidirlər ki, ictimai yerlərdə ən az gəlirli sahələrə maraq oyatsınlar. Əslində sosial KİV bütün hallər üçün vahid ölçü deyil [8]. Kara Stevarta sosial media kontentinin işlənməsinə yeni yanaşmaları belə şərh edir: [11]

1. İmkanların (resursların) genişləndirilməsi ehtiyatlarının toplanması ola bilər, amma təcrübədə ştatda həddən artıq işçiləri olan elə bir müştəri yoxdur ki, onların büdcələrində külli miqdarda pul yığılsın. Tərəfdaş olan ekspertlər təkcə məsləhətlə təmin edilməli deyil, həm də büdcə çərçivəsində zaman üzrə nəticələr yaradılmalıdır. Müştəri ələ alınmalıdır.

2. Yaxşı görünmək (rəhbərə, şuraya, müştərilərə).

3. Kommunikasiya. Daşınmaz əmlak və investisiya arasında əlaqədə ən mühüm söz "olduğun yer"dir. Biznesdə müştərilərlə münasibətlərdə ən vacib üç söz kimi "kommunikasiya, ünsiyyət, kommunikasiya" tutula bilər.

4. Öz yolunda olmaq.

Sosial platformalara artan tələbat da onu jurnalistlər və PR üçün daha əlverişli edir və bir-biri ilə əlaqələndirir. “Reporter Out” (HARO), “PRNewswire ProfNet”, “NewsBasis” və “KİV Kitty” qarşılıqlı fəaliyyət üçün əlaqələrə imkan yaradırlar. Eyni zamanda, PR peşəkarları bu gün sosial media ilə böyük uğurlar əldə ediblər, ekspertlər gələcək istifadə üçün sosial platformaların yenidən işlənməli olan bir sıra məhdudiyyətlərini qeyd edirlər:

- PR ilk təşəbbüs göstərmək əvəzinə, KİV ekspertlərinin cavablarını gözləyir.

- PR mütəxəssislərinin əksəriyyəti sosial mediadan press-relizlərin və müştərilərə son xəbərlərin göndərilməsi üçün istifadə edir.

Hədəf auditoriyasının tapılmasında bir çoxları “Twitter” və “Facebook”u kütləvi sosial platforma kimi qəbul etsələr də, az gəlirli sahələrdə bəzən və bir çox hallarda müştərilər üçün dəyərlidirlər. Fikrimizcə, gələcəkdə sosial şəbəkələr geniş diapazonlu hədəf auditoriyasının cəlb edilməsi üçün platformalarını daha da təkmilləşdirməlidirlər.

Hofman təşkilatının icraçı direktoru Mike Sottak əgər PR daha çox inkişaf istəyirsə, onu necə etməli olduğunu belə izah edir. İlk mövbədə müştərilər özləri barədə naşir kimi fikirləşməlidirlər. Baxmayaraq ki, KİV ənənəvi PR-in köməyi ilə qazanır, bu, işin bir hissəsidir. Şirkət öz məzmununu inkişaf etdirməklə onu bloqlardan elektron jurnallara kimi müxtəlif kanallar vasitəsilə yaymaqla daha çox vaxt və güc sərf etməlidir. Bu gün hakim olan budur. Sottaka görə, PR və “SEO” (Search Engine Optimization) arasında əlaqələri anlamaq lazımdır və bir çox təşkilat üçün bu, saf, işlənməmiş bir məkandır. “SEO” şirkəti səmərəli başlamaq üçün domen biliyin əldə olunmasına məsuliyyətli deyil. Uğurlu fəaliyyət üçün vizual düşünmə də vacibdir. PR piarmenləri yazı ilə işləyirlər, amma daha çox şəkillər, fotoşəkillər, qrafika və infoqrafikadan istifadə etməklə cəlbedici məzmunu inkişaf etdirmək və keys hekayələr demək lazımdır. Təcrübə göstərir ki, resursların daha çox layihələnməsi PR həllinin ümumi hissəsi olur. [9]

Susanna Simpsona görə, yeni ideyalar PR-də mühüm rol oynayır: “Bu, həmişə yeni sahə olmuşdur. Sirr - müştəriləri ən yaxşısı ilə təmin etmək üçün səmərəli texniki ustalığı biznes -biliklə birləşdirməkdədir”.

Nikol Van Scotenə görə, gələcək PR-lər KİV-də rahat sosial idarəetmə üçün sosial vasitə olacaq. “HootSuite”, “TweetDeck”, “CoTweet”, “Postling”, “Vitrue”, “SocialTALK” kimi alətlər onu müxtəlif platformalarda monitorinq edən müəssisələr üçün daha sadə və daha çox etməyə çalışır. Onun fikrincə, növbəti beş il ərzində heç bir mükəmməl alət idarəsi olmasa da çox güman ki, bir və ya iki aşkar lider meydana çıxacaq.

Hazırda PR peşəkarlarının işinin böyük hissəsi müştərilərə sosial medianın üstünlüklərini tədris etməkdən ibarətdir. Amma bu sahədə çətinliklər də mövcuddur (məsələn, müştərinin sosial medialardan investisiyalar almasındakı çətinliklər). Getdikcə daha çox müstəqil PR peşəkarı öz məsləhətçilərini yetişdirir və onlar məsləhət verməkdə cəmiyyətin tələbatını daha dolğun ödəyirlər. Sosial media bu münasibətlərin daşıyıcısıdır. Məsələn, “WordCove” şirkətinin yaradıcısı Luann Glovacz, müstəqil PR-lə bağlı qeyd edir ki, Ostin şəhərindəki mütəxəssislərlə dəyərli iş əlaqələrini “Twitter” və “Facebook” vasitəsilə mümkün etmişdir. Bununla o, daha geniş ərazidə məqsədli fəaliyyət imkanı əldə etmiş, əmək haqqını özündə saxlamış, pula və vaxta qənaət etmişdir.

PR peşəkarlarının hansı alətlərdən istifadəsindən asılı olmayaraq KİV nümayəndələri ilə əlaqə yaratmaqda insan faktoru əsas rol oynayır. Mütəxəssislər razılaşırlar ki, sosial media və PR arasındakı əlaqələrin möhkəmlənməsi üçün şəxsi münasibətlər hər zaman rol oynayacaq.

“Griffin Technology” şirkətinin sosial media koordinatoru Deyv Delani izah edir ki, bu gün KİV-lə əlaqələrdə təkcə press-reliz göndərilmir, həm də sosial mediada məlumatlar daha geniş istifadə olunur. Press-pelizlə əlaqə aktuallığını saxlayaraq daha çox insanları cəlb edir. Agentliyin sosial mediadan istfadəsinə Xofman belə münasibət bildirir: Mütəmadi olaraq sosial mediadan jurnalistlərlə və müştərilərlə əlaqədə (vaxtın 20%-i) istifadə edilir, qalan 80 % jurnalistlər

bloqqerlərə sərf edirlər. Yəni, vaxtın çox hissəsi müştərilərin işgüzar fəaliyyət qurmasına sərf edilir. [10]

Əksəriyyət sosial medianın uzun və qısamüddətli təsirini qiymətləndirir və onun nə çatdıra bildiyini, onun necə yoxlanıldığını və investisiya gəlirinin ölçülməsini və nəzərə alınmalı olan riskləri başa düşür. Əslində gələcəkdə sosial media fəaliyyətinin planlaşdırılması marketinq və siyasi kommunikasiyaların hər hansı strateji elementini özündə əks etdirməlidir. Əsas sahələrə isə məqsəd və vəzifələrin qoyuluşu; auditoriyaların müəyyən edilməsi; anlayışların toplanması; resursun müəyyən edilməsi; prinsiplərin yaradılması; idarəetmə və təhlükəsizlik; məzmunun yaradılması; sosial-siyasi platformaların idarə edilməsi; uğurun ölçülməsi və qiymətləndirilməsi; davamlı bilik və qiymətləndirmə vasitəsinin yaradılması aid edilir.

Araşdırmaya yekun vurub aşağıdakı nəticələrə gəlmək olar:

- Sosial media planında məqsədlərin yerinə yetirilməsinin ölçülməsi yolları dəqiq tapılmalı və inkişaf etdirilməlidir;
- Ümumilikdə sosial medianın hüquqi bazası təkmilləşməlidir;
- Sosial media idarəçiliyi təhlükəsizliklə bağlı problemləri nəzərə almalıdır;
- Sosial mediada əsas strategiya yaranan yeni təhlükələrin və risklərin dərhal aradan götürülməsi üçün resurslarla bağlı diqqətli olmalı və nəzarət etməyi bacarmalıdır;
- Sosial medianın ölçü yanaşması ilkin məqsədlərlə münasibətdə istifadə edilən ilkin ölçüləri tətbiq etmək üçün diqqətli olmalıdır;
- Sosial media fəaliyyəti ilə təqdim olunan dəyərə daha dəqiq və etibarlı qiymət vermək üçün səlahiyyət təhlili kimi vasitələrdən istifadə edilməlidir;
- Sosial medianın getdikcə güc mərkəzlərinə öz siyasətlərini qurmaq üçün informasiyaların əldə edilməsi prosesində qismən ənənəvi medianı əvəz etməsi nəzərə alınmalıdır;
- Sosial mediadan PR-də istifadə zamanı press-reliz yazılarkən məlumatların sosial mübadilə yolu ilə göndərilməsi vasitələri tapılmalı; müştərilərin cəlb edilməsi ətrafında sosial kampaniyaların yaradılmalı; linkedində çap olunmaq üçün rəhbərlərin fəallığı artırılmalıdır;
- Sosial medianın inkişafı nəticəsində press-relizlər - qısa məlumatın istinad mənbəyi ilə efirə veriləcəyi videoformatda, məlumatların daha qısa və daha məqsədyönlü xarakter daşıması və KİV-dəki geniş məlumatların istifadə qaydasından asılı olması kimi təkamülü gözləniləndir;
- Gələcəkdə sosial medialar geniş diapazonlu hədəf auditoriyasının cəlb edilməsi üçün platformalarını daha da təkmilləşdirməlidir;
- Şirkətlərin uğurlu fəaliyyəti üçün vizual düşünmə zəruridir.
- Gələcək PR-lərin KİV-də rahat sosial idarəetmə üçün sosial vasitə olması qəbuledilləndir;
- Müstəqil PR məsləhətçiləri məsləhət verməkdə cəmiyyətin tələbatını daha çox ödəməkdədirlər. Sosial media bu münasibətlərin daşıyıcısıdır;
- Sosial mediada tarixən mühüm olmuş və bu gen də mühüm olan insan amilidir.

## ƏDƏBİYYAT


1.http://www.cipr.co.uk/sites/default/files/CIPR%20social%20media%20best%20practice%20guidance%202011_1.pdf

2. http://www.cipr.co.uk/sites/default/files/code_of_conduct.pdf

3. http://www.amerikaninsesi.org/content/us-tvitter-diploma cy-1-07-2011-136871168/725925.html (07.01.2012)/ ABŞ-ın Tvitter diplomatiyası

4. Meqqi Peterson. Social-media-in-public-relations http://www.socialmediaexaminer.com/social-media-in-public-relations/

5. Erica Swallow. The Future of Public Relations and Social Media http://mashable.com/2010/08/16/pr-social-media-future/

6.Bui Vinh. The future of social media and PR http://www.academia.edu/4333081/The_future_of_social_media_and_PR)

7.Tye Larry, The Father of Spin: Edward L. Bernays and the Birth of Public Relations, 2002, 290 p.

8. http://www.remarxmedia.com/
9. Daney Parker+, Editor, PR moment.com.http://www.prmoment.com/2924/the-modern-pr-agency.as
10. http://www.academia.edu/4333081/The_future_of_social_media_and_PR
11. (http://www.remarxmedia.com/#sthash.r145WY4P.dpuf)
12. Leah Cassidy, Murdoch University Kate Fitch. Beyond the Catwalk: Fashion Public Relations and Social Media in Australia. Asia Pacitic public relations journal Vol. 14, No. 1 & 2 p, 1-15

**ABSTRACT**

**Rahimzade Vugar**

**Social media and public relations: real situation and prospective development**

Social media allow us to reach out to people through the existing or developing platforms. However, although social media provide us 24 hour opportunity to reach out to people, they also pose certain threats. While using socal media, PR specialists should keep a watchful eye on the growing threat of cybercrimes.

The growing amount of time used by all individuals in social media puts more responsibility on organizations to better realize social media`s contribution to communications and organizational efforts.

Currently social media is gradually replacing traditional media as a source of information for power centers to build their policies. For example, Spokesperson for the United States Department of State Victoria Nuland is now responding to questions from people from all over the world through Twitter, rather than from journalists. The State Department created “AskState” account in Twitter. The questions given to Victoria Nuland are immediately translated into 10 languages – Arabic, Chinese, English, Persian, French, Hindu, Portuguese, Russian, Spanish and Urdu – and posted on social networks as part of the US` plans of expansion of diplomacy. The State Department made the use of advanced technologies a core principle of its foreign policy. It has 193 accounts in social networks, with 100 of them managed by the U.S. embassies across the world.

**РЕЗЮМЕ**

**Рагимзаде Вугар**

**Социальне медиа и связи с общественностью:
реальное положение и перспективное развитие**

Социальне медиа позволяют нам посредством имеющихся и только что развивающихся платформ непосредственно выйти на людей. Социальные медиа, наряду с возможностями круглосуточно выходить на людей, создают также угрозы. Используя социальные медиа, специалисты-практиканты PR, должны быть бдительны против возрастающей угрозы электронного преступления.

Постоянно возрастающий объем времени, расходуемый всеми индивидуумами, пользующимися социальными медиа, возлагает на организации больше ответственности для лучшего понимания вклада, который они вносят в цели общения и организации.

В настоящее время социальные медиа частично стали заменять традиционные медиа в процессе получения силовыми центрами информации для построения своей политики. К примеру, в последнее время пресс-секретарь Государственного департамента США Виктория Нуланд принимает вопросы не от представителей прессы, а через «Twitter» со всего мира. Для этого Государственный департамент создал в «Twitter» счет «AskState» (государственный опрос). Кроме того, задаваемые Виктории Нуланд вопросы оперативно переводятся и отправляются в сеть социальных медиа на странице «Twitter» Государственного департамента на 10 официальных языках – арабском, китайском, английском, персидском, французском, хинди, португальском, русском, испанском и урду, что реализуется как часть плана расширения американской дипломатии. Государственный департамент США установил использование новых технологий как основную часть своей внешней политики во всем мире. Государственный департамент даже обладает в сетях

социальных медиа 193 различными счетами, из которых 100 принадлежат посольствам в отдельных странах.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: Hüquq üzrə fəlsəfə doktoru, dosent Y.Hüseynov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**

**YUSİF HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:18**

# "MOLLA NƏSRƏDDİN" VƏ AZƏRBAYCANÇILIQ

**Açar sözlər:** *Azərbaycançılıq, maarifçilik, fəlsəfi-etik, ana dili*
**Key Words:** *Azerbaijan ideology, Enlightment, philosophical-ethical, mother tongue*
**Ключевые слова:** *Азербайджанская идеология, просветительство, философско-этический, родной язык*

Azərbaycançılıq ideologiyası öz mənşəyinə görə tarixən qədim və orta əsrlərə gedib çıxsa da, onun təşəkkülü XIX əsrin ortalarından üzü bəri Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi və digər mütəfəkkir ədiblər ilə başlayaraq XX əsrin əvvəllərinə doğru inkişaf etmişdir.

XIX əsrin sonları – XX əsrin əvvəllərində maarifçilik, realizm və romantizm məcralarında təkamül edən azərbaycançılıq XX əsrin 70 illik təkpartiyalı kommunist rejiminə söykənən sovet imperiyası dövründə xalqın əsas müqavimət gücünə, əsrin sonunda müstəqil Azərbaycanın istiqlal məfkurəsinə çevrildi.

AMEA-nın müxbir üzvü Ziyəddin Göyüşov yazırdı: "Cəlil Məmmədquluzadə tərəfindən nəşr olunan «Molla Nəsrəddin» jurnalı H.M.Zərdabinin nəşr etdiyi "Əkinçi" qəzetinin başladığı işi yeni şəraitdə davam etdirərək köhnə feodal məişətinə, mürtəce adət və ənənələrinə, tüfeyli həyat tərzi keçirən mülkədarlara, tacirlərə, burjualara, yalançı və hiyləgər ruhanilərə qarşı müntəzəm və ardıcıl mübarizə aparmışdır" (1, 211).

Görkəmli Azərbaycan filosofu Ənvər Əhmədov göstərirdi ki, "Azərbaycanda inqilabi-demokratik maarifçiliyin ən görkəmli nümayəndəsi istedadlı jurnalist və yazıçı C.Məmmədquluzadə idi. O, birinci rus inqilabının ideyalarından ruhlanaraq 1906-cı ildə təkcə Zaqafqaziyada deyil, həm də bütün Yaxın Şərqdə və Orta Asiyada böyük şöhrət qazanmış məşhur "Molla Nəsrəddin" satirik jurnalının əsasını qoydu. Öz ətrafında inqilabçı ziyalıları sıx birləşdirən "Molla Nəsrəddin" dinə, geriliyə, mütləqiyyətə, Şərq istibdadına qarşı və azadlıq, ictimai tərəqqi, demokratik respublika uğrunda geniş mübarizə aparırdı. Başqa sözlə, jurnalın özü bu ziyalıların bütöv bir nəslini yetişdirib tərbiyə etmişdir. Jurnal canlı şəkildə günün suallarına cavab verir, cari hadisələri kəskin şəkildə şərh edir, onların sosial-siyasi mahiyyətini üzə çıxarırdı. Jurnal özünün siyasi cəhətdən kəskin olan felyeton, hekayə, karikatura və epiqrammaları ilə mülkədar, kapitalist, tacir, ruhani və çar nazirlərini ifşa edir, mövhumatı, patriarxal məişəti və ailə münasibətlərini sərt şəkildə tənqidə məruz qoyurdu" (2, 255). Ə.Əhmədovun bu fikri dövrünə görə bəzi partiyalı-ideoloji və vulqar-sosioloji məqamları istisna etməklə "Molla Nəsrəddin"in fəaliyyətini çox dəqiq qiymətlə səciyyələndirir.

"Molla Nəsrəddin" Qafqazda və bütün Yaxın Şərqdə milli mənlik şüurunu oyatmağa nail oldu. "Molla Nəsrəddin"in qayəsi mürəkkəb ictimai təzadlar içindən tarixin gedişatını doğru təyin etmək və bunu Azərbaycan vətəndaşlarına göstərmək idi. O, XX əsr tarixinin yaranma prosesinin aynası oldu. M.Ə.Sabirin "Şairəm, əsrimin ayinəsiyəm" bəyanatı həmin qayənin poetik-fəlsəfi ifadəsi idi.

Professor Nizaməddin Şəmsizadənin dediyi kimi: "Tez bir zamanda mollanəsrəddinçilik bir jurnalın adından qoparaq bir məsləkin adına çevrilir: Mollanəsrəddinçilik – ictimai fikirdə azərbaycançılıq, ədəbi-bədii fikirdə realizm deməkdir" (3, 58).

Mollanəsrəddinçilər – Mirzə Cəlil, Ömər Faiq, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Nəzmi, Ə.Qəmküsar, M.S.Ordubadi, S.Mümtaz və başqa yazıçı, şair və publisistlər bu yolun sədaqətli davamçıları, inadkar mübarizləri olmuşlar. Mollanəsrəddinçilik – ana vətən, ana dili, azadlıq və demokratiya uğrunda mübarizə, yatan şüurları gülüşün qüdrəti ilə oyatmaq məsləki idi.

"Molla Nəsrəddin" həm ifşa, həm inkar edir, həm də nicat yolunu göstərirdi. Bu yolun adı milli birlik idi. Onun silahı "xalqı həyəcana gətirən ...doğru söz" idi. "Sözün doğrusunu danışmaq hünərdir!" – adi özünüifadə yox, yol və məslək harayı idi. Ə.Haqverdiyev yazırdı: "Birinci nömrə may ayının əvvəllərində əlimizə keçdi. Bu nömrə şəhər əhalisi arasında bomba kimi partladı... jurnalın Şuşa əhalisinə təsirini qələm təsvir etməkdə acizdir" (3, 59).

Mollanəsrəddinçilərin fikrincə, vətənpərvərlik ölkəni dağılmaz qalaya çevirən, xalqın dilini və mədəniyyətini xarici təcavüzdən qoruyub onların müstəqilliyini təmin edən çox mühüm bir hissdir. O, bu fikri xalqa çatdırmaq məqsədi ilə yazırdı: "Ey mənim qardaşlarım, nə qədər ki, millət, dil və vətən yolunda fəda olmağa biz qadirik, cəmi dünyanın tayfaları müttəfiq olub bizim üstümüzə hücum gətirələr biz yenə onların qabağında dayanıb dilimizi və vətənimizi mühafizə edə biləcəyik" (5, 59).

XX əsrin əvvəllərində “Molla Nəsrəddin” müstəmləkəçiliyə, imperiyaçılığa qarşı Azərbaycan və azərbaycançılıq uğrunda milli mübarizənin demək olar ki, ilk maarifçi-mədəni, sosial-etik və ədəbi-fəlsəfi abidəsidir. Jurnal milli istiqlal, hürriyyət uğrunda mübarizəni – ana dili və yeni əlifba uğrunda mübarizədən başladı. Elə ilk nömrələrindən (“Tiflis 7 aprel”, 1906, №1; “Bizim obrazovannılar”, 1906, №2 və s. felyetonlar) bu mübarizənin şahidi oluruq.

“Molla Nəsrəddin” jurnalı öz səhifələrində hər bir vətəndaşın varlığında vətəni – Azərbaycanı axtarırdı:

“Ax, unudulmuş vətən, ax yazıq vətən!

Dünyalar titrədi, aləmlər mayallaq aşdı, fələklər bir-birinə qarışdı, millətlər yuxudan oyanıb gözlərini açdılar və pərakəndə düşən qardaşlarını tapıb, dağılan evlərini bina etməyə üz qoydular.

Bəs sən hardasan, ay biçarə vətən?!

Dünya və Aləm dəyişdi, mənalar özgə təbir əxz eylədi... buna hamı qail oldu ki, vətən, vətən, vətən, dil, dil, dil, millət, millət, millət! ... Dəxi bu dairələrdən kənar bəni-noi-bəşər üçün nicat yolu yoxdur.

...Bəzi vaxt otururam və papağımı qabağıma qoyub fikrə gedirəm, xəyalata cumuram, özümdən soruşuram ki,

– Mənim anam kimdir?

Öz-özümə də cavab verirəm ki,

– Mənim anam rəhmətlik Zöhrəbanu bacı idi.

– Dilim nə dilidir?

– Azərbaycan dilidir.

– Yəni vətənim haradır?

– Azərbaycan vilayətidir.

Demək, çünki dilimin adı türk – Azərbaycan dilidir, belə məlum olur ki, vətənim də Azərbaycan vilayətidir.

– Haradır Azərbaycan?

– Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən, qalan hissələri də...» (8).

“Molla Nəsrəddin” Azərbaycan dilini bəyənməyib rus dilində danışanlara qarşı ardıcıl və amansız mübarizə aparırdı. Jurnal bu mübarizə prosesində xalqımızın ən geniş dairələrinin ictimai fikrini ifadə edirdi. Jurnal o dövrdə dil məsələsi ətrafında gedən şiddətli mübahisələrdə ən düzgün yol seçmiş, ictimai-demokratik ideyalarını dil sahəsində də həyata keçirmişdir. Jurnalda dərc edilən bədii və publisistik əsərləri geniş oxucu kütlələrinin, “müsəlman qardaşların” başa düşəcəyi bir dildə yazır, ana dilimizi inkar edənlərə və korlayanlara qarşı amansız çıxışlar edirdi.

O zaman, hər şeydən əvvəl, burjua mətbuatında və məktəblərdə, əslini danan bir qrup “ziyalılar”arasında yayılan farsçılıq, ərəbçilik, osmanlıçılıq meyllərinə qarşı sarsıdıcı zərbə vurmaq lazım idi. Canlı xalq dilinə əsaslanaraq fikirləri asanlıqla xalqa çatdırmaq, saf Azərbaycan dilini hər hansı bir təsirdən mühafizə etmək lazım idi.

Bu tarixi vəzifənin ağırlığını mollanəsrəddinçilər öz çiyinlərində daşıyırdılar. “Molla Nəsrəddin” jurnalının o dövrdə apardığı mübarizə Azərbaycan ədəbi dilinin yüksək inkişaf mərhələsinə çatmasına böyük kömək etmişdir.

Jurnalın tanınmış tədqiqatçısı Nazim Axundov yazır: “Azərbaycan dilini bəyənməyən, osmanlı, fars, ərəb, rus sözləri ilə qarışıq bir dildə yazan “ziyalılara” qarşı arasıkəsilməz və amansız mübarizə aparmaq vəzifəsi də mollanəsrəddinçilərin üzərinə düşmüşdü. Bu, jurnalın dil məsələsində göstərdiyi xidmətlərin qiymətini daha da artırırdı” (7, 110-111).

Mollanəsrəddinçilər vətənə ən yüksək və müqəddəs bir varlıq kimi baxaraq onu sevməyi təbii bir iş hesab edirdi. Onlar çox haqlı olaraq Vətən və xalq anlayışlarını qırılmaz bir vəhdətdə götürürdü: “Vətən də ibarətdir, vətəndaşlardan, yəni insanın öz millətindən”. Məhz ona görə də vətənpərvərlik dedikdə o, hər şeydən əvvəl, öz doğma xalqını, onun dilini, mədəniyyətini sevməyi nəzərdə tuturdu. Xalqı azad və xoşbəxt görmək mollanəsrəddinçilərin müqəddəs arzusu idi. Məhz buna görə də onlar xalqın rolunu heçə endirən, onu ən adi hüquqlardan məhrum edərək xoşbəxt olmasına imkan verməyən mütləqiyyət quruluşuna nifrət edirdilər.

“Molla Nəsrəddin” İrandakı Cənubi Azərbaycan fəhlələrini və onların şəxsində bütün Şərq zəhmətkeşlərini, birləşərək, xalqı, vətəni geri çəkən səbəblərə qarşı mübarizə aparmağa çağırırdı. O, xalqın xoşbəxtliyi uğrunda mübarizədə həlak olan vətənpərvərlərin xatirəsini əziz tutaraq yazırdı ki,

vətən yolunda namərd cəlladların hökmü ilə şəhadətə yetən qələm sahiblərinin və qeyri mücahidlərin pak ruhuna səcdə edirik.

"Molla Nəsrəddin" xalqın dilini onun varlığının ən mühüm şərti hesab edirdi. O, "Osmanlı dili", "Dili tutulub", "Dil", "Mustafabəy Əlibəyov", "Papaslar", "Meymunlar", "Qeyrət", "Bizim obrazovannılar", "Sirkə", "Şer" bülbülləri və s. bu kimi felyeton və hekayələrdə xalq dilini qəliz və anlaşılmaz əcnəbi sözlərlə doldurmağa çalışan irticaçıları ifşa etmiş, farsçılıq, ərəbçilik və osmanlılıq meyllərinə ağır zərbə endirərək, Azərbaycan dilinin paklığını qoruyub saxlamaqda çox böyük rol oynamışdır.

"Molla Nəsrəddin" öz oxucularını xalq dilini daha böyük məhəbbətlə sevməyə çağırır, Rusiya xalqlarına öz ana dillərində oxumaq və yazmaq imkanı verməyərək ruslaşdırma siyasəti aparan çar hökumətini və bu siyasətə haqq qazandırmağa çalışanları da kəskin ifşa etmişdir: "…Heç bir müsəlman məclisi olmayıb ki, orada bir obrazovannı müsəlman ayağa durub deməsin: "hökumət qoymayır məktəblərdə ana dilimizi öyrənək"…

Tutaq ki, hökumət qoymur məktəblərdə ana dilimizi öyrənək. Tutaq ki, bunu hökumət qoymur. Bəs ana dilimizi istəməyi, ana dilimizə məhəbbət etməyi, ana dilimizi xoşlamağı kim qoymur?...

Bəs kim bizi öz dilimizdən utanmağa və öz dilimiz ilə danışmağı ar bilməyə vadar edir". (6)

"Molla Nəsrəddin" təkcə ana dili uğrunda deyil, həm də dilimizə uyğun olan yeni əlifba naminə mübarizə aparırıdı. Məsələn, jurnalın 28 aprel 1906-cı il tarixli dördüncü nömrəsində çox qarışıq və yaraşıqsız «şikəstə» xətt ilə yazılmış bir məktubun şəkli verilmişdir. "İdarəmizin əhvalatından bir neçə söz" felyetonunda isə redaksiya tərəfindən göstərilirdi ki, məktubları "qoyuruq qabağımıza və zərrəbin vasitəsilə başlayırıq nöqtələrini götürüb öz yerlərində düzməyə, yainki qəzet istəyənə karet, kürək istəyənə kürk və qurbağa istəyənə məcmuə göndəririk" (9).

Jurnal "Dil" felyetonunda əski əlfba ilə "Fatmanın oğlu oldu" cümləsini "Fatmanın oğlu öldü" kimi oxunmağın necə bir anlaşılmazlıq yaratdığını göstərirdi (10).

Hər iki felyetonda ərəb əlifbasının imla cəhətindən törətdiyi çətinliklərə işarə edilirdi.

Mollanəsrəddinçilərdən əvvəl və sonra da azərbaycançiliq sadəcə bir maarifçilik səviyyəsində, mədəni istiqamətdə müdafiə və təbliğ edilən fəlsəfi-etik, sosial-kultural ideyalar məcmusu idi. Azərbaycançılığın siyasət, dövlətçilik səviyyəsində bir ideologiya kimi qəbul edilib əməli şəkildə tətbiqi isə ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən onun təşəbbüsü və rəhbərliyi ilə 1991-ci il dekabrın 16-da Ali Məclis dekabrın 31-ni Dünya Azərbaycanlılarının Birliyi və Həmrəyliyi günü elan etmişdir. Bu qərar və təklifə uyğun olaraq 1991-ci il dekabrın 25-də "Azərbaycan Respublikasının Milli Şurası qərara alır:

Hər il dekabr ayının 31-i bütün dünyada yaşayan azərbaycanlıların həmrəklik günü elan edilsin".

Ulu öndər Heydər Əliyev dünya azərbaycanlılarının həmrəyliyinin ilkin şərtini ölkə daxilindəki xalqın həmrəyliyində görürdü. Məhz buna görə də o, 1993-cü il dekabrın 31-də xalqa yeni il təbrikində bu ideyanı bəyan etdi. 1994-cü ildən başlayaraq Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi hər il dekabrın 31-i Dünya azərbaycanlılarını həmrəylik günü münasibətilə dünya azərbaycanlılarına müraciət etmiş, onları birliyə çağırmış, dünya, eləcə də Azərbaycanda gedən proseslər haqqında onlara məlumat vermiş, qarşılarında duran vəzifələri müəyyənləşdirmişdir. Prezident dünya azərbaycanlılarının qurultayının keçirilməsi haqqında sərəncam verdi.

2001-ci ilin noyabrın 9-10-da Dünya azərbaycanlılarının I qurultayı keçirildi. İlk dəfə Ulu öndər azərbaycançılığın bir anlayış kimi məzmun və mahiyyətini açıb göstərdi, onu Azərbaycanın milli dövlət ideologiyası kimi təsdiq etdi: "Əziz həmvətənlər! Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Azərbaycan dilinin inkişafı haqqında bizim qəbul etdiyimiz geniş qərar məhv bu məqsədi daşıyır. Bir Azərbaycanın latın əlifbasına keçməsi haqqında qərar qəbul etdik. İndi Azərbaycanda hamı, bütün dövlət orqanları yalnız latın əlifbasından istifadə edir. Buda bizim milliliyimizi, azərbaycançılığımızı göstərən çox mühüm bir amildir. Biz bundan sonra da Azərbaycan dilinin inkişaf etdirilməsi üçün səylərimizi davam etdirəcəyik" (11).

Ümummilli liderin bu dahiyanə fikirləri ictimai, siyasi, elmi, ədəbi mühitdə bir sıra əsərlərin yaranmasına təkan verdi: akademik Ramiz Mehdiyevin "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi",

“XXI əsrdə milli dövlətçilik”, “Azərbaycanda siyasət: dünən, bu gün, sabah”; AMEA-nın müxbir üzvü Səlahəddin Xəlilovun “Heydər Əliyev və azəbaycançılıq məfkurəsi”; akademik İsa Həbibbəylinin “Azərbaycançılıq məfkurəsi yollarında”, “Möhtəşəm azərbaycançılıq dərsliyi”; Sona Vəliyevanın “Azərbaycançılıq: milli ideologiya və ədəbi-estetik təlim kimi” və “Milli dövlətçilik hərəkatının yüksəlişi və xalq cümhuriyyəti dövründə azərbaycançılıq ideyası”; xalq yazıçısı Anarın “Azərbaycançılıq haqqında düşüncələr”; Yaşar Qarayevin “Milli “mən” şüuru və etnik yaddaş – azərbaycançılıq”; Azad Nəbiyevin “Azərbaycançılıq – estetik dəyərdən milli ideoalogiyaya”; Nizami Cəfərovun “Azərbaycanşünaslığa giriş”; Əlikram Tağıyevin “Milli ideya və milli ideologiya”; Asif Atanın (Əfəndiyevin) “Azərbaycançılıq – türkçülük birliyi”; Akif Hüseynlinin “Ədəbiyyat və ideologiya”; Rəhim Əliyevin “Azərbaycançılıq: dünən, bu gün, sabah”; Nazif Ələkbərlinin “Türkçülük, yoxsa azərbaycançılıq?!” və s. bu kimi əsərlər çap olunmuşdur.

Tanınmış politoloq Qafar Əliyev çox doğru olaraq yazır: “Müstəqillik dövründə Heydər Əliyev azərbaycançılığın bayraqdarı olmuş, müstəqil dövlətimizin simvolu olan üçrəngli bayrağımızı BMT-nin, Avropa Şurasının və digər beynəlxalq təşkilatların və dövlətlərin ən görkəmli yerlərində qaldırmış və Azərbaycanın himnini dəfələrlə səsləndirmişdir”. (12, 292)

Beləliklə, akademik İsa Həbibbəylinin göstərdiyi kimi, “mollanəsrəddinçilik davam edir. Müasir Azərbaycan ədəbiyyatında tənqidi-realist meyllər, satira, vətəndaşlıq cəsarəti, dərin milli düşüncə, Azərbaycançılıq məfkurəsi yaşadıqca “Molla Nəsrəddin” ənənələri də, mollanəsrəddinçilik təlimi də yaşayacaqdır. Azərbaycan ədəbiyyatının, mətbuatının, ictimai fikrinin və karikatura sənətinin son yüz ildəki bütün əsas inkişaf istiqamətlərinin hamısında Mirzə Cəlil irsindən və “Molla Nəsrəddin” ənənələrindən “bir duz” vardır. Əgər indi “Molla Nəsrəddin” jurnalından keçən əsrin əvvəllərinə aid olan tarixləri pozub, əvəzinə hazırkı tarixləri yazsaq, bu nəşrləri sanki yeni mərhələnin “Molla Nəsrəddin”i kimi qəbul etmək mümkündür” (13, 645).

Biz də akademik İsa Həbibbəylinin bu dəyəli fikrini müasir ictimai-siyasi proseslərdən və ədəbi-elmi faktlardan dərin müşahidə və təhlilə doğru aparan ümumiləşdirici hökm səviyyəsində qəbul edirik.

## ƏDƏBİYYAT


1. Göyüşov Z. Azərbaycan maarifçilərinin etik görüşləri (XIXəsrin ikinci yarısı). Redaktorları: akad A.O.Makovelski, F.Q.Köçərli, Bakı, Azər.SSR EA nəşriyyatı, 1960, 212 s
2. Э.М.Ахмедов. Философия Азербайджанского просвещения. Научный редактор академик Ф.К.Кочарли, Баку, Азернешр, 1983, 291 с
3. Nizaməddin Şəmsizadə. Azərbaycançılıq. Redaktoru: Kamal Talıbzadə, Bakı, “Nurlan” NPM, 2006, 192 s
4. Cəlil Məmmədquluzadə (tərtib edəni və ön sözün müəllifi İ.Həbibbəyli), Naxçıvan, «Qeyrət» nəşriyyatı, 2002, 650 səh.
5. Ramazanov Fərrux. Cəlil Məmmədquluzadənin etik görüşləri, Bakı, Azərnəşr, 1969, 66 s
6. “Molla Nəsrəddin” № 11, 1906
7. Nazim Axundov. “Molla Nəsrəddin” jurnalının nəşri. Bakı, Azərnəşr, 1959, 260 s
8. “Molla Nəsrəddin” jurnalı, 1917, № 24
9. “Molla Nəsrəddin” 5 may, 1906, №5
10. “Molla Nəsrəddin” 12 may, 1908, №19
11. “Xalq qəzeti/”, 10 noyabr, 2001, №258
12. Qafar Əliyev. Müasir Azərbaycanın banisi, xilaskarı, qurucusu, Elmi redaktor: Əli Məmmədəli oğlu Həsənov, Bakı, “Şəms”, 2006, 520 s
13. İsa Həbibbəyli. Ustad Mirzə Cəlil Məmmədquluzadə, s. 38-104; Mirzə Ələkbər Sabirimiz, s.105-122; Azərbaycançılıq məfkurəsi yollarında, s. 612-625; “Molla Nəsrəddin” ədəbi məktəbi və mollanəsrəddinçilik. s. 634-645. “Ədəbi-tarixi yaddaş və müasirlik” kitabında, Bakı, “Nurlan”, 2007, 696 səh


## ABSTRACT


**Yusif Husseinov**


**“Molla Nasraddin” and the Azerbaijan ideology**


The paper is about the Azerbaijan ideology supported by “Molla Nasraddin”, the satiric magazine around which were closely united such outstanding writers, poets and publicists like as Mirza Jalil, Sabir, Omar Faig, Ordubadi, Hagverdiyev and so on at the beginning of the $20^{th}$ century. It is

emphasized that “Molla Nasraddin” paid special attention to such notions as Azerbaijan, the name of the territory where our people live, the Azerbaijani language that we speak and usage of the mother tongue, national press, education, culture, art etc. as well.

The journal “Mollah Nasraddin” fought against those who did not approve the Azerbaijan language and spoke Russian continuously and consistently. The journal expressed the social opinion of the widest circles of our people in the struggling process. The journal chose the right way in the severe interviews for the language problem in that period and realized social-democratic ideas in the field of language. It published the artistic and publicistic works in such a simple language that great masses of readers, “Moslem brothers” could understand them and reported severely against those who denied and spoiled our mother tongue.

The representatives of Mollah Nasraddin school carried the responsibility of this historical duty. The struggle by the journal of “Mollah Nasraddin” at that time contributed the Azerbaijan literary language greatly to reach its high developmental period.

**РЕЗЮМЕ**

**Юсиф Гусейнов**

**«Молла Насреддин» и Азербайджанская идеология**

Статья об Азербайджанской идеологии, поддерживаемой сатирическим журналом «Молла Насреддин», вокруг которого в начале 20-го века тесно сплотились такие выдающиеся писатели, поэты и публицисты, как Мирза Джалил, Сабир, Омар Фаиг, Ордубади, Ахвердиев и другие. Подчеркивается, что «Молла Насреддин» уделял особое внимание таким понятиям, как Азербайджан, название территории, где наш народ живет, азербайджанский язык, на котором мы говорим и так же таким вопросам, как употребление (использование) родного языка, национальная пресса, образование, культура, искусство и т.д.

«Молла Насреддин» вел последовательную и безжалостную борьбу против тех кто не говорил на родном , а использовал русскую речь.

Журнал , в процессе этой борьбы отражал общественную мысль самых широких ругов нашего народа.

В борьбах, шедших в то время вокруг языковой проблемы, журнал выбрал правильный путь и внедрил демократические идеи в жизнь и в языковую сферу. Художественные и публистические произведения, напечатанные в журнале , написанные в языке понятном мусульманским братьям» и широкому читательскому кругу, жестоко выступал против тех , кто отрицал и портил родной язык . В это тяжеле историческое время молланасреддинцы несут на своих плечах отвенственность за чистоту родного языка.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**

**BAĞIR BABAYEV**

*Naxçıvan Dövlət Universiteti*

*Bağırbabayev59@mail.ru*

**UOT: 343**

# XX ƏSR (1900-1920) AZƏRBAYCAN DEMOKRATİK FİKRİNDƏ XALQIMIZIN MİLLİ KİMLİK PROBLEMİ

**Açar sözlər:** *demokratik fikir, milli varlıq, maariflənmək, ana dili, milli kimlik*
**Key words:** *democratic opinion, national revival, enlightenment, native speech, national identity*
**Ключевые слова:** *демократическая мысль, национальное возрождение, просвещенность, родная речь, национальный принадлежность*

XXI əsrdə qloballaşan dünyada xalqların, millətlərin milli özünəməxsusluğu, milli- mənəvi və əxlaqi dəyərlərin qorunub saxlanılması uğrunda mübarizə gedir. Eləcə də, minillər boyunca qorunub saxlanılan bu dəyərlərin, sərvətlərin sarsılması, məhvdən xilası uğrunda çarpışması baş verir. Halbuki XX əsrin əvvəllərində dövrün obyektiv reallıqlarında tamamilə başqa bir mənzərə hakim idi. O zaman çar Rusiyasının müstəmləkə əsarətində yaşayan və ən çox əzilən türk-müsəlman xalqları idilər. Bu mənada müstəmləkə halında olan xalqımızın milli- azadlıq mübarizəsində onun vahid milli ideologiya ətrafında birləşməsi vacib bir amil idi. Odur ki, çar Rusiyasının əhalisinin böyük əksəriyyətini türk- tatar xalqları təşkil etdiyindən, türkçülük ideyasının qəbul edilməsi Qafqaz- Azərbaycan müsəlmanlarının da yeni bir dövlət qurması yolunda mühüm bir addım olacaqdı.

XX əsrin başlanması ilə Azərbaycanın sosial-siyasi və fəlsəfi fikir tarixində yeni bir mərhələ -yeni bir istiqamət yaranmış oldu. Azərbaycan demokratik fikri mənsub olduğu xaqın ən vacib istək, arzu və ideallarını ifadə etməyə başladı. O dövrdə xalqımızın milli mənlik şüuru, milli özünüdərki müstəmləkəçi imperiya maraqlarından doğan məqsədlərə uyğun şəraitdə, qəsdən ləngidilmiş, zamanın inkişaf tələblərindən geridə saxlanılmışdı. Lakin XX əsrin gəlişi onun yolundakı bütün maneələri yıxmaqla mühüm bir yeniliyə imza atmış oldu. Ona görə də xalqımızın fəlsəfi və ictimai fikir tarixində milli təfəkkür, milli oyanış mərhələsi olan bu yeni dövr öz məna və mahiyyətini açıqca ortaya qoydu. Beləliklə də, o, zamanın inkişaf sürətindən və tələblərindən cox geridə saxlanılmış bütün xalqlara istisnasız olaraq, siyasi oyanış, siyasi dirçəliş, milli müstəqillik uğrunda mübarizə əhval- ruhiyyəsini, eləcə də, azadlıq, dövlət müstəqilliyinə sahib çıxmaq haqqını gətirmiş oldu.

XX əsrin əvvəllərində Azərbaycan xalqının milli oyanışı və siyasi dirçəlişi başlandı. Məhz bu mənada millətimizin milli- mənəvi dəyərlərini özündə cəmləşdirən, ümumilikdə isə, onun milli kimliyini, doğma dilini, dinini, mənəvi aləmini özündə əks etdirən, əlaqələndirən, sonradan bu əlamətlərin bəşəri dəyərlərdə ifadə olunmasına zəmin yaradan XX əsr yeni bir ideyanın yaranmasına və getdikcə formalaşmasına münbit şərait hazırlamış oldu. Xalqın milli şüurunun oyanışı, onun türk oğlu türk, müsəlman olması, bir qədər keçdikdən sonra isə çağdaşlığı-müasirliklə ayaqlaşmağa başlamaq istəyi- onun milli kimliyinin, milli varlığının milli şüurda ifadəsini tapmasına böyük ehtiyac yaratmış oldu. Bu, təbii bir hal sayılırdı, çünki "kim olursa olsun, insan bir nəfər, bir millət və ya bir fikri- əməl uğrunda o vaxt can yandırır ki, ona o zaman aşiq olur ki, onu yaxından tanıyıb ürəkdən sevsin, yoxsa quru və yalançı göstərişlərlə arada məhəbbət, eşq deyil, bayağı dostluq belə olmaz "(1,234).

XX əsr dövrün, zamanın tələblərini irəli sürməklə yeniliyə, yeniləşməyə çağırışı səsləndirdi, vətənə, dilinə, milli kimliyinə sahiblənməyi, dini inanc və etiqadlarına sayğılı yanaşmanın vaxtının artıq çoxdan gəlib çatdığını xalqa anlatmış oldu. Beləliklə də, bunların əsrin- zamanın tələbi olması fikri ortaya qoyulmuş oldu. Yəni, XX əsr öz gəlişi ilə yeni bir ideya irəli sürüb, daha çox ehtiyac duyulan güclü bir ideologiyaya keçid yaratdı. Bütün bunlar isə, xalqın şüurunun inkişafında yeni bir mərhələdən xəbər verirdi və Azərbaycan məkanında milli məfkurə tarixində başlıca istiqamət olan milli ideologiyanın özünü qabarıq göstərməsi demək olacaqdı. XX əsr Azərbaycan demokratik fikir nümayəndələrinin əvəzsiz xidmətləri sayəsində milli şüurun, milli özünüdərkin oyanışı prosesi başlandı. Xalqların milli özünüdərkində və milli məfkurənin yaranmasında, milli maarifçilik hərəkatının inkişafında onların rolu olduqca çox böyükdür. Bu mərhələdə, Rusiyanın işğal etdiyi Azərbaycanda apardığı antitürk siyasətinin nəticəsində xalqın milli kimliyi unutdurulmuşdu. Odur

ki, milli şüurun formalaşması yolunda ilk köməkliyin göstərilməsi üçün ona milli kimliyinin-millətin kim olmasının aydınlaşdırılması çox vacib idi. Türkçülük- türk kimliyi, türk olduğunu bilmək- bu, milli şüurun, milli özünüdərkin başlanğıcı yolunda atılacaq ilk addım olmalı idi. Çünki xalqların milli- istiqlal savaşına münbit zəmin yaradan yeni əsrin gəlişi ilə "kiçik millətlərin, xüsusilə məhkum millətlərin öz varlıqlarını, öz hüquqlarını saxlamaq iddiası ilə bu qədər qan tökülən bir vaxtda özümüzü tanımazlıq bəlası, dərin düşünülürsə, qara yaradan da, taun çibanından da daha acılı və daha zərərlidir "(1,233).

Müstəmləkəçi imperiya bu xalqa adını, kimliyini unutdurmuşdu. Ən yaxşı halda, o," Qafqaz müsəlmanı" adlandırılır, adına bəzən "sünni","şiə", bir çox hallarda isə "tatar" deyilirdi. XXəsrin əvvəllərində artıq milli şüuru parçalanmış Azərbaycan türkü türkçülük, islamçılıq ətrafında-əsasında formalaşmağa başlamışdı. Beləliklə, məhz türkçülük- azərbaycançılıq milli şüurun formalaşmasına təkanverici amil oldu. Halbuki Rusiya imperiyası oradakı türk xalqlarının, o cümlədən bütövlükdə Qafqazdakı türklərin ruslaşdırılması, xristianlaşdırılması siyasətini yeridirdi. Çünki çar Rusiyasının gizli niyyəti belə idi ki, imperiya əsarətində yaşayan türk xalqlarının vahid bir millət, dil və dini inanclarını aradan qaldırsın və parçalasın. Bu mənada hələ XIX əsrin ortalarından imperiya hökuməti sünni və şiə ayrımçılığını qəti surətdə həyata keçirir, hətta maarif sahəsində bunu açıqcasına büruzə verirdi.

Rusiya əsarətində qalmış xalqın milli oyanışı, bu əsarətdən qurtuluşu yolunda ilkin vacib addım onun maariflənməsi, məktəblər açılması idi. Xalqa çarizmin müstəmləkə siyasətinin anladılması əsas vacib şərt idi. Lakin bir çox obyektiv və subyektiv səbəblər nəinki buna münbit şərait yaratmırdı, həmçinin də, bunlara daha çox maneələr saxlamaqda idi. Xalq işıqlı sabahları yolunda onların apardıqları mübarizənin məqsədini və nəticələrini anlaya bilməmişdi. Burada da çarizmin müstəmləkəçi ruslaşdırma siyasəti təsirsiz ötüşməmişdi. Milli dilə və milli mədəniyyətə sahiblənməyin yolu yenə də məktəblər açılmasından keçməli idi. Çünki Rusiya şovinist imperiya siyasəti xalqın milli kimliyini, milli dilini, mədəniyyətini, şanlı tarixini dərindən anlamağa mane ola bilmişdi. İmperiya siyasəti bu işdə türkləri ruslaşdırmağa və rus kimi düşünməyə vadar etməyi belə unutmamışdı.

O zaman xalqın milli– mənəvi tərəqqisinə təkan verəcək demokratik fikir türk- azərbaycanlı kimi, milli şüurun daşıyıcısı olaraq, demokratik ideallara söykənərək, xalqı azadlıq və müstəqillik uğrunda mübarizəyə səsləyirdi. Belə bir zamanda "böylə bir çağda insanın öz soy və millətini tanımamaq, daha doğrusu "özünü" bilməmək ən böyük günahlardan, silinməz ləkələrdən biridir "(1,233). Çünki bunun başlıca səbəbi Rusiyanın Azərbaycanın şimalında apardığı qatı şovinist imperiya siyasətinin antitürk siyasəti ilə üst-üstə düşməsi olmuşdu. Rus çarizmi millətin özünüdərki prosesinə, milli şüurun oyanmasına qarşı yetərincə əngəllər, maneələr törətməkdə davam edirdi. Xalqımız milli kimliyindən xəbərsiz qalmaqda idi, onun kimliyi kölgə altında saxlanılırdı. Onun dini kimliyi qəsdən, bilərəkdən önə çıxarılırdı ki, milli kimlik tamamilə yaddaşlardan silinsin və zaman- zaman unutdurulsun. Bu isə XX əsr demokratik fikrində "silinməz ləkələrdən biri" hesab edilir ki, "oyla yılancıq (qanqrena) yarasıdır ki, millətimiz vücudunu, türklük varlığını yavaş-yavaş gəmirir, yox edir" (1,233).

Milli varlıq- milli kimlik problemi XX əsrin əvvəllərindəki Azərbaycanın sağlam əqidəli ziyalılarının xalqı vahid bir ideologiya ətrafında birləşdirməyə çalışması ilə spesifik xüsusiyyətlər almış, özünəməxsus, orjinal bir inkişaf yoluna çıxmışdır. O, xalqı sosial zülmə, müstəmləkəçiliyə, milli əsarətə qarşı ayağa qalxmağa çağırmış, beləliklə də, xalqın milli tərəqqiyə nail olması yolunda əvəzsiz xidmətlər göstərmişdir. Məhz XX əsrin əvvəlləri xalqımızın fəlsəfi fikir tarixinin tərəqqisi və təkamülünün təmin edildiyi bir dövr kimi, xalqın milli özünüdərki prosesi ilə qırılmaz əlaqə təşkil etmişdir. Milli kimliyinin, milli dilinin, adət-ənənələrinin, mənəvi- əxlaqi sərvətlərinin əridilməsinə- assimilyasiyası siyasətinə qarşı dayanan, fikirdə və əməldə barışmazlıq nümayiş etdirən demokratik fikir nümayəndələri milli varlığın təməl prinsiplərini yaratmış oldular. O ideyanın amalı, qayəsi, xitmət etməli olduğu məqsədlər açıqlanmış oldu. Belə alovlu əqidə-məfkurə sahibləri yalnız millətini, dilini, sahiblənə bilmədiyi Vətənini düşündüklərindən, özləri bu ideya ətrafında birləşərək və xalqı da birləşdirmək amalıyla tarixin qızıl səhifələrinə şanlı adlarını

yazmış oldular. Bununla da, xalqın milli mənlik şüurunun yaranması yolunda onun maariflənməsini vacib şərt kimi ortaya qoydular.

XX əsr demokratik fikri xalqın milli əhval- ruhiyyəsini ifadə edən ziyalı məfkurə sahibləri olmaqla, müstəmləkə əsarətindən tezliklə xilas olmaq yolunda xalqın qurtuluş yollarını arayıb-axtararkən, milli kimliyi əldə bayraq etməklə, xalqa sonsuz məhəbbətindən onun doğma ana dilinə sahiblənə bilməsi yolunda mühüm xidmətlər göstərirdi. Çünki ana dili milli bütövlük ruhumuzun daşıyıcısı kimi, milli soykökümüzə qayıdış yollarını göstərmiş olur. O, zəngin daxili- mənəvi aləmimizin ifadəsi olub, milli təfəkkürümüzün, milli qeyrət və mübarizliyimizin göstəricisi, sübutu idi. Xalqın doğma ana dili milli özünüdərk baxımından çox vacib amil idi, çünki hamının yazıb-oxuması, savadlanması, cəmiyyət həyatının fəal qurucusuna çevrilməsi və onun idarəçiliyində yaxından iştirakçısı olması işində ana dili vacib şərt idi. Doğrudur, hələ XIX əsrin sonlarından belə sadə dildə yazanları kinayə obyekti etməyə çalışanlar az deyildilər. Buna sahib çıxan xalq mövhumatdan, cəhalətdən xilasa nail ola biləcəkdi və əsl dinini, inancını qoruyub saxlayacaq, müasirləşməyə və mədəniyyətə nail ola biləcəkdi. Demokratik fikirdə bildirilirdi ki, "türkün yüksəlməsi üçün çalışmaq, onun izzəti-nəfsini, şərəfini, haqqını, hürriyyətini müdafiə üçün özümü təhlükəyə atmaq fikrini sevinclə qəbul edirəm"(2,52). "Türklüyümüzdə baqi qalırıq...Çünki doğrudan da əgər biz öz ana dilimizə indiyə qədər baxdığımız nəzərlə baxmaqda davam edərsək, yəni heç bir əhəmiyyət verməsək, ola bilər ki, günlərin bir günü dilimiz itər- batar, yox olar və bir millətin də ki, dili batdı, onda o millət özü də batar, çünki bir millətin varlığına, isbati vücud etməsinə səbəb onun dilidir"(3,II,142).

Mollanəsrəddinçilərin–"Molla Nəsrəddin" jurnalının və eyni adlı ədəbi məktəbin xalqa ilkin müraciəti onun kimliyinin tanıtdırılmasına bariz xidmətin parlaq bir nümunəsi idi." Mətbuati-yovmiyədən başqa bir kaç həftəlik ədəbi, siyasi və məzah qəzetləri dəxi nəşr olunurdu ki, bunlar miyanında "Molla Nəsrəddin" məcmuəsi Azərbaycan məzahının xəlq etdiyi bir şah əsərdir"(4,19). Onlar bütün ciddi hücumlara məruz qalacaqlarını göz önünə almaqdan qorxmayaraq, bu hesabla da, millətin kimliyini sübuta yetirmiş olacaqdılar. Bu, görkəmli tarixi şəxsiyyətlərin XX əsrin coşğun– qaynar zamanında tarix və millət qarşısında layiq olduqları borclarını yerinə yetirmələrinə danılmaz bir sübutdur. Onların yaradıcılıqları, qabaqcıl dünyagörüşə yiyələnmələri və özlərindən sonrakı gələn bütün nəsillərə yadigar qoyub getdikləri isə cəmiyyət həyatının bütün sahələrində bizim kimliyimizin danılmasına yönələn bütün ciddi təzyiqlərə, təcavüzlərə və zorakılıqlara məhəl qoymadan, qorxmadan coşqun bir mübarizliklə xalqımızın dünyanın ən qədim və bütün dövrlərin ən qabaqcılı olmuş türk xalqı olduğunu ortaya qoyması və sübuta yetirməsi olmuşdur.

Bu, millətin qaranlıqlardan parlaq bir yola çıxışına sübut olacaqdı. O, xalqına kimliyini başa saldı– öyrətdi və ona doğru tarixi yolu göstərdi. Onlar xalqın beyin qapaqlarını tərpədir, silkələyir və qaldırırdılar ki, keçmiş əzəmətlərini, qüdrətlərini xatırlamaqla yaddaşlarını qəhrəmanlıq salnamələrinin mübariz səhifələri ilə doldursunlar və bu mübarizliyi təmin etmiş türklükdən qaçmayıb, bərk-bərk ona sahib çıxsınlar. Bütün bunlar hamısı müstəmləkə dövlətinin xalqımızı manqurtlaşdıra bildiyinə əmin- arxayın olmasına qarşı sarsıdıcı bir zərbənin vurulması demək idi. Xalqın qulağına astaca, həzin bir səslə, sanki gözəl avazla pıçıldayırdılar ki, "amma hərdənbir keçmiş günləri yad etmək lazımdır: salınız yadınıza o günləri ki, ananız sizi beşikdə yırğalaya-yırğalaya sizə türk dilində lay- lay deyirdi"(5,II,4). Sanki " keçmişdəki gözəl günləri yad etməyin" özü elə bu manqurtlaşmaya oxunan edam hökmü idi. Bu, Azərbaycan türkünün Rusiya hökümətinə təqdim etdiyi **milli pasportu**– proqram sənədi idi.

Ana dilli ədəbiyyatımızda bütün XIX əsr boyunca ilk dəfə "Azərbaycan" ifadəsini işlədən "Kəşkül" qəzeti olmuşdur. Məhəmməd ağa Şahtaxtılı da o dövrdə bizlərin "tatar" adlandırılmasını qəbul etməmişdi. Nəticə etibarilə bizlərə "türk" adı unutdurulmuş, "tatar" adı millətimizin milli kimliyinə yamaq edilmişdi. Elə buna görə də haqlı olaraq göstərilirdi ki,"1905 tarixinə qədər Azərbaycan ədəbiyyat və mətbuatı müntəzəm təsis və tərəqqi edəməmişdir.Yalnız 1903 və 1904 sənələrindəTiflisdə intişar edən "Şərqi-Rus" bu uzun sükut dövrünü bitirmişdir. Şahtaxtınski Məhəmməd ağa tərəfindən təsis olunan bu qəzetə bir sənə davam etdikdən sonra Bakıya nəql eyləmiş və burada qapanmışdır. Fəqət Rusiya inqilabi-sağirini təşkil edən 1905 sənəsi, Rusiya türkləri üçün milli inkişaf dövrünün ibtidasını təşkil eyləmişdir"(4,18). Lakin bütövlükdə İslam-

Türk-Şərq mədəniyyətinə inamsız yanaşan, onun əvəzində Rus-Avropa-Qərb mədəniyyətini təbliğ edən xadimlər də var idi. Onlar türkçülüyə və islamçılığa qarşı çıxmaqla nəticədə çar Rusiyasının gizli maraqlarını ifadə etmiş oldular. Bu isə Rusiya imperiyasına türk-islam birliyini parçalamaq baxımından çox gərəkli idi. Odur ki, onlar Ə.Ağaoğlu və Ə.Hüseynzadə kimi milli ideoloqlara qarşı çıxırdılar. Çar Rusiyasının ideoloqları xalqımızın "türk" kimliyini unutdurmaq məqsədilə onu "tatar" adlandırır, XX əsrin əvvəllərində isə "azərbaycanlı" kimi qələmə verirdilər. Beləliklə də, onlar türk- islam birliyini yenidən parçalamağı bacardılar ki, XX əsr Azərbaycan demokratik fikri də xalqımızın milli kimlik problemi uğrunda onlarla mübarizəyə başladı.

Elə XX əsrin əvvəllərində də Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlu "Kaspi" və "Həyat" qəzetlərinin səhifələrindəki yazılarında ,xalqın oyanışına, milli birliynə çağıran məqalələrində  Qafqaz müsəlmanlarının qəsdən "tatar" adlandırılmasına qarşı çıxmışdılar. Xalqımızın adına edilən təcavüzə, "tatar", "müsəlman" adları ilə onun soykökünün unutdurulmasına yönəlmiş barışmaz mübarizə meydanına atıldılar. Onlar Azərbaycan türkünün əsl doğma adının- milli kimliyinin ona qaytarılması yolunda layiqli, yorulmaz mübarizəyə başladılar, çünki onların hər ikisi Azərbaycan- türk ictimai fikir tariximizin ən görkəmli nümayəndələrindən olub, Azərbaycanın ədəbiyyatı və mətbuatı tarixində müstəsna xidmətlər göstərmişdilər. "Mətbuatın təsiri ilə Qafqasiyada siyasi, ictimai və milli bir fikir təşəkkül ediyordu. Əfkari- ümumiyyə vücud buluyordu. Həyati- milliyyə üçün pək mühüm olan bir taqım məsələlər müzakirə olunuyordu"(4,22). Onlar tarixi ədalətsizliyə qarşı çıxaraq, bir-birindən ayrı salınmış türk xalqlarının vahid birliyinə nail olmaq istəyirdilər, türklərin necə böyük şanlı tarixi keçmişə, mədəniyyətə malik olduğunu sübut etməyə çalışır, türklər haqqında yanlış məlumat verənləri ifşa edirdilər və sübut edirdilər ki, islamiyyətdən, müsəlmanlıqdan əvvəl də sən var idin: "Sən gərək biləsən ki, dünyada hələ şiə, sünnü, babı, şeyxi adları yox ikən sən var idin. İslamiyyət Ərəbistan qumluqlarında döğmadan əvvəl belə sən Altayın ətəklərində ətrafın gözəlliyinə tamaşa edib zövq alırdın. Orada uzun seyr və səyahətlərə hazırlanırdın."(1,239).

İctimai- siyasi, fəlsəfi və ədəbi- bədii fikir tariximizdə, ideya söz- sənətimizdə XX əsrin əvvəllərinin demokratik fikir xadimlərinin– müdrik düşüncə korifeylərinin, böyük əqidə sahiblərinin ixtilaflarını və fərqli düşüncələrini nəzərə alsaq belə, hərtərəfli araşdırmaçılar  haqlı olaraq bu fikrə gəlirlər ki, bu günün özündə belə xalqımız və millətimiz öyrəndikləri və faydalandıqları bir çox şeylərə görə onlara borcludurlar. Onların başlıca ideyası- əvəzsiz milli- mənəvi dəyəri xalqına onun kimliyini anlatmaq olmuşdur. Bu dövrdə tatar adına sahib çıxan yox idi. Azərbaycan məmləkətinin vətəndaşı ən yaxşı halda "müsəlman" adlanırdı. Kənardan isə "Qafqaz- Zaqafqaziya müsəlmanları" adlandırılırdılar. Elə bu zaman demokratik fikrin görkəmli nümayəndələri haqq səsini qaldırdılar ki," Qafqaziyanın əqvami- mücavirə tərəfindən səhvən tatar təsmiyə olunan türkləri də bunlardır. Qafqaz silsiləyi- cibalının cəhəti- cənubiyyəsində sakin Azərbaycan türkləri ki, şirvanlı, bakılı, qarabağlı, gəncəli, irəvanlı və sairədən ibarətdir"(6,49)."Qövmiyyət bəhsinə gəlincə məlumdur ki, Rusiya əhalisinin bir qismi türklərdən ibarət olduğu kimi, İranın da bütün cəhəti-şimaliyəsi, bilxassə Azərbaycan qitəsi türkdür"(6,162).

Çar Rusiyası ən çox xalqımızın milli şüurunda türklüyünü daha çox sıxışdırmış, onun türk- islam dünyası ilə əlaqələrinə maneçilik törətməklə onu milli- mənəvi aləmindən tədric etməyə başlamışdı. Belə mürəkkəb sosial- siyasi şəraitdə XX əsr demokratik fikir xadimləri xalqının gələcək həyat şəraitinın müəyyənliyi yönündə güclü iradələrini ortaya qoydular. Onlar belə hesab etmişlər ki, çar Rusiyasının əsarətində qalanların əksəriyyətini təşkil edən türk- tatarlardır. Bu baxımdan Ə.Hüseynzadə millətimiz üçün, bütün türk- tatarlar üçün dini və milli birliyin dərkini vacib hesab etmişdir. O, burada türklərin milli və dini kimliklərini vəhdətdə götürmüşdür: "Müsəlmanız, ... din qardaşlarımız tərəqqi etsə biz o tərəqqiyi əz canü dil alqışlarız! Türküz, binaənəleyh türküz. Türkün hər yerdə tərəqqi və təkamül ilə məsud olmasını arzu eyləriz"(6,35). Halbuki millət öz soykökündən xəbərdar deyildi. Göstərilirdi ki," amma bizim bir nəfərmizdən sor ki:- Sən kimsən?-Deyər müsəlmanam. -Hansı millətdənsən?- Müsəlman millətindən. -Nə dinindənsən?- Müsəlman dinindən.- Nə dili danışırsan?- Müsəlman dili. Halbuki özü türkdür, dini islam dinidir, dili də türk dilidir. Daha burasını düşünən yoxdur ki, müsəlman adında millət yoxdur, müsəlman adında dil yoxdur, müsəlman- yəni islam dinini qəbul etmiş bir adam deməkdir. Din

başqa, dil başqa. Din başqa, milliyyət başqa. Dində dil yoxdur, dində milliyyət də yoxdur ”(3,II,141). Yaxud da, göstərilirdi, deyilirdi ki,”əl verib soruşdum:- Cənab axund, siz nə millətsiniz? Axund mənə cavab verdi:- Əlhəmdülillah, müsəlmanam”(5,II,64).”Çox yaxşı keçəlim Bakıya. Böyük “İslamiyyə” mehmanxanəsinə gedəlim... oxumuş və dünyadan xəbərdar, hətta sözündə millətpərvər görünən qardaşlarımızdan soruşalım. Soruşalım ki: -Soy və millətiniz nədir?- Əlhəmdülillah müsəlmanız.-Şiəsiniz, yoxsa sünnü?- Heç biri deyiliz, təkcə müsəlmanız.-Özgə, daha bir adınız –zadınız yoxmu?- Xeyr, xeyr, xeyr! “(1,236). Bizim kimliyimizdən- milli mənsubiyyətimizdən xəbərdar olmayanlar bizlərdən soruşanda ki,” siz nə millətsiniz?” Hamısı birdən cavab verdilər ki , “əlhəmdülillah, müsəlmanıq “...”mən ölüm, doğrusunu de görüm, nə millətsən ?- və hamı and içib söylədi ki ,”əlhəmdülillah, müsəlmanam“(5,II,63-64).

Bu isə, bu işə tam müxalif olan, güclü, qüdrətli və qüvvətli nəhəng bir imperiyaya qarşı sinə gərmək demək idi. “Sən müsəlmansan, tatarsan”( “vəhşisən” ),- deyimləri ilə xalqın beyni və zehni korlandırılmışdı. Onun dürüst niyyəti ortadan qeybə çəkdirilmişdi. Sanki “ türk” olduğunu qəbul etmək üçün onu göylərdən istəməliydin ki, oradan gəlsin. Çünki yer üzündə onu deyənlər, yalnız ondan qorxan düşmənləri və niyyətləri gizlində qalanlar idilər. Bu, acı bir həqiqət idi. Bu qədər qorxunc, vahiməli olan və dəhşətli görünən bir imperiyanın ideya silahını sındırıb yerə atanlar, “biz tatar deyilik, biz türkük”,- cəsarətini ucalarda tutanlar onu başqalarına tanıtmaqdan qorxmayanlar, onu düşmənlərinə belə anladanlar və qəbul etdirənlər oldular. Onlar elə o andaca xalqının köməyinə vaxtındaca yetişib, ürək-dirək verirdilər ki, ”Ey sadə ürəkli türk, dünən, bu gün öz varlığını, öz mədəniyyətini göstərə bilib, indi sənə “köhnə barbar” gözü ilə baxıb bugünkü mədəniyyətlərin haqsızlığına baxıb incimə. Səni lazımilə tanımadıqlarını bilib məyus olma. Yox, yox, sən də çox insafsız bulunma, öz- özünü hələ tanımadığın bir vaxtda çox da özgələrdən incimə”(1,239).“ Qərb aləminin durmayıb, təriqi- mədəniyyətdə nə cür tərəqqiyyata nail olduğunu nəzəri-etibar və ibrətə almamız lazımdır...Avropa ülumuna, maarifinə, ədəbiyyatına, sənaət və sənayeinə kəsbi- vüquf etməyə və millətimizin beynində nəşrə çalışmalıyız”(6,37).

Bununla da Azərbaycan demokratik fikri heç nədən çəkinməyərək, milli kimliyimizə böyük əhəmiyyət verərək, onu qorxmadan hər yerdə və hamıya bəyan etdi. Onlar “1905-ci sənəsində möhtərəm Ağaoğlu Əhməd bəylə Hüseynzadə Əli bəy tərəfindən təsis olunan “ Həyat” və “İrşad” qəzetlərinin başlatdıqları “mücadiləyi- milliyyəyi davam etdiriyorlardı”(4,19). Demokratik fikir elə ilk proqram sənədi kimi, “türkün açıq ana dili ilə” xalqına- doğma “türk qardaşlarına” müraciətində onların türk milləti olduğunu bütün dünyaya “bəyannamə” kimi elan edirdi: ”Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım !..məni gərək bağışlayasınız, ey mənim türk qardaşlarım ki, mən sizlə türkün açıq ana dili ilə danışıram. Mən onu bilirəm ki, türk dili danışmaq eyibdir və səxsin elminin azlığına dəlalət edir”(5,II,4). Burada ana dilinə sevginin necə də vacibliyi və gözəlliyi ifadə olunur: “Ülum və maarif əksəriyyət beynində intişar etmək üçün lazımdır ki, millətin öz ana dili məlum və maarif təhsilinə alət olsun. Təbiri- axərlə lazımdır ki, millət öz dilinin qədrini bilsin və onun tərəqqi və təkamülünə çalışsın”(6,36).”Lazımdır ki, xalq öz dilini öyrənməyə rəğbət eləsin”(6,41).

Bildirilirdi ki, bizim millətimiz daha qədim mədəniyyətə, dilə və əlifbaya sahib olmuşdur:“Ey özündən xəbərsiz türk! Mədəniyyət “əsrləri”...hənuz Bağdad, Şam, Paris və Londonda yox ikən, sənin yurdunda var idi. Sən öz dadlı dilini cığırından çıxarıb bugünkü acınacaq hala salan ərəb əlifba və yazısından əvvəl sənin göyçək əlifba və yazın var idi. ”(1,239).“Bu millət, Kazandan, Ufadan Səmərqəndə, Mavərayi-Baykaldan Kırıma qədər müntəşir olan türk və tatar əqvamıdır”(6,144). Elə bu tarixi həqiqət də bizim ana dilimizə sevgimizin sübutuna çevrilməli idi.“ Buna görə də dilimiz türk dilidir. İndi həmin bu türk dilimizin əvvəla, baqi qalması və saniyən tərəqqi etməsi və islah olunması barəsində çalışmalıyıq”(3,II,142).“ Bu gün isə ülum və ədəbiyyat türk dilində olmaq tərəqqiyə başlamış olduğundan ümum Şərqdə maarifin ən gözəl vasiteyi-intişarı türk lisanı olmuşdur. Türk lisanı bu xüsusda mütəhəddid şəraiti mətlubeyi- camedir”(6,36).” ”

XX əsr Azərbaycan demokratik fikri Azərbaycan dilinin osmanlılaşdırılmasına qəti etiraz edirdi, xüsusilə də o dövrdə Azərbaycan dilinin ruslaşdırılması və farslaşdırılması tərəfdarlarını birdəfəlik ittiham edirdi. Məlum səbəblər ucbatından rustlaşdırılmaq meyli bu dövlətə xüsusi himayədarlıqla müşahidə edilirdi, lakin bunu müvəqqəti hal hesab edənlər də olmuşdular. Amma

ziyalılar bunu müvəqqəti hal saymır, əksinə, onun sadə xalq içərisində uyğunlaşmasına qarşı çıxırdılar. Onlar dil məsələlərində obyektiv mövqe nümayiş etdridikdə, bütünlüklə xalqın sabahkı taleyini göz önünə gətirərək, Azərbaycan türk dilinin- sadə xalqın dilinin aparıcı mövqeyə yüksəlməsi yolunda çətin mübarizəyə başlamışdılar. Bizim "obrazovannı"lar- məhz kimliyini "müsəlman", "tatar" bilənlər "rus dilindən savayı özgə dildə danışmaz ...Mən bir gün dostumdan soruşdum : - Nə səbəbə sən mənlə heç müsəlmanca danışmaq istəmirsən? Yoldaşım mənə rus dilində belə cavab verdi:- Sluşay, kak-to stıdno koqda obrazovannıy çelovek po-tatarski qovorit!..(yəni obrazovannının müsəlmanca danışmağı eyibdir!)"(5,II,9). Rus dilində eşitdiyimiz bu cavabda hər zaman olduğu kimi, bizlərin milliyyətimizin bir daha "türk" deyil, "tatar" adlandırılmağımıza sanki bir etiraz səslənməkdədir. "İntelligentlərimizin də türkcə bilməmələri və onların müridlərinin də türkcə bilmək istəməmələri aşkar bir əmrdir"(3,II,143)."Üsuli-cədid məktəblərində guya "müsəlmanca" oxunmuyur – deyə şikayət edən bu cənablar, indi də hesab kitablarını, məktublarını rusca yazdırmağa qeyrət edirlər. Kart vizitləri üzərlərində adları rusca, dükan qabağındakı elanları əksərən rusca, dəftər- kitabları rusca, təqvimləri rusca, blankları rusca, konvert(zərf)ləri rusca" (3,II,143). "Bana "priqlaşeni" göndərməmişdilər. Öz ana dilini bilməyən bir neçə zatın xatiri üçün türkə hüruf ilə yazılmış rusca bir qəzetəmi çıxaraq"(6,38-39).

Çağdaş tariximiz də onların- demokratik fikir xadimlərinin səylərinin həqiqiliyini ortaya çıxardı və onları haqlı hesab etdi. Onların məslәkləri, əqidələri, vətəndaşlıq yanğıları obyektiv şəkildə xalqın milli-mənəvi irs xəzinəsinin bəzəyinə çevrildi. Çünki onlar xalqın gələcəyinə baxışlarında elə bir əqidə, məslək nümayiş etdirdilər ki, onun cəhalət və nadanlıqdan xilası, bu yolda arzu və istəklərinin ifadəsi, xoşbəxt gələcəyə gedən yolun başlanğıcının isə elm və təhsildən keçəcəyi onun maariflənməsi ilə sıx, bağlı götürülürdü. Ona görə də bildirilirdi ki, İçimizdə bir ovuc millət qədrini bilən, öz milliyyətini sevən adamlar var"(3,II,143). "Kəsbü karidən səmərə hasil olmqa üçün əvvəl əmrdə bilgi və vüquf lazımdır. Bilgi və vüquf isə elmvə lisan ilə olur "(6,36) ."Biz öz dilimizdə oxuyub dilimizi, milliyətimizi bilmək istəyirik. Biz öz dilimzə, dinimizə məxsus olan məktəblərimizi özümüz idarə etmək istəyirik. (1,127)."Biz belə yapmağa qeyrət edəcəyiz. Məsləkimiz bunu iqtiza etdirir. Çünki bu surətlə qüvvətimiz, həyata istehqaqımız, sair millətlərlə rəqabətə qabiliyyət və istedadımız...canlı və cansız bütün mövcudat ilə mübarizəyə iqtidarımız təzayüd edə bilir"(6,37).

Dövrün ziddiyyətlərini, çətinliklərini, dil və mədəniyyət problemlərini görüb anlamaq baxımından məşhur publisist Ömər Faiq Nemanzadənin yazdıqlarına diqqət yetirmək kifayətdir: "Hə, ey türk! İstər darıx, istər karıx, yaxandan əl çəkəcək deyiləm. Sən hər şeyi öyrənmək istədiyin halda bircə zadı-yəni özünü bilmək istəmirsən, niyə öz soy və nəslindən xəbərin yox? Niyə sənə "Kimsən?" dedikləri vaxt həqiqi cavabında aciz qalırsan? Niyə sadəcə deyə bilmirsən ki, mən türkəm. Niyə deyə bilmirsən ki, şiəlikdən, sünnilikdən, babılıqdan əvvəl sən türk idin. İndi də türksən və bundan sonra da türk qalacaqsan..."(1,238). . Məmməd Əmin Rəsulzadə yazırdı ki, "Hərbi- ümumi əsnasında təsis edilən "Açıq söz" qəzetəsi dəxi bu dəvayı müdafiə ediyordu. "Açıq söz" ilk dəfə olaraq o vəqtə qədər Qafqasiya müsəlmanı və yaxud tatarı deyilən xəlqin türk olduğunu sərahət və israrla meydana qoymuş və bu xüsusda hərb sansoru ilə mübarizə etmək zərurətində qalmışdı"(4,19).

Belə bir tarixi şəraitdə, yəni "türk" kəlməsinin hətta dilə belə gətirilmədiyi bir tarixi məqamda Əli bəy Hüseynzadə "Həyat" qəzetinin səhifələrində çap etdirdiyi "Türklər kimdir və kimlərdən ibarətdir?" adlı əsəri ilə türk xalqlarına, o cümlədən Azərbaycan türklərinə üz tutaraq "Biz ki, türk oğlu türkük, biz ki, millətlərin ən qədimi və ulusuyuq","Bu gün üləmayi-ətrakşünasın, hətta rus müstəşriqlərinin çoxu Çinin bəri cəhətlərində tatar namıyla bir qövm tanımıyorlar: türk var, moğol var, fəqət tatar yoxdur. Krımlılar, kazanlılar, orenburqlar və sairə həp türk oğlu türkdürlər. Kəndilərinə nə qövmdən olduqları türkcə sual olunmasa türküz- deyə cavab verirlər. Bunlara əqvami- sairə tərəfindən bir yanlışlıq olaraq tatar denilmişdir"(6,30). "Türküz, binaənəlleyh türküz. Türkün hər yerdə tərəqqi və təkamül ilə məsud olmasını arzu eyləriz"(6,35),- deyə hayqırırdı Məşhur Amerika tarixçisi Tadeuş Svyatoxovski Azərbaycan tarixi ilə bağlı araşdırmalarında xüsusi olaraq qeyd edir ki, "XX əsrin əvvəllərində türk xalqlarına kimliyini bildirən bir nəfər var idi. O da Əli bəy Hüseynzadə idi"(7).

Bəzi mətbuat orqanlarında Çingiz xanın və Əmir Teymurun monqol kimi göstərilməsini tənqid edir, onların türk olduqlarını və nəsillərindən olan şəxsiyyətlərin də adlarını çəkərək onların hər zaman türkcə danışdıqlarını və türkcə yazdıqlarını bildirirdi:" Türk və tatarların mədari-iftixarı bulunan Çingizlərə və Teymurlara dair narəva sözlərə rast gəlmiş idik. Türklüklə iftixar etdikləri halda türkün kim və kimlərdən ibarət bulunduğunu bilməyən nə qədər türk mühərrirlərimiz vardır"(6,42)." Yəni türklərin kim olduqlarını və kimlərdən ibarət bulunduqlarını, nərədən məişət etdiklərini, neçə şöbəyə ayrıldıqlarını, bu gün nərədə sakin olduqlarını göstərməliyik. Içimizdə özbəklərin, qırğızların, başqurdların türk olduqlarını bilməyənlər də vardır."(6,42-43). " Bax, əzizim, türk milləti Sakit okeandan Ağ dənizə, Karpatlardan Yernik boğazına qədər yayılmışdır. Dünyada bunun qədər dağınıq, səpələnmiş başqa bir millət tanıyırsanmı? Bunun yeganə səbəbi budur ki, biz bir-birimizə arxa olmağı, bir-birimizin halına qalmağına bacarmırıq"(2,114).

Ə.Ağaoğlu ffikrini təsdiqləyərək yazırdı ki, "Tam əminliklə demək mümkündür ki, əgər türk- tatarlar olmasaydı hazırkı halında islam da mövcudluğunu qoruya bilməzdi...Əgər islam səlib yürüşlərinin qarşısında duruş gətirmişdisə, əgər o, qüvvətli dini təbliğatlarla m müşayiət olunan sürətli müstəmləkə fütuhatı dövründə birdəfəlik yoxa çıxmamışdısa, bunlar yenə də məhz türk-tatarların sayəsində mükün olmuşdur. Bu irqin bir ovuc nümayəndəsi– Səlcuqlar əsrlərlə birləşmiş Avropanın qarşısında sinə gərib dayanmışdır"(2,328). "Çinlilərə və yaponlara qohum olan türk-tatarlar onların mədəniyyətlərinə yad qalmışlar...Avropa xalqları ilə müqayisədə ancaq hələ indi öz orta əsrlərinə qədəm qoyur və onun bütün həyatı hələ irəlidədir. Egey sahillərindən və Aralıq dənizindən Çinə qədər böyük bir ərazidə məskən salmış türk- tatarlar öz etnoqrafik, din və dil birliyi sayəsində gələcəkdə Köhnə Dünyada başlıca həyat ünsürlərindən biri olacaqları ilə bağlı müjdələrini verməkdədir"(2,329).

Çətinliklər çox idi. Bir yandan da ermənilərin "Həyat" qəzeti barədə donosları bitib-tükənmirdi. Onların diktəsi ilə Qafqaz canişini təcili olaraq "Həyat"ın sərlövhəsindəki "türk" sözünün "tatar" sözü ilə əvəzlənməsini tələb edirdi. Təzyiqlərə dözməyən "Həyat"ı qapamaqdan başqa bir yol qalmadı... Çox keçmədi ki, böyük maarifçi, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin maliyyə yardımı ilə "Füyuzat" dərgisi nəşrə başladı. Əli bəy "Həyat"da başladığı türkçülük ideyalarını "Füyuzat"da da davam etdirərək, türkçülüyün siyasi proqramı olan "türkləşmək, islamlaşmaq, avropalaşmaq" formulunu bitkin bir sistem halına gətirdi: "Füyuzat"ın tutduğu yol türklük, müsəlmanlıq və avropalılıqdır". "Ədəbi məcmuələrdən ən mümtazı möhtərəm Hüsenzadə Əli bəyin təhti müdriyyətində çıxan "Füyuzat" məcmuəsi Azərbaycan üdəbasını Osmanlı ədəbiyyatını təqlidə sövq edən ən böyük amillərdən birisi olmuşdur"(4,19). "Füyuzatçılıq hiss, duyğu və düşüncənin coşqunluğunun, ümumxalq yaşantılarının mükəmməl ifadəsini həyat səhnəsinə çıxarır, bədii-publisistik şüurun etnogenetik enerjidən bəhrələnmə forma və üsullarını müəyyənləşdirirdi..." "Füyuzat" jurnalı, eyni zamanda Azərbaycan ədəbiyyatında yeni bir istiqamətin - Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq və başqalarının təmsil olunduğu romantik "Füyuzat" ədəbi məktəbinin yaranmasına səbəb oldu(7).

Ömər Faiqə görə, "Hə,ey türk!... Niyə sənə "Kimsən?"dedikləri vaxt həqiqi cavabında aciz qalırsan? Niyə sadəcə deyə bilmirsən ki, mən türkəm. Niyə deyə bilmirsən ki, şiəlikdən, sünnülükdən, babılıqdan əvvəl sən türk idin. İndi də türksən və bundan sonra da türk qalacaqsan. Sənin bu türklüyünə nə şiəlik, nə babılıq, nə də dinsizlik mane ola bilməz. Sən ey türk! Nə əqidədə ,nə məsləkdə olursan ol, həmişə türksən !"(1,238). Xalqın yaddaşına yeridilməli idi ki, sən– türk oğlu türksən. Türk isə əzəldən azad-hürr doğulub, hürr yaşar və ölər. Odur ki, "türklər ya ölər, ya hicrət edərlər, fəqət qul olmazlar ,aləmin istibdad və bidad altında inləyən qismini əsarətdən xilas etmək xüsusunda mühim rollar oynayacaqdır"(6,59), -təfəkkür tərzi bu millətə özünə layiq olduğu yeri göstərəcək və başa salacaqdı. Son nəticədə isə tərəqqi və yenilik əsri olan XX əsrdə əsarətdən qurtulmağa, gözəl gələcək qurmağa və dünya xalqlarının içərisində, onların arasında özünəlayiq yer tutmağa gətirib çıxaracaqdı. Təhsil almaq, maariflənmək, elmi kəşflər və ixtiralar əsri kimi şanlı tarixə qovuşan XX əsr, eləcə də, müstəmləkəçiliyin iflası və millətlərin, xalqların azadlıqlarına qovuşmaları, müstəqil, milli dövlətçiliklərinə sahib çıxmaları əsri kimi bəşəriyyətin çoxminillik tarixinin yaddaşına qovuşmuş oldu. Çar Rusiyasının əsarətində olan türk- müsəlman xalqlarının və türk məmləkətlərinin siyasi cəhətdən qurtuluşu, yenidən azadlığına qovuşması üçün onların vahid

bir ideologiya ətrafında sıx birləşməsi vacib idi. O, ilk növbədə türkçülük- islamçılıq ideyasından qaynaqlanmalı idi ki, bütün türk ellərini öz ətrafında birləşdirə bilsin. Bununla da türk- islam dünyasının oyanışı, inkişafı və yüksəlişi- tərəqqisi baş verəcək və Rusiya imperiyasının əsarətindəki türkləri, o cümlədən Azərbaycan türklərini də əsarətdən qurtarıb müstəqilliyinə gətirib çıxaracaqdı. Çox mürəkkəb və ziddiyətlərlə dolu olan, yenilikçilik havasının təsirinə məruz qalan həmin XX əsrdə, millətin gələcəyini parıldadacaq və parlaq edəcək maarif işığı, elmə və təhsilə yiyələnmək onu ayıldacaq, ona kimliyini anladacaq, onun bəsirət gözlərini açacaq və azadlığa, istiqlala gedən yolun ondan törəyəcəyinə onları tamamilə inandıracaqdı.

## ƏDƏBİYYAT


1. Nemanzadə Ömər Faiq, Seçilmiş əsərləri, Tərtib edəni, ön sözün və izahların müəllifi Şamil Qurbanov, Bakı "Şərq-Qərb", 2006, 352 səh

2 . Ağaoğlu Əhməd bəy, Seçilmiş əsərləri, Ön sözün, izah və şərhlərin müəllifi Vilayət Quliyev, Bakı, "ŞƏrq-Qərb", 2007 , 392 səh

3. Hacıbəyli Üzeyir, Seçilmiş əsərləri, İki cilddə, II cild, Tərtib edəni və lüğətin müəllifi Abdulla Abbasov, Bakı,"Şərq-Qərb", 2005, 456 səh

4. Rəsulzadə Məmməd Əmin, Azərbaycan Cümhuriyyəti,Transliterasiya edəni, qeydlərin və lüğətin müəllifi Asif Rüstəmov, Bakı, "Elm", 1990,116 səh

5 . Məmmədquluzadə Cəlil, Əsərləri, Dörd cilddə, II cild, Bakı, "Öndər", 2004, 584 səh

6. Hüseynzadə Əli bəy, Seçilmiş əsərləri, Transliterasiya və tərtib edəni Ofelya Bayramlı, Bakı,"Şərq-Qərb", 2007, 480 səh

7.Quliyev Əsgər, Bayrağımızdakı simvolikanın memarı, böyük maarifçi Əli bəy Hüseynzadə-150, "Azərbaycan müəllimi" qəzeti, 07 fevral 2014, № 05(8572)


## ABSTRACT


**Bagır Babayev**



The article deals with the fact that the Azerbaijan democratic opinion proves that our nationality are turkish, Azerbaijan.

The tightly combination around a single ideology of turkish-muslim nations and Turkish home towns wich were under the salavery of tsarist Russia was important for their political libretion an re-libretion.First of all itshould be welded from the idea of Turkism,Islamism that might unite all Turkishands around itself.Thus the awakening ,developingand arising of Turkish Islamic world.

Would happen and Turkish people under the slavery of Russian Empire and also it would independence Azeri Turks from slavery.However Rusian Empire pursued the policy of Russificotion and christianizationo Turkish people there and alsoThe Turks in the Caucasus as a whole.Because the secret intention of Russia was that the faith about single nation,language,religion of Turkish people under slavery of empire should be splited in this mean in the middle of XIX century the government of Empire was enforcing.Exclusion sunni and shia,evn thought was showing it obviously in education.But as a whol thre were militants propagated the culure of Russian-Europewest.They oppesed Turkism and Islamism and at the end they expressed the secret interest of tsarist Russia.It was important to Russia Empire for spliting the combination of Turkish-mulim.They were against as an national ideologists A.Agaoglu and A.Huseynzadeh.


## РЕЗЮМЕ


**Багир Бабаев**



Проблема национальной принадлежности нащего народа в Азербайджанской демократической мысли XX века (1900-1920 гг.)

Для избавления с политической точки зрения и достижения независимости тюркских стран и тюркско-мусульманских народностей, бывщих в зависимости от царской России, им необходимо было тесно объединится под одной единой идеологией. Она, в первую очередь, должна была происходить от тюркско-исламской идей, чтобы смогла объединить всех тюркских стран. Таким образом, произойдет пробуждение тюркско-исламского мира, его

развитие, процветание и это приведет к избавлению тюрков, в том числе и азербайджанских тюрков от гнета Российской империи.

Хотя Российская империя проводила политику обрушения и крещения в отнощении живщих на Кавказе тюркских народов. Потому что скрытой намеренностью царской России было уничтожить национальные, языковые и духовные ценности тюркских народов, живших под гнетом империи. В этом отношении еще начиная с середины X1X века правительство империи в строгом порядке указывает на разницу между суннитами и шиитами, даже открыто демонтстрирует это в области просвещения.

Однако были и деятели в целом не верующие исламско-тюрко-восточной культуре и вместо нее пропогандирующие русско-европейско-западную культуру. Они, выступая против тюркизма и исламизма, в результате выразили тайные интересы царской России. А это было очень необходимо Российской империи с точки зрения разрушения тюркско-исламского единства. Поэтому они выступали против таких национальных идеологов, как А.Агаоглы и А.Гусейнзаде.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**

**GÜLARƏ RƏHİMOVA**
**AYGÜN ƏFƏNDİYEVA**
*gularaisayeva@mail.ru*

**UOT:101.1**

# RİSKİN MÜDAFİƏ FUNKSİYASININ MAHİYYƏTİ, MODELLƏRİ VƏ TƏZAHÜR FORMALARI

**Açar sözlər:** *ekonometrik metodlar, ekonometrik modelləşdirmə, proqnozlaşdırma, risk, proqnoz səhvləri (meyllər)*
**Key words_:***econometric methods, econometric models, forecasting, risk, prediction (forecast)*
**Ключевые слова** *: эконометрические методы, эконометрические моделирование, прогнозирование, риск, ошибка предсказания*

***Giriş.*** Sahibkarlıq riskini, iqtisadi kateqoriya kimi, kəmiyyət və keyfiyyətcə sahibkarlıq fəaliyyətində nəzərdə tutulmuş nəticənin qeyri-müəyyənliyi ilə müəyyən etmək olar.

Bu, verilmiş qeyri-müəyyənlik, sahibkarlıq fəaliyyətinin əvvəlcədən planlaşdırılmış nəticələrlə müqayisədə uğursuzluq (və ya uğur) dərəcəsini əks etdirir.

İxtiyari iqtisadi kateqoriya kimi sahibkarlıq riski öz mahiyyətini funksiyalarda göstərir. Adətən, 2 əsas funksiyanı seçirlər: tənzimləyici və müdafiə funksiyaları.

Riskin müdafiə funksiyası da 2 aspektə malikdir: tarixi-genetik və sosial hüquqi.

Birinci aspekt - obyektiv olaraq onunla əlaqədardır ki, riskləri sığortalamaq üçün ayrı-ayrı fərdlər, təşkilat və müəssisələr sığorta (ehtiyat və ya rezerv) fondları, risk fondları və müəssisələrin maliyyə ehtiyatları formasında neqativ hadisələrdən, təbii fəlakətlərdən və s. qorunmaq, müdafiə olunma vasitələri yaratmaq məcburiyyətindədirlər [1].

***Məsələnin qoyuluşu. Müdafiə funksiyasının sosial-hüquqi aspektinin əsas məzmunu.***

Təsərrüfatda (müəssisələr, şirkətlər və s.) risk etmək hüququnu təmin etmək - onu qanunverici şəkildə tam hüquqlu iqtisadi risk kateqoriyası kimi möhkəmləndirməkdən ibarətdir. Belə hüquq kateqoriyası bir çox ölkələrin təsərrüfat qanunvericiliyində nəzərdə tutulub və əsaslandırılmış riskə gedən işçinin (menecerin) uğursuzluğu zamanı onu cəzalandırmağı istisna edən iqtisadi zəmanətləri nizamlayır.

Ümumiyyətlə, bu zəmanətlərə sahibkarların əsaslandırılmış riskə getmələri üçün zəruri olan əsas şərtlər kimi baxılır.

Azərbaycan qanunvericiliyində qanuna uyğun iqtisadi risk anlayışının və bu halda zəmanətlərin olmaması (hələ ki) təsərrüfat praktikasında əsaslandırılmış riskli qərarların qəbul edilməsinin qarşısını alır və həmçinin, bəzi rəhbərlərin təsərrüfatsızlıq və bacarıqsızlığı ucbatından qəbul edilməmiş qərarların nəticələrinə görə məsuliyyətin sərhədləri pozulur.

Sahibkarlıq riskinin müdafiə funksiyası - iqtisadi subyektlərin müxtəlif neqativ hadisələrdən müdafiə forma və vasitələrini axtarmaq zərurətindən doğur.

Bu məqsədlə sığorta və ehtiyat fondları yaradılır və istifadə olunur.

Sosial yönümlü bazar iqtisadiyyatında sahibkarlıq risklərinin müəyyən bir hissəsi dövlət tərəfindən məhdudlaşdırılır.

Müəssisə öz təsərrüfat fəaliyyətini stabilləşdirən, arzuolunmayan hadisələrdən qorunmaq üçün müxtəlif forma və vəsaitlər axtarır.

Risklərin yenidən paylanması (məsul icraçı, menecerlər arasında) mexanizmi, müxtəlif risk fondları (özünü sığortalama, qarşılıqlı sığortalanma) yaratmaq yolu ilə və riskli qərarlar qəbul edən bütün subyektlər üçün stabil şəraiti təmin edən lazımi normativ-qanunverici bazanın formalaşması vasitəsilə stabillik təmin olunur.

Müdafiə funksiyası risklərin yenidən, mümkün paylanmasının hüquqi və informasiya təminatı ilə bağlıdır. Müdafiə funksiyası müxtəlif sığorta mexanizmləri, özünü sığorta və s. istifadə etməklə yanaşı, beynəlxalq və daxili risk münasibətlərini tənzimləyən, uğursuz risk zamanı mütəxəssisin cəzalandırılmasını istisna edən və iqtisadi zəmanətin verilməsini təmin edən hüquqi bazanın yaradılmasında özünü biruzə verir [2].

***Ölkə riski. Ölkə riski kəmiyyətlərinin qiymətləndirilməsi metodu. Ölkə riskinin investisiya layihəsinin parametrlərinə təsiri.***

Ölkə riski - bilavasitə sahibkarlıq fəaliyyətinin internasionallaşdırılması ilə əlaqədardır.

Bu risklər xarici-iqtisadi fəaliyyətlə məşğul olan bütün iş adamları üçün aktual olub, idxal və ixrac edən ölkələrdəki siyasi-iqtisadi stabillikdən asılıdır. [3].

İnkişaf etmiş bazarlarda investor siyasi rejimin qeyri-stabilliyi, xarici münaqişələr, vətəndaş iğtişaşları və müharibələr, korrupsiya, gözlənilməz inflyasiya, müxtəlif növ defoltlarla, şəxsi kapitalın ekspropriasiyası (cəmiyyətdə bir sinif və ya ictimai qrup tərəfindən digər sinif və ictimai qrupun (və ya şəxsi mülkiyyət sahibinin) var-dövlətinin, mülkiyyətinin əlindən alınması ) və bu ölkədə baş verən digər hadisələrlə üzləşir. Buna görə də inkişaf edən (etmiş) bazarlarda uğurla işləmək üçün situasiyanı bütünlükdə nəzərə almaq lazımdır. Bu məqsədlə "ölkə riski" anlayışı qəbul olunub.

Riskin xarakteri müxtəlif ola bilər və risk - onun əsasında duran siyasi, iqtisadi, maliyyə, sosial və s. faktorlarla müəyyən olunur.

Potensial mənfəətləri nümayiş etdirməklə risklərin effektiv idarə olunması eyni vaxtda bir sıra konseptual və praktiki problemlərin həll olunmasını tələb edir. Bu, hər şeydən öncə riskləri kvantlaşdırmaq qabiliyyətindən asılıdır.

Riskin ölçülməsi öz növbəsində həm qeyri-müəyyənliyi aşkara çıxarmaq və eyni zamanda riskin potensial effektini müəyyən etməyi tələb edir.

Dünya praktikasında riskləri qiymətləndirmək üçün çox saylı metod və modellər mövcuddur. Məsələn, "köhnə tanışlıqlar metodu", "böyük turlar" metodu ("delfi arakulu" metodu), PSSI, Ecological Approach, ASPRO/SPAİR, ECP, İ.Valter metodu, V. Tixamirov metodu, Prince-model və digərləri. Reytinqə görə qiymətləndirməni qurmaq üçün bu metodları şərti olaraq 4 yerə bölmək olar:

***1. Keyfiyyət qiymətləndirmə metodları.***

Risk kəmiyyətinə təsir edən faktorların qiymətləndirilməsi metodunun əsasını ekspert rəyləri təşkil edir.

Bu metodların tədbiq olunması yalnız o zaman əhəmiyyət kəsb edir ki, riskin qiymətləndirilməsi üçün tədqiqatın məqsədini dəqiq təsəvvür edən və baxılan ölkədə situasiyanı dərindən bilən təcrübəli ekspertlər qrupu işə cəlb olunsunlar.

Əlavə olaraq analizin nəticələrinin etibarlığını yüksəltmək üçün qiymətləndirilən faktorları kəmiyyətcə strukturlaşdırmaq, başqa sözlə, onları sistemləşdirmək lazımdır. Bu isə, tədqiq olunan ölkələri reytinqlər əsasında qruplara bölməyə imkan yaradır. Lakin, qeyd etmək lazımdır ki, qrup daxilində riskin dərəcəsini daha da dərindən qiymətləndirmək çətinləşir [4].

***2.Kəmiyyətcə qiymətləndirmə metodları.***

Ölkələrin məlum statistik verilənlərinə əsaslanan bu metodun realizasiyası zamanı riskin qiymətləndirilməsinə (risk faktorlarına) təsir edən, ölkənin inkişafında əhəmiyyət kəsb edən göstəricilər seçilir.

Riskin yekun qiyməti *R* - ümumiyyətlə, nəzərə alınan faktorlardan asılı olan çoxfaktorlu funksiyadır ($x_i$-*i-ci* faktorun qiymətlər çoxluğudur):

$$R=R(x_1, x_2, x_3, \ldots x_n)=R(x_i)\ (i=1\ldots n),$$

harada ki, faktor kimi obyektiv ədədi qiymətləri olan faktorlar istifadə olunur (adətən, bu iqtisadi göstəricilərdir), və ya, riski hesablamaq üçün artıq riskin ədədlə ifadə olunmuş qiymətlər çoxluğu (kəmiyyət və keyfiyyət qiymətləndirmələrə əsaslanan) istifadə edilir [5].

Bu metodikanın effektivliyi əvvəlki illərin verilənlərinə əsasən onların adi ekstrepolyasiyası vasitəsilə ölkə riskində baş verən dəyişiklikləri proqnozlaşdırmaqda üzə çıxan çətinliklər ucbatından xeyli azalır: məsələn, ölkə riski səviyyəsinə əsaslı dərəcədə təsir edən keyfiyyət faktorlarının nəzərə alınmaması; yekun reytinqdə faktor çəkilərinin nəzərə alınmaması səbəbindən [4].

***3. Ölkə riskinin qiymətləndirilməsinin ekonometrik metodları.***

Ekonometrik metodlar əvvəlki metodların bir sıra problemlərini müəyyən dərəcədə həll etməyə imkan verir. Bu metod vasitəsilə riskin proqnozlaşdırılmasının əsasında o fakt durur ki, bir sıra iqtisadi göstəricilər gələcək tendensiyaları qiymətləndirmək üçün əsas ola bilərlər. Bununla belə statistika tərəfindən nəzərə alınmayan, lakin riski qiymətləndirmək üçün çox böyük əhəmiyyət kəsb edən keyfiyyət faktorları nəzərə alınmır.

Ekonometrik yanaşmanın bir sıra üstün cəhətlərinə baxmayaraq, ölkə riskini kəmiyyət və keyfiyyət metodlarının birləşməsinə əsaslanan analiz sistemləri vasitəsilə qiymətləndirmək daha məqsədəuyğun və qüsursuz hesab olunur [6].

**4. *Ölkə riskinin qiymətləndirilməsinin kombinə olunmuş metodları.***

Kəmiyyət və keyfiyyət informasiyasından istifadə etməklə qurulan modellərdə aşağıdakılara əsaslanaraq ölkənin indeksi qurulur:

- göstəricilərin mütləq və nisbi qiymətlərinə əsasən (bu zaman dəyişənlərin çəki əmsallarını müəyyən etmək üçün iqtisadi-statistik analizdən istifadə olunur);
- keyfiyyət göstəricilərinin ekspert qiymətlərinə əsasən (məsələn, sosial-siyasi inkişafa əsasən); dəyişənlərin çəki əmsalları da ekspert qiymətləndirilməsinə görə müəyyən edilir.

Alınmış nəticələr yekun indeksinə yığılır. Bu indeks adətən 1-ilə 99 arasında dəyişir.

***Ölkə riskini statistik qiymətləndirmək üçün tətbiq edilən strukturlu-keyfiyyət metodu.***

Metod - riskin iki xarakteristikasının ekspert tədqiqinə əsaslanır: ziyanların (itkilərin) meydana gəlmə ehtimalı və kəmiyyət ölçüsü, başqa sözlə, risklər bu və ya digər hadisələrin inkişaf ssenarisinin ehtimalına görə ölçülür [5].

Riskləri qiymətləndirmək üçün tətbiq olunan hər bir metodun üstün və çatışmayan cəhətləri var. Risklərin ədədi ifadələrinin təsvirinin (ekspert qiymətləri nəzərdə tutulur) ifadələrdən üstünlüyü ondan ibarətdir ki, burada faktorları və ya dəyişənləri nəzərdən keçirmək və qarşılıqlı rabitələri tapmaq mümkündür. Lakin, bu zaman çox gərəkli ola biləcək bəzi nüanslar itirilir.

Keyfiyyət qiymətləndirmənin əsas cəhəti, ekspertlərin subyektiv rəylərindən son dərəcədə asılı olmasıdır.

Qloballaşdırmanın inkişaf etdiyi şəraitdə və daim artan investisiya portfellərinin qlobal təbiətinə görə ölkə riskini nəzərə almaq qabiliyyəti böyük əhəmiyyət kəsb edir [7].

İnvestorlar üçün başlıca olaraq, yüksək gəlir əldə etmək və qlobal investisiya portfelinin böyük diversifikasiyasına nail olmaq nöqteyi-nəzərindən inkişaf edən, lakin, siyasi, iqtisadi və sosial cəhətdən qeyri-stabil ölkə bazarlarında riskin uçotunu aparmaq vacibdir. Risklərin idarə olunması 3 əsas tərkib hissədən ibarətdir: aşkar etmək; qiymətləndirmək; nəzarət və idarə etmək.

*Tənzimləyici risklərin* idarə olunması üçün məsləhətçi və biznesin maraqlarının təmsilçisi funksiyasını icra edən mütəxəssislər cəlb olunur.

*Fiziki risklər* istehsalatla sıx bağlıdır və şirkətin fəaliyyətinə təsir göstərə biləcək fiziki hadisələrə aiddir. Təbii ki, şirkət bu cür hadisələrə nəzarət etmək iqtidarında deyil və ya imkanları məhduddur (iqlim şəraiti, təbii fəlakətlər və s.) [8].

Bir çox hallarda fiziki risklərin idarə olunmasında əl çatan yeganə mexanizm - sığortalama və zəmanətlə bağlı punktların kontraktda göstərilməsidir.

*İstehsalat risklərinin* idarə olunması üçün sənəd şəklində təsdiq olunmuş əməliyyat qaydaları və proseduralardan istifadə olunur və rəhbərlik tərəfindən icraçı üçün işçi personala və / və ya daxili (bəzi hallarda xarici) audit orqanlarına çatdırılır [9].

*Kredit riskləri*-ssuda üzrə borc riskləridir.

Bunları minimumlaşdırmaq üçün xarici agentləri cəlb etməklə kredit ödəmə qabiliyyətlərini qiymətləndirmə əməliyyatları aparılır, tərəflərin özlərinin xüsusi maliyyə modelləri qurulur.

Bazar risklərinin idarə olunması strategiyaları hazırlanarkən 5 əsas qaydanı rəhbər tutmaq məsləhət görülür: kapital riskinin kəmiyyətcə müəyyən edilməsi və paylanması; dəyərə və risklərə görə bağlanan saziş qiymətlərinin müəyyən edilməsi; bazardakı real vəziyyəti özündə əks etdirən əsaslı strategiya; ticarətin uyğun infrastrukturası; istehsalat, kredit və bazar risklərinin effektiv ölçülməsi və idarə olunması [10].

***Ölkə riskinin qiymətləndirilməsi modelləri.***

Əsas reytinq agentlikləri və onların ölkə risklərini qiymətləndirmək üçün istifadə etdikləri metodlara baxaq.

***Bank of America World Information Services .***

*Bank of America* 10 iqtisadi göstəriciyə görə 80 dövlət üçün ölkə riskinin səviyyəsini qiymətləndirir. Hər bir indikatora görə qiymətləndirmə və həmçinin yekun qiymətləndirmə (bütün göstəricilərə görə orta qiymət) 1 – dən (kiçik çətinliklər) 80 - ə (böyük problemlər) qədər dəyişir. Bank of America öz müştərilərinə cari ildə ölkə riskini qiymətləndirməyi təklif edir: 4 illik tarixi verilənlər və 5 illik proqnoz.

***Business Environment Risk Intelleigence (BERI).S.A.***

Bu metodikada ölkə riskinin qiymətləndirilməsi (50 dövlət üçün) üç tərkib hissədən ibarət göstəricilərin ədədi orta qiymətlərinə əsaslanır:

***Siyasi risk*** (10 siyasi və sosial dəyişənlərin ölçülmüş qiyməti), ***əməliyyat riski*** (ekspertlərin köməyilə 15 iqtisadi, maliyyə və struktur dəyişənlərinin qiymətləndirilməsi) və ***R – faktor*** (mövcud qanunvericilik sisteminin, valyuta kursunun, valyuta ehtiyatlarının və xarici borcun ölçülmüş qiymətləri).

***BERI*** şkalasında riskin ən kiçik qiymətinə 100, ən böyük qiymətinə isə 0 uyğun gəlir. Risk səviyyəsinin proqnozu bir və beş il müddətinə həyata keçirilir.

***Control Risks Group (CRG).***

***CRG*** tərəfindən aparılan siyasi riskin (118 ölkə) ölçülməsi üç göstəricinin qiymət-ləndirilməsinə əsaslanır. Ekspert rəylərinə əsaslanaraq riskin yekun qiyməti aşağıdakı kimi dəyişə bilər:

< əhəmiyyət kəsb etməyən >, < aşağı >, < orta >, < yüksək >, < həddən artıq yüksək>.

Burada proqnozlaşdırma – hadisələrin müxtəlif inkişaf ssenarilərinin qurulmasından ibarətdir.

***Economist Intelligence Unit.***

Ölkə riskinin qiymətləndirilməsi 100 ölkə üçün aparılır və 4 tərkib hissəsindən ibarət baza üzərində qurulur: *siyasi risk* (ümümi qiymətləndirilmədə 22% ; 11 göstəricidən ibarətdir), *iqtisadi siyasət riski* (28% ; 27 dəyişəndən ibarətdir), *iqtisadi struktur riski* (27% ; 28 dəyişən) və *satıla bilmə (satılma) riski* (23% ; 10 dəyişən).

Şkalada yerləşən riskin alınmış ədədi qiymətləri – 0 (ən aşağı risk), 100 (ən yüksək risk) uyğun olaraq, A – E hərfləri şkalaya köçürülür (çevrilir).

***Euromoney.***

*Euromoney* - özünün ökə riski səviyyəsini qiymətləndirmə modelində 9 kateqoriyadan istifadə edir: iqtisadi verilənlər (qiymətləndirmədə 25% təşkil edir), siyasi risk (25%), borc göstəriciləri (10%), ödənilməmiş və ya zamana görə yenidən strukturlaşdırılmış borclar (10%), kredit reytinqi (10%), bank maliyyə vəsaitlərinin mümkünlüyü (5%), qısa müddətli maliyyə vəsaitlərinin mümkünlüyü, kapital bazarına giriş (5%), forfeytinqə görə diskaunt (5%). Bu zaman siyasi riskin qiyməti ekspert rəylərinə görə 0 – dan (yüksək risk) 10 – a (aşağı risk) şkalası üzrə müəyyən edilir [11].

Ölkə riskinin yekun qiyməti 0 – dan (ən böyük risk) 100 - ə qədər (ən kiçik risk) dəyişir. Verilmiş ədədi qiymətlər 10 hərfi kateqoriyaya çevrilir: AAA – dan N/R – ə qədər.

***Institutional Investor (II) .***

*II* agentliyi tərəfindən aparılan risk səviyyəsinin ölçülməsi (kredit qabiliyyəti) (135 ölkədən artıq) ekspert rəylərinə görə qurulur və bu zaman ekspertlər risk üçün ən çox əhəmiyyət kəsb edən faktorları seçir və qiymətləndirirlər.

*Yekun reytinqi* 0 – la (defoltun yüksək ehtimalı) 100 (defoltun ən kiçik ehtimalı) arasında yerləşən ədədi qiymətlərlə ölçürlər.

***International Country Risk Guide (ICRG).***

*ICRG* ölkə riskini 140 dövlət üçün təqdim edir. Verilmiş model ölkə riskinin üç əsas tərkib hissəsinə əsaslanır:

*Siyasi risk* (ümumi qiymətləndirmənin 100 punktdan 50 – ni təşkil edir, 12 dəyişən), *maliyyə riski* (100 – dən 25 – ni, dəyişənlərin sayı 5), *iqtisadi risk* (100 – dən 25 punkt, dəyişənlərin sayı 5), 22 dəyişəndən hər biri öz xüsusi şkalaları üzrə qiymətləndirilir və bunların maksimum qiymətlərinin cəmi 100 - ə bərabərdir. Yekun şkalada maksimum riskə 0, minimum riskə 100 rəqəmi uyğun gəlir.

***Moody's Investor Service.***

Suveren kredit riskini qiymətləndirən zaman Moody's həm siyasi (6 göstərici), həm də ölkədəki iqtisadi vəziyyəti (7 göstərici) təhlil edir.

Bu prosesin gedişində alınan risk səviyyəsinin qiymətləri 21 simvollu (hərf – rəqəm kombinasiyasından ibarət) şkalada göstərilir. Aaa – dan C – yə qədər.

***Political Risk Services (PRS).***

PRS – də investor üçün riskin (106 ölkə) qiymətləndirilməsi 2 mərhələdə aparılır.

*Birinci mərhələdə* Prince metodundan istifadə etməklə ölkənin gələcək rejimi proqnozlaşdırılır. Hadisələrin inkişafının növbəti 18 ay və 5 il müddətində ən çox ehtimal olunan 3

variantına baxılır. Sonra isə hər bir rejim üçün siyasi qeyri- stabilliyin ehtimal olunan səviyyəsi (<aşağı>, <orta>, <yüksək>, < daha yüksək > risk şkalası üzrə) və həmin ölkədəki işgüzar mühitə təsir edən 11dəyişənin səviyyəsi qiymətləndirilir.

*İkinci mərhələdə* rejimin yekun reytinqlərinin 100% ehtimallı olduğu nəzərə alınmaqla alınmış ədədi qiymətlər üç investisiya alt bölmələrinə görə (maliyyə transferləri, birbaşa investisiyalar və ekspert (ixrac) bazarları) hərfi şkalaya köçürülür. A – dan D – yə qədər.

***Standart & Poor's Ratings Group ( S&P).***

S&P – nin reytinq metodologiyası borclara xidmət etmək qabiliyyətinin defoltun ehtimalının proqnozlaşdırılmasının nəticələrinə əsaslanır. Bu siyasi riski, yəni ölkənin vaxtında borcları ödəmək istəyini (3 faktor) və borcları ödəmək qabiliyyəti kimi iqtisadi riski özündə birləşdirir. Ölkələrin ranqlaşdırılması 3 hərfli reytinq sistemi üzrə həyata keçirilir: AAA – I .

Ölkə riskini qiymətləndirmək üçün digər metodikalar da mövcuddur. Məsələn, *S.J. Rundt & Associates Inc, Institute of Management Development (IMD), Price Water House Coopers, DUN & Bradstreet* və başqaları.

Əsas reytinq xidmətləri mahiyyət etibarı ilə bir – birindən risk indeksinin əsas komponentləri üçün lazımi informasiya mənbələri, risk indeksinin növləri (kəmiyyət / keyfiyyət) və tiplərinə görə (sıra / skalyar) fərqlənirlər .

***Praktiki hissə.***

***Məsələ №1.*** Rəhbərin optimal qarışıq risk strategiyasını və iki A1 və A2 tipli dəzgahdan ibarət yeni texnoloji xəttin zəmanətli işinin orta nəticəsini tapmalı.

Xarici şərtlərdən asılı olaraq, köhnə texniki xətlə müqayisədə yeni dəzgahların tədbiqindən əldə edilən uduş məlumdur. Fərz olunur ki, maksimum uduş köhnə xəttin A1 və A2 ilə əvəz olunmasından alınan effektlik kriteriyasının ən böyük qiymətinə uyğun gəlir.

*Verilib:* oyun matrisi, haradaki, A1 , A2 rəhbərin strategiyalarıdır;

B1, B2-dəzgahlarda həll olunan məsələlərin xarakterini əks etdirən strategiyalardır.

Oyunun aşağı və yuxarı qiymətlərini müəyyən etməli. İlkin verilənlər cədvəl 1-də göstərilib.

Cədvəl 1.

| oyunçu2 / oyunçu1 | B1 | B2 |
|---|---|---|
| A1 | 0,3 | 0,9 |
| A2 | 0,7 | 0,5 |

*Həlli:* aşağı qiymət maksiminimum (maxmin) qaydasına görə müəyyən olunur və 0,5-bərabərdir. Yuxarı qiymət minimaksimum (minimax) prinsipinə görə müəyyən edilir və 0,7-yə bərabərdir. Tutaq ki, biz P tezliyilə A1 strategiyasını, (1-p) tezliyi ilə isə A2 strategiyasını tədbiq edirik. Onda, B1 strategiyası tədbiq olunarsa,

$W(B1)=0,3p + 0,7(1-p)$ uduşuna və ya

B2 strategiyası tədbiq olunarsa,

$W(B2)=0,9p + 0,5(1-p)$ uduşuna malik olarıq.

Oyunlar nəzəriyyəsi bizə $W(B1)=W(B2)$ şəraitindən ən yaxşı strategiyanı tapmağa imkan verir. Bu isə P=0,25 və uduşun riyazi gözləməsi 0,3* 0,25 + 0,7 * 0,75=0,6 qiymətləridir.

***Məsələ 2.*** Üç, bir-birindən asılı olmayan investisiya layihəsi verilib. İcra müddətləri bir ildir. Layihədən gözlənilən gəlir il ərzində bazar konyukturasının vəziyyətindən asılıdır. Konyuktura-nın hər bir vəziyyətinə onun üzə çıxma ehtimalını göstərmək olar. Risk faktorunu nəzərə almaqla praktiki olaraq həyata keçirilmək üçün hansı layihəyə üstünlük vermək lazım olduğunu müəyyən etməli. Layihələr üzrə verilənlər cədvəl 2-də göstərilib.

Cədvəl 2.

| Göstəricilər | Layihələrin gəlirliyi | | |
|---|---|---|---|
| Bazar konyukturasının vəziyyətinin proqnozu | A | B | C |
| Pessimist | 10 | 9 | 13 |
| Orta | 13 | 14 | 12 |
| Optimist | 15 | 20 | 10 |

Bazar konyukturasının pessimist vəziyyətinin ehtimalı- 0,25; orta vəziyyət ehtimalı (daha çox ehtimal olunan) - 0,5; optimist vəziyyət ehtimalı - 0,2-yə bərabərdir.

*Həlli:*

**A** layihəsinin gəliri:

$G_a$=10 * 0,25 + 13* 0,5 + 15 * 0,2=12 ;

B layihəsinin gəliri: $G_b$=9 * 0,25 + 14 * 0,5 + 20 * 0,2=13,25;

C layihəsinin gəliri: $G_c$=13 * 0,25 + 12 * 0,5 + 10 * 0,2=11,25.

Deməli, risk faktoru nəzərə alınmaqla praktik realizasiya üçün ən sərfəli münasib layihə - B layihəsidir.

***Məsələ 3.***

Riskləri nəzərə almaqla iki layihəni qiymətləndirmək (NPV-nı hesablamaq) lazımdır.

İki alternativ layihənin qiymətləndirildiyi tarixdə dövlət qiymətli kağızlarının orta mənfəətliliyi 13% təşkil edir. Ekspert yolu ilə müəyyən olunan risk, A layihəsi üzrə 11%, B layihəsi üçün 15% təşkil edir və layihələrin 4 il müddətində həyata keçirilmələri ilə əlaqədardır. Pul axını və investisiyaların miqdarı variantlar üzrə cədvəl 3-də göstərilib.

Cədvəl 3.

| İL | Layihə A | Layihə B |
|---|---|---|
| 0 | -105 | -125 |
| 1 | 26 | 40 |
| 2 | 31 | 50 |
| 3 | 42 | 70 |
| 4 | 35 | 60 |

*Həlli:*

İqtisadi risklərin uçotu diskont normasını artırmaq yolu ilə, yəni, diskonta riskdə edilən dəyişiklikləri daxil etməklə aparılır.

Bu cür yanaşmanı ümumi şəkildə (1) düsturundan istifadə etməklə həll etmək olar. Başqa sözlə, *CF* (Cash Flow) ödəniş axınları (burada, $\boldsymbol{CF_t}$ –t ildən (t=1,2,...n) sonrakı ödənişdir.) və başlanğıc investisiya kapitalı ***IC*** (Invested Capital) üçün (başlanğıc investisiya kapitalının ölçüsü $\boldsymbol{IC=-CF_0}$), təmiz diskontlaşdırılmış gəlir aşağıdakı düsturla ifadə olunur:

$$NPV = \sum_{i=1}^{t} \frac{CF_t}{(1+r+r')^t} - IC_0 \ , \qquad (1)$$

haradaki, r-t ilində diskontun illik stavkası, $r'$ - t ilindəki riskə görə mükafatdır.

Diskontlaşdırılmış gəlirdən fərqli olaraq *təmiz diskontlaşdırılmış gəlirin* hesablanması zama-nı ilkin investisiya öyrənilir. Təmiz diskontlaşdırılmış gəlir düsturundan fərqli olaraq diskontun məbləği bu düsturdan $IC=-CF_0$ kəmiyyəti ilə fərqlənir. I-diskontlaşdırmaya qoyulan puldur.

İndi A layihəsi üçün risk faktorunu nəzərə almaqla NPV-ni hesablayaq:

$NPV_A$= 26/(1+ 0,13 +0,11) + 31/(1+0,13 +0,11)$^2$ + 42/(1 + 0,13 + 0,11 )$^3$ + +35/(1+0,13+0,11)$^4$ – 105= 20,97 + 20,16 + 22,03 + 14,8-105= -27,04 . (2)

Deməli, A layihəsi, riski nəzərə almaqla, səmərəsizdir.

B layihəsi üçün risk faktorunu nəzərə almaqla NPV- ni hesablayaq:

$NPV_B$= 40/( 1 + 0,13 + 0,15 ) + 50/(1 + 0,13 + 0,15 )$^2$ + 70/ ( 1 + 0,13 + 0,15 )$^3$ + +60/( 1 + 0,13 + 0,15 )$^4$ – 125= 31,25 + 30,52 + 33,38 + 22,35-125=- 7,5. (3)

Risk faktorunu nəzərə almadan NPV-ni hesablayaq:

A layihəsi uçün

$NPV_A$= 26/(1 + 0,13) + 31/(1 + 0,13)$^2$ + 42/(1 + 0,13)$^3$ + 35/(1 + 0,13)$^4$ – 105= = 23,001 + 24,28 + 29,11 + 21,47 – 105= - 7,14 . (4)

B layihəsi üçün

$NPV_B$= 40/( 1 + 0,13 ) + 50/( 1 + 0,13 )$^2$ + 70/( 1 + 0,13 )$^3$ + 60/( 1 + 0,13)$^4$ – 125= 35,4 + 39,16 + 48, 51 + 36,8 – 125= 34,87 . (5)

Beləliklə, risk faktoru nəzərə alınmazsa B layihəsi qismən sərfəli hesab oluna bilər. Risk faktorunu nəzərə alsaq hər iki layihə ziyanlı olacaq.

***Məsələ 4.***

Əgər cədvəl 4-də verilən göstəricilər məlumdursa, 350 nəfər işçi personalı olan şirkətin səhmlərini almaq üçün investisiya yatıran Azərbaycan rezidentinin gəlir normasını (risk nəzərə alınmaqla) müəyyən etməli. Əgər, şirkətin qapalı olduğuna görə əlavə mükafat nəzərə alınacaqsa, onu əsaslandırmaq lazımdır. Həmçinin, məlumdur ki, şirkətin səhmlərinin cari gəliri (və ya gəlirliyi) orta qiymətə nəzərən keçən ildə 5% meyl edib, fond bazarında orta bazar mənfəəti keçən ildə orta qiymətə nəzərən 2% meyl edib.

Cədvəl 4.

| *Göstəricilər* | Qiymət |
|---|---|
| Dövlət istiqrazlarının gəlirlərinin real istifadəsi, % | 3 |
| İnflyasiya indeksi,% | 10 |
| Fond bazarında orta bazar mənfəəti, % | 21 |
| Ölkə riskinə görə əlavə mükafat,% | 9 |
| Qapalı şirkətə görə əlavə mükafat, % | 2,2 |
| Kiçik biznesə qoyulan investisiyaya görə əlavə mükafat % | 8 |

*Həlli:*

$$i = R + \beta * (R_m - R) + x + y + f,$$

harada ki, *R (%)* – mənfəət üçün risksiz qoyulan pul;

*ß* – riskin səviyyəsini ölçən əmsal;

$R_m$% - fond bazarında səhmlərin orta gəlirliyi;

*x(%)* – kiçik müəssisəyə qoyulan yatırımlara görə riskləri nəzərə alan mükafat;

*y(%)* – müəssisənin maliyyə vəziyyəti və rəhbərliyin cari və perspektiv qərarları haqqında informasiyanın qismən və ya tam şəkildə olmaması ilə bağlı riskləri nəzərə alan mükafatdır .

Mükafatın məbləği risksiz qoyulan səhmlərin 75%- i qədər ola bilər.

*f(%)* – tələbin aşağı düşməsilə nəticələnən milli gəlirin azalması, qanunvericiliyin dəyişməsi, şəxsi mülkiyyət hüquqlarının itirilməsi kimi riskləri özündə cəmləşdirən ən mühüm riskə görə mükafatdır.

$$I = 3 + 2,5 * (21 – 3) + 8 + 2,2 + 9 = 67,2\%.$$

Lakin inflyasiyanı nəzərə alsaq, mənfəətlik norması: 67,2 – 10= 57,2% olar.

***Nəticə.*** *Məqalədə Müdafiə funksiyasının sosial-hüquqi aspektinin əsas məzmunu açıqlanmış, Ölkə riski kəmiyyətlərinin qiymətləndirilməsi metodları və ölkə riskinin investisiya layihəsinin parametrlərinə təsiri, riskin keyfiyyət və kəmiyyətcə qiymətləndirilməsi metodları, ölkə riskinin qiymətləndirilməsinin ekonometrik və kombinə olunmuş metodları tədqiq olunmuşdur.*

*Bazar risklərinin idarə olunması strategiyaları hazırlanarkən ölkə riskini statistik qiymətləndirmək üçün tətbiq edilən strukturlu-keyfiyyət metodunun mahiyyəti izah edilmişdir. Sonda investisiya layihələrində risklərin ekonometrik metodlarla necə hesablanması göstərilmişdir.*

## ƏDƏBİYYAT

1. Ширяев А.Н. Основы стохастической финансовой математики М.:Фазис, 2008. С. 10-56
2. Мельников А.В., Попова Н.В., Скорнякова В.С.. Математические методы финансового анализа /М.: Анкил, 2006. 440 с
3. Давнис В.В., Сурков П.В. Эконометрический вариант биномиальной модели эволюции цен на финансовом рынке, Научно-технические ведомости. Санкт-Петер-бургского государственного политехнического университета. 2007. № 3. Т. 2. С. 144-150
4. Агафонова И.П. Концепция построения системы риск-менеджмента при реализации инновационного проекта, Управление риском, 2008, №2 с, 42-49
5. Бабин В.А. О практических аспектах оценки риска в бизнесе, Управление риском, 2006,№ 2с, 52-56
6. Буянов В.П. Учет рисков в экономических решениях коммерческой фирмы, Управление риском, 2013, №2, С. 56-58
7. Гранатуров В. М. Экономический риск: сущность, методы измерения, пути Снижения, М.: Дело и сервис, 2010, 160 с
8. Грачева М.В. Риск-анализ инвестиционного проекта,М.: ЮНИТИ-ДАНА, 2011,351 с.
9. Рогов М. А. Риск-менеджмент, М.: Финансы и статистика, 2001, 120 с
10. Чернов В.Б. Анализ риска комплексного инвестиционного проекта, Управление риском, 2009, №3 с, 50-64
11. Шапкин А.С. Управление кредитным риском, Управление риском. 2010. № 2. с. 59

## ABSTRACT


**Rahimova Gulara**
**Afandiyeva Aygun**


**Essence, models and forms of manifestation of protective function of risk**


The importance of value of the theory of economic uncertainty and risk in particular is basic for all states in the conditions of a modern era of development of information systems and computer technologies. It is undoubted that the risk is probabilistic category, and in this sense is the most reasonable from scientific positions to characterize and measure it as probability of emergence of a certain level of losses. Told above characterizes the category "risk" from the qualitative party, but creates a basis for the transfer of the concept "enterprise risk" to the quantitative. Really, if the risk is a danger of loss of resources or the income, there is its quantitative measure determined by the absolute or relative level of losses.

The enterprise risk can be defined as economic category quantitatively and qualitatively expressed in uncertainty of an outcome of the planned business activity. This uncertainty reflects failure degree (or success) activity of the businessman in comparison with in advance planned results. As well as any economic category, enterprise risk shows the essence in functions. Allocate two main functions: regulating and protective.

As a result the enterprise risk is characterized as danger of potentially possible, probable loss of resources or short-reception of the income in comparison with the option calculated on rational use of resources in this type of business activity.

In this article the interesting review and the analysis of properties of risks is considered.


## РЕЗЮМЕ


**Гюлара Рагимова**
**Айгюн Ефендиева**


**Сущность, модели и формы проявления защитной функции риска**


Значимость значения теории экономической неопределенности и риска в особенности принципиальна для всех государств в условиях современной эры развития информационных систем и компьютерных технологий. Несомненно, что риск есть вероятностная категория, и в этом смысле наиболее обоснованно с научных позиций характеризовать и измерить его как вероятность возникновения определенного уровня потерь. Сказанное выше характеризует категорию “риск” с качественной стороны, но создает основу для перевода понятия “предпринимательский риск” в количественное. Действительно, если риск - это опасность потери ресурсов или дохода, то существует его количественная мера, определяемая абсолютным или относительным уровнем потерь.

Предпринимательский риск можно определить как экономическую категорию количественно и качественно выражающуюся в неопределенности исхода намеченной предпринимательской деятельности. Данная неопределенность отражает степень неуспеха (или успеха) деятельности предпринимателя по сравнению с заранее планируемыми результатами. Как и любая экономическая категория, предпринимательский риск проявляет свою сущность в функциях. Выделяют две основные функции: регулирующую и защитную.

В итоге предпринимательский риск характеризуется как опасность потенциально возможной, вероятной потери ресурсов или недополучения доходов по сравнению с вариантом, рассчитанным на рациональное использование ресурсов в данном виде предпринимательской деятельности.

В данной статье рассматривается интересный обзор и анализ свойств рисков .

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**

**KAMRAN VƏLİZADƏ**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:316.32**

## SOSİAL , SİYASİ HADİSƏ KİMİ MULTİKULTURALİZM VƏ XARİCİ SİYASƏT

**Açar sözlər:** *tolerantlıq , siyasi mədəniyyət , multikultural dəyərlər*

**Key words:** *tolerance, the political culture, multicultural values*

**Ключевые слова:** *толерантность, политическая культура, мультикультурных ценностей*

Multikulturalizm 1960-cı illərin sonunda Kanadada meydana gəlmişdir. Termin kimi o, 1970-ci illərdə ədəbiyyatda əks olunmuşdur. The Harper Colins sosiologiya lüğətində (1991) Multikulturalizmin belə bir tərifi verilir: "Multikulturalizm – *bir çox cəmiyyətlərin xüsusiyyəti kimi plüralizmin mövcudluğunun etiraf olunması və inkişafı deməkdir.* Multikulturalizm mədəni müxtəlifliyin, məsələn azlıqların dilinin müdafiəsi məsələsini öz qarşısına qoyur. Eyni zamanda o, azlıqların mədəniyyəti ilə əsas mədəniyyətin qeyri-bərabər münasibətlərini nəzərdə saxlayır*".*

Tarixi nöqteyi-nəzərdən, plüralizm ideyası Avropada XVI və XVII əsrlərin dini münaqişələrin nəticəsində tolerantlığın tədricən qəbul edilməsi ilə yanaşı meydana gəldi. Tolerantlıq və plüralizm fərdi anlayışdırlar, lakin onlar bir-birinə çox bağlıdırlar. Tolerantlıq plüralizmin bir şərtidir, yəni tolerant olmayan plüralizm yalançı, saxta plüralizmdir. Bunların arasında fərq ondan ibarətdir ki, tolerantlıq dəyərlərə hörmət edir, plüralizm isə fərqli dəyərlərin mövcudluğunu təsdiq edir. Çünki plüralizm fərqlərin və müxtəlif mövqelərin şəxsləri, siyasətləri və cəmiyyətləri zənginləşdirən dəyərlər kimi qiymətləndirir.

XVII əsrə qədər adamlar fərqli mövqelərin, dinlərin və s. mövcudluğun dövlətlərin dağılmasına səbəb olan qeyri-sabitliyə və münaqişələrə gətirəcəyinə inanırdılar. Yekdillik isə dövlətin zəruri şərti sayılırdı. Tədricən əks mövqe bərqərar olmağa başladı, və əksinə, yekdilliyə şübhə ilə yanaşmağa başladılar. Və elə bu yolla gedə-gedə biz bu günkü demokratiyaya çatdıq.

**"Multikulturalizm" termini siyasi leksikona ilk dəfə 1970-ci ildə – Avstraliyada İmmiqrasiya naziri vəzifəsində çalışmış Al Kresbi tərəfindən daxil edilmişdir. Multikulturalizm - bu ilk növbədə, bir ölkədə mədəniyyətlərin qarşılıqlı təsirində müəyyən "keyfiyyət"ə nail olunmasına yönəlmiş demokratik dövlət strategiyasıdır.** Multikulturalizm hamı tərəfindən tanınan, müxtəlif mədəniyyətlərə tolerant münasibətə əsaslanan dinc, yanaşı yaşama prinsipidir. Müxtəlif xalqların, millətlərin, dinlərin xüsusiyyətlərinə tolerant münasibət azərbaycanlıların mentalitetinə xasdır.

Alman filosofu və sosioloqu Yurgen Habermasa (1929) görə, multikulturalizmin əsas prinsipi "mədəni həyatın müxtəlif formalarının bərabər hüquqlarla yanaşı mövcud olması", sadə dillə desək, azlıqla çoxluğun bərabər hüquqlara malik olmasıdır. İngilis mənbələrinə və bir sıra Qərb alimlərinin bu mövzuda apardıqları tədqiqatlara əsaslansaq, multikulturalizm özündə hansısa ölkədə, eləcə də bütün dünyada mədəni müxtəlifliyin qorunub saxlanmasına və inkişafına yönəlmiş siyasəti və bu siyasəti əsaslandıran ideologiyanı ehtiva edir. Avropa Birliyi məkanında isə multikulturalizm ötən əsrin 60-cı illərinin sonlarından xüsusi əhəmiyyət kəsb etməyə başlayıb. Lakin Birliyin söz sahibi olan ölkələri multikulturalizmi mahiyyətcə liberal dəyərlərin tətbiqi kimi yox, sözügedən məkana işçi miqrantların cəlb edilməsini nəzərdə tutan ideologiya olaraq qəbul edirdilər. Avropa Birliyi isə bir təşkilat kimi bu prosesə dəstək verərək, dolayısı ilə multikulturalizm adı altında "açıq qapı" siyasəti yürüdərək daha çox Birliyin iqtisadi mənafeyini qorumaq məqsədi güdürdü. Bir sıra alimlərin fikrincə, qloballaşma dövründə heç bir ölkə multikulturalizmin təsirindən kənarda qala bilməz. Bu qənaəti bölüşənlər qeyd edir ki, günümüzdə multikulturalizmin böhranı və ya süqutu ilə bağlı Qərbdə səslənən fikirlər heç də birmənalı qəbul edilmir. İnsanlar minillər boyu yaşadıqları çoxmədəniyyətli həyatı bir zənginlik kimi qəbul edirlər. Multikultural dəyərləri müxtəlif mədəniyyətlərə, dinlərə, sivilizasiyalara tolerant münasibət şərtləndirir.

**Multikulturalizm elə bir siyasətdir ki, o, mədəni plüralizmi qəbul edir və onun inkişafına şərait yaradır.** Bu, ölkə əhalisinin etnik irqi və dini müxtəlifliyindən asılı olmayaraq, onların hamısının hüquq və azadlıqlarına hörmətlə əlaqədardır. Multikultural cəmiyyətdə hər bir vətəndaş öz mədəniyyətini, dilini, ənənəsini, etnik və dini dəyərlərini inkişaf etdirmək, ana dilində məktəb açmaq, qəzet və jurnal dərc etdirmək sahələrində bərabər hüquqlara malikdir. Multikulturalizm siyasəti assimilyasiyanı inkar edən inteqrasiyaya aparır.

Multikulturalizmin nəzəri əsasını liberalizm, xüsusən də liberalizmin azadlıq, bərabərlik və qardaşlıq kimi dəyərləri təşkil edir. Liberalizmdən fərqli olaraq multikulturalizm fərdlərin deyil, qrupların hüquqlarını ön plana çəkir.

**Multikuliuralizm – təkcə adamların hakim etnik qrupu tərəfindən deyil, həm də milli azlıqlar və ölkəyə yeni daxil olanlar tərəfindən dəstəklənən mədəni müxtəlifliyə münasibətdə fərqli reaksiyaların rəngarəngliyidir**.

**Multikulturalizm – pozitiv sosial təzahürdür**. O, cəmiyyətin inkişafı üçün münbit şərait yaradır; etnik münaqişələrin qarşısını alır və müxtəlif xalqlar arasında etimadı möhkəmlədir;

Demokratiya multikultural cəmiyyətin formalaşmasında ən mühüm amillərdən biridir.

Multikulturalizm liberal eqalitarian və kommunitarian yanaşmalar vasitəsilə əsaslandırılır.

1.Liberallara (Kymlicka) görə, fərdin özü istədiyi dəyərləri seçir. O, icma həyatına münasibətdə öz hüquq və azadlıqlarını daha uca tutur. Liberallar muxtariyyət və bərabərlik kimi liberal dəyərlərə əsaslanır. Kommunitarianism və millətçilik nəzəriyyələrini tənqid edərək, Kimlika qeyd edir ki, liberalizm insanın özünə hörmət ilə onun mənsub olduğu qrupun mədəniyyəti arasında dərin əlaqənin olduğunu göstərir. Kimlikaya görə, azlıqlar öz mədəniyyətlərini qorumaqda çətinlik çəkdiklərinə görə onlara xüsusi qayğı göstərilməlidir.

2. Kommunitarian (Çarlz Teylor) fərdin cəmiyyətə münasibətdə əsas olduğuna dair ideyanı təkzib edirlər. Atomizmin yerinə onlar holizmi müdafiə edirlər. Teylorun "tanıma siyasəti" holizmin kollektiv mədəni dəyərlərin vacibliyini göstərir. Müxtəlif mədəniyyətlərə bərabər əhəmiyyətin verilməsi ənənəvi liberal cəmiyyətin azlıqlara xüsusi hüquqların verilməsini istəyən cəmiyyətlə əvəz olunmalıdır.

Multikulturalizm tərcümədə çoxmədəniyyətlilik deməkdir. Çoxmədəniyyətlilik dedikdə isə ilk növbədə etnik, irqi, dini və mədəni müxtəlifliklər, bu müxtəlifliklərin əsasını təşkil edən dəyərlər nəzərdə tutulur. Müasir dövrdə dünya ölkələrinin əksəriyyətində etnik, irqi, dini və mədəni müxtəlifliklər mövcuddur. Bu müxtəlifliklər tarixi prosesin inkişafının nəticəsi kimi obyektiv xarakter daşıyır. Onlar xalqların etnik-mədəni dəyərlərini, mədəniyyətlərini xarakterizə etməklə onların dünyagörüşü və fəaliyyətlərinin əsasını təşkil edir və həyatında müsbət rol oynayır.

Stenford Ensiklopediyasında qeyd olunur ki, Multikulturalizm məfhumuna bütün məzlum qruplar- afro-amerikanlılar, qadınlar, azlıqların nümayəndələri, şikəstlər və s. – aid edilsə də, multikulturalizmin tədqiqatçılarının əksəriyyəti adətən bu məfhuma etnik və dini azlıqları təşkil edən immiqrantları (mühacirləri) (məs.ABŞ-dakı Latın Amerikalıları, Qərbi Avropada müsəlmanları), milli azlıqları (məs. katalonları, baskları, uelsliləri, kvebekliləri) və yerli xalqları (məs. Şimali Amerikadakı yerli xalqları, Yeni Zellandiyadakı maoriləri) daxil edirlər.

Multikulturalizm – sosial ədalət, imkanların bərabərliyi, demokratiya kimi anlayışların müzakirə olunan terminlər sırasına daxildir. Multikulturalizm cəmiyyətin inkişafının məhsuludur, cəmiyyətdə baş verən hadisələr tərəfindən meydana gəldiyinə görə o, öz mahiyyətinə görə ilk növbədə sosial hadisədir. Sosial hadisə kimi formalaşan multikulturalizm digər sosial hadisələrə (siyasətə, iqtisadiyyata, mədəniyyətə, mənəviyyata, ictimai şüurun müxtəlif formalarına və s.) təsir göstərir, onlarla qarşılıqlı münasibətdə olur.

Multikulturalizm etnik-mədəni müxtəlifliklərin və onların əsasını təşkil edən dəyərlərin qorunması və inkişafını nəzərdə tutur. Bu, isə insanların hüququ və azadlıqlarının müdafiə olunmasının tərkib hissəsidir. Multikulturalizmi təbliğ edən ölkə onu dövlət ideologiyasının tərkib hissəsi, dövlət siyasəti səviyyəsinə qaldırır. Bir sosial hadisə kimi meydana gələn multikulturalizmin inkişafının sonrakı mərhələləri onun dövlət ideologiyasına, dövlət siyasətinə çevrilməsidir. Bu mərhələlərin reallaşmasında əsas rol dövlətə məxsusdur.

Multikulturalizmin vətəndaşların həyat tərzinə çevrilməsi onun inkişafının ən yüksək mərhələsidir. Bu mərhələdə vətəndaş cəmiyyəti multikulturalizmin cəmiyyətdə yayılmasında olduqca fəal rol oynayır. Multikulturalizm ideyaları ictimai şüurda möhkəmlənir. Azərbaycanda multikulturalizmin dövlət siyasəti və həyat tərzinə çevrilməsi onun yüksək inkişaf mərhələsindən xəbər verir.

Ədəbiyyatda multikulturalizmin zəif və güclü formalarının olamalarına dair fikirlər mövcuddur. Multikulturalizmin zəif və güclü formaları bir-birindən seçilir. London İqtisad

Məktəbinin professoru Çandran Kukatasın fikrincə, multikulturalizmin zəif və güclü formaları cəmiyyətdə mövcud olan etnik –mədəni müxtəlifliyə münasibətdə aparılan siyasətlərdəndir.

Multikulturalizmin zəif forması azlıqlara öz etnik-mədəni dəyərlərini qorumaq üçün azadlıq verir. Lakin azlıqlar öz imkanları ilə bu dəyərlərini qorumaq iqtidarında olmurlar və nəticədə cəmiyyətdəki hakim etnik-mədəni dəyərləri qəbul etmək onlar üçün ən optimal çıxış yolu olur. Başqa sözlə desək, onlar elə bir vəziyyətə düşürlər ki, onlara bilərəkdən, xarici təzyiq olmadan, öz istəkləri ilə titular xalqın etnik-mədəni dəyərlərini qəbul etmək sərf edir. Öz mədəni kimliyini, etnik-mədəni dəyərlərini qorumaq isə çətin olur, baha başa gəlir. Mövcud vəziyyətdə onların başqa çıxış yolu olmadığına görə, onlar xoşluqla assimilyasiyaya gedirlər, yəni yaşadıqları cəmiyyətə inteqrasiya olunurlar.

Multikulturalizmin zəif formasından fərqli olaraq onun güclü forması etnik azlıqlara öz etnik-mədəni dəyərlərini qorumaq üçün azadlıq verməklə yanaşı onların yaşadıqları cəmiyyətin bütün sahələrində fəal iştirak etmələri üçün hər cür şəraitin yaradılmasını tələb edir. Multikulturalizmin güclü forması cəmiyyətdəki etnik-mədəni müxtəlifliyə münasibətdə dözümlüyün nümayiş etdirilməsi ilə kifayətlənmir. O, bu müxtəlifliyin dövlət tərəfindən inkişaf etdirilməsini, onun maddi, hüquqi və mənəvi cəhətdən dəstəklənməsini vacib hesab edir.

Çandran Kukatas multikulturalizmin qeyd olunan formalarının hər birinin liberalizm nəzəriyyəsinə əsaslandığını göstərir. Lakin zəif multikulturalizm klassik liberalizmə, güclü multikulturalizm isə müasir liberalizmə əsaslanır.

Müasir ictimai inkişafın, xüsusilə də onun səbəblərinin və istiqamətinin tədqiq olunmasının mühüm metodoloji əsaslarından biri ictimai inkişafda mədəniyyətin aparıcı roluna dair elmi müddəadır. Bu müddəa mədəni sivilizasion yanaşma adlanır. Mədəni sivilizasion yanaşmaya əsasən, dünya kommunist sisteminin dağılması soyuq müharibə dövrünə son qoyaraq iki bir-birinə zidd olan siyasi sistemin hərbi, siyasi, iqtisadi və ideoloji qarşıdurmasına da son qoydu. Nəticədə xalqlar öz mədəni dəyərlərinə müraciət etməyə imkan əldə etdilər. Bu barədə Samuil Hantunqton "Sivilizasiyaların toqquşması və dünya düzəminin yenidən qurulması" adlı kitabında qeyd edir: "Yeni dünyada xalqlar arasında əsas fərqlər ideoloji, siyasi, iqtisadi deyil, mədəni xarakter daşıyır". Öz tarixinə, dininə, dilinə, mənəvi dəyərlərinə müraciət edən xalqlar, öz kimliklərini müəyyən edirlər.

İnqlehart Ronald: "Dövlət başçıları və qanunlar dəyişə bilər, lakin mədəniyyətin əsas aspektlərini dəyişmək üçün çoxlu illər tələb olunacaqdır". Ralf Darendorf: "İnstitusional mühitin, yəni qanunların dəyişməsi üçün bir ay kifayətdir, iqtisadi şəraitin dəyişməsinə bir iki il tələb olunur, amma şüurun dəyişməsinə onilliklər tələb olunur." Pain: "Mədəniyyət siyasətdən daha vacibdir, çünki Mədəniyyət stereotipləri siyasi doktrinalardan əvvəl gəlir və onların əsasını təşkil edir."

Beləliklə, multikulturalizm ilk növbədə mədəniyyətin ictimai inkişafda aparıcı rol oynadığını, etnik- mədəni qrupların maraqlarının tanınmasını və həyata keçirilməsi ideyasına əsaslanır. Bu qrupların tələblərinin əsasında dil və din məsələsi durur. İctimai inkişafda mədəniyyətin aparıcı roluna dair qeyd olunan elmi müddəa müasir dövrdə xalqların həyatında mədəniyyətin mühüm rol oynadığını göstərməklə cəmiyyətdə etnik-mədəni müxtəlifliklərin qalxmasının səbəbini izah edir. Belə olan bir şəraitdə etnik-mədəni müxtəlifliklərin tənzimlənməsinin ən optimal vasitəsi kimi multikulturalizm özünü büruzə verir. Buna görə də multikulturalizmin tədqiq olunmasında mədəni sivilizasion yanaşmanın böyük metodoloji əhəmiyyəti vardır.

**Multikulturalizm və xarici siyasət.**Cəmiyyətdə ictimai-siyasi və iqtisadi münasibətlərin nizamlanması dövlətin qarşısında duran əsas məqsədlərdən biridir. Hər bir dövlətin daxili siyasətinin əsas məqsədlərindən biri cəmiyyətdə sabitliyin və inkişafın təmin edilməsidir. Bu məqsədin uğurla həyata keçirilməsinin əsas şərtlərindən biri isə cəmiyyətdə müxtəlif mədəniyyətləri təmsil edən etniklər arasında harmoniyanın olmasıdır. Bu gün dünyada mövcud olan dövlətlərin az bir qismi istisna olmaqla əksəriyyəti polietnik dövlətlərdir. Əhalisinin 5 %-dən artığı əsas etnik kütlədən fərqlənirsə, bu dövlət polietnik dövlət sayılır. Tarixi inkişaf prosesində

demokratik inkişaf yolu tutmuş bir çox dövlətlərin daxili siyasətində multikultural elementlər artmağa başladı. Bunun səbəbi müasir dövrdə dünyada gedən qloballaşma və inteqrasiya prosesləri ilə əlaqədar olaraq cəmiyyətin idarə olunmasında multikulturalizmin xüsusi önəm daşımasıdır. Müasir dövrdə inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlərin əksəriyyətinin daxili siyasətində multikulturalizmin elementləri bu və digər dərəcədə təmsil olunmuşdur.

Multikulturalizm ideyaları liberal-demokratik siyasi quruluşa malik ölkələrdə formalaşmışdır. Başqa sözlə desək multikulturalizm nəzəriyyə və siyasi praktika kimi liberalizm əsasında inkişaf etmişdir.Liberal-demokratik ideologiyadan yarandığı üçün multikulturalizm siyasəti həyata keçirilərkən bu ideyanın sosial-siyasi təcrübəsinə əsaslanılmasını nəzərdə tutur. Bu isə multikulturalizmə birmənalı yanaşmanı mümkün olmadığını, fərqli siyasi qurluşlu ölkələrə multikulturalizm ideyalarının tətbiq edilməsinin çətinliyini göstərir. Bu ölkələrə postsovet ölkələri də aiddir. Multikultural problemlər bütün Avropa üçün kifayət qədər aktual olsa da müxtəlif ölkələr öz spesefik xüsusiyyətləri ilə fərqlənirlər. Məsələn Rusiyada multikultural vəziyyət Qərbi Avropadan, Ukraynadakı vəziyyət isə Rusiyadkından fərqlənir. Digər Avropa ölkələrində olduğu kimi postsovet məkənında da qonşulara məxsus mədəniyyət stereotiplərinə üstünlük verilməsi digər mədəniyyətə məxsus olanların qanuni maraqları, beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilmiş hüquq normaları və demokratik dəyərlərlə ziddiyyətə səbəb olur.

Multikulturalizm dövlətlərin daxili siyasətində mühüm amilə çevrildiyi kimi, xarici siyasətin formalaşmasına güclü təsir göstərir. Dünyanın böyük dövlətlərinin xarici siyasətlərində multikultural elementlər özünü qabarıq şəkildə göstərir. Dünyanın qabaqcıl ölkələri son dövrlərə qədər multikultural demokratik cəmiyyət quruculuğu istiqamətində inamlı addımlar atırdılar. Onların bu niyyətləri özünü bir sıra beynəlxalq hüquqi sənədlərin qəbulunda göstərdi.

**Nəticə.**Multikulturalizm sadəcə mənəvi öhdəlik deyil, həmçinin siyasi və hüquqi məcburiyyətdir. Multikulturalizm , tolerantlıq sülhun təməli olmaqla, hər bir hüquqi və demokratik dövlətin, insan hüquqlarının və pluralizmin əsas açarıdır.

Dövlət müstəvisində tolerantlıq, qanunvericilik, adminstrativ və məhkəmə fəaliyyətində ədalətlilik prinsipinin qorunmasını, həmçinin hər bir şəxsə bərabər sosial-iqtisadi şansların yaradılmasını tələb edir. Əks halda cəmiyyətdə düşmənçilik və fanatizm ruhu genişlənə bilər. Bəyannaməni qəbul edən dövlətlər, qeyri-tolerantıq təhlükəsini ictimaiyyətə daha aydın çatdırılması üçün, hər il 16 noyabr tarixini “Dünya Tolerantılq Günü” kimi qeyd olunmasını elan edirlər.

Bu gün dünyada ümumbəşəri, demokratik dəyərlərə yönəlmiş xarici siyasətlə yanaşı milli, dini və regional dəyərlərə əsaslanan xarici siyasət də özünü qabarıq şəkildə göstərir. Bir çox mütəxəssislərin fikrincə qloballaşma milli əlamətlərin, mədəniyyətlərin sıxışdırılmasına, tənəzzülünə gətirib çıxarır.

Son dövrə qədər Avropa dövlətləri daxili və xarici siyasətdə multikultural dəyərlərə xüsusi önəm verirdilər. Lakin son dövrdə dünyada baş vermiş proseslər bir sıra tanınmış Qərbli liderlərin bu siyasətə münasibətinin dəyişdiyini göstərir. Dünyada gedən proseslərdən fərqli olaraq Azərbaycanın xarici siyasətində multikulturalizmə daha böyük önəm verilir. Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi, dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Ötən illər ərzində Azərbaycan Respublikası insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirmiş, insan hüquqlarının müdafiəsi sahəsində 50-dən çox beynəlxalq sənədə tərəfdar çıxmış və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətər əldə etmişdir.

## ƏDƏBİYYAT


1. Куропятник А.И. Мультикультурализм. Проблемы социальной стабильности полиэтинчных обществ, СПб., 2000, глава 1

2. Kymlicka W. Multiculturalism as Fairness, Journal of Political Philosophy (4) 1997, pp.406 – 427
3. Лэндис Д. Культура объясняет почти все. / Культура имеет значение. Каким образом ценности способствуют общественному прогрессу / Под ред. Л. Харрисона и С. Хантингтона. М.2002, с. 38 – 54
4. Abbasbəyli A., Nəcəfov E. Beynəlxalq münasibətlər nəzəriyyəsi, Bakı, 2005, S. 163-177 http://static.bsu.az/w23/BMN.pdf
5. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti,Bakı, 2005
6. İbrahimli X. Politologiya, Bakı, 2008

**ABSTRACT**

**Kamran Valizada**

**Multiculturalism and foreign policy**

Multiculturalism alludes the idea of protecting cultural diversity and the policy to divert ideology of multiculturalism. Some scholars note that no countries can stay away from influence of multiculturalism in the process of globalization. People adopt the multicultural life as a treasure of their nation. Every citizens have right to distribute their culture, language, tradition, ethnic and religious values as well as to open schools, to publsih newspaper and journal in their native languages in multicultural community. The policy of multiculturalism leads to integration avoiding assimilation.

The values of liberalism such as freedom, equality and brotherhood are considered as a theoretical basis of multiculturalism. While liberalism is ensuring rights of individuals, multiculturalism protects rights of groups. In addition, multiculturalism establishes stable ground for development of society; prevents ethnic conflicts and enhances mutual credence among different nations. Democracy is the inevitable factor in the formation of multicultural society. The translation of multiculturalism is called cultural diversity. Also, cultural diversity is referred to as ethnic, race, religious, cultural differences and values are core of diversity. Multiculturalism is a social event due to its application. Multiculturalism intends protection of ethnic, cultural differences and values. When multiculturalism becomes life style of citizens, it is the peak point of multicultural development. Thus, Azerbaijan is one of the countries to declare multiculturalism as its national policy and life style of its citizens in the globe where this process is perceived as an ultimate progress of multiculturalism.

**РЕЗЮМЕ**

**Кямран Велизаде**

**Мультикультурализм и внешняя политика**

Мультикультурализм включает в себя **политику, направленную на сохранение и развитие культурного разнообразия во всем мире, и идеологию, обосновывающую эту политику.** По мнению ряда ученых, в условиях глобализации ни одна страна не может оказаться на стороне от влияния мультикультурализма. Многокультуральная жизнь, тысячелетиями созданная и сохраненная людьми, воспринимается как достоянием всех. В мультикультуральном обществе любой гражданин имеет равные права развивать свою культуру, язык, традиции, этнические и религиозные ценности, открывать школу и издавать газеты и журналы на родном языке. Политика мультикультурализма ведет к интеграции, исключающей ассимиляции.

**Теоретическую основу мультикультурализма** составляют ценности свободы, равенства и братства. В отличие от либерализма мультикультурализм на передний план выдвигает права не индивидов, а групп людей.

**Мультикультурализм** создает благоприятные условия для развития общества, предотвращает от этнических конфликтов и укрепляет доверие между народами.

**Демократия** является одним из важнейших факторов в формировании **мультикультурального общества**.

Мультикультурализм в переводе означает многокультурность (многокультурие). Многокультурность (поликультуральность) в свою очередь предусматривает этническое, расовое, религиозное и культурное разнообразия и ценности, составляющие их основы.

**Мультикультурализм** по сути своей **явление социальное.**

Мультикультурализм предусматривает сохранение и развитие этническо-культурных разнообразий и ценностей, составляющие их основы.Превращение мультикультурализма в образ жизни граждан является показателем высшего этапа его развития. То, что сегодня в Азербайджане мультикультурализм поднят в ранг государственной политики и он превратился в образ жизни граждан, с уверенностью можно считать самым высоким уровнем развития этого общечеловеческого феномена.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: Hüquq üzrə fəlsəfə doktoru, dosent Y.Hüseynov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**

**VAHİDƏ BAYRAMOVA**

*Naxçıvan Dövlət Universiteti*

**UOT:141.45**

## BEYNƏLXALQ ARBİTRAJIN ANLAYIŞI VƏ HÜQUQİ TƏBİƏTİ

**Açar sözlər:** *beynəlxalq hüquq, arbirtaj, məhkəmə, mübahisə, qərar*
**Key words:** *international law, arbitration, court, debate, decision*
**Ключевые слова:** *международное право, арбитраж, суд, обсуждение, решение*

Müasir beynəlxalq hüququn ən mühüm, bütün dövlətlər üçün hüquqi cəhətdən məcburi xarakter daşıyan, ən yüksək hüquqi qüvvəyə malik olan jus cogens normalarından biri də beynəlxalq mübahisələrin dinc yolla həll olunması prinsipidir. Bu prinsipə uyğun olaraq dövlətlər öz mübahisələrini, onların xarakterindən və mənşəyindən asılı olmayaraq yalnız və yalnız dinc vasitələrlə həll etməlidirlər. Belə ki, BMT Nizamnaməsinin 1-ci maddəsinin 1-ci bəndinə əsasən beynəlxalq mübahisələrin ədalət prinsipi və beynəlxalq hüququn digər prinsipləri əsasında, dinc vasitələrlə həll olunması BMT-nin üzvü olan dövlətlər üçün öhdəlik kimi müəyyən olunmuşdur.

Beynəlxalq mübahisələrin nizama salınmasının dinc vasitələri diplomatik və məhkəmə vasitələrindən ibarətdir.

Beynəlxalq mübahisələrin nizama salınmasının dinc vasitələrindən biri də beynəlxalq arbitrajdır. Arbitraj beynəlxalq mübahisənin həllinin məhkəmə vasitəsi olmaqla mühüm və geniş tətbiq olunan mexanizmlərdən biridir.

Beynəlxalq arbitraj araşdırması dedikdə, tərəflər arasındakı mübahisələrin həmin tərəflərin özlərinin seçdiyi və onların iradəsindən asılı olmayan, qəbul etdiyi qərar qəti və məcburi olan üçüncü tərəf, yəni arbitr tərəfindən həlli başa düşülür. Mübahisə tərəfləri dövlətlər və beynəlxalq təşkilatlardırsa, yəni beynəlxalq ümumi hüququn subyektləridirlərsə, belə mübahisələrə beynəlxalq ümumi hüququn subyektləri arasındakı mübahisələr üzrə arbitrajlar tərəfindən baxılır. Belə arbitrajlara misal olaraq, Haaqadakı daimi arbitraj məhkəməsi, dövlətlər arasında konkret mübahisələrin həlli üçün yaradılan müxtəlif arbitrajlar, Dəniz hüququna dair 1982-ci il BMT Konvensiyasında, Ümumdünya Ticarət Təşkilatı (ÜTT) haqqında müqavilədə və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı çərçivəsində nəzərdə tutulan xüsusi arbitrajları göstərmək olar. Mübahisə tərəflərindən ən azı biri xarici hüquqi və ya fiziki şəxsdirsə, yəni beynəlxalq xüsusi hüququn subyektləri arasındakı mübahisələr üzrə arbitrajlar tərəfindən baxılır. Belə arbitrajlara misal olaraq, Parisdəki Beynəlxalq Ticarət Palatası yanında Arbitraj məhkəməsini, Stolkholm Ticarət Palatasınının Arbitraj İnstitutunu, London Beynəlxalq Arbitraj məhkəməsini və digər arbitrajları göstərmək olar. Qeyd etmək lazımdır ki, beynəlxalq xüsusi hüququn subyektləri arasındakı mübahisələrə baxan arbitrajları "beynəlxalq kommersiya arbitrajları" və ya "beynəlxalq ticarət arbitrajları" da adlandırırlar.

Beynəlxalq arbitrajın aşağıdakı xüsusiyyətləri vardır:

- Hüquqi mübahisələrin həlli üçün mexanizmdir. Bu o deməkdir ki, arbitraj tərəflərin beynəlxalq hüquqdan irəli gələn hüquq və vəzifələrini əsas tutur və mübahisənin həllinə bu hüququn işin faktlarına tətbiq edilməsi ilə nail olur.
- Arbitraj məhkəməsinin qərarları tərəflər üçün hüquqi cəhətdən məcburidir. Öz mübahisələrini arbitraja etibar etmiş tərəflər onun çıxardığı hər bir qərarı yerinə yetirməyə borcludur.
- Arbitraj mühakiməsi icraatında tərəflər arbitrləri özləri seçə bilər. BMT-nin Beynəlxalq Məhkəməsinə verilən mübahisələrdən fərqli olaraq, arbitraj məhkəməsinə çıxan tərəflər həm məhkəmə heyətinin tərkibi, həm də prosesin özü ilə bağlı birbaşa nəzarət imkanına malikdir. Bu cür təyin olunmuş məhkəmə heyəti tərəflərin etibarını qazanmış olur və bu da onun qəbul etdiyi qərarın gücünə müsbət təsir edir.

Arbitraj termini iki əsas mənada işlədilir. Birinci mənada arbitraj dedikdə, mülki, iqtisadi-təsərrüfat, kommersiya və digər mübahisələrə baxmaq və onları həll etmək mexanizmi başa düşülür. Bu mənada ona mübahisələrə baxmağın arbitraj qaydası deyilir. Doktrinada və praktikada qeyd edilir ki, mübahisələrə arbitraj qaydasında baxmağın məhkəmə qaydasına nisbətən bir sıra üstünlükləri vardır. Həmin üstünlükləri daha ətraflı nəzərdən keçirək:

Birinci üstünlük ondan ibarətdir ki, mübahisəyə arbitraj qaydasında nisbətən tez baxılır. Belə ki, mübahisəyə arbitraj qaydasında baxmaq prosedurası sadədir; o, məhkəmə qaydasından fərqli olaraq çoxsaylı prosessual normalarla tənzimlənmir. Arbitraj prosedurasını əsasən mübahisə edən tərəflərin özləri müəyyənləşdirirlər. Bu da mübahisəyə nisbətən qısa müddətdə, tez bir zamanda baxılmasını təmin edir.

İkincisi, arbitraj dövlət təsisatı yox, demokratik xarakterli ictimai mexanizmdir. Bu mexanizmi aralarında yaranmış mülki, iqtisadi, təsərrüfat və s. mübahisələri həll etməkdən ötrü tərəflərin özləri yaradırlar. Belə ki, həmin mexanizmin tərkibi ayrı-ayrı şəxslərdən təşkil olunmuşdur ki, bu şəxsləri məhz mübahisə edən tərəflərin özləri müəyyənləşdirir.

Üçüncüsü, arbitraj könüllülük prinsipinə əsaslanan mexanizmdir. Belə ki, tərəflərin arasında yaranmış mübahisə baxılmaq üçün arbitraja onların könüllü razılığı ilə verilir, çünki tərəflərin könüllü razılığı arbirtaja müraciət etməyin labüd və məcburi şərtidir. Tərəflərin könüllü razılığı olmazsa, mübahisənin arbitraj qaydasında baxılması qeyri-mümkündür.

Dördüncüsü, arbitraj qaydasında mübahisəyə baxan şəxslər (arbitrlər) bir qayda olaraq, yüksək ixtisaslı, səriştəli, bilikli və bacarıqlı mütəxəssislərdən seçilir. Onlar öz sahəsini dərindən bilən peşəkarlar kimi tanınırlar. Bu isə mübahisəyə ədalətlə baxılıb həll olunmasını təmin edir. Özü də işə baxan arbitrlərin ixtisasca yalnız hüquqşünas olmaları tələb edilmir və bu, məcburi deyildir. Buna görə də seçilən arbitr ixtisasca hüquqşünas olmaya da bilər. Əsas məsələ odur ki, işə baxan arbitr səriştəli və mübahisənin aid olduğu sahəyə dərindən bələd olsun.

Beşincisi, arbitraj mexanizmi mübahisəyə məxfi (qapalı) baxılmasını təmin edir. Belə ki, arbitraj qaydasında mübahisəyə baxılan zaman iclaslar, bir qayda olaraq, açıq yox, qapalı ("bağlı qapılar" arxasında) keçirilir. Bu da öz növbəsində mübahisə edən tərəflərin istehsal-kommersiya sirrinin yayılmamasını təmin edir. Ölkələrin əksəriyyətində tərəflərin razılığı olmadan arbitraj qərarlarının dərc olunması qadağan edilir.

Altıncısı, arbitraj qaydasında mübahisəyə baxılması məhkəməyə nisbətən az xərc tələb edir, məhkəmə xərcləri, adətən, arbitraj xərclərindən daha çox olur. Deməli, arbitraj icraatı məhkəmə icraatına nisbətən ucuz başa gəlir.

Yeddincisi, arbitraj qərarı qəti olub, tərəflər üçün məcburidir, ondan şikayət olunmasına yol verilmir. Odur ki, arbitraj qərarı dəyişikliyə məruz qala bilməz. O, məcburi qaydada icra edilməlidir. Beynəlxalq Ticarət Palatasının sənədlərində göstərilir ki, arbitraj qərarı tərəflər üçün qanun qüvvəsinə malikdir. Lakin qeyd edək ki, Azərbaycan Respublikasının qanunvericiliyinə görə isə tərəflər arbitraj qərarından şikayət verə bilərlər.

Məhz göstərdiyimiz üstünlüklər arbitrajı mübahisələrə baxıb həll etməyin effektiv mexanizmi kimi tanıtdırır. Odur ki, müasir dövrdə mübahisələrin bu mexanizm əsasında həll edilməsi halları çoxalmışdır.

İkinci mənada arbitraj dedikdə, məhkəmə orqanı başa düşülür. Bu baxımdan ona arbitraj məhkəməsi deyilir. Arbitraj məhkəməsi özü iki cür olur. Birinci növ arbitraj məhkəməsi dövlətin məhkəmə sisteminə daxil olan məhkəmədir, bu arbitraj məhkəmələri dövlət məhkəmə orqanı sayılır. İkinci növ arbitraj məhkəməsinə, qeyd etməliyik ki, birinci növ arbitraj məhkəməsindən fərqli olaraq, onlar dövlət məhkəmə sisteminə daxil olmurlar, bu səbəbdən həmin növ arbitraj məhkəmələri dövlət məhkəmə orqanı sayılmır. Belə məhkəmələrə "münsiflər məhkəməsi" deyilir.

Arbitraj məhkəməsinin bir neçə xarakterik cəhəti vardır ki, bu cəhətlər onu dövlət arbitrajından fərqləndirməyə imkan verir:

- Arbitraj (münsiflər) məhkəməsi – aralarında mübahisə əmələ gələn tərəflərin razılığı ilə (iradəsi ilə) yaradılır;
- Arbitraj (münsiflər) məhkəməsi dövlət orqanı deyildir;
- Arbitraj (münsiflər) məhkəməsinin tərkibini tərəflər özləri müəyyənləşdirirlər;
- Arbitraj (münsiflər) məhkəməsinin səlahiyyətləri tərəflərin razılığı ilə müəyyənləşdirilir;
- Arbitraj (münsiflər) məhkəməsinə tərəflərin birgə razılığına əsasən müraciət olunur.

Tərəflərin öz aralarında yaranmış mübahisənin arbitraj yolu ilə tənzimlənməsi üçün mübahisəyə arbitraj qaydasında baxılması haqqında razılığa gəlməlidirlər. Belə razılığa qanunvericilikdə, hüquq ədəbiyyatı səhifələrində, eləcə də arbitraj doktrinası və praktikasında

arbitraj sazişi deyilir; o, münsiflər sazişi də adlanır. Əgər tərəflər arasında belə saziş yoxdursa, onda mübahisəyə arbitraj qaydasında baxmaq mümkün olmur. Odur ki, arbitraj sazişi mübahisə edən tərəflərin arbitraja müraciət etmələri üçün vacib, məcburi və labüd şərt sayılır. Məhz bu səbəbdən arbitraj sazişi hüquq ədəbiyyatında arbitrajın, o cümlədən beynəlxalq kommersiya arbitrajının xarakterik əlamətlərindən biri hesab edilir.

Arbitraj sazişi bir neçə hüquqi xüsusiyyətə malikdir. Bu xüsusiyyətlərə aiddir:

- Arbitraj sazişinə görə, arbitrajda tərəflər arasında həm yaranmış, həm də gələcəkdə yarana biləcək mübahisələrə baxılır;
- Arbitraj sazişinə görə, arbitraj həm müqavilə, həm də qeyri-müqavilə xarakterli konkret hüquq münasibətləri ilə bağlı mübahisələrə baxır;
- Arbitraj sazişinə görə, arbitraj tərəflər arasındakı mübahisələrin hamısına və ya müəyyən mübahisələrə baxır.

Arbitraj sazişi dedikdə, tərəflər arasında konkret müqavilə və ya qeyri-müqavilə hüquq münasibətlərindən yaranmış və ya gələcəkdə yarana biləcək mübahisələrin hamısının və ya müəyyən mübahisələrin arbitraja verilməsi barədə onların yazılı razılaşması başa düşülür. Beləliklə, mübahisələrə arbitraj tərəfindən baxılması mexanizmi tərəflərin iradəsi əsasında müəyyən olunur və bu mexanizmin fəaliyyətini müəyyən etməkdə tərəflər geniş səlahiyyətlərə malikdirlər.

Hüquq ədəbiyyatında arbitrajın müxtəlif növləri göstərilir. Qüvvədə olma müddətinə görə onun iki növü fərqləndirilir:

“ad hoc” arbitraj;

institusiya (institusion) arbitraj.

“Ad hoc” arbitrajı (hərfi mənası – bunun üçün, yəni həmin işə baxmaq üçün) dedikdə, konkret mübahisənin həlli üçün yaradılan arbitraj məhkəməsi başa düşülür. Bu növ arbitraj xüsusi olaraq konkret iş üzrə mübahisəyə baxmaq üçün yaradılır: arbitrləri tərəflər özləri müəyyən edirlər. Buna görə də ona eyni zamanda təsadüfi arbitraj və ya birdəfəlik arbitraj da deyilir. Elə ki, mübahisəyə baxıldı və qərar çıxarıldı, “ad hoc” arbitrajın fəaliyyətinə xitam verilir, yəni onun mövcudluğuna son qoyulur. Bu arbitraj növü daimi fəaliyyət göstərmir.

İnstitusiya (institusion) arbitrajı dedikdə, daimi fəaliyyət göstərən arbitraj məhkəməsi başa düşülür. Odur ki, onu daimi fəaliyyət göstərən arbitraj məhkəməsi də adlandırırlar. Bu növ arbitrajın özünün daimi fəaliyyət göstərən orqanları vardır. Bundan əlavə, institusiya arbitrajı əsasnamə, nizamnamə, reqlament və s. əsasında fəaliyyət göstərir. Onun katibliyi vardır. Arbitrlərin siyahısı tərtib olunur ki, tərəflər arbitrləri bu siyahıdan seçə bilsinlər.

İnstitusiya arbitrajı iki yerə bölünür: ümumi səlahiyyətli arbitraj; xüsusi səlahiyyətli arbitraj. Ümumi səlahiyyətli arbitraj istənilən xarici iqtisadi mübahisəyə (beynəlxalq kommersiya mübahisəsinə) baxmaq hüququ olan məhkəmədir. Məsələn, Rusiya Federasiyasında fəaliyyət göstərən Beynəlxalq Kommersiya Arbitrajl Məhkəməsi buna misaldır.

Xüsusi səlahiyyətli arbitraj dedikdə, yalnız müəyyən sahələrdə yaranan mübahisələrə baxmaq hüququ olan məhkəmə başa düşülür. Məsələn, Rusiya Federasiyasında fəaliyyət göstərən Dəniz Arbitraj Komissiyası bu növ arbitraja misaldır.

Bunlardan başqa, açıq və qapalı institusiya arbitrajı kimi növlər də fərqləndirilir. Açıq institusiya arbitrajı odur ki, bu arbitraja istənilən maraqlı şəxs müraciət edə bilər. Qapalı institusiya arbitrajı dedikdə isə elə bir məhkəmə başa düşülür ki, bu məhkəməyə yalnız məhdud sayda müəyyən qrup şəxslər (birja üzvləri, assosiasiya üzvləri və s.) müraciət edə bilərlər: arbitraj hansı orqanın nəzdində və ya yanında yaradılıbsa o orqanın da üzvləri arbitraja müraciət edə bilərlər.

“Ad hoc” arbitrajının üstünlüklərinə gəldikdə isə qeyd etməliyik ki, arbitrajın bu növü dolaşıq, qarışıq, qəliz və mürəkkəb xarakterə malik olmayan bəzi mübahisələri tez və effektiv həll etməyə imkan verir. Digər tərəfdən “ad hoc” arbitrajından istifadə edən tərəflərə qeyri-məhdud sərbəstlik verilmişdir. Belə ki, tərəflər işə baxılan yeri, arbitrlərin seçilmə qaydasını və arbitraj prosedurasını özləri müəyyənləşdirirlər. Onlara hüquq verilir ki, mübahisənin hansə prosedurada həll olunmasını sərbəst şəkildə müəyyən etsinlər. Tərəflər, ilk növbədə, mübahisənin hər hansı institusiya arbitrajının reqlamenti (qaydaları) əsasında həll olunması barədə razılığa gələ bilərlər. Digər tərəfdən onların razılığı ilə birtipli arbitraj reqlamentlərindən istifadə oluna bilər.

Beləliklə yuxarıda qeyd edilənlərdən aydın olur ki, arbitraj araşdırması proseduru sadə prosedurdur, o, məhkəmə prosedurunu nizamlayan çoxsaylı prosessual normalarla nizamlanmır, bu da işin daha qısa müddətdə baxılıb nəticə verilməsinə təminat yaradır.

## ƏDƏBİYYAT


1. Beynəlxalq xüsusi hüquq, Dərs vəsaiti, Bakı, Bakı Universiteti nəşriyyatı, 2007
2. Sabir Allahverdiyev, Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu, Dərslik, Bakı, Digesta nəşriyyatı, 2007
3. Zavər Qafarov, Ataxan Əbilov, Beynəlxalq xüsusi hüquq, Dərslik, Bakı, 2004
4. Beynəlxalq məhkəmələr və kvaziməhkəmələr, (Hüquqşünaslar və QHT fəalları üçün məlumat kitabı), Qanun 2005
5. Lətif Hüseynov, Beynəlxalq hüquq, Bakı 2012
6. Международное частное право, Учебник / Отв. ред. Г.К.Дмитреева, Москва, 2004,
7. Guide to Arbitration, İnternational Chamber of Commerce, Paris, 1983


## ABSTRACT


**Vahide Bayramova**



The decisions made by the Court of Arbitration are legally mandatory. The Parties to a dispute refer it to arbitration and agree to be bound by the arbitration decision. Parties have to agree on settling by arbitration for solving Controversies in arbitration proceedings. In Legislation, Legal literature and likewise in arbitrage doctrine and experiences, this consent is called Arbitrage Agreement as well. In case of absence of this agreement, then it is unfeasible to settling by arbitration. Hereby, it is considered crucial and major statement for arbitration proceeding. Due to this cause, Arbitrage Agreement is regarded as one of significant and üeighty marks of arbitrage in international commercy.

The İnternational Chamber of Commerce established its court of Arbitration in Paris in 1923. It was quick to adopt the nature of the dispute as its criterion for deciding whether or not an arbitration under its rules/ Althoungh at first it only considered business disputes as “international” if they involved nationals of different Countries, the ICC altered its rules in 1927 to cover disputes that contained a foreign element , even if the parties were nationals of the same country.

The present Rules define the function of the İnternational Court of the Arbitration of the ICC as Being “to provide for settlement by arbitration of business disputes og an international character”, in accordance with these Rules. There is no definition in the Rules of what is meant by “business disputes of an international character” but the explanatory booklet issued by the ICC used to state: “...the international nature of the arbitration does not mean that the parties must necessarily be of different national borders, when for example a contract is concluded between two nationals of the same State for performance in another country, or ühen it is concluded between a State anda subsidiary of a foreign company doing business in that State.”


## РЕЗЮМЕ


**Вахиде Байрамова**



Международный арбитраж — организованное на основе соглашения сторон разбирательство спора отдельным лицом (арбитром) или группой лиц (арбитрами), решения которых обязательны для сторон.

Различают арбитраж ad hoc и институционный арбитраж.

*Арбитраж ad hoc* (специальный арбитраж) создается сторонами для рассмотрения конкретного спора. В этом случае спор на рассмотрение арбитража передается на основании арбитражного соглашения сторон. В соглашении указываются: порядок назначения арбитров

или конкретные лица в качестве арбитров, процедура рассмотрения спора, место и язык разбирательства и другие вопросы.

*Институционный арбитраж* осуществляется постоянно действующим арбитражным органом. Государства заранее обязуются передавать в арбитраж все споры, возникающие по вопросам толкования какого-либо договора, или разногласия, которые могут возникнуть в будущем по определенным категориям споров.

Разрешение разногласий посредством арбитража имеет большое сходство с судебным способом, однако в отличие от судебной процедуры состав арбитражного органа зависит от спорящих сторон.

Обращение к третейскому суду влечет за собой обязанность добросовестно подчиниться его решению.

В последнее время в международной практике получила развитие тенденция включения в принимаемые конвенции механизма арбитражного разбирательства споров.

В соответствии со ст. 19 Хартии Организации африканского единства 1963 г. в ОАЕ создана Комиссия по посредничеству, примирению и арбитражу, состав и условия функционирования которой определены отдельным протоколом, одобренным Конференцией глав государств и правительств ОАЕ.

На основании Вашингтонской конвенции об урегулировании инвестиционных споров между государствами и физическими и юридическими лицами других государств 1965 г. был учрежден орган по разрешению данных споров — Международный центр по урегулированию инвестиционных споров — и предусмотрена процедура арбитражного разбирательства.

Приложение II к Конвенции о биологическом разнообразии 1992 г. предусматривает, что в случае спора государство-истец подает заявление в Секретариат Конвенции, который извещает об этом остальные страны. Стороны назначают арбитров (арбитра), который и разрешает спор по существу.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: Hüquq üzrə fəlsəfə doktoru, dosent Y.Hüseynov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**

**ELDƏNİZ HƏSƏNLİ**
*Azərbaycan Universiteti*
*eldaniz.hasanli@socar.az*

**UOT:316.6**

# MƏŞĞULLUQ PROBLEMİNİN HƏLLİ VƏ DÖVLƏT TƏNZİMLƏNMƏSİ MƏSƏLƏLƏRİ

**Açar sözlər:** *məşğulluq, bazar iqtisadiyyatı, dövlət tənzimlənməsi, peşə hazırlığı, əmək*

*fəaliyyəti*
**Key words**: *employment, market, economy, state regulation, trade preparation, labour activity*
**Ключевые слова:** *занятость, рыночная экономика, государственное регулирование, профессиональная подготовка, трудовая деятелность*

Məşğulluq problemi tarixin bütün inkişaf mərhələlərində olmuş və bu gün də öz aktuallığını itirməmişdir.

Müasir şəraitdə məşğulluq, dövlətin sosial-iqtisadi siyasətinin mühüm tərkib hissəsi olmaqla xalqın rifah səviyyəsini və iqtisadiyyatın artım sürətini əks etdirən ən mühüm göstəricilərdən biridir. Məşğulluq heç bir ölkədə baş verən iqtisadi hadisə və proseslərin adı olmayan müstəqil bir təzahür formasıdır.

Bazar iqtisadiyyatı sisteminə keçidlə əlaqədar olaraq respublikamızda aparılan radikal iqtisadi islahatlar məşğulluğun yeni prinsiplərini doğrultmuşdur. Bu prinsiplər bazar münasibətlərinin reallaşmasını özündə əks etdirir.

Əhali məşğulluğu problemi ilə məşğul olan iqtisadçı alimlər qeyd edirlər ki, «məşğulluq» əməkdən fərqli olaraq, fəaliyyət deyil, yalnız insanlar arasında ictimai münasibətdir. Yəni işçinin müəyyən iş yerində kooperasiyaya daxil edilməsi iqtisadi və hüquqi münasibətləri əks etdirir. Əmək fəaliyyəti -hər şeydən əvvəl prosesdir, məşğulluq isə - bu prosesə hər hansı formada daxil edilmiş (və ya çıxarılmış) subyektin vəziyyətidir. Əlavə edək ki, əmək kooperasiyasının və iş yerlərinin formaları ictimai istehsalın təşkili üsullarından asılıdır (mülkiyyətdən, hakimiyyətdən, iqtisadi siyasətdən və s.).

Məşğulluğa əhalinin həyati tələbatının əsaslarından biri kimi baxmaq olar. Bu, cəmiyyətin əsas məhsuldar qüvvəsinin formalaşması - işçinin əməyə olan qabiliyyətindən ibarətdir.

Bu gün məşğulluğa, əhalini nəinki iş yerləri ilə təmin edən, (yəni iştehsal və yığım mövqeyindən) habelə insanları zəruri yaşayış vasitələri (yəni, istehlak fondlarının formalaşması və istifadəsi ilə əlaqədar) ilə təmin edən ictimai münasibətlər kimi baxırlar. Məşğulluq müxtəlif cür təzahür edir:

Birinci, ona istehsal (əmək), onun şəraiti mövqeyindən baxmaq olar, çünki, istehsal prosesinin təşkili üçün işçinin istehsal vasitələri ilə birləşməsi zəruridir.

İkinci, istehlak mövqeyindən - işçiyə verilən maddi həvəsləndirmə nəticəsində həyata keçirilmiş əmək təminatı.

Üçüncü, əmək bölgüsü mövqeyindən - işçinin hər hansı bir fəaliyyət sahəsinə bağlanması.

Beləliklə, məşğulluq cəmiyyətdə zəruri, həmişə təkrar olunan hadisədir, ayrı-ayrı işçilər üçün isə o, fasiləli xarakterdə ola bilər. Məşğulluğun subyekti -əmək qabiliyyətli vətəndaşlardır, obyekti - iş yerləridir.

Məşğulluğa sosial - iqtisadi şəraitin indiki transformasiyası şəraitində əmək bazarından, bazar münasibətləri sistemindən ayrı baxmaq olmaz. Bu halda əhali məşğulluğu əmək bazarına uyğunlaşdırılmanın ümumiləşdirilmiş meyari kimi çıxış edir ki, burada məşğulluğun məhsuldar, sosial, faydalı, tam, natamam, səmərəli və çevik səviyyələri və xarakteristikaları ayrılır.

Məşğulluğun müasir səviyyəsi əmək sferasında və sosial siyasətdə olan müxtəlif deformasiyalardan xeyli dərəcədə asılıdır. Beləliklə, məşğulluğa idarəetmənin ümumi nəzəriyyəsi çərçivəsində, işçi qüvvəsinə (onlarm miqyasının, təmin olunması, faydalı əməyə daxil olmasının şərtləri və formaları, məşğul işçilərin təşəkkülü, bölüşdürülməsi, sərbəst olması və yenidən bölüşdürülməsi) tələbin genişləndirilməsinə istiqamətləndirilmiş tədbirlər və fəaliyyətin məcmusu kimi baxmaq olar. Bu muddəada dövlət tərəfindən əmək hüququnun təmin edilməsi, işsizlərin müdafıəsi (ona görə ki, əks prosesdə bazar məşğul olanların işsizlik vəziyyətinə keçməsinin təşəbbüskarı ola bilər), işsizlərin işə düzəldilməsi, maddi cəhətdən himayə edilməsi tələbi əks etdirilir.

Sosial-iqtisadi kateqoriya kimi məşğulluğun əsasını əmək qabiliyyətli əhali (məşğulluq subyekti) və iş yerlərinin (məşğulluq obyekti) qarşılıqlı əlaqəsi təşkil edir. Məşğulluq və işsizlik

vəziyyəti fərdə qarşı münasibətdə fasiləli, gah könüllü, gah da məcburi xarakter daşıyır.

Qeyd etmək lazımdır ki, məşğulluq, ona təsir edən amillər haqqında biliklər əldə etməsi üçün cəmiyyətin bütün sferalarında cavab axtarmaq, hakim mövqeləri ayırmağa cəhd etmək, sosial təcrübələri və elmi nailiyyətləri dərk etmək iqtidarındadır. Buna görə, dünyanın müxtəlif inkişaf səviyyəli ölkələrində işsizlik, natamam məşğulluq və az ödənişli əmək problemləri ilə mübarizə, kifayət qədər yeni iş yerlərinin yaradılması vəzifəsi iqtisadi və sosial siyasətin prioriteti kimi qoyulur.

İnsanın cəmiyyətlə qarşılıqlı təsir sferası olan iş yerlərinin iki növ bazarı vardır: əmək bazarı və iş yerləri bazarı.

Məşğulluq məfhumunun geniş şərhinin tərəfdarı olaraq, «insan resursları» kimi geniş həcmli anlayışdan istifadə edərək, biz məşğulluğun hüdudlarını açıb, onlara nəinki muzdlu işçiləri, həm də sahibkarları, öz-özünə məşğulluq, fərdi əmək və yaradıcılıq fəaliyyəti, şəxsi yardımçı təsərrüfatda, ev təsərrüfatında məşğulluq və uşaqlarm tərbiyə edilməsi, dövlət və ictimai vəzifələrin yerinə yetirilməsi (məsələn, hərbi xidmət və rühanilik), təhsil müəssisələrində əyani təhsil alanları daxil edə bilərik. Lakin, burada gəlirlər və təqaüd təminatının zəmanəti ilə bağlı daraldılmış iqtisadi yanaşma qüvvəyə minir.

Beynəlxalq qanunvericiliyə görə, məşğul olanlara iki cinsdən olan müəyyən yaşdan yuxarı səxslər aid edilir. Burada müəyyən dövrdə tam və natamam iş vaxtı şəraitində ödənişli olaraq, muzdlu işləri yerinə yetirənlər, həmçinin fəaliyyət üçün bilavasitə ödəmə və gəlir alınması müddətindən asılı olmayaraq, başqa bir gəlir gətirən işi sərbəst və ayrı-ayrı vətəndaşların yanında yerinə yetirənlər, müxtəlif səbəblərdən müvəqqəti işləməyənlər, ailə müəssisələrində ödənişsiz işləri yerinə yetirənlər, bundan başqa iş yerlərini saxlayanlar, lakin hesabat dövründə müvəqqəti işləməyənlər, öz xüsusi müəssisəsi olub orada işləməyənlər daxildir. Sonra isə beynəlxalq standartlar dəqiqləşdirilir və göstərilir ki, «müəyyən iş» məfhumu altında bir saatdan az olmayan işlər nəzərdə tutulur. Lakin məşğulluğun haqq və gəlir (qazanc və ailə gəliri) gətirən fəaliyyət kimi şərh edilməsi düzgün deyil və məşğulluğun statusunu izah etməyə imkan vermir. Məhz, buna görə də ictimai istehsalda problemin kəskin olduğunu xarakterizə edərkən, təkcə işsizlik haqqında deyil, daha doğrusu, sözün geniş mənasında məşğulluq haqqmda və həmçinin işçinin intellektual və peşə hazırlığının yerinə yetirdiyi işə uyğunluğu haqqında danışmaq lazımdır. Hazırda Azərbaycanda çox böyük əmək potensialının qeyri-məhsuldar istifadəsi mövcuddur və bu da sosial-psixoloji gərginliyin güclənməsi ilə müşayiət olunur.

Bazar iqtisadiyyatında işlə təmin olmanın standart və qeyri-tipik formaları vardır.

Məlum olduğu kimi, hər bir ölkə kimi Azərbaycan Respublikasının da "Məşğulluq haqqında" Qanunu vardır. Bu qanunda məşğulluq anlayışının sosial-iqtisadi mahiyyəti öz əksini aşağıdakı kimi tapmışdır. Orada deyildiyi kimi, "Məşğulluq-Azərbaycan Respublikası vətəndaşlarının, Azərbaycan Respublikasında daimi yaşayan, vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və bir qayda olaraq, onlara qazanc (gəlir) gətirən hər hansı fəaliyyətidir".

Bu hüquqi sənəddə, digər ümumi müddəalar - məsul şəxslər anlayışı, işsizlik statusu qaydaları, məşğulluq haqqında dövlət siyasəti, məşğulluq sahəsində vətəndaşların hüquqları, məşğulluq hüquqlarının həyata keçirilməsində dövlət təminatları, sosial müdafiəyə xüsusi ehtiyacı olan vətəndaşların məşğulluğu üçün əlavə təminatlar, onun tənzimlənməsi və təşkili, məşğulluğun təmin edilməsində işə götürənlərin iştirakı, həmçinin iş axtaranların peşə hazırlığı, ixtisasının artırılması, sosial təminatlar və s. məsələləri ətraflı şərh olunmuşdur.

Aparılan tədqiqatlardan aydın olur ki, məşğulluq sahəsində dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardır:

- səmərəli və sərbəst seçilmiş məşğulluğun təmin edilməsinə köməklik göstərilməsi;
- mülkiyyətindən, dinindən, cinsindən, yaşayış yerindən, əmlak vəziyyətindən əqidəsindən və s.-dən asılı olmayaraq, bütün vətəndaşlara əmək və məşğulluğu sərbəst seçmək hüququnun verilməsində bərabər imkanların təmin edilməsi;
- vətəndaşların qanun çərçivəsində əmək və sahibkarlıq təşəbbüsünün müdafıə edilməsi və bu işə köməklik göstərilməsi;

- işsizlərin sosial müdafıəsinin təmin edilməsi, işə düzəlməkdə çətinlik vətəndaşların məşğulluğunu təmin etmək üçün xüsusi tədbirlərin görülməsi;

- məşğulluqla sosial-iqtisadi siyasətin əlaqələndirilməsi;

- sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün əlavə iş yerləri yaradan işəgötürənlərin vergi və başqa güzəştlərlə həvəsləndirilməsi;

- məşğulluğun təmin edilməsilə bağlı olan dövlət orqanları, həmkarlar ittifaqları və işə götürənlərin birgə fəaliyyətinin əlaqələndirilməsi;

- beynəlxalq əmək normalarına əməl olunmasının təmin edilməsi;

- vətəndaşların əmək hüquqlarının həyata keçirilməsində dövlət təminatları və s.

Dövlət, sosial müdafıəyə xüsusi ehtiyacı olan vətəndaşların məşğulluğu üçün əlavə təminatlar müəyyən edir. Belə vətəndaşlar üçün müəssisə, idarə və təşkilatlara kvota müəyyən edilir. Kvota tətbiq edilən müəssisələrin siyahısı əvvəlcədən təsdiq edilir və kvotanın miqdarı, müəssisədə çalışan işçilərin orta siyahı sayının 5 % dən çox olmayaraq müəyyən edilir.

Məşğulluq mühüm iqtisadi kateqoriya kimi insanların əmək fəaliyyətində münasibətlərini özündə əks etdirməklə, onların iqtisadi tələbatlarının ödənilməsi, həmçinin şəxsi tələbatlarının və maraqlarının da təmin olunması səviyyəsini ifadə edir.

Ümumiyyətlə iqtisadiyyatın, o cümlədən məşğulluğun tənzimlənməsinə dair nəzəriyyələri, o cümlədən klassik iqtisadi nəzəriyyənin Keyns və monetarist nəzəriyyələrini ümumləşdirərək belə qənaətə gəlmək olar ki, onların meydana gəlməsinin əsasında bu nəzəriyyələrin banilərinin və ardıcıllarının yaşadığı tarixi şəraitdə iqtisadiyyatda baş verən və zaman-zaman dəyişikliklərə məruz qalan proseslər və onların tənzimlənməsi yollarının axtarışı cəhdləri durur. Buradan belə nəticəyə gəlmək olar ki, bazar iqtisadiyyatı şəraitində bütövlükdə iqtisadiyyatı, o cümlədən məşğulluğun tənzimlənməsi yolları araşdırılarkən mütləq konkret tarixi-iqtisadi şərait nəzərə alınmalıdır. Bu müddəa keçid dövrünü yaşayan ölkələr, o cümlədən Azərbaycan üçün xüsusilə aktualdır.

Son zamanlar, xüsusilə də sosializm sistemi süquta uğradıqdan və bu sistemə daxil olan ölkələr bazar iqtisadiyyatı yolu seçdikdən sonra, obyektiv və subyektiv səbəblər üzündən həmin ölkələrin iqtisadiyyatının tənəzzülə uğraması, işsizliyin sürətlə artması bazar iqtisadiyyatı şəraitində hansı tənzimlənmə metodlarının və mexanizmlərinin daha məqbul olması ətrafında mülahizələr, fikirlər daha da intensivləşmiş, bu problemlərə dair qiymətli elmi əsərlər yazılmışdır. Onlar arasında Azərbaycan iqtisadçı alimləri T.Ə.Quliyevin, Ş.M.Muradovun, A.K.Ələsgərovun, Ə.X.Nuriyevin, Ə.Əlirzayevin, N.H.Əhmədovun və s. əsərlərini, habelə MDB və digər xarici ölkələrdə iqtisadçı alimlərindən A.İ.Abalkinin, A.B.Pikulkinin, B.A.Rayzbergin, A.Y.Lifşitsin, K.de Byassyenir, D.Koenin, de Pontvlianın və s. əsərlərini göstərmək olar. Azərbaycanın əməkdar elm xadimi, professor T.Ə.Quliyevin "Tənzimlənən bazar iqtisadiyyatı" əsəri son zamanlar bu problemə dair yazılmış kitablar arasında ən uğurlusu hesab edilməlidir. T.Ə.Quliyev iqtisadiyyatın tənzimlənməsinə dair mövcud olan nəzəriyyələri, fikirləri dərindən təhlil edərək belə qənaətə gəlmişdir ki, müasir bazar iqtisadiyyatı şəraitində, xüsusilə də keçid dövrünü yaşayan ölkələrdə, iqtisadiyyatın dövlət tənzimlənməsinin əhəmiyyəti artmaqdadır. T.Ə.Quliyevin fıkrincə "... bazar sistemi ayrı-ayrı ölkələrin iqtisadi həyatına və müxtəlif dövlətlərin fəaliyyətinə müxtəlif cür təsir göstərir. Hər bir ölkə və dövlət bu dairədə özünün xüsusiyyətlərinə (bazar və qeyri-bazar) malikdir, eləcə də uyğun motivlər müxtəlif ölkələrdə müxtəlifdir. Buna görə də dövlətin iqtisadiyyata təsir dairəsi bir çox hallarda təkcə keçid dövrünün şəraiti ilə deyil, həmçinin bu ölkənin xüsusiyyətləri ilə şərtləndirilir. Bu xüsusiyyət, öz növbəsində, təkcə milli mentalitetlə yox, həm də mövcud regionda bazar sisteminin potensialı ilə şərtləndirilir.

T.Ə.Quliyev qeyd edir ki, "... Tənzimlənmənin bütün növləri, həm makro, həm də mikrotənzimləmə ölkədə sosial və iqtisadi stabilliyin təmin edilməsinə xidmət etməlidir. Bir sözlə, seçilmiş sosial-iqtisadi kurs sivilizasiyalı bazarın inkişafına və qarşılıqlı iqtisadi münasibətlərin, maraqların formalarının optimallaşdırlmasına istiqamətlənməlidir. Bazar, indi olduğu kimi, yalnız müəyyən qüvvələrə xidmət etməməlidir. Və dövlət tənzimləməsi birtərəfli və ya qruplu yox, səmərəli, sistemli və birmənalı olmalıdır. Qanunverici aktların, proqnozların, planlaşdırmanın, nəzarətin, əlaqələndirmənin köməyi ilə tənzimləmə prosesi, həmçinin maliyyə, kredit, investisiya, pul tədavülü, əmək haqqı, qiymət kimi iqtisadi alətlər vasitəsilə tənzimləmə və nəhayət, büdcə,

bank, valyuta sistemi və gömrük kimi iqtisadi fəaliyyət formaları vasitəsilə tənzimləmə ani maraqlara yox, elmi mülahizələrə və sağlam məntiqə söykənməlidir". Biz T.Ə.Quliyevin bu fikirlərinə qoşuluruq.

Bazar iqtisadiyyatı şəraitində məşğulluğun dövlət tərəfindən tənzimlənməsi zərurətini qeyd edərək T.Ə.Quliyev yazır: "Məşğulluğun dövlət tənzimlənməsi böyük sosial. iqtisadi vo psixoloji əhəmiyyət kəsb edir, ona görə ki, məşğulluq ailə üçün təkcə gəlir mənbəyi deyildir, həm də insanın cəmiyyətə lazımsızlığı psixoloji sindromunu aradan qaldırmaq üçün şərtdir. Hesablamalar və proqnozlar göstərir ki, işsizlik təkcə rəqabət mexanizmi, müəssisələrin müflisləşməsi və istehsalın həcminin azalması ilə deyil, həm də işdənazadetmə, yenidənbölüşdürmə və işəqəbuletmə proseslərinin əlaqələndirilməməsində biruzə verən subyektiv amillərlə bağlıdır. Burada məşğulluğun və əmək bazarının makro və mikroiqtisadi baxımdan optimal uyğunlaşdırılması həlledici əhəmiyyət kəsb edir.

Azərbaycanın müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatı yolu ilə getməsi, burada əmək qabiliyyətli əhalinin məşğulluq səviyyəsi bir sıra obyektiv və subyektiv səbəblər üzündən xeyli kəskinləşmişdir. 1991-ci ildə SSRİ dağıldıqdan sonra keçmiş sovet respublikaları ilə iqtisadi əlaqələrin pozulması və bunun nəticəsində ənənəvi alış və satış bazarlarının itirilməsi; bu itkilərin əvəzlənməsi üçün kifayət qədər inkişaf etmiş müstəqil xarici iqtisadi əlaqələrin və istehsal edilən məhsulların dünya bazarında rəqabət qabiliyyətli olmaması; istehsalın yenidən qurulması üçün maliyyə vəsaitinin çatışmamazlığı; dövlətin səmərəsiz maliyyə-kredit siyasəti, vergi yükünün ağırlığı, qiymətlərin əsassız və birdən-birə liberallaşdırılması və s. bütün bunlar müəssisələri çıxılmaz vəziyyətə salmışdır. Bundan əlavə Ermənistanın Azərbaycana təcavüzü, ərazinin 20%-nin işğalı və bir milyona yaxın əhalinin qaçqın və köçkün vəziyyətə düşməsi işsizlik səviyyəsinin həddən artıq çoxalmasına səbəb olmuşdur.

Məhz belə bir şəraitdə hakimiyyət orqanları bazar iqtisadiyyatına keçidin təmin edilməsi üçün ayrı-ayrı strateji və taktiki proqramların, habelə iqtisadiyyatı, o cümlədən məşğulluğu sabitləşdirmək üçün uyğun proqramlar tərtib edib həyata keçirmək əvəzinə, neoklassik nəzəriyyəyə uyğun olaraq, bu problemlərin həllini bazarın öz ixtiyarına buraxmışdı.

İqtisadiyyatda şəxsi təşəbbüsün genişləndirilməsi, yeni sahibkarlar ordusunun yaradılması, istehsalını dayandırmış müəssisələrin işinin bərpası və canlandırılması, bu məqsədlə əlavə maliyyə vəsaitlərinin cəlb edilməsi, yeni iş yerlərinin yaradılması və s. məqsədlərlə aparılan özəlləşdirmə də səmərəsiz həyata keçirildiyindən gözlənilən nəticəni vermişdir. Nəticədə işsizliyin kəskin artması ilə yanaşı iqtisadiyyatda inflyasiya və superinflyasiya prosesləri baş vermişdi. Bu proseslərin qarşısının alınması üçün kəskin monetar siyasəti yürüdən hakimiyyət orqanları inflyasiyanın qarşısının alınmasına nail olsa da, işsizliyin qarşısını ala bilməmişdir.

Kiçik və bir sıra orta müəssisələrin özəlləşdirilməsi, torpaq islahatı nəticəsində mülkiyyət əldə edən yeni sahibkarlar ilkin kapital yığımına malik olmadıqlarından nəinki istehsalı bərpa edə və yeni iş yerləri aça bilməmiş, əksinə mövcud iş yerlərinin çoxunu bağlamağa məcbur olmuşdur. Dövlətin apardığı maliyyə-kredit siyasəti, kredit faizlərinin həddindən yüksək olması, kreditin alınması zamanı çoxsaylı və "keçilməz" bürokratik əngəllərin olması və "şapka" əməliyyatı da bir çox kiçik, orta və hətta iri müəssisələrin bağlanmasında, işsizliyin artmasında "xüsusi rol" oynamışdır.

Məhz bu baxımdan qeyd etmək lazımdır ki, dövlətin iqtisadiyyata ciddi müdaxiləsinə hər zaman ehtiyac vardır. Dövlət məşğulluq probleminin səmərəli həll edilməsi üçün bütövlükdə iqtisadiyyatın tənzimlənməsinə dair təxirəsalınmaz tədbirlər həyata keçirməli idi. Sonralar bu məqsədlə xüsusilə bazar iqtisadiyyatının qanunauyğunluqları və Azərbaycanda mövcud olan konkret sosial-iqtisadi şərait və ölkə iqtisadiyyatının xüsusiyyətləri, yəni əhalinin mentaliteti nəzərə alınmaqla xüsusi proqramların işlənib həyata keçirilməsi, iqtisadiyyatın, eləcə də məşğulluğun dövlət tərəfindən tənzimlənməsi məqsədi ilə aşağıdakı istiqamətlərdə konkret proqramların hazırlanması və həyata keçirilməsi məqsədəuyğun sayıldı.

-ölkə iqtisadiyyatının, təbii sərvətlərinin yerləşmə xüsusiyyətlərini, əhalinin məşğuliyyətini və onun sosial-iqtisadi vəziyyətini nəzərə almaqla yeni iş yerlərinin yaradılması məqsədi ilə kiçik və orta müəssisələrin yaradılması,

-kiçik və orta müəssisələrin fəaliyyətinin təşkili və sabitləşdirilməsi üçün onlara dövlət sifarişinin verilməsi,

-əhalinin məşğulluq səviyyəsini artırmaq üçün, əsasən büdcədən maliyyələşən idarə, müəssisə və təşkilatlarda, çevik iş qrafikinin tam olmayan iş günü və ya iş həftəsinin (əsasən çoxuşaqlı qadınlar və əlillər üçün), evə iş verilməsinin tətbiqi,

-iş axtaranlara boş iş yerləri haqqında vaxtında və operativ məlumat vermək, işsizlərin işə cəlb edilməsi prosesini sürətləndirmək məqsədi ilə dövlət məşğulluq xidmətlərinin işinin yaxşılaşdırılması, işsiz statusu verilməsi qaydasının sadələşdirməsi,
-məşğulluğun səmərəli tənzimlənməsi üçün obyektiv, rel "Məşğulluq proqramının" tərtib edilib həyata keçirməsi,
-mülkiyyət formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatlarda boşalmış iş yerlərinin ixtisasına uyğun olaraq, rəsmi işsiz statusu almış şəxslərin dövlət hesabına ixtisasının artırması və ya dəyişdirilməsi şəbəkəsinin genişləndirilməsi və s.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, son illərdə qəbul olunmuş regionların inkişafına dair üç Dövlət Proqramı demək olar ki, ölkədə məşğulluq problemini həll etmişdir.

## ƏDƏBİYYAT


1 Muradov. R.Ş. Müasir mərhələdə əhalinin məşğulluq quruluşunun formalaşdırılması və təkmilləşdirilməsi problemləri, Bakı, Elm, 2006, 216 s

2 Azərbaycan Respublikasının Məşğulluq strategiyası (2006-2015-ci illər), Bakı, "Qanun" 2007

3 Əhmədov.N.H. İnvestisiya siyasəti və məşğulluğun təmin olunmasının dünya təcrübəsi, AMEA-Elmi əsərlər toplusu, III bur, 2005, iyul

4 Nuriyev.Ə.X.Regional inkişafın dövlət tənzimlənməsinin aktual məsələləri, Bakı, 2004, 428 s

5 Гулиев Т.А. Регулируемая рыночная экономика, Баку,2000,448 с


## ABSTRACT


**Eldeniz Hasanli**

**Solution of employment problem and state regulation issues.**

In the article market economy, employment of people and state regulation also regional development aspects of employment were state.


## РЕЗЮМЕ


**Елданиз Гасанли**

**Вопросы решения проблемы занятости и ее государственного регулирования.**

В статье рассматриваются вопросы занятости населения и ее государственного регулирования в условиях раночной экономики, также аспекты развития занятости по регионам.



NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: Hüquq üzrə fəlsəfə doktoru, dosent Y.Hüseynov



NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**



**KÖNÜL SALMANOVA**
*Naxçıvan Dövlət Universiteti*
*KSalmanova72@mail.ru*


**UOT:316.32**

# SAĞLAM AİLƏ – SAĞLAM CƏMİYYƏT

*Ailə - bizim sığınacağımız və tramplinimizdir.*
*Ondan təkan alaraq, biz yeni zirvələri fəth edə bilərik*

**Açar sözlər:** *ailə, cəmiyyət, şəxsiyyət, dövlət*
**Key words:** *the family, societies, personality, state*
**Ключевые слова:** *семья, общество, личность, государство*

Qədim zamanlardan Azərbaycan insanının düşüncəsində və əməlində ailə "müqəddəs ocaq" anlamında olmuşdur. Bu qədimdə də belə idi, bu gün də belədir. Azərbaycan ailəsi kişilərin atalıq, qadınların isə analıq məktəbidir. Bu dünyada da bəzi dəyişikliklər və fərqliliklər nisbətində belədir. Buna görə də ki, beynəlxalq səviyyədə ailələr, onların rifahı, ailənin risk altına düşməsinin qarşısının alınması, həyat və şəraitinin yaxşılaşdırılması gündəmdədir. Təsadüfi deyil ki, 1994-cü ildən etibarən hər il 15 may tarixi BMT tərəfindən "Beynəlxalq Ailə Günü" kimi qeyd edilir. Təbii ki, ailə günü təyin etməkdə məqsəd ailələrə dəstək, ailələrin gücləndirilməsi olmuşdur. Dünya dövlətləri ailə hüququ və ailə məcəlləsi adlı qanunlar qəbul etməklə, həyatda yaşam anlamını verən bu müqəddəs ittifaqı hər cür problem və çətinliklərdən qorumağa çalışır. Ailə rifahı istənilən qanun və qərarlarda başda olur. Belə ki, insan hüquq və azadlıqları haqqında qəbul edilmiş bütün qanunlar elə əslində ailə ilə bağlıdır. Çünki, hər bir fərd cəmiyyətdə ailənin təmsilçisidir və onun hüquq və azadlıqları əslində elə onun ailəsinin haqqıdır. Odur ki, ailə cəmiyyətin təməli, onun özəyidir. Hələ qədim mütəfəkkir və siyasətşünaslar dövlətə tərif vermək istəyərkən ailə modelini "kiçik dövlət" adlandırmışlar. Beləliklə, dövlətin problemləri məhz bu "kiçik dövlət"dən, onun problemlərinin həllindən başlayır.

Azərbaycan dövləti, Azərbaycan cəmiyyəti üçün ailə həmişə müqəddəs sayılıb. Dövlətimiz cəmiyyətin əsas atributu olan ailənin rifah halının gündən-günə daha da artmasının qayğısına qalmaqla onun müqəddəsliyini bir daha təsdiq edir. Ölkəmizdə ailə cəmiyyətin əsas özəyi kimi dövlətin xüsusi himayəsindədir. Prezident İlham Əliyev 2006-cı il fevralın 6-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında Sərəncam imzalamışdır və müstəqil Azərbaycanda ailə siyasətinin əsas prinsipləri uğurla həyata keçirilir. Bu fakt bir daha sübut edir ki, Azərbaycan ailəsi dövlətin himayəsindədir. Bir sözlə, cəmiyyət və dövlət modernləşən ailə institutunun təməllərinin möhkəmliyini təmin etmək, onun nüfuzunun artmasına nail olmaq üçün ciddi addımlar atır.

Ailənin statusu, cəmiyyətdəki mövqeyi AR Konstitusiyasının 17-ci maddəsində olduqca dəqiq ifadə olunmuşdur. Bu müddəa aşağıdakı iki vacib məqamı müəyyən edir:

- Ailə cəmiyyətin əsas özəyi kimi şərh olunur;
- Ailənin dövlətin xüsusi himayəsində olduğu təsbit olunur.

Ailələrin möhkəmliyi, uzun ömürlülüyü daim dövlətin marağında olmuşdur. Sağlam, uzunömürlü və xoşbəxt ailə:

1. İnsanın şəxsiyyət kimi formalaşdığı bir mühitdir;
2. Sağlam uşaqların doğulub tərbiyə olunduğu bir mühitdir;
3. İnsanın psixoloji, fizioloji rahatlıq əldə etdiyi bir mühitdir;
4. İnsanların birgəyaşayışa və s. olan tələbatlarının təmin olunması vasitəsidir;

Bildiyimiz kimi, cəmiyyət ailələrdən və ailəni meydana gətirən fərdlərdən meydana gəlir. Buna görə də həm ailə cəmiyyətə təsir edir, həm də cəmiyyət ailəyə. Çünki cəmiyyətin sosial yaşayışı və dəyərləri mütləq mənada ailəyə təsir edir. Ölkənin gələcək rifahı yaxud tənəzzülü yeni nəslin xarakteri və mənəvi siması ilə şərtlənir. Əgər gənclər əxlaq, özünüidarə və təmkinlilik kimi xüsusiyyətlərə uşaq yaşlarından vərdiş edirlərsə, gələcəkdə cəmiyyətə müsbət təsir göstərirlər. Əgər gənclər tərbiyə və intizamdan kənarda qalsalar, onda onlar özbaşına və ədəbsiz böyüyəcəklər, nəticədə isə acınacaqlı hal yaranacaq. Bu gün gənclərdə formalaşan vərdiş və prinsiplər gələcək cəmiyyətin xarakterini əks etdirir. Düzgün təşkil olunmamış ailənin təsiri hər tərəfə yayılır və bütünlüklə cəmiyyətə məhvedici yara vurur. O, ailəni, cəmiyyəti və dövləti məhvə doğru aparır.

Ailə bağları yer üzündə ən sıx, ən incə və ən müqəddəs bağlardır. Onlar bəşəriyyətə xeyir-dua kimi verilmişdir; müdrikliklə, Allahın iradəsinə uyğun şəkildə və hər iki tərəfin qarşılıqlı məsuliyyəti ilə qurulan ailə ittifaqı cəmiyyət üçün həqiqi xeyir-duadır.

Ailə ən qədim sosial institutdur. Belə ki, mənəvi-emosional hisslər əsasında birləşmiş insanların ümumi maraqlarını ifadə edən bu institut, eyni zamanda, sağlam cəmiyyətin və güclü dövlətin təməlini təşkil edir. Ailədə şəxsi maraqların tənzimlənməsi və nizamlanması cəmiyyət tərəfindən qəbul edilmiş əsas sosial dəyərlər, normalar çərçivəsində baş verir. Bu prosesin yekun nəticəsi olaraq, ailə cəmiyyət üçün davranış və konkret sosial xarakter daşıyan düşüncəsi ilə yararlı olan insanlar yetişdirir. Yəni, ailədə insan, eyni zamanda, vətəndaş doğulur. Ailə insanın bir deyil, bir çox mühüm tələbatlarının kompleks şəkildə təmin edilməsi üçün yaradılır.

Qeyd etdiyim kimi, ailə hər şeydən əvvəl cəmiyyətin və onun strukturunun təkrar istehsalının əsas mənbəyidir. O sosial varlığın zəruri tərəfi, cəmiyyətin ilkin özəyidir. Ailə ərlə-arvad arasında, habelə onlarla uşaqlar arasında və bütövlükdə nəsillər arasındakı münasıbətləri əhatə edir. Cinsə və yaşa görə əmək bölgüsü, ev təsərrüfatının aparılması, məişətdə insanlar arasındakı münasibətlər, yeni nəslin tərbiyəsi və sair məsələlərin həlli də ailə ilə sıx bağlıdır. Bunlardan əlavə şəxsiyyətin fərdi inkişafında da ailənin rolu böyükdür. Məhz burada uşaq dünyaya göz açır və ictimai həyata qədəm qoyur, dili, sosial normaları və dəyərləri mənimsəyir. Ailə sözün müəyyən mənasında tərbiyə məktəbi, həyat təcrübəsinin, müdrikliyin qazanılması və toplanılması məktəbidir.

Ailənin əsasını ər ilə arvad arasında rəsmi qaydada bağlanılmış nigah əlaqələri təşkil edir. Nigah ər ilə arvad arasındakı münasibətləri və onların qarşılıqlı öhdəliklərini hüquqi yolla rəsmiləşdirən müqavilədir. Nigah sevgiyə və inama arxalandıqda daha möhkəm olur. Vaxtilə Hegel deyirdi ki, iki müxtəlif cinsin nümayəndəsi arasında nigah adlanan əlaqə sadəcə olaraq təbii heyvani əlaqə və hətta mülki müqavilə də deyildir. O hər şeydən əvvəl ər ilə arvadın ikisini bir şəxsə çevirərək qarşılıqlı sevgi və inam əsasında yaranan mənəvi ittifaqdır (6, s.168).

Onlardan biri digərində öz həyatının tamamlayıcısını tapır. Nəticədə ər ilə arvadın həqiqi uyğunlaşması baş verir. Qeyd edək ki, ailədə şəxsiyyətlərarası uyuşma çox çətin və incə məsələdir. Həyatda, əmək fəaliyyətində, təhsildə, kommunikasiya prosesində bir-birilə ünsiyyətdə olan insanların bir-birilə uyuşma səviyyəsi müxtəlif olur. Şəxsiyyətlərarası uyuşma ünsiyyətdə, birgə fəaliyyətdə və yaxud ailədə qarşılıqlı qəbuletmə deməkdir. O dəyərlər oriyentasiyasının optimal əlaqələndirilməsinə, sosial və əxlaqi mövqelərə, zövq ümumiliyinə, temperament və xarakter göstəricilərinə, emosional və intellektual tərəflərə əsaslanır. Ailədə ər ilə arvadın bir-birilə uyuşması, qarşılıqlı razılıq və qane olma psixoloji, fizioloji və digər incəliklər ilə bağlıdır. Ailədə şəxsiyyətlərarası uyuşma olduqda qarşılıqlı rəğbət, hörmət, münasibətlərin gələcəkdə də etibarlı olacağına təminat yaranır.

Nigahın emosional-psixoloji, mənəvi və estetik dayaqları sevgi münasibətləridir. Sevgi qarşılıqlı səmimiyyətə və inama əsaslandıqda daha möhkəm olur. Arximed deyirdi ki, sevgi elə bir teoremdir ki, onun hər gün sübut olunmağa ehtiyacı vardır.

Ailənin sağlamlığı üçün çox şərtlər gərəkdir. Sosial-iqtisadi, mənəvi-intellektual, əxlaqi-etik və bioloji-psixoloji amillər bu cəhətdən daha çox əhəmiyyət kəsb edir. Ailə yalnız iki gəncin təmiz sevgisi üzərində qurulmur. Sevgi və məhəbbət min bir sahəsi olan ailənin ilkin bünövrəsi və təməlidir. Sonralar hərəkət və davranışlar, mühit və adamlarla ünsiyyət, həyat və həyati problemlərə münasibətlər çoxalır, ailə həyatı getdikcə mürəkkəbləşir. İqtisadi amillərlə yanaşı, ailəyə tibbi-bioloji, psixoloji amillər öz təsirini göstərməyə başlayır (4, s.3).

Ailənin rolu haqqında bir çox mütəfəkkirlərin də fikirlərinə geniş yer vermək olar. Bütün bu fikirlərin ana fəlsəfəsini çox şübhəsiz ki, ailənin cəmiyyətin və dövlətin təməli olması, fərdin şəxsiyyətə çevrilməsi kimi ideyalar təşkil edir.

Sosial-fəlsəfi fikir tarixində ailə problemi həmişə böyük maraq doğurub. Məsələn. "Kitabi-Dədə Qorqud" eposunda türk xalqlarının ailə-nigah münasibətlərinin təsviri mühüm yer tutur: VII-IX-cu əsrləri əhatə edən bu eposda ailə, qadın-kişi münasibətləri, valideyn, övlad, ailə və cəmiyyət haqqında çox maraqlı ideyalar irəli sürülmüşdür. Bu ideyalarda həm ümumbəşəri, həm də real, milli-etnik, o cümlədən dini, hüquqi, məişət problemləri öz əksini tapmışdır. Burada o dövrün ailə münasibətlərini həm konkret, real hadisələrin təsvirində, həm də ayrı-ayrı qəhrəmanların öyüd nəsihətlərində öyrənmək olur.

Görkəmli filosof-astronom Nəsirəddin Tusinin ailə dəyərləri haqqında yazırdı. "İnsan yaşamaq üçün öz əzəli, təbii ehtiyaclarını ödəməlidir. Bunun üçün də cəmiyyətdə birləşməli, fəaliyyət göstərməlidir". Tusi ailənin yaranmasında adət-ənənə, idarəçilik vərdişlərinin, sosial-psixoloji mühitin rolunu xüsusi qeyd edərək, ailəni cəmiyyətdə insanın təbii sığınacağı adlandırır. Ailə idarəetməsində əsas rolun ailə başçısına aid olduğunu deyən filosofun fikrincə, o, ailənin maddi təminatına, vacib məsələlərin həllinə, tərbiyə işlərində mükafatlandırma və cəzalandırma, əmək bölgüsü kimi məsələlərin təşkilinə cavabdehdir. Münasibətlərin idarəetmə baxımından tənzimlənməsi problemlərini də nəzərdən keçirən filosof məişət-istehlak funksiyasının vacibliyinə xüsusilə toxunur. Onun fikrincə, bu vacib funksiyaları həyata keçirən insan yüksək əxlaqi dəyərlərə sahib olmalıdır.

Fransız sosioloqu Fr.Le-Ple "Cəmiyyəti dərk edə bilmək üçün ailəni dərk etmək lazımdır" tezisindən çıxış edirdi. O, hesab edirdi ki, xarici mühit insanların iqtisadi həyatını müəyyən edir, eyni zamanda ictimai proseslərə təsir edən ailə formasını diktə edir.

Bəzilərinə görə ailə ən ehtibarlı limandır. Məsələn, Əli Rza Təməlin təbiri ilə desək: "İnsanın həyat dənizinin azğın dalğalarına və güclü fırtınalarına qarşı sığına biləcəyi ən sakit və ən əmin liman ailə yuvasıdır." Çünki bu yuva insanların bədənlə olduğu kimi ruhən də sükuna çatmalarını təmin edən bir məkandır.

Bildiyimiz kimi, cəmiyyətdə sağlam ruhlu insanların yetişməsində ailənin rolu danılmazdır. Kişi və qadın arasındakı səmimiyyət, qarşılıqlı güzəşt, mehribanlıq isə möhkəm ailənin qarantıdır. Sevimli Peyğəmbərimiz (s.ə.s) buyurub: «Sizin içərinizdə ən yaxşı mömin və kamil şəxs odur ki, gözəl əxlaqa malik olmaqla yanaşı, ailəsinə də mehriban və səmimi olsun".

Azömürlü ailələrin uğursuz taleyini təkcə məhəbbət qanunlarına bağlamaq nə dərəcədə doğrudur. Qarşılıqlı məhəbbət olmadan yaranmış ailələrin hamısı sonradan dağılırmı? Əlbəttə ki, xeyr! Hətta bir-birini sevmədən ailə qurmuş ər və arvadın bir çoxu sözün həqiqi mənasında xoşbəxt yaşayırlar. Onlar evlənəndən sonra bir-birinə sanki sevmək öyrədir və sağlam uşaqlar tərbiyə edirlər. Görəsən, qarşılıqlı məhəbbət əsasında yaranmış ailələrdən birinin qısa müddətdə dağılması, o birinin möhkəmlənməsi xoşbəxt ailə kimi inkişaf etməsi nə ilə əlaqədardır?

Ər-arvad arasında konfliktlər nə səbəbə görə baş verir? Bu konfliktlərin bir sıra səbəblərini aşağıdakı kimi göstərmək olar: ünsiyyət mədəniyyətinin aşağı olması,ailədə liderlik iddiası, ər – arvadın bir-birinə neqativ münasibəti, ər-arvad münasibətlərində etik normaların (xəyanət, qısqanclıq) pozulması, həyat yoldaşı tərəfindən sevgi hissinin, diqqət və hörmətin kifayət qədər göstərilməməsi, ər və arvadın bir-birinin adətlərinə, maraq və zövqünə xarakterinə qarşı dözümsüzlüyü, bir-birinə bələdləşmədəki ziddiyyətlər, sevgiyə istehlakçı münasibət, şəxsi – intim münasibətlərdə soyuqluq, nigaha yüngül iş kimi baxılması, içkiyə meyillilik, ər-arvaddan birinin və ya hər ikisinin onları əhatə edən adamlarla (qohum, dost, tanış və s.) pis münasibətdə olması, həyata marağın və tələblərin uyğunsuzluğu, uşağa qarşı pedaqoji mövqeyin müxtəlifliyi, ər - arvaddan birində, bəzən isə hər ikisində şəxsi çatışmazlıqların olması, valideynlərlə uşaqlar arasında qarşılıqlı anlaşmanın olmaması və s. (5, s.35).

Bu səbəblər ən çox konflikt yaradan səbəblərdir, ancaq ola bilsin ki, bəzi ailələrdə-başqa səbəblər də meydana çıxsın. Əsas məsələ narazılığın əmələgəlmə səbəbini bilmək deyil, bu narazılıqları aradan qaldırmaq üçün hər birinin düzgün hərəkət etməsidir. Biz bilməliyik ki, ailələr dağılanda ilk növbədə mənəvi cəhətdən uşaqlara zərbə vurulur, belə ki, "yuva dağılanda bala sərçələr məhv olduğu kimi, ailə dağılanda da uşaqlar məhv olurlar..!"

Professor Ə.Bayramovun qeyd etdiyi kimi, ailə mədəniyyəti çox geniş anlayışdır. Hər bir gənc aydın başa düşməlidir ki, ailə mədəniyyəti bir - birinə hörmətdən, səmimi münasibətdən, qarşılıqlı etimaddan, fikir və hisslərin qarşılıqlı güzəştə getməsindən, ağıllı, təmkinli yaşayışdan yaranır. Ailə mədəniyyatində böyük-kiçik məsələsi yoxdur... Özlüyündə kiçik sayılan məsələni böyütmək, ciddi münaqişə səviyyəsinə çatdırmaq yaxud böyük münaqişələri səbir və təmkinlə həll etmək mümkündür. Buna görə də cavanlar öz ailələrinin tamlığını qoruyub saxlamaq üçün ilk növbədə cəmiyyət qarşısında ciddi məsuliyyət daşıdıqlarını dərk etməlidirlər. Çünki nigahın əsasını məhəbbət hissi ilə borc və məsuliyyət hisslərinin vəhdəti təşkil edir (4, 47).

Bir-birini sevən ər-arvad ailədə mübahisələri mədəni şəkildə aparmalı və tərəflərdən heç biri qalib gəlmək məqsədi güdməməlidir. Yadda saxlamaq lazımdır ki, sənin qələbən sevdiyin şəxsin məğlubiyyətidir. Ər-arvad bir ailə təşkil etdiyindən hər hansı tərəfin qələbəsi ailənin məğlubiyyəti deməkdir.

Ailənin, ilk növbədə, psixoloji sağlamlığı yerində olmalıdır. Psixoloji sağlamlıq dedikdə, ailənin bütün üzvlərinə mənəvi-psixoloji tələbatının ödənilməsi, onların həyatdakı şəraitə uyğun fəaliyyətinin qurulmasının təmin edilməsidir. V.S.Taraxtiy qeyd edir ki, ailənin psixoloji sağlamlığına əsas kriteriyaları qismində, ailə dəyərlərinin üstün tutulması, funksional-rol razılığın, sosial-rol adekvatlığın, emosional məmnunluq, mikrososial münasibətlərə adaptasiya, ailənin uzunömürlü olmasına meyillilik və s. çıxış edir. Ailənin psixoloji sağlamlığının bu kriteriyaları müasir ailələrin ümumi psixoloji portretini çəkir və hər şeydən əvvəl onun xoşbəxtliyini xarakterizə edir.

Amerikanın məşhur sosial işçisi V.Satir isə hesab edir ki, sağlam ailə dedikdə - ailənin hər bir üzvü bərabər səviyyədə tutulur, inam, etibar və düzgünlük həqiqətən mövcud, ailədaxili ünsiyyət konqruyent olur, ailənin üzvləri bir-birini dəstəkləyir, hər bir ailə üzvü ailənin bütövlüyü üçün məsuliyyət hiss edir, ailənin bütün üzvləri birgə istirahət edir və həyatdan həzz alır, ailədə adət-ənənə əsas yer tutur, ailədə hər kəs bir-birinə hörmət edir və onu olduğu kimi qəbul edir, ailənin hər bir üzvünün hissləri qəbul edilir və lazım olanda tənqid edilir. Görkəmli rus yazıçısı və pedaqoqu **L.Tolstoy isə yazırdı ki, bütün xosbəxt ailələr bir – birlərinə bənzəyirlər, hər bədbəxt ailənin isə ozunə xas bədbəxtliyi vardır.**

Azərbaycan ailəsi özünün spesifik cəhətləri ilə daim fərqlənmişdir. Azərbaycan ailəsinin xarakterik cəhətləri kimi aşağıdakıları qeyd etmək olar: valideynlərə, yaşlılara hörmət və ehtiram göstərilməsi; ailədə böyük-kiçik yerinin gözlənilməsi; uşaqlara qayğı; yetkinlik yaşına çatmış övladların valideynin qayğısına qalması; xeyir-şər işlərində ailə üzvlərinin bir-birinə dayaq olması, ən pis vəziyyətlərdə ailə üzvlərinin bir araya gəlməsi.

Dünyada ailə dəyərlərinin itirilməsi təhlükəsi olduğu bir zamanda Şərq və Qərb dəyərlərini özündə birləşdirən Azərbaycan ailə modelinin möhkəmləndirilməsi və təbliği dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Bu mənada Azərbaycanın ailə modeli dünyaya bir nümunədir.

Ailəmizdə yaxşılığa doğru dəyişikliklər etmək istəyiriksə, biz ilk növbədə özümüzü və məsələlərə baxış bucağımızı dəyişməliyik. Bağışlamağı, güzəşt etməyi və qarşı tərəfə hörmətlə yanaşmağı öyrənməliyik. Yalnız bu olduqda sevgi və səmimiyyət dolu bir ailəyə sahib ola bilərik. **Ailə quran gənc insanlar bilməlidirlər ki, ailənin müvəffəqiyyətində ən vacib addım həyat yoldaşı seçimində yetərincə diqqətli olmaqdır.**

Yekunda onu qeyd etmək istəyirəm ki, ailə dəyərlərinin qorunmasında cəmiyyətin və dövlətin bütün institutları aktiv və məsuliyyətli olmalıdır. Cəmiyyətin hər bir üzvü öz əməllərilə ailələri narahat edən problemlərin həlli istiqamətində dövlətə yaxından köməklik etməlidir. Təhsil müəssisələrində, əmək kollektivlərində və yaşayış məntəqələrində müqəddəs ailələrin ənənələri, qayda-qanunları, yüksək amalları geniş təbliğ edilməlidir. Çunki sağlam ailə olmasa sağlam cəmiyyət ola bilməz.

Yadımızda saxlayaq ki, Allah yerə təkcə bulud və yağış göndərmir. O, həm də gözəl günəş şüalarını bəxş edir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı,2013
2. Azərbaycan Respublikasının Ailə Məcəlləsi, Bakı, 1999
3. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə , “Psixologiya”, Bakı, 2002
4. Ə.S. Bayramov, Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri, Bakı, 1981
5. M.İsmixanov, İnsan xarakteri və münasibətlər, Bakı, 2009
6. Гегель Г. Работы разных лет. М., 1971, с.168
7. http://www.azerislam.com/?lngs=aze&cats=1&ids=2034


## ABSTRACT


**Konul Salmanova**

**Healthy Family - Healthy Society**

It is necessary to be heallthy, druable for healthy society. It was so for our county Azerbaijan yesterday, it is so just now, and unconditional it will also be so tomorrow. Because, it is the nucleus of the society. That is why family is one of the different personalities. Family combines state and society which is sacred attachment . Based on common interests, it carries spiritual emotions and it is the social institute of the people. Social values, standards are important attributes because, they axe howl bun exspressed their cultural heeds. Social-economic, spiritual emotions moral values great important on themselves.

In the article is noticed that the family as the basic element of society is under special protection of state. Also in the article are examined the values of the family and the reasons of the creation of conflicts. In the article are provided recommendations for a young family and were taken into account the characters of Azerbaijan family.

**РЕЗЮМЕ**

**Кенюль Салманова**

**Здоровая семья - здоровое общество**

В статье отмечено что, в первую очередь для здорового общества нужна крепкая, здоровая семья. В Азербайджане так было в прошлом, в нынешнем тоже так, безусловно так и будет в будущем. Потому что семья, это основной фундамент общества и государства. Потому что, общество состоит из семей и отдельных различных лиц. Семья это святое обьединение между государством и обществом. А также в статье говорится, что на основе общих интересов моральных и эмоциональных чувствах людей семья само по себе является социальным институтом. Здесь социальные ценности, нормы важные атрибуты семьи. В истории социально-политических и философских идей этой проблемой все время интересовались.

А также, в статье говорится, что семья как основной елемент общества под специльной защитой государства. А также в статье рассматриваются ценности семьи и выясняются причины создания конфликтов. В целом мы всегда и везде должны стремиться давать важные рекомендации молодежи против распадания их семей, чтобы защитить их от уничтожения. В статье даны рекомендации для молодой семьи и были учтены характеры Азербайджанской семьи

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**

**VİDADİ SALMANOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:18**

## İNSANIN VƏTƏNPƏRVƏRLİK HİSSİ ƏN ALİ ƏXLAQİ-MƏNƏVİ HİSSDİR

*"Vətən mənə oğul desə nə dərdim, mamır*
*olub qayasında bitərdim".*
M.Araz

**Açar sözlər:** *vətən, cəmiyyət, vətənpərvərlik hissi*
**Key words:** *homeland, society, a sense of patriotism*
**Ключевые слова:** *родина, общество, чувство патриотизма*

Vətən insanın anadan olduğu, dədə-babaların, qohum-əqrəbalarının yaşadığı, soykökü ilə bağlı olduğu yerdir.Vətən sadəcə müəyyən sərhədləri olan coğrafi bir məkan deyildir. Vətən xüsusi sevgi və hörmətə layiq müqəddəs torpaqdır. Vətəni sevmək Vətəni qorumaq, onun hər qarışını sevmək, Vətən naminə canını qurban verməyə hazır olmaq deməkdir. Vətəni sevmək, ona bağlanmaq hər bir şəxsin vətəndaşlıq borcudur. Vətən dedikdə ilk öncə insanın gözləri qarşısına yaşadığı məkan gəlir. Hamımızın yaşadığı yer Azərbaycan torpağıdır. Azərbaycanın adı gəldikdə hər bir azərbaycanlının qəlbində qürur hissi baş qaldırır. Ana torpağımızın hər bir qarış torpağı gözəldir. Bu torpaq uğrunda çox qanlar tökülüb, çox qurbanlar olub.

Vətənə bağlılıq insanlarda vətənpərvərliklə səciyyələndirilir.

Vətənpərvərlik mahiyyəti vətənə məhəbbət və öz şəxsi maraqlarını vətən yolunda qurban verməyə əsaslanan emosional bağlılıqdır. Burada vətəninin xarakterini və mədəni incilərini qorumaq və özünü bu keyfiyyətlərlə millətin başqa üzvləri ilə tanımaq, vətənin və öz xalqının marağını qorumaq da vətənpərvərlik keyfiyyətlərinə aiddir. Vətənpərvərliyin tarixi kökü min illər boyu yaşamış, möhkəmlənmiş, öz ana torpağına, dilinə və adət ənənələrinə bağlanmış dövlətçilik durur. Millətin və dövlətçiliyin formalaşması şəraitində vətənpərvərlik onun inkişafının ümummilli anlarını əks etdirən ictimai düşüncənin tərkib hissəsinə çevrilir.

Vətənpərvərlik – vətənə olan ülvi məhəbbətdir. Vətənpərvərlik hissi insanın daxilində olan bir hissdir və bu hissləri də müəyyən vasitələrlə tərbiyələndirmək, düzgün istiqamətə yönəltmək lazımdır. Əgər bu hiss sənin daxilində yaranmayıbsa, o zaman nə vətənini, nə torpağını, nə valideynlərini sevə bilməzsən. Vətənpərvərəm deməklə iş bitmir. Hər bir insan vətənpərvərliyini əməlləri ilə, gördüyü işlərlə sübut etməlidir

Vətənpərvərlik tərbiyəsinin əsas məqsədi vətəndaşlıq borcunu yerinə yetirməyə can atan mənəvi, siyasi, professional, psixoloji və fiziki keyfiyyətlərə malik olan insan tərbiyə etməkdir. İnsanın ən ali və əzəli hisslərindən olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Lakin vətənpərvərlik təkcə vətəni sevmək deyil. Vətənpərvərlik həm də vətənin naminə çalışmaq, vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, vətənin, xalqın hər bir uğuruna sevinməklə yanaşı, insanın ləyaqətlilik, əqidəlilik, vicdanlılıq, sədaqətlilik əlamətləri də başa düşülür. Bu hiss insanda anadangəlmə olsa da, bütün digər hisslər kimi tərbiyəyə möhtacdır və tərbiyə yolu ilə daha da möhkəmlənir, artır. Vətənpərvərlik insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdən olduğundan onun böyüməkdə olan nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi həmişə təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindən, məktəbin ən vacib vəzifələrindən olub.

İnsanın vətənpərvərlik hissinə malik olması onun ən ali əxlaqi-mənəvi məziyyətləri sırasında birincilərdən hesab olunur. Çünki vətənpərvərlik dedikdə onun əsas komponentləri - doğulduğun torpağı, yaşadığın ölkəni sevmək, onun uğrunda çalışmaq, ona əməlləri ilə faydalı olmaq, onu qorumaq kimi keyfiyyətlərlə yanaşı Vətənin qədrini bilməli, çətinliklərinə dözməliyik. Ata-babalarımız təsadüfən deməyiblər ki, "Torpağı qoruyarsan Vətən olar, qorumazsan kəfən". Vətən sevgisi, Vətənə sədaqət, onun çiçəklənməsi üçün çalışmağa hazır olmaq ən çətin anlarda belə, adamların qüvvələrini vahid məqsəd üçün - Vətənin azadlığı, xilası naminə səfərbər edir.

Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşmış və ona həyati əhəmiyyətli məsələ kimi baxmışdır. Bu bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir.

Qarabağ savaşı göstərdi ki, Azərbaycanda indi də canını Vətən yolunda qurban verməyə, onun uğrunda ölümə getməyə hazır olan igid oğul və qızlarımız çoxdur. Bu mərd və mübariz Vətən övladları öz doğma torpaqları uğrunda canlarını fəda etmiş və gələcək nəsillərin də vətəni dərin və atəşli məhəbbətlə sevməsinə nümunə ola biləcək şərəfli bir iz qoymuşlar.Vətəni sevmək torpağı sevməkdir. Vətənə məhəbbət xalqa məhəbbətdir.Vətəni sevmək, göz bəbəyi kimi qorumaq, onun torpağının, daşının qədrini bilmək, sözün əsl mənasında həmişə mübariz və mərd vətən övladlarının, cəsur və namuslu insanlarının ən nəcib və müqəddəs vəzifəsidir.

Vətəndaşlıq hissi vətənpərvərliyin ən yüksək forması olub, fərdin dövlət qarşısında öz hüquq və vəzifələrini başa düşməsidir. Vətəndaşlıq hissi olan şəxs öz ətrafında vətənin taleyi ilə bağlı baş verən hadisələrin fəal iştirakçısına çevrilməlidir.

Hər bir insan öz ölkəsi, vətəni haqqında nə qədər çox məlumatlı olarsa, torpağını da bir o qədər çox sevər. Onun milli sərvətlərinə, milli dəyərlərinə qırılmaz iplərlə bağlanar, onu qorumağı özünə borc hesab edər. Gənclərlə aparılan vətənpərvərlik tərbiyəsi işi onların Vətənə məhəbbət və sədaqət ruhunda böyüməlməlirinə, xalqımıza xas olan ən yaxşı mənəvi və əxlaqi keyfiyyətlərə yiyələnmələrinə müsbət təsir göstərməsi üçün müəllimlər əlindən gələni əsirgəməməlidir. Vətənpərvərlik tərbiyəsində xalqımızın qəhrəman oğulları, tarixi şəxsiyyətlər haqqında gənclərə verilən məlumatlar, aşılanan biliklər də güclü təsir qüvvəsinə malikdir.

Müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə böyük və məsuliyyətli vəzifələr düşür. Bu vəzifələri isə yalnız öz vətənini sevən, onun tərəqqisinə çalışan və azadlığı uğrunda canını qurban verməyə hazır olan gənclər yerinə yetirə bilər. Vətənə məhəbbət hissi gənclərin dövlət dilinə, milli musiqiyə, folklora, mənsub olduğu dini dəyərlərə, tarixi ənənələrə bağlılığında, ölkə ərazisinin bütövlüyünün qorunmasına hazır olduğunu əməli işlə sübut etməyində öz təzahürünü tapmalıdır.

Vətənin tərəqqisi naminə çalışmaq üçün gənclərin müəyyən sənətə, peşəyə sahib olması, dövlət quruculuğunda fəal iştirak etməsi də önəmli amildir. Gənc nəslin təhsilə yiyələnməsi, geniş dünyagörüşə malik olması, əməyi sevməsi vacibdir. Vətənin maddi və mənəvi sərvətlərini qorumaq, iqtisadi qüdrətinin yüksəlməsinə nail olmaq, baş verə biləcək iğtişaşlara, təxribatlara və təbii fəlakətlərə qarşı həmişə mübarizə aparmaq iqtidarında olmaq vətən sevgisindən irəli gəlir.

Məlumdur ki, təlim-tərbiyə işinin bütün sahələrində, istiqamətlərində olduğu kimi vətənpərvərlik tərbiyəsinin də əsası ibtidai siniflərdə qoyulur və o, sonrakı təlim pillələrində daha da inkişaf etdirilir. Bu mənada böyüməkdə olan nəslin vətənpərvərlik tərbiyəsində ibtidai sinif müəllimlərinin üzərinə böyük məsuliyyət düşür. Onlar məktəbə qədəm qoyan körpə fidanların qəlbində elə ilk günlərdən vətənə məhəbbət aşılamağa, onu güclü vətənpərvərlik hissinə çevirməyə çalışmalıdırlar.

Milli-mənəvi dəyərlərə bağlılıq insanda ilk vaxtlarda vətənpərvərlik hisslərini gücləndirir və sonrakı mərhələlərdə insanın əsl vətəndaş olmasında birbaşa rol oynayır

Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amildir. Biz şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edirik. igid və cəsur sərkərdələrimizin şəxsi nümunəsi bizə əsas verir deyək ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Və bu xalq öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetirmişdir. Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında həlak olmuş qəhrəmanlarımızın ibrətamiz həyatı, şəxsi nümunəsi apardığımız hərbi vətənpərvərlik tərbiyəsi işində ön plana keçməlidir.

Artıq bu gün müstəqil Respublikamızın inkişafı ilk növbədə böyüyən nəslin təlim-tərbiyə işinin düzgün təşkilindən, vətəndaşlıq hazırlığından asılıdır. Uşaqların bir vətəndaş kimi böyüməsində ailənin, cəmiyyətin-ümumilikdə mühitin rolu böyükdür. Uşaqlar bir insan kimi, vətəndaş kimi ilk tərbiyəni ailədən alır.

Ailə ictimaiyyətin təməl daşı hesab olunur. Ən qədim sosial institut olan bu «kiçik dövlət»lə bağlı mövzular bütün zamanlarda öz aktuallığı ilə seçilib. Danılmaz faktdır ki, insan ilk tərbiyəsini ailədə alır. Azərbaycanlılar üçün isə ailə dəyərləri, onun mənəvi-əxlaqi keyfiyyətləri həmişə xüsusi önəm daşıyıb. Amma bu məsələdə ailə tərbiyəsinin xüsusi rolu var. Torpaqları işğal altında olan Azərbaycan ailəsində ata da, ana da, övlad da vətənpərvər olmalıdır.

Ailə tərbiyəsi, cavanların vətənpərvər ruhda, insan, şəxsiyyət kimi böyüməsi valideynlərdən asılıdır. Bütövlükdə ailə tərbiyəsinin cəmiyyətdə oynadığı rol, ata-ananın tərbiyəsi, onun dünyagörüşü və əxlaq tərzi ilə ölçülür. Yəni onların əxlaq tərzi, düşüncəsi, cəmiyyətə, insanlığa, dövlətə, xalqa və vətənə münasibətinin hansı səviyyədə olması ilə bağlıdır. Körpə vaxtından tərbiyənin özülü necə qoyulubsa, o cür də olacaq. Ona görə də ailə tərbiyəsinin oynadığı rolu dəyərləndirərkən, ilk növbədə valideynlərin özünün səviyyəsinə, tərbiyəsinə fikir verməliyik. Tərbiyənin arxasında duran adamın özü gərək yuxarıda sadalanan meyarları özündə daşımalıdır. Ailə tərbiyəsi vətəndaşın formalaşmağına o zaman müsbət təsir göstərir ki, ailə üzvlərinin dünyagörüşü, mənəviyyatı, əxlaqı yüksək olur. Digər tərəfdən, belələri təkcə milli yox, həm də bəşəri təfəkkür sahibi olmalıdırlar. Ümumən ailədə tərbiyə məsələsi ailənin üzvlərindən başlayır. Bir şeyi nəzərə almaq lazımdır ki, ölkəmiz Şərq və İslam dünyası ilə vəhdətdə götürüləndə azərbaycanlıların ailədə çox fərqli tərbiyə metodları ortaya çıxır. Xüsusən də övlada, uşağa münasibətdə fərqlər yetərincə çoxdur. Bunların müsbət və mənfi cəhətləri də vardır.. Tərbiyəmizdə mənfi cəhət ondan ibarətdir ki, uşaqlarımızı bir sıra hallarda sərbəst böyüməyə qoymuruq. Hesab edirəm ki, bu cür stereotiplərdən uzaqlaşmaq lazımdır. Ona görə ki, bu, uşaqların sərbəst düşünməsinə və mütərəqqi təşəbbüslərlə çıxış etməsinə mane olur. Bəzən bu o həddə gəlib çatır ki, müəyyən mənfi fəsadlara gətirib çıxarır. Bununla bərabər Azərbaycan ailəsində həqiqətən də yüksək tərbiyə normaları var. Halbuki, bir çox xalqlarda bu normalar yoxdur. Böyüyə hörmət, insanpərvərlik kimi nəcib keyfiyyətlər bizim qədim ənənələrdən gəlir. Bu ənənələrin kökündə də xalqımızın mütərəqqi ailə tərbiyəsi vərdişləri dayanır. Bütün bunlar gənclərimizin sağlam vətəndaş olaraq formalaşmağına çox müsbət təsir göstərir. Bu Azərbaycan ailə tərbiyəsinin vacib elementlərindən biridir. Bizdə humanizm, insanpərvərlik ailədə uşaqlara çox yaxşı aşılanır. Bu da, öz növbəsində, uşaqların tərbiyəsinə müsbət mənada çox yaxşı təsir göstərir. Valideynlər çalışır ki, övladları xeyirxah, istedadlı, cəmiyyətə faydalı olsun. Bu minvalla bizim millətin, xalqın mənəvi-əxlaqi keyfiyyətlərinin hansı səviyyədə durduğunu, hansı cəhətdən mütərəqqi, qabaqcıl olduğunu dünyaya çatdıra bilərik. Digər tərəfdən, mütərəqqi övlad tərbiyəsi ənənələrinin təhsil sahələrində geniş təbliğ olunmasına ehtiyac var. Çünki ailədə uşağa verilən tərbiyəni məktəbdəki təlim-tərbiyədən ayrı təsəvvür etmək olmaz. Bunlar bir-biri ilə sıx bağlıdır.

Biz ailədə dili yenicə söz tutmağa başlayan, ağlı yenicə kəsən uşaqlarımıza düşmənimizin kim olduğunu, şəhidlərimizin nə üçün öldüyünü, onların niyə müqəddəs sayıldığını, vətənimizin haradan başlayıb, harada qurtardığını, milli kimliyimizi, torpağın ana qədər doğma sayıldığını anlatmalıyıq. Həm də elə anlatmalıyıq ki, bunları heç vaxt yaddan çıxara bilməsinlər.

Burada onlar əxlaqi-mənəvi keyfiyyətləri, fiziki möhkəmliyi, əmək vərdişlərini, davranış qaydalarını, bədii-estetik duyumu və s. kimi keyfiyyətləri qazanır.Tərbiyənin əsas məqsədi kamil şəxsiyyət – insan-vətəndaş yetişdirməkdir. Vətəndaş tərbiyə etmək-mənsub olduğu dövlətin inkişafına çalışan, mənafeyini gözləyən, onun təhlükəsizliyi üçün məsuliyyət daşıyan, dövlətin cari və perspektiv işlərində iştirak edən, insan yetişdirmək deməkdir. Əsl vətəndaş dedikdə, bilavasitə vətənə, dövlətə gərək olan fəaliyyəti ilə xidmət edən, böyük mənəvi keyfiyyətlərə malik olan insan nəzərdə tutulur. Vətəndaşlıq tərbiyəsinin mənbəyi ailədir. Təcrübə göstərir ki, ailədə vətəndaşlıq tərbiyəsi planlı, sistemli, məqsədli şəkildə təşkil olunmalıdır. Uşaqların vətəndaşlıq tərbiyəsi dedikdə, yüksək əxlaqi, mənəvi keyfiyyətlərə yiyələnmə və şəxsiyyət kimi yetişmə nəzərdə tutulur. Onlar davranış qaydalarını, nizam-intizamı, savadlı olmağı, vətəninin tarixini, coğrafiyasını, mədəniyyətini, milli adət-ənənələrini bilməli, vətəni sevməlidirlər. Uşaqlar ideyaca savadlı olmalı, işə şüurlu yanaşmalı, məsuliyyətli, vicdanlı, mübariz olmalı, pis niyyətlə, əliəyriliklərlə barışmamalıdır.

Mənəviyyat tərbiyəsini qiymətləndirmək üçün uşaqlarda yaxşını pisdən ayırmaq, həqiqətə, ədalətə, insanlara-böyüklərə, ailə üzvlərinə hörmət etmək kimi insani keyfiyyətlər aşılanmalıdır. Onların davranış xüsusiyyətlərini uyğun qiymətləndirməli, yaxşı davranış və qarşılıqlı əlaqə təmin olunmalıdır.

Vətənpərvərlik insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdən olduğundan onun böyüməkdə olan nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi həmişə təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindən, məktəbin ən vacib vəzifələrindən olub.

Müasir dövrdə təhsilin qarşısında qoyulmuş fəal vətəndaşlar yetişdirmək vəzifəsi də məhz sistemli, ardıcıl aparılan vətənpərvərlik tərbiyəsinin nəticəsində reallaşdırılır.

Məlumdur ki, təlim-tərbiyə işinin bütün sahələrində, istiqamətlərində olduğu kimi vətənpərvərlik tərbiyəsinin də əsası ibtidai siniflərdə qoyulur və o, sonrakı təlim pillələrində daha da inkişaf etdirilir. Bu mənada böyüməkdə olan nəslin vətənpərvərlik tərbiyəsində ibtidai sinif müəllimlərinin üzərinə böyük məsuliyyət düşür. Onlar məktəbə qədəm qoyan körpə fidanların qəlbində elə ilk günlərdən Vətənə məhəbbət aşılamağa, onu güclü vətənpərvərlik hissinə çevirməyə çalışmalıdırlar. Məhz bütün bunları nəzərə alaraq ibtidai siniflərdə şagirdlərin vətənpərvərlik tərbiyəsinə xüsusi fikir vermək istər dərslərdə, istərsə də sinifdənxaric və məktəbdənkənar tədbirlər zamanı bu istiqamətdə müntəzəm iş aparmaq lazımdır.

Şagirdlərin vətənpərvərlik və Vətənə məhəbbət hissi tərbiyəsinin ən vacib məqamlarından biri onların yaşadığı kənd, şəhər, ölkə haqqında geniş məlumata malik olmaları və onu tanımalarıdır. Bu məqsədlə istər dərslərdə, ayrı-ayrı mövzuların, mətnlərin öyrədilməsi zamanı, istərsə də müxtəlif mövzularda tez-tez keçirilən dərsdənkənar tədbirlərdə Vətənimiz, onun tarixi, zəngin flora və faunası, yeraltı və yerüstü sərvətləri, maddi-mədəniyyət abidələri haqqında geniş məlumat vermək lazımdır.

Vətənpərvərlik tərbiyəsində xalqımızın qəhrəman oğulları, tarixi şəxsiyyətlər haqqında şagirdlərə verilən məlumatlar, aşılanan biliklər də güclü təsir qüvvəsinə malikdir. Onlar haqqında verilən məlumatlar əsasında şagirdlər həm tarixin müəyyən mərhələlərində xalqımızın həyatında, yadellilərə qarşı mübarizədə, müstəqilliyimizin əldə olunmasında, dövlətçiliyimizin qorunmasında, mədəniyyətimizin, ədəbiyyatımızın inkişafında böyük rol oynamış qəhrəmanları, tarixi şəxsiyyətləri, mədəniyyət xadimlərimizi tanıyır, həm də onların həyat və mübarizə yolu timsalında vətənpərvər kimi yetişirlər.

Ölkəmizdə qeyd olunan milli və dövlət bayramları, tarixi günlər də əvəzsiz vətənpərvərlik tərbiyəsi vasitəsidir.

Milli mənliyə vətəni sevmək, doğma yurda məhəbbət bəsləmək, təbii sərvətləri qorumaq və s. Bağlı sosial keyfiyyətlər daxildir. Milli mənliyə gedən yol isə milli özünüdərkdən keçir. Sadalanan keyfiyyətləri insan dünyagörüşünün formalaşdığı vaxtda əldə edir bu da vətəndaşın gənclik dövrünə təsadüf edir.

Bizim həm də müharibə şəraitində olmağımız, torpaqlarımızın bir hissəsinin qəsb edilməsi isə gənclərin məhz vətənpərvər ruhda böyüməsinin əhəmiyyətini bir qədər də vacib edir. Azərbaycan əhalisinin 31%-ni 14-29 yaşında olan gənclər təşkil edir. Ölkə əhalisinin mühüm bir hissəsini əhatə edən bu sosial təbəqənin ailədə vətənpərvərlik tərbiyəsi yüksək səviyyədə aparılmalıdır. Milli dövlətin qarşısında duran ən başlıca işlərdən biri əhaliyə düzgün, sağlam vətəndaşlıq və vətənpərvərlik hisslərini aşılamaqdır.

Bir xalqın mövcudluğu üçün sağlam gəncliyin olması ən vacib şərtdir. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır.

Hər bir ölkənin gələcəyi onun gənclərinin düşüncə tərzindən, intellektual səviyyəsindən və digər amillərləbağlıdır. Azərbaycan gəncliyi bütün dövrlərdə ölkənin məsuliyyətli məsələlərinə münasibətdə, həlledici məqamlarda öz sözünü deyib. Ölkəmiz müstəqillik əldə etdikdən sonra gənc nəslin üzərinə daha böyük məsuliyyət düşüb. Müstəqilliyin əldə edilməsində olduğu kimi, onun qorunub saxlanmasında da gənclərin rolu danılmazdır. Gənc nəsil həm də xalqın əsrlər boyu yaradıb yaşatdığı ənənələri, milli mədəniyyəti yaşadır və gələcək nəsillərə ötürür. Bu mənada gənclərin çiyinlərinə böyük yük düşmüş olur. Çünki gənclər dövlətin həm bu günü, həm də gələcəyidir.

Bu baxımdan ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan verir, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynayır. Yetişməkdə olan gənc nəslin sağlamlığının təmin edilməsində, onların vətənpərvərlik hisslərinin tərbiyəsində, əməyə və vətənin müdafiəsinə hazır olan mərd və cəsur insanlar kimi yetişməsində idmanın rolu böyükdür. Gənclərin fiziki və mənəvi tərbiyəsində müstəsna rol oynayan bədən tərbiyəsi və

idmanın inkişafını daha da sürətləndirmək, onun kütləviliyini təmin etmək üçün Azərbaycanda məqsədyönlü və möhtəşəm işlər aparılır.

Qəlbində vətəninə, xalqına böyük sevgi hissləri olan idmançı beynəlxalq arenalarda ölkəsinin şərəfini daim yüksəkdə tutmağa, ləyaqətlə çıxış etməyə çalışır. Fiziki və mənəvi cəhətdən sağlam olan, eyni zamanda vətənpərvər gənclər Ana vətənin keşiyində layiqincə dayanırlar. Bu, Qarabağ uğrunda gedən savaşda öz təsdiqini bir daha tapdı.

Xalqımız ta qədimdən döyüşlərdə bərkiyib, ata-babalarımız mərdlik, cəsurluq məktəbi keçib. Onlar torpaqlarını öz qanları bahasına qoruyublar. Tariximizin şanlı səhifələrini vərəqləsək, mütləq ata-babalarımızın qəhrəmanlığından, vətənpərvərliyindən bəhs edən faktlarla rastlaşacağıq. Bu xalq Babək, Cavanşir, Koroğlu, Şah İsmayıl Xətai, Cavad xan, Hüseynəli xan kimi qəhrəmanların, Tomris, Nüşabə, Burlaxatun kimi kişi qeyrətli xanımların varisidir. Müasir Azərbaycan gəncliyi bu qəhrəmanlardan ibrət alır. Bu gün Azərbaycan Respublikasının bayrağını müxtəlif beynəlxalq turnirlərdə dalğalandıran idmançılarımız tariximizin qəhrəmanlıq salnaməsini davam etdirənlərdir. Azərbaycanın sağlam, firavan sabahı uğrunda idmana, bədən tərbiyəsinə bağlı gənclərin yetişdirilməsi Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin məqsədyönlü siyasətinin əsasını təşkil edir. Ölkəmizdə möhtəşəm idman yarışlarının və idman tədbirlərinin təşkili də məhz bu məqsədə xidmət edir. İdmançılarımızın əldə etdikləri uğurların təməlində, əsas təkanverici stimul Vətən sevgisi, xalqa olan bağlılıqdır.

Dövlət başçısı İlham Əliyev idmanın, bədən tərbiyəsinin gənclərin vətənpərvərlik tərbiyəsində rolunu yüksək qiymətləndirmişdir: "Yeniyetmələrin, uşaqların vətənpərvərlik ruhunda böyüməsi üçün idman çox mühüm rol oynayır. Bu, Azərbaycanda da belədir”. Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında əldə edilən yüksək qələbələrdən sonra idmançılarımızın dövlət başçısı tərəfindən qəbul edilməsi ənənə halına çevrilib. Bütün bunlar gənclərin əsas hissəsini təşkil edən idmançı ordusunun vətənə sədaqət ruhunda böyüməsində, onların vətənpərvərlik hissinin tərbiyəsində çox mühüm rol oynayır.

Gənclərə göstərilən əvəzsiz qayğı ölkəmizin, millətimizin gələcəyi olan nəslin güclü xarakterə, sağlam ruha malik olmasında başlıca rol oynayır. Uşaq, yeniyetmə və gənclərimizin vətənpərvərlik, dünyəvilik prinsipləri əsasında tərbiyə olunması, onların fiziki və mənəvi inkişafı da Azərbaycan dövlətinin əsas ideologiyalarından biridir.

## ƏDƏBİYYAT


1. www.kivdf.gov.az
2. Bakı “Xəbər qəzeti”, http://bakixeber.az
3. “Şərq qəzeti” http://www.sherg.az
4. Modern.az


## ABSTRACT


**Salmanov Vidadi**



The article considers the Motherland to be a holy land which is worth great love and respect. To love your Motherland, to defend it, to love every inch of your Motherland means to be ready to sacrifice yourself for your motherland. The more informed every person about his\her country or Motherland, the more he\she loves his\her country. Patriotism is the main factor that lays the foundation of heroism.

Development of our Republic, first of all, depends on the proper and perfect organization of education and training of the growing generation, and training them as a citizen. The role of a family, community and in general, the environment in training the children as a citizen is great, because as a human and as a citizen children get their first education from their families. Their growing in the spirit of patriotism, or as a human and as a citizen depends greatly on their families and family education. On the whole, the role of family education in the community, the parents’ education is measured with their outlook and style of morality. In our community the feelings of humanism and patriotism are better fostered within the family. And this, in its own turn, affects to the education of children positively. Parents try to raise their children as benevolent, talented, worthy for their community.

To assess the moral education children should be fostered the humanistic qualities like distinguishing between good and bad, respect for truth, justice, people, elderly ones, family members, etc. Healthy youth is the most important condition for the existence of any nation.

The future of every country is closely related to the style of thinking, intellectual level, etc. of the youth of that country.

The role of youth is undeniable in gaining the independence, as well as, in maintaining it, because youth are the present day and future of any state.

Raising our children, teenagers and youth on the principles of patriotism and secularism, their physical ad moral development is one of main ideologies of the Azerbaijan state.

**РЕЗЮМЕ**

**Салманов Видади**

В статье говорится, что родина это святая земля которая достойная любви и уважения. Здесь говорится,что патриотизм в человеке создает ощущение героизма и непобедимости и повышает уверенность в борьбе. Истинный гражданин это человек больших моральных качеств. Любовь к Родине, защита Родины, это то что человек который должен быть готов пожертвовать своей жизнью ради Родины. Каждый человек на сколько много он будет знать о своей родине, столько больше он будет любить свою землю. Патриотизм является основателем героизма. А также в статье говорится что, развитие республики в первую очередь зависит от правильной организации воспитания подрастающего поколения. Развитие детей как истинного гражданина зависит от семьи, от общества, в общем зависит от окружающей среды. Для истинного гражданина, воспитание является первым элементом которую он будучи ребенком получал в семье. Развитие молодежи, как человека, как личности в духе патриотизма непременно зависит от родителей, от семейного воспитания. В целом роль семейного воспитания в обществе измеряется мировоззрением и нравственным образом воспитания родителей.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**

**ŞƏFƏQ ƏLİYEVA**

**UOT:1(091)**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA ƏHALİNİN MƏSKUNLAŞMA DİNAMİKASI

**Açar sözlər**: *tarixi dövr, coğrafi hadisə, dinamika, məskunlaşma, əhali.*

**Key words**: *historical period, geographical occurrence, dinamics, settlement, population.*
**Ключевые слова**: *исторический период, географические события, динамика, расселения, наседения.*

"Məskunlaşma" sözü ölkə əhalisinin ərazi üzrə yerləşməsini, tarixən məskunlaşma prosesini və bunun təşkil olunmasını özündə birləşdirir. Məskunlaşma prosesinə təsir edən əsas amil istehsaldır. İstehsal sahələrinin formalaşması, inkişafı məhsuldar qüvvələrin əsasını təşkil edən əmək ehtiyatlarının yerləşdirilməsi prosesini də sürətləndirir. İçtimai əmək bölgüsünün inkişafı və xarakterinin dəyişilməsi, yəni "neolit inqilablarının " baş verməsi əhalinin məskunlaşmasına ciddi təsir etmiş və yeni məskunlaşma formalarının – şəhərlərin yaranmasına səbəb olmuşdur. İlkin dövrlərdə yaşayış məntəqələrinin tiplərini müəyyən edən heç bir qanun olmamışdır. Ancaq dövlətlərin və onların qanunverici orqanlarının yaranması iləyaşayış məntəqələrinin statusları, hətta əhalinin sayı müəyyən olunurdu. Bu statuslar və əhalinin sayı müxtəlif ölkələrdə və müxtəlif dövrlərdə fərqli olmuşdur. Müasir dövrdə Azərbaycan Respublikasında şəhər kateqoriyasına əhalisinin sayı 12 min nəfərdən az olmayan, əhalisinin 85 % -i fəhlə, qulluqçu və onların ailə üzvlərindən ibarət olan məntəqələr aid edilir ( 1, 78). (Qeyd etmək lazımdır ki, bu say vaxtı ilə 5 min, sonra isə 15 min nəfər də qəbul edilmişdir). Tarixən yaranmış təbiət Naxçıvanın şəhər kimi formalaşmasına şərait yaratmışdır.

Naxçıvan MR əhalisi 40 milyonluq azəri türklərinin kiçik bir hissəsi olub tarixi dövr ərzində baş verən ictimai-siyasi hadisələr nəticəsində öz vətənini tərk etmiş, köçürülmüş, məhv edilmiş və yaşayaraq yenidən təşəkkül tapmışdır. Ərazidə olan Əshabül-kəhf qədim isanların — mağara adamlarının yaşadığı məskənlərdən biridir. Ancaq indiyədək burada arxeoloji tədqiqat işi aparılmamışdır. O.H.Həbibullayevin müəyyən etdiyinə görə, Kültəpə məntəqəsində yaşayış təqribən 5300 il bundan əvvəl başlamış və 2500 il davam etmişdir (2). Naxçıvan ölkəsi tarixən dəfələrlə çiçəklənmiş, böyümüş, yer üzündə bundan çox əhalisi olan ölkə olmamışdır (4, 180-181). "Əcaib-əd-dünya" əsərində göstərilir ki, təxminən 1139-cu ildə Naxçıvan ölkəsində əhalinin sayı 150-200 min nəfər olmuşdur. Feodalizmin ilk dövründə əhalinin bu qədər olmasını İ.P.Petruşevski və K.A.Nikitin öz tarixi məlumatları ilə təsdiq edirlər.

XVII əsrin əvvəllərində Naxçıvan şəhərində 50 min adam olmuşdur. Həmin əsrin ortalarında isə əhalinin sayı 6000 nəfərə enmişdir. Naxçıvanda əhalinin çox olması digər tarixi mənbələrdə də qeyd olunur. Fransız səyyarı Jan Şarden qeyd edir ki, erkən orta əsrlər dövründə Naxçıvanda 30 min ev var idi. Övliya Çələbi qeyd edir ki, Naxçıvan şəhərində üstü gil örtüklü 10 min böyük ev, 70 came məscidi, 40 məhəllə məscidi, 20 karvansara, 7 gözəl hamam, Qarabağlar şəhərində isə 10 minə qədər ev, 40 came məscidi, 70 mehrab var idi (4, 178). Həmdullah Qəzvini isə qeyd edir ki, XIII-XIV əsrlərdə Azərbaycan ərazisi 9 tümənə bölünmüşdür. Hər tümən 10 min əsgər verməli idi. O cümlədən, Naxçıvan ayrıca tümən təşkil edirdi (4, 179).

Vaxtı ilə Naxçıvanın dünyanın böyük şəhərlərindən olması, onun ticarət yolları üzərində yerləşməsi, strateji və iqtisadi cəhətdən coğrafi mövqeyinin əlverişli olması, sənətkarlığın, ticarətin geniş inkişaf etməsi digər dövlətlərin Naxçıvan ölkəsinə göz dikməsinə səbəb olmuşdur. Bu isə Naxçıvan ölkəsinin dəfələrlə dağıdılmasına, yerlə yeksan olmasına səbəb olmuşdur.

Əhalinin sayı, sıxlığı və məskunlaşmasına gəlincə, 01 yanvar 2014-cü il tarixdə Naxçıvan MR-in əhalisi 420 min nəfərdən ibarət idi.Şəhər əhalisi 29 %, kənd əhalisi isə 71 % olmuşdur. Hər min nəfərə təbii artım 12 nəfərdir.Ərazidə ən yüksək artım 1950-ci ildə qeydə alınmışdır. Həmin ildə təbii artım 1000 nəfərə anadan olan 55 nəfər, ölənlər isə 6 nəfər hər 1000 nəfərə təbii artım isə 49 nəfər olmuşdur (3, 45).

Araşdırmalardan məlum olmuşdur ki, ərazidə əhali, əsasən, 1500 m-ə qədər yüksəklikli sahələrdə məskunlaşıbdır. 2000 m-dən yüksəkdə bir neçə kənd, məsələn, Gömür — 2190 m, Biçənək — 2190 m, Boyəhməd — 2088,9 m, Havuş — 2019,3 m, Ağdərə — 2000 m, Urumis — 2100 m-də yerləşir. 2200 m-dən yüksək sahələrdə əhalinin yaşaması mövsümi xarakter daşıyır.Əhalinin dinamikasına əhalinin tarixi dövr ərzində baş verən miqrasiyası da güclü təsir etmişdir.

Tarixən Naxçıvan ölkəsi miqrasiya mərkəzi olmuşdur. XIX əsrdə Afrikada olan zənci miqrasiyası bəşəriyyət üçün biabırçı vəhşilik hesab edilirsə, Naxçıvan tarixinə nəzər saldıqda, bu balaca məmləkətdə edilən barbarlığa heç cür ad vermək mümkün deyildir. Dövrünün güclü dövlətlərinin sərhədində olması onun çəkişmə meydanına çevrilməsinə, əhalisinin tez-tez sürgün edilməsinə və məhv olmasına səbəb olmuşdur.

Tarixə nəzər salaq. Sasani hökmdarı II Şapur 364-367-ci illərdə 18 min ailə əsir götürmüşdür (4, 181). Monqol xaqanı Əbu Səid Bahadurun verdiyi yarlıqda deyilir ki, verginin ağırlığından adamlar özlərini, ailələrini atıb qaçırdılar. 1579-cu ildə III Sultan Muradın hakimiyyəti dövründə Osmanlı feodalları tərəfindən Naxçıvandan və onun ətrafından 40 mindən artıq əsir aparılmışdır (4, 180). Arakel Təbrizli qeyd edir ki, I Şah Abbas Naxçıvan əhalisinin ona tabe olmaq istəmədiyini duyduqdan sonra onları şəhərdən qovmaq və Fərhadabada köçürmək haqqında fərman vermişdir. Bu fərmandan sonra çoxlu adam öldürülmüş və köçürülmüşdür (4,189;194). İsgəndər Münşi qeyd edir ki, 1605-ci ildə Osmanlı SərdarıCığaloğlunun sərkərdəliyi ilə Naxçıvana güclü qoşun yeridilir. Bundan qorxan I Şah Abbas Naxçıvan hakimi Gəngərli Maqsud Sultana əhalinin, xüsusən şiə təriqətini qəbul edənlərin köçürülməsi haqqında əmr verir. Naxçıvan əhalisi başlıca olaraq Dizmar və Qaradağ vilayətlərinə, Culfa əhalisi isə İsfahana köçürülür (4,180). Naxçıvanı tərk edən şah qoşunları evləri dağıdır, ağacları yandırır, hətta çeşmələri zəhərləyirdilər (4,180). Cuğadan başlayaraq Naxçıvana və Vana qədər bir tikili də olsun, qalmamışdır. Köçürülən əhalinin Arazdan keçirilməsi üçün dəvə və qayıq çatışmırdı (4, 181). 1605-ci ilin bu köçürmə prosesində Naxçıvandan 70 min adam sürgün edildi. Bu hadisə tarixdə «Böyük sürgün» adı ilə məşhurdur (4, 181.). Köçürülən əhali isə iqlimə uyğunlaşa bilmədiyindən məhv olurdu. Tarixi faktlar göstərir ki, Sasanilərin dövründən başlamış XIX əsrədək Naxçıvan ölkəsi İran şahları ilə Osmanlı feodalları arasında çəkişmə mərkəzi olmuş və bunun da nəticəsində ölkə darmadağın, əhalisi isə məhv edilmişdir. "Böyük sürgün"dən sonra ölkə uzun müddət bərpa oluna bilməmiş, yaşayış məskənləri xaraba vəziyyətində qalmışdır. 1828-ci ilin məlumatına görə, Naxçıvan əyalətində yaşayışı olan 174, xaraba qalan 64 kənd olmuşdur (6).

1828-ci ildə Naxçıvan Rusiyanın tərkibinə daxil edilərkən onun ərazisində 7299 ailə (Qriqoryevin qeydlərində «dım» işlədilibdir) olmuşdur. Həmin dövrdə Naxçıvan əyaləti iki dairəyə, bu dairələr isə 9 mahala bölünmüşdür.

1828-ci ildən sonra Naxçıvan İran şahlarının və Osmanlı feodallarının istilalarından azad oldusa da, mürtəce rus dairələrinin təhriki ilə daim erməni təcavüzünə məruz qalırdı. Bu isə əhalinin mexaniki azalmasına səbəb olurdu. Keçən əsrin 20-ci illərindən sonra ərazidə miqrasiya azalmış və demək olar ki, sıfıra bərabər olmuşdur. Əgər əvvəllərmiqrasiya kənddən şəhərə idisə, bu gün şəhərdən şəhərə miqrasiyası daha üstündür. Müasir dövrdə Naxçıvan MR ərazisində miqrasiyanı törədən əsas səbəblər aşağıdakılardır:

-İş yerlərinin olmaması;

-Naxçıvan MR ərazisinin mühasirə vəziyyətində olması;

-Sosial həyat şəraitinin həddən artıq aşağıya düşməsi;

-Təhsillə əlaqədar (4, 182).

Ərazidə miqrasiya 0,57%-dir. Respublikamızda sənayenin və ictimai inkişafın sürəti miqrasiyanın sürətindən geriyə qaldığından kütləvi işsizlik meydana gəlmişdir.

Əmək qabiliyyətli əhali ümumi əhalinin 54%-ni, fəal əhali 33 %-ni təşkil edir ki, bunun da 54,3%-ü qadınlar, 45,7%-si kişilərdir. Demoqrafik gərginlik isə 100 : 85-dir.

Naxçıvan tarixən aqrar ölkə olduğundan kənd əhalisinin sayı həmişə çox olmuşdur. Rayon mərkəzlərinin böyüməsi, sənayenin inkişafı şəhər əhalisinin sayının artmasına səbəb olmuşdur. Ərazinin kəndləri və şəhərləri sosializm dövründə özlərinin keçmiş simalarını itirmiş, məscidlər, milli üslubda tikilən tikililər sıradan çıxmışdır. 1990-cı illərdən sonra kəndlər, şəhərlər yenidən öz milli ─Şərq simasını almağa başlamışdır. Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq əhalinin şəhərlərə axını sürətlənibdir. Torpaqların özəlləşdirilməsi bunun qarşısını ala bilərdi. Ancaq kənd təsərrüfatında çətinliklərin olması və sərf ediləcək əmək günlərinin miqdarının az olması bunun qarşısını ala bilmədi və bu proses bu gün də davam edir. Kənd yerlərində, xüsusən sərhəd kəndlərində əhali arasında yaşlıların miqdarı kəskin surətdə artır.

Ərazidə 206 kənd var. Bu yaşayış məntəqələrində 77441 təsərrüfat təşəkkül tapıbdır. Əhalinin qadın-kişi nisbəti də müxtəlifdir.

Hazırda muxtar respublika ərazisində sosial iqtisadi inkişafın sürətli inkişafı şəhərlə kənd arasında fərqin sürətlə aradan qalxmasına səbəb olur. Gələcəkdə kənd təsərrüfatının intensiv inkişaf yoluna keçməsi bu sürəti bir az da artıracaqdır. Bu isə əhalinin kənd yerlərindən şəhərlərə transferinin daha da sürətlənməsinə səbəb ola bilər ki, bu da müəyyən problemlərin yaranmasını əsaslandırır. Ona görə də indidən bu problem nəzərə alınmalı, kənd məskənlərində əmək tutumlu sənaye sahələri yaradılmalıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycanın iqtisadi və sosial coğrafiyası, V.Əfəndiyevin ümumi redaktəsi ilə, Bakı, 2010
2. Həbibullayev O.H,"Mis dövrünün yaşayış yeri", "Kommunist qəzeti", 28 sentyabr 1958
3. "Naxçıvan MSSR 40 ildə", Bakı, Azərnəşr, 1960
4. Ə. Həsənov, Naxçıvan MR-in təbii sərvətləri və onlardan istifadə yolları, Bakı, 2001
5. Məmmədov R, "Naxçıvan şəhərinin tarixi oçerki" Bakı, 1977
6. Григорев В,Статистическое орисание Нахичеванской провинции,Санкт-Петербург, 1833



## ABSTRACT

**ShafaqAliyeva**

**Settlement dinamics of population in Nakhchivan Autonomous Republic**

It is stated about settlement history of population in NakhchivanAutonomous Republicand geographical occurrences happened in this historical period in the article. Reasons of population dinamics change is searched and factors influencing this process is noted. Some recommendations are given for solving problems related to this issue.



## РЕЗЮМЕ

**Шафак Алиева**

**Динамика расселения населения Нахчыванской Автономной Республики**

В статье рассматривается история расселения на территории Нахчыванской Автономной Республики населения и географические события, которые произошли в этот исторический период. Исследуются причины изменения динамики расселения и раскрываются факторы влияющие на этот процесс. Даются рекомендации для решения данной проблемы.



NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev



NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**


# İQTİSAD ELMLƏRİ


**ASİF ŞİRƏLİYEV**

*Naxçıvan Dövlət Universiteti*

**UOT:658.155**

# QƏNAƏT ÜSULU MÜHÜM MƏSƏLƏDİR

**Açar sözlər:** *Qənaet, qənaət üsulu, qənaətçilik, iqtisadiyyat, sosial-iqtisadi inkişaf, mənbəə, yol istiqaməti səmərəli üsuldur*

**Key words**: *economizing, method of economizing, economy socieconomic development, resource, way, direction,efficient, etc*

**Ключевые слова** : *экономия, способ экономии, экономичность, экономика, социально-экономическое развитие, источник, путь, направление, эффективность*

Ölkəmizdə işlənib hazırlanmış və götür-qoy edilmiş tədbirlərin ardıcıl olaraq reallaşdırılması nəticəsində sosial-iqtisadi inkişafın dayaqlı və davamlı irəliləyişi təmin edilmiş, onun sürəti və səviyyəsi ildən-ilə uzun müddətdir ki, davam etdirməkdədir. Bu çox yüksək imkanlı və tutumlu nailiyyətlərin qazanılmasında başqa amillərlə yanaşı qənaət üsulunun ardıcıl tədbirin də rolu və əhəmiyyəti möhkəm əsaslarla davamlı olmuşdur. Bu isə qəti olaraq sübut edir ki, qənaət üsulu ictimai istehsalın sosial formasından asılı olmayaraq bütün ölkəyə xas olan cəhəti və əlamətidir. Çünki maddi nemətlərin istehsalında iştirak edən və onun səviyyələndirən qənaət üsulu təkcə bir üsul,istiqamət və vasitə deyil. Həm də başlıca qanunauyğunluqlardan birini təşkil edir. Bu üsul öz mahiyyəti etibarı ilə keçmiş və canlı əməyə, bütövlükdə maddi istehsal sahəsində ümumiyyətlə əməyə qənaət edilməsini nəzərdə tutur və müəssisə və bütünlükdə cəmiyyətin inkişafdan kənarlaşmasına əlverişli bir şərait yaradır. Çünki qənaət və qənaət üsulu təkcə cəmiyyət üçün deyil, hər bir istehsal kollektivinə və ayrıca bir istehsalçıya xas olan bir cəhətdir. Bu üsul təsərrüfat mexanizminin-təsərrüfatçılıq aləti və vasitəsidir. Qənaət üsulu bütün sahələrdə və sferalarda və başlıca olaraq maddi istehsal sahələrində həm istehsalda, həmdə istehlakda fayda və səmərə ilə nəticələnən bir üsul, zəruri tədbir və amildir. Qənaət ümumi mənada bir işdə qənaət deyildir. Bu üsul daha çox maddi istehsalda əmək və istehsal vasitəsindən faydalı və nəticəli istifadəni şərtləndirir, maddi nemətlərin və maddi xidmətlərin yaradılmasında qənaət üsuluna daim əhəmiyyət verilməlidir. Eyni zamanda qənaət az xərc və daha yüksək nəticə əldə etməyə əlverişli şərait yaradır və əsaslı təminat verir. İstehsal imkanlarından daha səmərəli istifadə etməyə əsaslı köməklik göstərir. Ölkəmizin iqtisadi inkişafının aşağı və yüksək səviyyəsindən asılı olmayaraq qənaət öz vəzifəsini aşkarlaşdırmaq imkanı saxlayır və ona malikdir. Bu qənaət üsuluna xas olan spesifik bir cəhəti və mövqeyi əks etdirir. Qənaət maddi vəsaitdən, maliyyə ehtiyatlarından xammal və materiallardan yanacaq və enerjidən səriştəli istifadəni şərtləndirir. İctimai əməyi qoruyur və onu mühafizə edir, onların havayı yerə istifadəsini qoruyucusu və təminatçı kimi çıxış edir. Bir üsul bir istiqamət və bir qanunauyğunluq üsuluna görə qənaətin sosial-iqtisadi mahiyyəti mənbələri əldə edilməsi yollarının hərtərəfli və dərindən öyrənilməsi, tətbiqi daim diqqət mərkəzində saxlanılmalı və ona önəmli yer verilməlidir. Özü də maddi və maliyyə imkanlarına qənaətə daha çox qayğı və diqqət göstərilməlidir. Bu ilin sentyabırın 8-də Azrərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin yanında iqtisadi məsələlərə və 2016-cı ilin dövlət büdcəsinin hazırlığı işlərinə həsr edilmiş müşavirədə dövlət başçısı çıxışında demişdir: “İsrafçılığa yol verilməməlidir. Maliyyə nizam-intizamı daha da gücləndirilməlidir və çalışmalıyıq ki, vəsaitə qənaət edək”. Məhz buna görə maddi və maliyyə qənaətçilik hər kəsin və hamının daim və xüsusi diqqət yetirdiyi bir mühüm və ən vacib işi və amalı olmalıdır. Maddi istehsalla məşğul olan sahibkarlar qənati öz fəaliyyətinin başlıca və əsas istiqaməti kimi götürməli və qəbul etməyə daha çox səy etməlidirlər. Bu o demək deyildir ki, istehsal xərcləri özü-özünə ixtisar və qənaət edilə bilər, daha doğrusu azaldıla bilər. Buna görə mövcud istehsal imkanlarını gerçəkliyə çevirmədən ötrü və qənaətin bütün mənbəyini imkan və yollar, öyrənməklə, aşkar edilməklə, real imkanına gətirmək qaydası ilə nail olmaq reallaşdırmaq olar.

Qənaət üsulu bütün cəmiyyət üzvlərinə aid olan xas olan bir tələbatdır. Ölkənin, cəmiyyətin sərəncamındakı maddi sərvətlərin çoxluğu və uzun muddətliliyi bir şəraitdə onlardan səmərəli qənaətli istifadə edilməsi çox mühüm sosial-iqtisadi hətta siyasi əhəmiyyət gərəklik kəsb edir və

xüsusi malikdir. Onu xüsusilə diqqətə gətirmək gərəktir ki, mövcud xammal və materiallardan qənaətlə istifadəsi qənaəti üsulunun davamlı dayaqlı və səriştəli yolunun seçilməsi, imkanının seçilməsi istehsalın səmərəliliyinin ardıçıllığı və yüksəldilməsi çox mühüm amildir. Çox mühüm dövlət əhəmiyyətli bir işdir, bir qaydadır və üsuldur, sərvətə xammal və materiallardan istifadəyə qayğı ilə yanaşmaq üsulu forması və imkanıdır. Ölkəmizin iqtisadiyyatının çox böyük miqyasları şəraitində hər bir iş yerində və bütövlükdə istehsal və qeyri istehsalda qənaət üsuluna riayət edilməsi çox böyük əhəmiyyətini rəqəmlərə çevirir, əhəmiyyətli rəqəm olur.

Maddi ehtiyyatlara və maliyyəyə qənaəti edilməsi yolları istehsalın səciyyəli və əmək prosesinin həyata keçirildiyi konkret şəraitlə müəyyən olunur və formalaşır. Məhsul və məmulatın xalis çəkisinin azaldılması tullantı və itkilərin, zay məhsul azaldılması zay məhsul istehsalına qənaət olaraq imkan verilməsi iqtisadi cəhətdən daha sərfəli , faydalı olan material və əvəzedicilərin tətbiqi, xammal və materiallardan komlekt tam və bütöv istifadəsi və s. qənaəti və qənaətçiliyin əsas və başlıca yollarını və istiqamətlərini təşkil edirlər. Bu da eyni zamanda müəssisədə sıravi işçidən tutmuş rəhbər işçi də daxil olmaqla müəssisənin bütün (kollektivinin hazırlığı və yenidən hazırlığı məsələsini də qənaət və qənaətçiliyinin gücləndirməsinin mühüm bir yolu və imkanı kimi də daim diqqət mərkəzində saxlamaq irəli gəlir)

Əmək və istehsal imkanı da qənaətin möhkəm yer tutmasının vacib şərti kimi qiymətləndirilməlidir. Qənaət üsulu maddi maddi istehsal müəssisələrində məhsulun artırılmasına, mənfəətin çoxalmasına rentabellik səviyyəsinin yüksəlməsinə də əsaslı imkan yaradır və təsir göstərir. Bundan başqa maddi istehsal müəssisələrində zay məhsul istehsalına yol verilməməsi də qənaət üsulunun gücləndirilməsi və mökəmləndirilməsinə əsaslı təsir göstərən imkanlardan biri hesab edilir.

Qənaət üsulu dövlət əhəmiyyətli işdir. Ümumxalq işidir. Çünki bu istehsalda ümumi istehsalda hər bir ailədə öz əhəmiyyətini daimi saxlayan bir üsul, bir qayğıdır. Maddi ehtiyatlara qənaət eyni zamanda eyni maddi, maliyyə ehtiyacları ilə daha böyük həcmdə vəzifəni yerinə yetirmək daha çox məhsul istehsal etmək, daha çox hazır məhsul yaratmaq hər bir işçinin və cəmiyyətin hər bir üzvünün tələbatının daha dolğun ödənilməsinə imkan verir. Sənaye işçilərinin əməyi ilə yaradılmış əməyə qənaət edilməsini təmin edir, məhsul vahidi istehsalına maddi məsrəflərin azaldılmasına köməklik göstərir.

Məhsulun istehsal tutumunu aşağı salmağa imkan yaradır, istehsalı sürətli artırmağa şəraiti gücləndirir. Qənaət üsulu iş yerindən başlamış sahə və habelə müəssisələrdə maddi ehtiyatlara qənaət edilməsinin yollarına həmçinin məsrəf normalarının ciddi qorunması istehsal ehtiyatları normlarına ciddi riayət edilməsini, sığorta ehtiyatları daim ciddi nəzarət, istehsal olunmuş məhsulun normal saxlanmasını da əlavə etmək olar. Habelə qənaət və qənaətçilik maddi istehsal müəssisə və sahələrində idarəetmənin təkmilləşdirilməsini də ön plana çəkir, başqa sözlə idarə etmənin səriştəli təşkili ilə də müəyyən olunur.

Qənaətin təmin olunması mənbələrin də daim diqqət mərkəzində saxlanması ön cərgədə dayandırılmışdır. Burada xüsusilə artıq xərclərə yol verilməməli itkilərin aradan qaldırılması daim fəaliyyət və nəzarət qaydasına çevrilməlidir.

Eyni zamanda maddi istehsal sahələrində və onların ilk özəyini təşkil edən müəssisələrdə qənaət mənbələrindən səmərəli istifadəsini də ön plana gətirmək çox zəruri və vacibdir, və yerinə düşər. İstehsal olunan məhsulun maya dəyərinin daim aşağı salınması elmi-texniki tərəqqinin təsiri səviyyəsi, istehsalın texnologiyasının müntəzim olaraq təkmilləşdirilməsi, əməyin və istehsalın icarə edilməsinin daim müasirləşdirilməsini, istehsal xərclərinin həmişə ixtisar edilməsinin, azaldılmasını bütün əhalinin bu mühüm işə qoşulmasını bütün səviyyələrdə maliyyə vəsaitinin istifadəsinə diqqətini müntəzəm artırmağını, müəssisələrin istehsal innavasiyasının təşkili və qənaət sistemli yanaşılması da mühüm əhəmiyyət kəsb edir. Qənaət üsulunun gücləndirilməsinə xidmət edən bir sıra tədbirlər də mühüm əhəmiyyət kəsb edir. Bunun üçün qənaət üsuluna dair mərkəzdə və regionlarda müşavirə və seminarlar keçirilməsi, bu sahədə qabaqcıl təcrübəni öyrənib yayılması və daha dürüst tətbiqi də diqqətə gətirilməlidir.

Nəticə etibarilə onu da nəzərə gətirmək olar ki, qənaət əsaslı nail olmaqdan ötrü bu mühüm üsul və sistem daim diqqət mərkəzində saxlanılmalı, ölkənin amilin maddi istehsal sahə və

müəssisələrində aparılan və görülən işin tərkib hissəsinə çevrilməli və daim diqqət mərkəzində saxlanılmalı qənaət və qənaətçilikdə xalqın istehlak tələbatının ödənilməsi də öz rolunu daha da gerçəkləşdirilməsinə köməklik göstərilməlidir.

## ƏDƏBİYYAT


1. İqtisadi nəzəriyyə, Moskva,2007
2. İqtisadi nəzəriyyə, Drelin Moskva,2009
3. Q.Quşəliyev, Mikroiqtisadiyyat, Bakı,2013
4. A.Şirəliyev, İqtisadi nəzəriyyə, DPS vəsaiti, Bakı, 2004


## ABSTRACT


**A.İ.Shiraliyev**



The article states provision of the persistent and supported secio-economik development of the worked out events in our country as a result of their frequent realization. Along with the gained achievements, the role of the method of economizigin is also mentioned. And this firmly proves that method of economizigin is a problem sfecific for all communities and countries not depending on the social form of public production. Economy maintains its importance not depending on the developmental level of the economy of the country. It should be taken into consideration that the method of economizigin, in its essence, conditions prevention of production of defective goods,losses and wastefulness in all fields and spheres. This mothod is a component of agricultural mechanism. It is a necessary factor and event for labor, particularly in the material prodiction enterprises. The article also shows that taking into consideration all of these mentioned thoughts the essence of the economy and the method of economizigin should be clarified, its resources should be classified ,the ways of achieving in should be studied and used. It is also important to broadcast programs on the method of economizing by and mass media, writings should be published. The article also states the role of economizing in increasing the efficiency in the production and shows the ways of strengthening of the method of economizing. These ways should be inclided reduction of wastes and garbage and prevention of production of defective goods. Production of economically more efficient and useful new material, using raw material economically is also ways of strengthening the method of economizing. At the same time preparation of engineering-technique works in the enterprise again is also an accidental opportunity of the method of economizing. The resources and development of the method of economizing also include reduction of prime cost of the produced goods in the production enterprises, particularly in the material production enterprises, permanent improvement of production technology according to the scientific mechanical progress and innovations in the field of management of labor and production. The article also shows that everyone should achieve economy in this field. Moreover, application of the method of economizing should be systematic. In this works the role of economy should be taken into consideration. The article also touches upon the problem of material and spiritual encouraging of workers in the provision of method of economizing. To hold seminars and conferences is also important to strengthen the method of economizing in the enterprises. At the same time special attention should be paid to the study of international practice and its application in the solution of this important problem. The article represents the importance of recommendations and proposals to strengthen the method of economizing.


## РЕЗЮМЕ


**А.И.Ширалиев**



В статье обосновывается обеспечение в нашей стране устойчивости и продолжительности социално-экономического развития в результате реалиазиции проработанных и подготовленных мероприятий. Наряду с достижениями, в ней отмечена большая роль способа экономии, который исключительно доказывает, что эта проблема, независимо от социальной формы способа экономии, присуща всем странам и обществам. Независимо от уровня развития экономия и экономичность сохраняют свое

значение. Надо иметь ввиду, что способ экономии, в сущности, во всех сферах обуславливаает ликвидацию траты, расточительства и выпуска деффектной продукции. Этот способ – основная часть производственного механизма. Особенно это необходимый фактор и мероприятия, который специально предъявляются материально - производственным предпрятиям. В статье также отмечается, что из-за этого должны быть раскрыты преимущество экономии, ее социально- экономическое значение, классификация ее источников и пути достижения и применения. В ней обосновывается, что и проведение передач в различных информационных средствах, и публикация работ о способе экономии также является необходимостью. В статье показана роль способа экономии в увелечении результата производства и пути ее усиления. Это пути уменьшения отбросов и потерь, ликвидации производства деффектных товаров. А также, с экономической стороны, правильный выбор более эффективных новых материалов, экономное использование сырья тоже является методом усиления способа экономии. Одновременно, новая организация инженерно-технических работ выступает как возможность способа экономии.

В статье также обосновываются тезисы о снижении себестоимости производимого товара в производственных объектах , особенно материально-производственных объектах, постоянном усовершенствовании производственной технологии, обновлении труда и руководства и др., и все это выступает как основа способа экономии и его развития. Подчеркивается, что путь к экономии должна быть делом каждого. Кроме этого к способу экономии должен быть системный подход. В этом деле должна учитываться роль применения экономии. В статье выдвигается мысль о применении способа экономии как моральное и материальное поощрение работников. А также говорится о проведении в производственных объектах семинаров и совещаний, с целью усиления способа экономии. Считается необходимым использование и применение международных опытов в разрешении этого важного вопроса - способа экономии. В статье находит место мысль о претворени в жизнь новых предложений, с целью усиления применения способа экономии.

NDU-nun Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)



**AĞARZA RÜSTƏMOV**

*Naxçıvan Dövlət Universiteti*

**UOT:330.1**

# AZƏRBAYCANDA SAHİBKARLIĞIN İNKİŞAFI - DÖVLƏTİN STRATEJİ HƏDƏFLƏRİNDƏNDİR

**Açar sözlər:** *sahibkarlıq,prioritet istehsal sahəsi,inhisarçılıq,süni maneə*
**Key words :** *business, the prioritete producinq sfere, monopolizm artificial blok*
**Ключевые слова:** *предпринимательство, приоритетное производственное направление, монополизм, искуственное препятствие*

Azərbaycanın son illərdə dinamik inkişafını təmin edən başlıca amillərdən biri məhz milli iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsi, habelə prioritet istehsal sahələrinin uzlaşdırılması, inkişaf potensialının qarşılıqlı kömək mexanizmi əsasında realizə edilməsidir. Bir sıra dövlətlərin təcrübəsində uğurla sınaqdan çıxmış, özünü doğrultmuş bu iqtisadi strategiya neftdən əldə olunan gəlirlərin qeyri-neft sektoruna, istehsal sahibkarlığının inkişafına yönəldilməsini, özəl sektorun ümumi daxili məhsulda xüsusi çəkisinin artırılmasını nəzərdə tutur. Ölkədə müəyyənləşdirilmiş sosial-iqtisadi inkişaf siyasətinin prioritet istiqaməti kimi iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun dinamik inkişafının təmini, rəqabətqabiliyyətliliyin artırılması və bu sahəyə investisiya qoyuluşunun sürətləndirilməsi diqqətdə saxlanılmışdır.

İnkişaf prosesi hər bir ölkədə ictimai mənafelərə xidmət edən mütərəqqi ideya və proqramların xalqın iradəsinə söykənən hakimiyyət vasitəsilə reallaşdırılmasına əsaslanan mürəkkəb, zəncirvari və iyerarxik mexanizmdir. Təkcə dövlətin deyil, ümumən hər bir vətəndaşın və fərdin gələcək taleyini şərtləndirən bu pozitiv proses ilk növbədə xalqına bağlı milli liderlərin praqmatik və reallığa adekvat fəaliyyətindən asılıdır. Bu da təsadüfi deyildir ki, məhz lider fenomeni müasir dövrdə iqtisadi potensialından asılı olmayaraq, hər bir dövlətin inkişaf səviyyəsini müəyyənləşdirən başlıca meyarlardan biri qismində çıxış edir.

Ulu öndər Heydər Əliyevin böyük müdrikliklə müəyyən etdiyi sosial-iqtisadi inkişaf strategiyasını 2003-cü ilin oktyabrından inamla həyata keçirən və yeni çalarlarla zənginləşdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin ölkəyə rəhbərliyi respublikamızın müasir inkişaf səviyyəsini müəyyən etmişdir.

Ötən 12 il ölkə həyatı üçün strateji əhəmiyyət daşıyan inkişaf proqramlarının hazırlanması və işlək mexanizmlər əsasında həyata keçirilməsi, ən müxtəlif sahələrdə intibah prosesinin geniş vüsət alması ilə səciyyəvidir. Respublikanın investisiya və sosialyönümlü mahiyyət daşıyan milli inkişaf modeli tərəqqi prosesində yeni keyfiyyət göstəricilərinin əldə olunması, qeyri-neft sektorunun inkişafı yolu ilə regionların tarazlı və davamlı inkişafının sürətləndirilməsi, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması, faydalı məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin açılması üçün milli sahibkarlığın hərtərəfli dəstəklənməsi kimi vacib məsələləri özündə ehtiva etmişdir. Yeni neft strategiyasının uğurla davam etdirilməsi, Azərbaycanın xarici sərmayələr üçün cəlbediciliyinin qorunması, milli iqtisadiyyatın müxtəlif sferalarına yönələn sərmayələrin qeyri-neft sektoruna, regionların inkişafına doğru istiqamətləndirilməsi, "qara qızıl"dan əldə olunan gəlirlərin respublikada güclü insan kapitalının formalaşdırılması məqsədinə yönəldilməsi iqtisadi siyasətin əsas prioritetləri kimi diqqəti çəkir. Bunun nəticəsidir ki, ötən 12 ildə müstəqil Azərbaycan iqtisadi cəhətdən möhkəmlənmiş, qüdrətlənmiş, sosial-iqtisadi yüksəliş ilk növbədə insanların gündəlik həyatında özünü daha qabarıq büruzə vermişdir.Ümumilikdə 2004-2014-cü illərdə ölkədə ümumi daxili məhsul (ÜDM) 3,2, onun adambaşına düşən həcmi 2,8, qeyri-neft sektoru 2,6 dəfə artmış, orta illik iqtisadi artım 12,9 faiz təşkil etmişdir. Strateji valyuta ehtiyatları 31, xarici ticarət dövriyyəsi 6,6, ixrac 9,3, idxal 4,1, qeyri-neft ixracı 4,7 dəfə artmışdır. Bu müddətdə həmçinin dövlət büdcəsinin gəlirləri 16, orta aylıq əməkhaqqı 5,5, pensiyalar 9,6, əhalinin əmanətləri 27, minimum əməkhaqqının məbləği 11,7 dəfə artmış, yoxsulluğun səviyyəsi 2003-cü ildəki 44,7 faizdən 2013-cü ildə 5,3, işsizliyin səviyyəsi 4,8 faizə enmişdir. Hazırda Cənubi Qafqazın ümumi iqtisadiyyatının dörddə üçünün Azərbaycanın payına düşməsi də xüsusi vurğulanmalıdır.

Regionların sosial-iqtisadi inkişafına xidmət edən dövlət proqramları bölgələrə sərmayə qoyuluşlarının həcmini əhəmiyyətli dərəcədə artırmışdır. Regionlarda yaradılan əlverişli sərmayə iqlimi və həyata keçirilən səmərəli investisiya siyasəti nəticəsində daxili investisiyalar 14,6, qeyri-neft sektoruna investisiyalar 12,9 dəfə artmışdır. 2003-cü ildən bölgələrə bütün mənbələr hesabına 55 milyard manatdan artıq vəsait yönəldilmişdir. Dövlət Statistika Komitəsinin məlumatına görə, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasına başlanıldığı 2003-cü ilin IV rübündən ölkədə 1,4 milyon yeni iş yeri açılmışdır ki, onun da 1 milyondan çoxu daimidir. səmərəli və qabaqlayıcı tədbirlər həyata keçirdiyini, habelə hökumətin ölkənin mövcud resurslarından daha məqsədyönlü bəhrələnmək məramını nümayiş etdirdi. Hökumətin son iclasının təhlili deməyə əsas verir ki, ölkə başçısı dünya bazarında geosiyasi və geoiqtisadi konyunktur səbəbindən neftin qiymətlərinin yarıdan çox azaldığı, iqtisadi fəallığın səngidiyi bir vəziyyətdə respublikanın dinamik inkişaf tempinin qorunub saxlanılmasını, iqtisadiyyatın neftdən asılılığının maksimum dərəcədə azaldılmasını, qeyri-neft sektorunun inkişafı üçün daha liberal, şəffaf mühitin formalaşdırılmasını, ən başlıcası, makroiqtisadi sabitliyin qarantı olan sahibkarlar sinfinin üzləşdiyi problemlərin kompleks və prinsipial şəkildə həllini qarşıda əsas hədəflərdən biri kimi müəyyənləşdirmişdir.

Ümumilikdə ötən dövrün təhlili, qlobal neqativ təsirlərə baxmayaraq, öz müvazinətini və dayanıqlığını qoruyub saxladığını, bir sıra sahələrdə əhəmiyyətli uğurların qazanıldığını təsdiq edir. Beynəlxalq Valyuta Fondu isə Azərbaycanın 2015-ci il üçün iqtisadi artım proqnozunu 4 faiz göstərmişdir.

İqtisadi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul 2015-ci ilin yanvar-sentyabr aylarında 3,7 faiz artmış, aparılan şaxələndirmə siyasətinin nəticəsi kimi qeyri-neft sektorunun real artım tempi 6,4 faiz təşkil etmişdir. Ümumilikdə, qeyri-neft sektorunda yaradılan əlavə dəyər 2003-cü illə müqayisədə 8 dəfədən çox artmış, qeyri-neft sektorunun ümumi daxili məhsulda payı 68,8 faizə çatmışdır. Daxilolmaların 68,4 faizinin qeyri-neft sektorunun payına düşməsi (bu, ötən ilin müvafiq dövrünə nisbətən 11,6 faiz çoxdur) hökumətin iqtisadi şaxələndirmə siyasətinin uğurlu bəhrələrindən xəbər verir.

Hesabat dövründə iqtisadiyyatın və sosial sahələrin inkişafına bütün maliyyə mənbələrindən əsas kapitala 11,8 milyard manat investisiya yönəldilmişdir. Dövlət İnvestisiya Proqramı çərçivəsində yol-nəqliyyat, enerji, qaz infrastrukturunun, sosial obyektlərin tikintisi, su və kanalizasiya təminatının yaxşılaşdırılması və digər layihələr üzrə işlər davam etdirilmişdir.

Müsbət tendensiyalardan biri də böhran şəraitində əhalinin gəlirlərinin ötən ilin eyni dövrü ilə müqayisədə 5,8 faiz artmasıdır. Yanvar-avqust aylarında orta aylıq əməkhaqqı 4,4 faiz artaraq 460 manata yüksəlmiş, 87 min yeni iş yeri açılmışdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin hökumətin son iclasındakı nitqi ölkə iqtisadiyyatının, xüsusilə də özəl sektorun inkişafında keyfiyyətcə yeni mərhələnin formalaşdığını göstərir. Bu mərhələnin səciyyəvi cəhətləri sahibkarların fəaliyyətinə əsassız və qanunsuz müdaxilələrin, bürokratik yoxlamaların tamamilə aradan qaldırılması, liberal biznes mühitinin formalaşdırılmasıdır. Bu tədbirlər, əsasən, lisenziyaların sayının azaldılmasını, onların verilməsi qaydalarının sadələşdirilməsi və şəffaflaşdırılmasını, vergi yükünün

Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş iclası respublikamızın dünya iqtisadi-maliyyə böhranının mənfi təsirlərinə qarşı optimallaşdırılmasını, sahibkarların elektron xidmətlərdən istifadə imkanlarının genişləndirilməsini və dövlətin güzəştli kreditlərinə çıxış imkanlarının sadələşdirilməsini nəzərdə tutur. Dövlət başçısı Nazirlər Kabinetinin son iclasında sahibkarlığın inkişafının dövlətin iqtisadi siyasətinin əsas hədəflərindən biri olduğunu bəyan etmiş, dövlət qurumlarının özəl sektorun fəaliyyətinə qanunsuz müdaxilələrinin, habelə əsassız yoxlamaların yolverilməz olduğunu bir daha bəyan etmişdir.

Bu prinsipial və qətiyyətli mövqe əslində dövlət başçısının sahibkarlığın inkişafı ilə bağlı son 12 ildə həyata keçirdiyi siyasətin mahiyyətini özündə ehtiva edir. Prezident İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, bazar iqtisadiyyatı yolunu seçmiş hər bir ölkənin sabit və davamlı inkişafında sahibkarlar sinfinin, özəl sektorun rolu misilsizdir. Xatırlatmaq yerinə düşər ki, hələ 2004-cü ilin fevralında Bakı Biznes Mərkəzində yerli sahibkarlarla görüşən dövlət başçısı onları diqqətlə

dinləmiş, sahibkarları dəstəklədiyini, iş adamlarına gələcəkdə də lazımi köməyi göstərəcəyini bəyan etmişdir. Dövlət başçısı inhisarçılıq, sahibkarlara süni maneələrin yaradılması, hüquq-mühafizə orqanlarının iş adamlarının fəaliyyətinə müdaxiləsi hallarını pisləmiş, bu münasibət konkret qərarlarla müşayiət olunmuşdur.

Antiinhisar fəaliyyətinin gücləndirilməsi, "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı (2004-2006-cı illər)"nın təsdiqlənməsi, ədliyyə və məhkəmə sistemində aparılan islahatlar, biznes subyektlərinin qeydiyyatı və lisenziya sisteminin sadələşdirilməsi, yerlərdə regional iqtisad məhkəmələrinin yaradılması və s. kimi tədbirlər də bunun əyani təcəssümüdür. Kiçik və orta sahibkarlığın güzəştli kreditlərlə maliyyələşdirilməsi, sahibkarların fəaliyyətinə yersiz müdaxilələrin qarşısının alınması, özəl sektorda inkişafa mane olan problemlərin həlli istiqamətində mühüm addımlar atılmışdır. Dövlət başçısı iqtisadiyyatın liberallaşdırılması, bazarın inhisardan, haqsız rəqabətdən azad olunması, özəl sektorun dəstəklənməsi, sahibkarlara güzəştli kreditlərin verilməsi sahəsində ciddi addımlar atmış, verdiyi bütün vədlərə sadiqlik nümayiş etdirmişdir. Son 10 ildə Azərbaycanda sahibkarlıq subyektlərinin dövlət qeydiyyatının sadələşdirilməsi, bu sahədə müasir informasiya kommunikasiyalarının mütərəqqi yeniliklərinin tətbiqi istiqamətində kompleks tədbirlər həyata keçirilmiş, "e-xidmətlər"in geniş tətbiqi biznes mühitinin daha da yaxşılaşdırılmasına səbəb olmuşdur. Prezident İlham Əliyevin hələ 30 aprel 2007-ci il tarixdə imzaladığı "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" fərman bu istiqamətdə mühüm sənədlərdən olmuşdur. Belə bir fərmanın imzalanması o dövrə qədər çoxpilləli biznesə başlamaq sahəsində mövcud problemlərin həlli, eyni zamanda, süründürməçilik hallarının aradan qaldırılması sahəsində, sözün əsl mənasında, fundamental dəyişikliklərə yol açmışdır..

Ötən illərdə sahibkarlıq subyektlərinin "bir pəncərə" prinsipi üzrə qeydiyyat sisteminin tətbiqi, habelə bu sahədə elektron xidmətlərin genişləndirilməsi sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyatının dinamikasına müsbət təsir etmişdir. 2005-2015-ci illərdə həyata keçirilmiş bu islahatlar hüquqi şəxslərə və fərdi sahibkarlara vergi orqanına getmədən internet vasitəsilə vergi uçotuna dayanma imkanı yaratmışdır. Bu sistemin tətbiqindən sonra Azərbaycanın investisiya cəlbediciliyi əhəmiyyətli dərəcədə yüksəlmiş, sahibkarlığın inkişafı və biznes mühitinin təkmilləşdirilməsi istiqamətində aparılan islahatlar beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir.

Dövlət başçısının 2010-cu il aprelin 13-də imzaladığı "Sahibkarlıq sahəsində aparılan yoxlamaların nizama salınması və istehlakçıların hüquqlarının qorunmasının təmin edilməsinə dair bəzi tədbirlər haqqında" fərmanı sahibkarların fəaliyyətinə qanunsuz müdaxilələrin qarşısının alınması baxımından mühüm addımlardan biri olmuşdur. Fərman əsasında 2011-ci il mayın 1-də "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə" təsdiq edilmiş və bu sənəddən irəli gələn vəzifələrin icrası Ədliyyə Nazirliyinə həvalə olunmuşdur.

Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid reyestrinin yaradılması bu sahədə dövlət nəzarəti mexanizmlərinin təkmilləşdirilməsinə, yoxlamaların tənzimlənməsi vasitəsilə sahibkarların hüquqlarının qorunmasına, sui-istifadə hallarının qarşısının alınmasına xidmət etmişdir. Bununla da sahibkarların və istehlakçıların hüquqlarının müdafiəsi məqsədilə yoxlama prosedurunda əsaslı yeniliklər təsbit olunmuşdur. İlk növbədə yoxlamaların yalnız müvafiq reyestrdə qeydiyyata alındıqdan sonra həyata keçirilməsinin mümkünlüyü vacib şərt kimi qarşıya qoyulmuşdur.

Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid qaydalarının müəyyən edilməsi və yoxlamaların aparılması zamanı sahibkarların fəaliyyətinə qanunsuz müdaxilələrin qarşısının alınması məqsədilə hələ 2013-cü il iyulun 2-də "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və 2014-cü il martın 1-dən qüvvəyə minmişdir. Qanun yoxlayıcı orqanlar tərəfindən sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi yerlərə gəlməklə aparılan bütün növ yoxlama tədbirlərinə, o cümlədən araşdırmalar, müayinələr, monitorinqlər, müşahidələr, təftişlər, nəzarətlər, xronometrajlar, reydlər, baxışlar və digər bu cür tədbirlərə şamil edilir.

Ölkə başçısının 2014-cü il 3 mart tarixli "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı da bu sahədə ötən illərdən başlanmış islahatların mütərəqqi davamını təmin etmişdir. Fərman Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması və ən qabaqcıl təcrübələr əsasında təkmilləşdirilməsi istiqamətində mühüm tədbirlərin həyata keçirilməsinə geniş imkanlar açmışdır.

Sənəddə həmçinin tikintiyə icazələrin verilməsi sahəsində prosedur və müddətlərin azaldılması; elektrik təchizatı şəbəkəsinə qoşulma sahəsində sənədlərin elektron qaydada qəbulunun təşkili, prosedur, müddət və xərclərin minimuma endirilməsi; daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı sahəsində prosedur, müddət və xərclərin azaldılması; kreditlərin verilməsi prosesinə təsir edən təsisatların fəaliyyətinin təkmilləşdirilməsi; idxal-ixrac əməliyyatları zamanı tələb olunan sənədlərin, müddət və xərclərin azaldılması üçün müvafiq təkliflərin hazırlanması tapşırılmışdır.

Ölkə başçısının fərmanı əsasında təkliflərin hazırlanması zamanı biznesin qeydiyyatı və investorların maraqlarının müdafiəsi sahəsində Yeni Zelandiyanın, tikintiyə icazələrin alınması sahəsində Honkonqun, elektrik təchizatı şəbəkələrinə qoşulma sahəsində İslandiyanın, əmlak hüquqlarının dövlət qeydiyyatı sahəsində Gürcüstanın, kreditlərin verilməsi sahəsində Malayziyanın, idxal-ixrac əməliyyatları sahəsində Sinqapurun, müəssisələrin bağlanması sahəsində Yaponiyanın təcrübəsi öyrənilmişdir.

Ölkə başçısının qanunvericilik təşəbbüsü ilə Milli Məclisdə qəbul olunmuş müvafiq qanun da sahibkarlığın inkişafına xidmət edir. Qanuna əsasən, bu il noyabrın 1-dən sahibkarlıq subyektlərində yoxlamalar iki il müddətinə dayandırılmalıdır. Bütün bu görülən işlər ölkədə sahibkarlığın dəstəklənməsi ilə ədalətli bölgü prinsipinin qorunması, büdcə gəlirlərinin artırılması, məşğulluğun təmim olunması və sarə problemlərin həll olunmasına istiqamətlənmişdir.

## ƏDƏBİYYAT


1.V. Niftullayev "Sahibkarlığın əsasları", 2005

2.Ə. İmanov "Kiçik sahibkarlıq" , Bakı, 2007

3.Azərbaycan Respublikasının Regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafi Dövlət Proqramı

4. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 29 noyabr 2011 http://www.president.az/

5. Aliyev I., Haciyev A, Haciyev R. Economic growth and features of macroeconomic regulation in Azerbaijan, Journal of International Scientific Publication: Economy&Business, vol. 5, part 4, 2011, pp. 16-24. Published at: http://www.science-journals.eu.

6. Haciyev R. IMF continues reforms in Azerbaijan, Azerbaijan to day, 2, 2002, pp.20-22.

7. Илларионов А. http://aillarionov.livejournal.com/378549.html.


## ABSTRACT


**A.A.Rustamov**

**Development of business in Azerbaijan is strategy target of state**

Real condition and problems of ownership which is the modifier part of in Azerbaijan economic proqress was researched in the conditional of free market economy. Here determined in our country the role of the business was appreciated as the priority direction of social and economic proqress in divercification of the economy.Pezidents carrinq out the course of economic politici at work was based with academic control. İn the article has analyzed objektive and subjective block to business and contains exit routes.


## РЕЗЮМЕ

**А.А.Рустамов**

**Развитие предпринимательства в Азербайджане – одно из стратегических целей государства**

В статье исследованы реальное положение и проблемы предпринима-тельства, как приоритетной отрасли в условиях экономического разви-тия Азербайджана по пути свободного рыночного усовершенства. В нем оценивается роль предпринимательства в разветвлении, диверсификации экономики как приоритетном направлении политики социально-экономи-ческого развития претворимой в стране.
В работе обоснован с научной точки зрения целесообразный курс экономи-ческой политики, проводимый главой государства в стране. В нем также анализированы объективные и субъективные препятствия, стоящие на пути предпинимательства и показаны пути их преодоления.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

**NOVRUZƏLİ RƏHİMOV**
*Naxçıvan Dövlət Universiteti*
*Novruzrehimov62@mail.ru*

**UOT:332.1**

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AZƏRBAYCAN MULTİKULTURALİZMİ

*"Multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir"*
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev

**Açar sözlər:** *multikulturalizm, Azərbaycan multikulturalizmi, qloballaşma, bəşəri dəyərlər*
**Key words:** *multiculturalism, Azerbaijan multiculturalism, globalization, human values*
**Ключевые слова:** *мультикультурализм, Азербайджанский мультикультурализм, глобализация, общечеловеческие ценности*

Qloballaşma dünya miqyasında iqtisadi, siyasi, mədəni və s. əlaqələrin daha da yaxınlaşması kimi xarakterizə olunur. Qloballaşma prosesinin sürətlənməsində elmi-texniki nailiyyətlər böyük rol oynayır. İnformasiya texnologiyalarının yüksək dərəcədə inkişaf etməsi qloballaşmanın genişlənməsi imkanını artırır.

Qloballaşma prosesini təhlil edərkən görürük ki, o bəşəriyyətin tarixi inkişaf qanunauyğunluqlarına əsasən formalaşan yeni obyektiv tarixi inkişaf mərhələsidir. Qloballaşma ən yeni informasiya və telekommunikasiya vasitələri əsasında bəşəriyyətin böyük hissəsinin vahid iqtisadi, siyasi və mədəni əlaqələr sisteminə qatılması prosesidir. Qloballaşma sivilizasiyalararası dialoq və qarşılıqlı əlaqələrin genişlənməsinə gətirib çıxarır.

Qloballaşma dünyada ictimai fəaliyyətin beynəlmiləlləşməsi, milli iqtisadiyyatların vahid sistemdə qovuşmasıdır. Bu da öz növbəsində kapitalın dünyada asanlıqla dövriyəsinə, dünyanın informasiya üçün açıq olmasına əsaslanır.

Qloballaşma yalnız dünyadakı iqtisadi prosesləri deyil, eyni zamanda onun strukturunu dəyişir. Milli dövlətlərə böyük təsirlər edilir, qitələrarası və regionlararası proseslər gedir ki, bunlar da öz növbəsində miqyasına görə qlobal qarşılıqlı asılılıq münasibətini formalaşdırır. Hər bir texnoloji dəyişiklik insanların fərdi həyat tərzində dərin dəyişikliklərə səbəb olur.

Qloballaşma müasir dünyanın siyasət, iqtisadiyyat, mədəniyyət, elm, texnologiya və s. sahələrində yeni keyfiyyət dəyişiklikləri ilə şərtlənən mürəkkəb proseslərdə özünü birləşdirir.

Qloballaşmanın mərkəzində insan maraqları olduğundan onun ayrı - ayrı dövrlərdəki inkişaf meylləri də həmin maraqların reallaşdırılmasından asılı olmuşdur (2.).

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmi müasir qloballaşma şəraitində Azərbaycanın dövlət siyasəti və həyat tərzi elan etmişdir. Bu cür yanaşma həm multikulturalizmin ən yaxşı modeli olan ölkəmizin inkişafının tarixi reallıqları ilə, həm də müasir dünya sivilizasiyası daxilində Azərbaycanın davamlı inkişaf tələbatları ilə elmi cəhətdən əsaslandırılmışdır.

Multikulturalizm eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun olan siyasətdir. O, ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilib. Humanist və demokratik nəzəriyyə, yaxud ideologiya olaraq multikulturalizm, tolerantlığın təcəssümüdür.

Multikulturalizmin fəlsəfəsi ideyaca mədəniyyətdə, insanların şüurlarında, rasionallığın təsdiqinə cəhddir, humanizm ideallarının müxtəlif mədəniyyətlərdə anlaşılmasının genişlənməsi və müqayisə edilməsidir. Multikulturalizm mədəniyyətlərarası münasibətlər sistemində milli identiklərin mühafizəsini təşkil edir, başqa mədəniyyətlərə və sivilizasiyalara hörmət aşılayır.

Müəyyən insanlar müxtəlif dövlətlərin milli mədəniyyətinə nə assimilyasiya, nə də inteqrasiya olmağı istəmirlər. Bu vəzifənin həlli üçün bütün dünyada "Homo sapiens" tipli insandan "Homo culturalies" tipli insana keçid beynəlxalq proqramının bütün dünyada işlənib hazırlanması və tətbiq edilməsi zəruridir. Bu baxımdan Azərbaycan multikulturalizmi ənənəvi siyasətin çox yaxşı modelidir. Deməli, müasir multimədəni cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan düşünülmüş multukulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər. Bunun sübutlarından biri Azərbaycanın dinamik inkişafıdır ki, burada ölkənin milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndələri harmonik inkişaf edirlər. Multikulturalizmdən imtina isə bütün dünyada getdikcə artan anlaşılmazlıqlara, fobiyaya, qarşıdurmaya, milli və dini münaqişələrə aparan yoldur.

Mədəniyyətlərin və dinlərin harmonizasiyası və ənənəvi siyasəti sayəsində Azərbaycan həmişə müxtəlif etnosların nümayəndələrinin mədəniyyətləri və dinlərinin inteqrasiya məkanına çevrilib. Müsəlman, xristian və yəhudi əhalisinin nümayəndələri arasındakı tolerant və dostluq münasibətləri Azərbaycan xalqının humanist mədəniyyəti üçün hər zaman xarakterik olub. **Azərbaycan elə bir ölkədir ki, orada müxtəlif dinlər mövcuddur, xalqlar həmişə sülh, həmrəylik, əməkdaşlıq şəraitində yaşayıblar.**

Hər bir dövlətin daxili siyasətinin əsas məqsədlərindən biri cəmiyyətdə sabitliyin və inkişafın təmin edilməsidir. Bu məqsədin uğurla həyata keçirilməsinin əsas şərtlərindən biri isə cəmiyyətdə müxtəlif mədəniyyətləri təmsil edən etniklər arasında harmoniyanın olmasıdır. Bu gün dünyada mövcud olan dövlətlərin az bir qismi istisna olmaqla əksəriyyəti polietnik dövlətlərdir və bu dövlətlərin əksəriyyətinin daxili siyasətində multikulturalizmin elementləri müəyyən dərəcədə təmsil olunmuşdur.

Fərqli mədəniyyətlər məkanında müxtəlif etnoslar eyni bir fiziki mühitin təsiri altında yaşayır. Burada müvafiq olaraq fərdi səviyyədə məkanın təsiri altında genotip də dəyişir. Beləliklə də, müntəzəm şəkildə digər etnosların, istər kişi, istərsə də qadın yeni genotipləri hesabına sosiomədəni müxtəliflik mühiti yeniləşir. Bu isə mental keyfiyyətlər kompleksini daha da rəngarəng edir. Təbiidir ki, prosesin tədriciliyi etnosun bir hissəsinin digərindən əvvəl transformasiya edilə biləcəyi deməkdir. Hər hansı transformasiyanın tədriciliyi, millətin bir hissəsinin ümumi prosesdə digərini geridə buraxa bilməsinin mümkünlüyü deməkdir. Burada isə mədəni müxtəliflik və milli eynilik etnik eyniliyə təsir edir.

Cəmiyyətin mədəniyyət çərçivəsində qeyri-tipik mədəni müxtəliflik hadisələri onun daxili mədəni modellərini ifadə edir

2013-cü ildə 70-dən çox ölkədən 800-ə yaxın rəsmi şəxsin, tanınmış elm, mədəniyyət xadiminin, Nobel mükafatı laureatlarının toplaşdığı III Bakı Beynəlxalq Humanitar Forumu narahatedici bütün məsələlərin müzakirəsi üçün unikal tribuna, platforma imkanı yaratdı.

Qed etmək lazımdır ki, Azərbaycan multikulturalizmi Azərbaycan dövlətinin milli-mənəvi, ümumbəşəri , humanist dəyərlərə söykənən davamlı siyasi kursudur.

Multikulturalizm bir ideya və termin kimi ilk dəfə Qərbdə yaransa da və son dövrlərdə bu ideyadan geri çəkilmələrə yol verilsə də, Azərbaycan mühitində bu sahə artıq cəmiyyətin əxlaq kateqoriyasına çevrilmişdir.

Dünyanın müxtəlif bölgələrində dini və milli zəmində baş verən qarşıdurma və münaqışələr, dini konfessiyaların, təriqətlərin, institutların cəmiyyətin siyasi həyatına, ayrı-ayrı dövlətlərin idarəçilik sisteminə təsir göstərmək cəhdləri bu gün də din- dövlət münasibətlərini ön plana çəkir.

Ölkədə keçirilən çoxsaylı beynəlxalq tədbirlərdə dünyada milli və dini tolerantlığın gücləndirilməsi, mutikultural dəyərlərin təbliği, dini zəmində ekstremizmə və ayrıseçkiliyə qarşı birgə mübarizə yollarının araşdırılması, fərqli dinlərin və mədəniyyətlərin daşıyıcısı olan insanlar arasında dialoq və qarşılıqlı anlaşmanın bərqərar edilməsi və s. aktual problemlər geniş müzakirə olunur.

Fərqli milliyyətə, dilə və ənənələrə malik cəmiyyətlərdə sabitlik və ünsiyyət bir-biri ilə son dərəcə bağlı, həm də mürəkkəb münasibətlərdə olan anlayışlardir. Əgər sabitlik dəyişən məkanlarda çoxçalarlığın inkişafını təmin edirsə, ünsiyyət dəyişən zamanlarda mədəniyyətlərin ahəngdar

qarşılıqlı təsirinin təmin edilməsini nəzərdə tutur. Buna hər yerdə və hər zaman nail oluna bilmədiyi üçün mədəniyyətlərarası münasibətlərin siyasi-ideoloji modelləri və mexanizmləri geniş müzakirələr doğurmuşdur. Qlobal mədəni məkanda mədəni ünsiyyətin "plyuralist paradiqması" kimi məlum olan "multikultur, polikultur, transkultur" yanaşmalar formalaşmışdır.

Müxtəlif qarşılıqlı təsir strategiyalarının irəli sürülməsinə baxmayaraq, inteqrasiya probleminin həlli mexanizmləri formalaşmamışdır. Ümumiləşdirmə aparılarsa, üç istiqamət, yaxud ssenarinin mövcudluğunu qeyd etmək olar. Bunlar:1) qarşıdurma; 2) dialoq; 3) lokal mədəniyyətlərin "əriyib qarışması" istiqamətləridir.

UNESKO-nun 2001-ci ildə qəbul etdiyi Mədəni müxtəliflik haqqında Ümumdünya Bəyannaməsinin 1 maddəsində qeyd edilir ki, "mədəniyyət və mədəni müxtəliflik siyasi və hüquqi reallığa çevrilmişdir. Canlı təbiətdə bioloji müxtəliflik nə qədər vacibdirsə, bəşəriyyət üçün də mədəni müxtəliflik o qədər vacibdir. Bu baxımdan o bəşəriyyətin ümumi sərvətidir, indiki və gələcək nəsillərin maraqları naminə qəbul və mühafizə edilməlidir. Mədəniyyət yaşayır və insanlar arasında müxtəlifliyi genlərdən daha çox dərəcədə müəyyən edir."

Multikulturalizm Qərbdə yaransa da dünyanın başqa məkanlarında da mədəniyyətlərarası münasibətlərin tarixi təcrübəsi və modelləri mövcud olmuşdur. Hazırda dialoq fəlsəfəsinin həyati vacib məsələyə çevrilməsi dünyada bu sahədə mövcud olan bütün nəzəriyyə və təcrübənin, uğurlu modellərin hərtərəfli öyrənilməsini və təbliğini tələb edir. Çeşidli mədəniyyətlərin necə uzlaşması və inkişafı mexanizminin tapılması fundamental məsələdir.

Müxtəlif coğrafi məkanlar üçün səciyyəvi olan multikulturalizm modelinin qlobal ideoloji layihə kimi qəbul edilməsi, yaxud da konkret ölkələrin yaşadığı problemlər üzündən bütün dünyada bu yanaşmanın qüsurlu olmasının mütləqləşdirilməsi yanlışdır.

Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir.

Multikulturalizm müəyyən mənada bütün müasir cəmiyyətlərin çoxçalarlığını ifadə etmək üçün tətbiq olunan anlayışdır. Bu, geriyə dönüşü olmayan labüd prosesdir. Qloballaşma şəraitində multikulturalizmlə bağlı əsas məsələ milli-mədəni identikliyin qorunub saxlanmasıdır. Tarixi-siyasi irs, etnik köklər, ənənə, yaddaş, dil, din və s. - kollektiv yaddaşda milli-mədəni birliyin təcəssümü olan bu amillərdən insanın mədəni identikliyi formalaşır.

Bəşəriyyətin inkişafı texniki tərəqqi, universal qanunlar və dəyərlərlə təzədən müəyyənləşdirilir, daha böyük iqtisadi, siyasi qurumların yaradılması istiqamətində hərəkət edir. Bu isə öz növbəsində inteqrasiya olunmuş qlobal məkana doğru irəliləyişi şərtləndirir (3.s.3).

Qloballaşma müxtəlif mədəniyyətlərə mənsub olan insanları ünsiyyət və identiklik seçimi qarşısında qoyur. Bu seçimə alternativ yoxdur. Babil qülləsi haqda rəvayəti xatırlayaq. Bu gün bir-birinin başa düşməyərək dillərin çoxluğundan, ünsiyyət yoxluğundan məhv olan Babilistan əhlindən bəhs edən "Babil rəvayəti"nin ürəyi qlobal əhatədəki multilinqvizm və multiidentiklik reallığında döyünür. (Bibliya rəvayətinə görə Nuh tufanından sonra hamısı bir dildə danışan insanlar Babil şəhərini və "ucu göylərə çatan" Babil qülləsini tikməyi, özlərindən sonra "ad qoymağı" qərara aldılar. Onların həddini aşdıqlarını eşidən Tanrı "dillərini qarışdırır" və bir-birini anlamayan insanlar bütün Yer üzünə səpələnir.) Babil şəhərinin və qülləsinin süqutu - xalqların böyük köçü, dillərinin, adət və ənənələrinin intensiv qarşılıqlı təması, yeni ərazilərin məskunlaşması dövrü ilə üst-üstə düşür. Dolayısı ilə qloballaşma adlanan hazırkı mərhələdə mədəniyyətlərin bir-biri ilə sıx təması və ümumi dil tapması,"toqquşma", "dialoq" ssenariləri həmin dövrlə müqayisə edilir. Bütün bunlar o deməkdir ki, multikultural cəmiyyət ideal harmonik cəmiyyət ola bilməz, burada mürəkkəb münasibətlər olub və olacaq.

Multikulturalizm fərqli mədəniyyətlərə rəğbət və hörməti nəzərdə tutmaqla yanaşı, milli dəyərlərin qorunub saxlanmasına mane olmur. Belə də demək olar ki, multikulturalizm nöqteyi-nəzərindən mədəniyyətlərin qarşılıqlı əlaqəsi subordinasiya vasitəsi ilə deyil, koordinasiya vasitəsi ilə baş tutur. Ən ümumi şəkildə multikulturalizm mədəni plüralizmin dəyər kimi qəbul edilməsini və buna görə də etnik, dini və mədəni azlıqlara dövlətin bərabər sosial status təmin etməsini nəzərdə tutan nöqteyi-nəzərdir.

Multikulturalizm cəmiyyətin daxilində dialoq mədəniyyətidir. Multikulturalizm ilkin mənada hər kəsin öz identikliyinə malik olmaq haqqıdır. Bəzilərinin fikrincə multikulturalizm

fərqlilikləri mütləqləşdirir, digərlərinə görə, əksinə, multikulturalizm şoxşaxəli identikliyi nəzərdə tutur. Multikulturalizm - ayrıca götürülmüş ölkədə nisbətən avtonom mədəniyyətlərin qorunmasına, etnik birliklərin hüquqlarının təminatına, onların ümumi siyasi mədəniyyətə və mədəni məkana inteqrasiya etmədən yanaşı yaşamasına imkan verməyi nəzərdə tutan siyasətdir. Multikulturalizm mahiyyətinə görə, müxtəlif mədəniyyətlərin və onların təmsilçilərinin vahid bir sosiumda, vahid hüquqi, sosial, iqtisadi məkanda birgəyaşayışını təmin edən norma və qaydaların formalaşması deməkdir.

Multikulturalizmin nəzəri əsasını liberalizm, xüsusən də liberalizmin azadlıq, bərabərlik və qardaşlıq kimi dəyərləri təşkil edir. Liberalizmdən fərqli olaraq multikulturalizm fərdlərin deyil, qrupların hüquqlarını ön plana çəkir.

Alman filosofu və sosioloqu Yurgen Habermasa görə, multikulturalizmin əsas prinsipi "mədəni həyatın müxtəlif formalarının bərabər hüquqlarla yanaşı mövcud olması", sadə dillə desək, azlıqla çoxluğun bərabər hüquqlara malik olmasıdır. İngilis mənbələrinə və bir sıra Qərb alimlərinin bu mövzuda apardıqları tədqiqatlara əsaslansaq, multikulturalizm özündə hansısa ölkədə, eləcə də bütün dünyada mədəni müxtəlifliyin qorunub saxlanmasına və inkişafına yönəlmiş siyasəti və bu siyasəti əsaslandıran ideologiyanı birləşdirir.

Multikulturalizm daha çox siyasi tənzimləmə mexanizmi kimi yaranmışdırsa, mədəniyyətlər arasında tarixən formalaşmış tolerantlıq modelləri əsasən mədəni-fəlsəfi dialoq və mənəvi-ideoloji paradiqma kimi formalaşmışdır. O, artıq ənənəyə çevrilmiş, davamlı xüsusiyyətə malikdir.

Multikulturalizm elə bir siyasətdir ki, o, mədəni plüralizmi qəbul edir və onun inkişafına şərait yaradır. Multikulturalizm anlayışına daha çox yaxın olan anlayışlardan tolerantlıq və plüralizmi göstərmək oplar. Tolerantlıq plüralizmin bir şərtidir, yəni tolerant olmayan plüralizm yalançı, saxta plüralizmdir. Bunların arasında fərq ondan ibarətdir ki, tolerantlıq dəyərlərə hörmət edir, plüralizm isə fərqli dəyərlərin mövcudluğunu təsdiq edir. Çünki plüralizm fərqlərin və müxtəlif mövqelərin şəxsləri, siyasətləri və cəmiyyətləri zənginləşdirən dəyərlər kimi qiymətləndirir. Multikulturalizm - bir ölkədə mədəniyyətlərin qarşılıqlı təsirində müəyyən “keyfiyyət”ə nail olunmasına yönəlmiş demokratik dövlət strategiyasıdır. Multikulturalizm hamı tərəfindən tanınan, müxtəlif mədəniyyətlərə tolerant münasibətə əsaslanan dinc, yanaşı yaşama prinsipidir. Demokratiya multikultural cəmiyyətin formalaşmasında ən mühüm amillərdən biridir.

ABŞ-da multikulturalizm deyil, xalqların amerikan mühiti kimi ümumi mühitdə qaynayıb-qarışmasını çeşidli irqi qrup və icmalardan siyasi millətin formalaşmasına imkan verdiyini görərik. Burada təməl mədəniyyət kimi ağ anqlo-sakson mədəniyyəti çıxış etmişdir. ABŞ modelində mədəniyyətin qarşılıqlı əlaqəsinin beş əsas fazasının olması qənaətindədirlər. 1.istisna; 2.təhlükə hissi; 3.qarşıdurma; 4.stereotip təsəvvürlər 5.mədəni müxtəliflik və fərqlərə hörmət mərhələləri.

ABŞ modelindən danışarkən hinduların assimilyasiyası yada düşür. Maraqlıdır ki, ABŞ-da yalnız XX əsrin 60-cı illərindən etibarən ilk dəfə tolerantlıq barədə müzakirələrə start vermək üçün ilkin zəmin hazırlandı.

Amerikanın Avropadan fərqi ondadır ki, ABŞ-da nəhəng ölkəyə gələn miqrantlar qısa müddətdə yerli əhaliyə qarışıb assimilyasiya olunmuşlar. Avropada isə onlar öz icmalarına sığınır, kompakt birliklər formalaşdırırlar. Beləliklə də iki məkanın icmaları əsaslı şəkildə fərqlənirlər. Amerikada coğrafi baxımdan fraqmentar və səpələnmiş şəkildə olub, maliyyə aspektində imkanlıdırlar. Avropada isə, etnik amil üzrə kompaktlaşaraq inteqrasiyaya meyilli deyillər və maliyyə baxımından imkansız təbəqəni təşkil edirlər.

Artıq bir neçə onilliklərdir ki, multikulturalizm haqda qızğın mübahisələr davam edir. Xüsusilə də son illər daha çox multikulturalizmin tənqidi meylinin üstünlük təşkil etməsi ona olan marağı heç də azaltmamışdır.

Bu mubahisələrin başlıca səbəbinin qloballaşma proseslərin təsirinin artması ilə əlaqəli olduğu qeyd edilir. Multikulturalizmin indiyə qədər mövcud olan təcrübəsi və perspektivlərinə dair baxışlar bir-biri ilə diametral əkslik təşkil edir. Bir qisim insanlar hesab edir ki, multikulturalizm müxtəlifliyin vəhdəti olan dünyada mədəniyyətlərin birgəyaşayışının təməl şərtidir. Digərləri hesab edir ki, multikulturalizm ideyasına aludə olmaq özündə mədəni özünəməxsusluğun itməsi

təhlükəsini yaradır. Üçüncü mövqenin tərəfdarlarına görə isə, multikulturalizm müasir qloballaşma mərhələsində "rasizmin modernləşmiş yeni tipi"dir

IV Beynəlxalq Forumun açılışında Prezident İlham Əliyev Azərbaycanın hər bir müasir ölkə üçün təbii olan multikulturalizm siyasətini həyata keçirdiyini diqqətə çatdırdı və həmçinin bildirdi ki, hər hansı bir dövlətin belə siyasətinin olmaması bizi narahat edir. Bununla bərabər, hər hansı bir mədəniyyətin çoxəsaslılığının etirafı heç də inteqrasiyadan imtina edilməsini nəzərdə tutmur, bu yalnız milli identiklik (eyniyyət, kimlik), mənafe və inteqrasiya arasında bir ölçü tapmağı bacarmağı tələb edir. “Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə bütün xalqları birləşdirir. Eyni zamanda, hər bir ölkənin öz qaydaları, öz ənənələri vardır. Hər bir insan – həm ölkənin vətəndaşı, həm ölkəyə gələn qonaq, əlbəttə ki, o qaydalara, o ənənələrə hörmətlə yanaşmalıdır. Mən əminəm ki, bu amillərin sintezi nəticəsində bu gün müxtəlif dairələrdə multikulturalizmlə bağlı səslənən bədbin fikirlər aradan götürüləcəkdir. Bizim bu gün keçirdiyimiz Forum multikulturalizmin təsdiqidir, onun təntənəsidir”. ( 1.)

Multikultural dəyərlərin inkişafı və multikulturalizm siyasətinin həyata keçirilməsinə kömək məqsədi ilə “Multikulturalizmə giriş” fənni tədris olunmağa başlamışdır. Bu fənn inteqrativ bir fəndir. O, fəlsəfə, politologiya, tarix, sosiologiya, kulturologiya və bu kimi bir sıra ictimai elmlərin müddəalarından istifadə edir. “Multikulturalizmə giriş” fənninin qarşısında duran əsas məqsədə çatmaq üçün tələbələrə multikulturalizm siyasətinin mahiyyətini, onun xüsusiyyələrini və bu siyasətin həyata keçirilməsinin səbəblərini izah etmək lazımdır. Fənnin mənimsənilməsinə nail olmaq üçün sadalanan ictimai elmlərə müraciət etmək vacibdir.

“Multikulturalizmə giriş” fənninin böyük idraki, praktiki, siyasi, ideoloyi mənəvi-tərbiyəvi əhəmiyyəti vardır.

Multikulturalizmin vətəndaşların həyat tərzinə çevrilməsi onun inkişafının ən yüksək mərhələsidir. Bu mərhələdə vətəndaş cəmiyyəti multikulturalizmin cəmiyyətdə yayılmasında olduqca fəal rol oynayır. Multikulturalizm ideyaları ictimai şüurda möhkəmlənir. Azərbaycanda multikulturalizmin dövlət siyasəti və həyat tərzinə çevrilməsi onun yüksək inkişaf mərhələsindən xəbər verir.

Beləliklə, multikulturalizm cəmiyyətin inkişafının məhsuludur, cəmiyyətdə baş verən hadisələr tərəfindən meydana gəldiyinə görə o, öz mahiyyətinə görə ilk növbədə pozitiv sosial hadisədir. Sosial hadisə kimi formalaşan multikulturalizm digər sosial hadisələrə (siyasətə, iqtisadiyyata, mədəniyyətə, mənəviyyata, ictimai şüurun müxtəlif formalarına və s.) təsir göstərir, onlarla qarşılıqlı münasibətdə olur. Multikulturalizm etnik-mədəni müxtəlifliklərin və onların əsasını təşkil edən dəyərlərin qorunması və inkişafını nəzərdə tutur. Bu, isə insanların hüquq və azadlıqlarının müdafiə olunmasının tərkib hissəsidir. Multikulturalizmi təbliğ edən ölkə onu dövlət ideologiyasının tərkib hissəsi, dövlət siyasəti səviyyəsinə qaldırır. Bir sosial hadisə kimi meydana gələn multikulturalizmin inkişafının sonrakı mərhələləri onun dövlət ideologiyasına, dövlət siyasətinə çevrilməsidir. Bu mərhələlərin reallaşmasında əsas rol dövlətə məxsusdur. Ümumiyyətlə, multikulturalizm cəmiyyətin inkişafı üçün münbit şərait yaradır, etnik münaqişələrin qarşısını alır və müxtəlif xalqlar arasında etimadı möhkəmləndirir.

## ƏDƏBİYYAT


1. Dördüncü Bakı humanitar Forumunun rəsmi açılış mərasimində İlham Əliyevin çıxışı, http://www.president.az/articles/13008
2. Süleymanova E. Qloballaşan dünyada insan hüquqları, Qloballaşma və informasiya cəmiyyətinin problemləri, (elmi məqalələr toplusu), Bakı, 2011, 227 səh
1. Şükürov A. Qloballaşmış cəmiyyətlər, dünən, bu gün, sabah, Bakı, “Azərbaycan Universiteti nəşriyyatı”, 2006, 191 s


## ABSTRACT


**Novruzali Rahimov**


**The multiculturalation of Azerbaijan in globaization**

The essence of multiculturalism and globalization of Azerbaijan was analyzed in scientific articles.In the process of globalization humanist worldview and culture of various peoples living in the country who knows their rights,the corresponding policy was seen as a scientific articles an multiculturalism.

People belonging to different nationalities and faiths were directed to the development and preservation of cultural diversity world.

In a sense,all modern societies,multiculturalism is a term used to express a multi-faceted the growing misunderstanding of the conflict around the world refused to multiculturalism,ethnic and religious conflicts in the way.Cultures,religious and traditional policy of harmonization of various ethnic Azerbaijan representatives have become integrated into the space.

Multiculturalism-as a term or idea is first used in the westr and the last period this idea is out,but in Azerbaijan this idea is already known as the category morality of society.

**РЕЗЮМЕ**

**Новрузали Рагимов**

**Азербайджанский мультикультурализм в условиях глобализации**

В научной статье анализируется суть процесса глобализации, а также в условиях глобализации Азербайджанская мультикультурализм.

В научной статье оцениваються мультикультурализм, как гуманистического мировоззрения и соответствующей политикой признающей культурных прав представителей разных народов живущих в той же стране. Он, также был направлен на развитии и защиты людей культурных различий разных национальностей и сект в стране и в мире.

В некотором смысле мультикультурализм – это понятия выражающая разнообразность современных обществ.

Отказ от мультикультурализма приведет путь в непонимании, этнических и религиозных конфликтов в мире.

Благодаря своей традиционной политике сближения культур и религий, Азербайджан всегда было пространства для представителей различных этнических групп.

Несмотря на то, что мультикультурализм, как идея и термин впервые возникло на Западе, а теперь произошло отступление от этого идеи, а в Азербайджане мультикультурализм имеет моральной категорию общество и стало государственной политикой и образом жизни.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**

**NURİYYƏ İBRAHİMOVA**

*Naxçıvan Dövlət Universiteti*
*nuriye.ibrahimova@gmail.ru*

**UOT:332.146**

# MİLLİ İQTİSADİ İNKİŞAF STRATEGİYASI: REALLIQLAR VƏ NƏTİCƏLƏR

**Açar sözlər:** *qlobal, strateji, iqtisadi, tərəqqi, regional, səmərəli*
**Key words:** *global, strategic, economic, permanent, regional, suitable*
**Ключевые слова:** *глобал, стратегия, экономическое, прогресивное, региональное, эффективное*

Müasir dünya yeni əsrin mürəkkəb çağırışları ilə üz-üzədir. Ayrı-ayrı ölkələrdə, bütöv regionlarda bir-birinin ardınca baş verən ictimai-siyasi, iqtisadi katalizmlər yeni reallıqlar yaradır. Uzun müddət davam edən qlobal iqtisadi böhran Avropa Birliyinə üzv olan bir sıra qabaqcıl ölkələrin iqtisadiyyatına neqativ təsir göstərir, dünya sənayesini çətin sınaqlar qarşısında qoyur. Qlobal dünyanın ən mühüm xarakterik xüsusiyyətləri budur ki, heç bir dövlət əlahiddə götürülmüş şəkildə yaşaya bilməz - bir ölkədə cərəyan edən hadisələr dərhal digərlərində əks-səda doğurur və bəzən çox ciddi fəsadlarla nəticələnir.

Azərbaycan son illər iqtisadi yüksəliş tempinə görə dünyanın aparıcı dövlətləri ilə bir sırada dayanır. Beynəlxalq siyasi prosesləri diktə etmək gücündə olan lider dövlətlər belə, regional məsələlərin həllində ölkəmizin mövqeyi ilə hesablaşırlar. Ölkəmizin xarici reputasiyası daxili inkişafı ilə paralel şəkildə dinamik olaraq yaxşılaşmaqdadır. Azərbaycan abadlaşır, yeniləşir, paytaxt Bakıda bir çox beynəlxalq miqyaslı mədəniyyət-idman tədbirləri keçirilir. Qədimlik və müasirliyin vəhdətini əks etdirən unikal arxitektura və dizaynı ilə ölkəmizdə ilbəil daha çox gəlməkdə olan turistləri heyran qoyur. Şəhərlər, kəndlər simasını dəyişir, iritutumlu sosial və infrastruktur layihələri müvəffəqiyyətlə həyata keçirilir. Azərbaycan xalqı uğurla gerçəkləşdirilən sosial-iqtisadi islahatların bəhrələrini gündəlik həyatda, məişətdə, maddi rifah halının yüksəlməsində bilavasitə görür və hiss edir. Bir sözlə, 20 il bundan əvvəlki Azərbaycanla çağdaş Azərbaycan siyasi, iqtisadi, sosial, hərbi, mədəni, elmi inkişaf səviyyəsi etibarilə müqayisəyəgəlməz dərəcədə fərqlidir. Ən maraqlısı isə budur ki, ölkədəki bu intibah dostlarımızla yanaşı, bədxahlarımız tərəfindən də birmənalı tərzdə etiraf olunur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi istiqamətində gedən danışıqlarda mövqeyimiz qat-qat möhkəmlənmişdir. Erməni diasporunun var gücü ilə apardığı aqressiv antitəbliğat kampaniyasına baxmayaraq, Azərbaycanın beynəlxalq imici gün-gündən yüksəlir. Dünya birliyi zəngin mədəni sərvətlərimizə, tarixi-mənəvi dəyərlərimizə nə qədər yaxından bələd olursa, xalqımızın kökü tarixin qədim çağlarına işləyən humanizmini, sivil və demokratik ideallara sədaqətini bir o qədər yüksək dəyərləndirir [1, s.2].

Dünyada neftçıxarmanın beşiyi sayılan ölkələrdən olan Vətənimiz qədim dövrlərdən neft sənayesi tarixinə şanlı səhifələr yazmışdır. Neftin sənaye üsulu ilə hasil edilməsinin, emalının, tankerlərlə, dəmiryolu ilə, boru kəmərləri ilə nəql edilməsinin, sahildə, açıq dənizdə və dənizin dərinsulu hissələrində neft yataqlarının kəşf və istismar olunmasının əsası Azərbaycanda qoyulmuşdur. Bakı neftçiləri həmişə neftin, qazın kəşfiyyatı, hasilatı, emalı və nəqli sahələrində çoxsaylı ideyaların müəllifi kimi tanınmış, misilsiz fədakarlıqlar göstərərək ən mütərəqqi yenilikləri istehsalatda tətbiq etmişlər. Buna görə də Bakı uzun müddət dünyanın neft akademiyası hesab olunmuşdur. Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi bütün dövrlərdə neft sənayesinin inkişafına, onun innovativ əsasda təkmilləşdirilməsinə böyük diqqət və qayğı ilə yanaşmış, keçmiş Sovetlər Birliyində hökm sürən olduqca ağır şərtlər daxilində belə, mümkün imkanlardan yararlanaraq ümumittifaq neft sənayesinin konseptual inkişaf perspektivlərini təmin edən bir çox təsisatların elmi-tədqiqat institutlarının, istehsalat birliklərinin, mühüm strateji müəssisələrin Bakıda cəmləşməsinə nail olmuşdu. Ötən əsrin 70-80-ci illərində ulu öndərin rəhbərliyi ilə neft sənayesinin müasirləşdirilməsi istiqamətində inamlı addımlar atılmış, Azərbaycanın bu sahədə öncül mövqeləri qorunub saxlanılmışdı [2, s.3].

Son dövrdə Xəzərin Azərbaycan sektorunda yeni qaz-kondeksat yataqlarının kəşf olunması, «Şahdəniz» yatağının işlənilməsinin ikinci mərhələsinə başlanılması üzrə hazırlıqların yekunlaşmaqda olması bu ümidlərin doğrulacağına dəlalət edir. 2015-ci ildə ölkə üzrə neft hasilatının 50-55 milyon tona, qaz hasilatının 30 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. Bu o deməkdir ki, regionun və Avropa birliyi ölkələrinin energi təhlükəsizliyi baxımından Azərbaycanın rolu qarşıdakı illərdə daha da artacaqdır. 2011-ci ildə Avropa Komissiyasının prezidenti Joze Manuel Barrozunun Bakıya səfəri çərçivəsində «Cənub Energi Dəhlizi» haqqında Birgə Bəyannamənin imzalanması Azərbaycanın energi potensialına, qısa müddətdə ixrac marşrutlarının diversifikasiyasına nail olmuş bir ölkə kimi onunla tərəfdaşlığa verilən önəmin yeni təzahürüdür.

Dünya miqyasında ixrac marşrutlarının son dövrlərdə xüsusilə mühüm əhəmiyyət kəsb edən şaxələndirmə prinsipi Azərbaycanın milli maraqlarına və ulu öndər Heydər Əliyevin yeni neft strategiyasının məzmun və mündəricəsinə uyğundur. «Əsrin müqaviləsi»nin imzalanmasından keçən dövr ərzində Bakı Novorossiysk və Bakı-Supsa neft kəmərləri bərpa edilmiş, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri tikilib istismara verilmiş, şaxələndirilmiş etibarlı ixrac neft-qaz kəmərləri sistemi yaradılmışdır. Bu gün Azərbaycan nefti və qazı 7 magistral boru kəməri vasitəsilə müxtəlif istiqamətlərdə nəql olunur. «Şahdəniz-2» layihəsi çərçivəsində, habelə son illərdə açılmış «Ümid», «Abşeron» yataqlarından, digər perspektiv strukturlardan hasil olunacaq Azərbaycan qazının Türkiyə ərazisi ilə Avropa sərhədlərinə nəql olunmasını nəzərdə tutan yeni Trans-Anadolu Təbii Qaz Boru Xəttinə (TANAP) dair ötən ilin sonlarında imzalanmış Memorandum ixrac-nəql sisteminin diversifikasiyası nöqteyi-nəzərindən xüsusi qeyd edilməlidir. Bu layihə ilə həm də iki qardaş ölkənin - Azərbaycanla Türkiyənin enerji sektorundakı uzunmüddətli əməkdaşlıq sahəsində yeni bir eranın başlanğıcı qoyulacaqdır. Təsadüfi deyil ki, beynəlxalq ekspertlər TANAP layihəsini yeni dövrün «Bakı-Tbilisi-Ceyhan»ı kimi qiymətləndirirlər [5, s.230].

Yeni neft strateciyası bu gün ulu öndərin siyasi kursunun ən layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

Ölkə rəhbərlərinin sərəncamı ilə təsdiq edilmiş «2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»na əsasən həyata keçirilən Azot gübrəsi-karbamid istehsalı zavodu ARDNŞ tərəfindən inşa olunur. Təməli 2011-ci ilin dekabrında dövlət başçısı cənab İlham Əliyev tərəfindən Sumqayıtda, «Azərikimya» istehsal Birliyinin ərazisində qoyulmuş zavodun tikinti işləri müasir texnologiyalar əsasında həyata keçiriləcək. Ammonyak istehsalı, karbamid mayesi və əmtəəlik karbamid istehsalı bölmələrindən ibarət olacaq zavodda sütkada 1200 ton ammonyak və 2000 ton karbamid istehsal edilməsi nəzərdə tutulur. Bu layihənin həyata keçirilməsi ilə ARDNŞ ölkə iqtisadiyyatının əsas sektorlarından olan kənd təsərrüfatının inkişafına böyük dəstək verəcəkdir [6, s.3].

Müasir dövrdə fəaliyyət sferasının qloballaşması neft-qaz şirkətlərinin başlıca xüsusiyyətlərindən sayılır. Hazırda dünyanın neft-qaz bazarı o qədər qloballaşdırılmışdır ki, bir ölkənin hüdudları çərçivəsində qapanıb qalmaqla tanınmaq, nüfuz və müvəffəqiyyət qazanmaq mümkün deyil. Ölkə prezidentinin çevik, müasir və rəqabətə davamlı bir quruma çevrilmək tapşırığını əldə rəhbər tutan ARDNŞ xarici ölkələrdə investisiya proqramları həyata keçirir, cəlbedici layihələr icra edir, inamlı addımlar atır. Xaricdəki fəaliyyətinin səmərəli təşkili məqsədilə şirkətin 10-dan artıq ölkədə nümayəndəlikləri təsis edilmişdir. Ölkəmizin hüdudlarından kənarda əldə edilən aktivlər Azərbaycan dövlətinin mülkiyyəti olaraq respublikamızın iqtisadi gücünün möhkəmlənməsində mühüm əhəmiyyət daşıyır. Gürcüstanda Kulevi neft terminalı, Türkiyədə «Petkim» neft-kimya holdinqi, İsveçrədə «SOCAR-Trading» kimi müəssisələr bir tərəfdən ölkəmizə iqtisadi dividentlər gətirir, digər tərəfdən beynəlxalq aləmdə ARDNŞ-nin tanınmasında, işgüzar nüfuz qazanmasında əvəzsiz rol oynayır. Artıq 3 ildir, Gürcüstanın qaz təchizatı sisteminin idarəçiliyi şirkət tərəfindən müvəffəqiyyətlə həyata keçirilir. Ötən il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə İzmirdə ARDNŞ-nin daha bir layihəsinə start verildi - «START» neftemalı zavodunun təməli qoyuldu. İllik məhsuldarlığı 10 milyon ton həcmində nəzərdə tutulan bu zavod istismara verildikdən

sonra, ilk növbədə, «Petkim» neft-kimya kompleksinin xammala tələbatı ödəniləcək, istehsal edilən məhsulların qalan hissəsi isə Türkiyə bazarında reallaşdırılacaqdır. Hazırda Türkiyə neft-kimya sektorunun ən böyük müəssisəsi olan «Petkim» bu bazarda 25-27 faiz paya malikdir. Yeni zavodun işə düşməsi kompleksin illik istehsal gücünü 6 milyon tona, qardaş ölkənin neft-kimya sektorunda malik olduğu payı isə 40 faizədək yüksəltməyə imkan verəcəkdir. Holdinqə məxsus limanın genişləndirilməsi istiqamətində də işlər uğurla davam etdirilir. Bu gün artıq deyə bilərik ki, ARDNŞ-nin idarəçiliyində olan «Petkim»in tezliklə bütün regionda neft-kimya sənayesinin liderinə çevrilməsi üçün bütün addımlar atılmışdır [4].

Azərbaycanın çox qiymətli təbii sərvəti olan neft bu gün əsl mənada onun nurlu gələcəyinin təminatçısına çevrilmişdir. Neftdən gələn gəlirlər əmək haqları və təqaüdlərin, əhalinin aztəminatlı təbəqələrinə müxtəlif sosial müavinətlərin ödənilməsində, eləcə də ölkədə geniş həcmli sosial-iqtisadi proqram və layihələrin həyata keçirilməsində başlıca maliyyə qaynağıdır. Ulu öndər Heydər Əliyev daim tövsiyə edirdi: «Neft təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə məxsusdur. Bu zəngin təbii sərvətdən son dərəcə səmərəli şəkildə, qənaətlə, hər bir ölkə vətəndaşının mənafeyi naminə istifadə olunmalıdır». Bu fikri öz fəaliyyətində rəhbər tutan Azərbaycan Prezidenti İlham Əliyev Neft Fondunun fəaliyyətini daim nəzarətdə saxlayır, onun gələcək nəsillər üçün saxlanılması məqsədilə lazımi tədbirlər həyata keçirir. Xarici vətəndaşlarla birgə layihələr çərçivəsində Azərbaycan dövlətinə ödənilən bonuslar, vergi rüsumlar, digər maliyyə ayırmaları bir fondda toplanır və effektiv idarə olunur [3].

## ƏDƏBİYYAT


1. Abbasov T.A. Naxçıvan MR-də aqrar sahibkarlığın inkişafının əsas istiqamətləri, Bakı, ADPU-nun mətbəəsi, 2005, 66 s
2. “İqtisadiyyat” qəzeti, 17-23 aprel 2015
3. “Azərbaycan”qəzeti 03 aprel 2014, 8 s
4. www.az/stat.org.
5. www.ekonomy.gov.az.
6. Alıyev İ.H. “Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri”, Bakı, Elm, 2006, 380 s
7. “Qalq” qəzeti, 12 mart 2015


## ABSTRACT


**Nuriyya Ibrahimova**


**The Development strategic of national Economy reality reasons**


The same position of Azerbaijan and Development country the development level of social, economic a political military, cultural a science are commented in article.

Principe made an important role over the deport routes in the world is available for the national interest of Azerbaijan and the new al strategy of H.Aliyev.

As the known Baku Novorossiysk and Baku-Supsa al pipeline were restored basing on the “The argument of century”. Besides these the main export of pipeline Baku-Tbilisi-Ceyhan and Baku-Tbilisi-Erzurum gas pipeline were created and widen and changed into main al and gas pipeline system.

Azerbaijan where famous for its al is known on the international arena and the history of al industry. The discovering of all sources, its exports by means of tankers and transport are involved in Azerbaijan.

Also Baku al explorer gain their success over the discovering and exporting of al and did this best over this side and create innovation. So that Baku is considered the academy of al.


## РЕЗЮМЕ


**Нурия Ибрагимова**


**Стратегия национального экономического развития: реальности и результаты**

В статье расскрыты темны последних лет экономического развития Азербайджана на ряду с развитыми странами, подчеркнуть несравлительной степени отличия политического, экономического, социального, военного, културьного, научного уравня.

В последние периоды времени в мировом масштабе в особенности принсип многообразия экспортных маршрутов соответствует национальным интересам Азербайджанской Республики и новой нефтяной стратегии общенационального лидера Гейдара Алиева.

Как известно, после подписания «Контракта века» портный нефтепровод Баку-Тбилиси-Джейхан и газопровод Баку-Тбилиси-Эрзурум. Были также восстановлены нефтепроводы Баку-Новоссийск и Баку- Супса. Этим была создана основательная дифоренцированная система нефтяных и газовых проводов.

Азербайджан – одна из стран, считающихся основоположеником нефтедобычи в мире, с древних времен вписала словные страницы в историю нефтяный промышленности и стала популярна в международной среде. Так как основы добывания нефти промышленным способом, её переработки, транспортирования танкерами, железнодороженными путями, трубопроводами, разведки и эксплуатирования на суще, в открытых морях и глубоководных участках были разработаны в Азербайджане.

Нефтянники Баку всегда прославлялись как авторы многочисленных и широкомасштабных идей в сфере разведки нефтяных и газовых месторождений, внедрями в производство самые инновативные проекты. Вследствие этого Баку долгое время считалось нефтяный академией мира.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* T.Abbasov

**EYVAZ EYVAZOV**
*Naxçıvan Dövlət Universiteti*
e-*mail: e.a.eyvazov@rambler.ru*

**UOT:332.1**

# SAHİBKARLIQ FƏALİYYƏTİNİN İQTİSADİ MƏZMUNU, TƏSNİFLƏŞDİRİLMƏSİ VƏ ONUN DÖVLƏT TƏNZİMLƏNMƏSİ MEXANİZMİNİN TƏTBİQİ XÜSUSİYYƏTLƏRİ

**Açar sözlər:** *dövlət tənzimlənməsi, pul-kredit sistemləri, investisiya, mənfəət, yenilikçi sahibkarlar, rəqabət, vergi*
**Keywords:** *government regulation, monetary credit system, investment, profit, innovative entrepreneurs, competition, tax*
**Ключевые слова:** *государственное регулирование, денежно-кредитная системы, инвестиция, прибыль, инновационные предприниматели, конкуренция, налог*

Azərbaycan Respublikasında aparılmış köklü islahatlar nəticəsində sosial-iqtisadi dəyişikliklər baş vermiş, sahibkarlıq fəaliyyəti üçün yeni iqtisadi mühit formalaşmışdır. Ölkədə həyata keçirilən uğurlu iqtisadi siyasətin əsas məqsədlərindən biri də əlverişli biznes və investisiya mühiti yaratmaqla, daxili və xarici investisiyaların cəlb edilməsi və qeyri-neft sektorunun inkişafına nail olmaqdan ibarətdir. Bu istiqamətdə ardıcıl olaraq dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, dövlət tənzimlənməsi sisteminin, biznes mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, regionlarda sahibkarlığın inkişafı, ona dövlət dəstəyi mexanizmlərinin yaxşılaşdırılması və mütamadi təkminləşdirilməsi kimi kompleks tədbirlər həyata keçirilməkdədir.

Sahibkarlıq haqqında təlimlər iqtisad elminin klassiklərindən başlayaraq müasir dövrün bir çox tanınmış iqtisadçı alimlərinin tədqiqatlarında xüsusi yer tutmaqdadır. Sahibkarlıq fəaliyyəti iqtisadi fəallığın digər növlərindən özünəməxsus iqtisadi, hüquqi, sosial və psixoloji kökləri ilə fərqlənir. Sahibkarlıq haqqında nəzəri fikirlərdə fərqli baxışların, bəzən bir-birinə tam zidd olan mülahizələrin mövcudluğu sahibkarlığın mürəkkəb sosial-iqtisadi proses olması ilə izah etmək olar.

Sahibkarlıq anlayışlardan ilk dəfə XVII əsrin axırlarında Şotland mənşəlli fransız iqtisadçısı Riçard Kantilyon (*1680-1734*) istifadə etmisdir. O, sahibkarı riskli şəraitdə fəaliyyət göstərən təsərrüfat subyekti hesab edərək onu uzaqgörən, itkilərə hər an hazır olan, risk etməyi bacaran və gələcəyə nikbin baxan fərd kimi qeyd etmişdi. O, riski iqtisadi fəaliyyətin başlanğıcında nəticələrin qeyri-müəyyənliyi ilə xarakterizə etmiş və onu sahibkarın əsas funksiyası adlandırmışdır. [1]

İngilis iqtisadcısı Adam Smit (*1723-1790*) sahibkarı mənfəət əldə etmək ucun iqtisadi risklə bağlı olan hər hansı ideyanı həyata kecirən kapital sahibi kimi təqdim etmişdir. O, sahibkarın cəmiyyət üçün faydalılığını bazar iqtisadiyyatının iki əsas elementinin - iqtisadi fəaliyyətdə seçmə azadlığının və rəqabətin mövcudluğu ilə şərtləndirirdi. [2]

Fransız iqtisadçısı Jan Batist Sey (*1767-1832*) Adam Smitin ideyalarını tədqiq edərək xalqın sərvətinin mənbələrini üç istehsal amili - insan, kapital və torpaq ilə əlaqələndirmişdir. Bu amillərin bazarda qiyməti əmək haqqı, faiz dərəcəsi və renta kimi muəyyən edilir. O, gostərirdi ki, sənayeçi sahibkarlar istehsal amillərinin alıcısı rolunda çıxış edir və onları tələbatı ödəyən və mənfəət gətirən məhsulların istehsalına yönəldərək daha yüksək dəyəri (*xalqın sərvətini*) yaratmış olurlar. J.Sey sahibkarın sərvətin yaradılması və boluşdurulməsində rolunun muzdlu işçi, fəhlə və ya əkinçiyə nisbətən daha üstün olduğunu vurğulayırdı. O, sahibkarda ağıllılıq, fəallıq, məlumatlılıq və nizam intizamlılıq kimi xüsusiyyətlərin olmasını mühüm sayırdı. [3]

Avstriya mənşəlli Amerika iqtisadçısı Yozef Şumpeter (*1883-1950*) sahibkarın iqtisadi inkişafda roluna xüsusi baxışı ilə seçilir. O, sahibkarları iqtisadi inkişafda roluna görə iki qrupa ayırırdı: gündəlik dövriyyə ilə məşğul olanlar və yenilikcilər. Gündəlik dövriyyə ilə məşğul olan sahibkarlar keçmiş təcrübəyə əsaslanaraq düzgün davranış qaydalarını tapırlar. Burada Adam Smitin "görünməz əl" prinsipi sahibkarların məhz gündəlik dövriyyədəki davranışlarını izah

etməsini xüsusilə qeyd etmək vacibdir. Sahibkarlar bazardan qiymətlərin dinamikası ilə aldığı siqnallar əsasında tələbatın dinamikasına uyğunlaşırlar. J.Şumpeter göstərirdi ki, gündəlik dövriyyədə iqtisadiyyatın fiziki artımı baş verir, lakin onun keyfiyyətcə dəyişməsi gündəlik dövriyyədə mümkün deyil Y.Şumpeter iqtisadiyyatın keyfiyyət dəyişikliyinin adi sahibkarların fəaliyyəti ilə deyil, yenilikçi sahibkarların səyləri nəticəsində baş verdiyini qeyd edirdi. Sahibkar istehsal amillərini mənfəət gətirən sabit istehsaldan ayıraraq gələcək nəticəsi naməlum olan yeni bir layihənin həyata keçirilməsinə istiqamətləndirir. "Gorunməz əl" prinsipinə gorə belə hal rasional hesab olunmur. Lakin yeni məhsul bazar tərəfindən qəbul edildikdən sonra bazarın "gorunməz əl" mexanizmi dərhal işə duşur və yenilik gündəlik dövriyyəyə cevrilir. Y.Şumpeter yenilikçiliyi istehsal amillərinin yeni kombinasiyası adlandıraraq onların beş mümkün növünü göstərmişdir: yeni istehsal metodunun yaradılması; yeni əmtəənin və ya xidmətin yaradılması; yeni satış bazarının tapılması; yeni xammal mənbəyinin və ya növünün istifadə edilməsi; müəssisənin fəaliyyətinin yeni təşkil prinsiplərinin tətbiqi. [4]

Sahibkarlıq fəaliyyətinin təsnifatı iqtisadi ədəbiyyatda çox müxtəlif formaları araşdırılır. Bu müxtəlifliyin bir-biri ilə qarışdırılmaması üçün istər elmi-nəzəri və istərsə də praktik baxımdan sahibkarlıq fəaliyyəti müxtəlif əlamətlər üzrə: iqtisadi quruluş baxımından, fəaliyyət növü baxımından, sərmayə mülkiyyəti baxımından, hüquqi formaları baxımından, beynəlxalq mövqe baxımından və sahibkarlıqlar arası qarşılıqlı anlaşmalar baxımından təsnifləşdirilir. [9]

Azərbaycan Respublikasının Mülki və Vergi Məcəllələrində sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə, öz riski ilə həyata kecirdiyi, əsas məqsədi əmlak istifadəçisindən, malların təqdim edilməsindən, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürülməsi olan fəaliyyət kimi təqdim olunur.

Beynəlxalq təcrübəyə nəzər salsaq, görərik ki, kiçik və orta biznesin səmərəli fəaliyyətinin təmin edildiyi şəraitdə istehsal olunan məhsul və xidmətlərin yarıdan çoxu, elmi texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqinin 80%-i, hər yeni açılan 3 iş yerindən 2-si həmin sahənin payına duşur. Eyni zamanda kiçik və orta biznes subyektləri əhalinin tələbatına daha həssas olduğundan, bazar konyukturunun dəyişikliklərinə çevik reaksiya verib, istehsal və istehlak sferalarındakı müvafiq boşluqları daha dolğun və səmərəli şəkildə doldura bilirlər. Bundan əlavə kiçik və orta sahibkarlıq cəmiyyətdə orta təbəqənin formalaşmasının əsas mənbəyi kimi zəruri sabitliyi təmin edərək, ölkədə həyata kecirilən demokratik yönlü, mütərəqqi iqtisadi, hüquqi və siyasi islahatların dəstəklənməsinin sosial bazasını genişləndirir.

Məlumdur ki, səmərəli fəaliyyət göstərən güclü sahibkarlıq institutunun formalaşması və inkişafı uzunmüddətli proses olaraq, dövlət tərəfindən müəyyən edilən siyasi, hüquqi və iqtisadi mühitin əlverişli olmasından, həm də dövlətin biznes və cəmiyyətlə əməkdaşlığının səmərəli olmasından asılıdır.

Azərbaycan hökuməti bazar iqtisadiyyatına kecid dövründən başlayaraq sahibkarlıq mühitinin yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata kecirmişdir. Belə tədbirlərdən həlledicisi bu sahədə qanunvericilik bazasının formalaşdırılması və zamanın tələbinə uyğun olaraq təkmilləşdirilməsi olmuşdur.

Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət yardımının zəruriliyi kiçik və orta sahibkarlığın cəmiyyətin sosial-iqtisadi problemlərinin həllinin vacib alətlərindən birinə çevrilməsindən irəli gəlmişdir. 1999-cu ildə qəbul edilmiş "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının Qanununda kiçik sahibkarlıq subyektlərinə dövlət köməyinin istiqamətləri müəyyən edilmişdir:

-kiçik sahibkarlığın dəstəklənməsinin və inkişafının infrastrukturunun formalaşdırılması;

-kiçik sahibkarlığa kömək proqramlarının hazırlanması və həmin proqramların həyata keçirilməsinin təşkili;

-kiçik sahibkarlıq subyektlərinə maliyyə, maddi, elmi-texniki və informasiya resurslarının əldə etmələri üçün güzəştli şəraitin yaradılması;

-kadrların hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması sahəsində kiçik sahibkarlıq subyektlərinə kömək göstərilməsi;

-kiçik sahibkarlıq subyektləri üçün dövlət qeydiyyatının (*uçotunun*), statistik

və mühasibat hesabatlarının təqdim edilməsinin, onların istehsal etdikləri məhsulun (*işin, xidmətin*) sertifikatlaşdırılmasının sadələşdirilmiş sisteminin tətbiqi;

-kiçik sahibkarlığın inkişafı üzrə tədqiqatların təşkili və s. [6] ,[7].

Bunlardan ən əsası bazar iqtisadiyyatının inkişafına mənfi təsir göstərən bir sıra amillərin aradan qaldırılması sahəsində qəbul olunmuş "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci i1 28 sentyabr tarixli və müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2002-ci il 30 sentyabr tarixli fərmanları muxtar respublikada sahibkarların hüquqlarının qorunması sahəsində xüsusi əhəmiyyətə malikdir.

Naxçıvan Muxtar Respublikasında sahibkarlarin mənafeyinin qorunması, onların fəaliyyətlərinin əlaqələndirilməsi istiqamətində sahibkarların ictimai birliyi, Naxçıvan Muxtar Respublikası Sahibkarlar (İşəgötürənlər) Konfederasiyası və 2005-ci ildə Sahibkarlıq işçiləri Həmkarlar İttifaqı Komitəsinin muxtar respublika təşkilatı yaradılmışdır. Son illər vergi sisteminin sahibkarlığın inkişafı tələblərinə uyğunlaşdırılması istiqamətində əhəmiyyətli işlər görülmüşdür. Belə ki, mənfəət və əlavə dəyər vergisi dərəcələri, məcburi sığorta haqqı aşağı salınmış, kiçik sahibkarlıq subyektlərinin bir qisminə vahid vergi tətbiq edilməyə başlanılmışdır. Sahibkarlara dövlət maliyyə köməyi sistemi formalaşdırılmış və inkişaf etdirilməkdədir.

"Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 27 avqust tarixli fərmanı və müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 03 dekabr 2002-ci il tarixli qərarı ilə sahibkarlara dövlət maliyyə köməyi inkişaf etdirilmiş, sahibkarların investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsi mexanizmləri təkmilləşdirilmişdir. [8]

Həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin nəticəsidir ki, muxtar respublikamızda hər il ümumi daxili məhsul ilbəil dinamik olaraq artır. Belə ki, 2014-cü ildə muxtar respublikada 2 milyard 391 milyon manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da bir il öncəki ilə müqayisədə müvafiq göstəricidən 1,3 faiz çoxdur. 2014-cü ildə hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2013-cü ilə nisbətən 0,8 faiz artaraq 5465,2 manat (6967,4 ABŞ dolları) səviyyəsində olmuşdur. 2014-cü ildə ümumu daxili məhsul istehsalında maddi istehsalın payı 62,8 faiz təşkil etmişdir. [5]

Müasir texnologiyalarla təchiz olunmuş yeni sənaye müəssisələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sənaye məhsulunun dinamik artımını təmin etmişdir. 2014-cü ildə muxtar respublikada 891 milyon 486 min manat həcmində sənaye məhsulu istehsal olunmuşdur ki, bu da bir il öncəki müvafiq göstəricini 2,5 faiz üstələyir. Sənaye məhsulu istehsalının 95,6 faizi malların, 4,4 faizi isə xidmətlərin payına düşmüşdür. Dövlət sektorunda 65 milyon 536 min manatlıq, qeyri-dövlət sektorunda isə 825 milyon 950 min manatlıq sənaye məhsulu istehsal edilmişdir. İstehsal olunan məhsulun 92,6 faizi özəl sektorun payına düşmüşdür.[5]

Hazırda olkəmizdə regionların dinamik sosial-iqtisadi inkişafı kontekstində iqtisadiyyatın şaxələndirilməsi muhum vəzifə kimi qarşıya qoyulmuşdur. Bu şaxələndirmə zamanı iqtisadiyyatın əsas aparıcı sektorlarının müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Fikrimcə, Naxçıvan Muxtar Respublikasında da, kiçik və orta sahibkarlıq subyektlərinin səmərəli fəaliyyət göstərə biləcəyi əsas aparıcı sektorlara (*daha əmək tutumlu sektor*) kənd təsərrufatı, tikinti və turizm sahələrini aid etmək olar.

Belə bir şəraitdə Muxtar Respublikaya transmilli şirkətlərin investisiya yatırmaları reallığa çevrilir. Ttransmilli şirkətlərin fəaliyyəti kiçik və orta muəssisələrin inkişafı üçün yeni perspektivlər yaradır. Belə ki, kiçik və orta sahibkarlıq subyektləri iri şirkətlərlə, həmcinin transmilli korporasiyalarla inteqrasiyada daha müvəffəqiyyətlə inkişaf edirlər və onların etibarlı təchizatçısı rolunda cıxış edirlər.

İnkişaf etmiş olkələrin iqtisadcı alimlərinin əsərlərində sahibkarlıq anlayışı yalnız mənfəətin əldə edilməsinin mənimsənilmiş üsullardan istifadə edilməsi ilə deyil (*gundəlik dovriyyə*), həm də yeniliklərin, yeni dəyərin yaradılması ilə əlaqələndirilir və sahibkarlığa dövlət yardımının məhz yenilikçiliklə əlaqələndirilməsi təklif olunur. Fikrimcə, transmilli şirkətlər üçün bu istiqamətdə əsas

rol oynayan kiçik muəssisələrin yaradılması məsələsi muxtar respublikamızda aktual hesab oluna bilər. Belə kicik və orta müəssisələrin inkişafı bilik iqtisadiyyatının formalaşması üçün əhəmiyyətli ola bilər.

Aqrar, turizm və tikinti sektorları üçün mövcud olan tələbatın artımı bu sahələrdə yeni sahibkarlığın yaranması və inkişafı üçün əlverişli zəmin yaradır. Buna görə də, həmin sahələrdə sahibkarların dəstəklənməsi üçün xüsusi yardım proqramlarının işlənməsinə ehtiyac var.

Sahibkarlığın regional strukturunun optimallaşdırılması üçün muxtar respublikamızda fəaliyyət gostərən kicik və orta sahibkarlıq subyektlərinə dövlət dəstəyinin sistemliliyi daha sanballı nəticələrin əldə edilməsinə imkan verə bilər.

## ƏDƏBİYYAT

1. Лапуста М.Г. (2008). Малое предпринимательство Учебник, Москва, Инфра-М, 454 с
2. Смит А. (1993) Исследование о природе и причинах богатства народов, Книга IIII, Москва, Наука, 721 с
3. Сей Ж.Б. (2000). Трактат по политической экономии, Москва, Дело, 321 с
4. Й.А.Шумпетер. (1981). Теория экономического развития, Москва, Прогресс, 401 с
5. "2014-cu ildə Naxcıvan Muxtar Respublikasının sosial-iqtisadi inkisafı. " Naxçıvan MR Dövlət Statistika Komitəsi, 2014
6. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi proqramının (1997—2000-ci illər) Bakı , 1997-ci il
**7. "**Kiçik sahibkarlığa dövlət köməyi haqqında" , Azərbaycan Respublikasının Qanunu**,** Bakı, 1999
8."Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamənin təsdiq edilməsi barədə", Azərbaycan Respublikası Prezidentinin fərmanı, Bakı, 2002
9. İsmet Mucuk ,"Modern İşletmecilik", Türkmen Kitabevi, Beyazıt/ İstanbul, 2002.səh.32

## ABSTRACT

**Eyvaz Eyvazov**

**The economic content of entrepreneurial activity, classification and features application mechanisms of state regulation.**

The article describes the research of scientists from the classics to modern known scientists economists on entrepreneurship, the economic content of the entrepreneurial activity, the classification and study some of the other peculiar features. It has been observed that there are different views and considerations of theoretical ideas about entrepreneurship. Specified modern definition and features a application mechanisms for regulating entrepreneurial activity.

Based on international experience, it was noted that more than half of the gross domestic product of the republic created in the private sector, especially small and medium sized ***enterprises***. At the same time the subjects of small and medium business is more sensitive to the needs of people flexible response to changes in the market conjuncture and more effectively in the consumer and industrial sectors. In addition, small and medium enterprises, as the main source of the middle class, expanding the social base of support for the reforms, providing the necessary stability in the society.

Examined peculiarities mechanisms of state regulation of the entrepreneurial activity. In connection with this, it was noted the development of relations between the state and entrepreneurs, the system of state regulation, legislation and administrative procedures to improve the business environment. In addition, it was noted the mechanisms of state support and the adoption of targeted state programs for the development of entrepreneurship in the Nakhchivan Autonomous Republic.

## РЕЗЮМЕ

**Эйвазов Эйваз**

**Экономическое содержание предпринимательской деятельности, классификация и его особенности применения механизмы государственного регулирования.**

В статье рассмотрены исследования ученых, начиная от классиков до современных известных ученых экономистов о предпринимательстве, экономическое содержание

предпринимательской деятельности, классификация и исследование некоторых других своеобразных особенностей. Было отмечено существование раз-личных мнений и соображений теоретических представлений о предприниматель-стве. Указанно современное определение и  особенности применения механизмов регулирования предпринимательской деятельности.

Основываясь на международном опыте, было отмечено, что более половины валового национального продукта республики создается в частном секторе, особен-но малых и средних предпринимательство приходится. В то же время  субъекты малый и средний бизнес более чувствителен к удовлетворение потребности людей, гибкого реагирования на изменения рыночной коньюнктуры и более эффективно в потребительской и производственной сферах. Кроме того, малое и среднее предпри-нимательство, являясь основным источником формирования средного класса, расширяет социальную базу поддержки проводимых реформ, обеспечивая необходимую стабильность в обществе.

Рассмотрены особенности механизмы государственного регулирования предпринимательской деятельности. В связи с этим, было отмечено развитие отношений между государством и предпринимателями, система государст-венного регулирования, законодательства и административных процедур по улучшению бизнес среды. Кроме того, было отмечено механизмы государст-венной поддержки и принятие целенаправленных государственные программы для развития предпринимательство в Нахчыванской автономной республики.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* T.Abbasov

*Iğdır Üniversitesi*
*hakanunv76@hotmail.com*

**UOT:330.1**

# NAXÇIVANDA DUZ TİCARƏTİ

Qədim dövrdən başlayaraq duz ehtiyatları xarici iqtisadi əlaqələrin yaranması və inkişafına təkan vermiş, eləcə də infrastruktur elementlərinin formalaşmasında xüsusi yer tutmuşdur. Naxçıvanda Duzdağ mədəninin qədimliyi, bu mədənlərdən e.ə. III-II minillikdən başlayaraq duz çıxarıldığı, mədənçiliyin inkişaf etdirildiyi bildirilir. Tədqiqatlar nəticəsində Duzdağ mədəninin Erkən Tunc dövründə geniş istifadə olunduğu müəyyən edilmiş, duzun sosial və ictimai münasibətlər faktoruna çevrilərək sənətkarlığın və ticarətin, bununla birlikdə isə Naxçıvan şəhər mədəniyyətinin yaranmasına güclü təsir göstərdiyi aşkarlanmışdır (1, s. 8).

Keçmiş zamanlardan başlayaraq bölgənin həyatında ciddi rol oynayan Naxçıvan duzuna tələbat get-gedə artırdı. Bunun başlıca səbəbi Naxçıvan duzunun keyfiyyətinin daha yüksək səviyyədə olmasından irəli gəlirdi. Digər bir səbəbi Naxçıvanda duz mədənlərinin beynəlxalq ipək yolunun üzərində yerləşməsi, xarici bazara çıxarmalısının daha asan olması idi. Tarixən Azərbaycan ərazisində duz hasilatının əsas xammal mənbəyi Naxçıvandakı duz mədənləri və Abşerondakı duz yataqları olmuşdur. XX əsrin əvvəllərindən başlayaraq sənaye sahəsində, məişətdə və təsərrüfatdakı böyük tələbata görə duz istehsalı xeyli artırılmışdı. Bəhs edilən dövrdə Naxçıvan duzu Cənubi Qafqazın bütün regionlarına aparılırdı. Qeyd edək ki, diyarımızdakı daş duz yataqlarından çıxarılan duz soda istehsalı ilə yanaşı, müxtəlif sənaye sahələri üçün əvəzolunmaz xammal idi.

Duz yataqlarında olan duz ehtiyatları da maraq doğuran məsələlərdən biridir. Bu yataqlarda olan duz ehtiyatları haqqında dövrün mənbələrində müxtəlif rəqəmlər verilir. XX əsrin əvvəllərinə aid olan rus mənbəsində Lenin adına olan Naxçıvan duz mədənlərində 55 milyon ton, Sust duz mədənlərində isə 45 milyon ton daş duz ehtiyatları olduğu göstərilir. XIX əsrdə Naxçıvanda duzun istehsalı və satışı haqqında məlumatları daha çox rus mənbələrindən öyrənirik. Çünki bəhs olunan dövrdə Azərbycab və onun ayrılmaz bir parçası olan Naxçıvan rus imperiyasının əsarəti altında idi. İlk öncə onu qeyd edək ki, XIX əsr rus mənbələrində Naxçıvandakı daş duz yataqları XIX əsr rus mənbələrində "Naxçıvan duz sənayesi" adlandırılır (6, s. 81-83). Mənbələrdən aydın olur ki, bu əsrdə Naxçıvanda hər il 200.000 pud (120.000 pud daş duz, 80.000 pud narın duz) duz çıxarılmışdır. Duzun çıxarıldığı yerdəki satış qiyməti ilə onun Naxçıvandan kənardakı ərazilərdə satış qiymətində müəyyən fərqlər olduğu aydın olur. Çıxarıldığı yerdə bir pud duz 10 qəpiyə satılırdısa, Naxçıvandan kənarda 18-25 qəpik, Şuşada isə 60-75 qəpik idi. Bundan başqa çıxarılmış yerli əhalinin təlabatını ödəməklə yanaşı Ordubada, Yenibəyazitə, Şuşaya, İrana və. s. yerlərə göndərirdi. Naxçıvanda duzunun müxtəlif ərazilərə daşınmasında qoşqu vasitəsi kimi uzunqulaq və qatırlardan istifadə edirdilər (7, s. 76).

Araşdırmalardan məlum olur ki, XX əsrin əvvəllərində duz mədənlərinin inkişafında yaradılmış Xüsusi Qafqaz Ordusu Naxçıvan duz mədənlərinin yenidən qurulması və istismarı sahəsində başlıca rol oynamışdır. Rus mənbəsinin təhlilindən belə məlum olur ki, XX əsrin əvvəllərindən başlayaraq Naxçıvan duz yataqları müxtəlif trest, komitə, təşkilat və cəmiyyətlərin tərkibinə qatılmışdır. Rus müəllifi N.Sokolski yazırdı ki, bölgədəki duz istismarı duz sənayesi cəmiyyətlərinin, daha sonra xalq sənaye-ticarət komitəsinin əlində cəmlənmişdi. Xüsusi Qafqaz Ordusunun xəttilə müxtəlif vaxtlarda ayrıca "duz ekspedisiyaları" təşkil edilmişdi (9, s. 86).

Mənbənin təhlilindən məlum olur ki, bölgədəki duz mədənləri uzun müddət erməni, yəhudi və b. əcnəbi sahibkarların ixtiyarında olmuşdur. Rus mühəndisi V.Q.Yudoviç adlı şəxsin xeyli müddət Naxçıvan duz mədənlərinin direktoru vəzifəsində çalışmasını tarixi mənbə də təsdiqləyir. Bu siyahını uzatmaq da olar. Erməni ekstremistlərinin hələ XX əsrin 10-20-ci illərində bölgənin duz mədənlərində yaratdığı münaqişələr və törətdiyi təxribatlar bütövlükdə muxtar respublika iqtisadiyyatının bütün sahələrinə ciddi ziyan vurmuşdur. O zamankı rəhbərliyin bütün bunlara göz yumması nəticəsində bölgədəki duz mədənləri çox acınacaqlı və yararsız vəziyyətə düşmüşdür. Müasir dövrdə mühüm uğurlar və nailiyyətlər əldə edilən Naxçıvan duz sənayesi çox çətin, mürəkkəb və ziddiyyətli bir inkişaf yolu keçmişdir.

Naxçıvan duzunun keyfiyyəti məsələsi uzun müddət mübahisəli olmuşdur. Mütəxəssislər bu barədə müxtəlif fikirlər irəli sürmüşlər. Onların bir qismi Naxçıvan mədənlərində istehsal olunan duzun keyfiyyətinə görə Ukrayna və Türkmənistan duzundan aşağı səviyyədə olduğunu, bəziləri isə əksinə, Naxçıvan duzunun Cənubi Qafqaza gətirilən duzlardan keyfiyyətcə üstün olduğunu iddia edirlər. Dövrə uyğun mənbələrin birində yazılırdı ki, Naxçıvan diyarında artıq yüz ildən çoxdur ki, duz çıxarılır, geoloji kəşfiyyat və qazıntı nümunələrinin tamamilə yoxluğu səbəbindən biz duz yataqlarının dəqiq ölçülərini bilmirik, ancaq əlamətlər onların çox böyük olduğunu və həm çox dərində deyil, az qala yerin səthində yerləşdiyini göstərir; bu da bütün Cənubi Qafqaz üçün çox zəruri olan bir məhsulun asan və ucuz hasil edilməsinə imkan verir. Bölgəmizdə çıxarılan duz əsasən mal-qaranın qidalanmasında, sənaye və texnikanın müxtəlif sahələrində, habelə təsərrüfat məqsədilə-dəri və sabun istehsalında da istifadə edilirdi.

Primitiv üsulla çıxarılan duz məişətdə istifadə olunmaqla yanaşı, mübadilə vasitəsi kimi Böyük İpək Yolu ilə Şərq və Qərb ölkələrinə aparılmışdır. 1920-ci ildə Naxçıvanda sovet hakimiyyəti qurulandan sonra Naxçıvan İnqilab Komitəsi duz mədənlərində işləri yenidən qurmaq, duz istehsalını bir neçə dəfə artırmağa nail olmaq, fəhlələrin sayını 100 nəfərə çatdırmaq barədə Naxçıvan Xalq Təsərrüfatı Şurasına göstəriş vermişdi. Duz tədarükünü artırmaq hesabına fəhlələr üçün ərzaq və maliyyə fondu yaratmaq nəzərdə tutulurdu. Eyni zamanda RSFSR-in Naxçıvandakı xarici ticarət komissarlığının Müvəkkilliyinə göstəriş verilmişdi ki, Ermənistan nə Gürcüstan İnqilab Komitələri ilə əlaqəyə girib duzu Naxçıvanın ehtiyacı olan mallar ilə dəyişdirmək ticarətini təşkil etsin (5).

Nəhayət 1924-cü il fevralın 9-da Naxçıvan MSSR yaradılaraq Azərbaycan SSR-in tərkibinə daxil edildi.

Respublikada birinci növbədə duz istehsalı bərpa edilmişdi və 1925-ci ildə 1913-cü ilə nisbətən 2,8 dəfə çox duz çıxarılmışdı. Duzdağ yatağından sənaye üsulu ilə duz çıxarılmasına isə ilk dəfə 1927-ci ildə başlanılmış, sovetlər dönəmində bu sənaye müəssisəsində istehsal edilən daşduz ittifaq respublikalarına göndərilmişdir.

Ümumiyyətlə, Naxçıvan MSSR iqtisadiyyatının inkişaf imkanlarına, bu inkişafın tarixi gedişinə və hazırda yaranmış vəziyyətinə qiymət verərkən onun 20-30-cu illərdə, 50-ci illərin axırları və 60-cı illərin əvvəllərində, 70-80-ci illərdə keçdiyi mürəkkəb tənəzzül və təkamül xüsusiyyətlərini nəzərə almaq lazımdır. Bu baxımdan, bütövlükdə Azərbaycandan və onun bir sıra iqtisadi rayonlarından fərqli olaraq bu regionda 1911-1913-cü illərdə öz inkişafının nisbətən yüksək səviyyəsinə çatan iqtisadiyyat, 1914-cü ildən başlayaraq tədricən dağılmağa başlamış və 1924-cü ildə demək olar ki, tamamilə məhv edilmişdir. Az-çox fəaliyyət göstərən duz hasilatı mədənlərində istehsalın həcmi 2,5 dəfə azalaraq 3,6 min tona düşmüşdü. İqtisadiyyatın dağılması prosesi Azərbaycanın başqa iqtisadi rayonlarında olduğuna nisbətən Naxçıvanda daha uzun sürmüş və dağıntı daha kəskin xarakter almışdı (3, s. 146). Bunu başlıca səbəbi isə ermənilərin bu ərazilərdə soyqırım siyasəti həyata keçirməsi idi.

O dövrün yazılı mənbələrində verilən məlumatlara görə, Naxçıvanda elə bir kənd yox idi ki, onu erməni hərbi müdaxiləsi 70-75% dağıtmamış olsun. Qeyd etmək lazımdır ki, erməni millətçilərinin müxtəlif dövrlərdə imkan düşdükcə törətdikləri hər cür fitnəkarlıqlar Naxçıvan MSSR-in iqtisadiyyatının, şəhər və kəndlərinin dağılmasına və sonralar iqtisadiyyatın inkişafının ləng getməsinə səbəb olmuşdu. Bu hadisələr Naxçıvanın iqtisadiyyatına da ağır zərbələr vurulmuşdu. Keçmiş Sovetlər Birliyinin Dövlət Plan Komitəsində işləyən ermənilər Naxçıvanın duz yataqlarından hasilatın guya baha başa gəldiyini "əsaslandıra bilmişdilər". Nəticədə duz istehsalı kəskin azalmış, Azərbaycan öz kimya sənayesini inkişaf etdirmək üçün başqa yerlərdən baha qiymətə duz gətirməyə məcbur olmuşdu (11).

Birinci dünya müharibəsi, xarici hərbi müdaxilə, daşnak fitnəkarlıqları və basqınları duz mədənlərinə də böyük ziyan vurmuşdu, duz istehsalı xeyli azalmışdı.

Beləliklə, yeni hakimiyyətin ilk mühüm vəzifəsi dağılmış duz mədənlərini bərpa etməkdən, duz istehsalını ilk vaxtlar heç olmazsa müharibədən əvvəlki səviyyəyə çatdırmaqdan ibarət idi. Görünür elə duz istehsalını nizama salmağın zəruriliyi 1921 - 1922-ci illərdə Naxçıvan duz mədənlərinin bərpası işinə Qızıl Ordu hissələrinin cəlb edilməsinə əsas səbəb olmuşdur. Naxçıvan

Xalq Komissarları Sovetinin qərarı ilə duz mədənləri Qafqaz Ordusunun Naxçıvanda yerləşən hissələrinin sərəncamına verilmiş, 1922-ci ildə Naxçıvan «Solprom» tresti yaradılmışdı (9, s. 86 ). 1923-cü ildə Naxçıvan duz mədənləri Azərbaycan Ticarət Komissarlığının, 1924-cü ildə isə Azərbaycan Xalq Təsərrüfatı Şurasının sərəncamına keçmiş, Naxçıvanda isə əlahiddə Naxçıvan duz tresti təşkil olunmuşdu. Bu təşkilati tədbirlər öz səmərəsini vermiş və hələ 1924-cü ildə duz istehsalı müharibən əvvəlki dövrün 52 faizini təşkil edərək 1 milyon 600 min puddan çox olmuşdu.

1925-ci ildə Naxçıvan duz sənayesinin mexanikləşdirilməsi sahəsində böyük iş görülmüş, 200 at qüvvəsində olan elektrik stansiyasının istifadəyə verilməsi ilə yeraltı şaxtalarda əl ilə görülən ən ağır işlər mexanikləşdirilmiş, şaxtalar işıqlandırılmışdı. 1926-cı ildə isə İsveç və Almaniyadan alınmış üç maşın şaxtalarda duz çapma işlərini mexanikləşdirməyə imkan vermişdi. Nəticədə burada işləyən 45-55 fəhləni 5 fəhlə əvəz etmişdi. 1926-1929-cu illərdə Naxçıvan duz mədənlərindən Bozbaşı stansiyasına çəkilən kanat yolu ildə 6 milyon pud duz daşımağa imkan vermiş, duzun maya dəyərini 6-7 dəfə azaltmışdı. 3 Duz sənayesində ağır işlərin mexanikləşdirilməsi və elektrikləşdirilməsi əmək məhsuldarlığını artırmış və işçi güvəsinə olan ehtiyacı azaltmışdı. Məsələn, 1922-1924-cü illərdə hər iki mədəndə 260-280 fəhlə işlədiyi halda, 1930 - 1931-ci illərdə fəhlələrin sayı 148 nəfərə qədər azalmış, lakin duz istehsalı 3-4 dəfə artaraq 1931-ci ildə 3.650.000 pud olmuşdur. MSSR MİK-IN sədri B. Vəlibəyov VIII Naxçıvan Sovetlər qurultayında (2 fevral 1931-ci il) demişdi: “Duz sənayesinin inkişafı mütəşəkkil şəkil almış və bütün sahələrdə mexanikləşdirmə və elektrikləşdirmə işləri başa çatdırılmışdır. 7-8 milyard pud duz ehtiyatı olduğu hesablanıb qurtarmışdır... Yaxın gələcəkdə mədənlər Zaqafqaziya respublikalarının və yaxın qonşu ölkələrin sifarişlərini ödəyəcəkdir”.

1941-1950-ci illərdə Naxçıvan Muxtar Respublikasında sənayenin inkişaf sürəti 144%, Azərbaycanın orta göstəricisindən 39 faiz yüksək olmuşdur. Bu yüksəlişin içərisində təbii ki, duz sənayesinininkişafıda nəzərə çarpacaq dərəcəsində artmışdır. Ancaq 1941-1945-ci illər müharibəsi dövründə bütün Sovet İttifaqında olduğu kimi Naxçıvan MSSR-in də iqtisadiyyatı hərbi məqsədlər üçün qurulmuşdur. Bu dövrdə Muxtar respublikanın bütün sənaye müəssisələri məhsul istehsalını genişləndirərək ölkəni çox miqdarda yeyinti və yüngül sənaye məhsulları ilə təmin edirdi. Müharibənin ən ağır günlərində İranla dəmir və şose yolları ilə birləşən Naxçıvan MSSR SSRİ-nin xarici ölkələrlə ticarət əlaqələrinin genişlənməsində böyük rol oynamışdır.

1959-1965-ci illərdə muxtar respublikada duz sənayesinin inkişaf etdirilməsi üçün xüsusilə böyük işlər görülmüşdü. Bunun da nəticəsində parça duz istehsalı 2 dəfə, ümumi məhsul istehsalı isə 11,5 dəfə artmışdı. Duz mədənlərində elmi-texniki nailiyyətlərin tətbiqi, istər çıxarılan duzun məhsuldarlığını artırmağa, istərsə onun daşınma xərclərini azaltmağa imkan vermişdi. 1964-cü ildə parça duz istehsalı 70 min ton, ümumi məhsul isə 120 min ton olmuşdu (8, s. 44).

Heydər Əliyevin birinci hakimiyyətinin elə ilk aylarından respublikanın bütün regionları kimi, Naxçıvan Muxtar Respublikasının da sosial-iqtisadi həyatında ən yüksək inkişaf mərhələsinin əsasları qoyuldu. 1966-1970-ci illərdə muxtar respublikanın xalq təsərrüfatına əsaslı vəsait qoyuluşu 1961-1965-ci illərdə olduğuna nisbətən 4,8 dəfə çox idi. 1971-1975-ci illərdə isə xalq təsərrüfatına əsaslı vəsait qoyuluşu əvvəlki 46 il (1924-1970-ci illər) ərzindəki əsaslı vəsaitdən xeyli çox olmuşdur.

1985-ci ildə Azərbaycanda istehsal edilən daş duzun hamısı (118 min ton) Naxçıvanın payına düşürdü. Lakin sonrakı dövrlərdə ölkədəki ictimai-siyasi vəziyyət, xüsusilə 1988-ci ildən başlayaraq erməni - millətçilərinin Qarabağ ətrafında yaratdıqları fitnəkarlıq, Naxçıvana aramsız basqınları, keçmiş SSRİ-nin dağılması nəticəsində iqtisadi əlaqələrin pozulması, hərc-mərclik və s. amillər başqa regionlar kimi Naxçıvan iqtisadiyyatına da öz mənfi təsirini göstərdi.

Müstəqillik əldə etdikdən sonra, yəni Sovetlər birliyi devrildikdən sonra Azərbaycan Respublikası xarici iqtisadi siyasətini artıq özü müəyyən etməyə başladı və beynəlxalq iqtisadi münasibətlərdə müstəqil subyekti kimi məqsəd və maraqlarını formalaşdırmışdır. Bu məmləkətin Aiya və Avropanın kəsişməsində çox əlverişli şoğrafi mövqeydə yerləşməsi bu siyasətin uğurla həyata keçirilməsinə müsbət təsirini göstərmişdir.

Azərbaycan Respublikasının iqtisadi coğrafi rayonlaşdırılmasında Naxçıvan Muxtar Respublikasının ərazisi bütövlükdə ölkədaxili iqtisadi rayonlardan biri kimi qeyd olunur və özünün

çoxsahəli strukturu ilə fərqlənir. Belə ki, muxtar republikanın Azərbaycan Respublikasının mərkəzindən ayrı düşməsi, bunula əlaqəli burada yerli tələbatı müvafiq istehsal sahələri yaratmaq hesabına təmin etmək zərurəti ilə izah olunur. Naxçıvan Muxtar Respublikası son illərin makroiqtisadi göstəricilərinin yekun nəticələrinə görə inkişafda olan çoxsahəli saneyi və aqrar-sənaye respublikasıdır. Sənayedə yerli kənd təsərrüfatı məhsullarının emalı və faydalı qazıntı hasilatı xüsusi yer tutur. Xarici iqtisadi əlaqələrin müasir təhlili göstərir ki, Naxçıvanın tarixən İran və Türkiyə dövlətləri ilə tarixən əlverişli coğrafi mövqede olması iqtisadi əlaqələrin inkişafına müsbət təsir göstərmişdir. Bu əlaqələrin inkişafında təbii ehtiyatlar, xüsusən duz ehtiyatları əhəmiyyətli rol oynamışdır. Artıq Naxçıvan duz mədənlərində istehsal edilən məhsulların müxtəlif regionların istehlakçılarına göndərilməsi ənənə halına alınmışdır. Müstəqillik əldə etdikdən sonra, yəni Sovetlər birliyi devrildikdən sonra Azərbaycan Respublikası xarici iqtisadi siyasətini artıq özü müəyyən etməyə başladı və beynəlxalq iqtisadi münasibətlərdə müstəqil subyekti kimi məqsəd və maraqlarını formalaşdırmışdır. Bu məmləkətin Aiya və Avropanın kəsişməsində çox əlverişli şoğrafi mövqeydə yerləşməsi bu siyasətin uğurla həyat keçrilməsinə müsbət təsirini göstərmişdir. Lakin 1988-1993-cü illərdə bu sənaye müəssisəsinin də fəaliyyəti tamamilə dayanmışdır. 1993-cü ildən sonra Azərbaycanda yaradılan sabitlik və iqtisadi inkişaf yeraltı və yerüstü sərvətlərlə zəngin olan muxtar respublikamızın təbii resurslarından səmərəli istifadə olunmasına əlverişli şərait yaratmışdır. Duz mədənində tikinti-quraşdırma, yenidənqurma, təmir-bərpa, abadlıq işləri aparılmış, istismarı dayanmış və uzunluğu 1700 metr olan 1 nömrəli şaxta, eləcə də mövcud 2 duz emalı sexi müasir texnoloji avadanlıqlarla təmin edilməklə müəssisə yenidən qurularaq istifadəyə verilmişdir. 2005-ci ildə isə istehsal gücü gündə 7 və 20 ton olan 2 yeni duz emalı sahəsi tikilərək istehsala başlanmışdır. Burada bütün istehsal prosesi avtomatlaşdırılmış, paketləyici avadanlıq quraşdırılmışdır. Bu da hazır məhsulu 200, 250 və 500 qramlıq taralarda qablaşdırmağa imkan verir. 2010-cu ildə 3 ədəd rəqəmsal yodvuran, 2 ədəd tarixvuran və 1 ədəd duzpaketləyən avadanlıq alınıb quraşdırılmışdır. Əl əməyi yüngülləşdirilmiş, yüksəkkeyfiyyətli məhsul istehsalı ilə yanaşı, istehsal edilən məhsulun vaxtında sifarişçilərin ünvanlarına çatdırılması da təmin edilmişdir.

İstifadəyə verilən yeni istehsal sahələri Naxçıvanın duz yataqlarının istismarı tarixində qurulan ilk müasir istehsal sahələridir. Bu gün duz mədənində yeni texnoloji avadanlıqlarla təmin edilmiş 4 duz emalı sahəsi fəaliyyət göstərir. Gündəlik istehsal gücü 40-45 ton daşduz, 20-25 ton isə üyüdülmüş duz olan “Naxçıvan Duz İstehsalı” Məhdud Məsuliyyətli Cəmiyyətində 18 çeşiddə duz istehsal olunur və bu məhsullar məişətdə, heyvandarlıqda, kimya sənayesində istifadə edilir. Məişətdə istifadə edilən yodlaşdırılmış duz həm nəfis tərtibatla bəzədilmiş 0,5, 1 kiloqramlıq karton və plastik, həm də 0,2, 0,5 kiloqramlıq polietilen taralarda və 25 kiloqramlıq kisələrdə “Duzdağ” əmtəə nişanı ilə satışa çıxarılır.

80 nəfərin işlə təmin olunduğu müəssisənin ixrac potensialı ildən-ilə genişləndirilir. Xammalın çıxarılmasından satışa göndərilməsinədək bütün texnoloji proseslərə, istehsal olunan duzun keyfiyyətinə və sanitar-gigiyenik qaydalara ciddi əməl olunur. Müəssisədə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydiyyatdan keçmiş laboratoriya fəaliyyət göstərir. Bu da istehsal edilən duzun keyfiyyətinə tam nəzarət etməyə imkan verir. İstehsal prosesinin konveyer üsulu ilə təşkil edildiyi müəssisədə duz yeraltı partlayış üsulu ilə əsas kütlədən ayrılıb kiçik vaqonlara yüklənərək yerüstü sahəyə daşınır. Daşduz yerüstü sahədə çeşidləndikdən sonra emal sahələrinə gətirilir. Daşduz birinci sexdə 2 mərhələdə müxtəlif avadanlıqlarda əzilərək üyüdülüb hər ton duzun tərkibinə 85 qram yod əlavə edilməklə elevatorla ikinci sexə ötürülür. Burada isə ələkdən keçirildikdən sonra paketlənir. İstehsal olunan məhsulun taraları üzərində yod çatışmazlığının fəsadları ilə əlaqədar məlumat, duzun tərkibi, istehsal tarixi və yararlılıq müddəti göstərilir.

Daxili bazarı keyfiyyətli məhsullarla təmin etmək əzmi ilə çalışan kollektiv cari ilin ilk 6 ayında 3219,7 ton daşduz və 1615,4 ton üyüdülmüş duz istehsal etmişdir. Müəssisə tərəfindən 1392,2 ton daşduz və 1221,7 ton üyüdülmüş duz satılmışdır ki, bu da əvvəlki illə müqayisədə çoxdur. Keyfiyyət göstəriciləri ilə seçilən Naxçıvan duzunun ölkəmizin digər regionlarında da satışını təmin etmək məqsədilə Bərdə şəhərində baza yaradılmışdır. Müəssisənin balansındakı yük maşınları ilə duz bazaya daşınır, oradan da sifarişə uyğun ətraf rayonlarda fəaliyyət göstərən ticarət

obyektlərinə çatdırılır. Ümumilikdə, müəssisədə istehsal olunan daşduzun 88 faizi, narın duzun isə 58 faizi Bakı şəhərində və ölkəmizin digər regionlarında satışa çıxarılmışdır (10).

Bu ilin I yarısında Azərbaycandan 1 886,8 ton duz ixrac edilib. Bu, ötən ilkindən 2,7% çoxdur. Gömrük Komitəsinin məlumatına görə, yarım ildə duz ixracından 197,7 min dollar gəlir əldə edilib. Deyilən dövrdə duz idxalı 7 438 ton olub. 1 kq duz 0,15 dollara idxal edilir. Pərakəndə satışda xörək duzu və yodlu duz 0,30-1 manata (1 AZN- 1,27 dollar) satılır.

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin (2014) 7 ayında hasilat müəssisələri 18,1 min ton duz istehsal edib. Bu, 2013-cü ilin eyni dövründəkindən 6% çoxdur. Məhsulun çoxunu "Azərbaycan Duz İstehsalı Birliyi" QSC istehsal edir. Onun gücü ildə 90 min tondur. Bu, illik tələbat qədərdir. 2013-cü ildə Azərbaycanda 32 min ton yodsuz (+12%) və 27,7 min ton yodlu (+10%) duz istehsal edilib. Naxçıvan MR Statistika İdarəsinin məlumatına görə, 2013-cü ildə burda 6 268 ton yodsuz duz istehsal edilib. Bu, 2012-ci ildəkindən 1% çoxdur.

Bütün bunlara yekun vuraraq qeyd etmək lazımdır ki, Naxçıvanda duz ticarəti qədim dövrlərdən mövcud olmuş, müasir dövrdə də bu ticarət sürətlə yüksələn xətlə davam edir.

## ƏDƏBİYYAT


1. Baxşəliyev V., M. Catherine, Naxçıvan Duzdağının qədim duz mədənləri, Naxçıvan, Əcəmi, 2012, 80 s
2. Bağırov M. XX əsrin I yarısında Naxçıvan iqtisadiyyatı (1900-1940-cı illər) // Azərbaycan, tarixində Naxçıvan (tarixi oçerklər), Bakı, ADPU-nun mətbəəsi, 1996,
3. Əhmədov N. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 85 ildə "Naxçıvan", 2009, №19.-S. 145-169
4. Qəribov A. Naxçıvan Muxtar Respublikasının xarici iqtisadi əlaqələrində Duz ehtiyatlarının rolu, Naxçıvan, ilkin şəhər və Duzdağ (27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları), Naxçıvan, Əcəmi NPB, 2013, 346-350 s
5. Naxçıvan MDA f 63 siy. 1, ç. 13-3, v. 21
6. Rəhimov Y. Naxçıvan XIX əsr rus mənbələrində, Bakı, Elm və təhsil, 2014, 180 s
7. Rəhimov Y. XƏX əsrdə Naxçıvanda duz sənayesi (Rus mənbələri əsasında) // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2007, №3, s. 75-80
8. Sadıqov S. H. Naxçıvan Muxtar Respublikası tarixindən Bakı, 1995, 144 səh
9. Sokolskiy N. Materialı po izuçeniya Naxiçevanskoy SSR. İzd. II, Zak QİZ, Tiflis, 1933, 184 s.
10. http://serqqapisi.az/index.php/iqtisadiyyat/4769
11. http://www.president.az/articles/11356



NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru, professor* A.Rüstəmov



NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**



**ASƏF QƏRİBOV**

*Naxçıvan Dövlət Universiteti*

*Email: asafqaribov@yahoo.com*

**UOT:658**

# BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN LİBERALLAŞDIRILMASI VƏ İQTİSADİ ARTIM

**Açar sözlər:** *ticarət kapitalı, pul siyasəti, iqtisadi mexanizmlər, maliyyə bazarı, tranzit*

**Keywords:** *international trade, export politics, economical mechanisms, foreign connections, transit*

**Ключевые слова:** *международный торговля, экспортная политика, экономические механизмы,кредит, внешные отнощение, транзить*

Dünya təcrübəsinin təhlili göstərir ki, müasir dövrdə milli iqtisadi sistemin təşəkkülü və inkişafı prosesində qarşıya çıxan problemlərin uğurlu həlli əhəmiyyətli dərəcədə xarici iqtisadi əlaqələrin yaratdığı imkanlardan bacarıqla istifadə olunmasından asılıdır. Belə ki, xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsi, eləcə də dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyanın təmin olunmasına çalışılması postsosialist məkanında öz suverenliyini bəyan etmiş ölkələrin, o cümlədən Azərbaycan Respublikasının sosial-iqtisadi və regional siyasətinin əsas strateji prioritetlərini təşkil edir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev bütün bunları uzaqgörənliklə qiymətləndirərək göstərmişdir ki, heç bir dövlət öz iqtisadiyyatını dünyadan izolə etməklə inkişaf etdirə bilməz. Bizim strateji vəzifəmiz Azərbaycan iqtisadiyyatını dünya təsərrüfatı prinsipləri, inkişaf etmiş ölkələrin təcrübələri, müasir dünya təsərrüfat əlaqələri sisteminə fəal daxilolma nəticəsində islahatlar aparmaqdır. Ölkə iqtisadiyyatının beynəlxalq əmək bölgüsündə malik olduğu üstünlüklərin yaratdığı potensial imkanların maksimum dərəcədə reallaşdırılmasına nail olmaq üçün regional iqtisadi siyasət, o cümlədən məhsuldar qüvvələrin yerləşdirilməsinin təkmilləşdirilməsi və inkişafı siyasəti xarici iqtisadi fəaliyyət siyasəti ilə uzlaşdırılmalıdır.

İqtisadi ədəbiyyatlarda ölkənin iqtisadi açıqlıq səviyyəsi iki kriteriya ilə: institutusional və funksional kriteriyalarla qiymətləndirilir. Funksional baxımdan açıqlıq milli iqtisadiyyatın beynəlxalq əmək bölgüsündə iştirakı səviyyəsini, başqa sözlə, milli təkrar istehsal prosesinin xarici iqtisadi əlaqələrdən asılılıq dərəcəsini göstərir. Bu dərəcə istehsal, mübadilə, bölgü prosesinin normal həyata keçirilməsi üçün ÜDM-in xarici ticarət dövriyyəsi vasitəsilə yaradılan hissəsi ilə müəyyən edilir. Praktikada funksional açıqlıq ixrac, idxal və xarici ticarət dövriyyəsinin ÜDM-də xüsusi çəkisi göstəriciləri ilə ölçülür. İnstitutisonal açıqlıq isə ölkənin ticarət və valyuta rejiminin liberallaşdırılması səviyyəsi ilə müəyyən edilir. O ölkənin iqtisadiyyatı açıq hesab olunur ki, milli iqtisadi subyektlər dünya bazarına çıxdıqda və xarici iqtisadi subyektlər isə yerli bazara daxil olduqda daha az sayda məhdudiyyətlərlə üzləşirlər. Milli iqtisadiyyatın açıqlıq dərəcəsinin yüksək olmasının mənfi və müsbət cəhətləri var. İqtisadiyyatı daha açıq olan, azad ticarət siyasəti həyata keçirən ölkələrə modern texnika və texnologiya, maşın və avadanlıq, müasir idarəetmə üsulu, maliyyə resursları cəlb edilməsi genişlənir(1, s. 146).

Beynəlxalq rəqabətin artması daxili bazarda daha müasir və çevik müəssisələrin yaranmasına, iqtisadiyyatda perspektivli sahələrin inkişafına və bütövlükdə iqtisadiyyatda səmərəliliyin yüksəlməsinə səbəb olur. Bununla da xalis ixrac artır, daxili bazar genişlənərək ölkənin beynəlxalq aləmdə mövqeyi möhkəmlənir. Bütün göstərilənlərlə yanaşı belə bir fikir də mövcüddur ki, əsasən iqtisadiyyatı inkişaf etməmiş və bazar iqtisadiyyatına keçid ölkələrində açıqlıq dərəcəsi iqtisadi təhlükəsizlik baxımdan qiymətləndirilməlidir. Belə ki, həmin ölkələrdə açıqlıq dərəcəsinin yüksək olması transmilli kompaniyaların dövlətin iqtisadi və siyasi fəaliyyətinə müdaxiləsinə, maliyyə və pul sisteminin qeyri sabit olmasına, ölkə iqtisadiyyatının dünya bazarının konyuktura vəziyyətindən asılılğına gətirib çıxarır. Bütün bunlar əsas götürülərək və eyni zamanda yerli istehsalçıları daxili bazarda xarici rəqabətdən qorumaq məqsədilə bəzi ölkələrdə proteksianist siyasəti həyata keçirilir. Ancaq bütün təhlükələrə baxmayaraq hazırda dünya iqtisadiyyatında liberallaşma, iqtisadiyyatın sərbəstləşdirilməsi, xarici iqtisadi əlaqələrin inkişafına mane olan iqtisadi və inzibati məhdudiyyətlərin aradan qaldırılması prosesləri çox sürətlə gedir və dönməz xarakter alır. “Soyuq müharibə” bitdikdən və sosialist təsərrüfat sistemi iflasa uğradıqdan sonra dünyada tamamilə proteksionist siyasəti aparan ölkələr demək olar ki qalmayıb. XXI əsrin əvvəllərində yalnız Kuba və

Şimali Koreya iqtisadi cəhətdən "qapalı" qalıb ki, bunun da əsas səbəbi həmin ölkələrin dünyanın aparıcı ölkələri tərəfindən siyasi blokadaya alınmasıdır. Müasir dövrdə dünyanın əksər ölkələri liberal iqtisadi inkişaf modellərinə üstünlük verirlər və aparılan elmi araşdırmalar da bu siyasətin daha düzgün və iqtisadi cəhətdən əhəmiyyətli olduğunu sübut edir.

Açıq iqtisadi siyasət modeli istər daxildə, istərsə də ölkədən kənarda iqtisadi fəaliyyətin liberallaşdırılmasını nəzərdə tutur. Yəni xarici iqtisadi əlaqələrdə liberallaşma daxili iqtisadi sferada azad iqtisadi münasibətlərin yaradılması, mülkiyyət hüququnun qorunması və dövlətin iqtisadiyyata inzibati yolla müdaxiləsinin ləğv olunması fonunda həyata keçirilə bilər. Bu proseslər biri biri ilə əlaqəlidir və dünya təcrübəsində elə bir hal yoxdur ki, daxili iqtisadi sferada liberallaşma həyata keçirən bir ölkə xarici iqtisadi fəaliyyətdə proteksianizm tətbiq etsin və ya əksinə. Əsas məsələ dövlətin iqtisadiyyata müdxiləsinin metodları və səviyyəsidir. Hələ A. Smit "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" kitabında yazırdı ki, ölkənin və oradan yaşayan əhalinin çiçəklənməsi üçün yaxşı qanunlar, yüngül vergilər və sülh lazımdır. Həmçinin orada iqtisadi siyasətin əsas qaydası verilib: əgər dövlət nə qədər az iqtisadi fəaliyyətlə məşğul olursa iqtisadiyyat bir o qədə çox inkişaf edir. A. Smit göstərib ki, dövlətin 3 əsas vəzifəsi var: Ölkənin təhlükəsizliyinin təmin olunması. 2. Ədalətin qorunması. 3. Özəl sektorun fəaliyyət göstərə bilmədiyi yerlərdə dövlət yatırımlarının həyata keçirilməsi. Müasir nəzəriyyələrdə bu vəzifələr bir az da genişləndirilib (Heitger, 2001): 1. Təhlükəsizliyin və ictimai asayişin qorunması 2. Beynəlxalq müdafiə 3. Təhsil 4. Nəqliyyat və rabitə 5. Ətraf mühitin qorunması və sağlamlıq(2, s.32).

Dövlətin iqtisadi proseslərə müdaxiləsinin əsas iqtisadi səbəbi kimi iqtisadiyyatda baş verən qeyri proporsionallığın aradan qaldırılması, məhsul istehsalında və bölgüsündə iştirak edərək sosial rifahın təmin edilməsi göstərilir. Təməl funksiyalar çıxmaq şərti ilə dövlət iqtisadiyyata yalnız bazar prinsipləri yetərsiz olduğunda müdaxilə etməlidir. Ancaq qeyd etməliyik ki, açıq iqtisadi siyasət dedikdə, dövlətin xarcici iqtisadi əlaqələri tənzim etməsindən tamamilə əl çəkməsindən söhbət getmir, əsas mübahisə bu tənzimləmənin sərhədləri barədədir. Keçid iqtisadiyyatlı ölkələrdə isə bu tənzimlənmənin nə vaxta kimi həyata keçirilməsi müzakirə mövzüsudur. ÜTT təşkilatına qoşularkən də, keçid iqtisadiyyatlı ölkələr üçün idxal tariflərinin azaldılması və ixracın subsidiyalaşdırılmasının aradan qaldırılması üçün digər ölkələrdən fərqli olaraq müəyyən vaxt ayrılır(3, s. 78).

A.Smitdən başlayaraq iqtisadçıların əksəriyyəti azad ticarətin tərəfdarı olublar. 19-cu əsrin ikinci yarısından başlayaraq demək olar ki, əksər iqtisadçılar, əsasən də klassık məktəbin bütün nümayəndələri azad ticarətin ölkə üçün daha çox fayda gətirdiyi qənaətinə gəliblər. Onlar göstəriblər ki, ticarət partnyorlarının hansı siyasət həyata keçirməsindən asılı olmayaraq azad ticarət ölkəyə beynəlxalq əmək bölgüsündən maksimum fayda əldə etməyə imkan verir. Azad ticarət siyasətinin həyata keçirilməsi, müxtəlif ölkələrdə istehsalın səmərililiyinin fərqli olmasına baxmayaraq, qarşılıqlı ticarət aparan bütün ölkələr üçün faydalı olacaq. Hətta bütün digər ölkələr proteksianist siyasət yeritsələr də, azad ticarət daha əlverişlidir və proteksianizmin ölkə üçün hansısa fayda gətirəcəyi barədə mövcüd olan elə bir şərt yoxdur. Sərbəst ticarət nəticəsində, bərabər gəlir əldə etməsələr belə bütün ölkələr udurlar. Ancaq ölkə daxilində sərbəst ticarət bəzi iqtisadi subyektlərə zərbə vurur. Ona görə də, az effektli və rəqabətə davam gətirməyən yerli müəssisələr istər daxili bazarda, istərsə də dünya bazarında heç bir müqayisəli üstünlüyə malik olmadıqlarına görə dövlətdən kömək gözləyirlər və həmişə proteksianizmin genişləndirilməsini istəyirlər. Bu baxımdan dövlətin xarici ticarəti məhdudlaşdırmaq, yəni proteksionizm siyasəti həyata keçirməsi sayəsində həmin iqtisadi subyektlər üstünlük əldə edirlər və bu da nəticədə iqtisadiyyatda ümumi səmərəliliyi aşağı salır.

Müasir ticarət nəzriyyələri də öz baxışları ilə sələflərindən elə də fərqlənmirlər. Onların fikrincə, sərbəst ticarətin ən böyük üstünlüyü iqtisadiyyatda səmərəliliyin artırılmasıdır. 20-ci əsrin ortalarından sonra isə dünya iqtisadi məktəbində geniş yayılmış emprik və riyazi araşdırmalarda azad iqtisadi siyasətin əhəmiyyəti göstərilməklə yanaşı, iqtisadi artım və ölkə daxilində iqtisadi azadlıq, iqtisadi açıqlıq səviyyəsi arasında birbaşa əlaqə olduğu barədə əsaslandırılmış fikirlər irəli sürülür. Skalli (Scully 1988; Scully 1992), Barro (Barro 1991), Barro və Sala-Martini (Barro, Sala-

I-Martin 1995), Nek və Kifer (Knack, Keefer 1995), Nek (Knack 1996), öz araşdırmalarında belə nəticəyə gəlirlər ki, iqtisadi artımın əsas amilləri sırasına mülkiyyət hüququnun dəqiq müəyyən edilməsi və bu hüquqların qorunması, qanunların aliliyi və dövlət siyasəti də daxildir. Gvartni, Holkomb və Louson (Gwartney, Holcombe, Lawson 1998) İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) üzvü ölkələri və dünyanın daha 69 ölkəsində apardıqları empirik araşdırma nəticəsində belə qənaətə gəliblər ki, dövlət xərcləri ilə ÜDM arasında neqativ asılılıq mövcüddur. Belə ki, dövlət xərclərinin ÜDM-də xüsusi çəkisinin 10% artması ÜDM-in 1% azalmasına səbəb olur.

Bundan başqa keçən əsrin 90-cı illərində Rusiyanın İqtisadi Tədqiqatlar İnstitutunun əməkdaşlarının 50 ölkədə 1913-1998-ci illəri əhatə edən iqtisadi inkişaf göstəricilərini təhlil edən tədqiqatlarında belə bir nəticəyə gəlinib ki, liberal iqtisadi siyasət aparan, dövlət xərclərinin və büdcə kəsirinin aşağı olduğu ölkələrdə daha çox iqtisadi artım baş verir. Əksinə iqtisadiyyatda dövlətin təsiri daha çox olan ölkələrdə iqtisadi artım tempi zəifdir.

XX əsrin son 20 ilinin statistik təhlili isə göstərir ki, dünyada beynəlxalq inteqrasiya prosesləri ən yüksək həddə çatdığı bir dövrdə iqtisadi açıqlıq dərəcəsi yüksək olan ölkələrdə iqtisadi stabillik daha möhkəmdir. Bu dövrdə iqtisadiyyatı nisbətən qapalı ölkələrdə ÜDM-in orta illik artım tempi 0,7%, açıq iqtisadiyyatlı ölkələrdə isə 3.2% olmuşdur.

Xarici iqtisadi əlaqələrin liberal olması və iqtisadi artım arasındakı empirik əlaqə ilə bağlı ən maraqlı tədqiqatlardan biri də J.Lowson və R.Block tərəfindən aparılıb. "1975-1995-ci illərdə dünyada iqtisadi azadlıq" hesabatında xarici iqtisadi əlaqələri məhdudlaşdıran göstəricilərdən biri – idxal və ixraca tətbiq edilən vergilərin məbləğinin ümumi xarici ticarət dövriyyəsində xüsusi çəkisi ilə adambaşına düşən iqtisadi artım tempi arasında əlaqə təhlil edilib. 101 ölkə arasında aparılmış statistik araşdırmalar nəticəsində maraqlı göstəricilər əldə olunub. Araşdırmalar nəticəsində müəyyən olunub ki, xarici ticarət əməliyyatlarına tətbiq edilən vergi yükü minimal dərəcə ilə (6%-dən aşağı) adambaşına düşən iqtisadi artım tempi ən yüksək səviyyədə olur (illik 2,2%). Bu göstəricilərin artması ilə iqtisadi artım tempi azalmağa başlayır. Maksimal vergi yükündə isə bu göstərici ən aşağı səviyyədə olur (illik 0,2%). Digər tərəfdən iqtisadi artımın mənfi tempi (-1,2%) idxal və ixraca vergi yükünün ən yuxarı səviyyədə olduğu ölkələr qrupunda baş verir (8,8%). Əksinə iqtisadi artımın ən yüksək tempi (2,5%-dən yuxarı) vergi yükü aşağı olan ölkələrdədir.

Ümumiyyətlə, müasir dövrün iqtisadçılarının əksəriyyəti dayanıqlı iqtisadi inkişafa nail olmaq, iqtisadiyyatda səmərəliliyi yüksəltmək üçün ən mühüm məsələlərdən biri kimi, istər daxili, istərsə də xarici iqtisadi fəaliyyət sferasında liberallaşmanın və məhdudiyyətlərin aradan qaldırılmasını göstərirlər. Məsələn, 1984-cü ildə müxtəlif ölkələrin iqtisadçıları arasında aparılan sorğuların nəticələri göstərib ki, ABŞ-da sorğuda iştirak edən 95% iqtisadçılar və ABŞ, Avstriya, Fransa, Almaniya və İsveçrədə 88% iqtisadçılar təsdiq edirlər ki, rüsumlar və idxal kvotaları ümumi iqtisadi rifahı aşağı salır(4, s. 143).

Xarici iqtisadi əlaqələrin əhəmiyyəti və azad iqtisadi siyasətin həyata keçirilməsi dünya ölkələrinin təcrübəsində də özünü göstərib. Məsələn 2001-ci il "Dünyada iqtisadi azadlıq" hesabatında göstərilir ki, son 10 ildə ABŞ iqtisadiyyatında artımın ¼-i ixracın hesabına əldə olunub. ABŞ-da 12 mln iş yeri bilavasitə ixracatdan asılıdır ki, bu sahədə çalışanların əmək haqqı ölkə üzrə orta əmək haqqından təqribən 13-18% çoxdur. Həmçinin belə bir iqtisadi qanunauyğunluq var ki, 1 mlrd dollarlıq ixrac əlavə 20 min iş yeri yaradır. İdxalın artması iş yerlərinin bağlanması və yerli istehsalçıların iflasa uğramasına səbəb olacağı fikirlər də yanlışdır. Əksinə proteksianist tədbirlər iş yerlərinin bağlanmasına səbəb olur. Məsələn 80-ci illərin ortalarında ABŞ daxili parça istehsalçılarını rəqabətdən qorumaq üçün proteksianist tədbirlərə əl atdı. Nəticədə yüngül sənayedə iş yerlərini qoruyub saxlamaq mümkün olsa da ( orta hesabla ildə 15-20 min dollarlıq əmək haqqı), ticarət sahəsində iş yerlərinin kütləvi bağlanmsaına səbəb oldu (orta hesabla illik 50 min dollarlıq əmək haqqı). Ümumiyyətlə idxal vergilərinin artırılması sonda istehlakçılar tərəfindən ödənilir və iqtisadiyyatda qeyri səmərililiyi artırır.

Əgər inkişaf etmiş ölkələrdə sənaye mallarının idxalına tətbiq edilən vergilər orta hesabla 8% təşkil edirsə inkişaf etməkdə olan ölkələrdə 21%-dir. Avtomobil idxalına tətbiq edilən vergilər inkişaf etməkdə olan ölkələrdə inkişaf etmiş ölkələrə nisbətən təqribən 2 dəfə çoxdur. Bunun əksinə

olaraq Atlas metodu ilə hesablanmış adambaşına düşən milli gəlir inkişaf etmiş ölkələrdə inkişaf etməkdə olan ölkələrə nisbətən 25 dəfədən çoxdur.

Bütün yuxarıda qeyd olunanları ümumiləşdirərək qeyd etmək lazımdır ki, azad iqtisadi ticarət siyasətin həyata keçirilməsinin əsas üstünlükləri aşağıdakılardır :

1. Yeni iş yerlərinin yaradılması, iqtisadiyyatda ÜDM-in artım tempinə nail olmaq, əhalinin həyat səviyyəsini yüksəltmək üçün ölkə iqtisadiyyatına geniş miqyaslı xarici investisyaların cəlb edilməsi üçün əlverişli investisiya mühitinin formalaşdırılması.

2. Milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiyası, ölkənin beynəlxalq təşkilatlara və ittifaqlara qoşulma üçün əlverişli iqtisadi mühitin yaradılması.

Son nəticədə qeyd edilməlidir ki, Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyasında xarici iqtisadi fəaliyyətin tarif və qeyri-tarif tənzimlənməsi xüsusi qarşılıqlı əlaqədə götürülməli və təhlil edilməlidir. Müxtəlif ölkələr tərəfindən də bu məsələ müxtəlif istiqamətdə həll edilir. Lakin dünya iqtisadiyyatına inteqrasiya dövlətlərarası əməkdaşlığın genişləndirilməsi üzrə fritrederçilik siyasətinin formalaşdırılması və daha da inkişafını nəzərdə tutsa da, milli iqtisadiyyatın inkişafı və onun müdafiəsi xüsusi vurğulanmalıdır.

## ƏDƏBİYYAT

1. Kərimov C.H.,Orucov A.A.,İsrafilov H.A.Dünya iqtisadiyyatı.Bakı, Nurlan,2007, 726 s
2. Index of Economic Freedom, 2001 // The Heritage Foundation,The Wall Street Journal, 2001
3. Azərbaycan rəqəmlərdə 2010, Bakı , 2010
4. Илларионов А. Как Россия потеряла XX столетие. Вопросы экономики, 2000, №1, с. 17
5. www.referat.ru

## ABSTRACT

**Asaf Qaribov**

**Liberalization of foreign economic relatios and the role of economic growth**

Development is investigated of the international commercial relations of Azerbaijan historical and stages, basic principles of forming of the export politics in the article. The economy created an international division of labor in which the potential benefits of regional economic policy to achieve maximum implementation, including the development of productive forces and the deployment policy should be consistent with the policy of foreign economic activity. Rules accepted in the international level with special, existing mechanisms and equitable partner have been shown stages of the being.The issue is solved in different directions by different countries. However, integration into the world economy on the expansion of bilateral relations and the further development of practical policy designed however, the development of the national economy and its protection is highlighted. Existing situation of the connections and perspectives of development have been analysed with Azerbaijan between world countries.

## РЕЗЮМЕ

**Асаф Гарибов**

**Экономический рост и либерализация Внешнеэкономической деятельности**

В статье расматривается история развитии международные торговые отношении и основные принципы, этапы формировании экспортный политики Азербайджана. Экономика

Азербайджана является частью мировой экономики и не может успешно развиваться в отрыве от него. Экономика создали международное разделение труда, в которых потенциальные выгоды от региональной экономической политики для достижения максимальной реализации, в том числе развития производительных сил и политики развертывания должны быть согласованы с политикой внешнеэкономической деятельности.Вопрос решается в разных направлениях разных стран.Тем не менее, интеграция в мировую экономику по расширению двусторонних отношений и дальнейшего развития практического политики, направленной однако, развитие национальной экономики и ее защита будет выделен.Главной задачей внешне-экономических связей Азербайджана является создание благоприятных внешных экономических условий для расширенного воспроизводства внутри страны, чтобы обеспечить высокую конкурентоспособность внешнем рынке и повысить экономическую эффективность экспорта.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru, professor* A.Rüstəmov

*Naxçıvan Dövlət Universiteti*
*E-mail:baqirovismayil@mail.ru*

**UOT:332.1**

# VERGİ SİSTEMİNİN İNVESTİSİYALARA VƏ SOSİAL İQTİSADİ İNKİŞAFA TƏSİRİ

**Açar sözlər:** *vergi sistemi, investisiya, vergi qanunvericiliyi, vergi tənzimlənməsi, vergi islahatları*

**Key words:** *the tax system, investment, tax laws, tax regulations, tax reforms*

**Ключевые слова:** *налоговая система, инвестиционные, налоговые законы, налоговые правила, налоговые реформы*

Uzun illər respublikamız keçmiş sovet dövlətinin tərkibində olduğundan özünün müstəqil vergi sistemi olmamış, buna görə də müstəqil vergi siyasəti yeridə bilməmişdir. 1991-ci ildə siyasi və iqtisadi müstəqillik əldə etdikdən sonra hər bir sahədə olduğu kimi məhz vergi sisteminin təkmilləşdirilməsi ilə əlaqədar da müvafiq islahatlar aparılmışdır. Bu islahatlar vergi qanunvericiliyimizin yaradılması, vergi sisteminin struktur tərkibinin yaradılması ilə bağlı islahatlardır.

Müstəqilliyimiz bərqərar olduqdan sonra vergi sisteminin qanunvericilik bazasının təşkili ilk olaraq Azərbaycan Respublikasının konstitusiyası təsdiq edildikdən və qüvvəyə mindikdən sonra başlamışdır. 1995-ci ildən qanunvericilik sahəsində islahatlar başladı. 2000-ci ildə Azərbaycan Respublikasının Vergi Məcəlləsi təsdiq edildi və buna uyğun olaraq bir sıra qanunvericilik aktları və qanunlar qəbul edilməsi hesabına sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə və investitsiyaların inkişafına hüquqi baza yaradıldı. [10].

Müasir Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifə ölkənin sosial iqtisadi inkişafını təmin etməkdir. Bunun üçün isə dövlət ölkənin əmək və təbii resurslarını nəzərə almaqla özünün maliyyə və onun tərkib hissəsi olan vergi strategiyasını işləyib hazırlamışdır. Bu vergi strategiyasını həyata keçirərkən respublikamızın vergi sisteminin təkmilləşməsi və sosial iqtisadi inkişafa nail olmaq üçün vergilərin sayının azaldılması, vergi dərəcələrinin aşağı salınması və vergi güzəştlərinin tətbiqi  hesabına investitsiyaları stimullaşdırmaq mühüm əhəmiyyət kəsb edir.

Hazırda Azərbaycan Hökuməti ölkədə iqtisadi islahatların davam etdirilməsi, investitsiya mühitinin daha da yaxşılaşdırılması, neft sektoru ilə bərabər, qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı tədbirlər həyata keçirir. Məlum olduğu kimi, investitsiyaların cəlb edilməsinin ən mühüm şərtlərindən biri vergi sistemi ilə bağlıdır. Buna görə də investitsiyaları stimullaşdırmaq üçün  vergi münasibətlərini tənzimləyən bir sıra Qanunlar qəbul edilmiş və qüvvədə olan Qanunlara əlavə və dəyişikliklər edilməsi mühüm əhəmiyyət kəsb edir çünki investisiya qoyuluşları vasitəsilə respublikada iqtisadiyyatın yüksək inkişafına nail olmaq olar. [2].

İnvestisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsində əsasən vergi sistemindən istifadə edilir. Vergi sistemi vasitəsi ilə tənzimləmədə əsasən vergitutma subyektlərinin və obyektlərinin, vergi dərəcələrinin və güzəştlərinin fərqləndirildiyi vergi sisteminin tətbiqi nəzərdə tutulur. Bu baxımdan“Vergi sisteminin investisiyalara və sosial iqtisadi inkişafa təsiri” mövzusu bu gün olduqca aktual bir məsələdir.

Məlum olduğu kimi, hər hansı bir istehsal və sosial sahələrinin yaradılması, yenidən qurulması, genişləndirilməsi və beləliklə, məşğulluğun təmin edilməsi müvafiq investisiya qoyuluşlarını və ondan daha səmərəli istifadə edilməsini tələb edir. Bunun üçün də respublikamızda həyata keçirilən vergi siyasətinin əsas istiqamətlərindən biri də əlverişli vergi mühitinin yaradılması vasitəsilə xarici investorların ölkəyə cəlb olunmasıdır. Bu məsələ ilə əlaqədar Azərbaycan Respublikası tərəfindən bir sıra beynəlxalq müqavilələr bağlanmışdır. Bu müqavilələr əsasən investisiyaların təşviqi və qorunması, gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması, nəqliyyat daşımalarını və kredit sazişlərini əhatə edir. Ölkəmizin vergi sistemində aparılan bu islahatlar nəticəsində yaradılmış əlverişli vergi mühiti son illərdə xarici vergi ödəyicilərinin sayının artmasına, xarici investorların iqtisadiyyata axınının xeyli güclənməsinə

səbəb olmuşdur.[8]

Bazar iqtisadiyyatı şəraitində vergilər ənənəvi fiskal vasitəsindən daha çox sosial iqtisadi proseslərin tənzimlənməsi alətinə çevrilir. Belə ki, vergi tənzimlənməsi təkrar istehsal prosesində sistemləşdirici, bölüşdürücü və nəzarətedici funksiyanı yerinə yetirir. Vergi tənzimlənməsi demək olar ki, iqtisadiyyatda dövlət müdaxiləsinin bütün sferalarını əhatə edir. Hər hansı bir dövrdə müvafiq vergiqoyma sistemi tətbiq etmək və yaxud da onu təkmilləşdirmək, vergi dərəcəsini müəyyənləş-dirmək, onun quruluşu və formasını dəyişmək, alınan vergiləri diferensiallaşdırmaq, dövlətin iqtisadi siyasətindən asılı olmayaraq vergi güzəştləri qoymaq, ləğv etmək, vergi borcunun müddətini uzatmaq və ya tamam ləğv etmək və s. bu kimi tədbirlər verginin tənzimlənmə funksiyasının əsas istiqamətləridir. Dövlət bu vasitələrdən istifadə edərək əsaslı vəsait qoyuluşunu stimullaşdırır və ya məhdudlaşdırır, habelə əhalinin həyat səviyyəsinin formalaşmasına mühüm təsir göstərir [4].

Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda sahibkarlar təbəqəsi formalaşmış, özəl sektorun ölkənin sosial-iqtisadi inkişafında rolu daha da artmışdır. Vergi Məcəlləsində əlavə dəyər vergisinin dərəcəsi son illərdə azaldılaraq 20 faizdən 18 faizə, hüquqi şəxslərin mənfəət vergisi 22 faizdən 20 faizə endirilmiş, hüquqi şəxslərlə fərdi sahibkarlar arasında vergi yükünün bərabərləşdirilməsi məqsədilə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin gəlir vergisinin dərəcəsi də 20 faiz səviyyəsində müəyyən edilmiş, fiziki şəxslərin aylıq gəlirindən və qeyri-sahibkarlıq fəaliyyəti üzrə illik gəlirdən tutulan verginin dərəcəsinin yuxarı həddi 35 faizdən 25 faizə endirilmiş, ƏDV məqsədləri üçün qeydiyyata alınmamış və ardıcıl 12 aylıq dövr ərzində vergi tutulan əməliyyatların həcmi 120 000 manat və ondan az olan hüquqi şəxslər, və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər sadələşdirilmiş vergi ödəyicisi hüququna malik olmuş, ƏDV və aksizlər üzrə elektron vergi hesab-fakturalarının tətbiqinə başlanılmışdır. Eyni zamanda kənd təsərrüfatı məhsullarının istehsalından əldə edilən gəlirlərin vergidən azad edilməsi, xüsusi növ vergi rejimlərinin, o cümlədən kiçik biznesin inkişafı üçün sadələşdirilmiş vergi sisteminin tətbiqi, Bakı şəhəri ilə müqayisədə regionlarda sadələşdirilmiş verginin aşağı dərəcə ilə tətbiq edilməsi, regionlarda kiçik biznes obyektlərinin rəqabət qabiliyyətinin artırılması, regional inkişafın və regionlarda məşğulluq probleminin həll edilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi investisiya fəaliyyətinin tənzimlənməsi istiqamətində həyata keçirilən tədbirlərin bariz nümunəsidir. Ümumilikdə götürdükdə, Azərbaycanda artıq iqtisadi sabitlik yaranmış, investisiya mühitini yaxşılaşdıran fiskal siyasət formalaşmışdır [6].

Aparılan islahatların davamı olaraq Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 21 dekabr 2012-ci il tarixli Qanunu və bu qanunun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə İnnovasiyalı iqtisadi sistemin qurulması üçün böyük əhəmiyyət kəsb edən sənaye və texnologiyalar parklarının yaradılmışdır və bu parklarda fəaliyyət üçün vergi güzəştlərinin tətbiqini qeyd etmək olar. Qeyd olunan Qanunla sənaye,yaxud texnologiyalar parkında fəaliyyət üçün əsaslı vergi güzəştləri nəzərdə tutulmuşdur.

2013-cü ilin 1 yanvar tarixindən qüvvəyə minmiş bu Qanuna görə müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parkının rezidenti olan fərdi sahibkarlar və hüquqi şəxslər sənaye,yaxud texnologiyalar parkında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq müvafiq olaraq bu parklardakı fəaliyyətdən əldə etdikləri gəlir və mənfəət vergisindən,parkda yerləşən əmlaka görə əmlak vergisindən, parkın ərazisində istifadə etdikləri torpaqlara görə torpaq vergisindən 7 il müddətinə azad edilirlər.[8]

Müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye və texnologiyalar parkının idarəedici təşkilatının və ya operatorunun mənfəətinin sənaye və texnologiyalar parkının infrastrukturunun tikintisinə və saxlanılmasına yönəldilmiş hissəsi mənfəət vergisindən azad olunmuşdur.

Sənaye və texnologiyalar parkımn infrastrukturunun, istehsal sahələrinin yaradılması və tikintisi, habelə elmitədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi məqsədilə sənaye və texnologiyalar parkının idarəedici təşkilatı və ya operatoru tərəfindən müvafiq icra hakimiyyəti

orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı ƏDV-dən azad edilmişdir.

Sənaye və texnologiyalar parkında istehsal sahələrinin tikintisi, elmi-tədqiqat və təcrübə konstruktor işlərinin görülməsi və istehsal məqsədilə parkın rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasmda idxal olunan texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı - rezidentin sənaye və texnologiyalar parkında qeydiyyata alındığı tarixdən 7 il müddətinə ƏDV-dən azad edilmişdir. [8].

Sənaye və Texnologiyalar Parkının yaradılması və bu parkda fəaliyyətin təmin edilməsi üçün tələb olunan əsas vəsaitlərin alınmasının ƏDV-dən azad edilməsi innovativ fəaliyyətin maliyyə tutumunu azaltmaqla belə investisiyaların maliyyə və inflyasiya risklərinin xeyli yumşaldılması və beləliklə, sahibkarların bu istiqamətdəmotivasiyasının əhəmiyyətli dərəcədə dəstəklənməsi üçün geniş imkanlar açır.

Vergi sistemi investitsiyaların artmasında və azalmasında mühüm rol oynayır və social-iqtisadi inkişafın yüksəlməsinə təsir edə bilir.Vergi sistemi sosial-iqtisadi baxımdan böyük əhəmiyyət kəsb edən problemləri həll etmək üçün tələb olunan pul vəsaitlərinin yığım forması olan büdcəni formalaşdırmağa imkan verir. Bazar iqtisadiyyatı şəraitində vergi siyasəti maliyyə bazarının sabitləşdirilməsinə, həmçinin dövlətin öz funksiyalarını həyata keçirə bilməsi üçün maliyyə təminatına xidmət edən alət rolunu oynayır. Odur ki, bu alətdən düzgün və məqsədyönlü şəkildə istifadə olunması, vergi siyasətinin dövlət büdcəsinə real təsirinin müəyyən edilməsi hazırkı şəraitdə böyük əhəmiyyət kəsb edir.

İnvestisya ölkə iqtisadiyyatı üçün o zaman səmərəli hesab edilə bilər ki, o iqtisadiyyatın aparıcı sahələrinə yönəldilsin. İnvestisiyanın ölkə iqtisadiyyatına həddən çox tətbiq edilməsi iqtisadiyyatın gərgin vəziyyətdə olamasına və inflyasiyaya səbəb ola bilər. Amma investisiyanın tələbdən az olması da deflyasiya ilə nəticələnər. Deməli investisiya iqtisadiyyata lazımı qaydada və miqdarda tətbiq edilməlidir [3].

Ölkəmizdə tətbiq edilən vergi sistemi, yaradılmış vergi mühiti son illərdə xarici investorların sayının artmasına səbəb olmuşdur. İnvestisiyaların cəlb edilməsi sahəsində dövlət tərəfindən aparılan məqsədyönlü tədbirlər çərçivəsində Azərbaycan İnvestisiya Şirkətinin fəaliyyəti genişləndirilmiş, qeyri-neft sektoruna xarici investisiyaların cəlb olunması və ixracın təşviqi məqsədilə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu yaradılmışdır. Müasir dövrdə bu istiqamətdə ölkə iqtisadiyyatında əhəmiyyətli keyfiyyət dəyişiklikləri aparılır.Belə ki, əsas investisiya siyasətinin formalaşmasına diqqət daha da artırılır. İnvestisiya siyasətinin ən mühüm vəzifəsi mövcud ehtiyatlardan səmərəli istifadə etməklə, vəsaiti elmi-texniki tərəqqinin sürətləndirilməsini təmin edən sahələrin xeyrinə yenidən bölüşdürməkdən ibarətdir.

Sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı və Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılması “bir pəncərə” prinsipinə uyğun təşkil edilmişdir. Özəl sektorun inkişafının sürətləndirilməsi, bu sahəyə maliyyə dəstəyinin daha da gücləndirilməsi məqsədilə dövlət vəsaitləri hesabına sahibkarların investisiya layihələrinin güzəştli qaydada kreditləşdirilməsinin daha effektiv mexanizmi formalaşdırılmışdır. [9].

Azərbaycanda həyata keçirilən vergi islahatlarının əsas məqsədi xarici və daxili iş adamları, investorlar üçün eyni səviyyəli vergi mühiti yaratmaqdan ibarətdir. İnvestisiya fəaliyyətinin vergi imtiyazı amortizasiya siyasəti ilə sıx əlaqədədir ki, bu da istehsal potensialının daha intensiv yeniləşdirilməsinə istiqamətləndirilmiş-dir.Təsərrüfat subyektlərinin xüsusi investisiya istehsal resurslarına amortizasiya ödənişlərinin əhəmiyyətini artırmaq üçün fikrimizcə, mövcud amortizasiya normalarına yenidən baxılmasını sürətləndirmək və onun yeni üsullarının tətbiqini genişləndirmək məqsədəuyğundur. Həyata kecirilən bu islahatlar nəticəsində ölkədə iqtisadiyyatın müxtəlif sahələrinə cəlb olunan ümumi investisiyaların strukturunda əhəmiyyətli dəyişikliklərin baş verdi məhz bundan sonra - dövlətin maliyyə imkanlarının artması nəticəsində daxili investisiyaların həcmi xaricini ilbəil üstələməyə başladı.Statistik məlumatlara əsasən, 2000-2015- ci illərdə bütün mənbəələr üzrə iqtisadiyyata yönəldilən investisiyaların həcmi artmışdır [2].

İqtisadiyyata investisiyaların cəlb edilməsi üçün əlverişli vergi mühütünün yaradılması respublikada aparılan vergi siyasətinin prioritet istiqamətlərindən biridir.Ölkəmizdə aparılan iqtisadi siyasətin əsas istiqamətlərindən biri neft sektorunun inkişafı ilə paralel olaraq qeyri-neft sektorunun daha yüksək templə inkişaf etdirilməsini təmin etməkdən ibarətdir.Qeyd olunmalıdır ki, bu sahədə nəzərdə tutulan inkişaf artıq reallığa çevrilir.

Vergi sistemində aparılan islahatların nəticəsidir ki, dövlət büdcəsinə daxilolmaların dinamikasının son illərdə 2 dəfədən çox artması müşahidə olunur**.**Vergi daxilolmalarında qeyri-dövlət sektorunun payının durmadan yüksəlməsi bunu bir daha sübut edir. Respublikanın vergi sistemində həyata keçirilən islahatların məntiqi nəticəsi olaraq vergi idarəetmə strukturu modernləşmiş, sahibkarlığın inkişafı üçün əlverişli vergi mühiti yaradılmışdır ki, bunun da nəticəsində vergi xidmətinin fəaliyyətinin səmərəliliyi artmış, sahibkarların və iş adamlarının sayı çoxalmış, dövlət büdcəsinə vergi daxilolmalarının həcmi əhəmiyyətli dərəcədə artmışdır. Bu baxımdan neft sektoru ilə yanaşı qeyri-neft sektoruna və eyni zamanda regionların inkişafına həm xarici, həm də daxili investitisiyaların yönəldilməsini stimullaşdırmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

- Vergi qanunvericiliyimizdə olan boşluqların aradan qaldırılması istiqamətində tədbirlər;
- İnnovativ investisiya fəaliyyətinin ƏDV-yə " sıfır" dərəcə ilə cəlb edilməsi;
- Qanunvericiliyimizin təkmilləşdirilməsi ilə bağlı tədbirlər sistematikliyinin təmini;
- vergitutma subyektlərinin və obyektlərinin, vergi dərəcələrinin və güzəştlərinin fərqləndirildiyi vergi sisteminin tətbiqi;
- regionların coğrafi şəraitinə uyğun olaraq onlar arasında investisiyaların bölüşdürülməsinin təmin edilməsi;
- ölkədə investisiya fəaliyyətinin sosial istiqamətinin genişləndirilməsi, insan kapitalına, infrastruktura qoyulan investisiyaların prioritetliyinin artırılmasına nail olunması;
- kənd təsərrüfatı istehsalçıları üçün vergi tətillərinin davam etdirilməsi, kənd təsərrüfatı istehsalının strukturunun təkmilləşdirilməsinə investisiya proqramının köməyi ilə yardım edilməsi;
- xarici ticarət rejimində təkmilləşdirmələr aparmaqla özəlləşdirilmiş müəssisələrin texnoloji cəhətdən yenidən qurulması üçün müasir texnologiyanın ölkəyə gətirilməsinə əlverişli vergi mühitinin yaradılması;
- birbaşa xarici invesitisiyaların istehsala yönəldilməsinin vergi mexanizmləri vasitəsilə stimullaşdırılması;
- daxili investisiyalarla yanaşı birbaşa xarici investisiyaların ixracyönümlü və əlavə dəyərin xüsusi çəkisi yüksək olan sahələrə yönəldilməsi;
- vergi qanunvericilik bazasının daha da təkmilləşdirilməsi hesabına investisiyaların həcminin artırılması;
- Qanunvericiliyimizdə aparılan tədbirlərin stimullaşdırıcı və tənzimləyici xüsusiyyətlərinin təmini;
- Xarici dövlətlərin vergi sistemindəki müsbət cəhətlərin Azərbaycan Respublikasının vergi münasibətlərinin mühiti ilə əlaqələndirici tətbiqi;

Deyilənlərin yekunlaşdırılması əsasında yaranmış qənaətimiz ondan ibarətdir ki,vergi fəaliyyətini tənzimləyən normativ-hüquqi aktların təkmilləşdirilməsi varlı ölkədə varlı dövlətin yaranmasım, sənayecə inkişaf etmiş ölkəyə çevrilməsini, əhalinin həyat səviyyəsinin standartlarının yüksəldilməsini sürətləndirə bilər. Beynəlxalq təcrübəni və apardığımız tədqiqatların nəticəsini nəzərə alaraq qeyd etmək olar ki yuxarida qeyd etdiklərimizin həyata keçirilməsi büdcənin vergi gəlirlərini artırmaqla iqtisadiyyata investisiya qoyuluşunu, sahibkarlıq və biznes fəaliyyətini stimullaşdıran, vergi ödəyicilərini daha çox gəlir əldə etməyə, onları istehsalı daha da genişləndirməyə sövq edilməsini nəzərdə tutur. Qeyd etdiyimiz məsələlərin izahından belə bir nəticəyə gəlmək olar ki, sahibkarlığın və biznes fəaliyyətinin inkişaf etdirilməsi nəticəsində investitsiya qoyuluşlarını artırmaq və ölkənin social-iqtisadi inkişafının təmin edilməklə, vergi daxilolmalarının artmasına və əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsinə şərait yaratmaq olar.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Bakı, 2015,
2.Tofiq Hüseynov **Azərbaycanda investisiyalar,** Bakı, 2009, 378 s
3. Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri, Bakı, Elm, 2005, 468
4. Allahverdiyev H.B., Qafarov K.S., İqtisadiyyatın dövlət tənzimlənməsi, Bakı, "Nasir", 2002, 447 s
5. Rzayev Z.H. Vergi menecmenti, Dərslik, Bakı, 2007, 324 s
6. Məmmədov F.Ə. və başqaları, Vergilər və vergitutma, Bakı, 2010, 512 s
7. Zverev V.A. "İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi metodları", M Ekonomist, 2006, 124 s
8.Məmmədov Ə. C Seyfullayev İ.Z Vergi və İnvestisiya Bakı, 2013, 376 S
9. Isayev S.Z.İnvestisia fəaliyyətinin hüququ tənzimləməsi Bakı, 2011. 95 S
10. www.taxes.gov.az - Azərbaycan Respublikasının Vergilər Nazirliyi
11.www.economy.gov.az- İqtisadiyyat və Sənaye Nazirliyi

## ABSTRACT

**Bagirov Ismayil**

**Investment and socio-economic impact of the tax system summary**

In recent years, the ongoing reforms of the tax system, is an important socio-economic and political changes that took place as a result, in order to stimulate investment, formed a new economic environment. Over the years, the positive changes in the economy as a result of the expansion of the investment environment, activation, creates conditions for an increase in the number of businesses from day to day. Every year, thousands of new businesses and individuals to start business activities. Hundreds of thousands of taxpayer's tax control, to carry out high-quality service to them becoming an important task. World experience, we know that business activity in the country increases, increases in tax evasion and tax law violations. It also carried out the modernization of the tax system and requires constant improvement of tax policy.

It should be noted that the process of modernization of the tax system, the structure of the economy changed on a regular basis, diversified, expanded and private business has become the main factor in the economic life of the country. During this period, the modernization of the tax service was an important task ahead. The beginning of this process was facing a number of key objectives, which are to improve tax legislation, tax management, based on the establishment of modern standards, increase the use of modern information technologies in the implementation of tax procedures, and other factors such as taxes, increased opportunities for economic regulation, tax policy significantly strengthened the impact of the economic processes . Under such conditions, the capacity of the existing tax system to further improve the investment environment, identifying ways to improve it, both scientific and practical point of view, is distinguished by great urgency.

The policy of increasing investment in the country's socio-economic development plays an important role in speeding up. For this article to improve the tax system through the promotion of investment in the economy of Azerbaijan as a result of the rapid development, reached the highest economic growth rates, investment environment through the establishment of entrepreneurship and small business formation, contributed to the improvement of socio-economic development

## РЕЗЮМЕ

**Багиров Исмаил**

**Инвестиции и социально-экономические последствия налоговой системы**

В последние годы, проводимые реформы налоговой системы, является важным социально-экономические и политические изменения, которые произошли в результате того, чтобы стимулировать инвестиции, формируется новая экономическая среда. На протяжении многих лет, положительные изменения в экономике в результате расширения

инвестиционной среды, активизации, создает условия для увеличения количества предприятий со дня на день. Каждый год тысячи новых предприятий и физических лиц, чтобы начать предпринимательскую деятельность. Сотни тысяч налогового контроля налогоплательщика, чтобы провести качественный сервис к ним становится важной задачей. Мировой опыт, мы знаем, что деловая активность в стране увеличивается, увеличивается в уклонении от уплаты налогов и нарушения налогового законодательства. Он также проведена модернизация налоговой системы и требует постоянного совершенствования налоговой политики.

Следует отметить, что процесс модернизации налоговой системы, структура экономики изменилась на регулярной основе, диверсифицированной, расширяется и частный бизнес стал основным фактором в экономической жизни страны. В течение этого периода, модернизация налоговой службы было важной задачей вперед. Начало этому процессу было сталкивается с рядом ключевых задач, которые должны улучшить налоговое законодательство, управление налоговой, на основе создания современных стандартов, увеличение использования современных информационных технологий в реализации налоговых процедур, и другие факторы, такие, как налоги, расширенные возможности для экономического регулирования, налоговой политики значительно усилило влияние экономических процессов , В таких условиях, емкость существующей налоговой системы для дальнейшего улучшения инвестиционного климата, выявление путей повышения его, как научно-практической точки зрения, отличается большой срочности.

Политика увеличения инвестиций в социально-экономическом развитии страны играет важную роль в ускорении. В этой статье, чтобы улучшить налоговую систему через продвижение инвестиций в экономику Азербайджана в результате быстрого развития, достиг самых высоких темпов экономического роста, инвестиционной среды путем создания предпринимательства и формирование малого бизнеса, способствовало улучшению социально-экономического развития

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru, professor* A.Rüstəmov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**

**VÜQAR ABBASOV**

*AMEA-nın İqtisadiyyat İnstitutunu*

UOT:339.9

# MÜASİR ŞƏRAİTDƏ ÖZƏL SEKTORUN İNKİŞAFININ MÖVCUD VƏZİYYƏTİ

**Açar sözlər:** *sahibkarlıq, aqrar sahə, ərzaq məhsulları, ərzaq təhlükəsizliyi, qanunvericilik*
**Keywords:** *business, agrarian sector, food products, food security, legislation*
**Ключевые слова:** *предпринимательство, аграрный сектор, продовольственные продукты, продовольственная безопасность, законодательство*

Aqrar sahədə sahibkarlığın inkişafı və onun fəaliyyət mexanizminin daim təkmilləşdirilməsi, iqtisadi səmərəliliyinin yüksəldilməsi yollarının araşdırılması obyektiv zərurətdən irəli gəlir və bu, iqtisadiyyatın ən mühüm sahələrindən olan kənd təsərrüfatının əsas problemlərindən təşkil edir. Mövcud istehsal proseslərini həyata keçirmək üçün lazımi maddi-texniki bazaya, dövriyyə vasitələri əldə etmək üçün kifayət qədər sərbəst maliyyə və digər vəsaitə, məhsullarını satmaq üçün təminatlı bazara malik olmayan aqrar sahibkarların səmərəli fəaliyyət göstərmələri üçün yolların axtarılması - günün ən vacib məsələsi kimi qarşıda durur. Bu baxımdan, aqrar sahədə sahibkarlığın iqtisadi mexanizmində zəruri amillərdən dolğun istifadə etmək və fəaliyyət imkanlarının təkmilləşdirilməsi məsələləri -həmişə olduğu kimi, bu gün üçün də gündəmdə duran və həllini gözləyən məsələlərdəndir. Bununla yanaşı, regional şəraitdə aqrar sahibkarlığın formalaşdırılması və inkişafının, həmçinin onun əsas elementlərinin vəzifə və funksiyalarının öyrənilməsi çox mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan sahibkarlığın tədqiqi onun nəzəri məsələlərin aydınlaşdırılmasını tələb edir.

## 1. Kənd təsərrüfatı regionlarında iqtisadi struktur dəyişikliklərin zərurəti

İqtisadiyyatın həm regionlar, həm də sahələr üzrə bölgüsü, onlar arasında yaranmış nisbətlərin vəziyyəti onun strukturunu təşkil edir. İqtisadiyyatın regional strukturunun təkmilləşdirilməsi onun regionlar arasında və regionlar daxilində səmərəli ərazi bölgüsünü, onun strukturunun yeni şəraitə uyğun yerli tələbatı ödəmək və xarici bazara çıxışı genişləndirilməsi mənafeyini nəzərə alınmaqla təkmilləşdirilir. Bu, fasiləsiz bir prosesdir və hər dövrün özünün konkret imkan və şəraitindən asılı olaraq həyata keçirilməlidir. İqtisadiyytın sahə və regional strukturunun inkişafı və təkmilləşdirilməsi paralel və qarşılıqlı şəkildə həyata keçirilməlidir (2, s.10).

Təhlillər göstərir ki, regionlar üzrə sosial-iqtisadi inkişafa diferensial yanaşma, regionların iqtisadiyyatında həm də əsaslı struktur dəyişikliklərinə səbəb olmuşdur. Çünki hər bir region həm yerli iqtisadi potensial, həm struktur, həm həcm və həm də istehsal xarakterinə görə bir-birindən köklü surətdə fərqlənir. Məhz bu fərqlənməyə uyğun şəkildə, aqrar istehsal strukturu formalaşaraq inkişaf edir. İstehsal strukturunun formalaşmasında həm regionlar, həm də bölmələr üzrə ixtisaslaşma xüsusi rol oynayır. Çünki iqtisadi strukturun formalaşdırılması və inkişafında əmək bölgüsünün mühüm növlərindən biri olan ixtisaslaşma probleminin düzgün həlli ən vacib şərtlərindən biridir. Xüsusilə, iqtisadiyyatı aqrar xarakterli regionlarda ixtisaslaşmanın istehsal strukturunun formalaşmasında rolu daha böyükdür və təsadüfi deyildir ki, kənd rayonlarının əksəriyyətində iqtisadi struktur bir-birindən fərqlənir (4, s. 54-55) .

Əslində, bu belə də olmalıdır. Bizcə, söhbət hər bir regionda yerli potensiala uyğun səmərəli iqtisadi strukturdan, intensiv inkişaf və yüksək həyat səviyyəsindən gedir. Çünki, iqtisadi struktur siyasəti elə aparılmalıdır ki:

-birincisi, yerli iqtisadi potensialdan səmərəli istifadəyə imkan versin;
-ikincisi, reigonda məhsuldar qüvvələrin kompleks inkişafı təmin edilsin;
-üçüncüsü, ölkənin digər regionları ilə düzgün inteqrasiya olunsun;
-dördüncüsü, regionlarda sosial sferanın inkişafına təkan versin və s.

Əvvəlki fəsildə də qeyd lunduğu kimi, Azərbaycanda milli sahibkarlıq konsepsiyası və strategiyasının əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və respublikada bazar münasibətlərinin səmərəli formalaşmasına mühüm təkan verilmişdir. Ölkədə tədricən iqtisadiyyatın bütün sferalarında özəl sektorun fəaliyyətinin hüquqi-iqtisadi bazası möhkəmlənmiş və milli sahibkarlar təbəqəsinin formalaşması istiqamətində səmərəli addım atılmışdır. Böyük

öndərin qeyd etdiyi kimi, "Azərbaycanın aqrar bölməsində, ümumiyyətlə iqtisadiyyatında dövlət siyasətini artıq müəyyən etmişəm. Bu islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, özəl bölmənin inkişafına yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şəraitin yaradılmasıdır. Bu, dövlət siyasətimizin əsas prinsipıəridir".

2003-cü ildən isə başlayaraq, möhtərəm dövlət başçımız İlham Əliyev tərəfindən dövlətin mövcud iqtisadi siyasətində yeni bir dövr başlamışdır. İqtisadiyyatın bütün sferalarında aparılan uğurlu islahatlar sahibkarlıq fəaliyyətinin intensiv xarakterini daha da artırmışdır. Bu dövrdə milli sahibkarlıq konsepsiyası və strategiyasının geniş və çoxşahəli istiqamətləri formalaşmağa başladı. Dövlət özünün sahibkarlıq siyasətində neft sənayesinin və onunla yanaşı digər sənaye sahələrinin inkişafına xüsusi diqqət yetirərək nəzərə çarpacaq dərəcədə uğur qazandı. Bununla yanaşı, dövlət təkcə Abşeron iqtisadi regionunda deyil, respublikanın bütün rayonlarında sahibkarlığın tarazlı (balanslı) inkişaf siyasətinə üstünlük vermişdir. Bu siyasət regionların iqtisadiyyatının dirçəldilməsinə və onların sosial-iqtisadi inkişafına xeyli dərəcədə təsir göstərmişdir.

Dövlətin səmərəli regional inkişaf siyasəti rayonların malik olduqları təbii -iqtisadi, elmi-texniki və əmək potensialından rasional surətdə istifadə olunması imkanı yarandı. Artıq dövlət həm ayrı-ayrı şəhərlərdə, həm də regionlarda sahibkarlıq formalarının hərtərəfli inkişafı üzrə proqram və layihələrin həyata keçirilməsinə xüsusi maliyyə dəstəyi verir. O cümlədən, son dövrdə dövlət tərəfindən regional sahibkarlığın inkişafına dair iki dövlət proqramı təsdiq olunmuş və onların tələbləri əsasında ölkənin bütün rayonlarında regional sahibkarlığın tarazlı inkişafında əsaslı irəliləyiş baş vermişdir. Xüsusilə istehsal, ticarət, xidmət, səhiyyə, təhsil və digər sahələrdə yeni infrastruktur sisteminin formalaşmasında müsbət nəticələr əldə olunmuşdur.

Məlumdur ki, ölkəmiz ikinci dəfə öz tarixi müstəqilliyini əldə etdikdən sonra, ölkə iqtisadiyyatı sınaqlardan çıxmış bazar sistemi yolu ilə inkişaf etməyə başladı. Bu məqsədlə gənc, yenicə formalaşmaqda olan Azərbaycan dövləti əsaslı islahatlar apararaq və iqtisadiyyatda əvvəlki inhisarçı mövqeyindən əl çəkərək, mülkiyyətində olan istehsal vasitələrinin müəyyən bir hissəsini özəlləşdirdi. Eyni zamanda, onları daha səmərəli istifadə etmək üçün təşəbbüskar, müstəqil təsərrüfat -iqtisadi fəaliyyətində maraqlı olan hüquqi və fiziki şəxslərə verməyə başladı. Beləliklə, sahibkarlıq fəaliyyətinin inkişafı üçün zəmin, şərait yaratdı. İqtisadiyyatın digər sahələri ilə müqayisədə islahatlar aqrar bölmədə daha sürətlə həyata keçirilməyə başladı və təbiidir ki, bu bölmənin ümumi məhsulunun tərkibində şəxsi torpaq sahibləri tərəfindən istehsal olunan məhsulların xüsusi çəkisi ildən-ilə artmağa başladı.

Keçən müddət ərzində aqrar sahədə struktur dəyişikliklərinin və iqtisadi islahatların aparılmasına dair bir sıra qanunlar və normativ hüquqi aktlar qəbul edilmişdir. Bunlar "Aqrar islahatın əsasları haqqında" (1, s.291-293), "Torpaq islahatı haqqında" (7, (s.162-175)), "Sovxoz və kolxozların islahatı haqqında" (6, s.293-297), "İnvestisiya fəaliyyəti haqqında" (3), "Sahibkarlıq fəaliyyəti haqqında" (5 s.148-152 ) və bir sıra digər qanun, qanunverici aktlardır. Ümumiyyətlə isə, indiyə kimi aqrar sahə ilə bağlı 120-dan artıq qanun, fərman, sərəncam və digər hüquqi aktlar qəbul olunmnuşdur. Qeyd etmək lazımdır ki, "Aqrar islahatların əsasları haqqında" Qanun (18 fevral 1995-ci il) -ölkənin kənd təsərrüfatında torpaq və əmlak üzərində mülkiyyət münasibətlərinin tənzimlənməsinə, sovxoz və kolxozların, torpaq, meliorasiya və su təsərrüfatının, istehlak kooperasiyasının, həmçinin kənd təsərrüfatında xidmət, tədarük, emal və satış sahələrinin, aqrar elmin, kadr hazırlığının islahatına və aqrar sahənin dövlət təminatına həsr olunmuş əsas qanundur.

Həmişə olduğu kimi, indiki dövrdə də iqtisadi artım ən mühüm və zəruri makroiqtisadi göstərici hesab edilir. Çünki iqtisadi artımın mahiyyəti əvvəlki ilə nisbətən -cari dövrdə həyat səviyyəsini daha yüksək təmin etməyi, daha çox və keyfiyyətli məhsul yaratmağı və bütünlükdə ölkənin sosial-iqtisadi inkişafını şərtləndirir. Başqa sözlə, iqtisadi artım iqtisadiyyatın uzunmüddətli müsbət dinamikasını özündə cəmləşdirir.

**2. Naxçıvan Muxtar Respublikasında sahibkarlıqın inkişaf meylləri**

Qeyd etmək lazımdır ki, Azərbaycanın bütün regionlarında olduğu kimi, Naxçıvan Muxtar Respublikasında aparılan aqrar islahatların məqsədi ondan ibarətdir ki, yeni yaradılan özəl təsərrüfat formaları – sahibkarlıq qurumları öz maddi-texniki imkanlarına görə daha mükəmməl olsunlar və ya iri texnoloji istehsalatların xüsusi mülkiyyətlə uzlaşması baş versin. Çünki ayrılıqda olan

təsərrüfatlar və fermerlər özlərinin hüquqi təşkilati formasına, rentabellik göstəricilərinin səviyyəsinin olmasına baxmayaraq, uğurlu təsərrüfatçılıq fəaliyyətinə nail olsalar da, iri kənd təsərrüfatı müəssisələri ilə ciddi rəqabət aparmaq qabiliyyətinə malik deyillər. Ona görə də təsərrüfatçılığın rəqabətə davamlı formaları yalnız xüsusi mülkiyyətə əsaslanan, əməyin kollektiv şəkildə təşkil olunduğu birliklər, kooperativlər, fermer təşkilatları və digərləri ilə bağlıdır. Şübhəsiz, aqrar islahatlar dərinləşdikcə və iqtisadi idarəetmə üsulları daha yetkin formalaşdıqca həyat və zaman bu təsərrüfatçılıq formalarının hansının daha üstün mövqe tutacağını və ya aparıcı çəkiyə malik olacağı müəyyənləşdiriləcəkdir.

Ümumilikdə, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı dinamik surətdə inkişaf edir. Müşahidələr göstərir ki, belə inkişafın təmin olunması bir tərəfdən mövcud müəssisələrin fəaliyyətinin bərpası ilə əlaqədardırsa, digər tərəfdən bu, sahibkarlığın inkişafı üçün yaradılmış şəraitdən istifadə olunaraq yeni istehsal və xidmət sahələrinin fəaliyyətə başlaması ilə bağlıdır. Bütövlükdə, bu amillərin nəzərə alınması Muxtar Respublikanın iqtisadi inkişafına öz müsbət təsirini göstərməkdədir. Həmin artım son illərdə daha çox nəzərə çarpmaqdadır. Bu isə, Muxtar Respublika rəhbərliyi tərəfindən həyata keçirilən düzgün və uzaqgörən siyasət nəticəsində baş vermişdir.

Bu siyasət iqtisadiyyatın ayrı-ayrı sahələrində də özünü əks etdirir. Bu gün Naxçıvan iqtisadiyyatının hərtərəfli inkişafı, sürətli tərəqqisi, durmadan yeniləşməsi və burada həyata keçirilən irimiqyaslı islahatların uğurlu nəticələri, həmçinin müxtəlif sahələrdə əldə olunmuş əsaslı nailiyyətlər -bu qədim türk diyarını dünyaya yeni formada və məzmunda təqdim etməyə imkan verir.

Bütövlükdə, səmərəli islahatların xeyli sürətləndirildiyi bu illərdə iqtisadi və sosial inkişaf üzrə böyük nəticələr təmin olunmuş, insanların həyat səviyyəsinin yüksəldilməsinə diqqət daha da artırılmış, onların gəlirləri və orta aylıq əmək haqları xeyli yüksəlmişdir. Təbii ki, bu yüksəlişdə özəl bölmənin önəmli yeri vardır.

Burada bir məqamı da vurğulamaq yerinə düşər. Bütövlükdə, ölkə iqtisadiyyatında olduğu kimi, Muxtar Respublikanın iqtisadiyyatında da özəl bölmənin payı, sahibkarlıq subyektlərinin böyük rolu danılmazdır və o, getdikcə artır. Bu artım meyllərini isə aşağıdakı cədvəldən müşahidə etmək mümkündür (8):

**Cədvəl 1.**

**NMR –də ümumi daxili məhsulda qeyri-dövlət bölməsinin payı, faizlə**

| **Göstəricilər** | **2010** | **2011** | **2012** | **2013** | **2014** |
|---|---|---|---|---|---|
| ümumi daxili məhsul-cəmi | 86,4 | 86,5 | 87,0 | 88,0 | 88,5 |
| sənaye | 88,6 | 92,3 | 93,2 | 93,1 | 94,2 |
| tikinti | 94,7 | 91,6 | 95,3 | 96,2 | 96,7 |
| kənd təsərrüfatı | 97,9 | 98,3 | 93,2 | 92,1 | 96,2 |
| nəqliyyat | 89,2 | 87,8 | 88,6 | 88,3 | 89,7 |
| informasiya və rabitə | 85.0 | 84,8 | 84,4 | | |
| topdan və pərakəndə ticarət, avtomobillərin və motosikletlərin təmiri | 99,8 | 99,8 | 99,9 | 99,9 | 99,8 |
| mehmanxana və restoranlarla xidmət | 92,6 | 96,7 | 99,2 | 100.0 | 100.0 |
| sosial və digər sahələr | 9,5 | 10,7 | 12,9 | 29,1 | 29.0 |

Cədvəlin məlumatlarından göründüyü kimi, ümumi daxili məhsulda qeyri-dövlət bölməsinin payı 2010-cı ildəki 86,4% göstəricidən, 2014 – ci ildə 88,5 %-ə qədər yüksəlmişdir. Bu göstəricilər sənaye üzrə 88,6%-dən 94,2 %-ə qədər, tikintidə 94,7%-dən 96,7%-ə qədər, nəqliyyatda 89,2,0%-dən 89,7%-ə qədər və s. artmışdır. Maraqlıdır ki, kənd təsərrüfatı üzrə bu göstəricidə artma -azalma meylləri baş vermişdir. Belə ki, 2010-cı ildə 97, 9%, 2012-ci ildə 93,2 %, 2014-ci ildə yenə artıb 96,2% olmuşdur. Bu isə, həmin sahədə digər mülkiyyət formalı iri aqrar təsərrüfatların təşkili nəticəsində baş vermişdir.

Təhlillər göstərir ki, aparılan aqrar islahatlar və struktur dəyişiklikləri nəticəsində ət, süd, çörək, meyvə-tərəvəz, tütün və s. ilə məşğul olan müəssisələrin özəlləşdirilməsi və ya səhmdar cəmiyyətlərə çevrilməsi, muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün münbit şəraitin yaradılması nəticəsində bu sahəyə həm daxili, həm də xarici iş adamları və beynəlxalq maliyyə qurumları tərəfindən xeyli investisiya qosulmuşdur.

Son dövrlərdə həyata keçirilmiş islahatlar nəticəsində muxtar respublikanın sosial-iqtisadi həyatında böyük keyfiyyət dəyişiklikləri baş vermişdir. Məhz bu dəyişikliklər muxtar respublikanın ərzaq təhlükəsizliyinin təmin olunması məsələsini ön plana çıxarmışdır. Ərzaq təhlükəsizliyin təmin olunması meyarları iqtisadi maraqlar əsasında müəyyən olunur. Bu isə onunla bağlıdır ki, ərzaq təhlükəsizliyinin təmin olunması ölkə iqtisadiyyatının inkişafına, cəmiyyətin sosial-iqtisadi sabitliyinin təmin olunmasına imkan verir və iqtisadi inkişafa təsir göstərən mənfi amilləri neytrallaşdırır. Ərzaq təhlükəsizliyi baxımından iqtisadi maraqlar isə yalnız iqtisadiyyatın səmərəli fəaliyyət göstərdiyi bir halda reallaşır.

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı sektorunun inkişafının əhalinin ərzaq təhlükəsizliyində mühüm yer tutduğunu nəzərə alaraq, son illər bu sahənin inkişafına dövlət tərəfindən xüsusi diqqət və qayğı göstərilmişdir. Muxtar respublikanın iqtisadiyyatında ərzaq təhlükəsizliyi ilə bağlı məsələlər təhlil olunarkən, əsas meyarlar kimi aşağıdakılar xüsusi əhəmiyyət kəsb edir:

-əsas ərzaq məhsullarının muxtar respublikada istehsalının mövcud vəziyyəti; əhalinin tələbatının ödənilməsində yerli istehsalın payı;

-əsas ərzaq məhsullarının ehtiyatlarının saxlanılması üçün zəruri infrasturukturun (anbar, elevatorlar, soyuduju kameralar) yaradılması;

-özəl sektor subyektlərinin əsas ərzaq məhsullarının istehsalında rolunun artırılması imkanları.

Bu istiqamətdə yeyinti məhsulları istehsalı sahəsində sahibkarlığın inkişaf etdirilməsi, fiziki və hüquqi şəxslərin istehsalın bu sahəsinə olan maraqlarının daha da artırılması və onlara dövlət dəstəyinin göstərilməsi tədbirləri də daim dövlətin diqqət mərkəzindədir.

Öz əhəmiyyətinə görə kənd təsərrüfatı muxtar respublika iqtisadiyyatında mühüm mövqeyə malik olan sahələrdəndir. Son illər aqrar sektorda müxtəlif təyinatlı güzəştli kreditlərin verilməsi, yeni texnika və avadanlıqların alınıb gətirilməsi, meliorativ tədbirlərin həyata keçirilməsi, satış yarmarkalarının təşkili bu sahəyə olan marağı xeyli artırmışdır.

Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatlarına görə, muxtar respublikada həyata kecirilən sosial və iqtisadi islahatlarının uğurlu nəticələri 2014-ci ildə də saxlanılmıs, real sektorda və sosial muhitdə dinamik inkişaf davam etmişdir.

Ötən il ümumi daxili məhsul istehsalının davamlı artımı təmin olunmus, ümumi daxili məhsulun həcmi bir il oncəyə nisbətdə 16,8 faiz artaraq, 2 milyard 103 milyon 424 min manata, onun hər bir nəfərə dusən həcmi isə 15,4 faizlik artımla 4973,8 manata (6331,2 ABS dollarına) catmısdır.

Beləliklə, aqrar sahədə həyata keçirilən kompleks tədbirlərin səmərəli nəticəsidir ki, muxtar respublikanın kənd təsərrüfatı sahəsində dinamik artım davam etdirilmişdir. 2014-ci ildə 398 milyon 756 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmişdir ki, bu da 2013-ci ildəki müvafiq göstəricini 12,0 faiz üstələyir.

Araşdırmalar göstərir ki, Naxçıvan MR timsalında – aqrar sahədə özəl sektor qurumlarının inkişafı üçün dövlət tərəfindən görülmüş işlər məhsul istehsalının müəyyən artımı ilə müşayət olunsa da, bu sektorun mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaq sahələrinin bütövlükdə əkin dövriyyəsinə cəlb edilməsi, kənd əhalisinin istehlak tələbatının maksimum ödənilməsi ilə bağlı

problemlərin bəzilərinin həllini təmin etmiş, bəzilərinin isə təmin etməkdədir. Baxmayaraq ki, əvvəllər olduğu kimi hal-hazırda da kənd təsərrüfatı istehsalı səmərəlilik baxımından digər istehsal sahələrindən geri qalır.

Kənddə sahibkarlıq fəaliyyəti ilə məşğul olanların böyük əksəriyyəti təsərrüfat fəaliyyətini gəlirlə başa vursalar da, əldə olunmuş maliyyə nəticələri kəndli ailələrinin tələbatının ödənilməsinə tam dolğun çatmır. Aqrar islahatlarla əlaqədar kəndli ailələri iqtisadi resurslara, müstəsna səlahiyyətlərə, ictimai məhsulun hərəkətinin bütün mərhələlərində tam müstəqilliyə malik olsalar da sözün tam mənasında iqtisadi müstəqilliyə nail ola bilməmişlər. İqtisadi müstəqillik isə yalnız sahibkarlıq fəaliyyəti yüksək iqtisadi səmərə verdikdə, yəni fəaliyyətindən əldə etdiyi gəlir həm fəaliyyətlə əlaqədar xərcləri, həm ailənin istehlak tələbatı və həm də istehsal fəaliyyəti dairəsini genişləndirmək üçün kifayət etdikdə təmin olunmuş olunur.

## ƏDƏBİYYAT


1. Aqrar islahatın əsasları haqqında Azərbaycan Respublikasının Qanunu, 18.02.1995. Azərbaycan Respublikası Qanunlar Külliyyatı, Bakı, Qanun, 2001, 880 s
2. Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı: problemlər, inkişaf meylləri, Respublika elmi-praktiki konfransının materialları, Bakı, Avropa, 2010, 308 s.
3. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikası Qanunlar Külliyyatı, Bakı, Qanun, 2001, 840 s
4. Kərimov E.N., Osmanov B.O. İqtisadi nəzəriyyə, Bakı ,Adiloğlu, 2004, 320 s
5. Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikası Qanunlar Külliyyatı, Bakı, Qanun, 2001, 840 s
6. Sovxoz və kolxozların islahatı haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Qanunlar Külliyyatı, Bakı, Qanun, 2001, 840 s
7. Torpaq islahatı haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Torpaq Qanunvericilik Toplusu, Bakı, Qanun, 2006, 932 s
8. www.statistika.nmr.az


## ABSTRACT


**Abbasov V.**



In article questions of development of business to the Nakhichevan Autonomous Republic in modern conditions are investigated. Here such economic problems as need of changes in economic structure of regions, effective regional policy of development of the state, a tendency of development of business for the Nakhichevan Autonomous Republic, etc. were investigated. In article the important place in development of agriculture of the Nakhichevan Autonomous Republic of questions of ensuring food security is noted and the special attention of the state to this problem is emphasized.

In article it is emphasized, as today economic growth is one of important macroeconomic indicators. It is connected with that in comparison with the past today's economic growth has to provide higher standard of living of the population, quality of the made production, and in general higher level of social and economic development of society.

In a different way speaking, economic growth personifies long-term positive dynamics of economy. In article it is also said that achievement of such positive dynamics possibly on the one hand, thanks to restoration of activity of the existing enterprises, and with another, using the created favorable conditions for business, to begin creation of new branches of production and a services sector.

The author provides the conclusions and offers on the studied subject in the conclusion.


## РЕЗЮМЕ


**Аббасов В.**

В статье исследуются вопросы развития предпринимательства Нахичеванской Автономной Республике в современных условиях. Здесь исследовались такие экономические проблемы как необходимость изменений в экономической структуре регионов, эффективная региональная политика развития государства, тенденции развития предпринимательства в Нахичеванской Автономной Республике и т.д. В статье отмечается важное место в развитии сельского хозяйства Нахичеванской Автономной Республики вопросов обеспечения продовольственной безопасности и подчеркивается особое внимание государства данной проблеме.

В статье подчеркивается, что и сегодня экономический рост является одним из важных макроэкономических показателей. Это связано с тем, что по сравнению с прошлым сегодняшний экономический рост должен обеспечивать более высокий уровень жизни населения, качество производимой продукции, и в целом более высокий уровень социально-экономического развития общества.

По-другому говоря, экономический рост воплощает в себе долгосрочную позитивную динамику экономики. В статье также говорится, что достижение такой позитивной динамики возможно с одной стороны, благодаря восстановлению деятельности существующих предприятий, а с другой, пользуясь сформировавшимися благоприятными условиями для предпринимательства, начать создание новых отраслей производства и сферы услуг.

В заключении автор приводит свои выводы и предложения по исследуемой темы.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru, professor* A.Rüstəmov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**

**MEHRİBAN İMANOVA**
*Naxçıvan Dövlət Universiteti*
*e-mail: marketinq05@mail.ru*

**UOT:330.1**

## SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İNNOVASİYA FƏALİYYƏTİNİN TƏŞKİL EDİLMƏSİNDƏ VENÇUR MALİYYƏLƏŞMƏSİNİN ROLU

**Keywords:** *innovation, industry, new products, venture capital, entrepreneurship, venture financing*
**Ключевые слова:** *инновация, промышленность, новый продукт, венчурный бизнес, венчурная финансирования*

Müasir dövrdə inkişaf etmiş demokratik ölkələrin sənaye müəssisələrində müxtəlif formalarda innovasiyaların tətbiqi və idarə olunması təşkilatın təkmilləşməsi və ümumi sosial-iqtisadi inkişafın mühüm şərti kimi xüsusi əhəmiyyət kəsb edir. Sənaye cəhətdən inkişaf etmiş ölkələrdə dövlət innovasiya siyasətini özü üçün əlverişli iqtisadi mühitin yaradılmasına yönəldir, innovasiya proseslərinin həyata keçirilməsi üçün təmiz elmi nailiyyətlərlə istehsal məsələlərinin həlli əlaqələndirilir. Belə bir faktı göstərmək kifayətdir ki, XX əsrin sonlarında təkcə yüksək texnologiyalar bazarı 2 trilyon dollar təşkil edirdi. Bütövlükdə inkişaf etmiş ölkələrdə istehsal olunan ÜDM-in 75-80 %-ə qədəri innovasiyaların, xüsusilə texnologiya, texnika və istehsalın təşkili və idarə olunmasının təkmilləşməsinin payına düşürdü (3, s.96). Müasir dövrdə istehsal müəssisələrinin innovasiya aktivliyi, texnologiya və təşkilati-idarəetmədə innovasiyaların tətbiqi müəssisənin kəskin rəqabət şəraitində yaşaya bilməsnin əsas şərti kimi qəbul olunur. Başqa sözlə, geniş innovasiya fəaliyyəti müəssisələr üçün əhəmiyyətli rəqabət üstünlüklərini və kifayat qədər dayanıqlı inkişafı təmin etməyə imkan verir.

XX əsrin və hazırda XXI əsrin əvvllərinin ən mühüm cəhətlərindən biri cəmiyyət həyatının bütün sahələrində baş verən inqilabi dəyişikliklər və inkişafdır. ABŞ alimi Ceym Braytın haqlı olaraq göstərdiyi kimi, innovasiya prosesi öz mahiyyətinə görə elm, texnika, iqtisadiyyat, sahibkarlıq, idarəetmə və digər sahələrdə baş verən yenilikləri özündə birləşdirə bilən və yeganə kompleks xarakterli prosesdir. Əgər bunu sənayeyə tətbiq etsək, onda sənayedə innovasiya ideyaların yaranmasından onun kommersiya reallaşmasına qədər olan ayrı-ayrı korporasiya bölmələrindən tutmuş dövlət idarəçiliyinə qədər bütün istehsal, mübadilə, təchizat, istehlak prosesində yeniliklərin məcmusunu özündə birləşdirir. Təşkilatın rəqabət qabiliyyətinin qiymətlərin dəyişdirilməsi və ya xərclərin azaldılması hesabına təmin edilməsi imkanı həmişə qısa müddətli olub, məhdud xarakter daşıyır. Ona görə də, innovasiyalı yanaşma daha əlverişlidir, çünki elmi biliklərin axtarışı, toplanması və fiziki reallığa çevrilməsi prosesi mahiyyətcə hüdudsuzdur (4, 9-12 ). Ümumi şəkildə innovasiya prosesi-yeniliyin ideyadan texnologiyaya, konkret məhsula və ya xidmətə çevrilməsi və təsərrüfat praktikasında yayılmasından ibarət ardıcıl hadisələr zənciridir. Qeyd etmək lazımdır ki, innovasiya prosesi yeni məhsulun, xidmətin bazara çıxarılması və ya yeni texnologioyanın layihə gücünə çatdırılması ilə başa şatmır. Bu proses kəsilmir, yəni yenilik iqtisadiyyata yayıldıqca təkmilləşdirilir, daha səmərəli olur, yeni istehlak xüsusiyyətləri əldə edir ki, bu da onun üçün yeni tətbiq sahələri, yeni bazarlar, yeni istehlakçılar açır.

İnnovasiya fəaliyyəti təşkilatın resurs, kadr və informasiya potensialının inkişaf etdirilməsi ilə bağlı əhəmiyyətli investisiyalar tələb edir. Buna görə də innovasiyaların həyata keçirilməsi üçün maliyyə bazasının yaradılması dövlətin elmi-texniki siyasətinin mühüm elementini təşkil edir. Bu siyasəti reallaşdırmaq üçün müxtəlif mənbələrdən resursların cəlb olunması tələb olunur. Lakin təsərrüfatçılıq təcrübəsində baş verən dəyişikliklər nəticəsində hətta ən ənənəvi mənbələrdən resursların cəlbinin forma və metodları da dəyişməli olur. Dünya praktikasında innovasiyaların maliyyələşdirilməsinin dövlət maliyyələşdirilməsi; sənaye təşkilatlarının, elm və ali təhsil müəssisələrinin vəsaitləri; qeyri-kommersiya təşkilatlarının vəsaitləri; kredit resursları, əhalinin xüsusi əmanətləri və xarici kapital kimi mənbələri xüsusi qeyd edir. Lakin yeniliyə vəsait qoyulmasının vacib xüsusiyyəti onun itirilməsi təhlükəsinin olması ilə bağlıdır, yəni innovasiya risqli xarakter daşıyır. Yeni ideyanın yeni məhsulda uğurlu cəmləşməsinin ehtimalı 8,7 %-ə qədərdir, çünki heç bir təşkilat cəmiyyətdə gedən tərəqqinin bütün istiqamətlərini və onun sosial və iqtisadi nəticələrini qabaqcadan bütün aydınlığı ilə görüb tamamilə nəzərə ala bilməz.

Bu risqi azaltmaq üçün dünya praktikasında heç də az səmərəli olmayan vençur maliyyələşdirmə mexanizmi formalaşmışdır ki, bu mexanizmdən bizdə hələlik kifayat qədər geniş istifadə olunmur. Vençur maliyyələşdirməsinin çoxsaylı tərifləri mövcuddur, lakin bu təriflərin hamısı bu və ya digər dərəcədə onun funkisonal vəzifəsini, yəni müəyyən həcmdə pul vəsaitlərini

nizamnamə kapitalındakı paya və ya müəyyən səhm paketinə dəyişmək yolu ilə konkret biznesin artımına yardım etməsini göstərir. Sahibkarlıq fəaliyyətinin xüsusi forması kimi vençur işgüzarlığı ilk dəfə ABŞ-da yaranmışdır. Vençur işgüzarığı tədqiqatlar və işləmələr sahəsində, yeni məhsulların istehsalı sahəsində ixtisaslaşan kiçik müstəqil müəssisələrdən ibarətdir. Onları adətən tədqiqatçı alimlər, mühəndislər, novatorlar yaradırlar. Bu cür müəssisələrin yaradılması ABŞ, Qərbi Avropa, Yaponiya kimi dövlətlərdə geniş yayılmışdır. Vençur firmalarının yaradılması innovasiya ideyası olan yeni məhsulların, texnologiyaların, təklif olunan ideya əsasında yeni firmanı təşkil etməyə hazır olan ictimai tələbatın, sahibkarın və belə firmaları maliyyələşdirmək üçün risqli kapitalın olmasını nəzərdə tutur. Vençur müəssisələrinin aşağıdakı kimi növlərini fərqləndirmək olar: risqli biznesin özü, iri korporasiyaların daxili risqli layihələri.

Öz növbəsində risqli biznesi də müstəqil kiçik innovasiya firmalarına və onlara kapital verən maliyyə təşkilatları təsərrüfat subyektlərinə görə fərqləndirirlər. Kiçik innovasiya firmalarını maddi mənfəət əldə etmək ümidi ilə elm və texnikanın ən yeni nailiyyətlərini həyata keçirməyə çalışan alimlər, mühəndislər, ixtiraçılar yaradırlar. Belə firmaların ilkin kapitalı təsisçinin şəxsi kapitalı ola bilər, lakin bu vəsaitlər adətən mövcud ideyanı reallaşdırmaq üçün kifayət etmir. Belə hallarda risqli kapital verməyə hazır olan bir və ya bir neçə ixtisaslaşmış maliyyə kompaniyalarına müraciət etmək lazım gəlir. Məsələn, ABŞ-da 1980-cı illərin ortalarında belə şirkətlərin sayı 500-dən artıq idi (3, s. 128).

Vençur işgüzarlığının əsas funksiyası həqiqətən də məqsədi investisiyalar yolu ilə ən perspektivli ideya və texnologiyaların dinamik reallaşdırılmasına yardım göstərməkdən ibarətdir. Vençur investisiyaların obyektləri ilk növbədə bazarda yeni xidmət və məhsulların meydana gəlməsini təmin edən şirkət və texnologiyalar olurlar. Risqli kapitalın yüksək inkişaf etmiş olduğu ABŞ kimi ölkədə onun əsas tətbiq sahələri biznesin inkişafının ilkin mərhələləri (hazırlıq və start dövrü) hesab olunur ki, bu da vençur investisiyaların təqribən 40 %-ni təşkil edir. Vençur müəssisələr yalınız müstəqil fəaliyyət göstərmir, həm də ayrı-ayrı şirkətlərdə daxili layihələr şəklində də mövcud ola bilir. Vençur maliyyələşdirməsinə, iri korporasiyaların tərkibində onların modernləşdirilməsi və genişləndirilməsi üçün yaradılan və fəaliyyət göstərən təşkilatlara 5-7 il müddətinə qoyulmuş, uzunmüddətli investisiya mənbəyi kimi baxmaq olar.

Vençur kapitalı məhdud məsuliyyətli birlik olmaqla imkanlı tərəfdaşların şəxsi vəsaitləri, pensiya və xeyriyyə fondlarının, sığorta təşkilatlarının, iri korporasiyaların sərbəst vəsaitləri hesabına formalaşdırılır. Bu fəaliyyətin əsas prinsipi qoyulan investisiyaların qüksək mənfəət norması ilə qayıdacağı ümidi ilə heç bir zəmanət və təminat olmadan nisbətən kiçik və bir-biri ilə əlaqəsi olmayan layihələri maliyyələşdirməkdən ibarətdir. Bu səbəbdən də belə maliyyəıləşdirmə risqli adlandırılır, çünki investorlar kapital qoyuluşu üçün xarakterik olan bütün risqləri öz üzərinə götürürlər.

XX əsrin 70-80-ci illərindən başlayaraq vençur işgüzarlığının stimullaşdirilməsında dövlətin iştirakı genişlənməyə başlamışdır. Bu cür iştirak həm vençur işgüzarlığının subyekti kimi investisiya institutlarının, həm də investisiya obyektləri kimi innovasiya şirkətlərinin fəaliyyəti üçün əlverişlı şəraitin yaradılmasını nəzərdə tutur. Vençur işgüzarlığına dövlət yardımları həm uyğun normativ-hüquqi bazanın formalaşdırılması, həm də lazımi infrastrukturların yaradılması yolu ilə həyata keçirilir (5, s. 23). XX əsrin 80-ci illərindən başlayaraq vençur işgüzarlığı çox sürətlə inkişaf etməyə başlamışdır. Vençur investisiyaların ÜDM-a nisbətdə miqyasın nisbətən kiçik olmasına baxmayaraq inkişaf etmiş ölkələrin iqtisadiyyatında əhəmiyyətli rola malikdir. Sənayecə inkişaf etmiş ölkələrdə vençur investisiyaların ÜDM-da payı 0,5 faizə çatır (1, s. 310). Bu cür investisiyalar mahiyyət etibarı ilə yüksək əlavə dəyər gətirən sahələrin dinamik inkişafı üçün katalizator rolunu oynayır. Bura hər şeydən əvvəl informasiya texnologiyaları, biotexnologiyalar və s. kimi sürətlə genişlənən texnoloji bazaları aid etmək olar. Yapon şirkətləri satışdan gələn gəlirin həcminin əhəmiyyətli hissəsini (qabaqcıl sahələrdə 8-10 %) tədqiqatlara və işləmələrə sərf edirlər, çünki onlar başa düşürlər ki, qabaqcıl texnologiyaların tətbiqi ilə hazırlanmış məhsullar ən yüksək mənfəət əldə etməyə imkan verir.

Vençur fondların dünyada internet biznesin inkişafında mühüm rol oynadığı nəzərə alınaraq Azərbaycanda da İKT sektorunun inkişafı üçün dövlət dəstəyinin yetərli olmadığı üçün belə

fondların yaradılması vacib sayılır. Risklərin sığortası praktik olaraq olmadığı üçün özəl sektor bu sahəyə həvəssiz vəsait qoyur. Ona görə də sığorta bazarı və sosial müdafiə fondunun sərbəst ehtiyatlarının startap layihələr üçün vençur maliyyələşməsi mənbəyi olması əhəmiyyətli hesab oluna bilər. ABŞ-da vençur fondlarının inkişafı pensiya fondlarının öz aktivlərinin 10%-ni vençur fondlarına investisiya qoyuluşları ilə başlamışdır (2, s. 315).

Ölkəmizdə vencur maliyyələşməsinin təşkili və inkişaf etdirilməsi, mövcud resurs potensialından səmərəli istifadəni təşkil etməklə, müəssisələrinin yeni texnologiyalara yiyələnməsinə təkan verə bilər.

## ƏDƏBİYYAT


1. Mahmudova L.F. İnnovasiya layihələrinin hazırlanması mərhələləri və onların investisiya təminatı/Milli iqtisadiyyatın problemləri məqalələr toplusu, I buraxılış, AMEA İİ, Bakı, Elm,
2. 2005, 390 s.
3. Məmmədzadə E.E. İnnovasiya iqtisadiyyatının formalaşmasının bəzi iqtisadi və institusional alətləri//Vergi jurnalı № 6(120), Bakı, 2014, 180 s.
4. Береговой В.Ф., Кудаков А.С. Финансого-промышленные группы- основа инновационной экономики в условиях глобализации. М., 2003, 255 с.
5. Великий Ю.В. Влияние венчурного предпринимательства на инновационную деятельность. Экономика. Финансы.Право. №5
6. Качалин В. Кларк С. Инновации на постсоветских промышленных предприятиях//Вопросы экономики, 2001, №7
7. http://wikipedia.orq// Vikipedia azad elektron ensiklopediya saytı
8. http// infipro.az// İnformasiya texnologiyası, internet və proqram təminatı üzrə ixtisaslaşan bizneslərin başlanğıc mərhələsinə investisiya edən vençur kapitalı şirkıtinin rəsmi saytı


## ABSTRACT


**Mehriban Imanova**

**Role of the Venchur of financing forming in the innovation of the industry establishments**

In the article importance of the application of the innovations explained in the scientific article in new economical condition in the industry establishments and assumed special importance as conditional has been emphasized socio-economic development it's important.

Has been explained essence of the innovation turn news to technology, concrete product or service and have been noted of the innovation chain of systematical events of spreading in the practice of economy. This arises the necessity involving from different sources for demanded important investments of the resources. Involving investments have been a cause looking for the sources of risky to finance because was newly to arising of the venchur ownership. In the world practice was explained essence of the ownership of efficient venchur kind and posts of the venchur establishments, directions of implement have been investigated. Basic function of the Venchur diligence indeed the most perspective idea with way of purpose investments and it is consists of the technologies dynamic of assisting to realize. Creation of this kind of establishments has spread as USA, Western Europe, Japan in the states widely. Participation of the state has begun to expand get stimulated of the venchur diligence from since the 70-80th years of the twentieth century. This kind of participation of the investment institutes as subject of the venchur diligence and it mean the creation of the suitable condition as investment objects for activities of the innovation companies.


## REЗЮМЕ


**Мехрибан Иманова**

**Роль Венчурского финансирования в Организации инновационной деятельности Промышленных предприятий**

В научной статье раскрыто значение внедрения в новых экономических условиях инноваций в промышленных предприятиях и акцентировано их особое значение в социально-экономическом развитии в качестве важного условия. В то же время, разъясняя сущность инновации, отмечается, что превращение новшества из идеи в технологию, конкретную продукцию или же в услугу и распространение в хозяйственной практике являются цепью последовательных событий. Так как реализация этого процесса требует значительных инвестиций, создаётся необходимость в привлечении ресурсов из различных источников. Из-за рискованности привлекаемых инвестиций поиск новых источников финансирования становятся причиной создания венчурского предпринимательства. В статье раскрыто значение венчурского предпринимательства, являющегося эффективным в мировой практике, исследованы виды и задачи, а также проведение в жизнь направлений деятельности венчурских предприятий. На самом деле основной функцией венчурской предприимчивости является оказание помощи в динамической реализации самых перспективных идей и технологий. Создание подобных предприятий широко распространены в таких странах как США, Западная Европа, Япония. Начиная с 70-80-х годов XX века начало расширяться участие государства в стимулировании венчурской предприимчивости. Такое участие предполагает создание благоприятных условий для деятельности и инвестиционных институтов, как субъектов венчурской предприимчивости, и инновационных компаний, как инвестиционных объектов.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* T.Abbasov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**

**ELNUR BAĞIROV**

**UOT:339.9**

# BANK HEYƏTİ HAZIRLIĞI SAHƏSİNDƏ XARİCİ TƏCRÜBƏNİN AKTUALLIĞI

**Açar sözlər:** *iqtisadiyyat, bank sistemi, bank fəaliyyəti, xarici təcrübə, bank heyəti*

**Key words:** *economy, bank sistem, banking activities, foreign praktic, bank personal*
**Ключевые слова:** *экономика, банковская система, банковская деятельность, международная практика, персонал банка*

Xarici ölkələrin, xüsusən də inkişaf etmiş dövlətlərin maliyyə-kredit qurumları bankların fəaliyyəti və işçi heyətin hazırlıq səviyyəsinin yüksəldilməsində böyük elmi-praktiki təcrübəyə və çoxəsrlik ənənələrə malikdirlər. Belə ki, bank fəaliyyətində işçi heyətin düzgün idarə edilməsi bu sahədə uğurlu fəaliyyətin ən mühüm istiqamətlərindən biri hesab olunur. Təhlillərdən aydın olur ki, " heyətin işinə səmərəli nəzarətin zəruriliyi bir neçə səbəblə şərtlənir. Əvvəla, bu cür nəzarətin gedişində müəssisə rəhbərliyi üçün lazımi informasiya toplanır, həmin informasiyaya əsasən əmək haqqının artırılması (azaldılması) barədə qərarlar qəbul edilir. İkincisi, səmərəli nəzarət hər bir əməkdaşın necə işləməsi barədə əyani təsəvvürlər əldə etməyə, görülmüş işi hərtərəfli təhlil etməyə, işdəki nöqsanları təshih edən planların tərtibatına, yaxud işçinin fəaliyyətinin müsbət cəhətlərini müəyyənləşdirməyə imkan verir. Nəhayət, nəzarət əmək resurslarının düzgün planlaşdırılması prosesinin həyata keçirilməsində əsas oriyentir olmalıdır, çünki o, əməkdaşın xidməti irəliləyiş barədə gözlədiklərini onun real qabiliyyəti və imkanları ilə müqayisə etməyə imkan verir".

Məlumdur ki, " sosial-psixoloji muhit idarəetmədə muhum rol oynayır. Sosial-psixoloji muhitin xarakterindən asılı olaraq, onun kollektivə necə təsir etməsi də muxtəlif olur. Yuksək mənəvi-psixoloji muhit idarəetmədə əhvali-ruhiyyənin yuksəldilməsinə kömək edir, sağlamlığı, özunə inamı, təşəbbuskarlığı artırır. İdarəetmə şəxsiyyətlərarası munasibətlər vasitəsilə başlayır və bitir.

Psixoanaliz elminin banisi avstriyalı nevroloq Ziqmund Freydin (1856-1939) şuuraltı nəzəriyyəsinin və Amerika psixoloq və sosioloqu Elton Meyonun (1880-1949) işlərinin meydana cıxması ilə, idarəetmə prosesi - tabecilikdə olanlara təsir aləti kimi psixoloji metodlarla silahlanmışdır. Bunun əsas səbəbi işcilər ucun qeyri-maddi motivlərin və tələblərin ön plana cıxmasıdır: məsələn, özunəhörmət, işlə qane olma, tanınma və s. Muasir idarəetmə şəraitində muvəffəqiyyət o halda təmin edilə bilər ki, rəhbər kollektivdə saglam və əlverişli psixoloji muhit yaratsın. Kollektivdə sağlam və əlverişli muhit yaradılması ucun aşağıdakı bir sıra vacib qaydalara əməl etmək lazımdır:

- psixoloji muhit kollektivdə lider formalaşdırır;
- kollektivin yaxşı ənənələrini qorumaq və inkişaf etdirmək lazımdır;
- vəhdət və fəallıq kollektivdə sağlam psixoloji mühiti möhkəmləndirmək üçün yaxşı baza olmalıdır;
- kollektivdə inam, xeyirxahlıq və qarşılıqlı kömək şəraiti yaradılmasına fəal nail olmaq lazımdır;
- hər hansı bir qazanılmamış mükafatlandırma və düzgün olmayan xidmətə istinad edilməsi, kollektivə pozucu təsir gostərir;
- sosial məsələlərdə rəhbərin başlıca vəzifəsi - kollektivin və onun tələbatlarını bilmək və onları ödəməyə cəhd etmələridir;
- rəhbərin ayrı-ayrı kollektiv uzvlərinə qarşı ədalətsiz munasibəti, onun tamlığını və birliyini pozur;
- rəhbərlərin vaxta dürüst əməl etmələri və reqlamenti gözləmələri – kollektivi intizamlı edir və işgüzar atmosfer yaradır;
- rəhbərin kobudluğu, diqqətsizliyi kollektivə əziyyət verir, onun təşəbbuskarlığını əlindən alır və əməyi bir nov cəzaya cevirir".

Aparıcı dünya ölkələrinin (Böyük Britaniya, Almaniya, ABŞ, Fransa) misalında göstərilən problemlərin həllinə müxtəlif yanaşmalara baxılması və bu təcrübədən ölkəmizin bank-kredit sektorunda istifadə edilməsi, sözsüz ki, böyük maraq doğurmaya bilməz. Məsələn, Böyük Bri-taniya kommersiya bankları heyətin idarə edilməsinin inkişaf etmiş milli sisteminə malikdir. Mütəxəssislərin hazırlanması təkcə universitetlərdə deyil, həmçinin, Avropa İttifaqı, Mərkəzi və Şərqi Avropa ölkələri ilə geniş əlaqələri olan müxtəlif kurs və mərkəzlərdə həyata keçirilir. Bəzi keçid iqtisadiyyatı yaşayan ölkələr üçün bu layihələr Böyük Britaniya hökuməti tərəfindən

maliyyələşdirilir. Böyük Britaniya Bankı Mərkəzi bankın bütün funksiyalarını icra edir. Onlardan ən vacibi iqtisadi inkisafın artımı məqsədilə, qiymətlərin sabitliyi və hökumətin iqtisadi siyasətinə dəstəyin göstərilməsidir. Böyük Britaniyanın bank sektoru dünyada ABŞ və Yapo-niyadan sonra üçüncüdür. Ölkənin iqtisadi həyatında istehsalın böyük ölçüdə təmərküzləşməsi və beynəlmiləlləşməsi fonunda kredit sisteminin fəaliyyəti də beynəlmiləlləşmişdir. Belə ki, ölkədə fəaliyyət göstərən 382 bankdan 287-si xarici banklardır. Britaniyanın iri bankları isə artıq uzun müddətdir fəaliyyət dairəsinə görə beynəlxalq səviyyəli sayılırlar. Dünyanın ilk 10 bankı ara-sında HSBC Holdings və Royal Bank of Scotland məhz Böyük Britaniyanı təmsil edir. Britaniyanın "böyük altılıq" bankları dünyada ən böyük 50 bank arasındadırlar. Ən böyük ingilis bankı HSBC isə 2004-cü ildə bank kapitalı səviyyəsinə görə (tier 1 capital) dünyada üçüncü ən böyük bank olmuşdur. Aşağıdakı cədvəldə 31 dekabr 2013-cü ilə olan məlumata əsasən, Britaniyanın aparıcı bankları öz əksini tapmışdır:

Böyük Britaniyada Mərkəzi Bank Fəaliyyəti Kvalifikasiyası adlanan milli siyasət tədrisi mərkəzi fəaliyyət göstərir. Mərkəz təhsili bitirənlərə tam professional hazırlığa şəhadət verən sertifikat verir. Bu, xüsusilə, universitet təhsili olmayan bank işçiləri üçün vacibdir. Bununla yanaşı, Bankirlər Assosiasiyası nəzdində də, aşağıdakı funksiyaları yerinə yetirən bank mütəxəssislərinin hazırlığı üzrə Milli Şura fəaliyyət göstərir:

a) bank heyətinin öyrədilməsi sahəsində siyasəti müəyyənləşdirilir;

b) Cədvəl 1.Aparıcı Britaniya bankları

| s/№ | Bank | Mənzil-qərargahı | Aktivləri (mln. funt) | Aktivləri (mln. dollar) |
|---|---|---|---|---|
| 1 | HSBC | London | 662.710 | 1.267.777 |
| 2 | Royal Bank of Scotland | Edinburq | 583.467 | 1.124.108 |
| 3 | Barclays Bank | London | 522.089 | 1.005.857 |
| 4 | HBOS | Edinburq | 442.881 | 853.255 |
| 5 | Lloyds Bank | London | 279.843 | 539.146 |
| 6 | Standart Chartered | London | 73.543 | 141.688 |
| 7 | Alliance & Leichester | Leichester | 49.967 | 96.266 |
| 8 | Northern Rock | Newcastle | 42.790 | 82.939 |
| 9 | Bradford Bingley | Bingley | 35.458 | 68.313 |

b) təhsil görmüş və sertifikat almış ixtisas səviyyəsini (standarta uyğun) təyin edir

c) əmək nazirliyinin təyininə uyğun olaraq heyətin qiymətləndirilməsinin xüsusi sistemini işləyib hazırlamaq

ç) iri milli banklar, həmçinin, xarici banklar (Amerika, İrland və b.) arasında kadr hazırlığı ideyalarını əlaqələndirir

Milli sistemlə yanaşı, hər bir iri bankın, fond birjasının və başqalarının xarici ölkələr və özləri üçün mütəxəssislər hazırlayan məktəbləri var. Bu məktəblərdə (mərkəz, kurs və b.) təhsilin səviyyəsi kifayət dərəcədə yüksəkdir və dünya standartlarına cavab verir.

Digər nüfuzlu bank sistemlərindən biri də Almaniya Federativ Respublikasının bank sistemidir. Son illər iqtisadi əlaqələrimizin genişləndiyi Almaniyanın bank sistemi böyük maraq doğurur. Özünün gücü və əvvəlki böyüklüyü baxımından Avropa Mərkəzi Banklar Sisteminin ən çox təsiredici gücə malik üzvü olan Federal Bank, tam müstəqllik əldə edən ilk mərkəzi bankdır. Federal Bankın XX əsrin 2-ci yarısında inflyasiyanı nəzarətdə saxlaması, Alman markının ən nüfuzlu valyutalardan biri olması və Federal Bankın bir çox Avropa ölkələri üzərində əsaslı olan dolayı təsiretmə gücünə malik olması ilə nəticələnmisdir. 2002-ci ildə Federal Bank haqqında Qanunda aparılan düzəlişlər nəticəsində, Federal Bankın strukturu hazırkı vəziyyətə gətirilmisdir. Federal Bankın Avropa Mərkəzi Bankı ilə birgə idarə olunan 4 fəaliyyət sahəsi aşağıdakılardır:

1. Pul buraxan bank olaraq – iqtisadiyyatın nağd pulla təmin edilməsi və nağd pulun fiziki dövriyyəsinin təşkili;

2. Banklar bankı olaraq – kommersiya bankları sistemi ilə əlaqadar olaraq, iki funksiyası var: kommersiya bankları üçün Kliringq Palatası və Bank nəzarəti;

3. Dövlətin bankı olaraq – Federal, Ştat və Yerli hakimiyyət orqanlarını və eləcə də qanunla təsis olunmus sosial təhlükəsizlik təşkilarını hesabla təmin edir və onlar üçün adi bank əməliyyatlarını yerinə yetirir;

4. Valyuta ehtiyatlarını saxlayan orqan olaraq – valyuta ehtiyatları Federal Bankın qızıl ehtiyatları, xarici valyutada olan qiymətli kagızlar, xarici banklarda saxlanılan kredit, xarici valyuta və s. daxil olmaqla avroda ifadə olunmayan bütün aktivləridir. Federal Bank 9 regional ofis, *Lenderin* keçmis mərkəzi bankları və 66 filialdan ibarətdir.

Almaniyada maliyyə təşkilatlarının çox önəmli bir xüsusiyyəti vardır. Belə ki, burada mütəxəssislərə bankların ən qiymətli ehtiyatları kimi yanaşırlar. Buna görə də, ümumi peşəkar təhsil sistemində əsas yeri tutan bank işçilərinin hazırlığı fəaliyyətin dinamik hissəsini təşkil edir. Almaniyada bütün işçilərin cəmi 3%-i bank sahəsində işləyir, lakin əksəriyyət inkişaf etmiş sənaye ölkələrindən fərqli olaraq banklar milli gəlir istehsalında aparıcı rol oynayır. Hal-hazırda Almaniyada dörd mindən çox bank fəaliyyət göstərir. Bank heyətinin professional təhsili uyğun qanunla tənzimlənir. Bu qanun professional təhsili yaxud ixtisas artırılmasını fərqləndirir.

Ən geniş yayılmış təhsil strukturu bank mütəxəssisləri hazırlığı üzrə kolleclərdir. Onların sayı ölkədə 300-dən artıqdır. Onlarla yanaşı, bank akademiyası orta və yüksək səviyyədə bank işçilərinin təhsilinin kurs-modul sistemi olan daha iki təhsil növü mövcuddur.

Akademik təhsil müəssisələrində, bir qayda olaraq, elitar təhsil verilir ki, bunun da tərkibinə fundamental biliklərlə yanaşı yeni texnologiya, bank məhsulları, “nou-xau”, professional vərdişlər və s. haqda məlumatlar da daxildir.

Ölkənin bank işçilərinin 20%-i kurs - modul sistemi təhsili alıb. Təklif olunan kurslar (onların sayı Almaniyada 40-dan çoxdur) dinləyicilərin yüksək ixtisas səviyyəsinə cavab verir. Təhsilin qiymətləndirilməsi ənənəvi qaydada – yazılı və şifahi testlərlə aparılır.

Bundan sonrakı növbəti təhsilə yönəldilmiş tədbirlər könüllü xarakter daşıyır. Almaniyada bank işçilərinin əmək haqqının 5%-dən 10%-dək ixtisas artırılmasına sərf olunur. İri şirkətlərdə bank işçilərinin 60-90%-i istehsaldan ayrılmadan iş yerlərində təhsil alırlar. Bu mənada “Doyç Bank”ın keçmiş ADR-dən olan işçilərin hazırlığı təcrübəsi təqdirə layiqdir.

Almaniyanın birləşdirilməsi, bu işin xüsusi xarakterini müəyyənləşdirdi: ADR-dən olan kadrlar üçün bazar iqtisadiyyatı şəraitinə və ümummilli tələblərə cavab verən operativ tədbirlər görüldü. Professional hazırlığın aparıcı istiqaməti kimi heyətin iş yerində Qərbi Almaniyadan olan kolleqaları ilə birbaşa əlaqədə öyrədilməsi seçildi. Bu zaman nəzəriyyədə qazanılmış biliklər təcrübədə möhkəmləndirilirdi. Bu məqsədlə tədris prosesin əsas 4 forması istifadə olunurdu:

- seminarlar: burada, professional hazırlıqla yanaşı, dinləyicilər heyətlə iş və idarəetmə metodları sahəsində bank konsepsiyası ilə tanış olurdular;
- treninq: tədris siniflərində fərdi kompüterlərdə öyrədici proqramlarla məşq edirdilər;
- öyrədici-treninq: bankın Qərbi Almaniya filiallarının iş yerlərində aparılırdı;
- öyrətmə: Şərqi Almaniya filiallarına Qərbi Almaniyadan göndərilən, ezamiyyə olunan işçilərin köməyi ilə aparılırdı.

Bütün tədris formalarında konkret fəaliyyət misalların təhlilinin tətbiqi geniş istifadə olunur. Əgər Almaniyada müəssisə əhaliyə xidmət edirsə, onda onun əməkdaşları ən vacib kapitaldır.

Federal Ehtiyat Sistemi ABS-ın mərkəzi bank sistemidir. Federal Ehtiyat Sistemi ABŞ tarixində sayca üçüncü mərkəzi bank sistemidir. Daha əvvəl Birləşmis Statların Birinci Bankı (1791-1811) və Birləşmis Statların İkinci Bankı (1816-1836) valyutanın dövriyyəyə buraxılması, kommersiya kreditlərinin verilməsi, depozitlərin qəbul edilməsi və qiymətli kagızların buraxılması kimi fəaliyyət xidmətləri göstərməklə yanası, çox sayda filiallara malik olmus və ABŞ Xəzinədarlıgının maliyyə agenti olaraq fəaliyyət göstərmişdir.

Hal-hazırda Federal Ehtiyat Sistemi aşağıdakı funksiyaları yerinə yetirir:

1. Tam məşğulluğun və qiymət stabilliyinin əldə edilməsi məqsədilə pul və kredit dövriyyəsinə təsir göstərmək yolu ilə milli monetar siyasəti idarə edir;
2. Bank və maliyyə sistemlərinin möhkəmliyinin və təhlükəsizliyinin təmin edilməsi məqsədilə, bank müəssisələrinə nəzarət edir və onların fəaliyyətini tənzimləyir;
3. Maliyyə sisteminin stabilliyini saxlayır və maliyyə bazarlarındakı riski azaldır;

4. ABŞ hökumətinə, ictimaiyyətə, maliyyə müəssisələrinə maliyyə xidmətləri göstərir, milli hesablaşma sisteminin idarə etməsində də mühüm rol oynayır.

Tədqiqatlar göstərir ki, ABŞ-da kadrların təhsil səviyyəsi və əmək haqqı səviyyəsi arasında asılılıq yoxdur. Demək olar ki, tarif toru və tarif müqaviləsi terminləri yoxdur, iki qonşu bankda eyni bir işə görə 30-50% fərqə əmək haqqı almaq olar. Adətən boşalmış iş yerləri bankın öz işçilərinin yerdəyişdirilməsi hesabına deyil, başqa rəqib kredit müəssisələri və universitetlərdən cəlb olunan mütəxəssislərin hesabına doldurulur. Xüsusilə, bu, idarəedici vəzifələrə aiddir. Onlar 100% cəlb olunmuş mütəxəssislər hesabına doldurulur.

ABŞ-da bank işçiləri aşağıdakı 5 iri kateqoriyalara bölünür: əmanət üzrə xəzinədar-məsləhətçilər; fərdi müştərilərlə iş üzrə mütəxəssislər; filial rəhbərləri; firmalar, investisiya, beynəlxalq əməliyyatlar üzrə mütəxəssislər; elektron bank xidməti üzrə mütəxəssislər.

ABŞ-da kifayət qədər geniş formada təhsilə insanın daxili tələbatı kimi baxış yayılmışdır, yəni "oxumasam biznesdə nailiyyət qazanmaram" prinsipi hökm sürür. Amerikanlar bilirlər ki, təhsil almadan karyera nərdivanında irəliləmək, əmək haqqının artırılmasını tələb etmək, komandada hörmət qazanmaq olmaz. Başqa bir xarakterik hal da vardır ki, ali təhsil müəssisələrinin hər bir məzunu biznesdə uğur qazandıqdan sonra ona "həyata vəsiqə" vermiş ali məktəbinə kömək, yardım etməyi özünün borcu sayır.

Tədris prosesində əsas diqqət biznesdə nailiyyətlər əldə etmək üçün "komanda"da işləmək vərdişlərini inkişaf etdirməyə yönəldilir. Bunun üçün hər bir tələbənin öz işini yerinə yetirərkən kollektivlə (qrupla, "komanda" ilə) əməkdaşlığa şərait yaradan məqsədyönlü metodlardan istifadə olunur. Nəticədə dinləyicilərlə iş əlaqələrinin təşkili, insanlar arasında münasibət vərdişləri yaranır. Amerikan mütəxəssisləri belə hesab edirlər ki, biznesdə nailiyyət əldə etmək üçün ən əsası əlaqələr yaratmaqdır.

Buna görə də, işin və bankın çiçəklənməsi üçün heyətin fəaliyyətinin və təhsilinin artırılması üçün şəraitin yaradılması vacibdir. Buna hamını təhsil və iş prosesinin bütün səviyyələrində öyrədirlər. Belə hesab olunur ki, professional səviyyənin artırılmasının əsas yolu öz üzərində müstəqil işidir ki, bu da təhsil prosesində dinləyicilərdə özünü inkişafdan doğur.

Maliyyə - bank sahəsində böyük təcrübəyə malik olan ölkələrdən biri də Fransadır. Avropanın ən qədim mərkəzi banklarından biri olan Fransa Bankı 1800-ci ildə Napoleon Bonapart tərəfindən təsis edilmisdir. 1803-cü ildə Banka təqdim edilmiş və 1806-cı ildə təsdiq olunmus emissiya hüququ 1945-ci ilə qədər dörd dəfə təzələnmisdir.

Fransa Bankının əsas funksiyaları asagıdakılardır:

1. Avropa Mərkəzi Banklar sistemi çərçivəsində birgə monetar siyasətin həyata keçirilməsi;
2. Bank sisteminin və investisiya təşkilatlarının idarə olunması və onlara nəzarət edilməsi. Bu məqsədlə, Bankda Bankçılıq və Maliyyə Tənzimlənməsi Komitəsi, Bankçılıq Komissiyası, Kredit və Qiymətli Kagızlar üzrə Milli Sura;
3. Pul əskinazlarının çap edilməsi;
4. Ödəniş və hesablaşmalar sistemlərinin fasiləsiz işinin təmin edilməsi.

Fransanın kadr siyasəti Almaniyada olduğu kimidir, bank fəaliyyətinin nəticələrini heyətin idarə olunması və onun əməyinin ödənilməsi ilə sıx bağlayır. Fransa Bankında əməkdaşların ştat xərcləri ümumi gəlir məbləğinin 70%-ni təşkil edir.

Əməkdaşların kompetentliyinə və ümumi bank işinə onların sadiqliyinə az fikir verilmir. Bankda insan resurslarının keyfiyyətli idarə edilməsi üçün müxtəlif şöbələri olan uyğun aşağıdakı departamentlər var:

- işçilərin seçilməsi, heyətin professional etikası və karyerasının idarə edilməsi;
- kadrların hazırlaşdırılması və səviyyəsinin artırılması;
- bankda idarəedici əlaqələr, sosial siyasətin aparılması;
- əməkdaşların əmək haqqı təşkilatı.

Bankda işə qəbul olunmaq üçün, namizəd ilk növbədə onun professional bilikləri, xarici dil bilməsi, bank hüququ bilikləri ilə bağlı suallardan ibarət yazılı imtahan verməli, sonra isə şifahi müsahibə keçməlidir. İşə qəbulun növbəti mərhələsi isə namizədin səviyyəsi və vakansiya arasındakı fərqi müəyyənləşdirməkdir. Bu prosedura müsabiqə yolu ilə aparılır.

Fransa Bankı başqa maliyyə-kredit müəssisələri kimi boş yerlərə namizədləri işə almaq üçün vahid şərait yaradaraq müsabiqə yolu seçir. Bu şərait müsabiqə imtahanlarıdır. Bütün dərəcədən olan bank işçiləri arasındakı kişilərin qadınlara miqdar münasibəti uyğun olaraq 48-52%-dir. Aşağı idarəedici heyətdə kişilər 59%, ali idarəedici manqada isə 84% təşkil edir. Fransız mütəxəssislərinin araşdırmaları göstərir ki, bu vəziyyəti şərh etmək mümkün deyil, halbuki, kişilər və qadınlar üçün şərtlər eynidir və heç bir diskriminasiya xarakteri daşımır. Fransa Bankının idarəetmə heyətinin quruluşu iki yerə bölünür: yuxarı mərhələ-bura ali manqanın rəhbərləri (rəhbərin müavinləri) daxildir ki, onların da adətən, iki ali təhsil diplomu olur; aşağı mərhələ- bura aşağı manqanın rəhbərləri daxildir ki, onların arasında bəzən hesablama texnikası üzrə mütəxəssislər (mühəndis) olur. Hər iki mərhələ rəhbərləri hər il bütün Fransa ərazisi üzrə keçirilən müsabiqə yolu ilə seçilir. Müavin heyəti və boş yerlər üzrə müsabiqədə 800 iştirakçıdan cəmi 20 nəfər seçilir.

Heyətin ixtisas səviyyəsini həmişə bir qaydada saxlamaq üçün Fransa Bankı Professional Hazırlıq İnstitutuna malikdir və hər il 17 min dinləyici burada kurs keçir. Bankın hər bir işçisi ildə 6 gün təhsil, ixtisas artırma və s. istifadə edə bilər.

Peşəkar hazırlıq özündə bir neçə istiqamət növünü birləşdirir:

a) ilkin professional hazırlıq (birinci təhsil mərhələsi). Müsabiqədən sonra işə qəbul olunanların hamısı üçün vacibdir və onun müddəti ixtisas səviyyəsindən və işin dərəcəsindən asılı olur (bir qayda olaraq, 1-2 həftə);
b) artırılmış professional hazırlıq iş dərəcəsini artırmaq istəyən işçilər üçündür;
c) öyrətim kursu bank işçilərinin səviyyəsini saxlamaq üçün istehsal dəyişiklikləri ilə əlaqədardır.

Fransa Bankı kadrlarının əlavə təhsil alması üçün büdcəsinin 9%-ni ayırır.

Bütün bunların müqabilində dünyanın müxtəlif banklarında çalışan əməkdaşlarla kazuslar da baş verir və ya onların fəaliyyətlərindəki qeyri-dəqiqlik beynəlxaq səviyyədə səs-küyə səbəb olur.

Bu yaxınlarda beynəlxalq maliyyə-kredit sistemində özünəməxsus mövqeyi olan, Avropanın 7 aparıcı iri banklarından biri olan Fransanın məşhur "Societe General" bankının 30 yaşlı trederi fırıldaq nəticəsində indiyədək bank maxinasiyalarının ən yüksək həddi məbləğində - 5 milyard avronu mənimsəmişdir. Öz kapitalının 1/7-ni itirən bank yeni qiymətli kağızlar buraxmaqla vəziyyətdən çıxmağa çalışır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, analoji hallar 1995-ci ildə Böyük Britaniya, 2002-ci ildə ABŞ banklarında da təsadüf edilmişdi.

Yuxarıdakı inkişaf etmiş ölkələrin mövcud təcrübəsini göstərməklə, məqsədimiz onu sübut etməkdir ki, beynəlxalq praktikada bank mütəxəssislərinin hazırlığı və yenidən hazırlanmasında böyük təcrübə əldə olunmuşdur. Göstərilənlərə rəğmən, Azərbaycanda xarici bankların cəlb edilməsi, bank fəaliyyətində vahid informasiya sistemi, müasir maliyyə-kredit alət və texnologiyadan istifadə edilməsi - Dünya Bankı (DB) ilə, Beynəlxalq Valyuta Fondu (BVF), digər beynəlxalq bank-kredit təşkilatları, həmçinin, heyət hazırlığı və ixtisas artırması ilə məşğul olan təhsil müəssisələri ilə sıx əlaqələrin yaradılmasını tələb edir. Təkcə bir faktı qeyd etmək lazımdır ki, AYİB Azərbaycanda 80 layihəyə 720 milyon dollar investisiya yatırmış, alternativ enerji istehsalı üçün layihəyə texniki yardım göstərməyə hazırdır. Bu əməkdaşlıq ilk öncə bank fəaliyyətində dünya təcrübəsinin öyrənilməsi və istifadə edilməsi, kadrların hazırlığının təşkili, insan ehtiyatlarının idarə edilməsi və b. yollarla inkişaf etdirilir.

Beləliklə, dünya bazarında fəal inteqrasiyaya qədəm qoyan ölkə bank-kredit müəssisələri bu sahədə daha çətin problemləri aradan qaldırmalıdırlar. Nəzərdən qaçılmaz hal kimi onu da qəbul etmək lazımdır ki, kommersiya banklarının yaradılması yeni bank texnologiya və məhsullarının (fond, valyuta, lizinq, faktorinq, marketinq və s.) əmələ gəlməsi ilə üst-üstə düşür.

Buna görə də məqsəd ondadır ki, inkişaf etmiş ölkələrin heyətin hazırlıq və idarə edilməsi təcrübəsindən maksimal istifadə etmək və onu bizim bankların işində iqtisadi şəraitə uyğunlaşdırılmasıdır.

## ƏDƏBİYYAT

1. Azərbaycanın vergi xəbərləri jurnalı. Rzayev P.Q., Rzayev Z.H. İdarəetmə prosesində rəhbərlə tabeçilikdə olanların qarşılıqlı münasibətlərinin etik – psixoloji xüsusiyyətləri № 1/2014, s. 103 – 124
2. Böyük İqtisadi Ensiklopediya, III cild, Bakı, Şərq - Qərb, 2012, 608 s
3. Banklar və biznes jurnalı. Banklarda informasiya texnologiyalarının tətbiqi üzrə yol xəritəsi və nəzarət nöqtələri. № 43/2013, s.50-53
4. Məmmədov Z.F. Bank fəaliyyətinin əsasları: elmi-nəzəri və praktiki məlumat kitabı, Bakı, Azərnəşr, 2013, 480 s
5. Şahbazov K.A. Menecment (təkmilləşdirilmiş və əlavələr edilmiş II nəşri). Bakı, Təhsil EİM, 2007, 1036 s
6. Жарковская Е.П. Банковское дело. Учебник вузов Москва, Омега-Л, 2010, 480 с
7. Пено Р. Управление кадрами в Банке Франции. Деньги и кредит 1994/№2, с.55-62
8. Травин В.В., Дятлов В.А. Основы кадрового менеджмента. Москва: Дело, 1995, 336 с

## ABSTRACT

**Elnur Bagırov**

**The relevance of foreign experience in training bank board**

The importance of the bank staff training highlighted in the article. Therefore, in the different countries of the world as well as in the Azerbaijan the experience of the bank staff was learned, the comprehensive comparisons were conducted.

In the example of the leading countries of the world (UK, Germany, USA, France), different approaches to solving problems, and use of this experience in the bank-credit sector of our country, of course, can not be overlooked. It is noted that UK has a developed national system for the management of commercial banks committee. The training of specialists is not only carried out at the Universities but also at a variety of courses and centers which has extensive contacts with the European Union, countries of Central and Eastern Europe. These projects are funded by the UK Government at different countries which are in economic transition.

One of the other influential banking systems is the system of the Federal Republic of Germany. In the recent years, Germany’s bank system, with which we have expanding economical relations, is of a great interest. Federal Bank, the most influential member of the European Central Bank Systems from the point of view of its power and previous size, is the bank which has got the first full independence of the central bank.

The Federal Reserve System which is the US central bank system is the third central bank system of the United States’ history. The researches show that in the US there is no relationship between education level and salary level. Almost there have neither net tariffs nor tariff agreements, for the same work it is possible to get salary with the 30-50% difference at two adjacent banks. Usually the vacant jobs are not filled at the expense of the replacement of the bank employees but at the expense of the professionals from the other competing credit institutions and universities.

One of the countries which have an expensive experience in the finance-bank sector is France. The Bank of France, one of Europe's oldest central banks, was founded in 1800 by Napoleon Bonaparte. Right issue, which was presented to bank in 1803 and was approved in 1806, was renewed for four times till 1945.

## РЕЗЮМЕ

**Эльнур Багиров**

**Актуальность международной практики В сфере подготовки банковского персонала**

В статье подчеркивается необходимость подготовки сотрудников банка. В связи с этим обучен опыт персонала банков Азербайджана и разных стран, проведён комплексное сравнение. Различные подходы к решению проблемы обработаны и использованы на

примере опыта в банковской и кредитной сфере ведущих стран мира (Великобритания, Германия, США, Франция). Отмечено, что в Великобритании разработана национальная система управления банковского персонала. Подготовка специалистов проводится не только в университетах, но и ряд курсов и центров которые имеет обширные связи со странами Европейского Союза, Центральной и Восточной Европы. Эти проекты также финансируются правительством Великобритании для некоторых из стран с переходной экономикой.

Один из других влиятельных банковских систем мира является банковская система Германии. В последние годы немецкая банковская система представляет большой интерес для нас в связи расширением экономических связей. Федеральный Банк Германии, первым получивщий полную независимость как центральный банк, с точки зрения размера ее силы и могущества, самый влиятельный член системе Европейских центральных банков.

Федеральная Резервная Система является центральным банком Соединенных Штатов и является третьим в истории центрального банка системы США. Исследования показывают, что в США нет зависимость между уровнем образования и уровнем заработной платы персонала банков. Почти не используется тарифное расписание и тарифное соглашение, в два соседних банках вы можете получить 30-50% разницы в заработной плате. Обычно вакантные места заполняется не за счет работников банка, а за счет специалистов конкурирующих кредитных учреждений и университетов.

Франция - одна из стран, в которых имеет обширный опыт в финансово-банков-ской системе. Банк Франции, один из старейших центральных банков Европы, который был основан в 1800 году Наполеоном Бонопартом. Эмиссионные права были предостав-лены Банку в 1803 году и утверждён в 1806 году, обновлен до 1945 года четыре раза.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* T.Abbasov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 6 (71)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 6 (71)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 6 (71)**

**HÜSEYN BAĞIRSOYLU**
*Naxçıvan Dövlət Universiteti*

UOT:332.1

# SƏRBƏST TİCARƏT ZONALARI – İQTİSADİ İNKİŞAF AMİLİ KİMİ

**Açar sözlər:** *sərbəst ticarət zonaları, iqtisadi inkişaf, xüsusi zonaların təsnifləşdirilməsi, qruplaşdırma amilləri, regionların inkişafı*

**Key Words**: *free trade zone, economic development, classification of the special zones, grouping factors, the development of regions*

**Ключевые слова:** *свободные торговые зоны, экономическое развитие, группирование специальных зон, факторы группировки, развитие регионов*

Hər bir cəmiyyətin inkişafı onun ətrafında formalaşan, öz təzahürü ilə spesifik sistemi ifadə edən amillər kompleksindən ibarətdir. Bu amillər tərkib etibarı ilə sosial, iqtisadi, coğrafi, hüquqi, idarəetmə və digər qruplarda birləşdirilə bilər. Ölkələrdə aparılan iqtisadi təkamül siyasəti, adətən, onlardan (yəni, amillərdən) istifadənin optimal ölçülərinin müəyyən edilməsi və bu əsasda özünün daima yeniləşmə və irəliləmə modelinin hazırlanmasını tələb edir.

Məsələyə əsaslı yanaşma bir sıra komponentlər üzrə tədqiqatın qurulmasını zəruriləşdirir. Bu yöndə biz ilk növbədə aşağıdakı məqamların, nyuansların cavablandırılmasını həyata keçirməli, onlardan perspektiv zaman kəsiklərində hansı formada yararlanma haqqında fikir və düşüncələrimizi sərgiləməliyik:

1 İqtisadi inkişafın tarixi təməllər əsasında formalaşması xüsusiyyətlərinin, prioritet və imkanların mahiyyətinin açıqlanması və qiymətləndirilməsi;

2 Ölkə və regional səviyyələrdə iqtisadi quruluşların tətbiqi ilə bağlı optimal qərarların qəbulu;

3 Təsərrüfat subyektləri və fiziki şəxs formasında fəaliyyət göstərən vahid-lərin özünün məhsullarını (mallarını, xidmətlərini, işlərini) reallaşdırma imkanlarının həqiqi vəziyyətinin öyrənilməsi;

4 Araşdırılan məsələlrin “sərbəst xarici ticarət ↔ regional iqtisadiyyat” tandemində nəzərdən keçirilməsi;

5 Satış imkanlarının artırılması yönündə əlavə təşkilati-idarəetmə (o cüm-lədən beynəlxalq əlaqələr müstəvisində) işlərinin həyata keçirilməsi və s.

Qeyd etmək yerinə düşər ki, bir tərəfdən daxildə istehsal olunan məhsulların həcmi (daxili tələbatla müqayisədə) artdıqca, digər tərəfdən isə istənilən ölkə və region daxilində cəmiyyətin tələbatının bütün komonentlərinin istehsal oluna bilməsinin mümkünsüzlüyü nəzərə alınmaqla beynəlxalq mal mübadiləsinə ehtiyac yaranır. Tərkib etibarı ilə burada əsas iştirakçı element kimi çıxış edən obyektlər istehsal (xidmət) və ya fərdi tələbatı ödəmək məqsədini güdürlər. Yaranan vəziyyət xüsusi iqtisadi təyinata malik zonaların yaradılmasına rəvac verir, onların zəruri-liyini şərtləndirir.

Beynəlxalq təcrübəni də nəzərə alaraq düşünürük ki, xüsusi iqisadi zonaların təsnifləşdiriməsi ilk növbədə aşağıdakı tərkiblə səciyyələnməlidir:

1.sərbəst ticarət zonaları;

2.xüsusi (azad) istehsal (emal) zonaları;

3.qarışıq təmayüllü (yəni həm hasilatı, həm də reallaşdırmanı özündə birləşdi-rən) sərbəst zonalar;

4 bəlli sahə təyinatı olan (məsələn, azad, kifayət qədər münbit bankçılıq mühiti yaradılmış, yaxud sahəvi aidiyyata əsasən seçilən) sərbəst zonalar;

5 sərbəst elmi-əməkdaşlıq və tətbiq (təşəbbüs) zonaları;

6 sair sərbəst fəaliyyət imkanlarını özündə birləşdirən zonalar.

Təsnifatın maddələrinin nisbətən az olmasına baxmayaraq, onlar kifayət qədər tutumluluq, informastivlik səviyyəsinə malikdirlər.

Aydındır ki, bu bəndlərin hər biri elmi araşdırma müstəvisində özünəməxsus cəhətləri ifadə edir. Onların ümumiləşdirilməsi iki əsas məqamı ortaya qoymağa imkan yaradır:

- ✓ Tərkiblərində vahid, oxşar cəhətləri ifadə edən prinsiplərə (sərbəst işgörmə imkanlarının yaradılması, vergi səviyyələrinin yoxluğu və ya kifayət qədər zəif olması və s.) malikolma.
- ✓ Hər birinin xüsusi təyinata cavab verməsini ifadə edən, onların spesifika-sını əks etdirən, fərdiyyət təşkil edən prinsiplərə (məşğuliyyət növü və forması, sahə və ya istiqamət ayrıcalığı və s.) malikolma.

Digər tərəfdən nəzərdən yayınmamalıdır ki, sərbəst hasilat və reallaşdırma zonalarının yaradılması və sonrakı fəaliyyəti digər iki xüsusi məsələyə aidiyyatı ilə də seçilməli, onların nəzərə alınması mütləq şəkildə gözlənilməsidir. Fikrimizcə, bunlardan birincisi, konkret sahə və ya daha dar çərçivəli ixtisaslaşmanı ifadə edirsə, digəri–onların yaradıldığı ərazinin (regionun) xüsusiyyətləri ilə qarşılıqlı sürətdə biri-digərini tamamlamalıdır. Deyilənlərin mahiyyəti haqda daha aydın təsəvvür yaratmaq üçün onlarla bağlı baxışlarımızın ardıcıl ifadə edilməsi məqsədəuyğun olardı.

Sərbəst zonaların kifayət qədər geniş tətqiqat obyekti hesab olunmasını nəzərə alaraq, onların tərkibindən ancaq bir növün – sərbəst ticarət zonalarının seçilərək diqqət mərkəzinə gətirilməsi və onlarla bağlı zəruri, ilkin araşdırma addımlarının atılması həm tədqiqatın aparılması istiqamətinə, həm də onun obyektinin xarakter və xassələrinə daha əsaslı diqqətin ayrılmasına şərait yaradacaqdır.

İlk növbədə qeyd etmək yerinə düşər ki, dünyada yaradılan bütün sərbəst (azad, xüsusi) iqtisadi zonaların təməlində məhs sərbəst ticarət zonaları dayanır. Yerli-coğrafi, təşkilati-idarəetmə, hüquqi, infrastrukturm və digər şəraitin mövcudluğu məhs haqqında bəhs olunan zona qrupunun bərqərar olması mümkünlüyünü ortaya qoyur. Bir çox hallarda bütövlüklə şəhərlər sərbəst ticarət təməlləri əsasında özünün fəaliyyətini yenidən nizamlayırdı. Heç də təsadüfi deyil ki, tanınmış türk alimi Ahmet İncekaya özünün 1986-cı ildə İstanbulda işıq üzü görmüş "Dünyada və Türkiyədə sərbəst bölgələr" adlı əsərində qeyd edir ki, "istər tarixən, istərsə də mövcud zaman kəsiyində sərbəst şəhərlər adətən artıq mövcud olan şəhərlərin tam hüdudları daxilində siyasi baxımdan qismən və ya tamamən müstəqil, xarici sahibkarların yerləşməsinə icazə verilmiş, əsasən gəmi ticarətinin və nəqliyyatının geniş olduğu bir ticarət bölgəsi kimi formalaşmışlar və haliyədə formalaşmaqdadırlar".

Araşdırmalardan aydın olur ki, sərbəst zonaların yaradılması mahiyyətcə "açıq" adlandırılmış şəhərlərin bazasında mümkün olmuşdur. Tədqiqatların nəticəsi kimi göstərilə bilər ki, beynəlxalq miqyasda ilk açıq şəhərlərin yaradıl-ması, bərqərar olması Aralıq dənizinin cənib və şərq regionlarının ərazilərinə təsadüf etmişdir. Bu fakt aşağıdakı əsas təsir amilinin mövcudluğunu şərtləndirir:

1. Ticarətin – müstəqil sahə kimi əhəmiyyətinin kifayət qədər yüksək olması;
2. Dənizlər vasitəsilə daha böyük məsafələrin ticarət məqsədləri baxımından qət edilməsi;
3. Məhs Ararlıq dənizi sahillərində yerləşən regionların (Roma, Yunanıstan və s.) həmin dövrdə daha sürətli inkişafının mövcudluğu və s.

Bəhs olunan məsələdə həmin dövrdə iqtisadi təlimlərin tərkibində ticarətin daha üstün qəbul edilməsini şərtləndirən cərəyanlar da mühüm rol oynamışdır.

В настоящее время любую организацию очень трудно представить без человеческих ресурсов, это практически невозможно. Поскольку для определения целей организации и создания стратегии для качественного осуществления этих целей в самое короткое время, человеческие ресурсы являются одним из самых важных факторов. В случае неправильного использования своих ресурсов или формирования правил использования человеческих ресурсов, компания сталкивается с такой проблемой, как бизнес дилемма.

В результате исследования источников по этическому бизнесу и этической дилемме можно прийти к выводу, что для разрешения проблемы этической дилеммы очень важно иметь такие навыки и качества как понимание, умение слушать, вести переговоры, ответственность, честность, уважение к окружающим, желание исследовать проблему, надежность, искренность, а также умение вести совместную деятельность. (Lankard,2008 цитируется по Abiodun & Oyeniyi,2011.) Наличие лидера с такими качествами означает быстрое разрешение этических дилемм, возникших в компании.

В статье тщательно рассмотрена определенная литература по деловой этике и этическим проблемам, которые могут возникнуть в случае неправильного использования ресурсов организации. Для изъяснения этической дилеммы, возникшей в результате неправильного использования ресурсов организации, в особенности человеческих ресурсов, в статье проанализирована реальная компания. Дана информация об этической дилемме, возникшей во время деятельности компании, проанализированы ее причины, и отмечены пути ее разрешения. Разрешение возникшей этической дилеммы также проанализировано с точки зрения эгоизма и утилитаризма.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* T.Abbasov

**HƏSƏN ABBASOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:316.33**

# ÖLKƏ İQTİSADİYYATINDA SAHƏVİ TƏNZİMLƏMƏ ANLAYIŞI: MAHİYYƏTİ, FORMALARI VƏ VASİTƏLƏRİ

**Açar sözlər:** *ölkə iqtisadiyyatı, sahəvi tənzimləmə, tənzimləmə formaları, tənzimləmə vasitələri, sahəvi tənzimləmənin zəruriliyi*

**Key words:** *the national economy, rural regulation, foms of regulation, regulation facilities, the need for sectoral regulation*

**Ключевые слова:** *экономика страны, отраслевое регулирование, формы регулирования, средства регулирования, необходимость отраслевого регулирования*

Hər bir ölkə özünəməxsus iqtisadi sistemə malikdir. Məzmun etibarı ilə fərqli tərkib hissələrdən, prioritet və digər sahələrdən formalaşan bu məcmu digər məsə-lələrlə yanaşı özündə tənzimləmə fəaliyyətini, onun alət və mexanizmlərini bir-ləşdirir. Bu fəaliyyət və seçim ilk növbədə cari dövrdə mövcud olan iqtisadi sistemi, onun xarakterik cəhətlərini, prinsip və funksiyalarını ifadə etməlidir.

İqtisadiyyatın azad bazar prinsipləri üzərində qurulması və liberal təməllərlə inkişaf etdirilməsi, sahibkarlıq fəaliyyətinin əhatə dairəsinin genişlənməsi, müəssi-sələr tərəfindən müstəqil maliyyə-pul siyasətinin həyata keçirilməsinə rəvac veril-məsi dövlətin sahə və fərdi subyektlər üzərində birbaşa idarəetmə funksiyalarının məhdudlaşması ilə, bəzi istiqamətlərdə isə tamamilə ləğvi ilə nəticələnmişdir. Lakin yaddan çıxarılmamalıdır ki, ölkələrin iqtisadi quruluşlarının özü-özünə, xaotik təkamülü mümkün deyil. Məhs belə vəziyyət tənzimləmə tədbirlərinin həyata keçirilməsinə rəvac vermişdir. Iqtisadi, inzibati, təşkilati və digər tənzimlə-mə alət və vasitələri ilə sahəvi və fərdi fəaliyyətin nizama salınması dövlətlərin re-al vəziyyətini bir tərəfdən informasiya müstəvisinə daşıyır, digər tərəfdən isə daxili və beynəlxalq arenaya hesablanan nisbətlərin dəqiqləşdirilməsinə şərait yaradır.

Məqalədə qoyulan məsələnin əhatəli, müfəssəl araşdırılması, onunla bağlı ay-dın təsəvvürün yaradılması qarşılıqlı əlaqədə olan, biri-birini tamamlayan "üfuqi" və "şaquli" yanaşmaları özündə birləşdirir.

Araşdırmanın birbaşa obyektinin (yəni, sahəvi tənzimləmənin) "üfuqi" istiqa-mətdə nəzərdən keçirilməsi ilk növbədə ölkələrin iqtisadiyyatlarının quruluşu ilə şərtlənir. Məhs həmin quruluş spesifik tənzimləmə alət və vasitələrinin seçimi və tətbiqini zəruri edir.

"Şaquli" tənzimləmədə istifadəsi nəzərdə tutulan tənzimləmə mexanizmləri-nin kəmiyyət plankaları müəyyənləşir ki, bu da müvafiq tənzimləmə əməliyyatları haqda spesifik cəhətləri aşkara çıxarmaqla yanaşı bu prosesin gedişatı ilə bağlı düşüncələri dəqiqləşdirir, onların vahid məcmu kimi ifadəsinə şərait yaradır.

Məsələnin konkretləşdirilməsi bizi bir sıra özünə cavablar gözləyən məqam-larla üz-üzə gətirir. Onların arealı geniş olsa da, bu sırada biz mühüm olanlarını aşağıdakı kimi sadalaya bilərik:

1. Keçmiş ölkə quruluşundan qalan mirasın tənzimlənməsi hansı yöndə təşkil olunmalıdır?
2. Tənzimləmənin obyekti və vahidi, subyekti hansı əsaslarla seçilməlidir?
3. Tənzimləmə zamanı hansı tədbirlər kompleksindən (qadağanedici, məh-dudlaşdırıcı, həvəsləndirici və s.) istifadə olunması məqsədəuyğundur ?
4. Ümumi tənzimləmə əməliyyatlarında hansı nyuansların daha qabarıq ifadə edilməsinə ehtiyac vardır?
5. Bu nyuansların optimallıq şkalası necə müəyyən edilməlidir ?
6. Tənzimləmə aləti (və ya vasitəsi) bu nyuansa və ya şkalaya hansı təsiri göstərmək imkanındadır ?
7. Tənzimləmədə tam və ya qismən məhdudlaşdırıcı elementlərin tərkibində hansı maddələr ifadə oluna bilər və s.

İfadə edilən suallardan göründüyü kimi, "*tənzimləmə*" – fəaliyyət növüdür, kifayət qədər mürəkkəb mexanizmdir, çoxşaxəli və rəngarəng (bəzi hallarda hətta yaranan vəziyyətdən asılı olaraq biri-digərini məhdudlaşdıran, qadağan edən və ya nizamlayan) tərkibə malik məcmudur.

Öz növbəsində *sahəvi tənzimləmə* - ümumi tənzimləmə fəaliyyətinin tərkib hissələrindən biri olub, hər hansı konkret sahə üzrə aparılan nizamlayıcı tədbirləri nəzərdə tutulur. Onun məzmunca araşdırılması çoxsaylı və məzmun müxtəlifliyi ilə seşilən bölmələrin ortaya çıxarılmasına şərait yaradır. Bu quruluşda iqtisadi, təşkilati, hüquqi, idarəetmə, sosial və digər oriyentasiyalı qruplar, onların daxilində isə alət və vasitələr fərqləndirilir.

Fikirlərimizin ümumiləşdirilməsi məqsədilə ilk növbədə aşağıdakı sxemə mü-racət edək və onun strukturunu nümunəvi qaydada aqrar sahə üzərində quraq (sxem 1).

Bəhs olunan istiqamətdə fikirləri davam və inkişaf etdirmək məqsədilə ilk növbədə iqtisadi fəaliyyətə aid əməliyyatlar sisteminin ümumi tənzimlənməsi yönündə düşüncələrə aydınlıq gətirmək yerinə düşərdi. Belə ki, məhs təməl aspekt-ləri özündə əks etdirən ümumi tənzimləmə öz növbəsində sahə daxilində həyata keçirilən fərdi, "lokal" tənzimləmə fəaliyyətlərinin başlanğıcı istinad nöqtəsi hesab olunur. Məsələn, son on ildə Azərbaycan Respublikası Prezidenti tərəfindən ölkədə sosial-iqtisadi inkişafının təmin edilməsinə həsr olunmuş çoxsaylı ümumi təyinatlı tənzimləmə xarakterinə malik fərman, əmr və sərəncamlar imzalanmışdır. Bu hü-quqi-normativ baza isə öz növbəsində arqar sahə üzrə fəaliyyətin də nizama salın-masına rəvac verir.

Digər tərəfdən isə sonrakı, daha "incələnmiş", ümumi obyektin tərkib hissə-lərini təşkil edən vahidlərin tənzimləməsi yolunda keçid fazası kimi qəbul olun-malı, onun optimallıq və digər parametrləri məqsədyönlü şəkildə qiymətləndirilmə-

***Sxem 1. Aqrar sahənin tənzimlənməsi istiqamətləri***




lidir. Həmçinin yaddan çıxarılmamalıdır ki, aqrar sahənin tənzimlənməsi onunla əlaqəli təchizat, tədarük, daşıma, saxlama və digər xidmətləri həyata keçirən sek-torlara da təsirsiz ötüşməyəcəkdir.

Tənzimləmənin həyata keçirilməsində mühüm bölmələrdən birini istehsal fəaliyyətinin tənzimlənməsi yönündə görülən işlər təşkil edir. Bu işlər konkret is-tehsal sahə və vahidlərinin xüsusiyyətlərindən irəli gələn nizamlayıcı addımların atılmasını nəzərdə tutur. Onlar istehsalın xüsusiyyətlərini nəzərdə tutan idarəetmə, təşkiklati, ekspertyiza, seleksiya, aqrotexniki, sanitar-epidemiya və digər xarakterli tənzimləmə istiqamətlərini özündə birləşdirir.

Subyektdaxili və subyektdənkənar əlaqələrin tənzimlənməsini ifadə edən və konkret sahələrin nizamlanmasında xüsusi rol oynayan böımə mühüm istiqamətlərdən hesab olunur. Onun

tərkibində hasilatın mümkünlüyü üçün təchizat və təda-rük sisteminin qurulması ilə, istehsalın başa çatmasından sonra zərurət hiss olunan reallaşdırma alət, yol və mexanizmlərinin tətbiqi ilə və digər aidiyyatı məsələlərlə bağlı nizamlayıcı elementləri özündə birləşdirir.

Mövcud strukturlar və onlardakı dəyişmələrin tənzimlənməsi nümunə kimi qəbul etdiyimiz aqrar sahənin fəaliyyətini tənzimləyən orqanların (xüsusilə də Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və onun yerlərdəki struk-turlarının) struktur yenilənməsinin nizama salınmasını nəzərdə tutur.

Tənzimləmə fəaliyyətində mühüm istiqamətlərindən birini də pul tədavülü və maliyyələşmələrdir. İstənilən, o cümlədən aqrar sferadakı istehsal fəaliyyətində cinsi ifadələrin tətbiqi hasilatdaxili miqyasda mühüm rol oynasa da, bu yöndə olan informasiyanın ümumiləşdirilməsində, keçmişdə görülmüş, faktiki icra olunan və perspektivdə görüləcək işlərin ümumiləşdirilməsi dəyər ifadəsində təsvir olunan maliyyə-pul vəsaitlərinin mövcudluğunu, onların hesablaşmalar üzrə iştirak forma-larını nəzərdə tutur.

İstehsal prosesinin mövcudluğu məsrəflər, maya dəyəri və qiymətlər anlayışı-nı aktuallaşdırır ki, bu da ümumi tənzimləmə prosesinin tərkib hissələrindən hesab olunur.

Aqrar sahədə hasilatın baş tutması üçün subyektlərin malik olan, daşınar və daşınmaz əmlak şəklində ifadə olunan əsas vəsaitlər üzrə əməliyyatların tənzimlən-məsi onların ilk növbədə alış qaydalarını, köhnəlmələrinin hesablanmasını özndə ehtiva edir.

Aqrar sahədə fiziki və ya hüquqi şəxs formasında fəaliyyət göstərən subyektlər özündə tələblər cavab verən qayda və parametrlərdə uçot-hesabat işlərini təşkil etməli və həyata keçirməlidir. Bu baxımdan bəhs olunan istiqamətlərin tənzimlənməsi ilə bağlı hüquqi, normativ və təşkilati tənzimlənməsini nəzərdə tutmalıdır.

Digər hasilat sahələrində olduğu kimi, aqrar sahədə də mühüm amillərdən biri işçi qüvvəsinin – müəyyən əmək bilikləri və vərdişlərinə malik insanların sosial-məişət şəraitinin yaxşılaşdırılmasıdır. Bu baxımdan haqqında bəhs olunan istiqa-mətin tənzimlənməsi özünəxsusluğu ilə fərqlənməlidir.

Sahəvi tənzimləmənin araşdırılmasında onun regional tənzimləmə fəaliyyəti ilə qarşılıqlı əlaqə və asılılıq şəklində nəzərdən keçirilməsi məqsədəuyğundur. Belə məsələnin nümunə kimi nəzərdən keçirilən sahənin – kənd təsərrüfatının tim-salında araşdırılması məqsədilə sxem 2-dən istifadə etmək məqsədəuyğundur.

***Sxem 2. Regionların fəaliyyətinin sahəvi tənzimlənməsi***




Sxem 2-dən göründüyü kimi, region səviyyəsində tənzimləmə fəaliyyətində mövcud imkanlar qiymətləndirilməklə konkret sahənin payına düşən hissə nisbətən zəif ölçülərlə ifadə olunacaqdır. Belə ki, regiondakı sistem təkcə bizim seçdiyimiz və ya nəzərdən keçirmək istədiyimiz tək bir sahədən deyil, çoxsaylı və müxtəlif-yönlü (eyni zamanda özünə uyğun diqqəti tələb edən) fəaliyyət istiqamətlərindən ibarətdir.

Digər tərəfdən tənzimləmənin texniki, texnoloji və digər növləri də mühüm hesab olunmalıdır. Belə ki, onlar hasilatın (xüsusilə də aqrar sahə üzrə) həm kə-miyyət, həm də keyfiyyət irəliləmələrinə səbəb olur, onun ümumi (istehsal, mədəni və s.) səviyyəsini artırır, burada hökm sürən mühitin müsbət mənada yüksəlməsinə gətirib çıxarır.

## ƏDƏBİYYAT


1. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət, Bakı, Asiya, 2003, 216 s
2. Allahverdiyev H.A. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi, Bakı, ADİU-nun mətbəəsi, 2007, 792 s
3. Alıyev İ.H., İbadov S.A. Azərbaycan iqtisadiyyatı. Bakı: Ağrıdağ, 1998, 395 s
4. Bağırov M.S. Kənd təsərrüfatında istehsal və satış münasibətlərinin formalaşmasının müasir vəziyyəti və xüsusiyyətləri, Naxçıvan, Qeyrət, 2014, 107s
5. Əliyev A.Ə. Azərbaycanın iqtisadi siyasəti, Bakı, Qanun 2003, 264 s
6. Rüstəmov A.A., Qasımov D.Q. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi, Bakı, Avrora, 2013, 406s
7. Rzayev İ. Azərbaycan Respublikasında regionların davamlı sosial-iqtisadi inkişafı, mövcud vəziyyət və gələcək perspektivlər, Bakı, Elm, 2010, 351 s


## ABSTRACT


**Hasan Abbasov**

**The rural regulation of country economy: forms, means and essence.**

The article deals with the general meaning of economy, it’s regulation directions and features. It is noted that, liberal foundations of the economy based on market principles in the development of an action - regulation is considered to be significant components. The main object of the study was accepted as an agricultural area. It is no coincidence, that’s the nature of the problem reflects the sectoral approach.

The significance of the agrarian sector is quite distinguished by its field. This area meet the demands of the population with it’s food productions, raw materials processing industry. In other case this area exposes many reforms.

The article, along with sectoral regulation, internal research focuses on the study of comparative regional regulation. The schemes were used in analyzing the topic, and it allows us to leam more about the issues.


## РЕЗЮМЕ


**Гасан Аббасов**

**Понятие отраслевого регулирования в экономике страны: сущность, формы и средства**

В статье основное внимание уделяется оющему понятию экономики страны, направлениям и особенностям ее регулирования. Отмечается, что при развитии экономики по рыночным приципам, на либеральной основе деятель-ность регулирования считается одним из важных компонентов.

Для поставленной к многостороннему исследованию проблемы выскажы-вается необходимость с одной стороны разработки комплексных регулировоч-ных мероприятий по экономической системе, с другой же стороны выявляются параметры «границ» по этим мероприятиям. Объектом исследования выбрана аграрная отрасль. Не случайно, что выражаемая в статье проблемы обобщает в себе особенности тораслевого подхода.

Аграрная отрасль – является отличающейся в количественно-качественном плане в довольно высоких параметрах своей значимостью сферой. Она занима-ется погашением потребностей населения по продовольственным товарам и перерабатывающей промышленности по сырью.

С другой же стороны, сельское хозяйство – самая подверженная реформам отрасль. Этим и сопутствуюшими другими реалиями вызвано использование в высокой степени механизмов урегулирование по отрасли..

В статье наряду с внутренним исследованием отраслевого регулирования, особое внимание также уделено его изучениям в сопоставлении с региональным урегулированием.

При рассмотрении проблем в статье использованы две схемы, что помо-гает более обширно рассмотреть вопросы по изучаемому объекту.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* T.Abbasov

**MEHDİ BAĞIROV**
*Naxçıvan Dövlət Universiteti*
*e-mail: Dr.Mehdi_Bagirov@mail.ru*

**UOT: 316.33**

# İSTEHSAL VƏ SATIŞ SISTEMİNİN REGİONAL AQRAR BAZARLARIN TARAZLI İNKİŞAFINA TƏSİRİ

**Açar sözlər:** *aqrar bazar, istehsal sistemi, satış sistemi, regional tarazlıq*
**Key words:** *aqrarian market, productional system, selling system, regional eguilibrium*
**Ключевые слова:** *аграрный рынок, производственная система, сбыточная система, региональная уравновешенность*

Aqrar sahədə istehsal və satış sisteminin təşkili özünün kompleksliyi ilə fərqlənir. Belə quruluş eyni zamanda çoxyönlü, müxtəlif tərkibli qarşılıqlı əlaqələndirmə və təsirlərlə müşayiət olunmaqdadır. Onları içərisində "istehsal-satış sistemi və regional bazar" qarşılaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Kənd təsərrüfatı sahəsində istehsal və satış sisteminin formalaşdırılması və fəaliyyətinin təşkilinin nəticələrinə ümumi şəkildə nəzər yetirsək aşağıdakı sxemlə rastlaşarıq.

***Şxem 1. Subyektlərin fəaliyyət sistemlərinin ətraf iqtisadi və sosial istehlakçı mühiti ilə əlaqələndirilməsi***




*Mənbə: sxem müəllif tərəfindən hazırlanmışdır*

Sxemdən də göründüyü kimi, subyektlərin istehsal və satış sistemlərinin sonradan qarşılıqlı münasibətlər formalaşdıracaq digər tərəflər arasında qarşılıqlı təsir yaranır. Belə ki, bir tərəfdən "ticari" məkan aqrar istehsal subyektinin reallaşdırmağa göndərdiyi məhsullarla zənginləşirsə, digər tərəfdən bazarın istehlakçı tərəfi özünün istək və ehtiyaclarını ortaya qoymaqla istehsalçı tərəfə öz tələblərini irəli sürür. Onun əsasında nümunisi aşağıdakı sxemdə verilən əlaqələr, istək və imkanlar sistemi bərqərar olur.

***Sxem 2. "İstehsal-istehlak"dövriyyəsinin təsir elementləri.***




*Mənbə: sxem müəllif tərəfindən hazırlanmışdır*

Qeyd etmək yerinə düşər ki, bölmə üzrə araşdırma istehsalçı ilə istehlakçı arasında "tələb-təklif" tarazlığının regional səviyyədə nəzərdən keçirilməsini ifadə edir. Onun məzmunu regionun aqrar (xüsusilə ərzaq) məhsullarına olan tələbatın fizioloji (və ya di-gər aid) normalar əsasında əhali sayına normalar əsasında müəyyənləşdirilməsi və onun faktiki hasilat həcmləri ilə müqayisə edilməsidir. Həyata keçirilən araşdırma regional bazarda tarazlığın qorunması baxımından bir neçə məqama aydınlıq gətirəcəkdir: 1. tələbatın faktiki ödənməsi dərəcəsinin səviyyəsi haqqında informasiya əldə olunmalı; 2. regional ehtiyacın hansı hissəsinin xaricdən idxal və ya ölkədaxili başqa rayonlardan gətirilmə hesabına ödənəcəyi müəyyənləşdirilməli; 3. kəsir həcmlərin yerli istehsal hesabına ödənilmə imkanları yenidən nəzərdən keçirilməli; 4. mümkün olacaq bütün əməliyyatların iqtisadi, sosial, psixoloji və digər məqamları dəqiqləşdirilməli; 5. "ehtiyac-həqiqət-real gəlirlər" üçbucağı üzrə tarazlığının tənzimlənməsi yolunda işlər planı hazırlanmalı və s.

Zəruri informasiyaya malikolma fəaliyyətin sistemli marketinq qayda və prinsipləri əsasında təşkili şərtində istehsalın quruluşunun və tərkibinin formalaşması, cari dövr məlumatları əsasında perspektiv ehtiyacların qarşılanması mümkün olacaq (cinsi və dəyər) həcmlərinin müəyyənləşdirilməsi region bazarının qarşıdakı dövrlərdə də tarazlı fəaliyyət göstərmələrinin zəminlərindən hesab olunur.

İstehsalın həcmlərindəki müsbət mənada kənarlaşmalar (istehsal həcminin tələbat ölçüsünün üstələməsi) bütün hallarda cari dövr üçün qiymətin aşağı səviyyəsinin qorunması mənasını daşıyırsa da, məhsulların düzgün bölüşdürülməməsi həmin istiqamətdə kəskin tərəddüdlərlə müşayiət oluna bilər ki, bu da son nəticədə hər iki tərəfə təməlli olaraq heç də yaxşı nəticə vəd etmir. Məsələn, Naxçıvan şəhər bazarlarının orta günlük alma ehtiyacı 472 kiloqrama yaxın olduğu halda, istehsal məkanından daşıma məsrəflərini azaltmaq məqsədilə həmin məkana təkcə bir istehsalçı subyektdən 15 ton eyni adlı yükün göndərilməsi nə dərəcədə məqsədəuyğundur? Belə ki, müvafiq bazarın kifayət qədər böyük tutuma malik müvəqqəti saxlama (soyuducu) qurğuları yoxdur. Almanın təbii tərkib xüsusiyyəti isə onun uzun müddət (həftədən artıq) açıq şəkildə saxlanılmasına imkan vermir (məhsulun zahiri görünüşünün pozulması, keyfiyyətinin aşağı düşməsi və s.). Yaranan vəziyyət hasilatçı üçün gəlir əldə etməkdən çox zərərlə üzləşmək situasiyasını aktuallaşdırır ki, bu da marketoloji alət və vasitələrdən lazımınca istifadə edilmədiyinin, informasiyasızlığın nəticəsidir və nəinki Naxçıvan bazarında, istənilən regional mübadilə məkanında tarazlığın tələbatın artması yönündə pozulmasına gətirib çıxaracaqdır. Regional səviyyədə bazar tarazlığının qorunmasında digər amillərlə yanaşı ayrı-ayrı maliyyə elementlərinin təsirinə aydınlıq gətirmək məqsədəuyğun olardı. Bunun üçün ilk növbədə aşağıdakı cədvələ diqqət yetirək.

***Cədvəl 1. Ölkə və regional aqrar istehsalın maliyyə göstəriciləri***

| Göstəricilərin adı | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **2000** | **2005** | **2009** | **2010** | **2011** | **2012** | **2013** |
| 1.Kənd təsərrüfatı məhsullarının bir sentnerinin maya dəyəri (manat, qəpik) | | | | | | | |
| Dənlilər və dənli paxlalılar | 8,88 | 8,05 | 11,77 | 14,91 | 14,15 | 13,26 | 16,22 |
| Xam pambıq | 26,14 | 21,64 | 34,7 | 36,51 | 45,31 | 36,47 | 51,51 |
| Şəkər çuğunduru (emal üçün) | 2,38 | 2,99 | 4,28 | 3,48 | 2,25 | 2,50 | 2,79 |
| Tütün | 53,79 | 31,65 | 60,76 | 37,30 | 52,79 | 60,00 | 50,38 |
| Yaşıl çay yarpağı | 26,03 | 25,55 | 72,04 | 75,31 | 51,59 | 91,83 | 93,23 |
| Kartof | 13,27 | 11,06 | 19,87 | 30,34 | 41,24 | 28,66 | 21,15 |
| Tərəvəz (açıq torpaqda) | 7,82 | 4,70 | 14,88 | 15,30 | 12,50 | 9,21 | 11,20 |
| Bostan məhsulları | 3,33 | 5,80 | 8,17 | 7,87 | 7,91 | 8,41 | 8,81 |
| Meyvə və giləmeyvə | 5,57 | 6,81 | 18,95 | 23,41 | 30,18 | 35,28 | 24,24 |
| Üzüm | 12,81 | 10,54 | 17,86 | 21,07 | 28,60 | 34,63 | 28,89 |
| Çəki artımı | | | | | | | |
| iribuynuzlu malqara | 155,27 | 112,84 | 215,87 | 213,81 | 237,14 | 228,74 | 276,25 |
| qoyun və keçi | 91,96 | 98,21 | 190,08 | 186,37 | 207,22 | 223,29 | 232,86 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| donuz | 219,12 | 110,16 | 266,54 | 600,00 | 901,14 | 1157,50 | 1430,49 |
| quş | 150,69 | 127,13 | 158,57 | 192,40 | 158,71 | 170,99 | 146,52 |
| Heyvandarlıq məhsulları | | | | | | | |
| Süd | 21,12 | 18,03 | 25,11 | 28,04 | 33,77 | 33,80 | 36,45 |
| Yun | 54,71 | 49,62 | 86,44 | 94,76 | 111,44 | 116,99 | 112,17 |
| Yumurta (min ədədlə) | 51,14 | 41,93 | 51,71 | 51,66 | 63,96 | 71,12 | 69,71 |
| 2.İri buynuzlu mal-qaranın çəki artımının bir sentnerinin maya dəyəri, manat, qəpik | | | | | | | |
| Azərbaycan Respublikası üzrə | 155,27 | 112,84 | 215,87 | 213,81 | 237,14 | 228,74 | 276,25 |
| Bakı şəhəri | - | 127,86 | 228,57 | 170,13 | 235,62 | 353,03 | 376,74 |
| Abşeron iqtisadi rayonu | 178,68 | 124,74 | 228,86 | 264,66 | 193,45 | 202,14 | 346,12 |
| Gəncə-Qazax iqtisadi rayonu | 115,22 | 111,74 | 183,71 | 197,23 | 178,17 | 204,21 | 279,81 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 133,88 | 104,75 | 177,70 | 176,66 | 184,13 | 241,64 | 422,61 |
| Lənkəran iqtisadi rayonu | 131,62 | 110,56 | 175,62 | 162,42 | 243,37 | 279,75 | 299,40 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 155,67 | 160,91 | 243,19 | 269,76 | 216,61 | 199,56 | 254,87 |
| Aran iqtisadi rayonu | 98,86 | 116,16 | 230,84 | 193,00 | 274,77 | 246,51 | 218,31 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 127,51 | 126,63 | 230,14 | 255,29 | 249,35 | 204,01 | 264,61 |
| Kəlbəcər-Laçın iqtisadi rayonui | 44,76 | 150,43 | 212,00 | 262,50 | 365,38 | 321,43 | 300,0 |
| Dağlıq-Şirvan iqtisadi rayonu | 112,01 | 100,85 | 215,61 | 254,83 | 287,38 | 279,89 | 324,53 |
| Naxçıvan iqtisadi rayonu | 133,80 | 109,50 | 141,74 | 129,58 | 173,70 | 176,14 | 163,06 |
| 3.Satılmış bitkiçilik məhsullarının rentabellik və ya zərərlilik səviyyəsi, %-lə | | | | | | | |
| Azərbaycan Respublikası üzrə | -7,0 | 41,5 | 17,8 | 30 | 24,1 | 35,5 | 35,1 |
| Bakı şəhəri | - | 23,8 | -4,5 | -3,5 | 3,2 | 20,9 | 36,8 |
| Abşeron iqtisadi rayonu | -23,7 | 20,2 | -24,7 | 9 | 8,6 | 11,2 | 5,9 |
| Gəncə-Qazax iqtisadi rayonu | -27,0 | 38,3 | 26,4 | 24,5 | 17,5 | 12,9 | 36,3 |
| Şəki-Zaqatala iqtisadi rayonu | -14,4 | 40,9 | 42,7 | 18,2 | 17,4 | 51,6 | 24,8 |
| Lənkəran iqtisadi rayonu | -6,8 | 30,1 | 19,6 | 21,5 | 4,1 | 35,4 | 54,7 |
| Quba-Xaçmaz iqtisadi rayonu | -0,8 | -3,7 | 3,6 | 31,3 | 38,2 | 22,0 | 8,9 |
| Aran iqtisadi rayonu | -5,3 | 35,5 | 24,7 | 41 | 32,6 | 46,0 | 40,9 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | -9,5 | 19,9 | 27,0 | 59,4 | 28,8 | 37,1 | 43,0 |
| Kəlbəcər-Laçın iqtisadi rayonui | -11,8 | 19,2 | 22,9 | 29,7 | 8,2 | 77,4 | 62,0 |
| Dağlıq-Şirvan iqtisadi rayonu | 2,1 | 95,0 | -18,3 | -20,8 | 0,1 | 18,0 | 24,8 |
| Naxçıvan iqtisadi rayonu | 5,8 | 54,8 | 34,9 | -20,7 | 10,4 | 26,1 | 36,3 |
| 4.Bütövlükdə satılmış məhsulun rentabellik və ya zərərlilik səviyyəsi, %-lə | | | | | | | |
| Azərbaycan Respublikası üzrə | -14,6 | 9,0 | 18,1 | 13,4 | 19,7 | 17,7 | 16,5 |
| Bakı şəhəri | - | -2,9 | -0,5 | -6,0 | 7,9 | 3,4 | 21,7 |
| Abşeron iqtisadi rayonu | -27,2 | 11,4 | 14,2 | 11 | 7,8 | 8,5 | 19,4 |
| Gəncə-Qazax iqtisadi rayonu | -27,4 | 26,4 | 11,2 | 24,6 | 27,8 | 30,7 | 36,3 |
| Şəki-Zaqatala iqtisadi rayonu | -12,0 | 38,5 | 34,8 | 15,6 | 19,8 | 39,6 | 16,9 |
| Lənkəran iqtisadi rayonu | -7,1 | 20,6 | 9,3 | 9,3 | 30,6 | 66,7 | 18,5 |
| Quba-Xaçmaz iqtisadi rayonu | -25,4 | 4,3 | 35,2 | 16,3 | 36,1 | 27,1 | 12,4 |
| Aran iqtisadi rayonu | -7,8 | 8,8 | 10,0 | 9,9 | 9,9 | 8,2 | 12,2 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | -12,0 | 16,4 | 23,3 | 55,0 | 28,6 | 36,2 | 28,4 |
| Kəlbəcər-Laçın iqtisadi rayonui | -20,7 | 20,4 | 28,5 | 27,6 | 15,3 | 59,1 | 43,7 |
| Dağlıq-Şirvan iqtisadi rayonu | -12,1 | 34,4 | -11,3 | 3,4 | 2,0 | 10,5 | 22,1 |
| Naxçıvan iqtisadi rayonu | -30,1 | 45,1 | 3,3 | 6,4 | -1,3 | 12,6 | 4,5 |

*Mənbə: cədvəl rəsmi statistika materialları əsasında müəllif tərəfindən hazırlanmışdır*

Cədvəl mühüm maliyyə göstəricilərinin dinamikada ifadə edilmiş təzahürüdür. Ona hətta ilk baxış bu sahədə hasilatın maliyyə dalğalanmalarından sığartalanmadığını göstərir. Cədvəldə həm regionların fərdi göstəriciləri ilə ümumrespublika üzrə orta göstəricisinin bir sıra hallarda kəskin

fərqləndiyi nəzərdən qaçmır, həm də re-gional bazarlarda tarazlaşdırma siyasətinin həyata keçirilməsinin istiqamətlərinə vurğular edilir. Ümumi iş həcmləri haqqında 2014-cü il üçün bir sıra mühüm nəticələrə aydınlıq gətirmək mümkündür. Belə ki, bitkiçilik sahəsində qarğıdalı da daxil olmaqla 2383,3 min ton taxıl, 819,3 min ton kartof, 1187,7 min ton tərəvəz, 41,0 min ton pambıq, 849.7 min ton meyvə və giləmeyvə, 440,9 min ton bostan məhsulları, 147,7 min ton üzüm, 175,1 min ton şəkər çuğunduru, 20,3 min ton dən üçün günəbaxan, 2,9 min ton tütün, 474,2 ton yaşıl çay yarpağı toplanmış, diri çəkidə 505,5 min ton ət, 1855,8 min ton süd, 1562,7 milyon ədəd yumurta və 16,8 min ton yun istehsal olunmuşdur. Dəyər ifadəsində kənd təsərrüfatı məhsulu 2,6%, o cümlədən bitkiçilik məhsulları istehsalı 8,3% azalmış, heyvandarlıq məhsulları istehsalı 3,0% artmışdır. Perspektiv tarazlığa nail olunması məqsədilə 1017,0 min hektar sahədə şum qaldırılmış, 875,7 min hektar sahədə dən üçün taxıl, o cümlədən 537,2 min hektar sahədə buğda, 338,4 min hektar sahədə arpa səpilmişdir.

2014-cü ilin istehsalçı qiymətlərinin vəziyyətinə ölkə üzrə diqqət yetirmək üçün aşağıdakı cədvələ müraciət etmək məqsədəuyğun olardı.

***Cədvəl 2.Satılmış məhsullar üzrə istehsalçı qiymətlərininn vəziyyəti***

| | Müqayisə obyekti | 2014-cü ilin zaman ifadələri üzrə istehsalçı qiymətlərinin vəziyyəti (azalma -; artma +), %-lə | | | |
|---|---|---|---|---|---|
| | | oktyabr | noyabr | dekabr | yanvar-dekabr |
| | Birillik bitkilər üzrə ümumilikdə | +0,6 | +0,3 | +1,1 | -2,4 |
| | o cümlədən | | | | |
| | buğda | +0,9 | -1,0 | -0,8 | +0,4 |
| | qarğıdalı | +0,1 | +0,3 | +0,3 | +0,1 |
| | arpa | +2,7 | +0,9 | +0,8 | +1,1 |
| | xiyar | +2,2 | +2,0 | +2,5 | +0,6 |
| | pomidor | +0,5 | +1,0 | +1,0 | +0,8 |
| | bibər | +4,8 | +0,5 | +1,0 | +0,8 |
| | göyərtilər | +3,1 | +0,8 | +0,6 | +0,4 |
| | baş soğan | +0,9 | +0,2 | +0,4 | +0,1 |
| | kartof | +0,1 | +0,1 | +0,6 | -0,1 |
| 0 | quru ot | +3,0 | +1,7 | +3,0 | +2,0 |
| 1 | lobya | -5,2 | +5,2 | +0,3 | +1,5 |
| 2 | kələm | -1,3 | -1,2 | -1,2 | -0,3 |
| 3 | baş sarımsaq | -12,7 | +0,6 | +0,9 | -0,6 |
| 4 | yonca | -3,0 | +4,0 | +3,8 | -0,1 |
| | | | | | |
| | Çoxillik bitkilər üzrə ümumilikdə | -3,2 | +0,7 | +1,2 | +0,4 |
| | o cümlədən: | | | | |
| | limon | -8,0 | -9,2 | -6,2 | +0,5 |
| | alma | -3,2 | -16,8 | +18,5 | + 6,4 |
| | qoz | -4,3 | +1,4 | + 10,1 | +3,5 |
| | armud | +11,5 | +11,0 | +5,0 | +2,6 |
| | üzüm | +0,3 | +1,7 | +2,2 | -0, 7 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | fındıq | +11,6 | +16,2 | + 15,0 | +1,2 |
| | nar | +16,4 | +28,5 | + 23,3 | +2,8 |
| | | | | | |
| | Diri heyvanlar və heyvandarlıq məhsulları üzrə ümumilikdə | +0,1 | +0,6 | +0,5 | +0,1 |
| | o cümlədən: | | | | |
| | diri qoyun və keçilər | -3,9 | +3,6 | +0,1 | +0,1 |
| | yumurta | -4,8 | -3,7 | +0,4 | +0,1 |
| | mal əti (diri çəkidə) | +1,1 | +0,2 | +0,2 | +0,1 |
| | qoyun əti (diri çəkidə) | +0,1 | +0,9 | +0,1 | +0,1 |
| | quş əti (diri çəkidə) | +1,7 | -1,0 | - | - |
| | süd | +0,7 | +0,4 | - | - |
| | bal | +2,3 | +0,3 | +2,0 | +2,0 |
| | balıq və balıqçılıq məhsulları | +0,7 | +0,1 | +0,1 | +0,2 |

*Mənbə: cədvəl rəsmi statistika materialları əsasında müəllif tərəfindən hazırlanmışdır*

Eyni təhlillərin Naxçıvan MR üzrə aparılması da mühüm əhəmiyyət kəsb edir. 2014-cü ildə muxtar respublikanın istehlak bazarları vasitəsilə 1331581 min manat məbləğində (keçən ilə nisbətən 1,4% çox) istehlak malları satılmışdır ki, onun da 57,4%-i ərzaq məhsullarının payına düşür. Əmtəə dövriyyəsində 12,2% hüquqi şəxs kimi fəaliyyət göstərən subyektlərin, 37,9 % bazar və yarmarkaların, 49,9 % fəaliyyət göstərən fiziki şəxslər tərəfindən həyata keçirilmişdir. Ərzaq məhsullarının qiymətlərində (hətta aylar üzrə) mövsümi dalğalanmaların mövcudluğu aqrar sahə üçün qanunauyğun prosesdir və tarazlaşdırma obyekti kimi nəzərdən keçirilməlidir. Ümumilikdə, 2014-cü ildə muxtar respublikada 355157 min manatlıq aqroməhsul hasil olunmuşdur, bu da 2013-ci ilin müvafiq göstəricini 6,1% üstələmişdir. Həmin ildə Naxçıvanda 19882,3 ton ət (diri çəkidə), 78929,4 ton süd istehsal edilmiş, 2013-cü illə müqayisədə ət istehsalı 2,0%, süd istehsalı 0,4% artmışdır. Onu da qeyd etmək yerinə düşər ki, Naxçıvan MR-də istehsal olunan aqroməhsulun 10,4% aqrosubyektlərin payına düşür. Bu fəaliyyətin genişləndirilməsi məqsədilə isə onlara digər imtiyazlarla yanaşı 17966 min manat güzəştli kreditin verilməsi təmin edilmişdir.

Dəyər ifadəsində sadalanan göstəricilər regional aqrar bazarın tarazlığına təsir edə biləcək digər cədvəli gözlər önünə sərir. Onun əsas xüsusiyyəti – müvafiq statistika orqanının təqdim etdiyi informasiya ilə kifayətlənməmək və zəruri təhlil hesablamalarını aparmaqdan ibarətdir.

***Cədəvl 3. Ölkənin iqtisadi rayonları üzrə 2013-cü ildə aqroməhsul istehsalının vəziyyəti***

| | **Kənd təsərrüfatı məhsulu** | | **o cümlədən** | | | |
|---|---|---|---|---|---|---|
| | | | bitkiçilik | | heyvandarlıq | |
| | Dəyər ifadəsində min manat | Əsas kütləyə nisbətən,% | Dəyər ifadəsində, min manat | Əsas kütləyə nisbətən,% | Dəyər ifadəsində, min manat | Əsas kütləyə nisbətən, % |
| Azərbaycan Respublikası | 5244600 | 100 | 2629600 | 50,1 | 2615000 | 49,9 |
| O cümlədən | | | | | | |
| Bakı şəhəri | 23449,2 | 0,5 | 15393,2 | 65,6 | 8056,0 | 34,4 |
| Abşeron iqtisadi rayonu | 85618,1 | 1,6 | 8162,6 | 9,5 | 77455,5 | 90,5 |
| Gəncə-Qazax iqtisadi rayonu | 911480,9 | 17,4 | 569797,7 | 62,5 | 341683,2 | 37,5 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Şəki-Zaqatala iqtisadi rayonu | 475492,1 | 9,1 | 257963,0 | 54,3 | 217529,1 | 45,7 |
| Lənkəran iqtisadi rayonu | 550836,5 | 10,5 | 290565,7 | 52,7 | 260270,8 | 47,3 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 550314,3 | 10,5 | 295995,5 | 53,8 | 255308,8 | 46,2 |
| Aran iqtisadi rayonu | 1582452,4 | 30,2 | 728864,4 | 46,1 | 853588,0 | 53,9 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 209461,1 | 4,0 | 126803,8 | 60,5 | 82657,3 | 39,5 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 44858,8 | 0,9 | 2254,1 | 5,0 | 42604,7 | 95,0 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 229079,3 | 5,0 | 110859,7 | 48,4 | 118219,6 | 51,6 |
| Naxçıvan iqtisadi rayonu | 335987,2 | 6,4 | 222964,2 | 66,3 | 113023,0 | 33,7 |
| O cümlədən | | | | | | |
| Naxçıvan şəhəri | 8713,7 | 2,6 | 5657,5 (MR üzrə həcmdə 2,5%) | 64,9 | 3056,2 (MR üzrə həcmdə 2,7%) | 35,1 |
| ölkə göstəricisinə nisbətən,% | 0,17 | - | 0,22 | - | 0,11 | - |
| Sədərək rayonu | 12141,2 | 3,6 | 9874,2 (4,4%) | 81,3 | 22267 (2,0%) | 18,7 |
| ölkə göstəricisinə nisbətən,% | 0,23 | - | 0,4 | - | 0,1 | - |
| Şərur rayonu | 107896,0 | 32,1 | 76346,5 (34,4%) | 70,8 | 31549,5 (27,9%) | 28,8 |
| ölkə göstəricisinə nisbətən,% | 2,1 | - | 2,9 | - | 1,2 | - |
| Babək rayonu | 68429,9 | 20,4 | 48739,5 (21,9%) | 71,2 | 19690 (17,1%) | 28,8 |
| ölkə göstəricisinə nisbətən,% | 1,3 | - | 1,9 | - | 0,75 | - |
| Şahbuz rayonu | 36945,4 | 11,0 | 18349,9 (8,4%) | 49,7 | 18595,5 (17,4%) | 50,3 |
| ölkə göstəricisinə nisbətən,% | 0,7 | - | 0,7 | - | 0,7 | - |
| Culfa rayonu | 45908,0 | 13,7 | 29757 (8,2%) | 64,8 | 16151 (14,3%) | 35,2 |
| ölkə göstəricisinə nisbətən,% | 0,9 | - | 1,1 | - | 0,62 | - |
| Ordubad rayonu | 25928,3 | 7,7 | 14518,5 (6,5%) | 56,0 | 10409,8 (10,1%) | 44,0 |
| ölkə göstəricisinə nisbətən,% | 0,5 | - | 0,6 | - | 0,44 | - |
| Kəngərli rayonu | 30024,7 | 8,9 | 19721,1 (8,9%) | 65,7 | 10303,6 (9,1%) | 34,3 |
| ölkə göstəricisinə nisbətən,% | 0,6 | - | 0,75 | - | 0,39 | - |

*Mənbə: cədvəl rəsmi statistika materialları əsasında müəllif tərəfindən hazırlanmışdır*

Cədvəl əsasında aydın olur ki, 2013-cü ilin nəticələrinə görə muxtar respublikanın ümumilikdə kənd təsərrüfatı, o cümlədən bitkiçilik və heyvandarlıq istiqamətlərinin ölkə üzrə göstəricisindəki payları müvafiq olaraq 6,4%, 8,4% və 4,3%-ə bərabərdir. Müvafiq cədvəl yuxarıda ifadə edilən 2013-cü ilin göstəricilərinə də müəyyən mənada aydınlıq gətirmiş olur. Ondakı kəmiyyət ifadələri Azərbaycan Respublikasının ümumi rəqəmləri daxilində iqtisadi rayonların, Naxçıvan iqtisadi rayonu daxilində isə onun inzibati rayonlarının vəziyyətini xarakterizə etməyə imkan verir.

Lakin bəhs etdiyimiz göstəricilər, nəzərdən keçirdiyimiz cədvəllər əsasında tərəzinin bir tərəfinə-istehsal və satış imkanlarına diqqət yetirməyə imkan verir. Onun 2-ci tərəfini isə əhalinin maddi vəziyyəti, gəlirləri formasında təzahür edən imkanları təşkil edir. Bu yöndə toplanan informasiya göstərir ki, 2014-cü ildə əhalinin gəlirləri keçən illə müqayisədə 4,8% artaraq 39,4 milyard manata, onun əhalinin hər nəfərinə düşən məbləği isə 3,5% çoxalaraq 4180,5 manata çatmışdır. Gəlirlərin 64,8%-i son istehlaka sərf olunmuşdur ki, onun 55,8%-i da ərzaq məhsullarının payına düşür. Ölkənin iqtisadi və sosial sahələrində muzdla işləyənlərin orta aylıq əmək haqqı cari ilin yanvar-oktyabr aylarında artaraq (2013-cü ilin analoji dövrü ilə müqayisədə 5,4%) 442,1 manata çatmışdır. Onun orta səviyyəsi sənayedə 709,5 manat, tikintidə 626,7 manat, nəqliyyatda 538,0 manat, informasiya və rabitədə 733,5 manat təşkil etmişdir.

Regional aqrar bazarlarda "istehsal-istehlak" tarazlığın təmin edilməsi təkcə cari ilin nəticələri ilə yekunlaşmır. Aparılan müşahidələri istehsal-satış fəaliyyətinin tsiklikliyini qorumaq məqsədilə gələn istehsal dövrləri üçün işgüzar məkanın yaradılma-sını da nəzərdə tuta bilər ki, bu da kənd təsərrüfatının sahə spesifikasından irəli gəlir.

Bəhs etdiyimiz fikirlə sferanın müxtəlif istiqamətlərində rastlaşmaq mümkündür. Onu əyani olaraq 2015-ci ilin məhsulu üçün payızlıq bitkilər səpininin həyata keçirilməsini ifadə edən real rəqəmlərlə izah edək. Tələbat, real istehsal və satış imkanları nəzərə alınmaqla 1017 min hektar sahədə şum qaldırılmış, 875,7 min hektar sahədə dən üçün taxıl, o cümlədən 537,2 min hektar sahədə (61,3%) payızlıq buğda, 338,4 min hektar sahədə (38,7%) payızlıq arpa səpilmişdir. Bəhs olunan göstəricilər sonrakı hazır məhsulun marketinq məsələlərini də aktuallaşdırır.

Məqalədə istehsal və satış sisteminin regional bazarların tarazlı inkişafına təsiri məsələləri araşdırıldı, onun müxtəlif amillər əsasında yaranan situasiyalarına aydınlıq gətirildi. Eyni zamanda qeyd edildi ki, adətən məhsulları daşıma məsafələrinin az olması, daha mürəkkəb nəqletmə və saxlama texnologiyasına və texniki vasitələrinə elə də böyük ehtiyacın olmaması, regionlararası yük mübadiləsində göstərdikləri aktivlik bir daha regional bazarların fəaliyyətinin təşkili və tənzimlənməsini aktuallaşdırır, onların marketinq prinsipləri əsasında daha mütərəqqi fəaliyyətini zəruri edir.

## ƏDƏBİYYAT


1. Bağırov M.S. Aqrar sahədə resurs potensialı, onun istehsal və satış sisteminin formalaşmasında rolu. (monoqrafiya), Naxçıvan, 2014, 131s
2. Bağırov M.S. Aqrar sahənin inkişafi və marketinq prinsiplərindən istifadə,(monoqrafiya), Naxçıvan, 2014, 101s
3. Bağırov M.S. Kənd təsərrüfatında istehsal və satış münasibətlərinin formalaşması: müasir vəziyyət və xüsusiyyətlər", (monoqrafiya), Naxçıvan, 2014, 107s
4. www.stat.gov.az


## ABSTRACT


**Mehti Bagirov**


**The influence productional and selling systems to eguilibric development of the regional agrarian market**


In this paper common explained agrarian market of the agrarian area, investigated the problems influence the formatting and gradually improving productional and selling systems to eguilibric development of the regional agrarian market


## РЕЗЮМЕ


**Мехти Багиров**

**Влияние производственных и сбыточных систем на уравновешенное развитие аграрного рынка**

В статье дается общее информация о региональном аграрном рынке, исследуются вопросы влияния на местные обменные резиденциипроизводственных и сбыточных систем, сформировавшихся и постепенно усовершенствующихся в сельском хозяйстве.

NDU-nun Elmi Şurasının 03 noyabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 03)
Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* T.Abbasov

# MÜNDƏRİCAT

# TARİX ELMLƏRİ

1. **Зящмят Шащвердийев, İsmayıl Zeynalov.** Гайыдышдан гуртулуша доьру йол:Азярбайжан dювлят гуружулуьунда Щейдяр Ялийевин sabитлик вя сцлщ стратеэийасы-………………..……..…3
2. **Sevinc Abbasova.** Azərbaycan Respublikasında qadın qeyri-hökumət təşkilatlarının yaranması və fəaliyyəti tarixindən (1991-1997-ci illər)………………………………………………………9
3. **İbrahim Kazımbəyli.** Naxçıvan və İrəvan bölgələrində azərbaycanlı əhaliyə qarşı törədilən soyqırım cinayətləri tarixi sənədlərdə…………………………………………………..…15
4. **Abdulla Mustafayev, Rəsul Bağırov.** Heydər Əliyev və İranın Naxçıvana yardımı…………..23
5. **Xəzər Hüseynov, Əşrəf Ələkbərov.** Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının vəziyyəti (1950-1960-cı illərdə)……………………………………………………………28
6. **Şamxal Məmmədov.** Nəsirəddin Tusinin dövlətin xarici siyasəti, müharibə və sülh məsələləri barədə düşüncələri………………………………………………………………………34
7. **Kamran Behbudov.** Историко-правовой анализ причин возникновения армяно–азер байджанского нагорно-карабахского конфликта...............................................................37
8. **Kamran İsmayılov.** Azərbaycanın Quba qəzasında ictimai-siyasi proseslər (1917-ci ilin fevralı – 1918-ci ilin martı)……………………………………………………45
9. **Qadir Əkbərov.** Heydər Əliyev və milli mənəvi dəyərlərimiz..................................................54
10. **Yaşar Rəhimov.** XIX əsrdə Naxçıvanda torpaq mülkiyyəti formaları (rus mənbələri əsasında)...........................................................................................................59
11. **Sevda Abdullayeva.** Əmir Teymurun və Toxtamış xanın Azərbaycana yürüşləri və bu yürüşlərin nəticələri ("İranın Kembric Tarixi" əsasında).....................................................61

# SİYASİ ELMLƏR VƏ HÜQUQ

12. **Əmir Əliyev, Pərvinə İsmayılova.** Beynəlxalq və milli hüquqda mədəni hüquqların təsnifatı.............................................................................................................68
13. **Qərib Allahverdiyev.** Azadlıq və sosial normaların məzmun və funksiyalarının daxilən bir-birinə yaxınlığı...................................................................................................................74
14. **Шцкцр Мяммядов.** Ибн Щялдунун дювлятчилик тялими......................................................80
15. **Vüqar Rəhimzadə.** Sosial media və ictimaiyyətlə əlaqələr: real vəziyyət və perspektiv inkişaf.............................................................................................................................86
16. **Yusif Hüseynov**. "Molla Nəsrəddin" və Azərbaycançılıq.......................................................93
17. **Bağır Babayev.** XX əsr (1900-1920) Azərbaycan demokratik fikrində xalqımızın milli kimlik problemi.................................................................................................................98
18. **Gülarə Rəhimova, Aygün Əfəndiyeva.** Riskin müdafiə funksiyasının mahiyyəti, modelləri və təzahür formaları.........................................................................................107
19. **Kamran Vəlizadə.** Sosial, siyasi hadisə kimi multikulturalizm və xarici siyasət...............116
20. **Vahidə Bayramova.** Beynəlxalq arbitrajın anlayışı və hüquqi təbiəti..................................122
21. **Eldəniz Həsənli.** Məşğulluq probleminin həlli və dövlət tənzimlənməsi məsələləri...............127
22. **Könül Salmanova**. Sağlam ailə – sağlam cəmiyyət……………………………………132
23. **Vidadi Salmanov.** İnsanın vətənpərvərlik hissi ən ali əxlaqi-mənəvi hissdir………………137
24. **Şəfəq Əliyeva.** Naxçıvan Muxtar Respublikasında əhalinin məskunlaşma dinamikası……..143

# İQTİSAD ELMLƏRİ

25. **Asif Şirəliyev.** Qənaət üsulu mühüm məsələdir……………………………………….……146
26. **Ağarza Rüstəmov.** Azərbaycanda sahibkarlığın inkişafı - dövlətin strateji hədəflərindəndir……………………………………………………………………..150
27. **Novruzəli Rəhimov.** Qloballaşma şəraitində Azərbaycan multikulturalizmi………………155
28. **Nuriyyə İbrahimova.**Milli iqtisadi inkişaf strategiyası:Reallıqlar və nəticələr……………..161
29. **Eyvaz Eyvazov.** Sahibkarlıq fəaliyyətinin iqtisadi məzmunu, təsnifləşdirilməsi və onun dövlət tənzimlənməsi mexanizminin tətbiqi xüsusiyyətləri……………………………..165
30. **Hakan Güngörmez.** Naxçıvanda duz ticarəti…………………………………………….170
31. **Asəf Qəribov.** Beynəlxalq iqtisadi münasibətlərin liberallaşdırılması və iqtisadi artım...…...175
32. **İsmayıl Bağırov.** Vergi sisteminin investisiyalara və sosial iqtisadi inkişafa təsiri…………..180
33. **Vüqar Abbasov.** Müasir şəraitdə özəl sektorun inkişafının mövcud vəziyyəti....................186
34. **Mehriban İmanova.** Sənaye müəssisələrinin innovasiya fəaliyyətinin təşkil edilməsində vençur maliyyələşməsinin rolu………………………………………….....192
35. **Elnur Bağırov.** Bank heyəti hazırlığı sahəsində xarici təcrübənin aktuallığı………………..196
36. **Hüseyn Bağırsoylu.** Sərbəst ticarət zonaları – iqtisadi inkişaf amili kimi…………………..203
37. **Natavan Orucova.** İqtisadiyyatın inkişafında vergilərin və innovasiya siyasətinin rolu…..208
38. **Rima Mammadova.** A case study(Misuse of organizational resources) on Ethical Dilemma…………………………………………………………………......212
39. **Həsən Abbasov.** Ölkə iqtisadiyyatında sahəvi tənzimləmə anlayışı: mahiyyəti, formaları və vasitələri…………………………………………………………218
40. **Mehdi Bağırov.** İstehsal və satış sisteminin regional aqrar bazarların tarazlı inkişafına təsiri...........................................................................................................223